Dini Radikalizmin Qarşısının Alınmasında

# მოციქულის (ს.ა.ს) ისლამის პროპაგანდის მეთოდები

# İSLAMI TƏBLİĞ METODLARI

t.f.d Abbas QURBANOV
აბბას კურბანოვი

Tbilisi 2018

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველოს
სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin
elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო მადლობას უხდის საქართველოს
ახალგაზრდობის დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის
ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi
Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

**Müəllif:** t.f.d Abbas QURBANOV
**Elmi redaktor:** Anar QURBANOV
**Bədii redaktor:** Ramazan MUHAMMƏD
**Nəşrə hazırlayan:** Hacı BƏKİROĞLU
**Dizayn:** Elsevər ƏHMƏDOV

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

## ÖN SÖZ

Dövrümüz İslam haqqında danışır.

Bütün dünyanın gündəmində İslam var.

Möminlər də İslamdan danışır, müxalifləri də...

Həmçinin bəşəriyyətin mövcudiyyəti dərk etmək böhranından necə çıxacağına və insanın öz girdabından necə qurtulacağına baş sındıranlar da İslamdan danışırlar.

Çünki nəfsani arzuların bütləşdirildiyi çox çətin bir dövrdə yaşayırıq.

Möminlər bu çətin dövrdə nəfsin və şeytanın hiylələrinə aldanmamaq üçün İslamın hansı hökmünün necə dərk ediləcəyi və həyata necə tətbiq ediləcəyi səbəbi ilə İslamın əsas mənbələrinə müraciət edirlər. Müsəlmanların İslamla bağlı bəlkə bu günə qədər təsəvvür edilməyəcək qədər böyük bir məlumatsızlığa sahib olduğunu demək mümkündür. Bu məlumatsızlıq öyrənmək arzusu şəklində özünü büruzə verir.

Bəşəriyyət dərin bir axtarış yolunda irəliləyir. Mövcudiyyətin mənasını itirməsi özü ilə birlikdə bir sovrulma gətirmişdir və insan bu burulğandan xilas olmaq istəyir. Bunun yolu vəhyə sarılmaqdır. Vəhyin son nüzulu isə İslamladır. İnsanın həm axtarış içində olması, həm də bu müdhiş telekommunikasiya dövründə İslam dinindən bixəbər olması böyük bir talesizlik olardı. Yol İslama düşür və üstəlik çox dərin və böyük bir maraqla... ehtiyacla...

İslamın müxalifləri... Onlar da bu dövrdə islamofobiya xəstəliyi yaymağa çalışırlar. Bir mənada yol kəsmək missiyasını öz öhdələrinə götürüblər. Bəşər övladının yolu üstündə dayanıb Haqqa getməsinin qarşısını alırlar. Bu məqsədlə də İslam haqqında ağıla gəlməyəcək dərəcədə qaralama kampaniyaları həyata keçirirlər. Bir rəhmət dinini zorakılıqla əlaqələndirməyə çalışırlar. Müsəlmanların zəifliklərini İslamın adına çıxıb İslama ödətməyə çalışırlar. Bun-

dan başqa qlobal səviyyədə İslam haqqında kifayət qədər məlumatı olmayan cəmiyyətlərin zehnini bulandırmaqla fitnə törədirlər.

Bu kimi hallar qarşısında nə etməli?

İslamı tam, dolğun və doğru bir şəkildə izah edən kitablar nəşr etmək lazımdır.

Qurandan, Həzrət Rəsulullahın müqəddəs kəlamlarından və həyatından yola çıxaraq, İslam mədəniyyətinin on dörd əsrlik zəngin mirasına müraciət edərək müsəlmanların maariflənmə ehtiyacını, axtarış içində olan insanların suallarını və onları maraqlandıran məsələlərdə qaneedici cavab verə bilməyi  və İslam müxaliflərinin yanlış məlumatlandırma ilə insanları qəflətə salmalarının qarşısnı alaraq qəlbləri və zehnləri aydınlatmağı qarşısına məqsəd qoyan yeni nəşrlər edilməlidir.

Heç şübhəsiz, insan həm maddi, həm də mənəvi quruluşu etibarilə mükəmməl şəkildə yaradılmış, ona Haqqa dost ola bilməsini təmin edəcək bir çox üstün vəsflər verilmişdir. Könül gözü ilə baxdığımızda digər məxluqatdan fərqli olaraq yalnız insana lütf edilən nemət və qabiliyyətlərin möhtəşəmliyinə heyran olmamaq mümkün deyildir.

Allah-Təala insanı öz qüdrət və əzəmətinə dəlil olaraq ən gözəl şəkildə xəlq etmişdir. Ona ağıl, qəlb, idrak və vicdan lütf etməklə yanaşı, əbədi səadətə necə istiqamətlənəcəyi xüsusunda bir də peyğəmbərlər və kitablarla yardım etmişdir. Bununla yanaşı dünyaya gəliş və oradan qəbir aləminə gedişin səbəbini, kimin mülkündə yaşadığını, bu dünyanın -kimin daha gözəl davranacağını sınamaq üçün- ilahi imtahanlarla dolu bir məktəb olduğunu və son nəfəslə başlayan ya səadət, ya da peşmanlıqla davam edən sonsuzluq yolçuluğunu bəyan etmişdir. Məhz bu şəkildə Allah-Təalanın bəndəsinin səadəti üçün bəyan etdiyi əmr və qadağaların məcmusuna “din” adı verilir.

Allah-Təala bəndələrinə qarşı sonsuz mərhəmət sahibidir. Bu səbəbdən onların bir an belə başıboş  və nəfsani arzularının əsiri olaraq qalmasını istəməz. Bu səbəbdən də insan ruhunun ən təbii və fitri səadət (hüzur) mənbəyi olan din ilk insan Həz-

rət Adəm (ə.s) ilə başlamışdır. O, ilk insan və ilk peyğəmbərdir. Beləliklə bəşəriyyət yer üzündəki ilk günündən qiyamətə qədər dünya və axirət səadəti üçün zəruri olan məlumatları, Allahın elçiləri olan peyğəmbərlər vasitəsi ilə canlı nümunələrdən birbaşa tətbiq ediləni görüb öyrənməklə ən gözəl formada əldə etmişdirlər.

Keçib gedən əsrlər ərzində bu məlumatlar unudulduğu, zay edildiyi və ya təhrifə uğradığı vaxtlarda Allah-Təala yeni bir peyğəmbər göndərib dinin əsas mahiyətini təkrar bəyan etmiş, bəndələrinə ən doğru səadət yollarını lütf etmişdir.

Bəşəriyyət fitrətindən gələn inanmaq meylinə görə tarix boyunca heç vaxt dinsiz olmamışdır. Vəhydən və peyğəmbərlərin irşadından uzaqlaşdıqca həqiqəti itirmiş və bu dəfə də batil inanclara meyl etmişdir. Belə ki, elmi araşdırmalar, hər qəbilə və cəmiyyətdə doğru və ya yanlış bir Allah inancının və haqq din izlərinin olduğunu isbat etmişdir.

Tarix şahiddir ki, insana yalnız bu dünya həyatında xoşbəxtlik vəd edən bəşəri sistemlər həmişə gəlib-keçmiş, peyğəmbərlər isə bəşəriyyətə hər iki dünyada səadət əlacı təqdim edərək fani həyatlardan sonra da qəlblərdə yaşamağa davam etmişdir.

Allah-Təala İslamı və Həzrət Muhamməde (s.ə.s) bütün bəndələrinə “Rəhmətən lil-aləmin: Aləmlərə rəhmət” olaraq göndərdiyini bəyan edir. Buna baxmayaraq insanların bir qismi müxtəlif səbəblərlə İslamı tanıya bilməmiş və ya ona qarşı təəssübkeşlik və mənfi münasibət göstərməklə tərbiyə edilmişdir. Bu səbəbdən möminlərin hər fürsətdə islamı insanlara təbliği və öyrətməsi zəruridir. İslamı öyrəndikdən sonra onu qəbul edib-etməmək, hər kəsin öz iradəsi daxilindədir. Allah-Təala bəndələrinin bu xüsusda sərbəst olduğunu və hər hansı bir məcburi təzyiqə məruz qalmayacaqlarını bəyan etmişdir. Çünki bu dünya bütün ehtişamı ilə ilahi imtahan məkanıdır.

Allah-Təala istəsəydi bütün bəndələrinə hidayət nəsib edərdi. Lakin Uca Rəbbimiz bəndələrinə dəyər vermiş, onların ağıllarını və sərbəst iradələrini istifadə edərək doğru yolu seçmələrini istəmişdir.

Lakin isanlara verilən bu azadlıq onların etdikləri əməldən məsul olmayacaqları mənasına gəlməz. Çünki Allah-Təala göndərdiyi son dinin ən doğru yol olduğunu göstərən bütün dəlilləri isbat etmiş və insanlara bunu idrak edə biləcək ağıl vermişdir. Yəni bəndələrinin doğru yolla gedə bilməsi üçün onlara ağıl, təfəkkür gücü, peyğəmbərlər və kitablarla kömək etmiş, hər çür asanlıq imkanı yaratmışdır. Bütün bunlar arasında bəlkə də ən möhtəşəm möcüzə olaraq Qurani-Kərimi bəşəriyyətə lütf etmişdir. Bu lütf Allah-Təalanın bəndələrinə olan mərhəmət və məhəbbətinin qiyamətə qədər davam edəcək ən canlı təzahürüdür. Buna baxmayaraq insanlar Allahın göndərdiyi dinə tabe olmayıb öz arzu və istəklərinin dalınca gedərlərsə, bunun müqabilində necə bir cəza ilə qarşılaşacaqlarını da Qurani-Kərim aşkar şəkildə bəyan etmişdir.

Son illərdə dünyada İslam dini və müsəlmanlar üzərində oynanan planlı oyunlar hər kəsə məlumdur. Bu mənada islamofobiya, terror və radikal düşüncələr müəyyən qüvvələr tərəfindən İslamı zədələmək üçün məharətlə istifadə olunur.

Bu sahədə ən böyük iş İslamı öyrədən və bizlərə Peyğəmbərimizdən miras qalan təbliğ vəzifəsini icra edən ilahiyatçılara düşür. İyirmi beş ilə yaxındır ki, bu sahədə olan birisi kimi, təbliğlə əlaqəli problemlər və təbliğin metodları məsələsi illərdir diqqətimdə olmuşdur.

Kitab giriş və iki bölümdən ibarətdir. Giriş bölümündə təbliğin əhəmiyyəti, məqsədi, əhatə dairəsi və mərhələləri ələ alınmışdır. Birinci bölümdə təbliğ metodundan, istifadə edilən mərhələli vasitələrdən, təbliğin psixoloji və ictimai xüsusiyyətlərindən, ikinci bölümdə isə Peyğəmbərimizin təbliğ zamanı istifadə etdiyi metod və üslubdan geniş şəkildə bəhs olunmuşdur. Kitabı hazırlamaqda məqsədimiz İslamı təbliğ edən mütəxəssislərin hansı metodla işləyəcəklərini onlara göstərməkdir.

Kitabın hazırlanmasında çox dəyərli müəllimim Prof. Dr. Ahmed Önkal bəyə, öz maddi və mənəvi dəstəyini əsirgəməyən Gəncliyə Yardım Fondunun himayəçilər şurasının sədri Ahmet Tecim bəyə, həmkarım Anar Qurbanov və assistentim

Ramazan Muhammədə təşəkkür edir, xüsusən də kitabın ərsəyə gəlməsində hər əziyyətimi çəkən ailəmə minnətdarlığımı bildirirəm. Bu xidmətlərinin onlar üçün sədəqeyi-cariyə olmasını Allah-Təaladan arzu edirəm.

Qüsursuz olan tək Allahdır. Şübhə yoxdur ki, kitabımız xətalardan yan keçməmişdir. Belə hallarda bunları bizə bildirmək gələcək üçün oxucularımızdan gözlədiyimiz təmənnamızdır.

***t.f.d Abbas QURBANOV***

# Giriş

# I. TƏBLİĞİN ƏHƏMİYYƏTİ və MƏQSƏDİ

Uca Allaha dəvət peyğəmbərlərin əsas vəzifəsidir. Buna görə də dəvət ən şərəfli vəzifələrdəndir. Peyğəmbərlər insanların ən üstünləri və Allahın əziz bəndələridir. Allahın peyğəmbələr göndərməsi, onların vasitəsilə kitablar nazil etməsi və insanlara yol göstərməsi Onun rəhmətinin təzahürüdür. Uca Allah Qurani-Kərimdə belə buyurur:

**"**(Ya Peyğəmbər! Bu Quran**) sənə nazil etdiyimiz mübarək** (xeyir-bərəkətli) **bir Kitabdır ki,** (insanlar) **onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də** (ondan) **ibrət alsınlar!".** (Sad, 38/29)

**"Bu** (Quran) **insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm də Allahın tək bir tanrı olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar!".** (İbrahim, 14/52)

**"Sən** (onlara Quranla) **öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir".** (Zariyat, 51/55)

Bu ayələrə görə təbliğin məqsədi insanlara öyüd-nəsihət vermək, insanları düşündürərək ibrət almalarına çalışmaq, Allahdan başqa ilah olmadığı həqiqətini onlara öyrətmək, inanmayanların axirətdə **"Biz bundan xəbərsiz idik!"** (Əraf, 7/172) şəklindəki etirazlarına və **"Öz əlləri ilə etdikləri əməlləri** (qazandıqları günahları) **üzündən onlara bir müsibət üz verincə: "Ey Rəbbimiz! Barı, bizə bir peyğəmbər göndərəydin ki, biz də Sənin ayələrinə uyub möminlərdən olaydıq!"** (Qasas, 28/47) deməmələri, "**Mənim hüzurumda mübahisə etməyin. Mən sizə** (dünyada peyğəmbər vasitəsilə) **bu əzabı bildirmişdim"** (Qaf, 50/28) sözü üçündür.

Təbliğin əsas məqsədi insanlara sadəcə Allah və Rəsulunu tanıtmaq, onları sevdirmək və bütün işlərdə Allahın rizasının və xoşnudluğunun axtarılmasıdır. Buna ixlas və səmimiyyət də

deyə bilərik. Allah rizası üçün edilməyən təbliğ, ruhsuz bədən kimidir. Əgər təbliğdə səmimiyyətimiz yoxdursa müvəfəqqiyyətdən söhbət gedə bilməz.

Təbliğin başqa məqsədi isə, insanların qiyamət günündəki etirazlarının və irəli sürəcəkləri bəhanələrin önünü kəsməkdir. Həqiqətən Uca Allah insanlara peyğəmbər göndərmədən əzab etməkdən münəzzəhdir. Bu xüsus Qurani-Kərimdə belə bildirilir: **"Biz, peyğəmbər göndərməmiş** (heç bir ümmətə) **əzab vermərik!".** (İsra, 17/15)

Dini hökmlərin təbliğ edilməsi müqəddəs vəzifədir. Hz. Peyğəmbər bir hədisində belə buyurmuşdur: *"Alimlər peyğəmbərlərin varisləridir"*. (Buxari, Elm, 1) Təbliğçilər ilahi hökmlərin insanlara təbliğində peyğəmbərlərin varisi, vəkili, naibi və xəlifəsidir. Peyğəmbərlər kimi insanlar arasında vasitəçidirlər. Onlar sadəcə peyğəmbərlərin yox, eyni zamanda Allahın xəlifəsi və vəkilidir.[1] Vəzifəsi, Allahı bəndələrə, bəndələri Allaha sevdirmək, mənəvi və əxlaqi nizam-intizam yaratmaq, insanları tərbiyə etmək və aralarında qardaşlıq və dostluq bağlarını gücləndirməkdir.[2]

İnsanların öyüd-nəsihətsiz buraxılması, doğru yoldan çıxmalarına gətirib çıxara bilər. Çünki insan hər an yolunu aza biləcək qabiliyyətdədir.[3]

### A. Quranda təbliğ və bu mənada işlədilən kəlmələr

#### 1. Təbliğ

Təbliğ, "bildirmək", "nəql etmək", "bir məlumatı çatdırmaq", "bir şeyin bildirilməsini ehtiva edən kitab" mənalarına gəlir.[4]

Təbliğ, peyğəmbərlərə məxsus vacib sifətlərdən biridir. Peyğəmbərlərin vəhy yolu ilə Allahdan gələn ilahi hökmlərinin heç birini gizləmədən, əskiltmədən və hər hansı bir əlavə et-

1. Bəqərə, 2/30
2. Süleyman Uludağ, *İslamda İrşad*, s, 39.
3. Əbdürrəhman Çətin, *Xitabət və İrşad*, s, 86.
4. İbn Mənzur, *Lisənul-Ərəb*, IX, 419.

mədən olduğu kimi insanlara çatdırmasına deyilir. Peyğəmbər Allahın vəhy etdiklərini gizləmək, susmaq, insanlara çatdırmamaqdan uzaqdır. Hər hansı bir peyğəmbərin Allahdan aldığı vəhyi insanlara təbliğ etməməyindən söhbət gedə bilməz. Qurani-Kərimdə **"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni** (Quranı) **təbliğ et. Əgər** (bunu) **etməsən,** (Allahın) **risalətini** (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) **yerinə yetirmiş olmazsan"** (Maidə, 5/67) buyurularaq bu həqiqətə diqqət çəkilir.

Peyğəmbərlərin vəzifəsi təbliğdir, onlar mübəlliğlərdir.[5] Təbliğ fəaliyyəti ilə məşğul olanlara da təbliğçi deyilir.

Təbliğdə əsas məqsəd xəbərdar etməkdir. Təbliğdə məcburiyyət yoxdur. Qurani-Kərimdə bu xüsusda belə buyurulur:

**"Allaha itaət edin, Onun Peyğəmbərinə itaət edin; hər kəs** (itaətdən) **üz döndərsə,** (bilsin ki) **Peyğəmbərimizin öhdəsinə düşən yalnız açıq-aşkar təbliğdir!** (O heç kəsi zorla iman gətirməyə məcbur edən deyildir)**".** (Təğabun, 64/12)

**"O Peyğəmbərlər ki, Allahın hökmlərini** (onlara verdiyi risaləti) **təbliğ edər,** (risaləti tərk etməkdə) **Ondan çəkinər və Allahdan başqa heç kəsdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir".** (Əhzab, 33/39)

"(Ya Peyğəmbər! Mənim bəndələrimə) **öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən!".** (Ğaşiyə, 88/21-22)[6]

Bu xüsus sadəcə Hz. Peyğəmbərə *(s.ə.s)* yox, bütün peyğəmbərlərin təbliğ fəaliyyətinə aiddir. Qurani-Kərimdə bu barədə belə buyurulur: **"Bizim vəzifəmiz yalnız** (Allahın hökmlərini, peyğəmbərliyi) **açıq-aşkar təbliğ etməkdir!".** (Yasin, 36/17)

---

5. **De: "Allaha itaət edin, Peyğəmbərə itaət edin.** (Çünki Peyğəmbərə itaət etmək elə Allaha itaət etməkdir)**. Əgər** (Peyğəmbərin əmrindən) **üz döndərsəniz,** (bilin ki) **onun vəzifəsi ancaq ona tapşırılanı, sizin də vəzifəniz ancaq sizə tapşırılanı yerinə yetirməkdir. Əgər ona itaət etsəniz, doğru yolu tapmış olarsınız. Peyğəmbərin öhdəsinə düşən isə yalnız** (dini, Allahın hökmlərini, risalətini) **açıq-aşkar təbliğ etməkdir.** Nur, 24/54.
6. Həmçinin bax: Bəqərə, 2/256; Ali-İmran, 3/20; Nisa, 4/80; Maidə, 5/67, 92, 99; Ənam, 6/107; Yunus, 10/99; Hud, 11/12; Rad, 13/40; Nəhl, 16/35, 82; Kəhf, 18/29; Şura, 42/48, Qaf, 50/54; Cinn, 72/23.

## 2. Dəvət

Dəvət "çağırdı", "dəvət etdi", "səslədi", "dua" və ya "bəd-dua etdi", "söz verdi", "birini yeməyə və ya ziyafətə çağırdı" kimi mənalarındadır. Bundan əlavə verilən "söz", "əhdü-peyman", "and", "ziyafət" mənaları da vardır. Bu kəlmə Qurani-Kərimdə «yardım" və «məğfirət diləmək", «ibadət etmək", «yalvarmaq", «dua etmək", «bir işə təşviq etmək", «kömək istəmək" kimi mənalarında işlədilmişdir.[7]

Dövrümüzdə isə dəvət deyəndə daha çox reklam, təbliğat və missionerlik fəaliyyəti nəzərdə tutulur.[8]

Dəvət İslam dinini insanlara izah edərək öyrətməyə və həyata tətbiqini təmin etməyə çalışmaqdır. Dəvət İslama aid bütün məsələlər üçün keçərlidir. Dəvət həm dünyəvi, həm də üxrəvi məsələləri (mövzuları) ehtiva edir. Hər kəs – müsəlman, münafiq, əhli-kitab, müşrik İslama dəvət edilə bilər. Dəvət ancaq müsəlman olmayanları İslama dəvət etmək deyil. Sadəcə kəlmeyi-şəhadət gətirib müsəlman oldum deməklə dəvət sona çatmır. Dəvət Qurani-Kərimdə bu şəkildə tərif edilməmişdir. Hz. Peyğəmbərin *(s.ə.s)* sözləri və tətbiqatı da bunun əksini göstərir. Dəvətlə məşğul olan və bu sahədə əsərlər qələmə alan möhtərəm insanların həyatı da dediyimizi təsdiq edir.

Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğə ilk dəfə "يَا أَيُّهَا الْمُدَّثِّرُ قُمْ فَأَنْذِرْ"[9] əmri ilə başladığını və "وَأَنْذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ"[10] xitabı ilə də dəvətini açıqladığı məlumdur. Dəvət və təbliğlə vəzifəli olan Hz. Peyğəmbərin *(s.ə.s)* Qurani-Kərimdəki vəsfi, "المبشر" (əl-mübəşşir) "müjdələyici" və "انذير" (ən-nəzir) "xəbərdar" edəndir. "(Ya Rəsulum!) **Həqiqətən, Biz səni** (bəşər övladına) **bir şahid, bir müjdəçi və** (Allahın əzabı ilə) **qorxudan bir peyğəmbər olaraq göndərdik".** (Fəth, 48/8)

7. İbn Mənzur, *Lisənul-Ərəb*, XVIII, 281-288; Əbul-Bəqa, *Külliyyat*, s, 330; Rağib İsfəhani, *Müfrədat*, s, 169-170.
8. Cubran Məsud, *Raid*, s, 669-672.
9. **"Ey** (libasına) **bürünüb sarınan** (Peyğəmbər)**! Qalx** (qövmünü Allahın əzabı ilə) **qorxut!".** Muddəssir, 74/1-2.
10. **"Və ən yaxın qohumlarını qorxut!".** Şuəra, 26/214.

"(Ya Rəsulum!) **Biz səni yalnız** (möminlərə Cənnətlə) **müjdə verən və** (kafirləri cəhənnəm əzabı ilə) **qorxudan bir peyğəmbər olaraq göndərdik"**. (Furqan, 25/56)

**"Ya Peyğəmbər! Həqiqətən, Biz səni** (ümmətinə) **bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik!** (Biz səni) **Allahın izni ilə Ona tərəf çağıran və nurlu bir çıraq olaraq göndərdik!"**. (Əhzab, 33/45-46)

Bildiyimiz kimi Quranın xitabı ümumbəşəridir. Bu səbəblə də dinindən asılı olmayaraq bütün insanlığa xitab edir.[11] İman edənlərə "يَا أَيُّهَا الَّذِينَ آمَنُوا آمِنُوا بِاللَّهِ وَرَسُولِهِ وَالْكِتَابِ"[12] deyə xitab edərək onları Allaha, Onun peyğəmbərinə və nazil etdiyi bütün kitablara imana dəvət edən ayə isə çox mənalıdır. Ayə ilə iman etmiş şəxslər yenidən imana dəvət edilməkdədir və bununla da imanda sabitqədəm olmağın əhəmiyyətinə diqqət yetirilmişdir.[13] Əraf surəsinin 156-cı ayəsi Hz. Peyğəmbərin vəsflərini ifadə edir. O:

1. Peyğəmbərdir,
2. Ümmidir, [14]
3. Mərufu əmr edir, [15]
4. Pis davranışlardan çəkindirir.

Peyğəmbərin əsas vəzifəsi sayılan insanları hidayətə çağırmaq, dəvətçilik və müəllimlik kimi xüsusları burada görə bilmirik. Bunların əvəzinə əmri bil-məruf, nəhyi ənil-münkər qeyd edilmişdir. Müfəssir Fəxrəddin ər-Razinin də dediyi kimi

---

11. Saqa, *K. K-nin Dəvət Metodu*, s, 69.
12. **"Ey iman gətirənlər! Allaha və Peyğəmbərinə, Onun Öz Peyğəmbərinə endirdiyi Kitaba** (Qurana) **və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allaha, onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki,** (doğru yoldan) **çox azmışdır".** Nisa, 4/136.
13. Alusi, *Təfsir*, V, 169-170.
14. Ümmi yazı yazmağı bilməyən və ya yazmağı öyrənməyib yaşadığı cəmiyyət kimi qalan şəxsə deyilir.
15. Yaxşı işlərə təşviq etmək.

“وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ”[16] ayəsi ilə müsəlmanlara üç əsas vəzifə verilmişdir:

1. Xeyir işlərə dəvət etmək,

2. Yaxşılığı əmr etmək,

3. Pis əməllərdən çəkindirmək.

Qeyd edilənlər arasındakı əlaqə (bağlayıcılıq) gətirə bilər. Halbuki “xeyirə dəvət etmək” ümumi prinsipdir və bu xüsusları ehtiva edir:

1. Yaxşı işlərə təşviq etmək. (Əmri bil-məruf)

2. Pis işlərdən çəkinməyə təşviq etmək. (Nəhyi ənil-munkər). Buna görə də ayədə ümumi olaraq zikr edilmiş və ehtiva etdiyi iki xüsus bəyan edilmişdir.

Qurani-Kərimdə “əmri bil-məruf və nəhyi ənil-munkər”i tərk etmək küfrlə eyni tutulmuş və lənətə səbəb olduğu bildirilmişdir: **“İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu. Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi. Onlar etdikləri pis əməldən əl çəkmirdilər** (və ya onlar bir-birini etdikləri pis əməldən çəkindirmirdilər). **Onların gördükləri iş necə də pis idi!”.** (Maidə, 5/78-79) Hz. Peyğəmbər *(s.ə.s)* bu ayəni təfsir edərkən belə buyurmuşdur: “İsrail oğulları arasında zülm yayılmışdı. Günah işləyən birini gördükləri zaman əvvəllər mane olardılar. Lakin sonradan onunla əlbir olmaq üçün pis işlərdən çəkindirməzdilər. Buna görə də Uca Allah onların arasında düşmənçilik yaratdı və onlar haqqında “لُعِنَ الَّذِينَ كَفَرُوا” ayələrini nazil etdi”. Hədisin ravisi Əbu Übeydə belə demişdir: “Hz. Peyğəmbər *(s.ə.s)* bu hadisəni danışarkən bir yerə söykənmişdi. Sonra söykəndiyi yerdən doğruldu və *“Həmçinin sizlər də ya zalimə mane olaraq onu haqqa dəvət edər, ya da onların başına gələn sizin də başınıza gələr”* deyərək xəbardarlıq etdi.[17]

16. **“**(Ey müsəlmanlar!) **İçərinizdə** (insanları) **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar** (bu camaat), **həqiqətən nicat tapmış şəxslərdir”.** Ali-İmran, 3/104.

17. Əbu Davud, Məlahim, 17; Tirmizi, Təfsiru Suratil-Maidə, 7; İbn Macə, Fitən, 20.

Hər müsəlmana fərz olan dəvət vəzifəsini lazimi şəkildə yerinə yetirmək üçün bu mövzunun öyrənilməsi zəruridir.

### 3. İrşad

İrşad, yol göstərmək mənasına gəlir. Qurani-Kərimdə bu haqda belə buyurulur: **"Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər".** (Bəqərə, 2/186) **"Biz daha öncə İbrahimə də doğru yolu nəsib etmişdik".** (Ənbiya, 21/51)

Təbliğçi təbliğ fəaliyyəti zamanı yumşaq davranmağı, vüqarlılığı, səbri, gözəl əxlaqı adət halına gətirməlidir. Təbliğ etdikləri qəbul edilməsə belə buna əhəmiyyət verməməli, mənim vəzifəm bildirmək, irşad etməkdir, hidayət isə Uca Allahdandır deməlidir.[18] İrşad fəaliyyəti ilə məşğul olan şəxsin səmimi olması, insanları Allahın yoluna hikmət və gözəl öyüdlə çağırması aparılan irşadın təsirli olması üçün zəruridir. Ən əsası isə gözəl nümunə olmaqdır.

### 4. Hidayət

Hidayət, haqq və doğru yol, Allahın yolu, yol göstərmək, doğru yola yönəltmək kimi mənalara gəlir.[19] Peyğəmbərlər və ilahi kitablar hidayət vasitələridir. İslama dəvət edənlər də hidayətə səbəb olduqları üçün hidayətçilərdir.[20] Bundan əlavə hidayət yumşaqlıqla yol göstərməkdir.[21] Uca Allahın razı olduğu yolda olmaq da hidayətdir.[22] Qurani-Kərimdə hidayət kəlməsindən çox bəhs edilmişdir.

Uca Allah Qurani-Kərimdə belə buyurur: **"Onlar doğru yol əvəzində əyri yolu satın almış kəslərdir. Onların alveri xeyir gətirmədi və haqq yolu da tapmadılar".** (Bəqərə, 2/16) **"De: "Şərikləriniz içərisində** (insanları) **haqq yola yönəldə bilən bir kimsə varmı?"** (Sənə cavab verə bilməyən müşriklərə) **de: "Al-**

18. **"Allahın doğru yola saldığı kəs doğru yoldadır. Allahın yoldan çıxartdığı** (zəlalətə saldığı) **kimsəyə isə əsla doğru yolu göstərən bir dost** (rəhbər) **tapa bilməzsən!".** Kəhf, 18/17.
19. İbn Mənzur, *Lisənul-Ərəb*, XV, 353-354.
20. Əbu Mənsur, *Mucəmul Təhziyibi əl-Luğat*, I, 386.
21. Rağib İsfəhani, *əl-Müfrədat*, II, 774.
22. İlhan Apak, *Dini Sözlük*, s, 92.

**lah** (insanları) **haqq yola yönəldir. Belə olduqda doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?".** (Yunus, 10/35)

Qeyd olunan ayələrdə hidayət kəlməsinin doğru və haqq yol, həmçinin Allahın yolu mənasında istifadə edildiyini görə bilərik.

Hidayət kəlməsinə belə məna da verilə bilər: "Uca Allahın insanın qəlbindən qəm-qüssəni çıxarıb, sükunətlə əvəzləməsi, əmr və qadağalarına tabe olmaqda asanlıq lütf etməsidir".[23]

**5. Tövsiyə**

Yol göstərmək, doğrunu və həqiqəti təlqin etmək deməkdir.[24] Əsr surəsində qarşılıqlı tövsiyənin əhəmiyyətinə bu şəkildə diqqət çəkilir. **"Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa!** (Beləlɘri Cənnətə nail olub əbədi səadətə qovuşanlardır!)". (Əsr, 103/3)

Haqqı tövsiyə edənlərin əsas məqsədi haqqı çatdıra bilməkdir. İman, əməl və sözləri ancaq Haqqa dəvət üçündür. Bu səbəblə də tövsiyə edən insanlar ikiüzlülük və başqalarına əzab-əziyyət etməzlər, onlarla əlaqələrini kəsməzlər. Başqalarına yaltaqlıq etməzlər. Ancaq haqqa dəvət edər, yaxşılığı tövsiyə edib, pisliklərdən çəkindirərlər. İnsanları xeyirə çağırar və dinin nəsihət olduğu həqiqətini bir an belə unutmazlar. İman edib mükəlləfiyyətləri yerinə yetirmək, saleh əməllər işləmək, haqqı tövsiyə vəzifəsini yerinə yetirmək heç də asan iş deyildir. Bunun üçün bir çox bəlalara, əzab-əziyyətlərə qatlanmaq gərəkdir. Bunlara sinə gərmək isə ancaq səbirlə mümkündür.

Təbliğçi təbliğ edərkən qarşılaşacağı çətinliklərə qarşı çox səbrli olmalıdır. Çünki səbir çətinliklərə sinə gərmə qüvvətidir. Bu əzm və qüvvətə sahib olanlar demək olar ki, hər zaman müvəffəq olmuşlar.

---

23. İlhan Apak, *Dini Sözlük*, s, 92.
24. İbn Mənzur, *Lisənul-Ərəb*, XV, 394-395.

### 6. Təlim

Təlim öyrətməkdir. Qurani-Kərimdə peyğəmbərlərin vəzifəsinə təlim, özlərinə də müəllim deyilmişdir.[25] Bəzilərinə görə təkrarlanan bilgi mənasındadır.[26]

Təlim kəlməsinin Qurani-Kərimdə bu ayələrdə istifadə edildiyini görə bilərik: **"**(Öz peyğəmbərinə) **Quranı öyrətdi".** (Rəhman, 55/2) **"O Rəbbin ki, qələmlə** (yazmağı) **öyrətdi".** (Ələq, 96/4) **"**(Əslində) **siz** (Quran vasitəsilə) **özünüzün və atalarınızın bilmədiklərini öyrənmiş olursunuz".** (Ənam, 6/91) **"Ey Rəbbimiz! Onların** (nəslimizin) **içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini** (hökmlərini) **onlara oxusun,** (Sən göndərən) **Kitabı** (Quranı) **və** (oradakı) **hikməti onlara öyrətsin, onları** (günahlardan) **təmizləsin! Həqiqətən, Sən yenilməz qüvvət, hikmət sahibisən".** (Bəqərə, 2/129)

Təlim kəlməsi təlim-tərbiyədə ən çox istifadə edilən kəlmədir. Təlim ömür boyu davam edən tərbiyə metodudur.

### 7. İnzar

İnzar xəbərdar etmək deməkdir. Uca Allahın kitablar və peyğəmbərlər vasitəsilə insanları şirk, küfr, nifaq və üsyan kimi ilahi əzaba səbəb olacaq davranışlardan uzaqlaşdırması, əvvəlcədən xəbərdarlıq etməsi, beləcə onları iman, ibadət və itaətə yönəltməsidir. Peyğəmbərlər dünya və axirət əzabına qarşı hər zaman xəbərdarlıq etmişlər. **"Biz peyğəmbərləri ancaq müjdə verənlər və** (əzabla) **qorxudanlar sifətilə göndərdik. İman gətirib yaxşı işlər görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!".** (Ənam, 6/48) **"Doğrudan da, Biz səni haqla** (Quranla) **müjdə verən və qorxudan bir peyğəmbər olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, onun içindən** (kafirləri Allahın əzabı ilə) **qorxudan** (xəbərdar edən) **bir peyğəmbər** (yaxud alim) **gəlib-getməsin!".** (Fatir, 35/24) **"Aləmləri** (insanları və cinləri Allahın əzabı ilə) **qorxutmaq üçün** (haqqı batildən ayıran) **Quranı Öz bəndəsinə** (Muhamməde) **nazil edən Allah nə qədər** (uca, nə qədər) **uludur!** (Ucalardan ucadır; əzəli və

25. Məsud Cobran, *əl-Mucəmul-Ərabiyyil-Əsəsi*, s, 860. Bəqərə, 2/151.
26. Əbu Mənsur, *Mucəmul Təhziybi əl-Luğat*, III, 2004-2005.

əbədidir, xeyir-bərəkəti bol və daimidir!)”. (Furqan, 25/1) **“Ondan** (Qurandan) **əvvəl Musanın** (İsrail oğullarına, möminlərə) **rəhbər və mərhəmət olan kitabı** (Tövrat) **var idi. Bu** (Quran özündən əvvəlki ilahi kitabları) **ərəb dilində təsdiq edən, zalımları** (Allahın əzabı ilə) **qorxutmaq və yaxşı əməl sahiblərinə** (Cənnətlə) **müjdə vermək üçün olan bir Kitabdır!”.** (Əhqaf, 46/12)

**8. Nəsihət**

Nəsihət aldatma, hiylə və yalanın əksidir.[27] Bu kəlmənin gözəl söz və öyüd mənaları da var.[28] Nəsihət və təbliğ məqsəd, mövzu və metodları baxımından ortaq xüsusiyyətlərə malikdir. Bu səbəblə də Qurani-Kərimdə təbliğ və nəsihət (öyüd) kəlmələri eyni ayədə birlikdə işlədilməkdədir.

“**Mən sizə Rəbbimin əmrlərini təbliğ edir və öyüd-nəsihət verirəm. Allahdan** (gələn vəhy ilə) **sizin bilmədiklərinizi bilirəm!”.** (Əraf, 7/62)

**“Mən Rəbbimin vəhy etdiyi hökmlərini sizə təbliğ edirəm. Mən sizin etibarlı nəsihətçinizəm”.** (Əraf, 7/68)

“(Saleh) **onlardan üz döndərib belə dedi: “Ey camaatım! Mən sizə Rəbbimin əmrini** (mənə lütf etdiyi peyğəmbərliyi) **təbliğ etdim və sizə öyüd-nəsihət verdim. Lakin siz öyüd-nəsihət verənləri sevmirsiniz!”.** (Əraf, 7/79)

“(Şüeyb) **onlardan üz döndərib dedi: “Ey camaatım! Mən sizə Rəbbimin əmrlərini təbliğ etdim və öyüd-nəsihət verdim”.** (Əraf, 7/93)

Nəsihət dinin və ağlın bəyəndiyi şeyləri tövsiyə etmək və öyüd verməkdir. Uca Allah Qurani-Kərimdə belə buyurmuşdur: “(Allahdan) **qorxan kimsə mütləq öyüd-nəsihət qəbul edəcəkdir!”.** (Əla, 87/10) Din nəsihətdir. Nəsihət vermək asandır. Nəsihət qəbul etmək isə çətindir. Nəsihətin məqsədi, həmsöhbətə bilmədiyi xüsusları öyrətmək deyil. Ümumiyyətlə həmsöhbət tərəfindən bilinən xüsusların daha duyğulu, həyəcanlı,

27. İbn Mənzur, *Lisənul-Ərəb,* II, 615-616.
28. Süleyman Uludağ, *İslamda İrşad,* s, 23.

səmimi və qəlbə yatımlı tərzdə təkrar edilməsidir.[29] Bu barədə Qurani-Kərimdə: **"**(Ya Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə), **gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (islama) **dəvət et, onlarla ən gözəl surətdə** (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!".** (Nəhl, 16/125) **"Sən** (onlara Quranla) **öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir".** (Zariyat, 51/55)

"Din nəsihətdir"[30] hədisi, nəsihətin dinin təməli və ana sütunu olduğunu ifadə edir. Bəs nəsihət kimlər üçündür? Hədisin davamı bu xüsusu açıqlamışdır. *"Allah, Onun Kitabı, Peyğəmbəri, müsəlmanların rəhbərləri və bütün fərdləri üçündür".* Görəsən Uca Allahın nəsihətə ehtiyacı varmı? Bu kimi suallara cavab verə bilmək üçün "nəsihət" kəlməsinin əhatə etdiyi bütün mənaları bilmək lazımdır. Nəsihət sadəcə «öyüd vermək" mənasına gəlmir. Əslində nəsihətin mənası səmimi olmaqdır və bunun nəticəsi olaraq lazım gəldikdə öyüd vermək, nəsihətin sadəcə bir hissəsidir. Kəlmənin bu mənasını bildikdən sonra hədisi-şərifi daha yaxşı başa düşə bilərik. «*Din, Allah, Onun Kitabı, Peyğəmbəri, müsəlmanların rəhbərləri və bütün fərdləri üçün səmimi olmaqdır".* Uca Allah haqqında səmimiyyəti necə anlamalıyıq? İmam Nəvəvi bu hədisi belə izah etmişdir:

**Allah üçün nəsihət -** Allah üçün nəsihət Ona iman etmək və Ona şərik qoşmamaqdır. Bütün kamal sifətlərin Uca Allahda var olduğunu qəbul, Onu bütün nöqsanlıqlardan uzaq tutmaqdır. Ona itaət etmək, günahlardan çəkinmək, Onun xatirinə sevmək və Onun üçün düşmənçilik etməkdir: Ona itaət edəni dost, üsyan edəni isə düşmən bilməkdir. Allahın dininə qarşı müharibə elan edənlərlə cihad etməkdir. Həmçinin Allahın nemətlərini etiraf etməklə yanaşı o nemətlərə qarşı şükür etmək, bütün işlərdə səmimi olmaqdır. Sadalananları yerinə

29. Məhməd Sanvər, *Quranda Təbliğ və Təlim-Tərbiyə Psixologiyası,* s, 27.
30. "Din nəsihətdir. Din nəsihətdir. Din nəsihətdir. "Orada olanlar: *"Ey Allahın elçisi, kimin üçün?"* – deyə soruşdular. O isə cavabında buyurdu: "Allah, Onun Kitabı, Peyğəmbəri, müsəlmanların rəhbərləri və bütün fərdləri üçündür". Müslim, İman, 55; Əbu Davud, Ədəb , 4944; Nəsai, Beyət, 4197; İbn Hənbəl, Müsnəd, IV, 102.

yetirmək üçün Allaha dua etmək və insanları xeyir işlərə təşviq etməkdir.

**Quran üçün nəsihət -** Onun Kitabı üçün nəsihət Qurani-Kərimin Allah kəlamı olduğuna, Onun tərəfindən nazil edildiyinə, heç bir varlığın kəlamına bənzəmədiyinə, bənzərinin meydana gətirilə bilməyəcəyinə iman etmək, ona qarşı ədəblə davranmaq və onu gözəl şəkildə oxumaq, oxunanları təfəkkür etmək, oxuyarkən də hərflərin məxrəclərinə diqqət etmək, orda yazılanları təsdiq etmək, öyüd-nəsihətlərini dinləmək, möhkəm olan ayələrlə əməl etmək, mütəşabeh[31] ayələrinə təslim olmaqdır. Bununla yanaşı insanları Qurani-Kərimin gətirdiyi haqq və həqiqətlərdən xəbərdar etməkdir. Qeyd etdiyimiz bütün xüsuslara insanları təşviq etməkdir.

**Rəsulullah üçün nəsihət** - Rəsulullah *(s.ə.s)* üçün nəsihət onun peyğəmbərliyini təsdiq etmək, gətirdiyi əsaslara iman etmək, ona dost olana dost, düşmən olana düşmən olmaqdır. Həmçinin onun şəxsiyyətinə hörmət etmək, Sünnəsini yaşa(t)maq, gətirdiklərini təbliğ etmək, onların doğru başa düşülməsini təmin etməkdir. Bununla yanaşı şəri elmləri öyrənərkən ədəbli davranmaq, elm əhli olmadan şəri əsaslardan danışmamaq, elm əhlinə qarşı hörmət bəsləmək, Hz. Peyğəmbərin *(s.ə.s)* əxlaqı ilə əxlaqlanmaq, Əhli-beyti və səhabələri sevmək, bidətçilərdən və sahabələrə tənə edənlərdən uzaq durmaq və buna bənzər xüsuslardır.

Müsəlmanların rəhbərləri üçün nəsihət haqq olan işlərdə onlara yardım və itaət etmək, haqqı və xeyirli əməlləri tövsiyə etmək, lazım gəldikdə tənbeh etmək və öyüd vermək, müsəlmanlara aid işlərdə onlara xəbərdarlıq etmək, onlara qarşı üsyan etməmək və insanları onlara itaətə təşviq etməkdir.

Bütün müsəlmanlar üçün nəsihət dünya və axirətlə əlaqəli işlərdə onları irşad etmək, onları incitməmək, bilmədikləri dini hökmləri öyrətmək, onlara köməklik göstərmək, eyiblərini ört-

---

31. "Mütəşabeh" lüğətdə iki şeyin bir-birinə bənzəməsi mənasına gələn "təşabüh" məsdərindən törəmiş ismi-faildir. Məfhum olaraq da "nəyin qəsd olunduğu bilinməyən, izaha, təvilə ehtiyacı olan ayələr" deyə tərif edilir. Anar Qurbanov, Fuad Quliyev, *İslam hüquq metodologiyası*, s, 133.

mək, onları zərərlərdən qorumaq və xeyir işlərə təşviq etməkdir. Onları gözəl üslubla yaxşı əməllərə çağırmaq və pis əməllərdən çəkindirmək, insanlara qarşı şəfqətli olmaq, böyüklərə qarşı hörmət, kiçiklərə qarşı isə mərhəmət sahibi olmaq, gözəl öyüd-nəsihətlərlə onlara yol göstərmək, onları aldatmamaq və onlara qarşı həsəd aparmamaqdır. İnsanları sadaladığımız xüsuslara təşviq etməkdir.[32]

Hz. Peyğəmbər *(s.ə.s)* bir hədisi-şərifində belə buyurmuşdur: *"Bir kimsə sizdən nəsihət istəyərsə ona nəsihət edin"*.[33] Hədisdə keçən "رجل" (raculun) kəlməsi, bütün insanları ehtiva edir. Dəvətin qeyri-müsəlmanlara edilməməsi haqqında və bunu qadağan edən hər hansı bir hökm mövcud deyil. Əksinə hidayətə gəlməmiş, haqqı görə bilməyən bir insana haqqı və həqiqəti çatdırmaq və xeyirli əməlləri tövsiyə etmək, hidayət nəsib olduğu halda bir sıra xətalara yol verən insanı haqdan xəbərdar etmək qədər mühümdür. Yəni nəsihət, müsəlman və qeyri-müsəlman fərqi güdmədən edilməlidir. Nəsihət əmir bil-məruf və nəhyi ənil-münkərlə eynidir.[34]

Necə ki, Hz. Nuhun dəvətindən bəhs olunarkən: **"Mən sizə Rəbbimin əmrlərini təbliğ edir və öyüd-nəsihət verirəm"** (Əraf, 7/62) ayəsi ilə, Hz. Huddan bəhs edən: **"Mən sizə Rəbbimin əmrlərini təbliğ edirəm. Mən sizə doğru məsləhət verənəm"** (Əraf, 7/68) ayəsindəki "nəsihət", kəlməsi "Allahın dininə dəvət etmək" deməkdir. İmam Müslimin Cərirdən (r.a) nəql etdiyi: *"Namazı tam qılmaq, zəkatı haqqı ilə vermək, hər bir müsəlmana nəsihət etmək, dürüst davranmaq üzrə Rəsulullah (s.ə.s)ə beyət etdim"* (Müslim, İman, 97) hədisində isə, nəsihət, əmri bil-məruf və nəhyi ənil-münkərin əvəzinə istifadə edilmişdir.

**"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil edilən**i (Quranı) **təbliğ et"** (Maidə, 5/67) ayəsi Hz. Peyğəmbərə *(s.ə.s)* təbliğ vəzifəsini yerinə yetirməyi əmr edir. Təbliğ ancaq qeyri-müsəlmanlara edilməlidir düşüncəsi səhvdir. Hz. Peyğəmbər *(s.ə.s)* səhabələrə və həmçinin müşriklərə də İslamı təbliğ etmiş-

32. İmam Nəvəvi, *Şərhul-Müslim*, II, 37-40.
33. Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 259.
34. Buxari, Büyü, 68; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 372, 412, III, 418-419.

dir. Bundan əlavə Rəsulullah *(s.ə.s)* Vida Xütbəsində insanlara "Təbliğ etdimmi?" deyə xitab etmişdir. O, bununla sadəcə müsəlmanları nəzərdə tutmamışdır. Təbliğ həm müsəlmanlar, həm də müsəlman olmayanlar üçün keçərlidir.

*"Kim hidayətə (doğru yola) dəvət edərsə, o kəs ona tabe olanların savabı qədər savab qazanar. Ancaq bu onların savabından heç bir şey əksiltməz. Kim zəlalətə (pis yola) dəvət edərsə, o şəxsə ona tabe olanların günahı yazılar. Bu da onların günahlarından heç bir şey əksiltməz"* (Müslim, Elm, 6; Əbu Davud, Sünnə, 7)

Dəvət bütün insanlar – həm müsəlman, həm də qeyri-müsəlmanlar üçün keçərlidir. İstənilən inanc və əqidəyə mənsub insan İslama dəvət edilə bilər.

**B. Hədisi-şəriflərdə təbliğ**

Yuxarıda qeyd etdiyimiz kimi Hz. Peyğəmbər *(s.ə.s)* İsrail oğullarını misal verir və səhabələrə onların xətalarına düşməmələri üçün xəbərdarlıq edir. *"Allaha and içirəm ki, ya yaxşılığı əmr edər, pislikdən çəkindirər, zalımın əlindən tutub zülmünə mane olar, onu haqqa qaytarar və haqq üzrə tutarsınız, ya da Allah-Təala qəlblərinizi bir-birinə bənzədər, sonra da İsrail oğullarına lənət etdiyi kimi sizə də lənət edər"*. (Tirmizi, Təfsir, 5/7; İbn Macə, Fitən, 20)

İslamın rüknlərindən əmri bil-məruf, nəhyi ənil-münkərin tərk edilməsi Allahın lənətinə səbəbdir. Bu isə əl, dil və qəlblə mübarizə aparmaqla olur.

*"Allah-Təalanın məndən əvvəl yaşayan hər bir ümmətə göndərdiyi peyğəmbərlərin öz ümməti içində sünnəsinə sarılan və əmrinə itaət edən ixlaslı və seçilmiş yaxın çevrəsi və əshabı vardı. Bu səmimi ətraf və əshabından sonra etmədiklərini söyləyən və əmr olunmadıqlarını edən kəslər onların yerini tutdu. Bu kimi adamlara qarşı əli ilə cihad edən mömindir, dili ilə cihad edən mömindir, qəlbi ilə cihad edən də mömindir. Bu qədəri də olmayan adamda xardal dənəsi ağırlığında da olsa iman yoxdur"*. (Müslim, İman, 80; Əhməd ibn Hənbəl, Müsnəd, I, 458-461) İmam Müslimin nəql etdiyi məşhur: *"Kim bir pislik görərsə, onu əli ilə dəyişdirsin. Əgər əli ilə düzəltməyə gücü çatmazsa, dili ilə dəyişdirsin. Dili ilə dəyişdirməyə də gücü çatmazsa, qəlbi*

*ilə düzəltməyə çalışsın ki, bu da imanın ən zəif dərəcəsidir"* (Müslim, İman, 78) hədisi də bu xüsusu ifadə edir.

Yaxşılığı əmr edib, pis əməllərdən çəkindirmək duaların qəbul olunmasına səbəbdir. Hz. Peyğəmbər *(s.ə.s)* bu barədə belə buyurmuşdur: *"Dualarınıza cavab verilmədiyi zaman gəlib çatmazdan əvvəl yaxşılığı əmr edin və pis əməllərdən çəkindirin".* (İbn Macə, Fitən, 20) Rəsulullah *(s.ə.s)* başqa hədisi-şərifində isə belə buyurmuşdur: *"İnsan oğlunun hər əməli əleyhinədir. Ancaq yaxşılığı əmr etmək, pis əməllərdən çəkindirmək və Allahı zikr etmək bundan müstəsnadır".*[35]

Hər müsəlman yaxşılığı əmr edib, pis əməllərdən insanları çəkindirməklə məsuldur. Müsəlmanlara bu məsuliyyəti yükləyən Uca Allah və Hz. Peyğəmbərdir. Uca Allah bu barədə belə buyurur: **"**(Ey müsəlmanlar!) **İçərinizdə** (insanları) **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun!".** (Ali-İmran, 3/104) Hz. Peyğəmbərin *(s.ə.s)* yuxarıda qeyd etdiyimiz *"İnsan oğlunun hər əməli əleyhinədir. Ancaq yaxşılığı əmr etmək, pis əməllərdən çəkindirmək və Allahı zikr etmək bundan müstəsnadır"* (İbn Macə, Fitən, 12) hədisi də sözümüzü təsdiq edir. İnsanın əleyhinə olmayan hər xeyirli əməl əmri bil-məruf, nəhyi ənil-münkər və Allahı zikr etməkdir.

**"Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin borcunuzdur. Siz doğru yolda olsanız,** (haqq yoldan) **azanlar sizə heç bir zərər yetirə bilməzlər".** (Maidə, 5/105) ayəsindəki "Siz doğru yolda olsanız" cümləsi əmri bil-məruf və nəhyi ənil-münkəri ifadə edir.

---

35. Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu: *"Dünya və içindəkilər dəyərsizdir. Yalnız Allahı zikr etmək və ona yaxınlaşdıran şeylərlə, elm öyrədən alim və öyrənmək istəyən tələbə bundan müstəsnadır".* Tirmizi, Zöhd, 14; İbn Macə, Zöhd, 3. Əbu Ümamədən rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu: *"Alimin abidə olan üstünlüyü mənim sizin ən aşağı dərəcədə olanınıza üstünlüyüm kimidir".* Sonra Rəsulullah *(s.ə.s)* belə buyurdu: *"Şübhəsiz ki, Allah, mələkləri, göy və yer əhli, hətta yuvasındakı qarışqa və balıqlar da insanlara xeyir öyrədənlərə dua edərlər".* Tirmizi, Elm, 19. Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu: *"İnsan oğlu öldüyü zaman bütün əməllərinin savabı sona çatar. Üç şey bundan müstəsnadır: sədəqeyi-cariyə, istifadə edilən elm, arxasınca dua edən saleh övlad".* Müslim, Vəsiyyət, 14; Əbu Davud, Vəsaya, 14; Nəsai, Vəsaya, 8; Tirmizi, Ehkam, 36.

## C. Təbliğə verilən təriflər

Dövrümüzdə təbliğlə məşğul olan və bu mövzuda əsərlər qələmə alan müəlliflər təbliği ancaq İslamın həyata tətbiqinə çalışmaq, Quran və Sünnəyə qayıdış şəklində ifadə edirlər. İslamın əsaslarından uzaqlaşanları, həmin əsaslara dəvət etmək əslində İslama dəvət etmək deməkdir. Bu barədə müəlliflərin fikirlərinə nəzər salaq:

"Müsəlman əvvəlcə dəvətin məsuliyyətini dərk etməli və öz nəfsini islah etməlidir. Ta ki, İslam onun xarakterinin ayrılmaz bir hissəsi olsun. Bilməliyik ki, müsəlmanın özünü islah etməyi, başqalarını İslama dəvət etmək üçün əsas şərtdir. Onlar bu mərhələni qət edib İslam dinini həyatlarında və yaşayışlarında əks etdirdikdə növbə digər insanların dəvət edilməsinə gələcək. Çünki insanlar tabe olmaq üçün nümunə ola biləcək insan axtararlar".[36]

"Ailə, cəmiyyətin əsasını təşkil edir. Ailədə söz sahibi olaraq sadəcə kişinin İslami əsaslara görə hərəkət etməsi yetərli deyil. Ailədə və cəmiyyətdə qadının müstəsna yeri var. Buna görə təbliğçi, hər şeydən əvvəl təbliğinə ailəsindən başlamalıdır".[37]

"Təbliğin müxtəlif növləri var. 1. Müsəlmanlar İslamı daha yaxşı anlaya və təbliğ edə bilmək üçün öz aralarında dəvət fəaliyyəti ilə məşğul olmalıdır. 2. İslamın həqiqət və mahiyyətini bilmələrini təmin etmək üçün İslamın yalnız adını eşitmiş insanlara təbliğ etmək. Məsələn Avropada təbliğ etmək: Çünki orada materializm, batil dinlər və inanclar, həmçinin fəlsəfə geniş yayılmışdır. 3. İslama qarşı var gücləri ilə fəaliyyət göstərən İslam düşmənlərinə təbliğ etmək".[38]

"İslam ölkələrində müsəlmanlar arasında təbliğ sahəsində boşluq var. Və müsəlmanlar həqiqi təbliğçilərdən məhrumdurlar".[39]

---

36. Buti, *Həkəzə Fəl-Nədu*, s, 19, 23, 268.
37. Əhməd Faiz, *Tariqud-Dəavə*, I, 182-183,
38. Yalçın, *Minhəcud-Dəavə*, s, 7-8. (Dr. Əbdül-Həlim Mahmudun Müqəddiməsi).
39. Zəhəbi, *Müşkilət,* s, 20.

"Günümüzdəki müsəlmanların bir çoxu qeyri-islami cəmiyyətlərdə yaşayırlar. Bu isə onların həyatına öz mənfi təsirini göstərir. Buna görə də təbliğçilər daha fəal olmalı, müsəlmanlara İslamın ədəb və əxlaq qaydalarını xatırlatmalıdırlar".[40]

"Təbliğdə üçüncü sinif insanlar müsəlman kimi görünən, əslində isə müsəlman olmayan «münafiqlər"dir. Dördüncü sinif isə imanı zəif olan müsəlmanlardır".[41]

"...Təbliğdə yumşaq davranmaqdan məqsəd, riya və münafiqlik deyildir. Öyüd-nəsihəti, insanların qəlblərinə təsir edəcək tərzdə yumşaq və təsirli üslubla təbliğ etməkdir. Xüsusilə müsəlmanlara qarşı təbliğdə daha diqqətli olmaq lazımdır".[42]

"Təbliğçi yeni İslamı qəbul edənləri müsəlman olduqdan sonra öz başına buraxmamalıdır. Çünki onlar müsəlman olsalar da köhnə inanclarından və adət-ənənələrindən tam qurtulmamış ola bilərlər. Bu isə özlüyündə onların İslamdan çıxmasına gətirib çıxara bilər. Təbliğçilər bu xüsusda çox diqqətli olmalıdırlar".[43]

"Təbliğ, insanları xeyir əməllərə çağırmaqdır".[44] Bir çox İslam aliminin ifadə etdiyi kimi yaxşılıqların ən böyüyü Allahın varlığına və birliyinə iman, pis əməllərin ən böyüyü isə Ona şirk qoşmaq və üsyan etməkdir.[45]

Nəticə olaraq deyə bilərik ki, İslama dəvət, təbliğçinin şəxsi ilə başlayan və ailəsi başda olmaqla qohumlar, qonşu və yaxınlar, müsəlmanlar və bütün insanlara şamil edilən müqəddəs vəzifədir. O, İslamın ilkin şərti və əsasıdır.

---

40. Mustafa Məşhur, *Tariqud-Dəavə*, I, 26.
41. Əbdül-Kərim Zeydan, *Üsulud-Dəavə*, s, 365.
42. Fəthi Yekən, *Müşkilət,* s, 120.
43. Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 425.
44. Muhamməd S. əl-Vəkil, *Üsusud-Dəavə,* s, 9, 26.
45. Əmri bil-məruf, nəhyi ənil-münkər və dəvətdən bir bölüm olması haqqında daha ətraflı məlumat üçün bax: Seyid Şərif, *Tarifat*, s, 30; Rağib İsfəhani, *Müfrədat,* s, 331-332; İbn Əsir, *ən-Nihayə*, III, 216-217, V, 114-115; İbn Kəsir, *Təfsir,* VI, 176; Mərağı, *Təfsir,* IV, 30; Qurtubi, *Təfsir,* IV, 47; İbn Teymiyyə, *Hisbə,* s, 66.

## II. TƏBLİĞİN ƏHATƏ DAİRƏSİ

İndi isə təbliğin necə ediləcəyi və təbliğçinin nələr edəcəyinə nəzər salaq. Təbliğin əsası Qurani-Kərim və Sünnədir. Tərkibini nəzərə alaraq bu sahəni aşağıdakı şəkildə təsnif edə bilərik.

**İman -** İnanc insanları günahlardan uzaqlaşdırıb xeyirə yönəldən ən böyük amildir. Allaha səmimi qəlbdən inam olmadan edilən heç bir ibadətin dəyəri yoxdur. Təbliğin ilk şərti də həmsöhbətin doğru şəkildə inanmasını və səhih əqidəyə sahib olmasını təmin etmək, əqidəsini bidət və xürafələrdən təmizləməkdir. Bütün peyğəmbərlərin və Hz. Peyğəmbərin *(s.ə.s)* həyatına nəzər saldıqda hər şeydən əvvəl insanları bir olan Allaha ibadətə çağırdıqlarına və əvvəlcə şirkə qarşı mübarizə apardıqlarına şahid oluruq.

**İbadət -** Sağlam imana sahib olmaqla hər şey qurtarmır. İmanın müəyyən təzahürləri olmalıdır. İnsanın Allahla əlaqəsini təmin edən yeganə vasitə ibadətlərdir. Dinin şərtlərindən sayılan ibadətlər yerinə yetirilmədiyi təqdirdə o imanın tamlığından söhbət gedə bilməz. Necə ki, Taifdən gələn bir qrup Hz. Peyğəmbərlə *(s.ə.s)* görüşərkən özlərinin namazdan azad edilməsini istədilər. Rəsulullah: *"Rüku olmayan dində xeyir yoxdur"*[46] buyurdu. Hz. Əbu Bəkrin xəlifəliyi dövründə bəzi ərazilərdə müsəlmanlar zəkat verməkdən boyun qaçırdı. Hz. Ömər və bəzi səhabələr qarşı gəlsə də Hz. Əbu Bəkir onlara qarşı müharibə elan etdi.[47]

Bu səbəblə də imanla birgə ibadətə çağırmaq təbliğçinin vəzifəsidir. Hz. Peyğəmbər *(s.ə.s)* ərəb qəbilələrinə təbliğçi olaraq göndərdiyi səhabələrə getdikləri yerlərdəki xalqı «kəlmeyi-şə-

---

46. Əbu Davud, İmarət, 26; Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 218.
47. Süyuti, *Tarixul-Xuləfa*, s, 72-75.

hadətə, hər gün beş vaxt namaz qılmağa və zəkat verməyə" çağırmalarını tapşıraraq bu ibadətləri imanla birgə zikr etmişdir.[48]

**Müamələt -** Din sadəcə axirətlə əlaqəli məsələlər ilə məşğul olan, iman və ibadət əsaslarından ibarət sistem deyil, həmçinin dünya və axirət səadətini təmin edəcək prinsiplər toplusudur. Eyni inanc ətrafında birləşmiş fərdlərin bir-biriləri ilə olan münasibətlərinin tənzimlənməsi, onlarla əlaqəli müəyyən prinsip və qaydaların qoyulması labüddür. Qoyulan bu prinsiplərin, əmr və qadağaların mütləq olaraq vaxtında yerinə yetirilməsi lazımdır. Önəminə əsasən "müamələt" deyə adlandırdığımız fərdlərin bir-biriləri ilə olan münasibətlərində də təbliğin keçərli olacağı şübhəsizdir.

**Əxlaqi prinsiplər -** İslamda əxlaqın qaynağı, dindir. Uca Allah, əxlaqi qaydalar və dəyərlər qoymuş, inananlardan bunlara riayət etmələrini istəmişdir. Bu qaydaları dindən ayrı qəbul etmək yolverilməzdir. Əxlaqi hər hansı bir prinsipə dəvət etmək özlüyündə dinə, haqqa və Allaha dəvət etməkdir. Hz. Peyğəmbər *(s.ə.s): "Mən ancaq əxlaqi fəzilətləri tamamlamaq üçün göndərildim"*[49] buyuraraq İslamın əxlaqi prinsiplərə nə dərəcədə əhəmiyyət verdiyini vurğulamışdır. İslamın qoyduğu əxlaqi prinsiplər də təbliğin sahəsinə daxildir.

Bəs, qeyd edilən bütün bu sahələrdə təbliğə lüzum varmı? Bu xüsusu incələməkdə fayda var:

### A. Təbliğin vacibliyi

Kainatın xidmətinə verildiyi, xeyiri və şəri ayırd edə biləcək ağıl və vicdana sahib olan insan oğlu, bir sıra əmr və qadağalarla, prinsiplərlə mükəlləfdir. İnsan etdiyi yaxşılığın və pisliyin əvəzini görəcəkdir. Yaxşı və pisin nə olduğunu ən çox din vasitəsilə bilmək mümkündür. Bildiyimiz kimi din, insanlığın

---

48. İbn Ömər *radiyallahu anhumədən* rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu: *"İslam dini beş əsas üzərində qurulmuşdur: Allahdan başqa ilah olmadığına və Muhamməddin Allahın Rəsulu olduğuna şahidlik etmək, namaz qılmaq, zəkat vermək, həccə getmək və ramazan orucunu tutmaq"*. Buxari, İman 1, 2; Müslim, İman 19-22; Nəsai, İman 13; Tirmizi, İman 3.
49. İmam Malik, *Muvatta*, Husnul-Xuluq, 8; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 381.

dünya və axirət səadətini təmin etmək üçün Uca Allah tərəfindən göndərilən və peyğəmbər tərəfindən təbliğ edilən prinsiplər məcmusudur. Bu yöndən dünya tarixinə nəzər salsaq ilk insan olan Hz. Adəmin, ilk peyğəmbər həm də ilk təbliğçi olduğunu görərik. İnsan oğlunu düşdüyü bataqlıqdan çıxarmaq üçün hidayət öndərlərinə ehtiyac olduğu üçün Uca Allah müxtəlif qövmlərə peyğəmbərlər göndərmişdir. Peyğəmbərlərin göndərilməsi və təbliğlə vəzifələndirilmələri, əlbəttə ki, İslama dəvətin vacibliyinin ən böyük və bariz dəlilidir.

İnsanlar yaradılışdan hər zaman irşad edilməyə, öyüd və nəsihətə möhtacdırlar.[50] Keçmişdə insanlar peyğəmbərlərə necə möhtac idisə, bugün də son peyğəmbərdən sonra onların varisləri sayılan alimlərə və təbliğçilərə möhtacdır. İnsanın yalnız özünü islah etməyə çalışması və yalnız öz nəfsi ilə məşğul olması yetərli deyildir. İnsan eyni zamanda cəmiyyətin islah edilməsi ilə də mükəlləfdir. Çünki insan, cəmiyyətin təsirində qalan varlıqdır. İnsan bu təsiri nəzərə alaraq, içində yaşadığı cəmiyyətin inancları ilə eyni paralellikdə olmağa çalışacaqdır. Digər tərəfdən müsəlmanın yaşadığı cəmiyyət, İslami cəmiyyət olmadığı müddətcə bir müsəlmanın ondan istənildiyi şəkildə həyatını İslama uyğun tənzimləməsi mümkün deyildir. Qeyri-islami bir cəmiyyətdə və ya qeyri-islami əsaslarla yaşayan cəmiyyətdə bir müsəlman istənilən şəkildə yaşaya bilməz. Bu baxımdan insan, təbliğ etməklə mükəlləfdir.[51] Bu şəkildə İslami bir cəmiyyətin və ya camaatın təşəkkül etdiyini qəbul edək. Bu camaatın xaricində qalan, amma ona rəğbət bəsləyən, İslamı araşdırmağa və öyrənməyə yönələn şəxslər, bir sıra elmi və fikri şübhələrlə qarşılaşa bilirlər. İslamı öyrənmək və yaşamaq istəyən bu insanlara İslamı təbliğ edəcək elm əhli, eyni zamanda yaşayışı ilə örnək ola biləcək və Uca Allahın rizasını uman ixlaslı təbliğçilərə ehtiyac vardır. İslama qarşı olan elmi və fikri şübhələr mövcud olmasa belə, Şərq və Qərbdə İslam düşmənləri vardır və bunlar var güclərini sərf edərək İslamı pozmaq və təhrif etmək üçün çalışırlar. Belə düşmənlərə qarşı İslamı qoruyacaq, elmi ittiham və etirazlara cavab verəcək,

50. Zariyat, 55; Əla, 9-10.
51. Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 124-128.

həmçinin İslamı yayacaq kimsələrə, habelə təbliğçi ərlərə duyulan ehtiyac çox açıqdır.[52] Allah yoluna dəvət etmək, İslam dininin əsasıdır. Çünki din, təbliğlə inkişaf etməkdə və təbliğlə yaşamaqdadır.[53]

Təbliğin gərəkliliyini və üzərimizdə vəzifə olduğunu ifadə etdikdən sonra təbliğin əmr və fəziləti ilə əlaqəli ayə və hədislərdən bəzilərini qeyd edək. Qurani-Kərimdə İslama dəvəti, müsəlmanlar üzərinə fərz qılan bir çox ayə vardır. Bunlardan bir qismi birbaşa müsəlmanlara xitab edir. Bir qismində xitab Hz. Peyğəmbərə *(s.ə.s)* aid olmaqla bərabər bütün müsəlmanları ehtiva edir. Uca Allah tərəfindən Hz. Peyğəmbərə *(s.ə.s)* xitab edilən xüsuslarda əgər istisna yoxdursa bu hökm bütün müsəlmanlara şamil edilir. Təbliğ ayəsində isə belə bir istisnadan söhbət gedə bilməz və bu əmr Hz. Peyğəmbərlə *(s.ə.s)* birgə bütün ümmətə şamildir. Bununla da Uca Allah İslama dəvətdə müsəlmanları Hz. Peyğəmbərə *(s.ə.s)* ortaq qılmaqla onları şərəfləndirmişdir.[54] Uca Allah **"Ey** (libasına) **bürünüb sarınan** (Peyğəmbər)! **Qalx** (qövmünü Allahın əzabı ilə) **qorxut!"** (Muddəssir, 1-2), **"Və ən yaxın qohumlarını qorxut!"** (Şuəra, 214), **"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni** (Quranı) **təbliğ et"**, "(Ya Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə), **gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (islama) **dəvət et"** (Nəhl, 125) kimi ayələrlə xitab Hz. Peyğəmbərin *(s.ə.s)* şəxsində bütün müsəlmanlaradır və inananlar Allaha dəvət etməklə mükəlləf qılınmışdırlar.[55]

**"**(İnsanları) **Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl söz deyən kim ola bilər?"** (Fussilət, 42/33) ayəsində təbliğin digər şeylərdən daha gözəl, daha yaxşı olduğu ifadə edilmiş və haqqa dəvət, saleh əməldən və müsəlman olduğunu elan etməkdən əvvəl qeyd edilmişdir. Ən gözəl və ən yaxşı olan əməl vacib olmalıdır. Çünki vacib olan bir şey, vacib olmayan hər şeydən daha gözəldir. Bu səbəblə də bir şeyin ən gözəl olması

52. Buti, *Həkəzə fəl-Nədu*, s, 3-6.
53. Saqa, *K. K-nin Dəvət Metodu*, s, 26.
54. M. A. ər-Rəşid, *Muntalaq*, s, 89.
55. Ənam, 6/51; Əraf, 7/199; Qasas, 28/87; Şura, 42/15.

üçün vacib olması lazımdır. Buna görə də Allaha dəvət, əməllərin ən gözəli olaraq vacibdir.[56]

Vacibliyinin, bir qrupa, yoxsa bütün ümmətə aid olması xüsusuna daha sonra toxunacağıq. "(Ey müsəlmanlar!) **İçərinizdə** (insanları) **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar** (bu camaat)**, həqiqətən nicat tapmış şəxslərdir"** (Ali-İmran, 3/104) ayəsinin dəlaləti açıqdır və xitab birbaşa müsəlmanlara aiddir. Bundan bir neçə ayə sonra "(Ey müsəlmanlar!) **Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz** (onlara) **yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız"** (Ali-İmran, 3/110) buyurulmuşdur. Bununla da insanlar üçün çıxarılmış ən xeyirli ümmət olmaq, yaxşılığı əmr edib pisliklərdən çəkindirməyə bağlanmışdır. Yaxşılığı əmr edib pisliklərdən çəkindirmək səmimi, ixlaslı müsəlmanların vəsfidir.[57]

Hz. Peyğəmbərin *(s.ə.s)* yol üzərində toplanaraq danışmağı qadağan etdiyi səhabələri, bunun onlar üçün qaçınılmaz olduğunu ifadə etdikdə o, yolun haqqının verilməsini istəmiş və yolun haqqının harama baxmamaq, əziyyət verməmək, salam almaq və yaxşılığı əmr edib pisliklərdən çəkindirmək olduğunu ifadə etmişdir.[58] İnsanların Allahı zikir etmək və yaxşılığı əmr edib pisliklərdən çəkindirməkdən başqa bütün sözlərinin əleyhlərinə olduğunu ifadə edən hədis[59] müsəlmanlara təbliği əmr etməkdədir. Bundan əlavə yaxşılığı əmr edib pisliklərdən çəkindirməyin sədəqə olduğunu bəyan edən Hz. Peyğəmbər *(s.ə.s)*,[60] ümmətini bunlara təşviq etməkdədir.

İslam toplumunda edilən bir xəta, işlənilən günah, müsəlmanlar tərəfindən əl və dil ilə düzəldilməlidir. Və ya bunlara gücü çatmayan insan qəlbində o işin pis olmasını düşünməlidir ki, bu imanın ən aşağı dərəcəsidir.[61]

---

56. Razi, *Təfsir*, XXVII, 126; Qasimi, *Təfsir*, XIV, 5205,
57. Tövbə, 9/71-112.
58. Müslim, Salam, 3.
59. İbn Macə, Fitən, 12.
60. Müslim, Salətul-Musafirin, 84.
61. Müslim, İman, 20; Tirmizi, Fitən, 10.

İslama dəvətin fərz olması və fəziləti xüsusunda rafizilər xaricindəki bütün İslam alimləri həmfikirdirlər. Haqq olan dinə dəvət etmək itaətlərin ən kamili, ibadətlərin ən əhəmiyyətlisidir. Buna görə Hz. Peyğəmbər *(s.ə.s)*, müsəlman üçün özü vasitəsilə bir insanın hidayətə qovuşmasının və doğruya yönəlməsinin, çox qiymətli dəvə sürüsündən daha xeyirli olduğunu ifadə etmişdir.[62] Məsələnin əhəmiyyətini səhabələrinə daha rahat anlaya biləcəkləri şəkildə misalla izah edən Hz. Peyğəmbər *(s.ə.s)*, axirətə inanan, savab və günahı qəbul edən bu insanlara: "*Kim hidayətə (doğru yola) dəvət edərsə, o kəs ona tabe olanların savabı qədər savab qazanar. Ancaq bu onların savabından heç bir şey əksiltməz*" – demişdir.[63]

İslama dəvətin önəmini və gərəkliliyini ortaya qoyan bir başqa xüsus isə Quran və Sünnədə bu vəzifəni tərk edənlərin aqibətlərinin və cəzalarının bildirilməsidir. Təbliğin önəmi və əhəmiyyəti qədər tərk edilməsinin də cəzası vardır. Uca Allahın ayələrini və doğruları təbliğ etməyənlər, Allahın və onun bildirdiklərinin lənətinə məruz qalarlar. **"Kitabda** (Tövratda) **insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və doğru yol göstərən ayələrimizi gizlədən kimsələr Allahın lənətinə düçar olar və bütün lənət edə bilənlər də onlara lənət oxuyar".** (Bəqərə, 2/159) Belə ki, israil oğullarından işlədikləri pislikləri görənlər və bilənlər digərlərinə mane olmadığı üçün onlar bu lənətə uğramış,[64] Hz. Peyğəmbər *(s.ə.s)* də onların vəziyyətini misal gətirərək ümmətini belə hərəkətlərdən çəkindirmişdir.[65] Möminlərin əksinə, pisliyi əmr etmək və yaxşılıqdan çəkindirmək xüsusiyyəti münafiqlərin vəsfidir: **"Münafiq kişilərlə münafiq qadınlar** (ikiüzlülükdə) **bir-birinin eynidirlər. Onlar** (insanlara) **pis işlər görməyi əmr edər, yaxşı işləri qadağan edərlər".** (Tövbə, 9/67)

62. Buxari, Cihad, 102, 143, Fədailu Əshabin-Nəbi, 9, Məğazi, 38; Müslim, *Fədailus-Səhabə*, 34-35; Əbu Davud, Elm, 10; Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 238, 333.

63. Müslim, Elm, 16; Əbu Davud, Sünnə, 6; Tirmizi, Elm, 15; İbn Macə, Müqəddimə, 14; İmam Malik, Muvatta, Quran, 41; Darimi, Müqəddimə, 44.

64. Maidə, 5/78-79.

65. Əbu Davud, Məlahim, 17; Tirmizi, Təfsiru Suratil-Maidə, 7; İbn Macə, Fitən, 20; İbn Kəsir, Təfsir, II, 618-619.

Sünnədən öyrəndiyimizə görə yaxşılığı əmr edib pisliklərdən çəkindirməmək, duaların qəbul edilməmə səbəblərindəndir. Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurmuşdur: *"Allaha and içirəm ki, siz ya yaxşılığı əmr edər, pislikdən çəkindirərsiniz, ya da Allah Öz qatından üzərinizə bir əzab göndərər və o zaman dua edərsiniz, lakin duanız qəbul edilməz"*.[66]

Günahların yayğınlaşdığı, haramların açıq-aşkar işləndiyi cəmiyyətə Uca Allahın ümumi olaraq fəlakət göndərməsi mütləqdir. Uca Allah belə buyurur: **"Sizdən təkcə zalımlara toxunmayacaq** (pis əməllərin müqabilində hamıya üz verə biləcək) **bəladan qorxun".** (Ənfal, 8/25)

Rəsulullah *(s.ə.s)* bunu təşbehlə çox gözəl ifadə edir. *"Allahın hüdudlarına riayət edənlə, səhlənkarlıq edən kimsənin halı, mindikləri gəminin göyərtəsini bölüşmək üçün püşk atan bir qrup insanın halına bənzəyir. Püşk nəticəsində bir qrup aşağıya, bir qrup da yuxarıya yerləşər. Aşağıdakılar, su ehtiyaclarını qarşılamaq üçün göyərtəyə çıxarlar və su götürdükləri vaxt oradakıları narahat edərlər. Bundan xilas olmaq üçün aşağıda olanlardan biri balta ilə gəmini dəlməyə başlayar. Göyərtədəkilər ondan soruşarlar: Nə üçün belə edirsən? O, isə belə cavab verir: Su götürərkən sizə əziyyət veririk; Suya da ehtiyac duyuruq. Əgər onlar buna mane olsalar, həm özlərini, həm də onları xilas edərlər. Əgər mane olmasalar həm özləri, həm də onların hamısı suda boğularlar"*.[67] Dəvətin lüzumluluğunu, fərz olmasını və tərk edilməsinin cəzasını açıqladıqdan sonra İslam dəvətini kimin edəcəyini, dəvətin kimə gərəkli olduğunu təsbit etmək lazımdır. Bu haqda üç görüş vardır:

**a - Təbliğ fərzi-kifayədir:** Müsəlmanları təbliğ vəzifəsi ilə mükəlləf edən **"**وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ**"** ayəsindəki" "min" artiklı fərzi-kifayəliyi ifadə edir. "(Ey müsəlmanlar!) **İçərinizdə** (insanları) **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun!"** (Ali-İmran, 3/104) deməkdir. Təbliğ fəaliyyəti ilə məşğul olmaq üçün əmri bil-məruf, nəhyi ənil-münkəri və bunların hansı şəkildə yerinə yetirilməsi gərəkdiyini bilmək zəruridir. Cahil bir insan yaxşı-

66. Tirmizi, Fitən, 9; İbn Macə, Fitən, 20.
67. Buxari, Şəhadət, 30; Tirmizi, Fitən, 12.

lığı arzu etdiyi halda pis əməlləri və ya bunun əksini tövsiyə edə bilər. Təbliğ fəaliyyətini bu işin əhli etməlidir ki, müvəffəq ola bilsin. Əgər bu vəzifəni müsəlmanlardan heç kimsə yerinə yetirməsə bütün müsəlmanlar bu işi görməklə mükəlləfdir.

**b - Təbliğ fərzi-ayndır:** Qeyd edilən ayədəki xitab müsəlmanlaradır. Buradakı artikl ümumilik ifadə edir. Belə olduğu təqdirdə ayənin mənası: "(Ey müsəlmanlar!) **İçərinizdə** (insanları) **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir ümmət olun!"** şəklində olacaqdır. Necə ki, "(Ey müsəlmanlar!) **Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz (onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edirsiniz"** (Ali-İmran, 3/110) ayəsi də bunu təsdiq edir.

Əlbəttə ki, təbliğ fəaliyyəti ilə məşğul olmaq üçün elmli olmaq şərtdir. Lakin insan hər sahəni bilə bilməz. Bir məsələ haqqında məlumat sahibi olan o sahənin alimi, bilmədiyi sahənin isə cahilidir. Buna görə də insanın bildikləri ilə təbliğ etməsi normaldır. Hər müsəlman elmi nisbətində təbliğ etməklə və insanları Allaha çağırmaqla mükəlləfdir.[68] Bu səbəblə də müsəlmanlar özlərini inkişaf etdirməli və elmə çox önəm verməlidirlər.[69]

Qeyd etdiyimiz ayədən əlavə mövzumuz ilə əlaqəli bir sıra başqa ayələr də vardır. "(Ya Rəsulum!) **De: "Bu mənim** (təbliğ, dəvət) **yolumdur. Mən və mənə tabe olan** (möminlər) **açıq-aşkar bir dəlillə** (insanları) **Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir** (bütün eyib və nöqsanlardan xalidir, Onun heç bir şəriki yoxdur)**. Mən isə müşriklərdən deyiləm!"** (Yusuf, 12/108) ayəsi müsəlmanları təbliğlə mükəlləf qılmışdır. Hz. Peyğəmbər *(s.ə.s)* isə: *"Burada olanlar, olmayanlara təbliğ etsin"*[70] deməklə bütün müsəlmanları təbliğlə mükəlləf tutmuşdur. Hər bir müsəlmanın əlinin altında olanlardan məsul olduğunu

68. F. Yekən, *Keyfə Nədu*, s, 7; Qasimi, *Təfsir*, IV, 920-921; Buti, *Fiqhus-Sira*, s, 336-337.
69. F. Yekən, *Keyfə Nədu*, s, 33-34.
70. Buxari, Elm, 9-10, 37, Həcc, 132; Əbu Davud, Tatavvu, 10; Tirmizi, Həcc, 1; Nəsai, Həcc, 111; İbn Macə, Müqəddimə, 18; Darimi, Mənəsiq, 72; Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 31-32, V, 4, 37.

ifadə edən hədisi-şərif[71] bütün müsəlmanların təbliğlə mükəlləf olduğunu bildirmirmi?!.[72]

**c - Təbliğ, şərtli olaraq fərzi-kifayədir və ya fərzi-ayndır.** Ayədəki "وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ" ayəsindəki xitab bütün müsəlmanlaradır. Buradakı "min" artiklının fərzi-kifayəlik ifadə etdiyini deyənlər olduğu kimi ümumilik ifadə etdiyini bildirənlər də vardır. Təbliğ əmrinin ümumi olduğunu ifadə edən başqa ayələr də mövcuddur. Təbliğçi nəticə əldə edə bilmək üçün müəyyən vəsflərə sahib olmalıdır. Başqa ölkələrdə təbliğlə məşğul ola bilmək üçün o ölkənin dilini və adət-ənənələrini bilmək lazımdır. Buna görə də müsəlmanlar gücləri nisbətində təbliğ fəaliyyəti ilə məşğul olmalıdırlar. Həmçinin müsəlmanlar təbliğ fəaliyyəti ilə məşğul olacaq insanları seçməli, onlara maddi və mənəvi hər cür köməklik göstərməli, dəvətlərində onlara yardım etməli, səhlənkarlıq edənləri tənbehləməli və üzərilərinə düşən bütün işləri görməlidirlər.[73]

Hər üç fikri bildirdikdən sonra bizim qənaətimizcə hansını qəbul etməmizdən asılı olmayaraq əsas olan təbliğin bizim boynumuzun borcu olmasıdır. Bir müsəlman olaraq da bizlər bundan məsuluq və hesaba çəkiləcək olmamızdır.

### B. Təbliğdə metod

Fransızca bir kəlmə olan metod (methode), yol, üsul və üslub mənasında işlədilir. Ümumiyyətlə «bir qayəyə çatmaq üçün doğruluğu və uğurlu olduğu sınanmış yol" kimi tərif edilməkdədir. Metod, məqsədin necəliyindən asılı olaraq dəyişir. Metodun təriflərindən bəziləri belədir:

"Metod, hər hansı bir məqsədə çatmaq üçün əvvəlcədən seçilmiş yoldur".

"Metod, bir məqsədə ən tez və təhlükəsiz şəkildə çatmağı təmin edən vasitələr məcmusudur".

---

71. Buxari, Cümə, 11, Ehkam, 1; Müslim, İmarət, 20; Əbu Davud, İmarət, 1, 13; Tirmizi, Cihad, 27; Əhməd ibn Hənbəl, *Müsnəd,* II, 5, 54-55.
72. M. S. əl-Vəkil, *Üsusud-Dəavə*, s, 26.
73. M. A. ər-Rəşid, *Muntalaq*, s, 94; Məraği, *Təfsir*, IV, 22-23.

“Metod, hər hansı bir işi, təşəbbüsü sona çatdırmaq üçün şüurlu şəkildə seçilmiş yolların məcmusudur”.

“Metod, məlum olmayan həqiqətləri kəşf etmək, yaxud da məlum olan bir şeyi başqasına isbatlamaq, təbliğ etmək və öyrətmək üçün riayət edilən qaydaların, istifadə edilən vasitələrin cəmidir”.[74]

Metod, hər bir elmin əsasıdır; metodsuz elm faydasız bir sərmayədir. Filosof Dekart belə deyir: “Metodsuz olaraq bir həqiqətə varmaqdansa heç varmamaq daha yaxşıdır. Metodsuz kimsə dənizdə yolunu itirən kapitandır; ayağının altındakı xəzinəni görmədən diyar-diyar gəzib xəzinə axtarana oxşayır”.[75]

Bir dərman nə qədər təsirli olsa da, xəstəyə verilmədiyi müddətcə faydası bilinməz. Həmçinin həkimin tövsiyəsinə riayət edilməsə heç bir nəticə əldə olunmaz, hətta xəstənin ölümünə belə səbəb ola bilər.

Təbliğdə metod, təbliğin bir hissəsidir. Əgər metod düzgün seçilməzsə ucalığı və gözəlliyi nəticəsiz qalar.[76] Təbliğçi, məqsədinə çata bilmək üçün doğru olan üsul və metodlarla hərəkət etmək məcburiyyətindədir. İslami əsaslara bağlı olmayan kimsələr təbliğdə müsbət nəticə əldə edə bilməzlər. Bunlar ilk başlarda istədiklərinə nail olduqlarını zənn etsələr də, sağlam təməllər üzərində qurulmayan binanın çökməsi kimi faciəli nəticə ilə üzləşərlər. Onların xoş niyyətli olmaları və ideallarının üstünlüyü nəticəyə varmaq üçün kifayət etməz.[77]

İslami təbliğ yükünü, yalnız hüsnü-rəğbətlə yaymağa çalışan şəxsin zərəri xeyrindən daha çoxdur. Yaxşılıq edirəm zənni ilə pislik edəcək, İslama yaxınlaşdırmağı arzulayarkən insanları ondan uzaqlaşdıracaqdır.[78]

Təbliğ kor-koranə deyil, gözəlliklə edilməlidir.[79]

---

74. Xəncərlioğlu, Fəlsəfə Ensiklopediyası, IV, 151, Fəlsəfə Sözlüyü, s, 325; Meydan Larousse, VIII, 682; Bazarlı, *Din Tərbiyə və Təhsilində Ümumi Metodlar*, s, 4-5.
75. Bazarlı, *Din Tərbiyə və Təhsilində Ümumi Metodlar*, s, 4-5.
76. M. Məşhur, *Tariqud-Dəavə*, I, 119.
77. Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 400-401.
78. Buti, *Həkəzə fəl-Nədu*, s, 24; Əbdül-Bədi, *Keyfə Nədu*, s, 13.
79. Razi, *Təfsir*, XVIII, 225; İbn Teymiyyə, Hisbə, s, 85; Qasimi, *Təfsir*, IX, 3611.

Uca Allah təbliğin hansı şəkildə aparılması ilə bağlı belə buyurmuşdur: **"**(Ya Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə)**, gözəl öyüd-nəsihət (moizə) ilə Rəbbinin yoluna** (islama) **dəvət et, onlarla ən gözəl surətdə** (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mübahisə et".** (Nəhl, 16/125) **"Kitab əhlinin zülm edənləri** (cizyə verməyənləri, sizinlə vuruşmaq istəyənləri) **istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin!".** (Ənkəbut, 29/46) və **"**(Ya Rəsulum!) **De: "Bu mənim** (təbliğ, dəvət) **yolumdur. Mən və mənə tabe olan** (möminlər) **açıq-aşkar bir dəlillə** (insanları) **Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir** (bütün eyib və nöqsanlardan xalidir, Onun heç bir şəriki yoxdur)**. Mən isə müşriklərdən deyiləm!".** (Yusuf, 12/108)

Rəsulullahın *(s.ə.s)* təbliğinə nəzər saldığımız zaman onun yaşayışı, davranışları və sözləri ilə ən doğru metodları tətbiq etdiyini, ətraf bölgələrə təbliğ üçün göndərdiyi səhabələrə də bəzi metodları tövsiyə elədiyinin şahidi oluruq. Bununla əlaqəli buyurmuşdur: *"Asanlaşdırın, çətinləşdirməyin; müjdələyin, nifrət etdirməyin"*.[80] *"İnsanların səviyyəsinə uyğun olaraq davranın"*.[81] Təbliğdə təqib ediləcək metod zamana və şəraitə görə, həmçinin qarşı tərəfin psixologiyasına uyğun şəkildə dəyişdirilə bilər. İslamın tolerantlıq ölçülərinə əsasən təbliğin metodlarını dəyişdirmək mümkündür.

Təbliğdə müvəffəq ola bilmək üçün peyğəmbərlərin nümunəvi şəxsiyyətlərinə, onların ortaq təbliğ metodlarına toxunmaqda fayda var.

### C. Peyğəmbərlərin nümunəvi xüsusiyyətləri

Bir insanı sevib onun şəxsiyyətinə heyran olmaq və onu təqlid etməyə çalışmaq fitri bir haldır. Bu baxımdan insan ən gözəl nümunələri tapıb onların izindən getməyə çalışmalıdır. Elə buna görədir ki, lütf və kərəmi sonsuz olan Uca Allah insanlara yalnız kitablar yox, bir də o kitabları izah və həyata tət-

80. Buxari, Elm, 11, Cihad, 164; Müslim, Cihad, 5-6, 8; Əbu Davud, Ədəb, 17; Əhməd ibn Hənbəl, Müsnəd, I, 239, 283, 365, IV, 399-412.
81. Əbu Davud, Ədəb, 20.

biq edən peyğəmbərlər, yəni nümunəvi şəxsiyyətlər göndərmişdir. Onlar elə nümunəvi şəxsiyyətlər ki, dini, elmi və əxlaqi davranışlar etibarilə hərtərəfli mükəmməldirlər. O peyğəmbərlərin hər biri, bəşəriyyətə müstəsna xidmətlər vermişdir.

Məsələn, peyğəmbərlər içində Hz. Nuhun (ə.s) həyatı imana dəvət, dözümlülük, səbir və nəticədə də küfrə və küfr edənlərə qarşı şiddətli nifrəti ilə diqqəti cəlb edir.

Hz. İbrahimin (ə.s) həyatı şirkə qarşı amansız mübarizə və bütpərəstliyi yox etmək uğrunda keçmiş, bundan əlavə Nəmrudun alovlarını gül bağçasına çevirən Haqqa təslimiyyət, təvəkkül və etimad məsələsində də müstəsna nümunə olmuşdur.

Hz. Yaqubun (ə.s) əxlaqında isə insanın gözündə dünya zülmətə çevriləndə belə ümidsizliyə düşməyib səbrlə Allaha bağlanmaq və Onun mərhəmətindən ümid kəsməməyə dair böyük bir nümunə vardır.

Hz. Yusuf (ə.s) əsarətdə belə Haqqa bağlılıq və dəvətin zirvəsini yaşamışdır. O, sərvət, şöhrət və şəhvət sahibi gözəl bir qadın "gəl bir yerdə olaq" deyib cəzb edici bir təklif edəndə belə öz iffətini nümayiş etdirmişdir. Onun yüksək təqva ilə bəzədilmiş qəlbi mükəmməl davranışlarının möhtəşəm mənbəyi idi.

Hz. Əyyubun (ə.s) həyatında bəlalara səbrin, hər halda Allaha şükrün yüksək təzahürləri mövcuddur.

Hz. Musanın (ə.s) həyatı zalım Firon və köməkçiləri ilə mübarizədə keçmiş və o daha sonra gətirdiyi qayda-qanunlarla möminlər üçün ictimai bir nizam qurmuşdur.

Hz. Davudun (ə.s) həyatı ilahi əzəmət qarşısındakı ibrətli səhifələrlə doludur. Onun da Allah qorxusu ilə göz yaşı töküb həmd-sənası və zikr etməsi, yalvarış və niyaz içində Allaha yönəlməsi çox ibrətlidir.

Hz. Süleymanın (ə.s) dillərə dastan olan o göz qamaşdıran səltənətinə rəğmən təvazö və şükür ilə mənəvi olaraq yüksəlməsi insanı heyrətə düşürür.

Hz. Yunusun (ə.s) həyatı Allaha yönəlib bağlanmağın və qüsuruna görə peşmanlıq çəkib tövbəyə sarılmağın kamil bir nümunəsidir.

Hz. İsanın (ə.s) əsas xüsusiyyəti insanlara qarşı şəfqət və mərhəmətlə yanaşmasıdır. Onda insanlara qarşı bağışlama və təvazökarlıq kimi əxlaqi məziyyətlər daha çox diqqət çəkir.

### Ç. Peyğəmbərlərin ortaq təbliğ metodları

Qurani-Kərimdə Hz. Peyğəmbərdən *(s.ə.s)* əvvəl yaşamış peyğəmbərlərin qissələrindən bəhs edilir. Haqqı təbliğ etmək Hz. Adəmlə (ə.s) başlamış və Hz. Peyğəmbər *(s.ə.s)* və davamçıları tərəfindən davam etdirilmişdir.[82] Qurani-Kərimdə peyğəmbər qissələrindən bəhs olunmasından məqsəd oxuyanların ibrət və öyüd-nəsihət almasıdır.

Necə ki, Qurani-Kərim bu xüsusa işarə etmişdir: "(Peyğəmbərlərin) **hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır".** (Yusuf, 12/111) Ayədə peyğəmbərlərin qissələrini təfəkkür etməyin lüzumuna diqqət çəkilir. **"Bu əhvalatları** (onlara) **danış ki, bəlkə fikirləşələr"**. (Əraf, 7/176)

Bu qissələr təbliğ edən şəxslər üçün də çox önəmlidir. Təbliğçilər qissələr vasitəsilə peyğəmbərlərin metodlarını məsimsəməli və onların yaşayış tərzlərini öz həyatlarında tətbiq etməyə çalışmalıdırlar.[83]

Uca Allah Hz. Peyğəmbərə *(s.ə.s)* belə xitab edir: "(Ya Rəsulum!) **Biz peyğəmbərlərin xəbərlərindən** (başlarına gələnlərdən) **ürəyini möhkəmləndirəcək** (qəlbinə qüvvət verəcək) **nə varsa,** (hamısını) **sənə nağıl edirik!".** (Hud, 11/120) Uca Allah başqa ayədə isə xitabı bütün müsəlmanlara edərək belə buyurur: **"İbrahim və onunla birlikdə olanlar** (möminlər) **sizin üçün gözəl örnəkdir"**. (Mumtəhənə, 60/4)

Qurani-Kərimdə qissələrindən bəhs edilən peyğəmbərlərin tətbiq etdikləri metodlar ayələrdə belə bildirilir: **"Onlar dedilər: "Ey Nuh! Bizimlə çənə-boğaz olub çox mübahisə et-**

82. Ədəvi, *Dəvətur-Rusul*, s, 48.
83. Sabuni, *ən-Nübuvvə*, s, 106.

**din".** (Hud, 11/32) Ayədə Hz. Nuhun (ə.s) bütün vasitələrdən istifadə etdiyi müşriklərin dili ilə bildirilir.[84] Başqa ayədə isə hər növ metod və çarələrin incəliyi bu şəkildə bildirilir: **"O dedi: "Ey Rəbbim! Mən qövmümü gecə-gündüz** (imana, haqq yola) **dəvət etdim! Lakin dəvətim onların** (imandan) **qaçmalarını daha da artırmaqdan başqa bir şeyə yaramadı. Sənin onları bağışlamağın üçün mən nə zaman onları** (imana) **dəvət etdimsə, onlar** (dəvətimi eşitməsinlər deyə) **barmaqlarını qulaqlarına tıxadılar,** (məni görməsinlər deyə) **libaslarına büründülər,** (küfrlərində) **israr edib durdular və təkəbbür göstərdilər. Sonra mən onları uca səslə** (açıq-açığına haqqa) **dəvət etdim. Daha sonra onlara** (iman gətirmək lazım olduğunu) **aşkar söylədim və gizli bildirdim. Və dedim: «**(Tövbə edib) **Rəbbinizdən bağışlanmağınızı diləyin. Çünki O,** (tövbə edən bəndəsinin günahlarını) **çox bağışlayandır!".** (Nuh, 71/5-10)

Peyğəmbərlər təbliğ zamanı bir çox metoddan istifadə etmişlər. Təbliğçilər üçün həqiqətən çox mühüm sayılan əvvəlki peyğəmbərlərin təbliğ metodlarına ümumi olaraq nəzər salaq:

**Təbliğə hazırlıq -** Təbliğ çətin, məşəqqətli və məsuliyyətli bir vəzifədir. Bu müqəddəs vəzifəni yerinə yetirmək üçün hazırlıqlı olmaq lazımdır. İnsanlar arasından peyğəmbərləri seçib onları vəzifələndirən Uca Allahdır. Allah-Təala peyğəmbərlərə peyğəmbərlikdən əlavə müəyyən xüsusiyyətlər bəxş etmişdir.[85] Məsələn Hz. Musada (ə.s) peyğəmbər olmazdan əvvəl haqsızlığa və zülmə qarşı mübarizə aparmaq xüsusiyyəti vardı. Buna görə də Misirdən çıxmadan əvvəl bir nəfəri öldürmüşdü. O dövrdə Hz. Musa (ə.s) qüvvətli imana sahib idi, lakin təcrübə sahibi deyildi. Uca Allah onu Hz. Şüeybin (ə.s) nəzarəti altında peyğəmbərliyə hazırladı. Hz. Musa (ə.s) yenidən Misirə qayıtdıqda artıq təcrübə sahibi idi.[86]

Uca Allah peyğəmbərlərə elm və hikmət vermişdir. **"Allah Davuda həm hökmranlıq, həm də hikmət** (peyğəmbərlik) **verdi və ona istədiyini** (zireh düzəltmək, quşların dilini bil-

---

84. Ədəvi, *Dəvətur-Rusul*, s, 14, 27; Məraği, *Təfsir*, XXIX, 82-83.
85. Sabuni, *ən-Nübuvvə*, s, 32, 42-50.
86. İbn Kəsir, *əl-Bidayə*, I, 241-247; Bəhi, *Təzkira*, s, 270; S. Kutub, *Təsvir*, s, 162, 289.

mək, gözəl səslə oxumaq) **öyrətdi".** (Bəqərə, 2/251) **"Və onların hər birinə hökm** (hikmət, peyğəmbərlik) **və elm (şəriəti dərindən bilmək) verdik".** (Ənbiya, 21/79) **"Biz Davuda və Süleymana elm** (insanlar arasında mübahisəli məsələləri həll edib ədalətli hökm çıxartmaq, quşların dilini bilmək və i. a.) **verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!".** (Nəml, 27/15) "(Allah) **ona** (İsaya) **yazmağı, hikməti, Tövratı və İncili öyrədəcək".**[87]

**Təbliğə tövhidlə başlamaq -** Bütün peyğəmbər ilk əvvəl insanları tövhidə, Allahın varlığı və birliyini qəbul etməyə dəvət etmişlər.[88] Hər peyğəmbərin göndərildiyi dövrdə zülm və bir sıra qeyri-əxlaqi davranışlar yayılmışdı. Peyğəmbərlər bunlardan istifadə edərək zülmə məruz qalanları öz ətrafına toplayaraq zülmkarlara qarşı müharibə apara bilərdilər. Qalib gələr və təbliğlərini beləcə davam etdirərdilər. Lakin heç bir peyğəmbər bu və bənzəri metoddan istifadə etməmişdir. Əgər bu vasitələrdən istifadə etsəydilər tövhid əsası arxa planda qalar və peyğəmbərliklərinin Allahdan olub-olmaması şübhə altına düşərdi. Bu səbəblə də bütün peyğəmbərlər heç bir şüarın "لَآ اِلٰهَ اِلَّا اللّٰهُ" (lə iləhə illəllah) həqiqətindən üstün olmayacağını göstərdilər və bu yoldan əsla uzaqlaşmadılar.[89]

**Gizli təbliğ -** Peyğəmbərlər tarixinə nəzər saldıqda onların bəzən gizli təbliğ etmək məcburiyyətində qaldıqlarının şahidi oluruq. Bəzi hallarda təbliğin gizli edilməsi açıq edilməsindən daha faydalı olur. Uca Allah Hz. Nuhun dili ilə belə buyurur: **"Daha sonra onlara** (iman gətirmək lazım olduğunu) **aşkar söylədim və gizli bildirdim".** (Nuh, 71/9) Hz. Nuhun təbliğinin ilkin mərhələsi gizli təbliğ şəklində başlamışdır.[90] Həmçinin gizli təbliği Hz. Peyğəmbərin *(s.ə.s)* peyğəmbərliyinin ilk 3 ilində də görə bilərik.

---

87. Ali-İmran 3/48; Maidə, 5/110; Yusuf, 12/22; Sad, 3/20-35; Zuxruf, 43/63.
88. Ədəvi, *Dəvətur-Rusul*, s, 153. Həmçinin bu ayələrə baxıla bilər: Əraf, 7/59, 65, 73, 85; Hud, 11/50, 61, 84; Nəhl, 36/21; Ənbiya, 25/23.
89. Sabuni, *ən-Nübuvvə*, s, 31-33; Ədəvi, *Dəvətur-Rusul*, s, 153.
90. Məraği, *Təfsir*, XXIX, 82-83; Ədəvi, *Dəvətur-Rusul*, s, 27.

**Açıq təbliğ -** Təbliğə mane olacaq maneə və təhlükələr olmadığı təqdirdə təbliğ açıq şəkildə aparılmalıdır. Uca Allah yenə də Hz. Nuhun (ə.s) dili ilə belə buyurur: **"Sonra mən onları uca səslə** (açıq-açığına haqqa) **dəvət etdim.".** (Nuh, 71/8)

**Təbliğ üçün hicrət -** Hicrət peyğəmbərlərin ortaq xüsusiyyətlərindəndir. Peyğəmbərlər olduqları yerlərdə təbliğ apara bilmədikdə Allahın əmr etdiyi başqa diyarlara hicrət edir və təbliğlərinə davam edirdilər. "(İbrahim) **dedi: "Mən** (qövmümü tərk edib) **Rəbbimin əmr etdiyi yerə** (Kufənin Kusa kəndindən Hərrana, oradan da Fələstinə) **hicrət edəcəyəm".** (Ənkəbut, 29/26) Hz. İbrahim (ə.s) Uca Allaha rahat ibadət edə bilmək üçün Misirə hicrət etmişdir. Oradan da Fələstinə getmişdir.[91] Hz. Musa (ə.s) möminləri Fironun zülmündən qurtarmış,[92] Hz. Lut (ə.s) isə həyat yoldaşı xaric özünə inananlarla birlikdə ana yurdundan ayrılmaq məcburiyyətində qalmışdır.[93] Hz. Peyğəmbər *(s.ə.s)* də eyni aqibəti yaşamış – Məkkədən Mədinəyə hicrət etmişdir.

**Usanmadan təbliğ -** İnsanların iman etməsi üçün peyğəmbərlər yorulmaq bilmədən təbliğ fəaliyyəti ilə məşğul olmuşlar. Gecə-gündüz demədən, çətinliklərə fikir vermədən təbliğlərinə davam etmişlər. Uca Allah bu həqiqəti Hz. Nuhun dili ilə belə ifadə edir: **"Ey Rəbbim! Mən qövmümü gecə-gündüz** (imana, haqq yola) **dəvət etdim! Lakin dəvətim onların** (imandan) **qaçmalarını daha da artırmaqdan başqa bir şeyə yaramadı.".** (Nuh, 71/5-6)

Bütün peyğəmbərlər şərtlərdən asılı olmayaraq təbliğə davam etmiş, harada imkan tapsalar orada təbliğlə məşğul olmuşlar. Bir peyğəmbərin vəzifəsi təbliğini nöqsansız yerinə yetirməkdir. Nəticə isə Uca Allaha məxsusdur.

**Təmənna ummamaq -** Peyğəmbərlərin ortaq təbliğ metodlarından biri də təbliğ vəzifəsi qarşılığında təmənna ummamalarıdır. Peyğəmbərlik çox müqəddəs vəzifədir. Uca Allah Hz. Peyğəmbərə *(s.ə.s)* qövmünə belə deməyini əmr etmişdir: **"De:**

91. İbn Kəsir, *əl-Bidayə,* I, 149-150; *Sabuni, ən-Nübuvvə,* s, 168-170.
92. Taha, 20/77; İbn *Kəsir, əl-Bidayə,* I, 268-280.
93. Əraf, 7/82-83; İbn Kəsir, *əl-Bidayə,* I, 149-150, III, 66-67.

**"Mən bunun** (islam dinin təbliği) **müqabilində sizdən bir əvəz istəmirəm. Bu** (Quran) **aləmlər** (bütün bəşəriyyət) **üçün yalnız bir moizədir** (öyüd-nəsihətdir)**".** (Ənam, 6/90)

Uca Allah peyğəmbərlərə qövmlərinə *"sizdən əvəz istəmirəm"* dedirtmişdir. "(Ya Peyğəmbər!) **De: "Mən sizdən bunun** (risaləti təbliğ etməyimin) **müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm".** (Şura, 42/23)

Bütün peyğəmbərlər təbliğlərinə qarşılıq qövmlərindən nə əvəz istəmiş, nə də əvəz ummuşlar. Uca Allahın əmr və qadağalarını insanlara xatırlatmaqla kifayətlənmişlər və heç bir zaman məcbur etməmişlər.

**Hikmətlə təbliğ -** Təbliğ edərkən insanlarla necə rəftar edilməlidir? Uca Allah Rəsulullaha *(s.ə.s)* bu barədə belə buyurmuşdur: **"**(Ya Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə)**, gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (islama) **dəvət et, onlarla ən gözəl surətdə** (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mübahisə et".** (Nəhl, 16/125) Hikmət Uca Allahın peyğəmbərlərə bəxş etdiyi nemətlərdəndir. Uca Allah Ənam surəsinin 89-cu ayəsində bütün peyğəmbərlərə hikmət verdiyini bildirmişdir: **"Onlar Bizim kitab, hökm və peyğəmbərlik verdiyimiz kimsələrdir".** Hikmət verilən peyğəmbərlərin adları müəyyən ayələrdə qeyd edilmişdir. **"Hər ikisinə hökmranlıq** (peyğəmbərlik) **və elm bəxş etdik".** (Ənbiya, 21/79) **"**(Allah) **ona** (İsaya) **yazmağı, hikməti, Tövratı və İncili öyrədəcək".** (Ali-İmran, 3/48) **"**(Yusif gəncliyinin) **ən yetkin dövrünə** (18, 21, 30 yaxud 33 yaşına) **çatdıqda ona hikmət** (peyğəmbərlik) **və elm verdik".** (Yusuf, 12/22)

**Gözəl öyüd -** Öyüd-nəsihət verərkən insanların anlaya biləcəyi üslubdan istifadə etmək lazımdır. Müjdələmək və qorxutmaq bütün peyğəmbərlərin istifadə etdikləri metoddur.[94] Hz. Nuh (ə.s) yumşaqlıqla qövmünə tövsiyə və öyüd-nəsihət vermişdir.[95] Hz. İbrahim (ə.s) isə insanları gözəl şəkildə Allahın yoluna çağırmışdır.[96]

94. Ədəvi, *Dəvətur-Rusul*, s, 19.
95. Ədəvi, *Dəvətur-Rusul*, s, 13.
96. İbn Kəsir, *əl-Bidayə*, I, 141.

**Mübarizə və mübahisə -** Qəlbi möhürlənmiş insanlar peyğəmbərlərin gətirdikləri həqiqətləri gördükdən sonra belə inadlarından əl çəkməmişlər. Bununla kifayətlənməyərək peyğəmbərlərə qarşı mübarizə aparmışlar. Bütün peyğəmbərlər belə insanlara qarşı həmişə gözəl və doğru üslub sərgiləmişdir. Mübarizə zamanı diqqət edilməli olan başlıca xüsus, peyğəmbərlərin yolundan gedərək onlar kimi davranmaqdır. Gözəl üslubla və ədəbli şəkildə aparılmayan təbliğdən xeyir gözləmək əbəsdir.

**Xoşrəftar və gözəl söz -** Bir atalar sözündə belə deyilir: "Şirin söz ilanı yuvasından çıxarar". Həqiqətən də gözəl söz insan qəlbinə çox tez təsir edir. Bütün peyğəmbərlər insanlara qarşı hər zaman xoşrəftar olmuşlar. Firon kimi azğın düşmənə təbliğ üçün göndərilən Hz. Musa və Hz. Haruna Uca Allah belə buyurmuşdur: **"Fironun yanına yollanın. O** (allahlıq iddiasına düşməklə)**, həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud** (Rəbbindən) **qorxsun!".** (Taha, 20/43-44)

Ayədən göründüyü kimi ilahlıq iddia edən birinin nəsihət dinləyərək Allahdan qorxması ancaq xoşrəftara və yumşaq danışığa bağlanmışdır.

Bütün peyğəmbərlər hər şeydən əvvəl bu metoddan istifadə etmişlər.[97] Uca Allah Hz. İbrahimdən (ə.s) belə bəhs etmişdir: **"Həqiqətən, İbrahim həlim xasiyyətli,** (həmişə dua edərək) **yalvarıb-yaxaran və özünü tamamilə** (Allaha) **təslim etmiş bir zat idi.** (İbrahimin mələklərlə mübahisəsi onun bu yüksək keyfiyyətlərindən irəli gəlirdi)**".** (Hud, 11/75)

**Kobud rəftar -** Elə insanlar var ki, həlim xasiyyət, xoş və gözəl söz təsir etmir. Onlara qarşı necə rəftar etmək lazımdır?

Hz. Süleyman (ə.s) "güclü və döyüşkən olmaları" ilə öyünən Səbə idarəçilərinə və Məlikəsinə İslama dəvət məktubu göndərir. Məktubunda bəsmələdən sonra belə yazır: **"Mənə qarşı təkəbbür göstərməyin və yanıma müti** (müsəlman) **ola-**

---

97. İbn Kəsir, *əl-Bidayə*, I, 108, 141; Ədəvi, *Dəvətur-Rusul*, s, 13, 39, 51; S. K. K-nin *Dəvət Metodu*, s, 60.

**raq gəlin!”.** (Nəml, 27/31) Ayədən göründüyü kimi onlara verilən əmr qətilik ifadə edir. Səbə Məlikəsi Hz. Süleymana (ə.s) göz qamaşdırıcı gözəllikdə olan hədiyyələr göndərir və onun necə davranacağını bilmək istəyir. Hz. Süleyman (ə.s) isə bunun fərqinə varır və **“Siz mənə mal-dövlətləmi yardım edirsiniz? Allahın mənə verdiyi** (peyğəmbərlik, səltənət) **sizə verdiyindən** (dünya malından) **daha yaxşıdır. Amma siz** (dünyanın bərbəzəyinə aldanıb) **öz hədiyyələrinizlə sevinirsiniz. Durma, onların** (Səba əhlinin) **yanına qayıt! And olsun ki,** (əgər müti olaraq yanıma gəlməsələr) **gücləri çatmayacaq bir ordu ilə üstlərinə gedib onları öz yurdundan zəlil və xar vəziyyətdə çıxardarıq!”.** (Nəml, 27/36-37) Bu dəfəki ifadə isə daha açıq və sərtdir. Hz. Süleymanın (ə.s) yanına gəldikdə öz taxtını onun yanında görən Səbə Məlikəsinin Uca Allaha təslim olmaqdan başqa çarəsi qalmır.[98]

Hz. Nuh (ə.s) qövmünü illərlə səbir edərək irşad etməyə çalışır. Lakin bütün edilənlərə baxmayaraq kafirlər iman etmirlər. Kafirlərin iman etməsindən ümidini kəsən Hz. Nuh (ə.s) Uca Allaha belə niyaz edir: **“Nuh dedi: “Ey Rəbbim, kafirlərdən yer üzündə bir nəfəri belə sağ qoyma!”.** (Nuh, 71/26) Hz. Nuhun (ə.s) bəddua etməyinin səbəbi isə ayədə belə bildirilir: **“Çünki sən onları** (sağ) **buraxsan, onlar Sənin bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir** (oğul-uşaq) **doğub-törədəcəklər”.** (Nuh, 71/27) Hz. Nuhun (ə.s) duası qəbul edilir. Hz. Nuh (ə.s) oğlunun və qövmünün həlak olmasını gördüyü zaman onlara yazığı gəlir. Uca Allah onlara yumşaq davranmamasını əmr edərək belə buyurur:[99] **“Zülm edənlər barəsində mənə müraciət etmə** (onların bağışlanmalarını Məndən xahiş etmə)**”.** (Hud, 11/37)

Bəzən yaxşılıqdan anlamayan insanlar üçün müraciət ediləcək ən gözəl metod onlara qarşı anlayacaqları dildə danışmaqdır.

---

98. (Süleyman) **dedi: “Ey əyanlar! Onlar müti vəziyyətdə** (müsəlman olaraq) **yanıma gəlməmiş hansınız onun** (Bəlqisin) **taxtını mənə gətirə bilər?” Cinlərdən olan** (çox qüvvətli və nəhəng) **bir ifrit dedi: “Sən yerindən** (taxtından) **qalxmamış mən onu sənə gətirərəm...”** Nəml, 27/38-44.
99. İbn Kəsir, *əl-Bidayə*, I, 109.

**Səbir -** Şübhəsiz ki, təbliğdə müvəffəq olmağın şərtlərindən biri də səbirli olmaqdır. Əziyyət çəkmədən, çətinliklərə səbir eləmədən müvəffəq olmaq mümkün deyil. Hz. Adəmdən (ə.s) bu yana bütün peyğəmbərlər müəyyən əziyyətlərə məruz qalmışlar. Onlar çəkdikləri bütün çətinliklərə səbirlə sinə gərmişlər. Bu mövzu ilə əlaqəli bir çox ayə var. Bəziləri belədir: **"Səndən əvvəlki elçiləri də yalançı saymışdılar. Lakin Bizim köməyimiz onlara gələnədək yalançı sayılmalarına və onlara əziyyət verilməsinə səbr etdilər".** (Ənam, 6/34) **"**(Ya Rəsulum!) **Peyğəmbərlərdən əzm** (və səbat, şəriət) **sahibləri olanların səbr etdiyi kimi, sən də** (Allah yolunda çətinliklərə, əziyyətlərə) **səbr et".** (Əhqaf, 46/35) **"**(Ey Məkkə əhli!) **Əgər** (məni) **təkzib etsəniz,** (bilin ki) **sizdən əvvəlki ümmətlər də** (öz peyğəmbərlərini) **təkzib etmişdilər. Peyğəmbərin vəzifəsi ancaq** (dini, Allahın hökmlərini, risalətini) **açıq-aşkar təbliğ etməkdir!".** (Ənkəbut, 29/18)

**Möcüzə -** Rəsulullah *(s.ə.s)* belə buyurmuşdur: *"Hər peyğəmbərə mütləq möcüzə verilmişdir".*[100] Bir çox halda kafirlər üçün möcüzələrin belə önəmi olmamış və onlar inadlarına davam etmişlər. Hz. Musanın (ə.s) göstərdiyi möcüzələr qarşısında səcdə edərək Uca Allaha iman edən sehrbazlar[101] kimi olanlar çox azdır.

Təbliğlə məşğul olan şəxs əvvəlcə təbliğ etdiyi gözəllikləri şəxsən yaşamalı və yaşayışı ilə gözəl nümunə olmalıdır. Bütün peyğəmbərlər hər zaman bu şəkildə davranmışdır. Məsələn, Mədyən əhli Hz. Şüeybə (ə.s): **"Sən doğrudan da, həlim xasiyyətlisən, çox ağıllısan!"** (Hud, 11/87) demək məcburiyyətində qalmışdır. Təbliğ əsnasında tədricilik prinsipinə sadiq qalmaq da əsas şərtdir. Hz. İbrahim (ə.s) təbliğə əvvəlcə atası ilə başlamış, daha sonra ətrafındakılara təbliğ etmişdir.[102] Hz. Şüeyb (ə.s) təbliğə tövhidlə başlamış, sonra isə qövmünün riayət etmədiyi ölçü və çəkidə aldatmaq xüsusuna toxunmuşdur.[103]

100. Buxari, İtisam, 1; Müslim, İman, 239; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 341, 351.
101. Əraf, 7/120; Taha, 20/70; Şuəra, 26/46.
102. İbn Kəsir, *əl-Bidayə*, I, 141; Ədəvi, *Dəvətur-Rusul*, s, 49-51.
103. Əraf, 7/95; Ədəvi, *Dəvətur-Rusul*, s, 153.

Peyğəmbərlər əllərinə düşən heç bir fürsəti qaçırmamış təbliğlə məşğul olmuşlar. Hz. Yusuf (ə.s) zindanda yuxularını yozmazdan əvvəl fürsətdən istifadə edərək zindan yoldaşlarına belə buyurmuşdur: "**Ey mənim iki zindan yoldaşım!** (Sizə nə bir xeyir, nə də bir zərər verə bilən) **ayrı-ayrı tanrılar daha yaxşıdır** (ibadət olunmağa daha layiqdir)**, yoxsa bir olan,** (hər şeyə) **qadir** (qalib) **olan Allah?!** (Allahdan) **qeyri ibadət etdikləriniz sizin və atalarınızın** (özündən uydurub) **qoyduğunuz** (Allaha heç bir aidiyyəti olmayan) **adlardan** (bütlərdən) **başqa bir şey deyildir. Allah isə onlara** (ibadət edilməsinə dair) **heç bir dəlil nazil etməmişdir. Hökm ancaq Allahındır. O sizə yalnız Onun Özünə ibadət etmənizi buyurmuşdur. Doğru** (həqiqi) **din budur, lakin insanların çoxu** (bu həqiqəti) **bilməz!"**. (Yusuf, 12/39-40)

Peyğəmbərlərin qövmlərinə **"Ey qövmüm"** deyə xitab etdiyinin şahidi oluruq.[104] Hz. İbrahim (ə.s) dəvətində **"atacan, atacan"** deyərək[105] atalıq əlaqəsini hər zaman ona xatırlatmağa çalışmışdır.[106]

### D. Peyğəmbərlərə qarşı yönəldilmiş ittihamlar

Qövmün qabaqcıllarının təbliğatçılara qarşı istifadə etdiyi strategiyalardan biri peyğəmbəri müxtəlif üsullarla ittiham edərək onların təsirini azaltmağa, xalqın ona olan inamını və etibarını sarsıtmağa çalışmaqdır.

Bu ittihamlardan biri "dəlilik"dir. Ayələrdə bu barədə belə xəbər verilir:

"(Ya Peyğəmbər!) **Həqiqətən, kafirlər Quranı eşitdikləri zaman** (sənə olan həsədlərindən və qəzəblərindən dolayı) **az qala səni gözləri ilə yeyələr. Onlar** (sənin barəndə)**: "O divanədir!" – deyirlər".** (Qələm, 68/51)

"(Müşriklər Peyğəmbərə) **belə dedilər: "Ey özünə Kitab nazil edilən kəs! Axı sən divanəsən!".** (Hicr, 15/6)

104. Əraf, 7/65, 67; Hud, 11/50-60.
105. Məryəm, 19/41-45.
106. Ədəvi, *Dəvətur-Rusul*, s, 49-51.

**"Bu adamda, sadəcə olaraq, bir dəlilik var".** (Muminun, 23/25)

"(Hud) **tayfasının kafir başçıları ona: "Biz səni səfehlik içində görür və yalançılardan** (biri) **hesab edirik!" – deyə cavab verdilər".** (Əraf, 7/66)

İnanmayanların bu ittiham və böhtanlarının əsasında peyğəmbəri xalqın gözündən salmaq və ona qarşı tətbiq edəcəkləri cəzaların layiqliliyini sübut etmək dayanırdı. Bunun əsas səbəbi Allahın dininə ürəkdən bağlanan, bütün təhdid və təzyiqlərə baxmayaraq mübarizədən çəkinməyən bir insanın onların gözündə ancaq bir dəli ola biləcəyidir. Bunun əksinə olaraq Allah rəsullarının kifayət qədər ağıllı və etibarlı olduqlarını belə buyurmuşdur:

"(Elə bir elçi ki, mələklər arasında) **itaət ediləndir, həm də** (Allah yanında vəhyə) **etibarlı müvəkkildir.** (Ey Məkkə əhli!) **Həqiqətən, sizin dostunuz** (müşriklərin dediyi kimi) **divanə deyildir!".** (Təkvir, 81/21-22)

**"Məgər** (islamı qəbul etməli olan kəslər) **düşünmürlərmi ki, onların yoldaşında** (Peyğəmbərdə) **həç bir cünunluq** (dəlilik) **əsər-əlaməti yoxdur? O ancaq** (kafirlərə Allahın əzabı gələcəyini) **açıq-aydın xəbər verib qorxudandır!".** (Əraf, 7/184)

İnkarçıların peyğəmbərə atdığı böhtanlardan biri də təbliğ etdiyi dinin onun bir uydurması olmasıdır. Bununla bağlı ayələr belədir:

**"Kafir olanlar: "Bu** (Quran) **onun** (Muhamməddin) **uydurmasından başqa bir şey deyildir. Ona bu işdə başqa bir tayfa** (yəhudilər) **kömək etmişdir!" – deyərək** (özləri bu batil iddiaları ilə) **zülmə** (küfrə) **və böhtana yuvarlandılar".** (Furqan, 25/4)

**"Yoxsa** (Məkkə müşrikləri)**: "O (Muhamməd) onu** (Quranı və ya Nuha dair xəbərləri) **özündən uydurdu!" – deyirlər"**. (Hud, 11/35)

Bu ittiham və böhtana qarşı peyğəmbərin cavabı belədir:

**"... Onlara belə cavab ver: "Əgər mən onu özümdən uydururamsa, günahı mənim boynumadır. Mən isə sizin törətdiyiniz günahlardan uzağam!".** (Hud, 11/35)

Peyğəmbərin dini uydurduğunu iddia etməsindən başqa onun yalançı olması böhtanı gəlir: **«Sən də bizim kimi adi bir insansan! Bizə elə gəlir ki, sən yalançının birisən!".** (Şuəra, 26/186) Daha sonra böhtanlar ifrat həddə çatır:

**"Məgər içərimizdən vəhy yalnız onamı nazil olmuşdur?! Xeyr, o, yalançının, lovğanın biridir!".** (Qəmər, 54/25)

İnkarçıların ən çox üzərində durduğu mövzu budur: «Nə üçün bir başqası deyil, məhz o? Təbii ki, o, deyil, bir başqası olsaydı, bu səfər: «Nə üçün o, deyil, məhz bu?" sualı veriləcəkdi. Əslində bunun yeganə səbəbi Allahın dinini təbliğ edəcək bir elçini qəbul etməmələridir. Çünki özlərinin azğın «atalarının dinində" belə bir anlayış yoxdur. Olsa da elçilik məqamına ancaq onların uyğun gördükləri biri gəlməlidir, məsələn, **"Onlar dedilər: "Məgər bu Quran iki şəhərdən** (Məkkədən və ya Taifdən) **olan böyük bir adama** (ya Vəlid ibn Müğirəyə, yaxud da Ürvə ibn Məsuda) **nazil edilməli deyildimi?".** (Zuxruf, 43/31) Qabaqcıllar onların adətlərinə riayət etməyən, üstəlik də atalarının dini ilə heç bənzəri olmayan bir dinlə gələn peyğəmbəri belə ittiham edirlər:

**"Tayfasının başçıları ona! "Biz səni** (haqq yoldan) **açıq-aydın azmış görürük!, - deyə cavab verdilər".** (Əraf, 7/60)

Bütün bunlarla yanaşı, Hz. Salehi **"Bizə sənin və yanında olanların ucbatından uğursuzluq üz verdi.** (Ayağınız bizə düşmədiyi üçün pis günə qaldıq, cürbəcür müsibətlərə düçar olduq)**"** (Nəml, 27/47) deyərək uğursuzluqla Hz. Musanı **"Yaxud mən** (dili dolaşdığı, kəkələdiyi üçün) **az qala** (sözünü belə) **aydın deyə bilməyən bir zavallı** (aciz) **kimsədən daha yaxşı** (daha üstün) **deyiləmmi?!"** (Zuxruf, 43/52) deyərək günahlandırmışdılar.

Şübhəsiz ki, tarixdə belə ittiham və böhtanlar çoxdur, ancaq burada toxunduqlarımız ən əsas olanlardır. Təbliğat aparanlara həmişə nifrət və təzyiq göstərərək qarşı çıxanlar olacaqdır.

Quranda bizə bu insanlara verəcəyimiz cavablar, reaksiyalar haqqında ətraflı məlumatlar verilmişdir.

Atalarının dinini möhkəm müdafiə etmələri və möminləri də bu dinə cəlb etmə səyləri insanların yeni fikir və düşüncə tərzini mənimsəmələrini əngəlləyən şey onların "qanına işləmiş" prinsiplərdir. Bu prinsiplər ömrü boyu yaşadığı şəraitdən, ailə quruluşundan, dostlarından təsirlənərək ortaya çıxmış "insana məxsus" bir dünyagörüşü və həyat tərzi mənasına gəlir. Buna insanın "dünyagörüşü" də deyə bilərik.

Məhz təbliğat zamanı qarşıya çıxan ən böyük çətinliklərdən biri də dinə uyğun olmayan dünyagörüşlərini yıxıb yerinə Allah rizasına və qorxusuna dayanan, dünyaya deyil, axirətə yönələn bir dünyagörüşü qurmaqdır. Bu dünyagörüşləri tamamilə materialist bir strukturda ola biləcəyi kimi din adı ilə ortaya çıxan, ancaq dinlə əlaqəsi olmayan fikirlərdən də yarana bilər. Həmçinin Quranda gördüyümüz kimi, dini təbliğ edən peyğəmbərlərə və möminlərə verilən cavablar bəzən Allahı inkar edən şəkildə, bəzən isə o dövrdə mövcud olan ənənəvi dini qorumaq şəklindədir.

İnkarçıların var gücü ilə müdafiə etdiyi, onlara söylənənləri heç bir şəkildə qəbul etməməsinə səbəb olan və möminləri də özlərinə tabe etməyə çalışdıqları bu ənənəvi dini Allah «atalarının dini" kimi xarakterizə edir. İnsanların böyük bir qismi «atalarının dini"nə çox bağlıdır və onlara izah edilən gerçəkləri bu dinə uyğun olub-olmaması ilə qiymətləndirər. Bu mövzu haqqındakı ayələrdən bəziləri bu şəkildədir:

**"Onlara** (bütpərəstlərə)**: "Allahın göndərdiyinə** (Qurana) **tabe olun!" –deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə?** (Yenədəmi onlara tabe olacaqlar?). (Bəqərə, 2/170)

**"Onlara: "Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin!" – deyildiyi zaman: "Atalarımızın getdiyi yol bizə yetər", – deyə cavab verirlər. Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə necə?!"** (Maidə, 5/104)

Göründüyü kimi, təbliğat aparılan bu insanlar atalarının dinini sipər edərək söylənənləri qəbul etmirlər. Buradan da bəlli olduğu kimi, atalarının dini çox köklü bir quruluşa malikdir. Bu quruluşda bir Allah anlayışı vardır, amma bu anlayış əvvəlki fəsillərdə də ətraflı olaraq anlatdığımız kimi, Quranda bildirilən həqiqətlərdən çox uzaqdır. Burada yenə şeytan fəaliyyətdədir. Quranda keçən **"Şeytan sizi Allaha arxayın edib** (Allah Öz bəndələrinə mehribandır, onların hamısını bağışlayacaq, günahlarından keçəcək deyə) tovlamasın!" (Loğman, 31/33) şəklindəki ayə şeytanın istifadə etdiyi bir taktikanı ortaya çıxarır. Bu taktika insanların şeytanın təlqini ilə etdiklərini din adına, Allah adına edirlərmiş kimi göstərir. Allah bu vəziyyətə belə bir ayə ilə diqqət çəkir:

**"Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona Şeytanı ürcah edərik və onun** (Şeytanın) **yaxın dostu olar.** (Şeytanlar) **onları doğru yoldan çıxardar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər!".** (Zuxruf, 43/36-37)

Atalarının dinindəki insanların halı belədir. İnkarçıların öndə gedənlərinin vəziyyəti də bundan fərqlənmir. Üstəlik onlar din anlayışından öz mənfəətləri üçün istifadə edirlər. "Allah" kəlməsindən öz mənfəətləri üçün yararlanan bu növ ikiüzlülər Quranda belə tərif edilir:

**"**(Nuh) **qövmünün kafir başçıları** (tabeçiliyində olanlara) **dedilər: "Bu sizin kimi yalnız adi bir insandır.** (Peyğəmbərlik iddiası ilə) **sizə böyüklük etmək istəyir. Əgər Allah** (Ondan başqasına ibadət etməməyimizi) **istəsəydi,** (bizə peyğəmbər olaraq insan deyil) **mələklər göndərərdi. Biz bunu** (Nuhun təbliğ etdiyi tövhidi) **ulu babalarımızdan** (keçmiş ümmətlərdən) **eşitməmişik".** (Muminun, 23/24)

Bu ayədə diqqətlə nəzərdən keçiriləcək bir çox məqamlar var:

1. Cəmiyyətin bəzi tanınmış şəxsləri insanlar təbliğ edilən dinə inanmasın deyə böyük səy göstərməkdədir. Bu məqsədlə Allahın adından istifadə edirlər. "Əgər Allah istəsəydi, mələklər göndərərdi" ifadəsi də bu azğın anlayışı göstərir. Eyni zamanda

da bu ifadə insanların möcüzə gözlədiyinə bir sübutdur. Əvvəldə də qeyd etdiyimiz kimi, inanmaq üçün xüsusi bir möcüzəyə ehtiyac yoxdur, ağıllı insan hər saniyə möcüzə ilə qarşı-qarşıyadır. İnanmayanların insanları hidayət yolundan çəkindirmək və Quranda bildirilən həqiqətlərdən uzaqlaşdırmaq üçün Allah adından yararlanması digər bir ayədə belə keçir:

**"**(Şeytanla dost olanlar) **ədəbsizlik** (bütpərəstlik adəti üzrə Kəbəni çılpaq təvaf) **etdikləri zaman: "Atalarımızı belə gördük. Bunu bizə Allah əmr etmişdir",- deyirlər.** (Ya Peyğəmbərim!) **De: "Allah ədəbsizlik** (yaramaz işlər) **əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?".** (Əraf, 7/28)

Göründüyü kimi, atalarının dininə uyanlarda etdikləri pis əməlləri Allahın adına bağlayaraq özlərinə haqq qazandırma kimi azğın bir istək vardır.

2. Təbliğ aparılan insanlara təsir etməyə, düşüncələrini qarışdırmağa çalışan bəzi şəxslər vardır. Bunlar ayələrdə "qövmün azğınlıqda qabaqcıl olanları" kimi xarakterizə edilir. Metodları insanların fikirlərini qarışdıraraq, bəzi hallarda onları təhdid edərək və onlara tətbiq etdikləri təzyiqçi avtoritetdən istifadə edərək onları inanmaqdan yayındırmaqdır. Bunun səbəbi isə məlumdur: inanclı insan ağıllı olur, gözüaçıq olur, ona söylənən yalanlara uymur və ən başlıcası dinə qarşı çıxanlarla fikir mübarizəsi aparır. Təbiidir ki, belə bir cəmiyyətin qurulması "inkara uymuş qabaqcıllar" tərəfindən bəyənilir. Bir sözlə, inkarçı cəmiyyətin qabaqcıllarının əslində şeytani quruluşun bir parçası olduğunu görürük. Şeytanın firqəsi olmuş qabaqcıllar onun təlqini ilə möminlərlə mübarizə aparmaqda, onu məqsədinə çatdıra bilmək üçün "vasitəçilik" etməkdədir.

3. Dini anladanlara qarşı mübarizə aparan "qabaqcıllar" dini təbliğ edən peyğəmbərin əslində üstünlük əldə etməyə çalışdığı fikrini irəli sürürlər. Həqiqətlə heç bir əlaqəsi olmayan bu iddia peyğəmbərlərə istiqamətlənmiş böhtanlar fəslində açıqlanıb.

4. "Ulu babalarımızdan da bunu eşitmişik" ifadəsi qövmün inkarçı qabaqcıllarının atalarının dininə bağlılığını göstə-

rir. Ancaq Qurandakı **"...Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə?** (Yenədəmi onlara tabe olacaqlar?)**"** (Bəqərə, 2/170) ya da **"Bəs Şeytan onları cəhənnəm odunun əzabına çağırırsa necə?** (Yenədəmi həmin yolla gedəcəklər?)**"** (Loğman, 31/21) və ya **"Əgər sizə atalarınızın sitayiş etdiyini gördüyünüz dindən daha doğrusunu gətirmiş olsam necə?!"** (Zuxruf, 43/24) kimi suallar atalarının dininə bu cür bağlananların nə dərəcədə ağılsız və azğın olduğunu göstərir.

Maraqlıdır ki, atalarının dininə bu dərəcədə bağlanmış insanlar haqq dini təbliğ edən möminləri özlərinə tabe etmək istəyirlər. Bu haqda Quranda belə deyilir:

**"**(Şüeyb) **tayfasının** (iman gətirməyi) **özlərinə sığışdırmayan təkəbbürlü əyanları: "Ey Şüeyb! Ya səni və səninlə birlikdə iman gətirənləri məmləkətimizdən mütləq qovacağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!" – dedilər.** (Şüeyb) **belə cavab verdi: "**(Dininizə) **nifrət etdiyim halda beləmi** (bizi bu işə məcbur edəcəksiniz)**?".** (Əraf, 7/88)

Atalarının dininə bağlı insanlar üçün bu "geri qaytarma" hadisəsi mühüm əhəmiyyət kəsb edir. Onlardan biri təbliğ nəticəsində haqq dini qəbul etsə, bu, onları qəzəbləndirər və məyus edər. O insanı dinlərinə qaytarmaq üçün çox səy göstərirlər. Bu səylər uğursuz olduqda onu özlərindən uzaqlaşdıraraq guya cəzalandırırlar. Güc və iqtidara malik qabaqcıllar isə təhdidləri getdikcə çoxaldırlar. Allahın Quranda tərif etdiyi dindən kənar hər inanc, Qurana zidd hər ənənə əslində ataların dini anlayışını təşkil edir. Bu dinə uyanların axırı isə cəhənnəmdir. Quranda belə deyilir:

**"Daha sonra onların qayıdacaqları yer mütləq yenə Cəhənnəmdir! Çünki onlar atalarını** (dünyada haqq yoldan) **azmış gördülər. Bununla belə yüyürə-yüyürə onların ardınca düşüb getdilər".** (Saffat, 37/67-70)

### E. Qövmlərin peyğəmbərlərin təbliğinə qarşı müqaviməti

İnkara təslim olmuş insanların möminlərə və təbliğ edilən dinə reaksiyasını incələdiyimiz zaman qarşıdurma, qəzəb və təkəbbür kimi şeytana məxsus xüsusiyyətlərlə qarşılaşırıq. Bunları və təbliğat zamanı qarşıya çıxacaq müqaviməti qabaqcadan bilmək (bu, Quran ayələrinin köməyi ilə mümkündür) isə bunlara qarşı hazırlıqlı olmaq və ümumiyyətlə müvəffəqiyyət əldə etmək yolunda sağlam bir addım atmaq mənasına gəlir.

Təbliğat aparanlara tez-tez göstərilən bu müqavimət inanmaq üçün möcüzə görmək istəyidir. Quranda bu istək belə tərif edilir:

**"Kafir olanlar: "Məgər Rəbbindən ona bir möcüzə endirilməli deyildimi?" – deyirlər.** (Ya Rəsulum!) **De: "Allah istədiyini** (haqq yoldan) **sapdırır. Tövbə edən** (Allahın itaətinə qayıdan) **şəxsi isə Öz hidayətinə** (Özünün doğru yolu olan islam dininə) **qovuşdurur".** (Rad, 13/24)

İnanmayanlar arasında möcüzə görməyə çox böyük bir istək var. Onlara təbliğ edilən dinə inanmaq üçün mütləq belə şeylər görmək istəyirlər. Onsuz da hər tərəf möcüzələrlə doludur, bir az düşünə bilən insan bunları çox rahat şəkildə görə bilər. Məsələn, "Havada duran bir daş var!" – deyilsə, bu, böyük bir möcüzə kimi dəyərləndirilir, ancaq milyardlarla tonluq dünya yaradıldığı gündən bəri kosmik boşluqda durmaqdadır. Üstəlik dayanmadan, qüsursuz və ahəngdar şəkildə bir orbit üzərində günəşin ətrafında dolanır.

Atomlar arasındakı güclü cazibə qüvvəsi də bir möcüzədir, günəşin uzaq məsafədən dünyanı isitməsi, canlılara həyat verməsi də möcüzədir. Bu hadisələrin bir səbəbinin olması onların dəyərini azaltmaz, çünki səbəblər də heyrətamizdir. Ancaq belə hadisələr Allahın qüdrətini bilməyən və Onun sübutlarının üzərindən görmədən keçənlər üçün heç bir məna kəsb etmir.

"İsra" surəsinin 90-93-cü ayələri inkarçıların necə möcüzə istədiyini açıq şəkildə təsvir etmişdir:

**"**(Quranın əzəməti, fəsahət və bəlağəti qarşısında aciz qalan, lakin özlərini sındırmayan müşriklər) **belə dedilər: "Bizə yerdən** (Məkkədən) **bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik. Yaxud** (ağacları) **arasında şırıl-şırıl irmaqlar axan xurma və üzüm bağın olmayınca; Yaxud, iddia etdiyin kimi, göyü parça-parça edib başımıza endirməyincə, yaxud Allahı və mələkləri** (peyğəmbərliyinin doğruluğuna şahid olaraq) **açıq-aşkar qarşımıza gətirməyincə; və ya qızıldan bir evin olmayınca, yaxud sən göyə qalxmayınca** (biz sənə iman gətirməyəcəyik)**. Əgər bizə** (səmadan) **oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da əsla inanmayacağıq!"** (Ya Rəsulum!) **De: "Rəbbim pakdır, müqəddəsdir!** (Allah gedib-gəlmək, enib-qalxmaq kimi məxluqata aid olan xüsusiyyətlərdən uzaqdır!) **Mən isə yalnız peyğəmbər olan bir insanam!"** (Allahın izni olmayınca, heç bir peyğəmbər sizin dediklərinizi yerinə yetirməyə qadir deyildir!)**".** (İsra, 17/90-93)

Ancaq inanmayanların möcüzə görmək istəkləri də səmimi deyil. Bu istəklərinin tək səbəbi rəsulun belə bir şey edə bilməyəcəyini və möcüzə olmadıqda isə inanmaları üçün bir məcburiyyətin qalmayacağını düşünmələridir. Quranda bu insanların səmimi olmamasından belə bəhs olunur:

**"Əgər onlara göydən bir qapı açsaq** (nərdivan endirsək) **və onunla durmadan yuxarı dırmaşsalar** (göydə Allahın qüdrətini və əzəmətini görsələr) **yenə də** (inanmayıb)**: "Gözümüz bağlanmış** (xumarlanmış)**, biz sehrlənmişik** (Muhamməd bizi ovsunlayıb gözümüzü bağlamışdır)**", – deyərlər"**. (Hicr, 15/14-15)

"(Ya Rəsulum!) **Əgər sənə kağız üzərində** (yazılı) **bir kitab nazil etsəydik və onlar əlləri ilə ona toxunmuş olsaydılar belə, kafirlər yenə də: "Bu, açıq-aydın bir sehrdir", - deyərdilər. Onlar dedilər: "Məgər ona** (Həzrəti Muhammədə peyğəmbərliyinin həqiqi olmasını təsdiq edən) **bir mələk endirilməli deyildimi?" Əgər Biz bir mələk göndərsəydik, iş bitmiş olar**

(iman gətirməyəcəkləri üçün onlar məhv edilər) **və** (tövbə etmək üçün) **onlara bir an belə möhlət verilməzdi".** (Ənam, 6/7-8)

Budur, Allah inanmaq üçün möcüzə gözləyənlərin səmimi olmamasını belə xəbər verir.

Din anladılan inkarçıların göstərdiyi bir başqa reaksiya da söylənənləri qəbul etməmək, sonra isə yalanlamaqdır. Dini anladan möminləri və rəsulu yalançılıqda günahlandırırlar. Təbliğ edilən dinə qarşı "şübhə doğuran bir tərəddüd"[107] içində olan inkarçılar materialist bir dünyagörüşü içində axirəti də inkar edərlər. «Muminun" surəsinin 37-ci ayəsindəki ifadələr bunu göstərir: **"Bizim həyatımız yalnız bu dünyadadır.** (Birimiz) **ölür,** (birimiz) **dirilirik.** (Birimiz dünyaya gəlir, birimiz dünyadan gedirik)**. Biz** (öləndən sonra bir daha) **diriləcək deyilik!".** (Muminun, 23/37) Onlara açıqlananları düşünüb öyüd almaq əvəzinə dinlədikləri şeylərdə dolaşıqlıq, yanlışlıq tapmağa çalışırlar. Bəsit söz oyunları ilə mövzudan uzaqlaşmağa səy göstərirlər.

Bununla yanaşı, təbliğat aparan insanları kiçiltməyə də can atarlar. Hz. Nuha **"Onlar: "Sənə ən rəzil** (səfil, yoxsul) **adamlar tabe olmuşkən, biz sənə imanmı gətirəcəyik?" –** deyən kafirlər bunun bir nümunəsidir. Quranda bu insanlarla bağlı başqa bir ayədə bu şəkildə bildirilir:

**"Onlara: "Başqaları** (mühacir və ənsar) **iman gətirdikləri kimi siz də iman gətirin!" – deyildiyi zaman** (öz aralarında)**: "Biz də səfehlər** (ağılsızlar) **kimi iman gətirək?" – deyə cavab verirlər.** (Ey möminlər!) **Agah olun ki, səfeh onların özləridir, lakin** (bunu) **bilmirlər".** (Bəqərə, 2/13)

Mömінləri ağıllarına görə qiymətləndirməyən bu insanların hər dəfə dinə dəvət etdikdə göstərdikləri bayağı və əsassız müqavimət onların özlərinin nə qədər dəyərsiz olduğunu göstərir. Hz. Nuh kafirlərin bu sərt mənfi reaksiyalarını belə göstərir:

107. **Onlar dedilər: "Ey Saleh! Sən bundan əvvəl içərimizdə** (böyüyümüz, ağsaqqalımız olmağa) **ümid edilən bir adam idin. İndi atalarımızın ibadət etdiyinə** (bütlərə, tanrılara) **ibadət etməyi bizə qadağanmı edirsən? Doğrusu, biz sənin bizləri dəvət etdiyin** (tövhid) **barədə şəkk-şübhə içindəyik".** Hud, 11/62.

**"Sənin onları bağışlamağın üçün mən nə zaman onları** (imana) **dəvət etdimsə, onlar** (dəvətimi eşitməsinlər deyə) **barmaqlarını qulaqlarına tıxadılar,** (məni görməsinlər deyə) **libaslarına büründülər,** (küfrlərində) **israr edib durdular və təkəbbür göstərdilər".** (Nuh, 71/7)

Göründüyü kimi, inanmayanların təbliğata göstərdiyi müqavimət müxtəlif olmaqla yanaşı heç birindən ağıllı və mədəni bir reaksiya görmək mümkün deyil. Həmçinin bir azdan görəcəyimiz kimi, möminlərin qarşılaşdığı reaksiyalar bəzən tamamilə insanlıqdan uzaq bir mədəniyyətsizlikdir.

Möminlərin təbliğat fəaliyyəti zamanı qarşılaşdığı ən şiddətli müqavimət Quranda göstərildiyi kimi, o qövmün "inkarçı qabaqcılları" tərəfindən göstərilməkdədir. Xalqa iqtisadi və siyasi təzyiqlər göstərən, onları müxtəlif üsullarla özlərinə möhtac edən bu "qabaqcıllar" təbliğ edilən dinin öz mənfəətlərinə zidd olduğunu bilirlər. Belə bir dinin insanlar arasında yayılması və hakim olması onların əldə etdiyi üstünlüyü bir anda yox edəcək. "Zuxruf" surəsinin 23-cü ayəsində[108] də bildirildiyi kimi, bu qabaqcılların mühüm bir xüsusiyyəti "rahatlıq içində azğınlaşmış" olmalarıdır. Bu insanlar dünya həyatında sahib ola biləcəkləri sərvətin ən çoxuna sahib ola bilmək, bunları "yığıb saxlamaq yolunda canfəşanlıq göstərirlər". Çünki "Huməzə" surəsinin 3-cü ayəsində Allahın dediyi kimi, **"Və elə zənn edər ki, mal-dövləti onu əbədi yaşadacaqdır"**.

Bu təlqini onlara edən heç şübhəsiz ki, **"**(Allahın bütün bu xəbərdarlığından sonra) **Şeytan ona** (Adəmə) **vəsvəsə edib** (pıçıldayıb) **belə dedi: "Ey Adəm! Sənə** (meyvəsindən yeyəcəyin təqdirdə heç vaxt ölməyəcəyin və həmişə Cənnətdə yaşayacağın) **əbədiyyət ağacını və köhnəlib xarab olmayacaq** (fənaya uğramayacaq) **bir mülkü göstərimmi?"** (Taha, 20/120) deyən şeytandır. Şeytanın nəzarəti altında olan və onun «firqəsi" olmuş qabaqcılların möminlərə çox şiddətli düşmənçilik etməsi də təbii deyilmi?

108. (Ya Rəsulum!) **Biz səndən əvvəl hər hansı bir məmləkətə** (Allahın əzabı ilə) **qorxudan bir peyğəmbər göndərdiksə, onun naz-nemət içində yaşayan böyükləri** (varlıları) **sadəcə olaraq: "Biz atalarımızı bir din üzərində gördük və biz də** (təqlidlə) **onların ardınca getməkdəyik!" – dedilər.**

Həmçinin bir ölkədə hiyləgər sistemlər quraraq möminləri tələyə salmağa, onları doğru yoldan azdırmağa çalışanlar da "Ənam" surəsinin 123-cü ayəsində bildirildiyi kimi, **"Beləliklə, hər bir obanın günahkarlarını oranın başçıları təyin etdik".** Şeytanın bu məsələ ilə bağlı fəaliyyəti digər bir ayədə belə keçir:

**"Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün (çirkin fikirlər və yaramaz əqidələr) təlqin edirlər".** (Ənam, 6/121)

Şeytanın sözügedən «qabaqcıl" dostlarının peyğəmbərlərə qarşı hazırladığı hiylə və hücumlardan Quranın bir çox yerində danışılır. «Qasas" surəsinin 20-ci[109] ayəsində də Hz. Musanı öldürmək məqsədi ilə bir yerə toplanıb görüşənlərin şəhərin qabaqcıl inkarçıları olduğu söylənilir. Həmçinin "Əraf" surəsinin 109-cu[110] ayəsində aparıcı inkarçılar Hz. Musa üçün "bilikli bir sehrbazdır" ifadəsini işlətməklə xalqın Hz. Musa haqqındakı fikirlərini alt-üst etməyə çalışmışdılar. Sonrakı ayədə isə **"O sizi yurdunuzdan çıxartmaq istəyir!"** ifadəsi ilə təbliğat fəaliyyətini böyük bir təhlükə və dövlət məsələsi halına gətirərək xalqı qızışdırmağı hədəfləmişdilər. **"Elə isə tədbiriniz nədir?"** deyərək də onsuz da idarə edilmiş xalqa fitnənin hökmü olan ölüm cəzasını verdirmək istəyirlər. "Əraf" surəsinin 123-cü[111] ayəsindən də göründüyü kimi xalq ancaq Fironun icazə verdiyi şeylərə iman gətirə bilər. Firon normal bir hadisəni "xalqı sürgün edib çıxarmaq", "şəhərdə hiylə qurmaq" kimi böyük bir fitnə-fəsad kimi göstərərək bu ölüm cəzasını haqlı göstərməyə çalışmaqdadır. Fikrinə qarşı gələn sehrbazları ön sıralarda görüb onlara da fitnə cəzasını tətbiq etmək istəyər. "Əraf"

---

109. (Yəhudinin bu sözündən sonra dünən öldürülən qibtinin qatilinin Musa olduğu bütün Misir xalqına bəlli oldu. Bu xəbər Firona çatdıqda o, Musadan qisas almaq istədi). **Şəhərin kənarından** (Fironun şəhərin ucqarında yerləşən sarayından) **bir nəfər çaparaq gəlib dedi: "Ya Musa! Əyan-əşraf səni öldürmək barəsində məsləhət-məşvərət edirlər. Elə bu saat** (şəhərdən) **çıx get. Mən, həqiqətən, sənin xeyirxahlarındanam!".**

110. **Firon tayfasının əyanları dedilər: "Şübhəsiz ki, bu çox bilikli bir sehrbazdır.**

111. **Firon** (onlara) **dedi: "Mən sizə izin verməmdən əvvəl siz ona iman gətirdiniz?" Bu** (sizin Musa ilə birlikdə gördüyünüz işlər)**, şübhəsiz ki, əhalisini çıxartmaq** (qibtiləri qovub Misiri ələ keçirmək) **məqsədilə şəhərdə qurduğunuz** (gizli) **bir hiylədir.** (Gördüyünüz işlərə görə başınıza nə oyun açacağımı) **biləcəksiniz!**

surəsinin 127-ci[112] ayəsində isə bu dəfə qövmün qabaqcılları Hz. Musanı öldürməsi üçün Fironu təhrik etməyə çalışırlar.

Şeytanı vəli seçmiş, onun addımlarına uymuş qabaqcıl inkarçılar möminlərlə mübarizə aparmağı adətən özlərinə borc bilirlər. Quranda "İblisin orduları" və "şeytanın atlıları və piyadalar" deyə səciyyələndirilən şeytanın dostları ilə bağlı bir ayə belədir:

**"Üstündə Allahın adı çəkilməmiş heyvanların ətindən yeməyin. Bu, şübhəsiz ki, günahdır. Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün** (çirkin fikirlər və yaramaz əqidələr) **təlqin edirlər. Əgər onlara itaət etsəniz, şübhəsiz ki, siz də müşrik olarsınız".** (Ənam, 6/121)

Əslində, möminlərin mübarizəsi inkarçıları öz nəzarəti altına almış və onları inananların üstünə salmış şeytanladır. İnkarçılarda şübhələr yaradan, möminlərin təbliğ fəaliyyətini əngəlləməyə çalışan, Allahın dinini dünyaya hakim olmasını istəməyən həmişə şeytanlar olmuşdur. Bu məqsədinə çatmaq üçün də nəzarət etdiyi bir qrup insandan «firqə" quraraq bunlardan öz istəklərini həyata keçirmək üçün istifadə etmişdir. Bu mövzu ilə bağlı bir başqa ayədə Allah belə buyurur:

"(Ya Rəsulum!) **Məgər kafirlərin üstünə onları yoldan çıxarıb günaha sövq edən şeytanları göndərdiyimizi görmədinmi?".** (Məryəm, 19/83)

Beləcə, inkarçılara uyanlar şeytana və öz qövmlərinin qabaqcıl inkarçılarına tabe olaraq möminlərə qarşı hərəkət edərlər.

İnsanın yaradılışına görə təqdir edilmiş dinin geniş kütlələrə təsir etməsi və qəbul etdirilməsi təbii bir prosesdir. Bu dinin təbliğ edilərək insanlara çatdırılması kifayətdir. Ancaq «inkara uymuş qabaqcıllar" dinin yayılmasını istəmədiklə-

112. **Firon tayfasının əyan-əşrafı dedi: "Musanı və tayfasını fitnə-fəsad törətmək, həm səni, həm də sənin tanrılarını atıb getmək üçünmü buraxacaqsan?"** (Firon onlara) **belə cavab verdi: "Biz onların oğullarını** (erkəklərini) **öldürəcək, qadınlarını isə** (bizə xidmət etmək üçün) **diri saxlayacağıq. Biz onlara, mütləq, qələbə çalacağıq!** (Onlar əvvəlki kimi yenə əlimizin altında olacaqlar!)**".**

ri üçün möminləri və elçiləri əngəllməyə çalışır, digər tərəfdən də xalqa müxtəlif yollarla təsir göstərərək möminlərin təbliğat fəaliyyətinin uğursuzluğa düçar olmasına səy göstərirlər. Bu qabaqcıl inkarçıların xalqla bağlı olan fəaliyyəti bir çox Quran ayələrində açıqlanır. Məsələn, qövmünün qabaqcıllarından inkar edənlər Hz. Şüeyb haqqında xalqa "**Əgər** (dininizi atıb) **Şüeybin ardınca getsəniz, şübhəsiz ki,** (çox böyük) **ziyana uğramış olarsınız!"** (Əraf, 7/90) deyə hədə-qorxu gəlmişdilər. Onların bu təbliğatı digər bir ayədə belə təsvir edilmişdir:

**"Tayfasının kafir olan, axirətə qovuşacaqlarını** (qiyamət günü dirilib haqq-hesab üçün Allahın hüzurunda duracaqlarını) **yalan hesab edən və dünyada nemət verdiyimiz əyan-əşrafı** (tabeçiliyində olanlara) **dedi: "Bu sizin kimi ancaq adi bir insandır; yediyinizdən yeyir, içdiyinizdən içir.** (O nə cür peyğəmbər ola bilər?)**".** (Muminun, 23/33)

Göründüyü kimi, qabaqcıl inkarçılar xalqı gah "ziyana uğramaqla" təhdid edir, gah da peyğəmbərlərin fövqəltəbii bir canlı deyil, bir insan olduğunu irəli sürərək fikri çaşdırmağa və insanları öz təsirləri altına almağa çalışırlar. Qabaqcıl inkarçıların bu fəaliyyəti başqa bir ayədə belə təsvir edilir:

**"**(Nuh) **qövmünün kafir başçıları** (tabeçiliyində olanlara) **dedilər: "Bu sizin kimi yalnız adi bir insandır.** (Peyğəmbərlik iddiası ilə) **sizə böyüklük etmək istəyir. Əgər Allah** (Ondan başqasına ibadət etməməyimizi) **istəsəydi,** (bizə peyğəmbər olaraq insan deyil) **mələklər göndərərdi. Biz bunu** (Nuhun təbliğ etdiyi tövhidi) **ulu babalarımızdan** (keçmiş ümmətlərdən) **eşitməmişik".** (Muminun, 23/24)

Burada diqqətçəkən məqam qabaqcıl inkarçıların peyğəmbəri mənafe güdməkdə günahlandırmasıdır. İnkarçılar bu qiymətli insanları pul, var-dövlət, iqtidar kimi dünya həyatında müvəqqəti olan şeyləri əldə etməkdə və beləcə insanlara hakim olmaq üçün çalışmaqda ittiham edirlər. Hz. Musa və Hz. Haruna da **"Onlar** (Musaya və Haruna)**: "Bizi atalarımızın tapındığı dindən döndərmək, özünüz də yer üzündə böyüklük etmək üçünmü gəldiniz?"** (Yunus, 10/78) deyərək eyni ittihamı səsləndirmişlər.

Ancaq həqiqətdə buna səy göstərənlər peyğəmbəri günahlandıranların özləridir. Bunun müqabilində peyğəmbərin təbliğdən başqa heç nə etmədiyi bir çox ayədə bildirilir:[113]

Qabaqcıl inkarçıların təbliğ qarşısındakı cavabları bu cür böhtan və ittihamlarla bərabər hədə-qorxu və şantajı da əhatə edir. Məsələn, kafir qövmünün Hz. Luta və yanındakı möminlərə cavabı **"Onları** (Lutu və ona tabe olanları) **məmləkətinizdən çıxarın, çünki onlar** (həddindən ziyadə) **təmiz** (bu cür işlərlə məşğul olmayan) **adamlardır!" – deməkdən başqa bir şey olmamışdı".** (Əraf, 7/82)

Hz. Şüeyb də buna oxşar şəkildə təhdid edilmişdi:

**"**(Şüeyb) **tayfasının** (iman gətirməyi) **özlərinə sığışdırmayan təkəbbürlü əyanları: "Ey Şüeyb! Ya səni və səninlə birlikdə iman gətirənləri məmləkətimizdən mütləq qovacağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!" – dedilər.** (Şüeyb) **belə cavab verdi: "**(Dininizə) **nifrət etdiyim halda beləmi** (bizi bu işə məcbur edəcəksiniz)**?".** (Əraf, 7/88)

Yenə Hz. Şüeybə gəlinən hədə-qorxu ayədə belə ifadə edilir:

**"Onlar dedilər: "Ey Şüeyb! Dediklərinin çoxunu başa düşmür və səni aramızda zəif** (gücsüz) **görürük. Əgər əşirətin** (dinimizə tapınan qəbilən) **olmasaydı, səni daşqalaq edərdik. Yoxsa sən bizim üçün əziz** (hörmətli) **bir adam deyilsən!".** (Hud, 11/91)

Bu ayədən də göründüyü kimi, möminlər təbliğatçılıq fəaliyyətlərini davam etdirə bilmək üçün kafirlərə qarşı çox güclü olmalıdırlar.

---

113. "**Əgər siz** (mənim öyüd-nəsihətimdən, dəvətimdən) **üz çevirsəniz,** (bilin ki) **mən** (bunun müqabilində) **sizdən heç bir mükafat istəmirəm. Məni mükafatlandırmaq yalnız Allaha aiddir. Mənə müsəlmanlardan** (özünü Allaha təslim edənlərdən) **olmaq əmr edilmişdir!".** Yunus, 10/72**; "Mən bunun** (Allahın hökmlərini, risaləti təbliğ etməyin) **müqabilində sizdən heç bir muzd** (əvəz) **istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir!"** Şuəra, 26/180**; "Onlar** (adları çəkilən peyğəmbərlər) **Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: "Mən bunun** (islam dinin təbliği) **müqabilində sizdən bir əvəz istəmirəm. Bu (Quran) aləmlər** (bütün bəşəriyyət) **üçün yalnız bir moizədir** (öyüd-nəsihətdir)**".** Ənam, 6/90.

İnkarçılar Allahın adını və ya Onun dinini eşidib hiss etdikləri zaman mənasız yerə əsəbiləşirlər. Hz. İbrahimin atasına dini təbliğ etdikdə aldığı cavab belə olmuşdur:

"(Atası Azər İbrahimə) **dedi: "Ya İbrahim! Sən mənim tapındığım tanrılardan üzmü çevirirsən? Əgər** (onlara qarşı pis hərəkətlərinə) **son qoymasan, səni mütləq daşqalaq edəcəyəm** (yaxud səni təhqir edib acı sözlər deyəcəyəm)**. Bir müddət məndən uzaq ol** (gözlərim səni görməsin)**!".** (Məryəm, 19/46)

Firon da Hz. Musaya ondan başqasına səcdə edərsə, onu həbs edəcəyini[114] və öldürəcəyini[115] iddia etmişdir. Həmin Firon onun icazəsi olmadan iman gətirən sehrbazların da əllərini və ayaqlarını çarpaz şəkildə kəsməklə və xurma ağacından asmaqla qorxudurdu.[116] İnkarçıların bu vəhşi qəzəbi Hz. İbrahimi atəşə atmaqla nəticələnmişdi.[117] Eyni şəkildə Hz. Nuh da daşa basılıb qovulmaqla təhdid edilmişdi.[118]

İnkarçıların göstərdiyi bu şiddətli qəzəb Allahın diləməsi ilə bir imtahan olaraq Qurana, onun ayələrinə və möminlərə qarşıdır.

İnanmayanların təbliğə göstərdiyi digər münasibət isə bir yerə toplanaraq ortaq hərəkət tərzi göstərmələridir. Böyük ehtimalla buna səbəb möminlərlə təkbaşına mübarizə aparmağa güclərinin çatmaması və buna cəsarət etməmələridir. Bu səbəbdən birləşərək bir-birinə cəsarət verməyə, güclərini artırmağa

---

114. (Firon:) **"Əgər məndən başqa tanrı qəbul etsən, səni mütləq dustaq edəcəyəm!"** – dedi. Şuəra, 26/29.

115. **Firon dedi: "Buraxın məni Musanı öldürüm, qoy o da Rəbbini** (köməyə) **çağırsın. Doğrusu, mən onun sizin dininizi dəyişdirəcəyindən və yer üzündə fitnə-fəsad törədəcəyindən qorxuram"**. Ğafir, 40/26.

116. **O** (Firon)**, dedi: "Mən sizə izin verməmişdən əvvəl siz Ona iman gətirdiniz, çünki O, əslində sizə sehr öyrədən böyüyünüzdür.** (Heç eybi yoxdur)**. Mən də sizin əl-ayağınızı çarpaz kəsdirib xurma ağaclarının kötüklərindən asacağam. Onda hansımızın** (mən Fironun, yoxsa Musanın Allahının) **əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!".** Taha, 20/71.

117. **Tayfasının** (İbrahimin sözlərinə) **cavabı: "Onu öldürün, yaxud da yandırın!" – deməkdən başqa bir şey olmadı. Amma Allah onu oddan xilas etdi. Həqiqətən, bunda iman gətirən bir tayfa üçün ibrətlər vardır!** Ənkəbut, 29/24.

118. **Onlar dedilər: "Ey Nuh! Əgər** (dediyin sözlərdən və bütlərimizi təhqir etməkdən) **əl çəkməsən, mütləq daşqalaq ediləcəksən!".** Şuəra, 26/116.

çalışırlar. Bunun bir nümunəsi güclərini Hz. Musaya qarşı birləşdirən sehrbazlardan görünür. Hz. Musaya qalib gəlmək üçün sehrbazlar bir-birinə **“Ona görə də bütün hiylə** (sehr) **vasitələrinizi toplayın, sonra da** (meydana) **səf-səf gəlin”** (Taha, 20/64) deyirlər. Bundan əlavə, qövmün qabaqcılları da bir yerə yığışıb öz aralarında Hz. Musanı öldürmək üçün planlar qurmuşdular.

### Ə. Peyğəmbərlərin təbliğini qəbul etməyənlərin aqibəti

Şübhəsiz ki, bütün tarix boyu təbliğat aparan mömin qruplarına şiddətlə qarşı çıxıb onlarla mübarizə aparanlar həmişə sayca möminlərdən çox olan və cəmiyyətin qabaqcılları tərəfindən idarə olunan inkarçı dəstələr olmuşdur. Bu, Allahın sünnəsidir və Quranda bildirildiyi kimi, Allahın sünnəsində dəyişiklik etmək mümkün deyil. Bu səbəbdən Quran ayələrinə dayanaraq möminlərlə inkarçılar arasındakı mübarizənin mərhələlərini və Allahın bunu nə ilə nəticələndirəcəyini öyrənə bilərik.

Bir mömin təbliğat apardığı insanın və ya qövmünün qəti şəkildə müsəlman olmayacağını anladıqdan sonra möminlərin üzərinə düşən iş inkarçı cəmiyyətdən uzaqlaşıb ayrılmaqdır. Bu mərhələyə gəldikdə Allah möminlərlə inkarçı qövmün arasını açacaq, möminləri rəhməti ilə onlardan ayıracaq və inkarçı qövmə layiq olduğu şeyləri göstərəcəkdir: inkarçılara Allahın şiddətli əzabı veriləcək və onlar həlak ediləcəkdir. Allahın rəsullarını mürtəce inkarçıların əlindən necə qurtardığı bəzi ayələrdə belə anladılır:

“**Elçilərimiz** (mələklər) **İbrahimə** (İshaqın, sonra da Yəqubun doğulacağı barədə) **müjdə gətirdikləri zaman: “Biz bu məmləkət əhlini məhv edəcəyik, çünki onlar zalımdırlar** (Allaha asi olmaqla, onun peyğəmbərini təkzib etməklə, çirkin işlər görməklə özləri-özlərinə zülm edirlər)**”, dedilər.** (İbrahim) **dedi: “Orada** (onların içində Allahın mömin bəndəsi) **Lut da var!” Onlar: “Biz orada kimin olduğunu** (hamıdan) **yaxşı bilirik. Biz onu və ailəsini mütləq xilas edəcəyik. Yalnız öv-**

**rətindən başqa. O** (əzab içində) **qalanlardan olacaq!" – deyə cavab verdilər. Elçilərimiz Lutun yanına gəldikdə** (Lut) **onlara görə kədərləndi və ürəyi qısıldı.** (Mələklər Lutun yanına cavan, qəşəng oğlanlar qiyafəsində gəldikləri üçün o öz tayfasının onlara pislik yetirəcəyindən qorxub məyus oldu)**. Onlar dedilər: "Qorxma və kədərlənmə. Biz səni və ailəni xilas edəcəyik. Yalnız övrətindən başqa. O** (əzab içində) **qalanlardan olacaq!".** (Ənkəbut, 29/31-33)

"(Saleh tayfasının məhvi barəsində) **əmrimiz gəldikdə Bizdən bir mərhəmət olaraq Salehi və onunla birlikdə iman gətirənləri xilas etdik və o günün rüsvayçılığından qurtardıq. Həqiqətən, Rəbbin yenilməz qüdrət sahibi, qüvvət sahibidir!"**. (Hud, 11/66)

"**Buna görə onlar** (Nuhu) **yalançı hesab etdilər. Biz də onu və onunla birlikdə gəmidə olanları xilas etdik. Ayələrimizi təkzib edənləri isə** (tufan vaxtı) **qərq etdik** (suda boğduq)**. Onlar, həqiqətən, kor bir camaat idilər**". (Əraf, 7/64)

Bu qurtuluşdan sonra şübhəsiz ki, bütün inkarçılar həlak edilmişlər:

"**Məgər onlara özlərindən əvvəlki Nuh, Ad, Səmud tayfasının, İbrahim qövmünün, Mədyən əhalisinin və Mötəfikilərin** (şəhərləri alt-üst olmuş Lut tayfasının) **xəbəri gəlib çatmadımı? Peyğəmbərləri onlara aşkar möcüzələrlə gəlmişdilər. Allah onlara zülm edən deyildi, lakin onlar özlərinə zülm etdilər".** (Tövbə, 9/70)

Quranda söylənilən bir çox qövmün həlakı bu gün arxeoloji qazıntılar zamanı üzə çıxarılmışdır. Beləcə, Qurandakı ayələrin dünyadakı əksi görünmüş və ayələr "ibrət olma" xüsusiyyətlərini bir daha büruzə vermişdir. İndi Quranda bəhs edilən bəzi inkarçı qövmlərə necə əzablar veriləcəyini ayələrlə işıqlandıraq.

Alt-üst edilən lut qövmü - Allahın elçisi Hz. Lutu yalançı çıxaran və yer üzündə ilk dəfə homoseksuallığı tətbiq edən azğın qövmünə verilən əzab Quran ayələrinə görə belədir: Göydən iyrənc bir əzab (güclü yağışsayağı daş yağdıran bir

qasırğa) göndərilməsi, qövmlərinin kor edilməsi, qorxunc və dözülməz bir qışqırıq, yurdlarının alt-üst edilməsi, palçıqdan bişirilmiş və müəyyən bir şəklə salınmış, damğalanmış daş yağması...

Fironun həlakı - Hz. Musaya qarşı mübarizə aparan Fironun və köməkçilərinin cəzası belədir: Firon qövmünün dünya həyatında lənətlənməsi, qiyamət günündə isə çirkinləşdirilmiş olmaları, bağçalardan və bulaqlardan, xəzinələrdən və köklü yerlərindən çıxarılmaları, ordularının suda boğulmaları, illərlə davam edən quraqlıq və məhsul qıtlığı, iyrənc bir əzabın başlarına tökülməsi, ayrı-ayrı ayələr olaraq tufan, çəyirtkə, buğda güvəsi, qurbağa və qanın əl çəkməməsi, tikdikləri və tikməkdə olduqları köşk və saraylarının dağıdılması, əzabın baş alıb getməsi...

Səmud qövmünə gələn əzab - Hz. Salehi yalançılıqda günahlandıran Səmud qövmünün cəzası belədir: Qövmün tamamilə dağıdılması, məhv edilməsi, yurdlarının yerlə-yeksan edilməsi, uçmuş evlərin ibrət üçün saxlanılması, inanılmaz bir səs nəticəsində dizi üstə çökmüş vəziyyətdə sabahı açmaları, dözülməz bir sarsıntıya düçar olmaları, bir fəryadla quru ot kimi olmaları, durduqları yerdə ildırım vurması...

Nuh tufanı - Hz. Nuhu yalançılıqda ittiham edərək ona böhtan atan və onunla birlikdə iman gətirənlərə əziyyət edən azğın qövm qorxunc bir tufan nəticəsində suda boğulmuş, bundan əvvəl də Quranın ifadəsi ilə desək, “qorxunc fəryadla bir toz yığını” olmuşdu.

Ad qövmünün düçar olduğu şiddətli və ağır bir əzab, qövmün kökünün qurudulması və onun süquta uğradılmasına səbəb olmuşdur.

Mədyən qövmünü bürüyən dözülməz səs - Hz. Şüeybə düşmənçilik göstərən Mədyən xalqının cəzası isə budur: Qövmün dözülməz bir səs tərəfindən bürünməsi və zülm edənlərin öz yurdlarında sanki heç rahatlıq içində yaşamamışlar kimi dizi üstə çökmüş olaraq sabahı açmaları, inanılmaz, amansız bir sarsıntı keçirməsi, “kölgəlik günün əzab”ının yaxalanması.

Bütün bunlar Allahın və dini inkar etmiş cəmiyyətlərin başına gəlmiş həqiqi hadisələrdir. Beləcə, əzaba düçar olmuş və yerlə-yeksan edilərək süquta uğramış bir çox mədəniyyətlərin qalıqları gələcək nəslə ibrət olması baxımından bu günədək qorunub saxlanılmışdır. Dünyanın müxtəlif yerlərinə səpələnmiş bu nümunələr möminlərə Quranda:

"(Ey Müsəlmanlar!) **Sizdən əvvəl bir çox vaqilər** (ibrətli əhvalatlar) **olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!**" (Ali-İmran, 3/137) ayəsi ilə xatırladılır.

# III. TƏBLİĞ MƏRHƏLƏLƏRİ

## A. Hz. Peyğəmbərin təbliği

Təbliğ İslamı insanlara çatdırmaq, əmr olunanları doğru şəkildə yaşamalarına çalışmaqdır. Bu müqəddəs vəzifə Qurani-Kərimdə müxtəlif kəlmələrlə ifadə edilmişdir. İslam terminologiyasında daha çox «əmri bil-məruf və nəhyi ənil-münkər" olaraq bilinir.

Məruf şəriətin, yəni Quran və Sünnənin xoş gördüyü, edilməsini istədiyi, münkər isə çirkin gördüyü və qadağan etdiyi şeylərə deyilir. Bu mənada mərufu əmr etmək iman və itaətə çağırmaq; münkərdən çəkindirmək isə küfr, şirk, üsyan, azğınlıq və hər cür haramlardan insanları uzaqlaşdırmaqdır.

İslama dəvət həyatın bütün sahələrini əhatə edir. İslamın dünya və axirətə dair hökmlərinin insanlara çatdırılması təbliğin əsasını təşkil edir.

İnsanların ən üstünü olan peyğəmbərlərin əsas vəzifəsi olan təbliğ, müsəlmanların da ən başlıca vəzifələrindən biridir. Hər müsəlman gücü, elmi, mədəniyyəti və yaşadığı mühit nisbətində bu vəzifəni yerinə yetirmək və özündən başlayaraq insanları maarifləndirməklə məsuldur. Necə ki, Quranda bu haqda belə buyurulur:

"(Ey müsəlmanlar!) **Siz insanlar üçün ortaya çıxarılmış ən yaxşı ümmətsiniz** (onlara) **yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız"**. (Ali-İmran, 3/110)

Yenə digər bir ayədə Allah-Təala bu vəzifəni əmr tərzində daha açıq şəkildə ifadə edir:

"(Ey müsəlmanlar!) **İçərinizdə** (insanları) **yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar həqiqətən nicat tapmış kimsələrdir!"**. (Ali-İmran, 3/104)

Hz. Ənəsin (r.a) nəql etdiyi təbliğ əhlinin axirətdə nail olacaqları yüksək mərtəbələri xatırladan bir hədis belədir:

Rəsulullah *(s.ə.s)* bir gün belə buyurdu:

*" – Sizə bəzi insanlardan xəbər verim? Onlar nə peyğəmbər, nə də şəhidlərdir. Ancaq qiyamət günündə peyğəmbərlər və şəhidlər onların Allah qatındakı məqamlarına qibtə edəcək. Nurdan minbərlər üzərində oturacaq və hər kəs onları tanıyacaq".*

Səhabələr:

" – Onlar kimlərdir ya Rəsulallah?" – deyə soruşdular.

Allah Rəsulu *(s.ə.s)*:

*" – Onlar Allahın bəndələrini Allaha sevdirən və Allahı da bəndələrinə sevdirən insanlardır. Onlar yer üzündə nəsihətçi və təbliğçidirlər".*

Mən:

" – Ey Allahın Rəsulu! Allahı bəndələrinə sevdirməyi anladıq, bəs Allahın bəndələrini Allaha sevdirmək necə olur?" – dedim.

Buyurdu ki:

*" – İnsanlara Allahın sevdiyi şeyləri əmr edir, sevmədiyi şeylərdən də çəkindirirlər. İnsanlar da onlara itaət edincə Allah-Təala onları sevər".*[119]

Qurani-Kərimdə təbliğ "böyük cihad" olaraq adlandırılmışdır.

**"**(Ya Rəsulum!) **Kafirlərə itaət etmə və onlara qarşı** (Quranla) **böyük bir cihad et!"**. (Furqan, 25/52)

Ayədə keçən "böyük cihad" ifadəsi, İslam dini uğrunda bütün imkanları səfərbər etmək və Allahın adını ucaltmaq üçün təbliğdə iştirak etmək deməkdir. Həqiqətən də təbliğ edərək cihadda iştirak etmək, düşmənə qarşı silahla savaşmaqdan daha mühüm və faydalıdır. Hz. Peyğəmbər *(s.ə.s)* ilk illərdə təbliğini yalnız Qurani-Kərimlə edirdi. Nəticədə Allah kəlamı böyük ci-

119. Beyhəqi, *Şuabul-İman*, I, 367.

hadı etməyə kifayət etmiş və Məkkədə başlayan bu təbliğ qısa zamanda bütün dünyaya yayılmışdır.

Rəsulullah *(s.ə.s)*: *"Sizdən hər kim bir uyğunsuzluq görərsə onu əli ilə düzəltsin, gücü çatmazsa dili ilə düzəltsin, buna da gücü çatmazsa qəlbi ilə kin bəsləsin! Bu isə imanın ən zəif dərəcəsidir"*[120] – buyuraraq təbliğ vəzifəsinin imanla əlaqəli bir xüsus olduğuna işarə edərək, təbliğçinin gücü nisbətində etməklə mükəlləf olduğu təbliğ metodlarını açıqlamaqdadı.

İslama dəvətin əhəmiyyət və lüzumunu açıq şəkildə göstərən başqa bir xüsusiyyət də bu vəzifəni tərk edənlərin acı aqibət və cəzalara düçar olacaqlarının bildirilməsidir. Allah-Təala belə buyurur:

**"Kitabda** (Tövratda) **insanlara aşkar etdiyimiz dəlillərdən sonra göndərdiyimiz nişanələri və doğru yol göstərən ayələrimizi gizlədən kimsələr Allahın lənətinə düçar olar və bütün lənət edə bilənlər də onlara lənət oxuyar. Mən ancaq tövbə edənləri, yaxşı işlər görənləri və** (Tövratda buyurduqlarımı) **bəlli edənləri əfv edərəm. Mən tövbələri qəbul edənəm, mərhəmətliyəm!"**. (Bəqərə, 2/159-160)

Uca Allahın bu bəyanını açıqlayan bir hədisində Allah Rəsulu *(s.ə.s)* belə buyurmuşdur:

İsrail oğulları arasında zülm yayıldığı dövrlərdə, bir adam digərini günah edərkən görüncə əvvəla onu bu etdiyindən çəkindirirdi. Amma ertəsi gün onunla oturub-durmaq və yeyib-içmək (mənfəət əldə etmək) üçün pislikdən çəkindirməzdi. Allah-Təala onların qəlblərini bir-birinə bənzətdi və haqlarında:

**"İsrail oğullarından kafir olanlara həm Davudun, həm də Məryəm oğlu İsanın dili ilə lənət oxundu. Bu onların üsyan etmələrinə və həddi aşmalarına görə idi. Onlar etdikləri pis əməldən əl çəkmirdilər** (və ya onlar bir-birini etdikləri pis əməldən çəkindirmirdilər) **Onların gördükləri iş necə də pis**

120. Müslim, İman, 78.

**idi!"** (Maidə, 5/78-79) ayələrini nazil etdi. *Bəli, siz də ya zalıma mane olub onu haqqa çəkərsiniz, ya da bu hadisə sizin də başınıza gələr".*[121]

Allah Rəsulunun *(s.ə.s)* mövzu ilə bağlı xəbərdarlıq etdiyi bəyanlarından biri də belədir:

*"Allaha and içirəm ki, siz yaxşılığı əmr edərək pislikdən çəkindirməsəniz, Allah öz dərgahından üzərinizə bir əzab göndərər və həmin vaxt dua etməyə başlayarsınız, amma duanız qəbul edilməz".*[122]

Bir cəmiyyətdə yaxşılığı əmr edən, pislikdən çəkindirən insanlar olmazsa, zaman keçdikcə münkər sayılan əməllər adiləşər. Haqla batil bir-birindən seçilməz və insanlar Allahı unudar. Bunun nəticəsi isə həmin cəmiyyətin tamamilə həlak olması deməkdir. Bu acı aqibətdən qurtulmaq üçün təbliğ fəaliyyətinə əhəmiyyət vermək çox zəruridir.

Təbliğ vəzifəsinə ümidsizliyə düşmədən səbir və mətanətlə davam etmək lazımdır. Çünki mömin yer üzündə təbliğ ediləcək bir insan qalana qədər təbliğə davam etməklə mükəlləfdir. Allah-Təala bununla əlaqədar Quranda Əshabi-Səbti[123] misal verir.

---

121. Tirmizi, *Təfsir,* 5/7; İbn Macə, Fitən, 20.

122. Tirmizi, Fitən, 9.

123. **Əshabi-Səbt (Şənbə əshabı) hadisəsi:** Misir ilə Mədinə arasında, Qırmızı dənizin kənarında Eylə qəsəbəsində bir xalq yaşayırdı. Onlara Əshabı-Səbt deyilirdi. Təqribən yetmiş min nəfər idilər. Onlar şənbə günləri ancaq ibadət edərdilər. Çünki o gün ibadət xaricindəki işlər onlara haram qılınmışdı. Ayrıca Hz. Davuda (ə.s) ov etməmək üzrə də söz vermişdilər. Lakin şeytan, onlara vəsvəsə verməkdən geri qalmadı və onları belə aldatdı: "Sizə ov etmək yox, övladıqlarınızı yemək qadağan edildi!" – dedi.

İlahi bir hikmətə görə balıqlar şənbə günləri çoxalır, digər günlərdə azalırdı. Bu səbəbdən şeytanın vəsvəsəsi bəzilərinə çox cazibədar gəldi. Buna görə xalq arasında üç təbəqə ortaya çıxdı:

*Birinci təbəqə*- Allahın əmrini dinləməyib balıq tutmağa davam edir, tutduları balıqları həm yeyir, həm də satırdılar.

*İkinci təbəqə*- şənbə günü qadağasına riayət etməklə yanaşı ilahi əmrə tabe olmayanlara heç nə demirdilər.

*Üçüncü təbəqə*- ilahi əmri yerinə yetirir, əmrə tabe olmayanlara da nəsihət və xəbərdarlıq edirdi. Günaha qarşı səssiz qalanlara isə susmaqla doğru etmədiklərini deyirdilər. Sükut edənlər, onlara xəbərdarlıq edənlərə: "Həlak olacaq qövmə nə üçün nəsihət edib özünüzü yorursunuz?" – deyirdilər.

Onlar: "Biz, Allah-Təalanın hüzurunda məsul olmamaq üçün belə edirik!" – deyə cavab verirdilər.

Daha sonra ilahi əmrlərə özləri tabe olduğu halda günahkarların günahlarına susanlar

**“Onlardan** (dəniz kənarındakı qəsəbədə yaşayan İsrail oğullarından) **bir dəstə: “Allahın məhv edəcəyi və ya şiddətli əzab verəcəyi bir tayfaya nə üçün öyüd-nəsihət verirsiniz?” – dediyi zaman,** (nəsihət verənlər) **onlara cavab olaraq: “**(İnsanları yaxşı işlərə sövq etmək, pis işlərdən çəkindirmək bizə vacib olduğundan) **bu, Rəbbiniz qarşısında üzrxahlıq etmək üçündür**. **Bəlkə, onlar** (bu öyüd-nəsihətdən nəticə çıxarıb) **pis əməllərdən çəkinsinlər!” – dedilər.** (Əraf, 7/164)

Almalılı Həmdi Yazır bu ayəni təfsir edərkən belə deyir: Təbliğ vəzifəsini yerinə yetirmək, bir mənada son nəfəsinə qədər hər kəsin üzərinə fərzdir. Bununla yanaşı dünyada heç bir xüsusda ümidsizliyə düşmək də doğru deyildir. Nə qədər günahkar olursa olsunlar, insanların hidayətə çatmasını arzu və ümid etmək də bir vəzifədir. Cəmiyyət davamlı olaraq dəyişir və qədərdə nə yazıldığını bilmirik. Bu günə qədər heç bir söz dinləməyən bəzi insanlar bəlkə sabah dinləyər və günahlardan çəkinməyə başlayarlar. Tam şəkildə çəkinməsə də, bəlkə günahlardan bir az uzaqlaşar və bunun sayəsində əzabı yüngülləşər. Hər şəraitdə təbliğ edərək və öyüd vermək təbliği tamamilə tərk etməkdən daha yaxşıdır. Çünki təbliği tamamilə tərk etmək ümid qapısını bağlamaq mənasına gəlir. Hər hansı bir müqavimət göstərilməyən pislik daha sürətlə yayılır. Müəyyən bir pisliyin qarşısını almaq mümkün olmasa da, sürətlə yayılmasına qarşı biganəlik göstərilməməlidir.[124]

Hz. Peyğəmbər *(s.ə.s)* Allah rizası üçün edilməyən hər şeyin nəticə etibarilə batil və faydasız olduğunu xəbər vermiş-

---

onlarla aralarında bir divar hördülər. Bunu onlara gələn müsibət özlərinə toxunmasın deyə etmişdilər. Günlər keçdi divarın arxasındakı səslər kəsildi və bir gecədə günahkarların hamısı meymuna döndü!

Qohumlarının yanında, meymun görünüşündə üzgün və biçarə bir halda dolanıb durdular. Üç gün sonra da hamısı öldü. Təbəri, *Təfsirut-Təbəri*, IV, 140.

Bəğavinin Məalimut-Tənzil adlı təfsirində: Özləri ov etməyən, lakin ov edənlərə də hər hansı bir xəbərdarlıq və nəsihət etməyərək səssiz qalan ikinci təbəqənin də digərləri ilə birlikdə meymun halına gəldiyi bildirilir. Əlavə məlumat üçün baxın: Əraf, 7/163-166

Ayələrdən də ifadə edildiyi kimi Allah-Təala, İsrail oğullarından pislikdə belə israr edən asi bədbəxtləri əvvəlcə meymun görkəminə salmış, sonra da həlak etmişdir.

Bu hadisənin “insanların əslinin meymun olduğu” iddiası ilə heç bir əlaqəsinin olmadığı kimi, belə bir boş sözə də dəlil ola bilməz.

124. Almalılı Həmdi Yazır, *Haqq Dini Quran Dili*, IV, 2313.

dir.[125] Buna görə təbliğ də Allah rizası üçün və ixlasla edilməlidir. Hər hansı bir dünyəvi mənfəət üçün edilən təbliğin Allah qatında heç bir qədir-qiyməti yoxdur.

Allah-Təala Qurani-Kərimdə təbliğin hər hansı bir qarşılıq gözləmədən, yalnız Onun rizası üçün edilməsinin gərəkli olduğunu bəyan edərək belə buyurur.

**"Sizdən** (haqqa dəvət müqabilində) **heç bir muzd** (mükafat) **istəməyən və özləri də doğru yolda olan kəslərin ardınca gedin!".** (Yasin, 36/21)

Peyğəmbərlərin və təbliğ əhlinin vəzifəsi yalnız təbliğ etməkdən ibarətdir. Hidayət vermək isə Allaha məxsusdur. Allah-Təala bu haqda belə buyurur.

"**Allaha itaət edin, Onun Peyğəmbərinə itaət edin; hər kəs** (itaətdən) **üz döndərsə,** (bilsin ki) **Peyğəmbərimizin öhdəsinə düşən yalnız açıq-aşkar təbliğdir!** (O heç kəsi zorla iman gətirməyə məcbur edən deyildir)**".** (Təğabun, 64/12)

Hz. Loğmanın (ə.s) oğluna etdiyi bir nəsihət də, təbliğ əhlinin necə davranacağına nümunədir.

**"Oğlum! Namaz qıl,** (insanlara) **yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə.** (Bu yolda) **sənə üz verəcək müsibətlərə döz. Həqiqətən, bu** (dediklərim) **vacib əməllərdəndir!".** (Loğman, 31/17)

Hz. Peyğəmbər *(s.ə.s)* qəlbini Şanı Uca olan Allaha bağlayaraq və qarşılığını (mükafatını) yalnız Ondan gözləyərək, insanların əlindən tutub Cənnətə doğru aparmaq üçün var gücü ilə çalışmışdır.

### B. Hz. Peyğəmbərin təbliğə verdiyi əhəmiyyət

Allah-Təala Rəsulunu *(s.ə.s)* insanlar arasından seçmiş İslamı bəndələrinə təbliğ etməklə vəzifələndirmişdir. Hz. Peyğəmbər *(s.ə.s)* bu vəzifəni yerinə yetirərkən tayı-bərabəri olmayan bir əzmkarlıq və fədakarlıq göstərmişdir.

---

125. İbn Macə, Zöhd, 21.

Allah Rəsulunun *(s.ə.s)* təbliği dörd mərhələdən ibarət olmuşdur:

1) Qohum əqrəba

2) Öz qövmü

3) Digər bütün ərəb qövmləri

4) Qiyamətə qədər gələcək bütün insanlar və cinlər.

Yəni Hz. Peyğəmbərə *(s.ə.s)* risalət vəzifəsinin verilməsi asandan çətinə doğru mərhələ şəklində irəliləyən bir yolla davam etmişdir. Bu yol Allah-Təalanın **"oxu"**[126] əmri ilə başlamışdır. Bunun ardından Hz. Peyğəmbərə *(s.ə.s)* təbliğ vəzifəsi verilmiş və:

**"Qalx** (qövmünü Allahın əzabı ilə) **və qorxut!".** (Muddəssir, 74/2) Sonra da:

**"Ən yaxın qohumlarını qorxut** (xəbərdar et)**"** (Şura, 26/214) deyilmiş, daha sonra isə bu vəzifə bütün şəhəri əhatə edə biləcək bir hala gəlmişdir.

"(Ya Rəsulum) **Sənin Rəbbin mərkəzlərinə** (ən böyük şəhərlərinə) **ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!"**. (Qasas, 28/ 59)

Bundan sonra isə ətraf vilayətləri də əhatə edə biləcək şəkildə dəvətin hüdudları genişləndi.

**"Bu** (Quran) **da mübarək özündən əvvəlkiləri təsdiq edən bir kitabdır ki, onu sənə Məkkə əhlini və ətrafındakı insanları qorxutmaq üçün nazil etmişik"**. (Ənam, 6/92)

Və ən nəhayət bu vəzifənin hüdudlarının bütün bəşəriyyəti əhatə edə biləcəyi elan edildi.

"(Ya Rəsulum) **Biz Səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"**. (Ənbiya, 21/107)

126. Ələq, 74/1.

Rəsulullah *(s.ə.s)* təbliğdəki bu mərhələlərin hamısını mükəmməl bir şəkildə tamamlamış və bizlərə bunun qaydalarını ən incə təfərrüatına qədər öyrətmişdir.

Hz. Peyğəmbərin *(s.ə.s)* və digər peyğəmbərlərin təbliğdəki həssaslıqlarını Allah-Təala bu şəkildə mədh edir:

**"O Peyğəmbərlər ki, Allahın hökmlərini təbliğ edər, Ondan çəkinər və Allahdan başqa heç kimdən qorxmazlar. Allah özü haqq-hesab çəkməyə kifayətdir".** (Əhzab, 33/39)

Allah Rəsulu *(s.ə.s)* ömrünün sonuna qədər həssaslıqla yerinə yetirdiyi bu vəzifənin ümməti tərəfindən də yerinə yetirilməsini istəyir. Belə ki:

*"Məndən bir ayə (kəlmə) belə olsa insanlara çatdırın"*[127] buyuraraq istənilən halda təbliğ etməyini tövsiyə edir. Bundan başqa Allah-Təala da ən gözəl sözə sahib şəxslərin müsəlman, saleh əməllər işləyən və insanları Allaha dəvət edən şəxslər olduğunu bildirir.[128]

Hz. Peyğəmbərin *(s.ə.s)* bu yolda gedənləri çox sevdiyini onlara etdiyi bu duasından anlayırıq.

*"Bizdən bir şey eşidib, onu eynilə eşitdiyi kimi başqalarına çatdıran kimsənin Allah üzünü ağartsın!".*[129] Təbliğdə israr etməyinin səbəbini isə bu duanın ardınca belə açıqlamışdır:

*"Elə insanlar vardır ki, onlara çatdırılan bilgini şəxsən özü eşidəndən daha yaxşı başa düşər".*[130]

Rəsulullah *(s.ə.s)* ümmətinə qarşı göstərdiyi şəfqət və mərhəmət səbəbilə onlara həqiqətləri çatdırmaq üçün daim çırpınmışdır. Elə bu səbəbdən bir çox səhabəsini müxtəlif yerlərə

---

127. Abdullah ibn Amr ibn Asdan rəvayət edildiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurdu: *"Mənim tərəfimdən (təbliğ edilən Qurandan) bir ayə də olsa insanlara çatdırın. İsrail oğullarından (onların ibrətli qissələrindən) da xəbər verə bilərsiniz. Bunda heç bir qəbahət yoxdur. Kim bilə-bilə mənə yalan istinad edərsə, cəhənnəmdəki yerinə hazırlaşsın".* Buxari, Ənbiya, 50.
128. Fussilət, 41/33.
129. Tirmizi, Elm, 7.
130. Tirmizi, Elm 7.

təbliğçi kimi göndərmişdir. Hz. Əlini (r.a) təbliğ üçün göndərərkən belə buyurmuşdur:

*"Allaha and olsun ki, Allah-Təalanın sənin vasitənlə bir insanı hidayətə çatdırması (ən qiymətli dünya neməti sayılan) qırmızı (qızıl) dəvələrə sahib olmağından daha xeyirlidir".*[131]

Bir şəxsin hidayətinə vəsilə olan kəs, həmin şəxsin nail olduğu gözəl və səmərəli həyatdan nəsibini alacaq və savabını qat-qat artıracaqdır. Bunu ifadə edən bu hədisi-şərif, İslamı təbliğ edən müsəlmanlara nə gözəl bir müjdədir:

*"Hidayətə dəvət edən adama ona tabe olanların savabı qədər savab verilər. Bununla onların savablarından da heç nə əskilməz".*[132] Rəsulullahın *(s.ə.s)* aldığı vəhyi, öyrəndiyi həqiqətləri təbliğ edərkən duyduğu eşq və həvəsi İbn Abbas belə nəql edir:

Hz. Peyğəmbər *(s.ə.s)* bütün insanların iman gətirməyini və hidayətə çatmaq üçün ona beyət etməyini çox istəyirdi. Buna görə Allah-Təala ona yalnız Allahın əzəl elmində bəxtiyar yazılan şəxslərin iman edəcəyini, bədbəxt olanların isə azğınlığa düşəcəyini bildirdi və bu ayəni nazil etdi:

**"**(Ya Rəsulum Məkkə müşrikləri) **iman gətirməyəcəklər deyə, bəlkə, özünü həlak edəsən?! Əgər istəsək, göydən onlara bir ayə** (dəlil) **göndərərik, onlar da ona boyun əyib durarlar".** (Şuəra, 26/3-4)

Bir şəxsin iman etməsi Hz. Peyğəmbərin *(s.ə.s)* çox böyük sevincinə səbəb olduğu halda, bir adamın da imansız ölməsi son dərəcə kədərlənməyinə səbəb olurdu. Əmisi Əbu Talib ölüm döşəyində ikən onun şəhadət gətirməyi üçün göstərdiyi canfəşanlıq dillərə dastandır. Ən axırda ona:

*"Lə iləhə illəllah" de, qiyamət günündə sənə onunla şahidlik edim!"* – dedi. Əbu Talib:

– Qüreyş, qorxusundan belə etdi deyə məni ayıblamasaydı arzunu yerinə yetirər və səni sevindirərdim, – dedi. Buna görə:

131. Buxari, *Əshabin-Nəbi*, 9.
132. Müslim, Elm, 16; Əbu Davud, Sünnə 6; Tirmizi, Elm 15; İbn Macə, *Müqəddimə*, 14.

“(Ya Rəsulum) **Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola yönəldər”** (Qasas, 28/56) ayəsi nazil oldu.[133]

Hz. Aişə (r.anhə) Hz. Peyğəmbərin *(s.ə.s)* İslamı insanlara çatdırmaqda əzm və fədakarlıq göstərdiyi bir hadisəni belə nəql edir:

Əbəsə surəsi gözləri kor olan Abdullah ibn Ümmi Məktum haqqında nazil olmuşdu. Bir gün o, Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəldi və:

– Ey Allahın Rəsulu məni irşad et, dedi. Həmin anda Rəsulullah *(s.ə.s)* müşriklərin tanınmışlarından birinə İslamı anladırdı. Bu səbəbdən İbn Məktuma cavab verə bilmədi. O israr etdikdə Hz. Peyğəmbər *(s.ə.s)* onun tələbini gecikdirdi və müşrikə dönərək:

*“ – Söylədiklərimə qarşı hər hansı bir etirazın varmı?”* deyərək ona haqqı çatdırmağa çalışdı, müşrik isə hər hansı bir etirazının olmadığını dedi. Həmin bu surə məhz bu hadisəyə görə nazil oldu.[134]

Allah Rəsulu *(s.ə.s)* bir müşrikin hidayətə gəlməsi üçün o qədər vaxt sərf edirdi ki, həmin anda onun yanına gələn bir müsəlmana kifayət qədər vaxt ayıra bilmədiyindən Allah-Təalanın qınağına məruz qalmışdır.

Hz. Peyğəmbər *(s.ə.s)* özü ilə ümmətinin halını bu hədisində belə təsvir edir.[135] *“Mənimlə insanlar arasındakı münasibət bu təmsilə bənzəyir: Bir nəfər od yandırır. Alov ətrafı işıqlandırdıqda*

---

133. Müslim, İman, 41-42.

134. Tirmizi, Təfsir, 80; İmam Malik, Muvatta, Quran, 8.

135. Əbu Musa əl-Əşari (r.a) rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu: *“Allahın mənimlə göndərdiyi din və elm yer üzünə bol yağan yağışa bənzəyir. Yağışın yağdığı yerin bir hissəsi münbit torpaqdır: yağış suyunu əmər, çayır və ot bitirər. Bir hissəsi də suyu əmməyib üstündə saxlayan quru yerdir. Allah burada toplanan sudan insanları faydalandırır. Həm özləri içər, həm də heyvanlarını sulayar, əkin işlərini də o su ilə görərlər. Yağışın yağdığı bir yer də var ki, yalçın və heç bir bitki bitirməyən qayalıq ərazidir. Nə suyu özündə saxlayar, nə də ot bitirər. Bu misal Allahın dinində anlayış sahibi olan və Allahın mənimlə göndərdiyi hidayət və elmin fayda verdiyi, onu həm öyrənən, həm də öyrədən kəslə başını qaldırıb buna qulaq asmayan, Allahın mənimlə göndərdiyi hidayəti qəbul etməyən adamın halına bənzəyir”*. Buxari, Elm 20; Müslim, Fəzail 15

*pərvanələr və digər həşaratlar özlərini oda atmağa başlayar. Həmin adam var gücü ilə onlara mane olmağa çalışır. Amma onlar qələbə çalıb bir çoxu özünü oda atır. Mən (eynilə həmin adam kimi) atəşə düşməməyiniz üçün sizi kürəyinizdən tutub geri çəkirəm, siz isə atəşə düşməyə tələsirsiniz.*[136]

Hz. Peyğəmbər *(s.ə.s)* bu hədisdən göründüyü kimi insanlara İslamı təbliğ etmək üçün həcc mövsümündə Məkkədə qurulan bütün çadırları gəzərək qəbilələrin qonaq qaldığı yerlərə gedib özünü onlara təqdim edirdi. İnsanları Allahın birliyinə şəhadət gətirməyə, yalnız ona ibadət etməyə dəvət edir və özünün Allah tərəfindən Haqq Peyğəmbər olaraq göndərildiyini xəbər verirdi.[137] Peyğəmbərliyinin ilk illərində müşriklərin Məkkəyə həcc ziyarətinə gəldiyi vaxtlar bir-bir bütün qəbilələri gəzib-dolaşır, azad-kölə, zəif-güclü, varlı-kasıb ayrı seçkiliyi etmədən hər kəsə İslamı öyrədirdi.

Cabir ibn Abdullah belə nəql edir:

"Allah Rəsulu *(s.ə.s)* həcc mövsümündə vəqfə edilən yerdə özünü hacılara təqdim edərək: *"Məni qövmü ilə görüşə aparan varmı? Qüreyş, Rəbbimin kəlamını təbliğ etməyimə mane oldu"* – deyirdi".[138]

Amma çox təəssüf ki, onlardan onun dəvətini qəbul edəcək, onu müdafiə edərək ona yardım edəcək kimsə çıxmırdı. Əksinə olaraq Hz. Peyğəmbərə *(s.ə.s)* kimisi üzünü turşudur, kimi sərt və kobud davranırdı, kimisi də "Səni qövmün daha yaxşı tanıyır! Onlar sənə niyə tabe olmurlar" deyərək Hz. Peyğəmbərlə *(s.ə.s)* mübahisə edirdilər. Hz. Peyğəmbər *(s.ə.s)* isə onların bütün bu suallarına cavab verərək onları Haqq yoluna dəvət edirdi.[139] Onu bu dəvətindən nə bir müşrik çəkindirə bildi, nə də bir kafir mane ola bildi. Müşriklər Əbu Talibin vasitəsilə Rəsulullaha *(s.ə.s)* xəbər göndərərək bu dəvətindən əl çəksə ona bunun qarşılığında nə istəsə verəcəklərini bildir-

136. Buxari, Riqaq, 26.
137. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 492.
138. Əbu Davud, *Sünnə*, 19-20.
139. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 322.

dilər. Rəsulullah *(s.ə.s)* onların təklifinə qarşı bu ibrətli cavabı vermişdir:

*" – Əmi! Allaha and olsun ki, Allahın dinini təbliğ etməkdən əl çəkmək üçün sağ əlimə günəşi, sol əlimə də ayı versələr, mən yenə də bu dəvətimdən (mübarizəmdən) əl çəkmərəm! Allah-Təala ya onu bütün cahana (aləmə) yayar, vəzifəm bitər; ya da bu yolda ölərəm!"* Sonra da mübarək gözləri yaşardı və ağladı.[140] Bu hədis çox ibrətlidir. Bəzən insanlara etiraz edərkən sənin ciddiliyini anlamaz və yenə də bir şeyə dayanaraq israr etməyə davam edərlər. Hz. Peyğəmbər *(s.ə.s)* insanlığın edə bilməyəcəyi ən son şərti söyləməklə bu məsələ ilə əlaqədar onu bir daha narahat etməmələrini istəmişdir. Yəni onlara bir daha bu mövzuda bazarlıq etmələrinə ümid yeri qoymamışdır.

O, İslamı yaymaq üçün qapı-qapı gəzir, dəfələrlə izah edir və bir sözlə əlinə keçən hər fürsəti dəyərləndirirdi. Bezmək, yorulmaq nədir bilmirdi. Ən qatı düşmənlərinə belə eyni həqiqətləri dəfələrlə başa salmışdı. Buna misal ola biləcək bir hadisəni Muğirə ibn Şöbə belə nəql edir:

Mən və Əbu Cəhl Məkkənin küçələrində gedərkən Allahın Rəsulu *(s.ə.s)* ilə qarşılaşdıq. Hz. Peyğəmbər *(s.ə.s)* Əbu Cəhlə:

*" – Ya Əbul Hakəm! Gəl Allaha və Rəsuluna tabe ol ki, sənin üçün Allaha dua edim!"* - buyurdu. Əbu Cəhl:

– Ya Muhamməd! Sən yenə tanrılarımıza dil uzadacaq, onlara sitayiş etməyimizə mane olacaqsan eləmi? And olsun ki sənin söylədiklərin həqiqət olduğunu bilsəydim sənə tabe olardım! dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* ayrılıb getdikdən sonra mənə dönərək:

– Vallah mən çox yaxşı bilirəm ki, onun söylədikləri haqq və həqiqətdir! – deyərək etiraf etdi.

140. İbn Əsir, *əl-Kəmil*, II, 64.

Sonralar Əbu Cəhl iman etməməyinin səbəbini qəbilələr arasındakı üstünlüyünü qorumaqdan ötrü və qısqanclıq üzündən olduğunu bildirdi.[141]

Hz. Peyğəmbərin *(s.ə.s)*, Allahın dinini təbliğ etməkdə və öyrətməkdə göstərdiyi əzmkarlıq (fədakarlıq) qarşısında aciz qalan Qüreyş müşrikləri bir gün:

– Sən bizi və tanrılarımızı təhqir etmə, biz də sənə və Rəbbinə dil uzatmayaq dedilər. Hz. Peyğəmbər *(s.ə.s)* başını qaldırıb səmaya baxaraq:

" – *O günəşi görürsünüzmü?* – deyə soruşdu".

– Bəli görürük, dedilər. Allahın Rəsulu *(s.ə.s)* İslamın mahiyyətinə və istiqbalına diqqət çəkərək bu ibrətli sualı verdi:

" – *Yaxşı deyin görüm, mən sizin bu günəşin işığından faydalanmağınıza mane ola bilərəmmi?*".[142]

Rəsulullah *(s.ə.s)* burada İslamın çox mühüm bir xüsusiyyətinə işarə etmiş və onu şüaları hər tərəfə saçılan günəşə bənzətmişdir. O, elə bir işıqdır ki, pəncərəsi açıq hər qəlbə dolar və heç kim buna mane ola bilməz. Bu evin (qəlbin) pəncərələri nə qədər çox olarsa günəşin işıqları o qədər çox dolar.

Allah-Təala kainatı aydınlatmaq üçün günəşi yaratdığı kimi, bəndələrinin mənəvi dünyasını işıqlandırmaq üçün də İslamı göndərmişdir. Maddi gözlər üçün günəş işığı nə deməkdirsə, əql və bəsirət gözü üçün də Quran o deməkdir. Günəşin işığına nur deyildiyinə görə Qurani-Kərimə nur demək daha fəzilətlidir.[143] Buna görə Hz. Peyğəmbərin *(s.ə.s)* bəyanları günəşin işığından daha qüvvətli və onun mübarək varlığı nuranilikdə günəşdən daha yüksəkdir. Belə ki, Allah-Təala günəşi yalnız bir çıraq kimi vəsf etdiyi halda,[144] Hz. Peyğəmbəri *(s.ə.s)* "Nurlu bir çıraq"[145] deyə vəsfləndirmişdir. Buradan aydın olur

141. İbn Kəsir, *əl-Bidayə*, III, 113.
142. İbn Kəsir, *əl-Bidayə*, III, 92.
143. Təğabun, 64/8.
144. Furqan, 25/61.
145. Əhzab, 33/46.

ki, günəşin başqalarına nur saçmaq xüsusiyyəti Hz. Peyğəmbərdə *(s.ə.s)* daha qüvvətli şəkildə təzahür etmişdir.

Rəsulullah *(s.ə.s)* məhz bu güclü imanla insanların İslam günəşi ilə nurlana bilməsi üçün bütün gücünü sərf edirdi. Abdullah ibn Cahş Nəhlə səfərində bəzi adamları əsir almışdı. Bunların arasında Hakəm ibn Keysan da var idi. Hz. Peyğəmbər *(s.ə.s)* Hakəmi İslama dəvət etdi. İslamın bütün şərtlərini geniş şəkildə anlatdı. Onda şübhə qalmasın deyə söylədiklərini dəfələrlə təkrar etdi.

Hz. Peyğəmbərin *(s.ə.s)* bu qədər dəvət etməsinə baxmayaraq Hakəmin müsəlman olmadığına qəzəblənən Hz. Ömər:

– Ya Rəsulallah! Onunla niyə bu qədər danışırsan. Vallah o heç vaxt müsəlman olmaz! İcazə ver boynunu vurum cəhənnəmə getsin desə də, Hz. Peyğəmbər *(s.ə.s)* Hakəmə İslamı anlatmağa davam etdi.

Hakəm diqqətini cəmləyərək:

– İslam nədir? – deyə soruşdu.

Rəsulullah *(s.ə.s)*:

*"Allaha heç bir şeyi şərik qoşmadan ibadət etməyin və Muhammədin də onun bəndəsi (qulu) olduğuna şəhadət gətirməyindir!"* – buyurdu.

Hakəm:

– Müsəlman oldum, dedi. Bundan sonra Allahın Rəsulu *(s.ə.s)* əshabına dönərək:

*" – Əgər mən bir az əvvəl siz dediyinizi etsəydim, o indi cəhənnəmə getmişdi"* - buyurdu.[146]

Hz. Peyğəmbər *(s.ə.s)* İslama dəvət edərkən insanlar arasında fərq qoymazdı. Hz. Peyğəmbər *(s.ə.s)* Xeybərin fəthində bir yəhudinin qoyunlarını otaran köləyə İslamı təfsilatı ilə anlatmış və onun hidayətinə vəsilə olmuşdu.

---

146. İbn Sad, *ət-Təbəqatul-Kubra*, IV, 137-138.

Hz. Peyğəmbər *(s.ə.s)*, onu öldürmək məqsədilə gələn Ömər ibn Xəttaba, Məkkənin fəthinə qədər hər cür düşmənçilik edən İkrimə ibn Əbu Cəhlə, Hz. Həmzəni şəhid edən Vəhşiyə və hətta onun cəsədini parçalayaraq qəzəblə ciyərini dişləri ilə didən Əbu Süfyanın arvadı Hində belə təbliğ qapısını bağlamamışdır.

Allahın Rəsulu *(s.ə.s)* əmisi Hz. Həmzəni (r.a) şəhid edərək onu dərin bir kədərə qərq edən Vəhşini İslama dəvət etmək üçün əshabından bir nəfər göndərdi. Vəhşi Rəsulullaha *(s.ə.s)* cavab olaraq:

**" – Ya Muhamməd! Sən, "Bir adam öldürən, yaxud Allaha şərik qoşan və ya zina edən birisi qiyamət günü ikiqat əzaba uğrayar, cəhənnəmdə** (əzab içində) **zəlil və əbədi olaraq qalar"** (Furqan, 25/68-69) – deyərək Allahın hökmünü bəyan etdiyin halda, necə olur ki, məni İslama dəvət edirsən?! Mən bu günahların hamısını etdim. Mənim üçün hansı qurtuluş yolu ola bilər ki? dedi.

Allah-Təala:

**"Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqadır; Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir!"** (Furqan, 25/70) ayəsini nazil etdi.

Vəhşi belə xəbər göndərdi:

– Ya Muhamməd bu çox ağır bir şərtdir. Tövbə etmək, iman gətirmək və saleh əməllər etmək. Bəlkə mənim bunlara gücüm yetmədi?

Bunun ardınca Allah-Təala:

**"Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar. Allaha şərik qoşan kəs əlbəttə, böyük günah etmiş olur"** (Nisa, 4/48) ayəsini nazil etdi.

Hz. Peyğəmbər *(s.ə.s)* bu ayəni ona göndərdikdə bu dəfə Vəhşi:

– Ya Muhamməd əfv etmək, bağışlamaq Allaha məxsusdur. Məni əfv edib-etməyəcəyini bilmirəm. Bundan başqa bir şey varmı? deyə xəbər göndərdi.

Bundan sonra Allah-Təala:

**“**(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) **de: “Ey Mənim** (günah törətməklə) **özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmətindən ümidsiz olmayın. Allah** (tövbə etdikdə) **bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!”** (Zumər, 39/53) ayəsini nazil etdi.

Elçinin bir neçə dəfə gedib gəlməsindən sonra nəhayət Vəhşi son ayədəki müjdəyə sevindi və rahatlandı.

– Rəhmətin nə qədər böyükdür, ya Rəbbim! deyərək bir daha günah işləməmək şərtilə tövbə etdi və yoldaşlarıyla birlikdə müsəlman oldu.

Səhabələr:

– Ya Rəsulallah! Bu əfv və mərhəmət yalnız Vəhşiyə məxsusdur, yoxsa bütün müsəlmanlara da aiddir? deyə soruşdular.

Allah Rəsulu *(s.ə.s)*:

*“ – Bütün müsəlmanlara aiddir”* buyurdu.[147]

Hz. Peyğəmbər *(s.ə.s)*, ona qarşı ən qəddar düşmənlik edənlər üçün bu dərəcədə əmək sərf edir və əlindən gələn hər şeyi edirdi. O, iman gətirmələri üçün insanların ayağına qədər getməyə razı idi. Hz. Əsma (r.anhə) belə nəql edir:

Hz. Peyğəmbər *(s.ə.s)* Məkkənin fəthindən sonra bir gün Məscidi-Həramda oturarkən, Hz. Əbu Bəkir atası Əbu Kühafəni onun yanına gətirdi.

Allahın Rəsulu *(s.ə.s)* onu görüncə:

*“Ya Əbu Bəkir! Gərək yaşlı atanı bura gətirməyəydin, mən onun yanına gedərdim”* dedi.

Əbu Bəkir:

---

147. Heysəmi, *Məcməuz-Zəvaid*, X, 214-215.

–Ya Rəsulallah! Onun sənin yanına gəlməsi, sənin onun yanına getməyindən daha münasibdir, qarşılığını verdi.

Rəsulullah *(s.ə.s)* Əbu Kühafəni qarşısına əyləşdirdi və əlini onun ürəyinə qoyaraq:

*"Ey Əbu Kühafə! Müsəlman ol, qurtularsan!"* dedi. O da müsəlman oldu, səmimi olaraq şəhadət gətirdi".[148]

Hz. Peyğəmbər *(s.ə.s)* bir-bir bütün insanların müsəlman olmasına göstərdiyi fədakarlıqla yanaşı, onların bir an əvvəl iman gətirməsini də istəyirdi. Bəra (r.a) belə rəvayət edir:

Dəbilqə geyinmiş bir adam gələrək:

–Ya Rəsulallah! Savaşda iştirak etdikdən sonra müsəlman olaq? dedi.

Rəsulullah *(s.ə.s)*:

*" – Müsəlman ol, sonra savaşda iştirak et! dedi. Bu adam müsəlman oldu, savaşda iştirak etdi və şəhid oldu.*

Rəsulullah *(s.ə.s)* onun haqqında:

*" – Az əməl işlədi, amma çox qazandı!* – buyurdu".[149]

Bir dəfə də Rəsulullah *(s.ə.s)* bir nəfərə: *"Müsəlman ol"* buyurdu. Həmin adam içimdə belə bir istək yoxdur dedi. Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – İstəksiz olsan da İslamı qəbul et!"* – buyurdu.[150]

Rəsulullahın *(s.ə.s)* bu davranışı insanların hər şeydən öncə və bir an əvvəl Allaha təslim olmalarının əhəmiyyətini göstərir.

Kainatın fəxri onun yanına gələn elçiləri hər şeydən öncə İslama dəvət edərdi. Qeysərin kralı Heraklın elçisi Tənuhi belə nəql edir:

Allah Rəsulunun *(s.ə.s)* yanına gedib qarşısında oturdum. Məktubu ona təqdim etdim. Alıb yanına qoydu və mənə:

*" – Sən kimlərdənsən?"* – deyə soruşdu.

148. İbn Sad, *ət-Təbəqatul-Kubra*, V, 451.
149. Buxari, Cihad, 13.
150. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 109.

– Mən Tənuhlardanam, – dedim.

*“ – Sən hənif dini olan İslama, baban İbrahimin dinini qəbul edə bilərsən?”* – deyə soruşdu.

– Mən qövmüm adından gələn bir elçiyəm və onların dinindənəm. Onların yanına dönənə qədər də dinimi dəyişdirə bilmərəm! – dedim.

Bundan sonra Allahın Rəsulu *(s.ə.s)* təbəssüm etdi və; **“**(Ya Rəsulum) **Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola yönəldər. Doğru yolda olacaq kəsləri daha yaxşı O bilir”** (Qasas, 28/56) ayəsini oxudu.[151]

Hz. Peyğəmbərin *(s.ə.s)* bu fədakarlığı səhabələri tərəfindən də eyni şəkildə mənimsənilmiş və tətbiq edilmişdir. Rəsulullah *(s.ə.s)* Mukavkısın yanına Xətib ibn Əbu Bəltəanı elçi olaraq göndərmişdi. Mukavkıs ona Allah Rəsuluna *(s.ə.s)* aparması üçün bəzi hədiyyələrlə birlikdə Mariya və bacısı Sirini verdi. Xətib yolda bu iki qadına İslamı anlatdı və onları müsəlman olmağa dəvət etdi. Onlar da iman etdilər.[152]

Müsəlman olduğu halda dinini öyrənməyən bəzi şəxslərin lazımi bilikləri öyrənmələrinə kömək etmək də əhəmiyyətli vəzifələrdəndir. Kainatın fəxri belə insanlara üstünlük verir, hər şeydən öncə onlara İslamın rüknlərini öyrətməyə çalışırdı. Təmim ibn Üseyd (r.a) belə nəql edir:

Rəsulullah *(s.ə.s)* xütbə oxuyarkən yanına getdim və:

– Ya Rəsulallah! Dinini bilməyən qərib bir adam gəldi, soruşub öyrənmək istəyir, dedim. Allahın Rəsulu *(s.ə.s)* mənə dönüb baxdı və xütbəsini kəsib yanıma gəldi. Dərhal oturmaq üçün ona bir şey gətirdilər. Oturacağın ayaqlarının dəmirdən olduğu yadımdadır. Üzərinə oturdu və Allah-Təalanın ona öyrətdiyi bəzi şeylərdən bəhs etdi. Sonra təkrar qayıdaraq xütbəsini bitirdi.[153]

---

151. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 442, IV, 75.
152. İbn Sad, *ət-Təbəqatul-Kubra*, VIII, 212.
153. Müslim, Cümə, 60.

Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə baş verən müharibələrin demək olarki hamısı İslamı təbliğ etmək məqsədi daşımışdır. Buna görə də hər döyüşdən əvvəl qarşı tərəf son dəfə İslama dəvət edilmişdir. Buna baxmayaraq Xeybərin mühasirəsində yəhudilərdən bir nəfər fitnə törətmək məqsədilə savaşı qızışdırmaq üçün yalan  söyləmişdi.

Rəsulullah *(s.ə.s)*:

*" – Yəhudilərə bir şeytan gəlmiş və "Muhamməd yalnız mal-dövlətinizi ələ keçirmək üçün sizinlə savaşır!"* – demişdir. *Onlara "Lə İləhə illəllah deyin, bununla mallarınızı və qanlarınızı qoruyun. Axirətdəki hesabınız isə Allaha aiddir!"* – deyə səslənin" – buyurdu.

Rəsulullahın *(s.ə.s)* dediyini elədilər.

Onlar Musanın əlimizdəki kitabı Tövrata and olsun ki, biz nə istədiyinizi edərik, nə də dinimizi buraxarıq! – deyə cavab verdilər.[154]

Bu hadisədən göründüyü kimi Allah Rəsulu göndərdiyi xəbərin doğru başa düşülməsinə diqqət göstərmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* aldığı bütün vəhyləri olduğu kimi heç bir əskiklik olmadan insanlara çatdırmaq üçün böyük bir əzmkarlıq və həssaslıq göstərmişdir. Hz. Aişə anamız:

– Əgər Allah Rəsulu *(s.ə.s)* ona gələn vəhydən bir şey gizləsəydi, bu ayəni gizlədərdi deyərək, Əhzab surəsindəki Hz. Peyğəmbərin *(s.ə.s)* Zeynəblə evlənməsi haqqındakı ələ alan və tənbeh ehtiva edən otuz yeddinci ayəni zikr etmişdir.[155]

Yenə Hz. Aişə belə demişdir:

– Kim Rəsulullahın *(s.ə.s)* Allahın kitabından bir şey gizlətdi deyə sui-zənnə düşərsə Allaha ən böyük iftira atmış olar. Çünki Allah-Təala belə buyurur:

**"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil edilən** (Quranı) **təbliğ et. Əgər** (bunu) **etməsən** (Allahın) **risalətini ye-**

154. Vaqidi, *Məğazi*, II, 653.
155. Tirmizi,*Təfsir*, 33/9.

**rinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!”**.[156]

Rəsulullaha *(s.ə.s)* dini mövzularda bir şey soruşulduğu zaman o haqda vəhy nazil olmamışsa *“bilmirəm”* buyurar və ya vəhy gələnə qədər gözləyərdi. Öz fikiri ilə və qiyasla heç nə deməzdi.[157]

Hz. Peyğəmbər *(s.ə.s)* bunun əksinə, bildiyi halda cavab verməyən şəxslərə də xəbərdarlıq edərək:

*“Bir adamdan bildiyi bir məsələ haqqında soruşulduqda cavab verməzsə, qiyamət günündə ağzına atəşdən bir gəm*[158] *vurular”* buyurmuşdur.[159]

Nəticə etibarilə Rəsulullah *(s.ə.s)* istər vəhyi alarkən, istərsə də onu insanlara təbliğ edərkən, bütün lazımi xüsuslara ən mükəmməl şəkildə riayət etmiş, vəzifəsini tam mənası ilə yerinə yetirmişdir. Vida Həccində də *“Təbliğ etdimmi?”* deyərək üç dəfə soruşmuş və hər üçündə də «Bəli” cavabını almışdır. Daha sonra insanların bu təsdiqinə Allah-Təalanı şahid gətirərək təbliğ edən insanın həyatının necə olmasını şəxsən özü yaşayaraq göstərmişdir. Ömrünün geridə qalan hissəsində isə vəzifəsini tam şəkildə yerinə yetirməyin ona verdiyi hüzurla həmd və şükrünü daha da artırmışdır.

### 1. Hz. Peyğəmbərin İslama təbliğ metodunu nəyə görə öyrənməliyik?

Müsəlmanlar şüurlu şəkildə hərəkət edərək İslamı ucaltmağı məqsəd bilən fərd və dövlətlərlə birləşərək İslamın aliliyini bütün dünyaya çatdırmaq məcburiyyətindədirlər. Bundan əlavə İslamdan kənar bütün qüvvə və qruplar qarşısında qürurla durmağı bacarmalı, bütün güclərindən istifadə edərək qorxutmadan və nifrət etdirmədən ən gözəl üslubla hidayət yolunu göstərməyi bacarmalıdırlar. Bunu edərkən istifadə

156. Maidə, 5/67; Müslim, İman, 287.
157. Buxari, İtisam, 8.
158. Quzu, buzov və s. heyvan balalarının analarını əmməməsi üçün ağızlarına vurulan dəmir, çubuq və s-dən toxunmuş tor.
159. Tirmizi, Elm, 3.

ediləcək metod və üslub çox önəmlidir. Bəs istifadə ediləcək üslub necə olmalıdır? Məqsədə ən gözəl şəkildə çatmağın yolu Rəsulullahın tətbiq etdiyi metodlara sarılmaqdadır.

Uca Allah həm dünyəvi, həm də üxrəvi bütün məsələlərdə hər zaman Rəsulullaha *(s.ə.s)* itaət etməyi və onun yolundan getməyi əmr etmişdir. Uca Allah Qurani-Kərimin bir çox ayəsində: **"Söylə: "Allaha və Peyğəmbərə** (Onun Peyğəmbərinə) **itaət edin!".** (Ali-İmran, 3/32) **"Allaha və peyğəmbərə itaət edin ki, bəlkə, bağışlanmış olasınız!".** (Ali-İmran, 3/132) **"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar** (əmr) **sahiblərinə itaət edin!".** (Nisa, 4/59) **"Allaha və Peyğəmbərə itaət edin".** (Maidə, 5/92) **"Allaha və Onun Peyğəmbərinə itaət edin!".** (Ənfal, 8/1) **"Ey iman gətirənlər! Allaha və Onun Peyğəmbərinə itaət edin".** (Ənfal, 8/20) buyurmuşdur. Rəsulullah da *(s.ə.s)* Sünnəsinə sarılmağı tövsiyə etmişdir. Və bu haqda belə buyurmuşdur: *"Sizə iki əmanət buraxıram. Onlara sarıldığınız müddətcə zəlalətə düşməzsiniz. Onlar Allahın Kitabı və Rəsulunun Sünnəsidir".*[160] Hz. Peyğəmbərin *(s.ə.s)* Sünnəsinin tərk edilməsi zəlalətə səbəb olar. *"Əgər Peyğəmbərinizin Sünnəsini tərk edərsinizsə zəlalətə düşərsiniz"*[161] və *"Mənim Sünnəm ilə əməl etməyən məndən deyil".*[162]

İslama dəvət etmək üçün mütləq hər hansı bir metoddan istifadə edilməlidir. Rəsulullahın *(s.ə.s)* metodları isə tabe olmağa daha layiqdir. İbn Ömər belə demişdir: "Rəsulullahın *(s.ə.s)* Sünnəsinə tabe olmaq, başqalarının yoluna tabe olmaqdan daha layiqlidir.[163]

Çünki Uca Allah onun haqqında: **"Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər** (Allahdan, qiyamət günündən qorxanlar) **və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"** (Əhzab, 33/21) buyurmuşdur.

---

160. Əbu Davud, Talaq, 40; İmam Malik, Muvatta, Qədər, 3; Darimi, Müqəddimə, 24; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 75, III, 212, 286, IV, 206, V, 30.
161. Əbu Davud, Salət, 46; Nəsai, İmamət, 50; İbn Macə, Məscid, 14; Əhməd ibn Hənbəl, *Müsnəd,* I, 382, 415, 419, 455.
162. Buxari, Nikah, 1; Müslim, Nikah, 5; Əbu Davud, Tatavvu, 27; İbn Macə, Nikah, 1; Darimi, Savm, 17, Nikah, 3.
163. Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 56-57.

İlahi qanunlar Hz. Peyğəmbərin *(s.ə.s)* həyatında öz əksini tapmışdır. Təbliğçilərin qarşılaşa biləcəkləri bütün vəziyyətlərin bənzərini Rəsulullahın *(s.ə.s)* həyatında görmək mümkündür.[164]

Buna görə də İslamın ilk təbliğçisi Hz. Peyğəmbərin *(s.ə.s)* İslama dəvət metodlarını diqqətlə öyrənməyə və bunları həyatımızda tətbiq etməyə məcburuq.

Bizdən on dörd əsr əvvəl tətbiq edilən metodların günümüzdə keçərli olub-olmaması müzakirə oluna bilər. İslama düşmən olan bəzi insanlar Qurani-Kərimin günümüzə xitab etmədiyini deyərək müsəlmanların beyinlərinə şübhə toxumu səpməyə çalışırlar. Müsəlman olan insan isə yəqin olaraq bilir ki, İslam haqq din, Qurani-Kərim əsas meyar, Hz. Peyğəmbər *(s.ə.s)* isə son peyğəmbərdir. Quran və Sünnədəki hökmlər bütün dövrlərə xitab edən dəyişməz əsaslardır. Hidayət və təqva öndəri olan Rəsulullahın *(s.ə.s)* təbliğ etdiyi Qurani-Kərim və şəxsən yaşayaraq göstərdiyi Sünnə qiyamətə qədər haqq yolun əsas meyarı olmağa davam edəcəkdir.

Müsəlmanlar həmçinin müasir texnologiyanın imkan və vasitələrindən də istifadə etməyi bacarmalıdırlar.

Dəyişən və inkişaf edən metodlar Qurani-Kərimə və Sünnəyə uyğun olmalıdır. Bunların təsbit edilməsinin şərti Hz. Peyğəmbərin *(s.ə.s)* İslama dəvət metodlarının mükəmməl şəkildə bilinməsindən asılıdır.

Daha əvvəl də ifadə etdiyimiz kimi metodun təriflərindən biri bu şəkildədir: "Metod, bir məqsədə ən tez və təhlükəsiz şəkildə çatmağı təmin edən vasitələrin məcmusudur". Rəsulullah *(s.ə.s)* 23 il kimi qısa müddət ərzində tarixdə misli-bərabəri olmayan örnək toplum yaratmağı bacarmışdır. Və həmin dövrə "Əsri-Səadət / Səadət Əsri" deyilmişdir. Bu həqiqəti İslama düşmən olanlar belə qəbul etmək məcburiyyətində qalmışlar. Buna görə də Rəsulullahın *(s.ə.s)* tətbiq etdiyi metodları həssaslıqla incələmək lazımdır.

164. Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 326.

# Birinci Bölüm

## TƏBLİĞ METODUNUN YÖNLƏRİ

Rəsulullahın *(s.ə.s)* 23 illik peyğəmbərlik dövrü boyunca istifadə etdiyi metodları müxtəlif yönlərdən araşdırmaq mümkündür. Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ metodlarını üç əsas başlıqda araşdırmaq istəyirik:

1. Rəsulullahın  təbliğdə təqib etdiyi mərhələlər
2. Rəsulullahın psixoloji təbliğ metodu
3. Rəsulullahın ictimai təbliğ metodu

Mövzu çox önəmli və geniş olduğu üçün fərqli üslublarla da araşdırıla bilər. İndiyə qədər bu mözvu ətrafında elmi fəaliyyət apanlar ümumiyyətlə: **"**(Ya Rəsulum!) **İnsanları hikmətlə** (Quranla, tutarlı dəlillərlə)**, gözəl öyüd-nəsihət** (moizə) **ilə Rəbbinin yoluna** (islama) **dəvət et, onlarla ən gözəl surətdə** (şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə) **mübahisə et. Həqiqətən, Rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!"** (Nəhl, 16/125) ayəsini əsas götürərək metodu üç qismə ayırmışlar:

1. Hikmətlə dəvət,
2. Gözəl öyüd-nəsihətlə dəvət
3. Ən gözəl şəkildə mübarizə aparmaq

Biz isə bu üç əsasa bağlı qalmağın özlüyündə bir çox naqisliyə səbəb olacağını düşünürük. Biz mövzunu müəyyən plan daxilində və əskik xüsus buraxmamağa çalışaraq araşdırmağa çalışdıq.

# I. TƏBLİĞ MƏRHƏLƏLƏRİ

Metodun bir-birinə yaxın olan müxtəlif təriflərindən biri bu şəkildə idi. "Hər hansı bir məqsədə çatmaq üçün əvvəlcədən seçilmiş bir yoldur".[165] Fəaliyyətə başlamadan əvvəl ilk ediləcək işin hansı şəkildə ediləcəyi planlaşdırılmalıdır. Bu isə metodun bir növüdür.

Qurani-Kərimdəki **"**(Yer üzündə) **fitnə** (şirk) **qalmayıb, bütün din** (ibadət) **yalnız Allaha məxsus olanadək onlarla vuruşun"** (Ənfal, 8/39) əmri bizə müəyyən metod şəkli öyrədir. Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğində də ən gözəl üsul və metodlar tətbiq edilmişdir.

Qurani-Kərimin ifadə etdiyi kimi Rəsulullah *(s.ə.s)* vəhy və təbliğlə əlaqəli xüsuslarda əsla özündən danışmamışdır. Onun Sünnəsi bu yönü ilə vəhyə əsaslanır. Dariminin nəql etdiyi bir hədisdə Cəbrayılın (ə.s) Qurani-Kərim kimi Sünnəyə də vasitəçilik etdiyi bildirilir.[166] Hz. Peyğəmbərin *(s.ə.s)* təqib etdiyi metodlar vəhyə əsaslanır.

Hz. Peyğəmbərin *(s.ə.s)* məqsədə çatmaq üçün təqib etdiyi mərhələləri belə sıralamaq mümkündür.

a - Təbliğə hazırlıq,

b - Kadrlaşmaq

c - Kütləviləşmə

ç - Müəssisələşmək

## A. Təbliğə hazırlıq

İslami dəvət yükünü çiyinlərdə daşımaq üçün səbir, dözümlülük, əzm, iradə, şəfqət, mərhəmət, ümid, istiqamət, təvazökarlıq və vüqarlı olmaq kimi üstün məziyyətlərə sa-

165. Xəncərlioğlu, Fəlsəfə Ensiklopediyası, IV, 151.
166. Darimi, *Müqəddimə*, 49.

hib olmaq lazımdır. Həmçinin təbliğ əsaslarına vaqif olmaq, həmsöhbətinin ictimai və psixoloji yöndən hansı vəziyyətdə olduğunu bilmək, qarşısındakını razı salmaq qabiliyyəti, elmli olmaq, çətinliklərə sinə gərə bilmək, kiçik problemlər qarşısında ruhdan düşməmək və geri çəkilməmək və dəvətin hər cür yükünü daşıya biləcək gücə sahib olmaq önəmlidir. Təbliğ məşəqqətli və o qədər də müqəddəs işdir. Bu işi çiyinlərə ala bilmək üçün psixoloji, fiziki və elmi yöndən, həmçinin maddi olaraq hazır olmaq lazımdır.

Rəsulullahın *(s.ə.s)* təbliğində bu mərhələnin həyatı boyu davam etdiyini görə bilərik. Onu təbliğ fəaliyyətinə hazırlayan və davamlı olaraq ona istiqamət verən Allahdır. **"Allah peyğəmbərliyi hara** (kimə) **göndərəcəyini Özü daha yaxşı bilir"**. (Ənam, 6/124) Və O, Rəsulunu qövmünün şərəfliləri arasından xüsusilə seçmişdir. Peyğəmbərlərin əsil-nəcabətli və şərəfli nəsildən olması zəruridir. Uca Allah peyğəmbərləri hər zaman sayılıb-seçilən nəsilərin içərisindən seçmişdir.[167] Hz. Peyğəmbərin *(s.ə.s)* İslama dəvət məktubunu alan Herakl işin əslini öyrənmək üçün hüzuruna çağırdığı Əbu Süfyandan bu xüsusu öyrənmək istəmişdir. Əbu Süfyan müşrik olmasına baxmayaraq Hz. Peyğəmbərin *(s.ə.s)* şərəfli bir nəsil və ailədən gəldiyini söyləmək məcburiyyətində qalmışdır.[168] Herakla görə peyğəmbərlər ancaq şərəfli nəsillərdən seçilirdi və bu xüsus Hz. Muhamməddə də vardı.[169] Şəxsən Hz. Peyğəmbər *(s.ə.s)* özü ta Hz. Adəmdən bu yana daima ən xeyirli qəbilədən, ən xeyirli nəsildən və ən xeyirli ailədən seçildiyini ifadə etmişdir.[170] Bundan əlavə özünə qədər olanların daima nikahdan doğulduqlarına diqqət çəkmişdir.[171]

Tərtəmiz nəsildən seçilən Hz. Peyğəmbərin *(s.ə.s)* doğulmadan qısa müddət əvvəl atasını itirməsi, həyatının ilk bir neçə ilini çöldə keçirməsi, daha sonra anadan yetim, ardından

167. Sibai, *Hz. Muhamməd və Həyatı*, s, 33-34.
168. Geniş məlumat üçün baxın: Buxari, vəhyin başlanğıcı, 7.
169. Buxari, Cihad, 102; Müslim, Cihad, 74; Təbəri, *Tarix*, II, 647-648; İbn Kəsir, *əl-Bidayə*, IV, 263-265.
170. Buxari, Mənəqib, 23; Müslim, Fədail, 1; Tirmizi, Mənəqib, 1; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 210.
171. İbn Kəsir, *əl-Bidayə*, II, 255-256.

isə babasına həsrət qalması və s. Rəsulullahı *(s.ə.s)* təbliğə hazırlayan səbəblərdəndir.[172]

Hz. Peyğəmbərin *(s.ə.s)* Hz. Həlimənin yanında ikən qəlbinin yarılması hadisəsi də mənəvi olaraq təbliğə hazırlığı ifadə edir.[173]

Rəsulullahın *(s.ə.s)* uşaqlıq və gənclik dövrünü ehtiva edən bir neçə hadisəyə də nəzər salaq: Məkkə əhalisinin iştirak etdiyi bayramlardan biri Buvanə idi. Bayram günü qüreyşlilər bütlərin önündə qurban kəsərək onlara təzim edərdilər. Hz. Peyğəmbər *(s.ə.s)* hər il bir səbəblə bayramda iştirak etməkdən imtina edərdi. Bir dəfə əmisi Əbu Talib və bibiləri ona getməsi üçün çox təkid etdilər. Hz. Peyğəmbər də məcbur qalaraq bu bayramda iştirak etmək üçün bayram yerinə getdi. Bayram başlayanda siması ağappaq oldu və titrəyərək əmisinin və bibilərinin yanına qayıtdı. Ondan nə baş verdiyini soruşduqda isə heç tanımadığı adamların bayramda istirakına mane olduqlarını bildirdi. Hz. Peyğəmbərin *(s.ə.s)* bibiləri bu hadisədən sonra bir daha onu bayrama aparmadılar.[174]

İbn İshaqın nəql etdiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)* balaca vaxtı uşaqlarla oynayarkən oyunun şərti olaraq daş daşımalı olur və bu zaman çiyinləri əzilməsin deyə izarını[175] çiyninə atır. Bu vaxt övrət yeri açılır və görmədiyi biri onu belə etməməsi üçün tənbehləyir.[176] Bu hadisənin eynisi Kəbənin yenidən inşa edilməsi zamanı da yaşanmışdır.[177]

Hz. Peyğəmbər *(s.ə.s)* çobanlıq etdiyi zaman bir gün qoyunlarını çoban yoldaşına əmanət edərək oyun-əyləncə olan yerə getmək istəyir. Lakin ora yaxınlaşdığı zaman onu bərk yuxu basır və ancaq günəş çıxdıqdan sonra oyana bilir. Bu hadisə iki dəfə yaşanmışdır və Uca Allah onu cahalətin çirkinliklərindən

172. Buti, *Fiqhus-Sira*, s, 50-51.
173. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 164-165; Süheyli, *Ravd*, I, 188-191.
174. Hələbi, *İnsan*, I, 123; İbn Seyyidin Nəs, *Uyun*, I, 45.
175. Allah Rəsulu *(s.ə.s)* adətən iki hissəli paltarlar geyinirdi. Həmin paltarın beldən yuxarı hissəsi rida, beldən aşağı hissəsi isə izar adlanırdı.
176. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 183.
177. Buxari, Mənəqib, 25; Müslim, Xayd, 76-77; Əhməd ibn Hənbəl, Müsnəd, III, 295-310, 333, 380; Süheyli, *Ravd*, I, 208-209.

bu şəkildə qorumuşdur. Və o, bir daha belə işlərə meyl etməmişdir.[178]

Bir dəfə Hz. Peyğəmbərə *(s.ə.s)* bütlər üçün qurban edilmiş heyvanın ətindən təqdim edirlər. O, *"Mən bütlər üçün kəsilən ətdən yemirəm"* deyərək fikrini bildirmişdir.

Bütün bunlar onu göstərir ki, Rəsulullah *(s.ə.s)* peyğəmbərlərdə olan ismət (günahsızlıq) sifətinə uyğun olaraq Uca Allah tərəfindən qorunmuşdur. Həmçinin bütün bunlarla təbliğə hazırlanmışdır.

Təhrif olmasına baxmayaraq əvvəlki kitablarda Hz. Peyğəmbərin *(s.ə.s)* gələcəyi bildirilirdi. Əhli-kitab sonuncu peyğəmbəri gözləyirdi.

Gözlənilən peyğəmbər əlbəttə ki, təbliğə hazırlanmalı idi. Bu səbəblə də insanlar gözlədikəri xüsusları onda görə biləcəkdilər.

Yuxarıda qeyd etdiyimiz hadisələrdən əlavə olaraq Hz. Peyğəmbərin *(s.ə.s)* qarşılaşdığı çətinlikləri, qazandığı həyat təcrübəsini, Ficar müharibəsində[179] və Xil-ful Fudulda[180] iştirak etməyini peyğəmbərin ailəvi, iqtisadi, hərbi, siyasi, ictimai və s. sahələrdə yetişdirilməsi kimi qəbul etməliyik.[181]

Bu hazırlıqlar Hz. Peyğəmbərin *(s.ə.s)* nübüvvət dövründə də davam etmişdir. Uca Allah həqiqətən ağır bir vəzifə olan təbliğə hazır olmağı əmr etmişdir: **"Ey** (libasına) **örtünüb bürünən** (əbasına bürünüb yatan Peyğəmbər)**! Gecəni – az bir hissəsi istisna olmaqla – qalxıb namaz qıl!** (Gecənin) **yarısına qədər, yaxud bir qədər ondan az; Və ya bir qədər ondan**

178. İbn Əsir, *əl-Kəmil*, II, 38; İbn Seyyidin Nəs, *Uyun*, I, 44-45.
179. **Ficar**- lüğətdə «azmaq, haqdan ayrılmaq, günaha batmaq, and içmək və andını yerinə yetiməmək» kimi mənalara gəlir. İslamdan əvvəl Ərəb qəbilələri arasında müxtəlif səbəblərlə tez-tez müharibələr baş verirdi. Bunlardan dördü, qan tökməyin qadağan olduğu haram aylarda (zülqədə, zil-həccə, məhərrəm, rəcəb) baş verdiyi üçün «ficar müharibələri» (əyyəmul-ficar) - deyə anılmışdır. Diyanət İslam Ensiklopediyası, "Ficar" maddəsi, XIII, 52.
180. Bəzi Qüreyş qəbilələrinin, Məkkədə haqsızlığa məruz qalan insanlara yardım etmək məqsədilə imzaladıqları sazişdir. Bu sazişdə Hz. Peyğəmbər *(s.ə.s)* də iştirak etmişdir. Rəsulullah *(s.ə.s)* peyğəmbər olduqdan sonra belə bir sazişə dəvət edilsə qəbul edəcəyini bildirmişdir. Əhməd ibn Hənbəl, *Müsnəd,* I, 190.
181. İmaduddin Xəlil, *Dirasə fis-Sira*, s, 45-53.

**çox!** (Sənin gecəni oyaq qalıb namaz qılmağın onun üçdə bir hissəsindən az, üçdə ikisindən çox olmasın!) **Həm də** (gecə ibadət etdiyin zaman) **aramla** (ağır-ağır) **Quran oxu! Həqiqətən, Biz sənə** (məsuliyyəti) **ağır bir kəlam** (Quran) **vəhy edəcəyik".** (Muzzəmmil, 73/1-5) Həmçinin təhəccüd namazı ona fərz qılınmışdır. "(Ya Rəsulum!) **Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə** (təhəccüd) **namazı qıl. Ola bilsin ki, Rəbbin səni** (qiyamət günü hamı tərəfindən) **bəyənilib tərifl ənən bir məqama** (axirətdə ən böyük şəfaət məqamına) **göndərsin!"**. (İsra, 17/79) Rəsulullah *(s.ə.s)* həyatı boyu onu təbliğə hazırlayan, əzm və şövqünü qüvvətləndirən bu namazı heç vaxt tərk etməmişdir.

Sadaladıqlarımızdan sonra onun təbliğə necə və hansı şəkildə hazırlandığı xüsusu üzərində durmaq istəyirik. Bu təbliğ fəaliyyəti ilə məşğul olanların ən zəif cəhətidir. Təbliğə hazır olmadan, təbliğin özünü və əsasını anlamadan, təbliğ ruhunu qavramadan təbliğ fəaliyyəti ilə məşğul olmaq əsla doğru deyil. Buna görə də təbliğçilərin Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ hazırlıq şəklini çox yaxşı bilmələri və həyatlarında tətbiq etmələri lazımdır. Təbliğə ancaq tam şəkildə hazır olduqdan sonra başlamaq lazımdır ki, müvəffəqiyyət qazanılsın.

Biz mövzuya başlayarkən ifadə etmişdik ki, İslami dəvət yükünü çiyinlərdə daşımaq üçün səbir, dözümlülük, əzm, iradə, şəfqət, mərhəmət, ümid, istiqamət, təvazökarlıq və vüqarlı olmaq kimi üstün məziyyətlərə sahib olmaq lazımdır. Həmçinin təbliğ əsaslarına vaqif olmaq, həmsöhbətinin ictimai və psixoloji yöndən hansı vəziyyətdə olduğunu bilmək, qarşısındakını razı salmaq qabiliyyəti, elmli olmaq, çətinliklərə sinə gərə bilmək, kiçik problemlər qarşısında ruhdan düşməmək və geri çəkilməmək və dəvətin hər cür yükünü daşıya biləcək gücə sahib olmaq önəmlidir. Təbliğ məşəqqətli və o qədər də müqəddəs işdir. Bu işi çiyinlərə ala bilmək üçün psixoloji, fiziki və elmi yöndən, həmçinin maddi olaraq hazır olmaq lazımdır.

Rəsulullahın *(s.ə.s)* təbliğə hazırlığı hansı mərhələlərdən keçmişdir?

### 1. Mənəvi hazırlıq

Buna nəfsi tərbiyə və əxlaqi hazırlıq da deyə bilərik. Müasir İslam təbliğçilərindən Həsən əl-Hudaybi belə demişdir: «İslamı əvvəlcə qəlblərinizə hakim qılın; yer üzündə və olduğunuz yerdə İslam hakim olacaqdır".[182] İslam dəvəti təbliğçinin özü ilə başlayır. Bu sahədə ediləcək ilk iş İslami şəxsiyyət və iradəyə sahib olmaq, nəfsi təmizləmək, günahlardan, eyib və qüsurlardan arınmaqdır.[183] Nəfsini islah etməyə çalışmayan bir təbliğçinin Uca Allahdan kömək istəməyə haqqı yoxdur. Çünki **"Hər hansı bir tayfa öz tövrünü** (nəfsində olanları) **dəyişmədikcə** (pozmadıqca)**, Allah da onun tövrünü** (onda olanları, onun əhvalını) **dəyişməz".** (Rad, 13/11)

Təbliğçi hər şeydən əvvəl doğru əqidəyə sahib olmalı, təbliğ fəaliyyətinə bütün gücü ilə sarılmalı, batil inanc və düşüncələrdən qaçmalıdır. Qəlbini bu kimi mənfiliklərdən qorumalıdır.[184] Qarşılaşa biləcəyi problemlərə qarşı hazırlıqlı olmalıdır. İmanın keyfiyyəti çətinliklərlə qarşılaşdıqda üzə çıxır.

Təbliğçi ibadətlərə son dərəcə bağlı və yaşayışı ilə də nümunə olmalıdır. İnsanlar onda İslam əxlaqını görməlidirlər. İnsanlar təbliğçilərin sözlərindən daha çox yaşayışlarına, ibadətlərinə və əxlaqlarına diqqət edirlər. Təbliğçilər etmədikləri işi etmiş kimi söyləyənlərdən olmamalıdırlar. Bu xüsuslara daha artıq fikir verməli və daha çox diqqət göstərməlidirlər.[185]

Rəsulullahın *(s.ə.s)* həyatına və təbliğ üçün mənəvi hazırlıqlarına nəzər saldıqda doğumundan etibarən şirkin və cahiliyyənin hər cür pis vərdiş və əxlaqsızlıqlarından qorunduğunu görə bilərik: Bütlərə sitayiş etməmiş və onların adına kəsilən ətdən yeməmişdir. Qövmü içərisində etibarına görə "əl-Əmin" adlandırılmış, peyğəmbərliyindən sonra belə müşriklər onun doğruluğunu, əhdə vəfasını, etimadını və digər yüksək əxlaqi

182. M. Məşhur, *Tariqud-Dəavə*, I, 27.
183. F. Yekən, *Müşkilət*, s, 145-146.
184. M. Məşhur, *Tariqud-Dəavə*, I, 109-113.
185. Zəhəbi, *Müşkilət*, s, 23-29; Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 333; Buti, *Fiqhus-Sünnə*, s, 268, *Həkəzə fəl-Nədu*, s, 19; M. Məşhur, *Tariqud-Dəavə*, I, 109-113; A. Faiz, *Tariqud-Dəavə*, I, 191.

keyfiyyətlərini etiraf etmişlər. Müşriklər onun peyğəmbərliyini qəbul etməsələr də ona etimadları tam idi. Bütün bunlar mənəvi olaraq təbliğə hazırlamağın müxtəlif yönləridir.

Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğə mənən hazırlanmasında inziva həyatının önəmli yeri vardır. O, insanlardan uzaqlaşaraq özünü ibadətə həsr edər,[186] Hira mağarasında inzivaya çəkilər, Allahın varlığını, birliyini və bəndələri üzərindəki nemətlərini düşünərdi. İnziva, bəndənin Rəbbinə yaxın olduğu, insanı mənən inkişaf etdirən ən mühüm vasitədir. Hz. Peyğəmbərin *(s.ə.s)* inziva həyatı ümumi olaraq müsəlmanlar, xüsusilə təbliğ fəaliyyəti ilə məşğul olanlar üçün ən gözəl nümunədir.

Bu mərhələlərdən sonra mənəvi hazırlıq sona çatırmı? Əsla! Mənəvi hazırlıq mütəmadi olaraq davam etməlidir. Çünki təbliğçi hər an Rəbbi ilə yaxın olmaq məcburiyyətindədir. Hər zaman Onun lütf edəcəyi yardıma möhtacdır.

Uca Allah Muzzəmmil surəsində Hz. Peyğəmbərə *(s.ə.s)* hazırlığa davam etməyini əmr etmişdir. **“Ey** (libasına) **örtünüb bürünən** (əbasına bürünüb yatan Peyğəmbər)**! Gecəni – az bir hissəsi istisna olmaqla – qalxıb namaz qıl!** (Gecənin) **yarısına qədər, yaxud bir qədər ondan az; Və ya bir qədər ondan çox!** (Sənin gecəni oyaq qalıb namaz qılmağın onun üçdə bir hissəsindən az, üçdə ikisindən çox olmasın!) **Həm də** (gecə ibadət etdiyin zaman) **aramla** (ağır-ağır) **Quran oxu!”**. (Muzzəmmil, 73/1-4) Vəzifəsi ağır olduğu üçün hazırlıqlı olmaq önəmlidir: **“Həqiqətən, Biz sənə** (məsuliyyəti) **ağır bir kəlam** (Quran) **vəhy edəcəyik”.** (Muzzəmmil, 73/5) Hz. Peyğəmbərin *(s.ə.s)* mükəlləf olduğu vəzifə ağır olduğu üçün ona gecə namazı əmr edilmişdir. Gecə namazı ilə qazanılan faydalar başqa heç bir şeylə əvəz edilə bilməz. Heç bir hazırlıq gecə namazının yerini tuta bilməz. **“**(Ya Rəsulum!) **Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə** (təhəccüd) **namazı qıl”**. (İsra, 17/79) Keçmiş və gələcək günahları bağışlandığı halda ona təhəccüd fərz qılınmışdır. İlk təbliğçi olan Hz. Peyğəmbərin *(s.ə.s)* yolundan getmək istəyənlərin gecə namazına daha çox ehtiyacı var. Təbliğin və axirət yolunun sərmayəsi budur. Yolçuluğa hazırlıqsız

---

186. İbn Kəsir, *əl-Bidayə*, III, 5; Təbəri, *Tarix*, II, 298; İbn Xaldun, *Tarix*, II, Bəqiyyə, 6.

çıxılmayacağını bilənlər daha çox diqqətli olmalıdır[187] Rəsulullah da bizə gecə namazını tövsiyə etmişdir. *"Sizə gecə namazını tövsiyə edirəm. Şübhəsiz ki o, sizdən əvvəlki saleh insanların adəti idi. Sizin üçün də Rəbbinizə yaxınlıq, günahlara kəffarə və xətalardan qorunmaq üçün vəsilədir"*.[188]

Təhəccüd namazı ilə əlaqəli qeyd edilən hər iki ayədə diqqəti çəkən bir xüsus var. Birinci ayədə Hz. Peyğəmbərə *(s.ə.s)* gecə namazı əmr edildikdən sonra buyurulur ki: **"Həm də** (gecə ibadət etdiyin zaman) **aramla** (ağır-ağır) **Quran oxu!"**. (Muzzəmmil, 73/4) İkinci ayədə isə Quranla gecə namazı qılması əmr edilir.[189] Mənəvi hazırlıq mərhələsində Quran-Kərimin rolu böyükdür.

Hz. Peyğəmbərə *(s.ə.s)* xitabən Uca Allah belə buyurmuşdur: **"**(Ümmətinin sənin özünə aid etdiyin) **günahının bağışlanmasını dilə. Axşam-səhər Rəbbini həmd-səna ilə təqdis et!** (Daim Allahı zikr et və ya gündə beş vaxt namaz qıl!)**"**. (Ğafir, 40/55) **"**(Ya Peyğəmbər!) **Artıq onların dediklərinə** (batil sözlərinə) **səbr et. Gün doğmamışdan əvvəl, batmamışdan əvvəl Rəbbini təqdis edib şəninə təriflər de!"**. (Qaf, 50/39) Hz. Peyğəmbər *(s.ə.s)* həyatını Uca Allahın istəyinə uyğun olaraq tənzimləmişdir.

Sadaladıqlarımızdan əlavə təbliğ fəaliyyətində mənəvi hazırlıq üçün fərz olan ibadətlərin yeri də danılmazdır. Əslində fərzlər əsas və başlıca şərtdir. İbadətlərindən zövq ala bilməyən, camaat şüuru daşımayan, üzərinə fərz olan ibadətləri belə tam olaraq bilməyən və digər əmr və qadağalara diqqət göstərməyənlərin -günümüzdə olduğu kimi- İslami təbliğ fəaliyyəti ilə məşğul olmağa çalışmaları (nə qədər də) düşündürücüdür. Əlbəttə ki, bu sahəni öz başına buraxan müsəlmanlar bunun məsuliyyətini daşıyırlar. Müsəlmanlar təbliğ vəzifəsi ilə səmimiyyətlə məşğul olacaq təqva əhli, elm və əxlaq sahibi təbliğçilər yetişdirməyə borcludurlar.

---

187. F. Yekən, *Müşkilət*, s, 76-77; Bəhi, *Təzkira*, s, 208.
188. Tirmizi, *Dəavət*, 101.
189. İsra, 17/79.

## 2. Elmi hazırlıq

Təbliğçinin təbliğ fəaliyyətində səmimi olması, bütün insanların hidayətə gəlməsini arzulaması, yüksək əxlaqi məziyyətlərə sahib olması təbliğdə müvəffəq olmaq üçün kifayət deyil. Təbliğçinin təbliğə başlamadan əvvəl bilməsi gərəkən müəyyən nüanslar var. Bu nüansları bilmədən, yəni elmi yöndən təbliğə hazır olmadan müvəffəq olmaqdan söhbət gedə bilməz. Əvvəlcədən ifadə edək ki, elm əməldən əvvəl gəlir. İbn Əbdil-Bərrin mərfu[190] və mövquf[191] olaraq Muaz ibn Cəbəldən (r.a) nəql etdiyi hədisdə Hz. Peyğəmbər *(s.ə.s)* elm öyrənməyi əmr etdikdən sonra belə buyurmuşdur: *"Elm – əməlin öndəridir, əməl, elmə tabedir"*.[192] Uca Allah: **"**(Ya Rəsulum!) **Bil ki, Allahdan başqa heç bir tanrı yoxdur.** (Ondan) **həm öz günahlarının, həm də mömin kişilərin və qadınların bağışlanmasını dilə"** (Muhəmməd, 47/19) – buyuraraq əməl etməzdən öncə bilməyi vurğulamışdır. Ediləcək işin necəliyindən asılı olmayaraq onun haqqında məlumatlı olmaq lazımdır.[193] Bir alimin insanlardan uzaqlaşaraq sadəcə özünü yetişdirməklə məşğul olması necə qəbahətlidirsə, elm əhli olmadan təbliğlə məşğul olmaq da onun kimi xətalıdır. Çünki biri üzərinə düşən vəzifəni yerinə yetirməkdən boyun qaçırır, digəri isə insanları İslamdan uzaqlaşdırır və onların nifrətini qazanır. Buna görə də təbliğ fəaliyyəti üçün elmi hazırlıq çox əhəmiyyətlidir.

Təbliğçi hər şeydən əvvəl təbliğ etdiyi əsas və prinsipləri mükəmməl bilməli və hər yönü ilə İslamı lazımınca öyrənməlidir. İslama görə haqq və batili, xeyir və şəri, məruf və münkəri, doğru və yanlışı, hidayət və zəlaləti, gözəl və çirkini, faydalı və zərərli olanı bir-birindən ayıra biləcək elmə sahib olmalıdır ki, təbliğ fəaliyyəti ilə məşğul olarkən xətaya düşməsin, mərufun

---

190. Hz. Peyğəmbərə *(s.ə.s)* aid edilən söz, fel, təqrir, əxlaqi vəsflər, (istər sənədi münqəti (natamam) və ya müttəsil (tam) olsun bilvasitə və ya bilavasitə Hz. Peyğəmbərə *(s.ə.s)* nisbət edilən hədislərə Nəbəvi və yaxud Mərfu hədis deyilir. Rüfət Şirinov, Hədis Elmi, s, 108.

191. Mövquf kəlməsi lüğətdə durmaq, dikəlmək deməkdir. Adətən ravi hədisin nəql edən səhabədən sonrakı isnad silsiləsini qeyd etmir. Termin olaraq isə, səhabəyə nisbət edilən söz, fel, təqrir və davranışlarına aid – istər müttəsil, istərsə də münqəti olsun – xəbərlərə mövquf hədis deyilir. Rüfət Şirinov, Hədis Elmi, s, 114.

192. İbn Əbdil-Bərr, *Cəmiu Bəyənil-Elm*, s, 66-67.

193. Ə. Zeydan, *Üsulud-Daəvə*, s, 315.

əvəzinə münkəri əmr edib, münkər əvəzinə mərufdan çəkindirməsin. Və ən əsası İslamı düşmənlərinə qarşı qoruya bilsin.[194] Günümüzdə insanlar ruhlarını sakitləşdirəcək və ehtiyaclarına cavab verə biləcək dinə möhtacdırlar. İslam dini isə bütün problemlərə cavab verə biləcək yeganə dindir. Əsas məsələ isə belədir: İnsanları dəvət edəcək mübəlliğlər bunun öhdəsindən gələ biləcək qabiliyyətdədirlər? Bizim ən böyük problemimiz bu nöqtədədir.

Təbliğ fəaliyyəti ilə məşğul olacaq müəllim hər şeydən əvvəl İslamı bütün incəliyinə qədər öyrənməyə çalışmalıdır. Bunun yolu Quran və Sünnəni hər şeydən üstün tutmaqdır. Bunlardan əlavə müctəhid imamların fikirlərini də bilmək zəruridir.

İslami mədəniyyətə sahib olan təbliğçi təbliğlə məşğul olduğu zaman və məkanı, həmçinin həmsöhbətlərinin halını bilmək məcburiyyətindədir. Müxatəbin psixologiyasını bilmədən edilən təbliğin mənası yoxdur. İslam təbliğçisi həmçinin yaşadığı zamandakı yenilikləri də bilməlidir. Bundan əlavə dünyəvi elmlərə də maraq göstərməli və onlardan da faydalanmalıdır.

Təbliğdə natiqlik qabiliyyətinin xüsusi əhəmiyyəti var. Təbliğçi müvəffəq olmaq üçün dilin qaydalarına uyğun şəkildə danışmalı, bu xüsusda xətalara yol verərək həmsöhbətləri qarşısında gülünc vəziyyətə düşməməlidir. Söylədiyi şeylər açıq və qəti olmalı və asan şəkildə başa düşülməlidir. Ana dilləri ərəbcə olmayan təbliğçilər Ərəbcəni öyrənmək məcburiyyətindədirlər. Çünki İslamın əsas qaynağı olan Qurani-Kərim və Sünnə Ərəb dilindədir. Həmçinin əsas əsərlərin çoxu ərəb dilindədir. Təbliğçi isə İslamı birbaşa mənbəyindən öyrənməlidir. İslam dinini beynəlmiləl olaraq təbliğ edə bilmək üçün dövrün ən yayğın dilini də öyrənilməlidir. Qısacası, təbliğçi özünü tam mənasıyla təbliğə hazırlamalıdır.

Görəsən bütün sadaladığımız xüsuslarda Rəsulullahın *(s.ə.s)* hazırlığı necə olmuşdur?

---

194. Qəzali, *Ehya*, II, 325-332-333; İbn Teymiyyə, *Hisbə*, s, 85; S. Sabiq, *Dəvətul-İslam*, s, 59; Səid *Həvva*, I, 198-200; F. Yekən, *Müşkilət*, s, 66-67.

Qeyd etmək yerinə düşər ki, digər sahələrdə olduğu kimi Rəsulullahı *(s.ə.s)* elmi yöndən təbliğə hazırlayan Uca Allahdır və ona Qurani-Kərimi, onun hökmlərini və bilmədiklərini öyrətmişdir. **"Allah sənə Quranı və hikməti nazil edərək bilmədiklərini öyrətdi. Allahın sənə lütfü böyükdür!"**. (Nisa, 4/113) "(Öz peyğəmbərinə) **Quranı öyrətdi"**. (Rahmən, 55/2) Uca Allah bütün bunları Cəbrayıl (ə.s) vasitəsilə etmişdir. Buna görə də Rəsulullahın *(s.ə.s)* təlimi ona nisbət oluna bilər. **"Onu** (Muhamməd əleyhissəlama) **çox qüvvətli olan** (Cəbrail) **öyrətdi"**. (Nəcm, 53/5)

İndi Hz. Peyğəmbərin *(s.ə.s)* həyatına nəzər salaq:

O, doğumundan bir neçə ay sonra bir neçə illik müddətdə ərəb dilinin bütün xüsusiyyətlərini və saflığını qoruyan qəbiləyə süd anasına verilmişdir.[195]

Babası Əbdülmüttəlib ciddi məsələləri müzakirə etməyə oturduqda kiçik Muhamməd oyuncaqlarını ataraq məclisə gələr və babasının yanında oturmaq istəyərdi. Əmiləri mane olmaq istədikdə Əbdülmüttəlib belə deyərdi: "Ona mane olmayın, özünün böyük insan olduğuna inanır və ümid edirəm ki, elə də olacaq. Baxın o nə qədər hikmətlidir". Həqiqətən o, sakit uşaq olmuş və məclisdəkiləri heç bir vaxt incitməmişdir. Məclisdə olanlardan heç kim ondan şikayət etməmişdir.[196] Deməli uşaqlığından etibarən cəmiyyətlə əlaqəli məsələlər onu maraqlandırmışdır.

Əbu Talibin ailəsini dolandırmaq üçün çobanlıq etdiyi vaxtlarda o, səmanı seyr edər, Allahın əzəmət və birliyini təfəkkür edərdi. Saatlarla təfəkkür nəticəsində peyğəmbərliyin vəsflərindən sayılan fətanətin gərəyi olan zəkası inkişaf etmiş, gözəl əxlaq sahibi olmuş və həmçinin insanlardan gələcək əziyyət və cəfalara sinə gərə biləcək səbir qazanmışdır.[197]

195. Süheyli, *Ravd*, I, 187-188; Zürqani, *Şərhul-Məvəhib*, I, 141-142; Amiri, *Bəhcətul-Məhəfil*, I, 41.
196. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 168; Bəlazuri, *Ənsab*, I, 81; İbn Kəsir, *əl-Bidayə*, II, 281; M. Həmidullah, *İslam Peyğəmbəri*, I, 42.
197. İbnul Cövzi, *Vəfa*, I, 142.

Gənclik dövründə başlayan ticarət səfərləri ona Ərəb yarmadasında və qonşu dövlətlərdə yaşayan müxtəlif qəbilələri və o bölgələrin insanlarını görmək və tanımaq fürsəti vermiş,[198] hər cür insanla qarşılaşmış və onlarla ünsiyyətdə olmuş, gördüyü cəmiyyətlərin sosial münasibətləri, düşüncə tərzi, inanc və dinləri haqqında məlumatlanmış və insan psixologiyası üzərində təcrübə qazanmışdır.[199] Lakin qazandığı təcrübə və bilgiyə əsasən peyğəmbərlik iddia etdiyi söylənə bilməz. Dində əsas şərt vəhydir.

Nəhayət peyğəmbərlikdən bir neçə il əvvəl başlayan inziva həyatı bu mövzuya işıq tutur. Bu dövrdə Hz. Peyğəmbər *(s.ə.s)* təfəkkürlə məşğul olaraq Uca Allaha ibadət etmişdir.[200]

Bu yaş Hz. Peyğəmbərin *(s.ə.s)* hazırlığının tamamlandığı dövrdür. Bu dövrlə Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ üçün hazır vəziyyətə gətirilmişdir.

Uca Allah Cəbrayıl (ə.s) vasitəsilə Hz. Peyğəmbərə *(s.ə.s)* bilmədiyi şeyləri öyrədirdi. Hz. Peyğəmbər *(s.ə.s)* soruşulan sualların cavabını Uca Allahın lütfü ilə cavablandırırdı. Hz. Peyğəmbər *(s.ə.s)* Mədinəyə gəldiyi zaman Yəhudi alimlərindən Abdullah ibn Səlam Hz. Peyğəmbərə *(s.ə.s)* cavabını ancaq peyğəmbərin biləcəyi üç sual verəcəyini demiş və qiyamətin ilk əlamətini, cənnətliklərin ilk yeyəcəyi şeyin nə olduğunu və doğulan uşağın ata-anasına nə üçün oxşadığını soruşmuşdur. Hz. Peyğəmbər *(s.ə.s)* onun bütün suallarını bir-bir cavablamışdır. Bundan sonra Abdullah ibn Səlam kəlmeyi-şəhadət gətirərək müsəlman olmuşdur.[201]

Peyğəmbərini lazımi xüsuslarda bilgi sahibi edən Uca Allah onu elmi hazırlığa təşviq etmiş və belə buyurmuşdur: **"Həm də** (ey Peyğəmbərim! Cəbrail tərəfindən) **sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Mənim elmimi artır!" – de"**. (Taha, 20/114) Hz. Peyğəmbər

198. Təbəri, *Tarix*, II, 282; İbn Əsir, *əl-Kəmil*, I, 37-40.

199. M. Həmidullah, *İslam Peyğəmbəri*, I, 34.

200. Buxari, Bədul-Vəhy, 3, Təfsiru Suratil-Ələq, 1; Müslim, İman, 252; İbn Kəsir, *əl-Bidayə*, III, 5; Təbəri, *Tarix*, II, 298; İbn Xaldun, *Tarix*, II, Bəqiyyə, 6.

201. Buxari, *Təfsiru Suratil-Bəqərə*, 6; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 108-271; İbn Kəsir, *əl-Bidayə*, III, 210-212.

də *(s.ə.s)* bu əmrə əsasən belə dua edərdi:[202] *"Ey Allahım! Mənə öyrətdiklərdən faydalanmağı nəsib et! Mənə faydalı olacaq şeyləri öyrət və elmimi artır! Həmd Allaha məxsusdur!"*.[203]

Rəsulullah *(s.ə.s)* təbliğə elmi yöndən tam hazır olmuşdur. Bir hədisində belə buyurmuşdur: *"Mənə göstərilməyən heç bir şey yoxdur. Hətta Cənnət və Cəhənnəmi belə gördüm"*.[204] Hz. Peyğəmbər *(s.ə.s)* hər zaman həyatı ilə insanlara gözəl nümunə olmuşdur. Qeyd etdiklərimiz təbliğ fəaliyyəti ilə məşğul olanlar üçün xüsusi əhəmiyyət kəsb edir.

### 3. Fiziki hazırlıq

Rəsulullah *(s.ə.s)*: *"Allah qatında güclü mömin zəif mömindən daha xeyirli və sevimlidir"*[205] – buyuraraq təbliğ üçün müsəlmanları güclü və qüvvətli olmağa təşviq etmişdir. İslam sağlamlıq üçün:

1. Bədənin, paltarın və ətraf mühitin təmizliyini əmr etmişdir. Bu xüsusda dəstəmaz və qüslun fərz olması, misvaqdan istifadə etməyin tövsiyə edilməsi, dırnaqların tutulması, ədəb yerlərinin təraş olması və s. kimi təmizliklərin əmr edilməsini misal göstərmək olar. Uca Allah: **"Allah** (təmiz və) **pak olanları sevər!"** (Bəqərə, 2/222). **"Allah pak olanları** (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorumağa çalışanları) **sevər!"** (Tövbə, 9/108) buyurmuşdur. Hz. Peyğəmbər *(s.ə.s)*: *"Allah təmizdir və təmizliyi sevir"*[206] – buyurmuşdur.

2. İslam Allahın halal etdiyi ruzilərlə bəslənməyi əmr etmişdir. Bu barədə Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin** (təmiz və) **halalından yeyin! Əgər Allaha ibadət edirsinizsə,** (bu nemətlərə görə) **Ona şükür edin!".** (Bəqərə, 2/172) Hansı qidaların halal və ya haram olduğunu şəriət təyin etmişdir. Orqanizm üçün zərərli və bir çox xəstəliyə səbəb olan çox yemək qadağan edilmişdir. Həmçinin israf etmək

---

202. İbn Kəsir, *Təfsir*, IV, 540-541; S. Sabiq, *Dəvətul-İslam*, s, 54-55.
203. İbn Macə, *Müqəddimə*, 23.
204. Buxari, Elm, 24, Cümə, 29.
205. İbn Macə, *Müqəddimə*, 10.
206. Tirmizi, Ədəb, 41.

də qadağan olunmuşdur. Uca Allah belə buyurur: **"Yeyin-için, lakin israf etməyin"**. (Əraf, 7/31) Müsəlmanlar acmadan süfrəyə oturmayan, doymadan da süfrədən qalxan topluluqdur.

3. Fərz olan ibadətlərə mane olmamaq şərti ilə bir sıra idman növləri tövsiyə edilmişdir. Güləş, qaçış, üzgüçülük, ox atmaq, at çapmaq kimi idman növlərini misal göstərmək olar. *"Ox atın və at çapın. Ox atmağınız at çapmağınızdan daha xeyirlidir"*[207] və s. hədislər bu kimi idmanlarla məşğul ola biləcəyimizi göstərir.

Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Aişə anamızla iki dəfə qaçışda yarışmışdır. Birinci yarışda Hz. Aişə anamız Rəsulullahı *(s.ə.s)* keçmiş, ikincisində isə Hz. Peyğəmbər *(s.ə.s)* onu keçmiş və *"İndi bərabər olduq (ödəşdik)"* demişdir.[208]

4. Xəstələrin müalicə almasını gərəkli görmüş və tibbi tövsiyələr vermişdir. Hz. Peyğəmbər *(s.ə.s)*: *"Xəstələndikdə müalicə olunun. Çünki Allah qocalıq xaric, yaratdığı hər xəstəliyin şəfasını da yaratmışdır"*.[209]

Hz. Peyğəmbər *(s.ə.s)* bu xüsuslara çox diqqət yetirmişdir. İnsanlara tövsiyə etdiyi şeyləri əvvəlcə özü tətbiq etmişdir. Peyğəmbərlikdən əvvəl belə haram və təmiz olmayan şeyləri yeməmiş, bütlər üçün kəsilən ətdən yeməkdən imtina etmiş,[210] heç vaxt içki içməmiş[211] və həyatı boyu üç gün ard-arda yemək yeməmişdir.[212]

Qeyd edilənlərdən əlavə Hz. Peyğəmbərin *(s.ə.s)* Qüreyş pəhləvanları ilə güləşdiyi və onları məğlub etdiyi də nəql edi-

207. Müslim, İmarət, 169; Əbu Davud, Cihad, 23; Nəsai, Xayl, 8; İbn Macə, Cihad, 19; Darimi, Cihad, 14.

208. Əbu Davud, Cihad, 61; İbn Macə, Nikah, 50; Əhməd ibn Hənbəl, *Müsnəd*, VI, 39-129-182-261-264.

209. Əbu Davud, Tibb, 1-11; Tirmizi, Tibb, 2; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 156, IV, 278. Rəsulullahın *(s.ə.s)* tibbi tövsiyələri üçün bax: Buxari, Müslim, Əbu Davud, Tirmizi və İbn Macənin hədis kitablarındakı "Kitəbut-Tibb" bölümləri, İbn Qayyim, *Zadul-Məad*, III, 77-235; Zürqani, *Şərhul-Məvəhib*, VII, 47-159.

210. Buxari, Zəbəih, 16, Mənəqibul-Ənsar, 24; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 68-89-127; Hələbi, *İnsan*, I, 123-124.

211. Süyuti, *Xasais*, I, 221; Həsən İbrahim, *Tarixul-İs*lam, I, 77.

212. Müslim, Zühd, 32; Tirmizi, Zühd, 38; İbn Macə, Ətimə, 48; Əhməd ibn Hənbəl, *Müsnəd*, VI, 42.

lir.[213] Hz. Peyğəmbərdən *(s.ə.s)* tibbi bir çox məsləhət nəql edilmişdir.[214]

**4. Maddi hazırlıq**

Maddi hazırlıq psixoloji, elmi və fiziki hazırlıq qədər önəmli olmasa da təbliğ fəaliyyəti üçün gərəklidir. Güc və qüvvətin insanlar üzərindəki təsirini nəzərə aldıqda bunun əhəmiyyəti özlüyündən ortaya çıxır. Maddi hazırlığı əhəmiyyətsiz hesab etmirik. Səmimi olaraq təbliğ fəaliyyəti ilə məşğul olan təbliğçi yönündən bunun çox da əhəmiyyətli olmadığını hesab edirik. Maddi çətinliyin təbliğçinin əzmini qırmayacağı qənaətindəyik. Uca Allah belə buyurmuşdur: **"**(Ey möminlər) **Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri** (münafiqləri) **qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və** (cihad üçün bəslənilən) **döyüş atları tədarük edin. Allah yolunda nə xərcləsəniz, onun əvəzi artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz!".** (Ənfal, 8/60) Hz. Peyğəmbərin *(s.ə.s)* həyatına nəzər saldıqda maddi çətinliklərlə üzləşdiyini görə bilərik. Lakin bu çətinliklər onun təbliğinə mane olmamışdır.

Təbliğçilərin bir-biriləri ilə görüşüb fikir mübadiləsi edə biləcək mərkəzləri olmalıdır. Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə də belə mərkəzə ehtiyac olmuş və o, Məkkədə Darul-Ərkamı, Mədinə də isə Məscidi-Nəbəvini mərkəz seçmişdir. Bundan əlavə evsiz-eşiksiz, kimsəsiz səhabələr üçün Məscidi-Nəbəviyə bitişik yer inşa etmişdir. Əshabi-Suffə adlanan insanlar orada qalırdılar.

Günümüzdə istifadə olunan vasitələrdən də təbliğ fəaliyyəti üçün istifadə edilməlidir. Təbliğçi maddi, mənəvi, elmi və fiziki hazırlıq başa çatdıqdan sonra təbliğinə necə başlamalıdır? Bu mərhələdən sonra təbliğçilərin öndəri Hz. Peyğəmbər *(s.ə.s)* məqsədinə nail olmaq üçün necə davranmışdır?

---

213. Əbu Davud, Libas, 21; Tirmizi, Libas, 42; İbn Kəsir, *əl-Bidayə*, III, 104.
214. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 160.

**B. Kadrlaşmaq**

İnandığı əsasları təbliğ etməyə başlayan təbliğçinin ilk işi düşüncə və ideallarına sadiq və səmimi şəkildə bağlanan kadrlar yetişdirməkdir.

Dilimizə İtalyan dilindən keçən kadro kəlməsi, "Bir işin icra edilməsi üçün lazım olan insanlardan ibarət qrup" kimi tərif edilir. İxtisaslaşmış şəxslər, və təşkilat kimi mənaları da var. Hər hansı bir fikrin, dinin və ya ideyanın yayılması üçün ən böyük faktor insandır. Başqa heç bir üsul insanı əvəz edə bilməz.[215] İdeallarına sadiq kardların yetişdirilməsi çox əhəmiyyətlidir.[216] Kadrları olmayan sistem nə edə bilər? Onların ideyaları, istək və arzuları necə həyata keçər? Buna görə də ilk iş lazım olan kadrları yetişdirməkdir.

İslama dəvətin ilk təbliğçisi Hz. Peyğəmbər də *(s.ə.s)* ilk olaraq bu mərhələdən başlamışdır. Bunun üçün ailəsinə və yaxından tanıdığı şəxslərə İslamın əsaslarını öyrətməklə təbliğinə başlamış və arzu etdiyi kadrları yetişdirənə qədər bu fəaliyyətini davam etdirmişdir.

O, gecə yarısı Kəbədə namaz qılarkən oranın içi bütlərlə dolu idi. Heç kimin olmadığı o saatlarda bütləri yerlərindən götürə bilərdi. Lakin o, heç bir vaxt buna təşəbbüs etmədi. Çünki bilirdi ki, sabah onların əvəzinə başqalarını yerləşdirəcəklər. Ən böyük düşmənlərini səhabələri vasitəsilə öldütdürüb şirki yox etməyə çalışmadı. O, bunun həll yolu olmadığını çox yaxşı bilirdi. Hz. Peyğəmbər *(s.ə.s)* hər problemi kökündən həll etməyə önəm verirdi. Və o zaman hər şeyin özlüyündən düzələcəyini – İslamı qəbul etməyənlərin dost olacağını, bütə sitayiş edənlərin özlərinin bütləri qıracağını çox gözəl bilirdi.[217] Buna görə də hər şeydən əvvəl bacarıqlı kadrlar yetişdirmək lazımdır.

Bunu çox yaxşı dərk edən Hz. Peyğəmbər *(s.ə.s)* təbliğinə ilk olaraq kadr yetişdirməklə başladı.

---

215. Xəncəroğlu, Fəlsəfə Ensiklopediyası, III, 188; Həyat, Böyük Türk Sözlüyü, s, 634.
216. İ. L. Çakan, *Haqqı Tövsiyə*, s, 91.
217. M. Məşhur, *Tariqud-Dəavə*, I, 41; Bəhi, *Təzkira*, s, 270-271.

## 1. Öz-özünə təbliğ

Təbliğ metodlarından biri də təbliğçinin, həmsöhbətinə hal və hərəkətləri ilə nümunə olması, ideal davranışlar nümayiş etdirməsidir.

Təbliğçilər, qabaqcadan əldə etdikləri təcrübə və davranışları necə olursa-olsun cəmiyyətə uyğun tənzimləməyə çalışmalıdırlar. Gənclərin və uşaqların da ortaq xüsusiyyəti, ətrafda görülən hadisələrin onların duyğularına, düşüncələrinə, davranışlarına təsir etməsi və dərin izlər buraxmasıdır.

*"Özündən başla, özün üçün xərclə, bir şey qalarsa, onu da yaxın qohumların üçün xərclə. Bütün bunlardan sonra yenə bir şey qalarsa onu da bu qayda üzrə yaxınlıq dərəcəsinə görə xərclə".*[218]

İnsan təbliğə əvvəlcə özündən başlamalıdır. Çünki özünü tərbiyə edə bilməyən təbliğçinin bir nəticəyə çatması qeyri-mümkündür. Hz. Peyğəmbərin *(s.ə.s)* özünə enən ilahi əmrlərə tabe olduğunu Ənəs ibn Malik (r.a) belə rəvayət edir: "Səhabələrdən bəziləri "ömrümün sonunadək gecələri yatmadan ibadət edəcəm, oruc tutacam və orucsuz günüm olmayacaq, qadınlarla əsla evlənməyəcəm" – deyərək öz aralarında məsləhətləşmişdilər. Bu hadisəni eşidən Hz. Peyğəmbər *(s.ə.s)*: *"Allaha and olsun ki, Allahdan ən çox qorxan və ən çox hörmət edən mənəm. Ancaq mən bəzi vaxt oruc tuturam, bəzi vaxt tutmuram. Gecələri həm namaz qılıram, həm də yatıram. Qadınlarla da evlənirəm. Kim mənim Sünnəmi tərk edərsə məndən deyil!"*[219] – buyurdu.

Allah-Təala Qurani-Kərimdə Hz. Peyğəmbərə *(s.ə.s)*: **"Xeyr, yalnız Allaha ibadət et və** (Onun nemətlərinə) **şükür edənlərdən ol!"** (Zümər, 39/66) ayəsi nazil olduqdan sonra Hz. Peyğəmbər *(s.ə.s)* gecələri ayaqları şişənə qədər namaz qılmağa başladı. Bunu görən Hz. Aişə (r.anhə) təəccüblə soruşdu: "Ya Rasulallah! Keçmiş və gələcək günahların bağışlandığı halda bu qədər ibadəti nə üçün edirsən?". Hz. Peyğəmbər *(s.ə.s)*: *"Ey Aişə! Allaha şükür edən bir qul olmayımmı?"* – buyurdu.[220] Bu hədisdən

218. Müslim, Zəkat, 41.
219. Buxari, Nikah, 1.
220. Buxari, Təhəccüd, 6; Müslim, Sifətul-münafiqun, 79-81.

də görürük ki, Hz. Peyğəmbər *(s.ə.s)* hər enən ayəni ilk olaraq özünə təbliğ edər və bu əmrlərə də hər kəsdən əvvəl özü əməl edərdi.

Hz. Peyğəmbərin *(s.ə.s)* ilk vəhy gəldiyi vaxtlardan etibarən bu təbliği hər zaman özünə və əshabına düstur etmişdir. İlk vəhyin gəliş vaxtlarına nəzər saldığımızda Hz. Peyğəmbər *(s.ə.s)* özü də vəhy hadisəsində *"Mənə nə olur bilmirəm? Başıma bir iş gəlməyindən qorxuram"* – deyərək həyat yoldaşına öz təlaşını bildirir. Hz. Xədicə, sadiq və dürüst ərinin yaşadığı ruhi halları, keçirdiyi izdirabı hiss edirdi. Ərinin bu həyəcanlı halından qorxmur və ona belə deyir: "Qorxma! Müjdələr olsun, səbir et. Allaha and olsun ki, sən bu ümmətin peyğəmbəri olacaqsan. Allah səni əsla rüsvay etməz. Sən mərhəmətlisən, sözün doğrusunu söyləyənsən, məşəqqətlərə dözümlüsən, qonaqpərvərsən, fəlakətə düçar olanlara kömək edənsən. Allah belə qulunu buraxmaz". Bu qeyri-adi hadisəni yaşlı əmisi oğlu Varaqa ibn Novfələ çatdırır. Varaqa da Hz. Peyğəmbərə *(s.ə.s)* xitabən: "Sən bu ümmətin peyğəmbəri olacaqsan. Sənə gələn, Musaya gələn namusdur (Cəbrayıldır). Sənə yalançı deyəcəklər, əziyyət verəcəklər, yurdundan qovacaqlar, səninlə vuruşacaqlar. Mən o günlərə qalsam, Allah üçün sənə kömək edərəm" – dedi. [221]

Bu hadisədə Hz. Peyğəmbərin *(s.ə.s)* həyat yoldaşı Hz. Xədicəyə müraciət edərək, peyğəmbərliyin ona verilməsini bildiyi halda, cinlərin və ya şeytanın çarpmasından şübhələnərək başından keçən hadisələri danışması və onunla bölüşməsi bir növ öz-özünə təbliğdir.

### 2. Ailə fərdlərinə təbliğ

Hər şeydən əvvəl ailə fərdləri onu dəstəkləməli, ona inanmalı və arxadan gələnlər üçün nümunə olmalı idilər. Ailədə yalnız kişinin inandığı əsaslara uyğun olaraq hərəkət etməsi yetərli deyil. Qadının cəmiyyətdə və ailədə müstəsna yeri var. Bu səbəblə də təbliğçi təbliğə əvvəlcə ailəsindən başlamalı və ailə fərdlərini təbliğə hazırlamalıdır.

---

221. Buxari, Ənbiya, 21, Təfsir, 96; Müslim, İman, 252.

Digər tərəfdən təbliğdə tədriciliyə riayət etmək lazımdır. Təbliğçi müvəffəq ola bilmək üçün tədricilik metoduna mütləq riayət etməlidir. Lazımlı olan kadrları yetişdirərək məqsədinə doğru irəliləməlidir. Təbliğdə çağıracaq insanları belə sıralamaq mümkündür:[222]

1. Özü, 2. Ailəsi, 3. Yaxın Qohumları, 4. Uzaq Qohumları, 5. Dost və Yoldaşları, 6. Qonşuları, 7. Həmyerliləri, 8. Milləti, 9. Ümməti, 10. İnsanlığı.

Qeyd etdiyimiz siniflərə təbliğ edə bilməyin yolu özünü təbliğə hazırladıqdan sonra lazım olan kadrları yetişdirmək üçün ailədən başlamaqdır. Özünü və ailəsini islah etməmiş insanın təbliğlə məşğul olması gülüncdür. Onun nəyəsə müvəffəq olacağından söhbət gedə bilməz.

Rəsulullah *(s.ə.s)* bunu çox yaxşı bilirdi. Həyat yoldaşı Hz. Xədicəyə (r.anhə) ilk dəfə gələn vəhy haqqında danışarkən belə özünü təsdiq etməsini arzu edirdi. Hz. Xədicə anamız da zərrə qədər tərəddüd etmədən ona iman etdi, hətta bununla kifayətlənməyərək ona dəstək oldu və təsəlli verdi. Və hər zaman da Hz. Peyğəmbəri *(s.ə.s)* dəstəkləməyə davam etdi. Beləliklə Hz. Peyğəmbərin *(s.ə.s)* həyatındakı müstəsna yerə həqiqətən layiq olduğunu bununla sübut etmiş oldu.[223]

Hz. Peyğəmbərin *(s.ə.s)* ailəsində Hz. Xədicədən (r.anhə) başqa kiçik yaşlarında olan Hz. Əli və oğulluğa götürdüyü Zeyd ibn Harisə də vardı. Hər ikisi də Hz. Xədicə anamızdan sonra ilk iman etmə şərəfinə nail oldular.[224]

Hz. Peyğəmbərin *(s.ə.s)* övladları da onu ilk təsdiq edib inandılar.[225] Hz. Fatimə anamız (r.anhə) Hz. Peyğəmbər *(s.ə.s)* elçiliklə vəzifələndirildiyi zaman beş yaşında idi. Hadisələri anlaya biləcək yaşa gəldikdə o da Hz. Peyğəmbərin *(s.ə.s)* dəvətini qəbul etmiş və təbliğçilər karvanına qoşulmuşdur.[226]

222. Canan, Les Methodes, p, 33; Uludağ, *İslamda Mürşid*, s, 46-53; Nədvi, *Təbliğat və Təlimat*, II, 408-409.
223. İbn Hazm, *Cəvəmius-Sira*, s, 45.
224. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 246-248.
225. İbn Sad, *ət-Təbəqatul-Kubra*, VIII, 30-31, 36-37.
226. İbn Sad, *ət-Təbəqatul-Kubra*, VIII, 19.

### 3. Qohum-əqrəbaya təbliğ

Yaxşılığı əmr edib pisliklərdən çəkindirmək vəzifəsi ilk olaraq insanın özündən başlamalıdır. Çünki özünə biganə qalan təbliğ əhlinin uğur qazanması qeyri-mümkündür. Bundan sonra isə yaxın qohumlar gəlir. İnsanın yaşadığı mühit və qohumları onun söylədiklərini uzaqdakılara nisbətən daha tez qəbul edər. Təbliği qəbul edənlərin yaxınlar və qohumlar olduğu düşünüldükdə, İslamın cəmiyyətdə bu yolla daha qısa bir zamanda yayıla biləcəyi aydın olur. Əgər insanın yaxınları təbliğçini qəbul etməyərək ona yardım etməzsə digər insanlar ona inanıb etimad göstərməkdə tərəddüd edərlər.

Başqa bir cəhətdən bu vəzifənin istənilən şəkildə uğurla davam etdirilə bilməsi üçün yaxınların da yardımına ehtiyac vardır. Bu həqiqət Qurani-Kərimdə belə bəyan edilir.

**"Onlar dedilər: Ey Şüeyb! Dediklərinin çoxunu başa düşmür və səni aramızda zəif** (gücsüz) **görürük. Əgər əşirətin olmasaydı, səni daşqalaq edərdik".** (Hud, 11/91)

Hz. Lut (ə.s) qövmünün azğınlıqları qarşısında çarəsiz qaldığında, ona yardım edəcək yaxınlarının yoxluğunu hiss edərək belə demişdi:

**"Kaş sizə çatan bir gücüm-qüvvətim olaydı, yaxud möhkəm bir arxaya söykənəydim** (alınmaz bir qalaya və ya güclü bir qəbiləyə pənah apara biləydim.)**".** (Hud, 11/80)

Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Lutun (ə.s) bu sözündən bəhs etdikdən sonra belə bir şərh verdi:

*"Allah Luta rəhmət etsin. O, çox sağlam bir yerə (Rəbbinə) sığınırdı. Allah Lutun bu duasının bərəkəti ilə ondan sonra gələn bütün peyğəmbərlərə, ona yardım edən qohum və əqrəbalar ehsan etmişdir".*[227]

Bundan əlavə, İslam qohumları qoruyub əl tutmağa və onlarla münasibəti gücləndirməyə xüsusi əhəmiyyət vermişdir. Qohumlarla xoş münasibətdə olmaq, böyük fəzilətlərdən biri kimi səciyyələndirilir. Bir sözlə insan, hər şeydən öncə öz ailə-

---

227. Buxari, Ənbiya 11, 15, 19; Müslim, İman 238.

sindən və yaxın qohumlarından məsuldur. Necə ki, Allah-Təala belə buyurur.

**"Qohumlar** (bir-birinə vərəsə olmaq baxımından) **Allahın Kitabında möminlərdən və mühacirlərdən daha yaxındırlar"**. (Əhzab, 33/6)

İnfaq xüsusunda, baxmaq məcburiyyətində olduğu insanlara üstünlük verən Hz. Peyğəmbər *(s.ə.s)*, bundan daha vacib sayılan dini maarifləndirməyə yenə qohumlardan başlamışdır. Uca Rəbbimiz də ilk öncə özümüzü və qohumlarımızı atəşdən qorumağımızı əmr edir:

**"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlardır** (daşdan düzəlmiş bütlərdir)**"**. (Təhrim 66/6)

Bir müsəlman bunu təmin edə bilmək üçün ona qarşı müxalif davransalar və İslamdan tamamilə uzaqda olsalar belə qohumları ilə əlaqəsini qətiyyən kəsməməli, hər bəhanə ilə ziyarətlərinə getməli və problemləri ilə məşğul olaraq münasibətini davam etdirməlidir. Belə ki, Hz. Peyğəmbər *(s.ə.s)*: *"Qohum-əqrəbasını ziyarət edib əl tutmayan şəxs cənnətə girə bilməz"* – buyurur.[228]

İslamı təbliğ edən şəxs eyni yaxınlığı həmişə münasibətdə olduğu qonşusuna da göstərmək məcburiyyətindədir. Rəsulullah *(s.ə.s)* hətta qeyri-müsəlman qonşusu ilə maraqlanmış, xəstələndiyində gedib onu ziyarət etmişdir. Bir dəfə yəhudi bir qonşusunun uşağı xəstələnmişdi. Hz. Peyğəmbər *(s.ə.s)* onu ziyarət edib şəfa dilədikdən sonra müsəlman olmasını istədi. Uşaq atasına baxdı. Atası da neçə illərdir gözəllik və yaxşılıqdan başqa bir şey görmədiyi Allah Rəsuluna daxildən gələn bir sevgi ilə güvənərək:

- Oğlum, Əbul-Qasıma itaət et! – dedi.

Bundan sonra uşaq müsəlman oldu. Rəsulullah *(s.ə.s)* evdən çıxdıqda:

---

228. Müslim, Birr, 19.

*" – Onu atəşdən qurtaran Allaha həmd olsun"* – deyərək duyduğu sonsuz sevinci dilə gətirdi.[229]

Buna görə İslam təbliğçisi, yaxın ətrafının yanlış inancları və hərəkətləri olsa da Rəsulullahın *(s.ə.s)* sünnəsinə uyğun olaraq onlarla münasibəti kəsməməlidir. Eyni zamanda hər fürsəti dəyərləndirməli, təbliğ fəaliyyəti zamanı yaranan bütün imkanlardan istifadə etməlidir. Rəsulullahın *(s.ə.s)* həyatında bunu ən bariz bir şəkildə görürük. Hz. Əli belə nəql edir:

**"Sən,** (öncə) **yaxın qohumlarını xəbərdar et** (axirət əzabı ilə qorxut)**"** (Şuəra 26/214) ayəsi nazil olduqda Rəsulullah *(s.ə.s)* məni çağırdı:

*" – Ya Əli! Uca Allah ən yaxın qohumlarımı xəbərdar etməyi (qorxutmağı) əmr etdi. Bu məni çox narahat etdi. Bilirəm ki, mən nə vaxt qövmümə bu hadisəni açıb desəm, mütləq xoşuma gəlməyən şeylərlə qarşılaşacam. Bu səbəbdən bir müddət susdum. Bundan sonra Cəbrail əleyhissalam yanıma gəldi:*

*– Ya Muhamməd! Əgər əmr etdiyi şeyi etməsən, Rəbbin sənə əzab göndərəcək! dedi. Ya Əli! Bizə bir qab yemək hazırla və üzərinə də qoyunun budundan qoy. Bir qab da süd gətir. Sonra Əbdülmüttəlib oğullarını çağır onlarla danışım və əmr olunduğum şeyi onlara təbliğ edim "* buyurdu.

Hz. Əli, Hz. Peyğəmbərin *(s.ə.s)* əmri ilə hazırladığı şeyləri onlara təqdim etdi. Bir adamın yeyə biləcəyi azca yeməyin qırx nəfəri doyurduğunu görən Əbu Ləhəb:

– Qəribədir! Yoldaşınız böyük bir sehrlə sizin gözünüzü bağladı! Həqiqətən biz bu günkü kimi bir sehr görmədik! dedi. Rəsulullahın danışmağına imkan vermədi. Orada olan hər kəs dağılıb getdi.

Əbu Ləhəbin sözü Rəsulullaha *(s.ə.s)* çox pis təsir etdi. Susdu və o məclisdə heç nə danışmadı.[230]

---

229. Buxari, Cənəiz, 80.
230. Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 159; İbn Əsir, *əl-Kəmil*, II, 162; İbn Kəsir, *əl-Bidayə*, III, 88-89.

Ancaq o, bu yolda qarşılaşdığı sıxıntılara baxmadan vəzifəsinə davam edirdi. Ertəsi günü qohumlarını təkrar çağırdı. Yenə eyni çətinliklərə qarşılaşdı. Daha sonra:

*"Həmd Allaha məxsusdur. Ona həmd edir, köməyi də Ondan istəyirəm. Ona inanır və Ona təvəkkül edirəm. Şəhadət gətirirəm ki, Allahdan başqa ilah yoxdur. O, birdir, tayı və bənzəri yoxdur! Hər halda otlaq axtarmağa gedən bir şəxs gəlib ailəsinə yalan danışmaz. Deyək ki, mən ütün insanları aldadıram. Amma vallahi, sizi aldatmaram. Bütün insanlara yalan söyləsəm də, sizə yalam demərəm. Sizi ona dəvət etdiyim Allah elə bir Allahdır ki, Ondan başqa heç bir ilah yoxdur!*

*Vallah, sizlər yuxuya gedən insanlar kimi öləcəksiniz! Yuxudan oyananlar kimi də diriləcək və bütün etdiklərinizdən hesaba çəkiləcəksiniz. Yaxşılıqlarınızın mükafatını görəcək, pisliklərinizin də cəzasını çəkəcəksiniz. Bunun nəticəsi də ya cənnətdə, ya da əbədi cəhənnəmdə qalmaqdır. İnsanlardan ilk xəbərdar etdiyim şəxslər sizlərsiniz.*

*Ey Əbdülmüttəlib oğulları! Allaha and olsun ərəblər arasında dünya və axirətiniz üçün, mənim sizə gətirdiyimdən daha üstününü və daha xeyirlisini qövmünə gətirən bir igid tanımıram. Mən sizi dilə asan gələn, amma mizanda ağır gələn iki kəlməyə dəvət edirəm ki, o da Allahdan başqa heç bir ilah olmadığına və mənim də Allahın qulu və rəsulu olduğuma şəhadət gətirməyinizdir . Uca Allah, sizi buna dəvət etməyimi əmr etdi.*

*Ey Əbdülmüttəlib oğulları! Mən xüsusi olaraq sizlərə, ümumilikdə bütün insanlara peyğəmbər göndərildim. Siz bu haqda daha öncədən görmədiyiniz möcüzələrdən bəzilərini görürsünüz. Bu vəzifəmdə mənə köməkçi və qardaş olmağı, bunun nəticəsində də cənnəti qazanmağı hansınız qəbul edirsiniz? Hansınız bu yolda qardaşım və yoldaşım olaraq mənə beyət edər?"* – buyurdu.

Hz. Peyğəmbərin *(s.ə.s)* bu dəvətini heç kim qəbul etmədi və əksinə olaraq gülüşüb istehza etdilər. Bir müddətdən sonra da dağılışıb getdilər.[231]

---

231. Əhməd ibn Hənbəl, Müsnəd, I, 159; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 187; Bələzuri, *Ənsab*, I, 119.

Rəsulullah *(s.ə.s)* əqrəbalarını xəbərdar etməyə davam etdi. Onların ələ salmalarına və həqarət etmələrinə fikir vermədi. Bir gün Səfa təpəsinə çıxaraq demək olar ki, əksəriyyəti qohumu olan Qüreyş qəbilələrini bir-bir çağırdı. Onlardan özünü necə tanıdıqlarını soruşdu.

– Biz səni doğrusözlü insan kimi tanıyırıq. Sən, bizim aramızda hər hansı bir məsələdə günahkar kimi ittiham olunmamısan. Bu günə kimi sənin yalan söylədiyini eşitməmişik! cavabını aldıqdan sonra belə buyurdu:

*" – Uca Allah ən yaxın qohumlarımı əzab ilə qorxutmağımı mənə əmr etdi. Sizlər "Lə iləhə illəllah!" demədikcə mən sizə nə dünyada, nə də axirətdə bir fayda verə bilməyəcəyəm".*

Əbu Ləhəb hər zaman olduğu kimi yenə həqarət edərək qışqırıb-bağırmağa başladı. Hətta vurmaq üçün yerdən əlinə daş da aldı.[232] Lakin Allahın Rəsulu *(s.ə.s)* nəyin bahasına olursa olsun Allahın dinini anlatmağa, risalət vəzifəsini yerinə yetirməyə davam etdi. Bir-bir qəbilələrin adını sayaraq:

*"Ey Qüreyş camaatı! Ey Kab ibn Lüey oğulları"! Özünüzü cəhənnəm atəşindən qurtarın! Mən sizi Allahın əzabından qurtara biləcək bir gücə sahib deyiləm"* – buyurdu və hər bir qəbiləyə tək-tək xəbərdarlıq etdi.

*Daha sonra məxsusi olaraq bəzi şəxslərə xitab edərək:*

*" – Ey Abbas ibn Əbdülmüttəlib! Səni Allahın əzabından qurtara biləcək heç nəyim yoxdur. Ey Zübeyr ibn Avvamın anası, Rəsulullahın bibisi Safiyyə! Ey Muhammədin qızı Fatimə! Özünüzü Allahın əzabından qoruyun! Siz mənim malımdan nə istəyirsinizsə istəyin. Amma, mən sizi Allahın əzabından qurtara biləcək bir gücə malik deyiləm"*[233] – buyurdu.

Hz. Peyğəmbər *(s.ə.s)* yaxın qohumlarına, xüsusilə də qızı Fatiməyə etdiyi xəbərdarlıqları sonrakı illərdə də zaman-zaman yerinə yetirmişdir. Ancaq biz bunu da bilirik ki, Hz. Fatimə uşaqlığını İslamın ən zəif, müsəlmanların ən çox əzildiyi bir za-

232. Müslim, İman, 355; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 200; Diyarbəkri, *Tarixul-Xamis*, I, 288.
233. Buxari, *Mənaqib*, 13-14; Müslim, İman, 348-353.

manda keçirmişdi. Atasının və müsəlmanların çəkdiyi əzablara ən az onlar qədər Hz. Fatimə də şərik olmuşdu. Atası evdən çıxıb İslamı təbliğ edərkən o, ya həyəcanla qapıda gözləyər, ya da atasını addım-addım izləyərək onu qorumağa çalışardı. Bir gün Hz. Peyğəmbər *(s.ə.s)* Məscidi-Hərama gedərək oradakı insanlara İslamı başa salırdı. Fəqət qarşısındakı cahil topluma mənsub insanlar onların nizamını dəyişdirmək istəyən bu səsi boğmaq üçün buraya toplanmış və Allah Rəsuluna *(s.ə.s)* hər cür həqarət edərək hücum etmişdilər. Atasının məruz qaldığı bu əzabları kənardan qorxu ilə izləyən Hz. Fatimə müşriklərin dağılışıb getməsindən sonra qan içində qalmış atasının qoluna girərək onu evə gətirmiş və şəfqətlə yaralarını sarımışdı.

Yenə bir gün Rəsulullah *(s.ə.s)* Məscidi-Həramda səcdə halındaykən müşriklər hər zamankı vəhşilikləri ilə dəvə içalatını Rəhmət Peyğəmbərinin başına ataraq qəhqəhə ilə gülərkən, Hz. Fatimə o pislikləri öz əlləri ilə təmizləmiş və atasını götürüb evə getmişdi. Anası Hz. Xədicə vəfat etdiyində digər bacıları ilə birlikdə atasına kömək etmiş, onun çilələrinə şərik olmuş və çəkdiyi əzablara kədərlənərək göz yaşı tökmüşdü. Hz. Fatimə qanını silmiş, Zeynəb su tökərək əlini-üzünü yumuş və bu minvalla illərlə məşəqqətli bir həyat yaşamışdılar. Amma bütün bunlara baxmayaraq Allah Rəsulu *(s.ə.s)* ilk öncə onları xəbərdar etmiş, axirətə hazırlanmalarını əmr etmiş, özü üçün təlaşlanmamalarını söyləyərək heç kimin onların atasına zərər verə bilməyəcəyini söyləmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* vəzifəsinə məhz belə çətin şərtlərdə başladı. Ən yaxınlarından ona dəstək verənlər, barmaqla sayıla biləcək bir neçə nəfər oldu. Qohum-əqrəbalarından Məkkənin fəthinə qədər İslamı qəbul etməyənlər olduğu kimi, iman nemətinə heç qovuşmadan ölüb gedənlər də oldu. Lakin onun vəzifəsi qohumlarından başlayaraq xəbərdar etmək və İslama dəvət etmək idi ki, bunu da ən gözəl bir şəkildə yerinə yetirdi.

**4. Etibarlı şəxslərə təbliğ**

Kadr yetişdirməyə başlamaqla təbliğdə ilk adım atılmış sayılır. İslam cahiliyyə əsaslarına tamamilə qarşıdır. Müsəlmanlar buna görə daha çox məşəqqətlərə məruz qalmışdır. Bu səbəblə də məşəqqət xüsusi qavram halına gəlmişdir.[234] Müsəlmanlar bütün məşəqqətlərə sinə gərməyi yaxşı bilir, hər şeylərini bu yolda fəda etməyi bacarırlar. Əsas olan İslamı təbliğ etməkdir. Xarici qüvvələr tərəfindən təbliğə mane olunduğu zamanlar təbliğ gizli şəkildə həyata keçirilmişdir. Günümüzdəki kimi İslam dininin yayılmasına mane olmaq fəaliyyətləri hər zaman olmuşdur. İslam dininin məqsədi kainatda ilahi xitaba müxatəb olan bütün insanların qardaş olmasıdır. İslam bütün bəşəriyyət üçün yeganə sülh vasitəsidir. Bu səbəblə də İslama hər zaman qarşı gəlinmişdir.[235]

Rəsulullah *(s.ə.s)* təbliğə ilk başladığı vaxtdan etibarən üç il müddətində bu metoddan istifadə etmişdir. Bu mərhələdə Hz. Peyğəmbər *(s.ə.s)* və ona iman edənlər ibadətlərinə və təbliğ fəaliyyətinə gizli şəkildə davam edirdilər. Bu mərhələdə etibar etdiyi və İslama meyl edəcəyini bildiyi şəxslərə təbliğ edirdi.[236] İlk iman edənlərdən Hz. Əbu Bəkir (r.a) və Hz. Osman (r.a) Hz. Peyğəmbərin *(s.ə.s)* dostları idi.[237] Hz. Peyğəmbərin *(s.ə.s)* peyğəmbərliyinin ilk günlərində onu və həyat yoldaşı Hz. Xədicəni (r.anhə) ibadət edərkən görən Hz. Əli (r.a) bunun mahiyyətini soruşmuş və Hz. Peyğəmbər *(s.ə.s)* ona İslamın nə olduğunu açıqlamışdır. O da atası ilə məşvərət etmək istədiyini söyləmişdir. Ancaq Hz. Peyğəmbər *(s.ə.s)* ilk vaxtlarda gizlilik əhəmiyyətli olduğu üçün məsələnin Əbu Talibə belə açılmasına razı olmamış, Hz. Əlidən (r.a) bunu kimsəyə söyləməməyi istəmişdi.[238] İslamın yayılmasında böyük rolu olan Hz. Əbu Bəkir də etibar elədiyi insanlara İslamı təbliğ edərək Hz. Peyğəmbərə *(s.ə.s)* köməklik edirdi.[239] Qifar qəbiləsindən

234. F. Yekən, *Müşkilət*, s, 18-29, 232.
235. Sibai, *Hz. Muhamməd və Həyatı*, s, 41-43.
236. Həsən İbrahim, *Tarixul-İslam*, I, 81.
237. Xudari, *Nurul-Yəqin*, s, 41; Daxlan, *Sira*, I, 93-94.
238. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 87-88.
239. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 250.

olan Əbu Zərr Qifari (r.a) cahiliyyədən uzaqlaşaraq hidayəti axtaranlardan idi.[240] Amr ibn Abəsə, bütlərə sitayiş etməmiş və cahiliyyə adətlərindən uzaq olmuşdur.[241]

Rəsulullah *(s.ə.s)* təbliğ fəaliyyətinə gizli şəkildə davam edirdi. Həmin vaxt üçün gərəkli olan təbliğin gizli şəkildə aparılması idi. Çünki Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ faəliyyəti ilə əlaqəli izlədiyi yol vəhyə əsaslanırdı.[242] Vəhyə əsaslanmayan xüsuslarda öz rəyi ilə və ya məşvərətlə hərəkət edərdi. Əgər qərar verdiyi şey Allahın istəyinə uyğun olmazdısa bu ona vəhylə bildirilirdi. Bu səbəbə görə Cəbrayılın (ə.s) Hz. Peyğəmbərə *(s.ə.s)* vəhy gətirdiyi kimi Sünnəni də gətirdiyi nəql edilmişdir.[243] Bir dəfə Hz. Peyğəmbər *(s.ə.s)* səhabələrinə səsli namaz qıldırarkən bunu eşidən müşriklər onlara istehza etmişdirlər.[244] Bundan sonra isə bu ayə nazil olmuşdur: "(Ya Peyğəmbərim!) **Namaz qılarkən səsini nə çox qaldır, nə də çox alçalt. Bunun** (bu ikisinin) **arasında orta bir yol tut!".** (İsra, 17/110) Bu hədisi şərh edən Sindi belə demişdir: Ayədən məqsəd dinin təbliğ edilməsidir. Təbliğdə məkan və zamana uyğun olaraq gizli təbliğə riayət etmək lüzumludur.[245]

Rəsulullahın *(s.ə.s)* təbliği ilə əlaqəli iki xüsusa toxunmaqda fayda var:

1. Rəsulullah *(s.ə.s)* İslami təbliğin ilk üç ilində özünü qorumaq üçün gizli şəkildə təbliğlə məşğul olmamışdır. O, əlbəttə ki, peyğəmbər olduğunu bilirdi. Ona bu vəzifəni verən Uca Allah da onu bütün insanlardan gələcək təhlükələrdən qorumağa qadir idi. Əgər Allah Hz. Peyğəmbərə *(s.ə.s)* açıq təbliği əmr etsəydi o, əlbəttə bunu edəcəkdi. Lakin Uca Allah başlanğıcda gizli hərəkət etməyi, ancaq güvənə biləcəyi insanlara təbliği əmr etmişdi. Allah bununla da sonrakı nəsillər üçün bir dərs vermişdir. Təbliğlə məşğul olacaq insanlar zaman və məkana

---

240. İbn Kəsir, *əl-Bidayə*, III, 34-36; İbn Əsir, *əl-Kəmil*, II, 59.
241. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 89-90.
242. **"O, öz istəyi ilə danışmır. Bu, ancaq** (Allah dərgahından) **nazil olan bir vəhydir".** Nəcm, 53/3-4.
243. Darimi, *Müqəddimə*, 49.
244. Müslim, Salət, 145; Nəsai, İftitah, 80.
245. Sindi, *Haşiyə*, II, 178.

və var olan şərtlərə uyğun hərəkət etməlidirlər. Bu işdə təbliğçilərin öndəri olan Hz. Peyğəmbərin *(s.ə.s)* metodlarından istifadə edilməlidir. Bu işlərdə ən gözəl örnək Rəsulullahdır.[246]

2. Hz. Peyğəmbər *(s.ə.s)* gizli təbliğlə məşğul olmayıb bunu açıq şəkildə də edə bilərdi. Amma o açıq təbliğ etməklə mükəlləf olunmamışdır.[247] Əgər ilk dövrlərdən açıq təbliğlə məşğul olsaydı bu özlüyündə bir çox problemə səbəb ola bilərdi. O zaman səmimi olanlarla digərlərini ayırd etmək çətinləşərdi. Bununla yanaşı İslamın daxilindəymiş kimi görünən lakin onun əleyhinə işləyən qrup meydana çıxa bilərdi ki, bu da çox təhlükəli olardı.

Bu səbəblərə görə təbliğlə gizli şəkildə məşğul olmaq lazım idi.

### 5. Darul-Ərkamda edilən təbliğ

İslami dəvət üçün kadrların yetişdiriləcəyi, möminlərin təlim-tərbiyəsi ilə məşğul olunacaq, İslama meyilli olanlara təbliğ edilə biləcək mərkəzə ehtiyacın olduğu aşkardır. Hz. Peyğəmbər *(s.ə.s)* Məkkədə yeni müsəlaman olanların iman və ibadət əsaslarını öyrənə və bir-birilərilə görüşə biləcəkləri yer olaraq Darul-Ərkamı seçmişdir. Bura ilk iman edənlərdən Ərkam ibn Ərkamın evidir. Bu ev Səfa təpəsi yaxınlığında və həccə gələnlərin gəldiyi yer idi.[248] Həmçinin müşriklərin toplandığı Darun-Nədvənin yaxınlığında yerləşirdi. Strateji mövqeyinə görə Hz. Peyğəmbər oranı mərkəz olaraq seçmişdi.

Rəsulullah *(s.ə.s)* peyğəmbərliyin neçənci ilində Darul-Ərkamı dəvət mərkəzi seçmiş və orada nə qədər qalması haqqında qaynaqlarda dəqiq məlumat yoxdur. Müasir İslam Tarixi alimlərindən Muhamməd Həmidullah: “Məkkəlilərin müsəlmanlara və şəxsən Hz. Peyğəmbərə *(s.ə.s)* zülm və işgəncələri artdıqda Hz. Peyğəmbər *(s.ə.s)* evini tərk edərək Ərkamın evinə sığınmaq məcburiyyətində qaldı. Rəsulullahın *(s.ə.s)* belə etmə-

---

246. Buti, *Fiqhus-Sira*, s, 76-77.

247. İmaduddin Xəlil*, Dirasə fis-Sira*, s, 63.

248. İmaduddin Xəlil, *Dirasə fis-Sira*, s, 64-65; Həsən İbrahim, *Tarixul-İslam*, I, 80; Arnold, *İslam Tarixi*, s, 44.

sinin səbəbi zülmdən xilas olmaq yox, dini daha rahat şəkildə yaya bilmək idi. Bu bir neçə il davam etmişdir" demişdir.[249]

Hz. Peyğəmbər *(s.ə.s)* açıq dəvətə başladıqdan sonra Ərkamın evinə sığınmışdır. Çünki müsəlmanlara və Hz. Peyğəmbərə *(s.ə.s)* qarşı zülm açıq dəvətdən sonra başlamışdır. İslam Ensiklopediyasına Ərkam maddəsini yazan Reckendorf da tam əminliklə deməsə də bu fikri qəbul etmişdir: "Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Ömərin müsəlman olmasından sonra Ərkamın evini tərk etmişdir. Orada nə qədər qaldığı məlum deyil. Lakin 615-617-ci illər arasında qaldığı ehtimal olunur".[250] Arnold, Hz. Peyğəmbərin *(s.ə.s)* Darul-Ərkamın evinə köçmə tarixini vermişdir. "Hz. Muhamməd, peyğəmbərliyin 4-cü ilində öz evindən çıxaraq ilk iman edənlərdən Ərkamın evinə köçmüşdür".[251]

Səhabələrdən Ammar ibn Yasir ilə Suheyb ər-Rumi də ilk iman edənlərdəndir.[252] Bəlazurinin ilk iman edənlərin Hz. Əbu Bəkir, Bilal, Habbab, Suheyb və Ammar olduğunu nəql etməsi,[253] onların açıq dəvətdən əvvəl müsəlman olduqlarına dəlalət edir. İbn Sadın nəql etdiyinə görə Ammar ibn Yasir və Suheyb ər-Rumi Darul-Ərkamda müsəlman olmuşdurlar. Ammar ibn Yasir belə demişdir: "Darul-Ərkamda Suheyblə qarşılaşdım və ondan burada nə axtardığını soruşdum. O da mənə eyni sualı verdi. Eyni məqsəd üçün gəldiyimizə görə birlikdə Hz. Peyğəmbərin *(s.ə.s)* yanına getdik. O, bizə İslamdan bəhs etdi və biz müsəlman olduq. Axşama qədər orada qaldıq. Axşam olduqda gizli şəkildə oradan çıxdıq".[254] Qeyd olunan məlumatlardan çıxan nəticə ondan ibarətdir ki, Hz. Peyğəmbər *(s.ə.s)* peyğəmbərliyin 4-cü ilindən əvvəl Darul-Ərkamda İslamı yaymaq fəaliyyəti ilə məşğul olmuşdur.

Zamanından asılı olmayaraq önəmli olan Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ fəaliyyəti ilə məşğul ola biləcək mərkəzə ehtiyac duymasıdır. Bu dövrdə Hz. Peyğəmbər *(s.ə.s)* gizliliyə çox

---

249. M. Həmidullah, *İslam Peyğəmbəri*, I, 79.
250. Reckendorf, "Ərkam", İ. E, IV, 316.
251. Arnold, *İslam Tarixi*, s, 44.
252. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 260-262.
253. Bəlazuri, *Ənsab*, I, 158.
254. Bəlazuri, *Ənsab*, I, 158; Qandəhləvi, *Həyatus-Səhabə*, I, 117.

önəm vermişdir. Ammar ibn Yasirin nəql etdiyi hadisədə gördüyümüz kimi Darul-Ərkamda nə axtardıqlarını bir-birilərinə soruşmuşlar. Ağızlarından çıxacaq bir sözlə gizliliyə kölgə düşürəcəklərini və bununla da bir sıra təhlükələrlə üzləşəcəklərini yaxşı bilirdilər.

Hz. Peyğəmbərin *(s.ə.s)* Darul-Ərkamda gizli şəkildə İslami kadrlar yetişdirməsi İslamın yayılmasında ən əhəmiyyətli mərhələdir. İlk müsəlmanların bir çoxu İslamı bu evdə qəbul etmişdir.[255]

Darul-Ərkamdakı bu fəaliyyət İslamı təbliğ etmək üçün təbliğçi yetişdirmə məktəbi olaraq qəbul edilməlidir. Hz. Peyğəmbərin *(s.ə.s)* İslam təbliğində metod olaraq təbliğçilər yetişdirməsi və ətraf bölgələrə təbliğçilər göndərməsi onun üçün əsas məsələlərdən biridir. Darul-Ərkamda yetişən səhabələrdən biri olan Musab ibn Ümeyrin Mədinəyə İslam təbliğçisi kimi göndərilməsi və orada qazandığı müvəfəqiyyəti nəzərə aldıqda təbliğçilər yetişdirməyin əhəmiyyəti özlüyündən başa düşülür. Hz. Peyğəmbər *(s.ə.s)* bu fəaliyyətinə Mədinədə də davam etmiş və İslami dəvət üçün kadrlar yetişdirmişdir.[256] Çünki o, müvəffəq olmağın yollarını çox yaxşı bilirdi.[257]

Təbliğçi, ancaq təbliğ fəaliyyəti ilə məşğul olacaq kadr yetişdirməklə kifayətlənməməli, kadrlarının sayını artıraraq onları insanlarla müxatəb etməlidir. Bu şəkildə kadrlaşma tamamlanmalıdır. Kadrlaşma və kütləviləşmə bir-biri ilə əlaqəlidir. Bunları bir-birindən ayırmaq doğru deyil. Təbliğçi, hər iki mərhələyə də əhəmiyyət verməlidir.

Rəsulullahın *(s.ə.s)* tətbiq etdiyi metod da belə olmuşdur. O, lazım olan kadrları yetişdirdikdən sonra xalqa yönəlmiş və fəaliyyətinə o şəkildə davam etmişdir.

---

255. İmaduddin Xəlil, *Dirasə fis-Sira*, s, 64-65; Həsən İbrahim, *Tarixul-İslam*, I, 80; Arnold, *İslam Tarixi*, s, 44.

256. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 167-172, III, 691-694; Nədvi, *Təbliğat və Təlimat*, II, 431-432; Sibai, *Hz. Muhamməd və Həyatı*, s, 42-43; Arnold, *İslam Tarixi*, s, 53-54.

257. F. Yekən, *Müşkilət*, s, 45-46; Bəhi, *Təzkira*, s, 270-271; M. A. ər-Rəşid, *Müntəlaq*, s, 150-170; Əbdül-Bədi, *Kəyfə Nədu*, s, 15.

### C. Kütləviləşmə

Kütlə kəlməsi, millətləri, cinsləri, peşələri nə olursa olsun təsadüfi fərdlər topluluğunu ifadə edir. Məsələyə psixoloji yöndən baxdığımız zaman tam başqa məna ilə qarşılaşarıq. Müəyyən məqsədləri və düşüncələri eyni olmadan toplanan insanlar əsla psixoloji yöndən kütlə məfhumu təşkil edə bilməz.[258] Əsl kütlə eyni məqsədlərə, eyni fikir və düşüncələrə, eyni inanc və yaşayışa sahib insanlar topluluğu, camaat və ümmətdir.

Hər hansı bir ideologiyanın həyata keçirilməsi üçün kütləviləşməyə ehtiyac var.[259] Əks halda o ideologiya təməli olmayan bina kimi çökməyə məhkumdur.

Bu səbəblə də İslam dəvəti ilə məşğul olacaq təbliğçilər bunu nəzərdən qaçırmamalı, ilk olaraq təbliğə ətraflarından başlamalı və bu dairəni genişlətməlidirlər. İslam dini haqq üzrə olan topluluğa «camaat" adını vermiş və bu məfhum üzərində xüsusilə durmuşdur. Həmçinin camaata böyük önəm vermiş və camaatdan ayrı qalmağı İslamdan uzaqlaşmaq kimi dəyərləndirmişdir.[260]

Rəsulullah *(s.ə.s)* təbliğin ilk illərində kadrlaşma siyasəti ilə yanaşı kütləviləşməyə yönəlmiş və camaat olmaq şüurunu aşılamışdır. Onun kütləviləşməyə yönəlməsi açıq təbliğ ilə başlamış və ətraf bölgələrdəki ərəb qəbilələrinə təbliğlə davam etmişdir. Mədinəlilərin İslamı qəbul etməyi ilə təbliğin bu yönü daha da inkişaf etdirilmişdir. Hz. Peyğəmbər *(s.ə.s)* bununla da kifayətlənməmiş ətraf bölgələrdəki qəbilələrlə müqavilələr imzalayaraq fəaliyyətinə davam etmişdir. Bunlara qısaca da olsa toxunaq:

#### 1. Açıq təbliğ

Hz. Peyğəmbər *(s.ə.s)* üç il davam edən gizli təbliğdən sonra Uca Allahın "وَأَنْذِرْ عَشِيرَتَكَ الْأَقْرَبِينَ" **"Və ən yaxın qohumlarını qorxut!"** (Şuəra, 26/214) və "فَاصْدَعْ بِمَا تُؤْمَرُ" "(Ya Rəsulum!) **Sənə**

258. Gustave Le Bon, *Kütlələr Psixologiyası*, s, 29-31.
259. İ, L. Çakan, *Haqqı Tövsiyə*, s, 30.
260. Əbu Davud, Sünnə, 27.

**əmr olunanı** (Quranı) **açıq-aşkar təbliğ et"** (Hicr, 15/94) əmri ilə təbliğini açıqlamışdır. Bu üç il içərisində sayları yüzdən artıq olmayan, lakin buna baxmayaraq həyatlarını Rəsulullahın uğrunda fəda etməyə hər an hazır olan kadrlar yetişmişdi. Müşriklərin əzab-əziyyətləri onların şövqünü artırmaqdan və gözəl məziyyətlərini tanıtmaqdan başqa heç bir işə yaramırdı. Artıq təbliği açıqlamaq əmri gəlmişdi və ilk öncə yaxın qohumlardan başlanılmalı idi.

Əlbəttə ilk olaraq təbliğə yaxın qohumlardan başlamaq lazım idi. Yaxın qohumlar ətraf mühitlə əlaqəni asanlaşdıran əsas vasitədir. Digər insanlara təbliğ etməyin ilkin mərhələsini təşkil edir. Digər tərəfdən bir insanı ən gözəl şəkildə qohum-əqrabaları tanıyır. Bir peyğəmbər ən tez öz yaxınlarını inandıra bilər. Əgər yaxınlar inanmazsa bu digər insanların tərəddüd etməyinə və şübhəyə düşməyinə səbəb ola bilər. "Nə üçün qohumları ona inanmır? Deməli bizim bilməyib onların bildiyi həqiqət var ki, onu qəbul etmirlər" deyə düşünə bilərlər. Müşriklər bu silahdan istifadə etmişlər. Hz. Peyğəmbərin *(s.ə.s)* ən qəddar düşmənlərindən olan əmisi Əbu Ləhəb hər zaman ona əngəl olmaq istəmiş və o insanlara İslamı təbliğ edib Quran oxuyarkən: "Ona inanmayın! Bir insanı ən yaxşı ailəsi, qohumları və nəsli tanımazmı?! Mən əmisiyəm. O yalançı və məcnundur. Əsla sizi aldatmasına icazə verməyin" – demişdir. Bu sözləri eşidənlər də "Səni qəbul edib inanmayan ailə və qohumların səni daha yaxşı tanıyır" deyərək dəvəti rədd edirdilər.[261] Həbəşistana hicrət edən müsəlmanları geri qaytarmaq üçün gedən müşrik elçilər də eyni silahdan istifadə etməyə çalışmışdılar.[262]

Yaxınlar və qohum-əqrəbalar təbliğ üçün böyük dəstək ola biləcəkləri kimi böyük əngəl də təşkil edə bilirlər. Bu səbəblə də açıq təbliğə qohumlarla başlanılmalı idi. Hz. Peyğəmbər *(s.ə.s)* də bu cür hərəkət etmişdir. Uca Allahdan açıq təbliğ əmrini aldıqdan sonra otuz və ya qırxa yaxın qohumlarını ziyafətə dəvət etdi və onlara İslamı təbliğ edərək əmr olunduğu əsasları açıq-

---

261. İbn Qayyim, *Zadul-Məad*, II, 56; Hələbi, *İnsan*, II, 2-3.
262. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 334-335; Diyarbəkri, *Tarixul-Xamis*, I, 290.

ladı.[263] Hz. Peyğəmbər *(s.ə.s)* dəvətini açıqlayıb sözünü bitirən kimi əmisi Əbu Ləhəb ona qarşı çıxdı və kiçik yaşda olan Hz. Əlidən başqa ona yardımçı olacağını söyləyən olmadı.[264] Hz. Peyğəmbər *(s.ə.s)* bununla ruhdan düşməmiş və hər fürsətdə təbliğ vəzifəsini yerinə yetirmiş və Allaha qarşı olan vəzifəsini ifa etməyə davam etmişdir.

Təbliğdə daha sonra uzaq qohumlar əsas təşkil edir. Rəsulullahın *(s.ə.s)* qohumları demək olar ki, bütün Məkkə əhalisini əhatə edir. Onun bütün məkkəlilərlə qohumluq əlaqəsi vardı.[265]

Rəsulullah *(s.ə.s)* Səfa təpəsinə çıxaraq hər kəsi oraya səslədi.[266] Oraya toplananlara nəsil-nəsil, ailə-ailə, ad-ad xitab edərək təbliğ etdi. Yenə də əmisi Əbu Ləhəb müdaxilə etdi və təbliğ nəticəsiz qaldı.[267]

Bu şəkildə başlayan açıq təbliğ günü-gündən inkişaf etdi və Hz. Peyğəmbər *(s.ə.s)* yavaş-yavaş təbliğin sahəsini genişləndirərək birindən digərinə keçməyə başladı. Dost və yoldaşlarına, qohum-qonşularına və Məkkədə qarşılaşdığı hər kəsə təbliğ edirdi. Nəticədə dəvət daha da genişlədi və Ərəb yarmadasının hər tərəfindən həcc və ümrəyə gələnlərə də yönəldildi.

### 2. Qəbilələrə təbliğ

Uca Allahın peyğəmbər göndərmək üçün seçdiyi müqəddəs Məkkə şəhəri coğrafi, ictimai və iqtisadi mərkəz idi. Avropa, Asiya və Afrika qitələrinə yaxındır və Ərəb yarmadasının ortasında yerləşir. Əkinçilik üçün əlverişli olmadığına görə bölgə əhalisi yaşayışını ticarətlə təmin edirdi. Bu səbəblə də ətraf bölgələrə və ölkələrə ticarət səfərləri təşkil edilirdi. Ticarət üçün Suriya, Misir, İraq, İran, Yəmən və Həbəşistana (indiki Efiopiya) gedirdilər. Ticarət karvanlarının yolu Məkkə, Mədinə

263. İbn Kəsir, *əl-Bidayə*, III, 39-40; İbn Əsir, *əl-Kəmil*, II, 61; Qandəhləvi, *Həyatus-Səhabə*, I, 154
264. İbn Kəsir, *əl-Bidayə*, III, 40; İbn Əsir, *əl-Kəmil*, II, 62-63.
265. Buxari, *Təfsiru Suratiş-Şura*, 1.
266. Nədvi, *ən-Nübuvvə*, s, 12-14.
267. Buxari, Vəsaya, 10; Müslim, İman, 355; Nəsai, Vəsaya, 6; Tirmizi, *Təfsiru Suratiş-Şuəra*, 2-3; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 307, II, 360, 398-399, 519, V, 60, VI, 187; İbn Kəsir, *əl-Bidayə*, III, 38-39.

və Taifdən keçirdi. Məkkə daha əhəmiyyətli mövqedə yerləşirdi. Çünki orada Hz. İbrahim və Hz. İsmailin inşa etdikləri Kəbə vardı. Və bu səbəblə də ətraf bölgələrin xalqları dini ayinləri yetirə bilmək üçün böyük həyacan və sevgi ilə Kəbəni ziyarət etməyə gəlirdilər.[268]

Məkkə hər zaman həccə gələn insanlarla dolu olurdu. Həcc mövsümündə bazarlar qurulur və ticarət edilirdi. Ukaz, Məcənnə və Zul-Məcaz adlı bazarlarda həccə gələnlər alış-veriş edirdilər. Həmçinin həcc mövsümündə əyləncələr də təşkil edilirdi.[269]

Bunlar təbliğin ümumbəşəriliyi üçün xüsusi fürsət sayılırdı. Hz. Peyğəmbər *(s.ə.s)* açıq təbliğlə əmr olunduqdan sonra Məkkədə qaldığı on il müddətində bu imkandan hər zaman istifadə etdi və fürsətləri dəyərləndirməyə çalışdı. Bu müddət ərzində yorulmadan, usanmadan və ümidini itirmədən Məkkəyə gələn hacılara, tacir və müsafirlərə İslamdan bəhs etdi və onlara Qurani-Kərim oxudu.[270]

Hz. Peyğəmbər *(s.ə.s)* qəbilələrə təbliğ üçün dostu Hz. Əbu Bəkir, Hz. Əli, bəzən də hələ iman etməmiş olmasına baxmayaq əmisi Abbasla gedərdi.[271]

Qəbilələrə təbliğ üçün gedən Hz. Peyğəmbəri *(s.ə.s)* müxtəlif cür qarşılayırdılar. Hər şeyə rəğmən Hz. Peyğəmbər *(s.ə.s)* təbliğinə davam edirdi.[272] Onun bu qədər ciddiyyətlə, əzm və şövqlə təbliğə davam etməyi müxatəblərinin təəccüblənməsinə belə səbəb olurdu və bəziləri: «Sən bizdən hələ də ümidini üzmədinmi?" deyirdilər.[273]

---

268. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 25-28.
269. Hələbi, *İnsan,* II, 2.
270. Hələbi, *İnsan*, II, 2; İbn Kəsir, *əl-Bidayə*, III, 138-146; Qandəhləvi, *Həyatus-Səhabə*, I, 127.
271. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 141-148. Siqayə (hacılara su paylamaq vəzifəsi) kimi önəmli bir vəzifənin Hz. Abbasın əlində olmasını nəzərə aldıqda qəbilələrin yeri və vəziyyəti haqqında onun bilgisinin əhəmiyyəti ortaya çıxır. Digər tərəfdən bu vəzifəni yerinə yetirən şəxsin qəbilələr üzərində təsiri olmalı idi. Bu xüsuslardan faydalanmaq üçün hələ iman etməmiş belə olsa Hz. Abbasdan Hz. Peyğəmbərin *(s.ə.s)* yardım istəməsi təəccüblə qarşılanmamalıdır.
272. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 98.
273. Səid Havva, *Rəsul,* I, 107.

Apardığı təbliğin Məkkədə nəticəsiz qaldığını görən Hz. Peyğəmbər *(s.ə.s)* qarşılaşdığı digər qəbilələrə *"Sizlərdən məni qəbiləsinə aparıb himayə edəcək kimsə varmı? Qüreyş Rəbbimin kəlamını təbliğ etməyimə mane olur"*[274] deyərək İslamı qəbul edib özünə yardım edəcək qəbilə axtarırdı. Gələn qəbilələrdən bu cəsarət və iman sahib olanlar olmadı. Peyğəmbərliyin onuncu ilində himayədarları Hz. Xədicə və Əbu Talib ard-arda vəfat etdi.[275] Bundan sonra Hz. Peyğəmbər *(s.ə.s)* hüznlü halda İslamı təbliğ edə bilmək üçün köləlikdən azad edərək övladlığa götürdüyü Zeyd ibn Harisə ilə birgə Taifə getdi. Lakin onlar Hz. Peyğəmbərlə *(s.ə.s)* çox pis rəftar etdilər. Hətta onu daşqalaq etməkdən belə çəkinmədilər. Hz. Peyğəmbərin *(s.ə.s)* bədəni al qana boyandı. Çətinliklə də olsa özlərini onların əlindən xilas edə bildilər, Utbə və Şeybənin bağına sığınmaq məcburiyyətində qaldılar.[276]

Fəqət Rəsulullah *(s.ə.s)* əsla ümidsizliyə qapılmır, həmişə ümidvar olurdu. Rəsulullah da hər zaman belə davranmışdır. Taiflilərin etdiklərinə qarşı Uca Allahdan onların həlak olmasını yox, hidayətə gəlmələrini diləmişdir.[277] Hz. Peyğəmbərin *(s.ə.s)* və səhabələrinin kütləviləşmə fəaliyyəti mədinəlilərin müsəlman olması ilə müvəfəqqiyyətə gedən yolda ilk addım olmuşdur.

### 3. Mədinəlilərin müsəlman olması və beyətlər

İslam tarixində mədinəli Xəzrəc qəbiləsinə mənsub altı nəfərin müsəlman olması önəmli hadisələrdən sayılır. Hz. Peyğəmbər *(s.ə.s)* bu hadisədən sonra daha da ümidləndi və onlarla birgə İslam dövlətini qurmaq niyyətini qətiləşdirdi. Mədinəli qardaş olan iki qəbilə Övs və Xəzrəc arasında düşmənçilik hökm sürürdü. Buas döyüşünün izi hələ silinməmişdi. Bu səbəblə də İslam dövləti qurulmadan öncə onları barışdırmağa ehtiyac vardı. Bu ehtiyacı nəzərə alan Hz. Peyğəmbər

---

274. Əbu Davud, Sünnə, 24; Tirmizi, Savabul-Quran, 24; İbn Macə, Müqəddimə, 13; Darimi, Fədailul-Quran, 5.
275. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I, 415-418; Təbəri, *Tarix*, II, 343-344.
276. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I, 419-421; İbn Kəsir, *əl-Bidayə*, III, 135-137.
277. Buxari, *Bədul-Xalq*, 7; Müslim, Cihad, 111.

*(s.ə.s)* iman edən altı nəfərdən Mədinədə istər öz qəbilələri, istərsə də Xəzrəc qəbiləsi arasında İslam dinini təbliğ etmələrini istədi. Onlar İslamı yaraları sarıyacaq məlhəm bildilər və bu məqsədlə də öz diyarlarına qayıtdılar. Və gələn il eyni vaxtda yenidən görüşə gələcəklərini vəd etdilər. Bu insanlar səmimi İslam təbliğçisi oldular və qarşılaşdıqları hər insana yeni gələn dindən bəhs etməyə başladılar. Artıq Mədinədə hər evdə İslamdan danışılırdı. Peyğəmbərliyin 12-ci ilində onlar verdikləri sözə əsasən Məkkəyə yenidən gəldilər və Hz. Peyğəmbərə *(s.ə.s)* beyət etdilər. Bu hadisəyə "Birinci Əqəbə Beyəti" deyilir.

Xəzrəcli təbliğçilərin səyləri nəticəsində İslam dini Mədinədə xeyli yayılmışdı. Fəqət insanların çoxu İslamı qəbul etmədiyi üçün bununla kütləviləşmək mümkün deyildi və bundan sonrakı mərhələyə keçilə bilməzdi. Müsəlman olanların İslam dəvətinə tam bağlanmaları və İslamın prinsiplərini çox yaxşı öyrənmələri lazım idi. Hz. Peyğəmbər *(s.ə.s)* bunları gerçəkləşdirmək üçün Musab ibn Ümeyri Mədinəyə göndərmişdi.

Musab ibn Ümeyrin bir il içərisindəki fəaliyyəti çox faydalı olmuş və istənilən nəticəni vermişdi. Peyğəmbərliyin 13-cü ilində o iman edən 75 nəfərlə Məkkəyə gəlmiş və orada "İkinci Əqəbə Beyəti" gerçəkləşmişdir. Onlar bu beyətdə Hz. Peyğəmbəri *(s.ə.s)* və səhabələrini canları və malları kimi qoruyacaqlarına söz verib and içmişlər.[278]

Bu hadisə nəticəsində yeni üfüqlər açılmış və İslam dəvətinin əsas mərhələlərindən biri olan kütləviləşmək üçün istənilən zəmin yaranmışdı. Kütləviləşmək hicrətlə daha da inkişaf etdi. Hz. Peyğəmbər *(s.ə.s)* hicrətdən sonra da kütləviləşməyə lazım olan əhəmiyyət və dəyəri verdi.

### 4. Hicrətdən sonrakı kütləviləşmə fəaliyyətləri

Eyni qayə və məqsədə inandıqlarını iddia edən insanların bir yerə yığılmaları arzu edilən kütləni meydana gətirmək üçün yetərli deyil. Belə topluluqla məqsədə nail olmaq çətindir. Rəsulullahın *(s.ə.s)* səhabələrinin arasında isə hörmət, qar-

278. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 428-443; İbn Kəsir, *əl-Bidayə*, III, 148-165; İbn Qayyim, *Zadul-Məad*, II, 56-58.

daşlıq, birlik-bərabərlik və s. onları bir-birilərinə bağlayan sıx bağlar mövcud idi. Bu xüsuslar bir ümmətin təşəkkülü və səadəti üçün əsas amillərdəndir.[279]

Hz. Peyğəmbər *(s.ə.s)* mənən bir-birilərinə bağlı olan səhabələri qardaş elan etdi. Bu elə bir qardaşlıq oldu ki, miras ayələri nazil olana qədər bir-birilərinə varis oldular.[280]

Daxildə qardaşlıq təmin edildikdən sonra kütləni genişlətmək üçün Mədinə ətrafındakı digər qəbilələrlə görüşüb danışmaq və onların İslam dövlətinə qarşı fikirlərini öyrənmək lazım idi. Hz. Peyğəmbər *(s.ə.s)* bu məqsədi həyata keçirmək üçün ətrafa səriyyələr[281] göndərməyə başladı. Daha sonra səriyyələrin sayını artırdı. Bəzilərində özü də şəxsən iştirak etmişdir. Bunlara isə qəzvə[282] deyilir. Hz. Peyğəmbər *(s.ə.s)* çıxdığı səfərlərdə qonşu qəbilələrlə görüşdü. Bəzi qəbilələrlə müqavilələr imzaladı.[283] Hər nə qədər o qəbilələr İslamı qəbul etməmiş olsalar da bu münasibətlər nəticəsində İslam dövlətini tanıdılar. Bununla da onların da İslam dövlətinin tərkibinə qatılması üçün zəmin hazırlanmış oldu.

### 5. Dəvətdə Qurani-Kərimin təsiri

Kainatın fəxri Hz. Peyğəmbər *(s.ə.s)*; **"Ey libasına örtünüb bürünən** (əbasına bürünüb yatan Peyğəmbər)**, qalx və qorxut** (xəbərdar et)**".** (Muddəssir, 74/1-2) **"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni** (Quranı) **təbliğ et. Əgər bunu etməsən, Allahın risalətini yerinə yetirmiş olmazsan..."** (Maidə, 5/67) kimi ilahi əmrlərə uyğun olaraq Allah-Təalanın dinini təbliğ etməyə başlamış, insanları zəlalətdən qurtarıb əbədi səadətə çatdırmaq yolunda bütün gücünü səfərbər etmişdir. Rəsulullah *(s.ə.s)* insanlara dinin ehkamlarını, əmr və qadağalarını müəyyən metod və vasitələrdən istifadə edərək təbliğ etmişdir. Bunlara Qurani-Kərim, göstərdiyi möcüzələr, ibrətli

279. Buti, *Fiqhus-Sira*, s, 156-158.
280. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 504-507; İbn Kəsir, *əl-Bidayə*, III, 226-229.
281. Hz. Peyğəmbərin düşmən üzərinə və ya kəşfiyyat məqsədilə göndərdiyi və şəxsən iştirak etmədiyi süvari dəstələr.
282. Qəzvə Hz. Peyğəmbərin başçılıq etdiyi birliklərə verilən addır.
283. İbn Əsir, *əl-Kəmil*, II, 112; İbn Kəsir, *əl-Bidayə*, III, 246-247.

həyatı, etdiyi dəvət, verdiyi ziyafətlər, yetişdirdiyi müəllim və təbliğçilər, göndərdiyi məktub və elçiləri misal göstərə bilərik.

"(Ya Peyğəmbər!) **Sən mənim əzabımdan qorxanlara Quranla öyüd-nəsihət ver!".** (Qaf, 50/45). Allah Rəsulunun *(s.ə.s)* öz ifadəsilə Qurani-Kərim:

*Hər cür fitnəyə qarşı insanı salamata çatdıran bir kəlamdır.*

*Əvvəlki qövmlərin xəbərlərini, sonrakıların vəziyyətini və insanlar arasında meydana gələ biləcək hadisələrin hökmlərini ehtiva edən ilahi kəlamdır.*

*Haqq ilə batili bir-birindən ayıran ilahi kəlamdır.*

*Mənasız, faydasız sözlər olmayan ilahi kəlamdır.*

*Onu tərk edən azğını Allah-Təalanın həlak etdiyi ilahi kəlamdır.*

*Onun xaricində hidayət axtaranı zəlalətə salan ilahi kəlamdır.*

*Allah-Təalanın tam sağlam ipi, zikri və doğru yolu olan ilahi kəlamdır.*

*Ona tabe olanların heç vaxt yolunu azmadığı ilahi kəlamdır.*

*Onu söyləyən dillərin heç vaxt çaşmadığı ilahi kəlamdır.*

*Alimlərin ondan doymadığı ilahi kəlamdır.*

*Çox təkrar edilməsinə baxmayaraq, yeniliyini (təravətini) əsla itirməyən ilahi kəlamdır.*

*Hər şeydən üstünlüyü və sonsuz möcüzələri ilə ilahi kəlamdır.*

*Cinlərin eşitdiyi zaman* **"Həqiqətən, biz, heyranlıq verən bir Quran eşitdik"** (Cinn, 72/1) *deməkdən özlərini saxlaya bilmədiyi ilahi kəlamdır.*

*Ona müraciət edənlərin doğru danışdığı ilahi kəlamdır.*

*Onunla hökm verənlərin adil davrandığı ilahi kəlamdır.*

*Onu tətbiq edənlərin əcr (mükafat) aldığı ilahi kəlamdır.*

*Ona dəvət edənin tam doğru yola çatdığı ilahi kəlamdır.*[284]

284. Tirmizi, Fədailul-Quran, 14; Darimi, Fədailul-Quran, 1.

Həsən Bəsri deyir ki:

"Allah-Təala yüz dörd kitab endirmişdir. Bunların bütün elmlərini dördünün içində toplamışdır: Tövrat, Zəbur, İncil, Quran. Sonra bu üçündə olan elmləri də Quranda cəm etmişdir".[285]

Ümumi mənada bu vəsfləri daşıyan Qurani-Kərim, Hz. Peyğəmbərin *(s.ə.s)* peyğəmbərliyinin ən böyük möcüzəsi olmuşdur. Hz. Peyğəmbər *(s.ə.s)* həqiqəti onunla idrak etmiş, daxili aləmi onunla aydınlanmış və ondan aldığı mənəvi feyzi insanlara çatdırmağa çalışmışdır. İmam Şafei bunu belə ifadə edir:

"Ümmətin alimlərinin dediyi sözlər Sünnənin şərhidir. Sünnədə bildirilənlər isə Quranın təfsiridir. Rəsulullahın *(s.ə.s)* verdiyi hər hökm Qurandan anladığı və orada bildirilən hökmlərdir".[286]

Qurani-Kərimin bir ayəsində belə buyurulur:

**"Əlif, Lam, Mim. Bu,** (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) **heç bir şəkk-şübhə olmayan, müttəqilərə doğru yol göstərən Kitabdır".** (Bəqərə, 2/1-2)

**"Əlif, Lam, Ra!** (Ya Rəsulum! Bu Quran) **elə bir kitabdır ki, onu sənə insanları onların öz Rəbbinin izni ilə zülmətlərdən nura** (küfrdən imana) **- yenilməz qüvvət sahibi,** (hər cür) **tərifə** (şükrə) **layiq olan Allahın yoluna** (İslam dininə) **çıxartmaq üçün nazil etmişik".** (İbrahim, 14/1)

Hz. Peyğəmbər *(s.ə.s)*, Qurani-Kərim vasitəsilə insanları küfr, şirk və zülm qaranlığından qurtarmışdır. Gətirdiyi dinin nurlu yolu isə hər şeyə qadir olan, sonsuz mərhəmət sahibi, hər cür həmd və şükrə layiq olan Allah-Təalanın insana göstərdiyi cənnətə aparan əbədi səadət yoludur.

Qurani-Kərimin başqa bir ayəsində belə buyurulur:

**"**(Ey Muhamməd!) **Biz** (Quranı) **sənin dilinlə asan etdik ki, onunla ancaq Allahdan qorxub pis əməllərdən çəkinən-**

285. Beyhəqi, *Şuabul-İman*, II, 450.
286. İbn Kəsir, *Təfsir*, 4; Kəttani, *Təratib*, II, 122.

**lərə** (Cənnətlə) **müjdə verəsən və inadkar bir camaatı** (batil dəlillərlə mübahisə aparan Məkkə müşriklərini Cəhənnəmlə) **qorxudasan".** (Məryəm, 19/97)

Qurani-Kərim, ilahi kəlamın ünvanlandığı ilk kütlənin dilinə uyğun olaraq ərəbcə nazil olmuş və Allahın bir lütfü olaraq Hz. Peyğəmbər *(s.ə.s)* üçün asanlaşdırılmışdır. Bunun sayəsində Allah Rəsulu *(s.ə.s)* Quranı qövmünə çatdırmış, onun vasitəsiylə təqva sahibi olanları Cənnətlə müjdələmiş, haqqa qarşı inadkarlıq edən və şiddətlə düşmənlik edənləri isə qorxutmuşdur.

İnsanlar üçün asanlaşdırılan və üzərində təəfəkkür edilməsi istənilən Qurani-Kərim, eşidənlərə təsir xüsusiyyətinə malikdir. Ağlı başında olan bir insanın Quranı, sadəcə olaraq eşitməsi belə onun Haqq kəlamı olduğunu anlamasına kifayət edir. Bir başqa ifadə ilə Hz. Peyğəmbər *(s.ə.s)* Quranı çatdırmaqda çətinlik çəkirdi. Bir Quran ayəsində:

**"Əgər** (basqına uğrayan) **müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını** (Quranı) **dinləsin. Sonra** (islamı qəbul etmədiyi təqdirdə) **onu əmin-amanlıq içərisində olacağı yerinə** (müşriklərin yanına) **çatdır"** (Tövbə, 9/6) buyurulur.

Buradan aydın olur ki, Allah kəlamının sədasının qulaqlara çatması, iman nurunun qəlbə yerləşməsinə səbəb olur. Digər ayələrdə isə Peyğəmbərimizin "münzir" və "mübəşşir" yəni qorxuducu və müjdə verici vəsfinin yalnız Quran vasitəsiylə baş verdiyi bildirilir.[287] Rəsulullaha *(s.ə.s)* dəvətdə necə bir metod tətbiq etməsi lazım gəldiyini göstərən ayədə:

**"Rəbbinin yoluna hikmətlə və gözəl öyüdlə dəvət et"** (Nəhl, 16/125) buyurulur. Müfəssir Təbəri burada keçən "hikmətdən" məqsədin Qurani-Kərim, "gözəl öyüddən" məqsədin isə Qurandakı Uca Allahın varlığını sübut edib bəndəliyə sövq edən öyüdlər və ibrətlər olduğunu deyir. Buna görə də hikmətlə və gözəl öyüdlə dəvət, tam mənası ilə Quran ayələrini oxuyaraq və izah edərək edilən dəvətdir.

287. Şura, 26/19.

Qurani-Kərim Hz. Peyğəmbərin *(s.ə.s)* ən böyük möcüzəsidir. Bir hədisdə belə buyurulur:

*"Göndərilən hər peyğəmbərə insanların iman gətirməsinə səbəb olacaq mütləq bir möcüzə verilmişdir. Mənə verilən də Allahın göndərdiyi Qurani-Kərimdir. Bu səbəbdən qiyamət günündə ümmətimin digərlərindən sayca çox olmasını ümid edirəm".*[288]

Bu hədisdə Hz. Peyğəmbər *(s.ə.s)* ümmətinin çox olması ümidini Qurani-Kərimin möcüzəsinə bağlamışdır. Bunun hikmətlərini isə belə sıralaya bilərik.

Qurani-Kərim müəyyən bir vaxtda baş verən möcüzələr kimi deyildir. O, söz və məna baxımından möcüzə olub insan ağlına xitab edir. Əql və elm mövcud olduqca Quran ayələri təfəkkür edilib başa düşüləcək və ehtiva etdiyi incəliklər meydana çıxacaqdır.

Ehtiva etdiyi mənalar müəyyən bir zaman və milləti deyil, bütün zamanları və insanları əhatə edəcəkdir. Hər əsrdə bu baxımdan onun möcüzəviliyini qəbul edən elm xadimləri olacaq, bir sözlə Allah Rəsulunun ümməti artaraq davam edəcəkdir.

Quranın bənzərsiz üslubu, səviyyəsinə görə hər insana son dərəcə təsir etmişdir. İnanan da, inanmayan da ona heyran olmuşdur. Misal olaraq inanmadığı halda Quranı eşidərkən özünü saxlaya bilməyən müşriklərin əcaib halları tarix kitablarında belə təsvir olunur:

Bir gecə Əbu Süfyan, Əbu Cəhl və Əhnəs ibn Şərik bir-birlərindən xəbərsiz Hz. Peyğəmbərin *(s.ə.s)* gecəyarısı evində oxuduğu Qurani-Kərimi dinləmək üçün hərəsi gedib bir yerdə gizlənirlər. Ta ki, sabah erkəndən heç kimə görünmədən getmək istəyərkən təsadüfən bir-biri ilə qarşılaşırlar. Etdikləri işin gülünc olduğunu hiss edib bir-birlərini ayıblayaraq:

– Bir daha belə bir iş tutmayaq! Əgər bizi xalqdan və ya kölələrdən biri görsə, mütləq qəlbinə şübhə düşər deyir və ora-

288. Buxari, İtisam, 1.

dan ayrılırlar. Lakin ikinci və üçüncü gecə də eyni hadisə təkrar olunur. Sonda ayrılarkən bir-birlərinə:

– Təkrar gəlməyəcəyimizə and içmədikcə buradan ayrılmayaq deyirlər və razılaşdıqdan sonra ayrılırlar.[289]

Qurani-Kərim, inadkarlığından və mənfi xislətindən ötrü inkar edən qatı qəlbli insanlara belə təsir etdiyi halda, ona könül verən səmimi insanları daha çox təsirləndirmişdir. Bunun ən ibrətli nümunələrindən biri belədir:

Həbəşistan kralı Nəcaşi, Cəfər ibn Əbu Taliblə birlikdə Mədinəyə öz camaatından 70 nəfər göndərmişdi. Onların əksəriyyəti ən tanınmış din xadimləri və səmimi insanlar idi. Hz. Peyğəmbər *(s.ə.s)* onlara Yasin surəsini oxudu. Axıra qədər eşitdilər və ağladılar. Həqiqəti başa düşüb:

– Bu Hz. İsaya endiriləնə çox bənzəyir, dedilər. Dərhal iman gətirib müsəlman oldular. Onların bu xüsusiyyətindən razı olan Allah-Təala belə buyurdu:

**"Peyğəmbərə endirilən Quranı eşitdikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən. Onlar** (belə) **deyirlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi** (haqqa) **şahid olanlarla bir yerə yaz!" deyirlər".**[290]

Qurani-Kərimin haqq kəlam olduğunu dəqiq bilən həqiqi alimlərin onun möcüzəvi təsiri qarşısında nə qədər təsirləndiyi bu ayədən başa düşülür:

**"**(Ya Muhamməd, müşriklərə) **de: "İstər** (Qurana) **"inanın, istərsə də inanmayın. Şübhə yoxdur ki, ondan əvvəl elm verilmiş kimsələr** (özlərinə Tövrat və İncil verilmiş kitab əhli) **yanlarında** (Quran) **oxunduğu zaman üzüstə səcdəyə qapanar. Və: "Rəbbimiz pakdır, müqəddəsdir! Rəbbimizin** (möminlərə mükafat, kafirlərə əzab verəcəyi barəsindəki) **əmri mütləq yetəcəkdir!" deyərlər. Onlar üzüstə səcdəyə qapanıb ağlayar,** (Qurandakı öyüd-nəsihət isə) **onların** (Allaha) **itaətini daha da artırar".** (İsra, 17/107-109)

---

289. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I, 337-338.
290. Maidə, 5/82-83; Təbəri, *Təfsir*, VII, 4.

Allah-Təala, Qurani-Kərimdən və verdiyi məlumatlardan "Nəbəyi-Azim – Böyük xəbər" deyə bəhs edir.[291] Bu böyük xəbər zamanın ən mühüm hadisəsi sayılır və enən ayələr hamıya dərindən təsir edirdi. Müşriklər bu dəvətə qarşı mübarizəyə başladıqda, Quran onların suallarına cavab verir, etiqadlarının və düşüncələrinin səhv olduğunu göstərirdi.

O dövrdəki Ərəb toplumu ədəbiyyatda mahir olduğu üçün bəlağətli bir cümlədən təsirlənirdi. Belə ki, bəzən bir beyt, bəzilərini göylərə qaldırdığı halda, digərlərini də yerin dibinə batırırdı. Kafirlər bu təsir gücünün Quranda daha güclü olduğunu çox yaxşı bildikləri üçün özləri onu dinləmək (eşitmək) istəmədikləri kimi başqalarına da mane olmağa çalışırdılar.

"**Bu Quranı dinləməyin, o oxunduqda** (eşidilməsin deyə) **səs-küy salın ki, bəlkə** (bununla Muhamməde) **qalib gələsiniz!"** (Fussilət, 42/26) deyirdilər. Qurani-Kərimin üslubunun ərəb dahilərinə də böyük təsir etdiyini Vəlid ibn Muğirə ilə bağlı bu hadisədə görə bilərik.

Vəlid ibn Muğirə Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib:

– Mənə Quran oxu deyə müraciət etdi.

Allahın Rəsulu *(s.ə.s)* da:

**"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara** (haqqını) **verməyi əmr edir, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir.** (Allah) **sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!"** (Nəhl, 16/90) ayəsini oxudu.

Vəlid:

– Bu ayəni mənə bir daha oxu dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* ayəni oxuduqda, Vəlid:

– Allaha and olsun bu sözdə elə bir şirinlik, elə bir gözəllik və məlahət var ki, kökləri nəm, budaqları göylərə ucalan yamyaşıl bir ağaca bənzəyir. Bunu bəşər övladı söyləyə bilməz. Şübhəsiz ki, bu söz hər şeyə qalib gələr. Ona isə heç bir şey üs-

291 . Sad, 38/67.

tün gələ bilməz, müxaliflərini mütləq məğlub edər deməkdən özünü saxlaya bilmədi.

Vəlid gözündən vurulmuş bir vəziyyətdə durub Hz. Əbu Bəkrin evinə getdi. Qurani- Kərim haqqında bir sıra suallar verdi və cavab aldı. Sonra qüreyşlilərin yanına gedərək:

– İbn Əbi Kəbşənin (MuhamməDin) dediyi şeylər, doğrusu heyrətamizdir. Allaha and olsun o nə şeirə, nə sehrə, nə də ki, bir dəlinin sayaqlamasına bənzəyir. Onun dediyi şübhəsiz Allah kəlamıdır, dedi. Vəlidin bu sözünü eşidən müşriklər bir yerə yığışıb onun müsəlman olmasına mane olmaq üçün plan qurdular və Vəlidi İslamdan uzaqlaşdırdılar.[292]

Ərəb ədəbiyyatının məhşurlarından olan Vəlid, Quranın təsiredici üslub və bəlağəti qarşısında çaşqın bir hala gələrək dərindən düşünmüş, amma ilahi hidayətdən nəsibi olmadığı üçün iman gətirməmişdir.

Qurani-Kərimin qəlblərə nüfuz edən qeyri-adi təsirlərindən birinə də, Hz. Ömərin müsəlman olması hadisəsində şahid oluruq. Hz. Ömər müsəlman olmadan əvvəl Hz. Peyğəmbərə *(s.ə.s)* və müsəlmanlara qarşı qatı düşmən kəsilənlərdən idi. Hz. Peyğəmbər *(s.ə.s)* bir gün Darul-Ərkamda:

*"Ey Allahım! İslamı Amr ibn Hişam və ya Ömər ibn Xəttabdan sənə əziz olanı ilə gücləndir!"* deyərək dua etmişdi. Hz. Ömər belə nəql edir:

Müsəlman olmazdan əvvəl Rəsulullaha *(s.ə.s)* əziyyət vermək üçün evdən çıxdım. O, məndən qabaq Məscidi-Hərama getmişdi. Mən də gedib arxasında dayandım. Rəsulullah *(s.ə.s)* Haqqə surəsini oxumağa başladı. Eşitdiyim kəlamın bəlağətinə vuruldum. Öz-özümə:

– Vallah bu, qüreyşlilərin dediyi kimi hər halda bir şairdir dedim. Həmin anda Rəsulullah *(s.ə.s)* surənin:

**"And içirəm gördüklərinizə. Və görmədiklərinizə ki, Bu** (Quran) **çox möhtərəm bir elçinin** (Cəbrailin, yaxud Muhamməd əleyhissalamın Allahın ona nazil etdiyi) **sözdür. O şair**

292. Hakim, *Müstədrək*, II, 550; Təbəri, *Təfsir*, XXIX, 195-196.

**sözü deyildir! Nə az inanırsınız!"** (Haqqə, 69/38-41) ayələrini oxudu.

Mən yenə öz-özümə:

– Hər halda bu bir kahindir! Ürəyimdən keçənləri başa düşdü, – dedim.

Bu dəfə:

**"O, kahin sözü də deyildir! Nə az düşünürsünüz. O aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir!"** (Haqqə, 69/42-44) ayələrini oxumağa başladı.

Rəsulullah *(s.ə.s)* surəni bu şəkildə oxuyub bitirdikdə qəlbim İslama meyl etdi.[293]

Nəhayət Hz. Ömər bacısı Fatimənin evində oxuduğu Taha surəsinin ilk ayələri qarşısında bayıldı:

"Bu söz nə qədər gözəldir! Nə qədər dəyərlidir! deyərək Rəsulullahın *(s.ə.s)* hüzuruna gəlib müsəlman oldu".[294]

Hz. Ömərin müsəlman olarkən qəlbinin yumşalmasında Qurani-Kərimin böyük təsiri olmuşdur. Allah Rəsulu *(s.ə.s)* də Qurani-Kərimin bu möcüzəvi cəhətindən istifadə edərək insanları İslama dəvət etmişdir.

Qurani-Kərimin möcüzəvi üslubundan təsirlənərək müsəlman olanlardan biri də şair Tufeyl ibn Amr əd-Dövsidir. O Məkkəyə gəldikdən sonra Qüreyş qəbiləsinin tanınmışlarından olan bir neçə nəfər onun yanına gedib:

– Ey Tufeyl! Sən şairsən və qövmün arasında möhtərəm bir şəxsən. Diyarımıza gəldin, amma aramızdan çıxan bu adamdan ehtiyatlı ol! Onun dedikləri bizi narahat elədi, birliyimizi pozdu. Sözü sehr kimi təsirli olub insanı atası, qardaşı və xanımından ayırır. Başımıza gələn bu hadisələrin səninlə qövmünün də başına gəlməsindən qorxuruq. Onunla əsla danışma və ondan heç bir şey dinləmə deyərək təlqin etdilər. Onların etdiyi təlqinin təsiri altında qalan Tufeyl Hz. Peyğəmbərdən *(s.ə.s)* bir şey din-

293. Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 17.
294. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I, 369-371.

ləməmək və onunla heç danışmamaq barədə qərar verdi. Hətta Məscidi-Hərama getdiyi zaman Hz. Peyğəmbərin *(s.ə.s)* söylədiklərini eşitməmək üçün qulaqlarına pambıq tıxadı.

Tufeyl bir gün öz-özünə:

– Yazıqlar olsun mənim halıma! Mən ağlı başında şair bir adamam. Sözün gözəlini də, çirkinini də yaxşı bilirəm. Belə olan halda bu şəxsin dediyini eşitməyinə nə mane ola bilər? Gözəldirsə (doğrudursa) qəbul edərəm, çirkindirsə (səhvdirsə) rədd edərəm dedi və orada gözlədi. Hz. Peyğəmbər *(s.ə.s)* evinə gedəndə o da onun ardınca içəri girdi və:

− Ey Muhamməd! Qövmün mənə sənin haqqında belə dedi. Məni o qədər qorxutdular ki, sözünü eşitməyim deyə qulaqlarıma pambıq tıxadım. Sonra Allahın yardımı ilə sözünü eşitməyə müvəffəq oldum. Sənin bu mübarizə ilə məqsədin nədir? − dedi.

Tufeyl davam edərək:

– Rəsulullah *(s.ə.s)* mənə İslamı anlatdı və Quran oxudu. Allaha and olsun ki, mən heç vaxt Qurandan daha gözəl bir söz, İslamdan daha gözəl bir din eşitmədim! Dərhal müsəlman olub Allahdan başqa heç bir ilah olmadığına şəhadət gətirdim.

Tufeyl İslamı qəbul etdikdən bir neçə gün sonra Hz. Peyğəmbərdən *(s.ə.s)* icazə istəyir və təbliğ məqsədilə qəbiləsinin yanına qayıdır. İnsanlara dəlil olaraq göstərə biləcəyi bir kəraməti olması üçün Hz. Peyğəmbərdən *(s.ə.s)* Allaha dua etməyini istəyir. Allah Rəsulunun *(s.ə.s)* duasının bərəkəti ilə əvvəlcə iki qaşının arasında şam kimi bir nur peyda olur. Sonra da öz istəyi ilə bu nur, üzündən ayrılıb əsasının ucuna keçir və bu şəkildə qövmünün yanına qayıdır.[295]

Hz. Peyğəmbərin *(s.ə.s)* Qurani-Kərimi təbliğin əsas prinsipi halına gətirməyinin nümunələrindən biri də Hz. Osmanın rəvayət etdiyi bu hadisədir:

---

295. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I, 407-408; İbn Sad, *ət-Təbəqatul-Kubra*, IV, 237-238.

Xalam Ərvanı ziyarət etməyə getmişdim və ora Rəsulullah *(s.ə.s)* da gəldi. Onu seyr etməyə başladım və həmin gün halımda bir dəyişiklik var idi. Mənə tərəf yönəldi və:

Osman nəyin var? deyə soruşdu.

Mən:

– Sənin halına və əleyhində deyilən sözlərə üzülürəm, – dedim.

Həmin anda Allahın Rəsulu "Lə iləhə illəllah" deyincə Allah bilir tüklərim ürpəşdi. Bunun ardınca Allahın Rəsulu Zariyat surəsinin bu ayələrini oxudu:

**"Göydə də ruziniz** (yağış, qar) **və vəd olunduğunuz şey** (mükafat, cəza) **vardır! Göyün və yerin Rəbbinə and olsun ki, bu** (deyilənlər) **sizin danışığınız kimi həqiqətdir".** (Zariyat, 51/22-23) Sonra durub getdi. Mən də arxasınca çıxdım və ona yetişib dərhal müsəlman oldum.[296]

Əqəbə görüşündə iştirak edən mədinəli altı nəfər də, eyni şəkildə Hz. Peyğəmbərin *(s.ə.s)* İbrahim surəsinin 35-52-ci ayələrini oxumasından sonra hidayətə çatmışdılar.[297]

Rəsulullahın *(s.ə.s)* müəllim və təbliğ əhli kimi göndərdiyi səhabələri də eyni üslubu tətbiq etmişdir. Bunlardan Hz. Əbu Bəkir Məkkədə qəlbləri, Quran tilavəti ilə yumşaldaraq İslama bağlayırdı. O kövrək ürəkli, xoş xasiyyət və mülayim bir insan idi. Müşriklərin təzyiqinə məruz qaldığına görə həyətinin bir hissəsində məscid tikərək ibadət və itaətlə məşğul olurdu. Həssas bir qəlbə malik olan Əbu Bəkrin Quran oxuduqda qorxudan səsi titrəyər, gözlərindən yaşlar axardı. Evinin qarşısından keçərkən onun bu yanıqlı Quran oxumasını eşidən hər kəs dayanıb onu dinləyər və böyük təsir altında qalırdılar. Qonşulardan və yoldan gəlib keçənlərdən bəzən qapısının ağzında xeyli insan toplanırdı. Qüreyşlilər bu mənzərə qarşısında dəhşətə gəlirdilər. Əbu Bəkrin oxuduğu Quranın uşaqlarını və köləl追rini yoldan çıxaracağından qorxdular. Əvvəlcədən Əbu Bəkri himayəsinə götürən İbnud-Deyinə şikayət etdilər.

296. İbn Sad, *ət-Təbəqatul-Kubra*, III, 217-219.
297. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, II, 38-40; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 217-219.

İbnud-Deyinə:

– Ey Əbu Bəkir, ya evində oturub səsini çıxarma, ya da mənim himayəmdən çıxdığını elan elə, dedi.

Bundan sonra Hz. Əbu Bəkir Allaha bu təslimiyyət dolu cavabı verdi:

– Himayən özünə qalsın. Mənə Allahın himayəsi kifayətdir dedi.[298]

Quranla təbliğ etməyin ən ibrətli nümunələrindən birini də Mədinədə İslamın öndərlərindən olan Musab ibn Ümeyrin Üseyd ibn Xudayrı və Sad ibn Muazı İslama dəvətində görürük. Musab Mədinədə Qurani-Kərimlə könülləri fəth etmiş, Quranın sehrli və təsirli üslubunu özünün cəlbedici və təsirli tilavəti ilə birləşdirərək insanların qəlbinə İslam toxumu səpmişdir. O həmçinin Məkkədən hicrət edən mühacirləri bağrına basan Ənsarı yetişdirmişdir.[299]

Qurani-Kərimdə hər cür mənəvi xəstəliklərə şəfa vardır. Hər bir ayə, bir insanın və ya cəmiyyətin ən mühüm bir xəstəliyinə dəva olacaq keyfiyyətdədir. Buna görə də təbliğ əhli hansı həmsöhbətinə hansı ayələri və ya surələri oxuyacağını yaxşı bilməlidir. Allah Rəsulu *(s.ə.s)* bu məsələyə xüsusi əhəmiyyət vermişdir. Həmsöhbətinin vəziyyətinə görə ayələr seçir və onları oxuyurdu. Səhabələrini də bu şəkildə yetişdirmişdi. Hətta Hz. Peyğəmbər *(s.ə.s)* göndərdiyi elçilərə getdikləri ərazidəki xalqın dininə və etiqadına görə oxuyacaqları surə və ayələri bildirirdi. Məsələn Himeyr qəbiləsinin başçısının yanına göndərdiyi elçi İyas ibn Rəbiaya Beyyinə surəsini oxumasını əmr etmişdi.[300]

Yenə Rəsulullah *(s.ə.s)* İslama dəvət üçün göndərdiyi məktublara müraciət etdiyi şəxslərin etiqadını və düşüncəsini nəzərə alaraq bir və ya bir neçə ayə yazdırırdı. Hz. Peyğəmbərin *(s.ə.s)* Qurani-Kərim ilə təbliğə başlanğıcdan bəri göstərdiyi

---

298. Buxari, *Mənəqibul-Ənsar*, 45; İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I, 395-396.
299. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, II, 43-46; İbn Əsir, *Üsdul-Ğabə*, I, 112-113.
300. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 282.

bu həssaslığa səhabələr də yüksək dərəcədə diqqət göstərmişdir.

Həbəşistana hicrət edən müsəlmanlarla, onları geri qaytarmaq üçün Məkkədən gələn müşriklər Nəcaşinin hüzuruna gətirilmişdi. Müşriklərin iftira və yalanlarını dinləyən Nəcaşi sözü müsəlmanları təmsil edən Cəfər ibn Əbu Talibə verdi. Cəfər çox gözəl bir şəkildə nitq söylədi. Onu sükutla və diqqətlə dinləyən Nəcaşi:

– Peyğəmbər olduğunu iddia edən o şəxsin, Allahdan aldığı şeylərdən əzbər bildiyiniz varmı? deyə soruşdu. Cəfər "Bəli" deyincə, bir az oxumasını istədi. Cəfər Məryəm surəsindən oxumağa başladı. Hz. Zəkəriyyə, sonra Hz. Yəhya, onun ardınca Hz. Məryəmlə bağlı ayələr bir-birini əvəz etməyə başladı.

Cəfərin (r.a) bilərək seçdiyi ayələr, xristian bir toplumun həssaslıq göstərdiyi mövzuları əhatə edirdi. Hz. Cəfər xüşu ilə dinlənilən bu ayələrin tilavətini bitirdikdə gözü dolu olan Nəcaşi başını qaldıraraq:

– Şübhə yoxdur ki, bu eşitdiklərimlə İsanın gətirdiyi eyni nur qaynağından gəlir! dedi, sonra da Qüreyşin elçilərinə dönərək:

– Gəldiyiniz yerə geri qayıdın! Allaha and olsun ki, onları sizə əsla verə bilmərəm, dedi və Qüreyş müşriklərini başından elədi.[301]

Müsəlmanların qədərində tarixi bir əhəmiyyətə malik olan bu təbliğdə Qurani-Kərimin bənzərsiz bəlağət və ahəng qanunauyğunluğu ilə yanaşı Cəfərin (r.a) oxuduğu ayələri seçməkdə göstərdiyi istedad və bacarıq da olduqca əhəmiyyətlidir.

Bu hadisələr, Qurani-Kərimin təbliğ və dəvətdə nə qədər mühüm yer tutduğunu və nə dərəcədə təsirli vasitə olduğunu açıq şəkildə göstərir. Hal-hazırda edilən təbliğ və dəvətdə də Qurani-Kərim eyni dərəcədə əhəmiyyətə malikdir. Bu baxımdan İslami təbliğ və dəvətçilərinin Quranı mükəmməl bir şəkildə bilmələri və işlərində Qurandan kifayət qədər ilham alma-

301. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I, 358-360.

ları zəruridir. Hətta təbliğ əhli Hz. Peyğəmbər *(s.ə.s)* kimi canlı bir Quran olmağa çalışmalı, fitrətinə hopmuş Quran əxlaqı və ədəbi ilə insanları Allaha çağırmalıdır.

### Ç. Müəssisələşmək

Müəssisələşmək sosial həyatın gərəyi və insanlar üçün təbii bir zərurətdir.[302] İnsanın cəmiyyətdən uzaq təkbaşına yaşamasının mümkünsüzlüyü və digər insanların köməyinə duyulan ehtiyac danılmaz həqiqətdir. Həyatın davam etməsi üçün insanların bir yerdə hərəkət etməsi qaçınılmazdır.[303]

Cəmiyyətin ayaqda qala bilməsi üçün müəssisələrin olması mütləqdir və insanlar ancaq bir dövlətin nəzarətində həyatda qala bilərlər. Dövlətin necəliyindən və hansı qanunlarla idarə edilməsindən asılı olmayaraq reallıq bu şəkildədir.[304]

İslamın ilk təbliğçisi Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ etdiyi əsaslar üzərində rəsmi bir dövlət qurmasa da dövlətin və dövlət başçısının həyata keçirdiyi bütün plan və işləri icra etmişdir. Belə ki, biz Hz. Peyğəmbərin *(s.ə.s)* fəaliyyətlərinin də bu yöndə olduğunu görürük. İnsanlar arasında hüzur və səadətin təmin edilə bilməsi üçün İslamın və cəmiyyətin dövlətə olan ehtiyacını çox yaxşı bilirdi. Hz. Peyğəmbərin *(s.ə.s)* qurduğu İslam dövlətinin inkişafını təmin edən tarixi hadisələrə nəzər salmaqda fayda var.

### 1. Əqəbə beyətləri və hicrət

Dövlət müəyyən əraziyə sahib olmalıdır. Ərazisi olmayan bir dövlətin mövcud olmasından söhbət gedə bilməz.[305] Buna görə də Hz. Peyğəmbər *(s.ə.s)* həm kütləviləşmə fəailiyyətini davam etdirir, həmçinin də üzərində dövlət quracağı ərazini təmin etməyə çalışırdı. Rəsulullah *(s.ə.s)* təcrübəsi nəticəsində Məkkənin İslam dövləti üçün mümkünsüz olduğunu bilirdi. Bu səbəblə də İslam dövləti üçün ərazi axtarışında idi. Qar-

302. İbn Xaldun, *Müqəddimə*, s, 129, 167-168.
303. Şirvani, *İslamda Siyasi Düşüncə və İdarə*, s, 101-103.
304. Əbdül-Kərim əl-Xatib, *əl-Xilafətu vəl-İmamə*, s, 53.
305. M. Həmidullah, *İ. Dövlət İdarəsi*, s, 73.

şılaşdığı hər qəbilədən öz diyarlarında İslam dinini təbliğ etməyə icazə istəyirdi.[306] Hər dəfə mənfi cavab alırdı. Nəticə əldə edə bilmədikdə özü birbaşa Taifə getdi. Lakin onların cavabı da həddindən artıq sərt oldu.[307]

Qarşılaşdığı çətinliklər Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ əzmini azaltmadı. O, yenə də İslam dövləti üçün məskən axtarışına davam elədi. Nəhayət mədinəlilərdən bir qrup bisətin[308] 11-ci ili İslamla şərəfləndilər. Bir il sonra da Məkkədə Əqəbə adlanan yerdə gerçəkləşən beyətlər İslam dövlətinin təməlinin atılması demək idi. Rəsulullah *(s.ə.s)* dövlətləşməyin ilkin mərhələsi olaraq səhabələrinə hicrət icazəsi verdi. Bir müddət sonra Hz. Peyğəmbərə də İsra surəsinin 80-cı ayəsi ilə hicrət izni verildi. Ayədə Uca Allah Hz. Peyğəmbərə *(s.ə.s)* etməsi üçün bir dua öyrətmişdir:

وَقُلْ رَبِّ أَدْخِلْنِي مُدْخَلَ صِدْقٍ وَأَخْرِجْنِي مُخْرَجَ صِدْقٍ وَاجْعَلْ لِي مِنْ
لَدُنْكَ سُلْطَانًا نَصِيرًا

**“De: “Ey Rəbbim! Məni daxil edəcəyin yerə** (Mədinəyə) **xoşluqla daxil et, məni çıxaracağın yerdən** (Məkkədən) **də xoşluqla çıxart. Öz dərgahından mənə kömək edə bilən bir dəlil ver!”** (Mənə elə bir qüdrət ver ki, müşriklər və kafirlər həmişə onun qarşısında aciz qalsınlar!)”. (İsra, 17/80) Alimlər bu ayə ilə Hz. Peyğəmbərin *(s.ə.s)* hicrətinə icazə verildiyini bildirmişlər.[309]

Ayədə keçən “سُلْطَانًا” kəlməsi güc-qüvvət, iqtidar, hakimiyyət, hökumət və dövlət mənalarına gəlir.[310] Uca Allah ayə ilə Hz. Peyğəmbərə *(s.ə.s)* “Dövlət” tələbini bildirmişdir. Bundan sonrakı ayədə: **“De: “Haqq** (islam) **gəldi, batil** (şirk və küfr) **yox oldu. Çünki batil** (öz-özlüyündə) **yoxluğa** (heçliyə) **məh-**

306. Əbu Davud, Sünnə, 20; Tirmizi, Savabul-Quran, 24; İbn Macə, Müqəddimə, 13; Darimi, Fədailul-Quran, 5.
307. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 419-421; İbn Kəsir, *əl-Bidayə*, III, 135-137.
308. Bisət, Hz. Peyğəmbərin *(s.ə.s)* peyğəmbər olaraq göndərilməsini ifadə edir.
309. Təbəri, *Təfsir*, XV, 100; İbn Kəsir, *Təfsir*, IV, 342, *əl-Bidayə*, III, 175; Qurtubi, *Təfsir*, X, 313; Qəzali, *Fiqhus-Sira*, s, 168.
310. Firuzəbadi, *Qamus*, II, 365.

**kumdur!"** (İsra, 17/81) buyurularaq batilin yox edilməsi üçün dövlətin önəmli faktor olduğu bir daha vurğulanmışdır.[311]

### 2. Məscid və azan

Rəsulullahın *(s.ə.s)* dəvətində məscidin müstəsna yeri var. Hz. Peyğəmbərin *(s.ə.s)* və Rəşidi Xəlifələrin[312] dövründə hökumət binaları inşa edilənə qədər hər bir işin idarə edildiyi yer məscid olmuşdur.[313]

Bütün yer üzünün təmiz və məscid qılınmasına baxmayaraq əvvəlcə Mədinədə məscidin inşa edilməsi[314] Hz. Peyğəmbərin *(s.ə.s)* planlı hərəkət elədiyini göstərir.

Məscidin İslam dövləti üçün nə mənaya gəldiyini Arnoldun dilindən eşidək: "Məscid, sadəcə ibadət edilən yer deyildi. Əksinə ibadətlə yanaşı siyasi və ictimai həyatın ayrılmaz parçası idi. Hz. Peyğəmbər *(s.ə.s)* elçiləri məsciddə qarşılayar, dövlət işlərini oradan idarə edər, dini və siyasi mövzularda minbərdən camaata müraciət edərdi. Ömər, İslam ordusunu məsciddən idarə etmiş və insanları oradan cihada təşviq etmişdir. Həmçinin xəlifə seçilən insanlar da ilk xütbəsini məsciddə edərdi. Minbər bir mənada dövlət siyasətinin açıqlandığı iqtidar kreslosuna bənzəyirdi".[315]

Qısacası Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə məscid dövlətləşmə mərhələsini gerçəkləşdirən əsas vasitələrdən biri, həmçinin dövlət işlərinin idarə olunduğu mərkəz olmuşdur.

Namaz vaxtlarında müsəlmanların məscidə toplanmalarını təmin edən azan da hidayətə, sülhə çağıran İslam dövlətinin əsas şüarlarından biridir.[316]

---

311. Almalılı Həmdi Yazır, *Haqq Dini Quran Dili*, V, 3195.
312. Rəşidi xəlifələr deyildikdə Hz. Əbu Bəkir, Hz. Ömər, Hz. Osman və Hz. Əli nəzərdə tutulur.
313. Həsən İbrahim, *Tarixul-İslam*, I, 523-524.
314. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 496-497; İbn Kəsir, *əl-Bidayə*, III, 214-219.
315. Həsən İbrahim, *Tarixul-İslam*, I, 523-524.
316. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 508; İbn Kəsir, *əl-Bidayə*, III, 231-232; Həsən İbrahim, *Tarixul-İslam*, I, 103.

### 3. Sərhəd təyini və əhalinin siyahıya alınması

Dövlətin müəyyən əraziyə olan ehtiyacı danılmazdır. Qurulan dövlətin ərazisini qorumaq üçün sərhədlər təyin olunmalıdır.

Dövlətin ərazisində məskunlaşmış insanların sayının bilinməsi də zəruridir.

Hz. Peyğəmbər *(s.ə.s)* bu zərurətləri bildiyi üçün hicrətdən bir neçə ay sonra dövlətin sərhədlərini təyin etdi.[317] Həmçinin müsəlmanları siyahıya aldı.[318]

### 4. Konstitusiya və müqavilələr

Mədinədə müsəlmanlarla yanaşı müşrik ərəblər və üç yəhudi qəbiləsi yaşayırdı. İnancları fərqli olsa belə eyni dövlətin nəzarəti altında yaşadıqları üçün hər kəsin qəbul edəcəyi qanunların olması labüd idi.

Bunu yaxşı bilən Hz. Peyğəmbər *(s.ə.s)* hicrətin birinci ilində mühacir və ənsarı, ənsar ilə müqaviləsi olan müşrik ərəb qəbilələrini və yəhudiləri liderlərini Ənəsin (r.a) evində topladı və konstitusiya qanunlarını yazdırdı.[319] Muhamməd Həmidullahın da bildirdiyi kimi bu ilk İslam dövlətinin konstitusiyası olmaqdan əlavə dünyada yazılan ilk konstitusiyadır.[320]

Artıq ictimai, hüquqi, siyasi və iqtisadi məsələlərdə prinsiplər qoyularaq inqilab gerçəkləşdirilmişdi.[321] İnsanlar arasında problem olan məsələlərdə Hz. Peyğəmbərə *(s.ə.s)* müraciət edilməli idi. Bununla da dövlət başçısı kimi Hz. Peyğəmbərə *(s.ə.s)* itaət təmin edilmiş, İslam dövlətinin də varlığı təsdiq etdirilmiş oldu.

---

317. Buxari, Cihad, 71; Müslim, Həcc, 456-457; Tirmizi, Mənəqib, 67; İbn Macə, Mənəsiq, 104; İmam Malik, Muvatta, Mədinə, 10-11; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 169-181, II, 236, III, 23, IV 77, V, 181; Səmhudi, Vəfa, I, 97.
318. Buxari, Cihad, 181; M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 118; Şibli, *Əsri-Səadət*, I, 27.
319. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 501-504; İbn Kəsir, *əl-Bidayə*, III, 224-226; M. Həmidullah, *Vəsaiq*, s, 15-21.
320. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 22.
321. Qaraman, *İslam Hüququ*, s, 70-71.

Hz. Peyğəmbər *(s.ə.s)* daxildə nizam-intizamı bərqərar etdikdən sonra ətraf qəbilələrlə münasibət qurmağa, ətraf bölgələri tanımaq üçün səriyyələr göndərməyə başladı. Səriyyələrin məqsədi ticarət yollarını öyrənmək, həmçinin ətraf qəbilələrin vəziyyəti haqqında Hz. Peyğəmbərə *(s.ə.s)* məlumat gətirmək idi.[322] Bu məqsədlə hərəkət edən üç səriyyə hərəkatından sonra Hz. Peyğəmbərin *(s.ə.s)* özü də hərbi birliklərə qatıldı. Bu səfərlər nəticəsində bəzi qonşu qəbilələrlə gözəl münasibətlər quruldu. Belə qəbilələrdən Bəni Mudlic, Bəni Damrə və Bəni Cuheynəni misal göstərmək olar. Bu qəbilələr Hz. Peyğəmbərlə *(s.ə.s)* müqavilə imzalayaraq İslam dövlətini rəsmi olaraq tanıdılar.[323]

### 5. Cihad və qəzvələr

Rəsulullahın İslama dəvət fəaliyyətində dövlətləşmə mərhələsinin ən mühüm məsələsi, cihad və Hz. Peyğəmbərin qəzvə və səriyyələridir. Cihad çox geniş mövzudur.

Müsəlmanlara cihadı əmr edən, gərəkliliyini və fəzilətini bildirən bir çox ayə və hədis var.[324] İslam alimləri cihadın fərz olmasında həmfikirdirlər.[325]

Cihad vəziyyətdən asılı olaraq fərzi-ayn və fərzi-kifayə ola bilər.

Ümumi mənada, insanın öz nəfsini daima təzkiyə və tərbiyə etməsi cihaddır.[326] Allahın əmrlərini ixlasla yerinə yetirmək və haramlardan qaçmaq cihaddır.[327] Müsəlman qardaşına nəsihət vermək, qeyri-müsəlman birinə İslamı dəlilləri ilə başa

322. Bəlazuri, *Ənsab*, I, 371.

323. Qəbilələrlə müəyyənləşdirilən münasibətlər və aparılan yazışmalar haqında əlavə məlumat almaq üçün bax: İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 598-599; Suheyli, *Ravd*, III, 28; İbn Kəsir, *əl-Bidayə*, III, 246-247; İbn Əsir, *əl-Kəmil*, II, 112; Şibli, *Əsri-Səadət*, I, 227.

324. Cihadı əmr edən ayələr üçün bax: Muhammməd Fuad ƏbdülBəqi, əl-Mucəmul-Mufəhras li-Əlfəzil-Quranil-Kərim, s, 182-183; Mövzu ilə əlaqəli hədislər üçün hədis kitablarının "Kitəbul-Cihad" bölümlərinə müraciət edilə bilər.

325. Həsən əl-Bənna, *Risalətul-Cihad*, s, 24.

326. Tirmizi, Cihad, 2.

327. Nəsai, Həcc, 4.

salıb inandırmaq cihaddır.[328] Müsəlmanın dinini, namusunu, canını, vətənini, malını, mülkünü qoruması, İslamı yaymaq və buna mane olan əngəlləri ortadan qaldırmaq üçün mübarizə və müharibə etməsi də cihaddır.[329] İslamın yayılması, fitnə-fəsadın ortadan qalxması üçün çalışmaq cihaddır.[330]

İslam Allaha təslim olmaq, salamatlıq və sülh içində yaşamaq mənalarına gəlir və dinimizdə də əsas olan sülhdür. Əgər müsəlman hədəfinə döyüş olmadan çata biləcəksə və belə imkanları varsa döyüşməməlidir. Hətta bir qrup düşmənlə döyüşərkən, onlar sülhə meyl etsələr, onda sülhü qəbul etmək lazımdır. Çünki Allah-Təala:

**"Əgər onlar sülhə meyl etsələr, sən də sülhə meyl et və Allaha bel bağla. Həqiqətən, O** (Allah hamınızın sözlərini) **eşidəndir,** (niyyətlərinizi) **biləndir!"** buyurmuşdur. (Ənfal, 8/61)

Hz. Peyğəmbər *(s.ə.s)* də:

*"Düşmənlə qarşılaşmağı arzu etməyin və Allahdan salamatlıq diləyin. Əgər onlarla müharibə etməkdən başqa yolunuz qalmazsa səbir və dözüm göstərin. Bilin ki, cənnət qılıncların kölgəsi altındadır"* – deyə buyurmuşdur.[331]

Savaşmaq bəzi hallarda qaçınılmazdır. Zalımları başıboş buraxmaq zülmün yayılmasına səbəbdir.[332]

İslamda müdafiə üçün döyüşməyə icazə verilmişdir. Hz. Peyğəmbərin döyüşlərinin bir çoxu müdafiə xarakterli olmuşdur.[333]

İnsanları Allahın yolundan uzaqlaşdıranlara, təbliğçilərin təbliğinə mane olanlara qarşı mübarizə aparmaq fərzdir.[334] Əv-

328. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 456.
329. Ayələr üçün bax. Nisa 4/95; Ənfal 8/72; Tövbə 9/20,41, 44, 81, 88. Hədisi-şəriflər üçün bax. Buxari, Məzalim, 33; Müslim, İman, 226.
330. Buxari, Məzalim, 33; Müslim, İman, 226; Əbu Davud, Sünnə, 29; Nəsai, Təhrim, 22-24; Tirmizi, Diyət, 21; İbn Macə, Hüdud, 21; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 79, 187.
331. Buxari, Cihad, 112; Müslim, Cihad, 19-20; Əbu Davud, Cihad, 89; Darimi, Siyər, 6; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 400.
332. Əbu Zəhra, *İslamda Bəşəri Münasibətlər*, s, 159.
333. S. Sabiq, *Fiqhus-Sünnə*, II, 613-617; Məraği, *Təfsir*, X, 92.
334. S. Sabiq, *Fiqhus-Sünnə*, II, 613-617; Məraği, *Təfsir*, X, 92; Həsən Bənna, *Allah*, s, 78;

vəlki peyğəmbərlərin dövründə bu qövmlərin həlak edilməsi ilə olmuşdur. Hz. Nuh (ə.s) illərlə təbliğ etdikdən sonra qövmünün iman etməsindən ümidini kəsərək: **"Onlar çoxlarını yoldan çıxartdılar. Sən də** (ey Rəbbim!) **ancaq onların zəlalətini artır!",** (Nuh, 71/24) və **"Nuh dedi: "Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma! Çünki sən onları** (sağ) **buraxsan, onlar Sənin bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir** (oğul-uşaq) **doğub-törədəcəklər"** (Nuh, 71/26-27) – deyərək bəddua etmişdir. Səbəb kimi təbliğə maneçilik törətmələrini və insanların azmasına səbəb olmalarını ifadə etmişdir. Hz. Hudun qövmünün həlak edilmə səbəbi fitnə-fəsad çıxarmaları idi. Bu xüsus Quranda belə bildirilir. "(Ya Rəsulum!) **Bir gör fitnə-fəsad törədənlərin axırı necə oldu!".** (Nəml, 27/14) Hz. Şüeyb də qövmünə təbliğ edərkən onları fitnə-fəsad törətməkdən çəkindirmiş və belə demişdir: **"Bir görün fitnə-fəsad törədənlərin axırı necə oldu!".** (Əraf, 7/86)

Qüreyş müşrikləri müsəlmanlara işgəncə edir və Allah Rəsulunu *(s.ə.s)* yalanlayırdılar. Hicrətdən sonra Uca Allah müsəlmanlara müşriklərlə savaşmağa icazə verdi. Zalımlara qarşı mübarizədə onlara kömək edəcəyini də vəd etdi. Müşriklərlə savaşmağa icazə verən ilk ayələrdə belə buyurulur:

**"Zülmə məruz qaldıqlarına görə vuruşanlara izin verilmişdir. Allah, onlara kömək etməyə əlbəttə qadirdir". O kəslər ki, haqsız yerə ancaq "Rəbbimiz Allahdır" – dediklərinə görə yurdlarından** (Məkkədən) **çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə** (müşrikləri möminlərlə) **dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr** (rahiblərin yaşadıqları monastırlar)**, kilsələr, məbədlər** (yəhudi məbədləri) **və məscidlər dağılıb gedərdi.** (darmadağın edilərdi) **Allah Ona** (öz dininə) **yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən Allah yenilməz qüdrət, qüvvət sahibidir".** (Həcc, 22/39-40)

Bir sözlə cihad, qəlblərin fəthi və Allah-Təalanın rizasını qazanmaq üçün fərd və cəmiyyət olaraq İslam uğrunda edilən

---

Həcci, *Nəzərat*, s, 74; Həsən İbrahim, *Tarixul-İslam*, I, 106-107; Ədəvi, *Dəvətul-Rusul*, s, 520.

bütün təşəbbüslərdir. Allah Rəsulunun *(s.ə.s)* 23 illik peyğəmbərlik həyatının bu yolda keçdiyini söyləmək yerinə düşər.

Allah Rəsulunun *(s.ə.s)* Hüdeybiyyədə dediyi bu sözlər əsas hədəfinin müharibə yox, insanların qəlblərini fəth etmək olduğunu açıq şəkildə göstərir:

*"Biz döyüşmək üçün yox, ancaq ümrə üçün gəldik. Müharibə Qüreyşi yeyib bitirmiş, gücdən salmış və onlara çox zərər vermişdir. İstəsələr (aramızdakı toqquşmanı saxlamaq üçün) onlara müəyyən bir müddət verə bilərəm. Sonra onlar başqa insanlarla mənim arama girməkdən də əl çəksinlər. İstəsələr insanların dəstə-dəstə girdikləri İslama onlar da girə bilərlər. Əgər üz çevirsələr, ordularını toplayıb döyüşməkdən başqa çarələri qalmaz. Allaha and olsun, mən bu din uğrunda başım bədənimdən ayrılıncaya və ya Allah bu xüsusdakı hökmünü yerinə yetirincəyə qədər döyüşəcəyəm".*[335]

Hz. Peyğəmbərin *(s.ə.s)* müharibə anlayışını ortaya qoyan bu sözləri, sülhün insanlar üçün əsas şərt olduğunu göstərir. Amma Allah-Təalanın qoyduğu ilahi qanunlar olmadan sülhün davamlılığını təmin etmək çətindir.

Səhabələrdən Abdullah ibn Amr:

– Ya Rəsulallah! Mənə cihad və qəzvə haqqında məlumat ver, deyincə:

Hz. Peyğəmbər *(s.ə.s)*: *" – Abdullah! Əgər sən Allahın rizasını umaraq və çətinliklərə qatlanaraq vuruşsan, Allah da səni qiyamət günü o hal üzrə dirildər. Əgər sən özünü gözə soxmaq və öyünmək üçün döyüşsən, Allah da səni qiyamət günü o hal üzrə dirildər"* – deyə buyurdu.[336]

Yenə Rəsulullahın *(s.ə.s)* yanına bir bədəvi gəlib:

– Şan-şöhrət qazanmaq, öyünmək, qənimət əldə etmək və ya gözə girmək üçün döyüşən insan haqqında nə buyurursan? – deyə soruşdu.

Başqa bir nəfər də:

---

335. Buxari, Şurut, 15.
336. Əbu Davud, Cihad, 24.

– Ya Rəsulallah! Allah yolunda vuruşmaq nədir? Kimisi qəzəblənərək, kimisi də millətçilik səbəbindən döyüşür – deyə soruşdu.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Hər kim Allahın sözü ən uca olsun deyə vuruşursa, onun cihadı Allah yolundadır!"* – deyə cavabını verdi.[337]

Bir nəfər isə:

– Ya Rəsulallah! Bir nəfər Allah yolunda vuruşmaq və eyni zamanda dünya malından bir şey əldə etmək istəsə, bu haqda nə buyurursunuz? – deyə soruşanda Hz. Peyğəmbər *(s.ə.s)*:

– *Ona heç bir əcr və savab yoxdur!* – buyurdu.

Xalq bu cavabın ağırlığını duyaraq həmin adama:

– Sən Rəsulullahdan *(s.ə.s)* bir də soruş. Hər halda cavabı yaxşı başa düşmədin – dedilər.

Adam bu minvalla sualını üç dəfə soruşdu. Hz. Peyğəmbər *(s.ə.s)* hər birində də:

*" – Ona savab yoxdur!"* – cavabını verdi.[338]

Hz. Peyğəmbər *(s.ə.s)* Allah yolunda göstərdiyi səyin və etdiyi qəzvələrin qayəsini isə belə açıqlamışdır:

*"Allahdan başqa ilah olmadığına və Muhammədin də Allahın rəsulu olduğuna şəhadət gətirincəyə qədər insanlarla döyüşmək mənə əmr olundu. Onlar bunu edərlərsə İslamın əmr etdiyi cəzalar xaric, canlarını və mallarını əlimdən qurtarmış olarlar"*.[339]

Bu səbəbdən Allah Rəsulu *(s.ə.s)* azan səsi gələn yerlər üzərinə yürüş etməzdi.[340] Göndərdiyi ordulara da:

*"Bir məscid gördüyünüz və ya müəzzinin səsini eşitdiyiniz zaman, orada heç kimsəyə toxunmayın"* – deyə buyurardı.[341] Çünki onun məqsədi insanlara həyat bəxş etmək, onları əbədi qur-

337. Buxari, Elm, 45; Müslim, İmarə, 149-150.
338. Əbu Davud, Cihad, 24.
339. Buxari, İman, 17.
340. Buxari, Azan, 6.
341. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 448-449.

tuluşa çatdırmaq idi. Hz. Peyğəmbərin *(s.ə.s)* bu anlayışını göstərən bir hadisəni Müslim bin Haris ət-Təmimi belə anladır:

Rəsulullah *(s.ə.s)* bizi kiçik bir süvari dəstəsi ilə göndərmişdi. Bir yerə hücum etməli idik. Mən atımla yoldaşlarımı ötüb keçdim. Fəryad edən qadın və uşaqlarla qarşılaşdım.

Onlara:

– Canınızı qurtarmaq istəyirsinizmi? – deyə soruşdum.

– Bəli dedilər.

– Elə isə "Lə iləhə illəllah, Muhammədur-Rəsulullah" – deyin və xilas olun dedim.

Onlar da bunu dedilər. Yoldaşlarımızdan bəziləri:

– Sən bizi həm qənimətin üstünə gətirdin, həm də onu bizə haram etdin, deyərək məni qınadılar.

Hz. Peyğəmbərin *(s.ə.s)* yanına döndüyümüz zaman etdiyimi xəbər verdilər. Allah Rəsulu *(s.ə.s)* məni çağırıb etdiyim əməlin gözəl olduğunu bildirdi və:

*" – Heç şübhəsiz ki, Allah sənə onlardan hər bir insan üçün (bu qədər) savab yazdı"* – buyurdu.[342]

Hz. Peyğəmbər *(s.ə.s)* hərbi bölüyü cihada göndərdiyi zaman Allaha qarşı təqvalı, yanındakı müsəlmanlara qarşı xeyirli olmağını və yaxşı davranmağını tövsiyə edir, sonra da belə buyururdu: *"Allahın adıyla, Allahın yolunda vuruşun. Allahı tanımayanlarla vuruşun. Qənimət mallarına xəyanət etməyin. Burun, qulaq kəsməyin. Uşaqları öldürməyin. Müşriklərdən olan düşmənimlə qarşılaşdığınız zaman, onları üç şeydən birini qəbul etməyə dəvət edin:*

*Onları İslama dəvət edin. Yerinə yetirərlərsə, bunu qəbul edin və onları sərbəst buraxın.*

*Əgər müsəlman olmazlarsa, onları cizyə verməyə dəvət edin. Bunu da qəbul edərlərsə, onları sərbəst buraxın.*

342. Əbu Davud, Ədəb, 100-101.

*Heç birini qəbul etməsələr, Allahdan kömək diləyin və onlarla vuruşun.*[343]

İslamın yaşaması üçün, insanların kütlə-kütlə Allahın dininə qovuşması, əmin-amanlıq və sülh şəraitinin yaradılması üçün bu dövrdə Rəsulullahın *(s.ə.s)*, səhabələrinin və əcdadımızın bu səylərini öz mənliyində tərənnüm etdirən Allah ərlərinə ehtiyac duyulmaqdadır.

### 6. Hüdeybiyyə müqaviləsi və diplomatik təbliğ

Rəsulullahın *(s.ə.s)* İslama dəvət fəaliyyətində Hüdeybiyyə müqaviləsinin müstəsna yeri var. Müqavilənin şərtləri ümrə ziyarətində olan səhabələrə çox ağır gəlmiş və müəyyən etirazlara səbəb olmuşdu.[344] Bütün bunlara rəğmən Hz. Peyğəmbər *(s.ə.s)* müqaviləni imzalamış və həmin müqavilə İslamın o ana qədərki ən böyük qələbəsi olmuşdur. Məkkədən qayıdanda Uca Allah Fəth surəsini nazil edərək müqavilənin böyük fəth olduğunu bildirmişdir.[345]

Hər şeydən əvvəl o ana qədər İslam dövlətinin varlığını qəbul etməyən Qüreyş bu müqavilə ilə rəsmi olaraq İslam dövlətini tanımış oldu.

İmzalanan müqavilənin şərtlərindən biri on il ərzində Qüreyş qəbiləsi ilə müsəlmanlar arasında sülh bağlanması idi.[346] Sülh dövründə bitərəf olmağı qəbul etmişdilər.[347] Müsəlmanlar bu şərtlə daha rahat şəkildə təbliğ fəaliyyəti ilə məşğul olmaq imkanı qazandılar.[348] O dövrə qədər Quran dinləmiş qəbilələrin üzərində Quranın böyük təsiri olmuşdur. Hətta deyilə bilər ki, müqavilənin ağır şərtlərini qəbul edilməsinə səbəb Hz. Peyğəmbərin *(s.ə.s)* bu gerçəyi çox yaxşı bilməsi idi. Həqiqətən də Hz. Peyğəmbərin *(s.ə.s)* arzu etdiyi kimi olmuşdur. Qura-

343. Müslim, Cihad, 3; Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 352- 358.
344. Buxari, Şurut, 15, Cizyə, 18, Təfsiru Suratil-Fəth, 5; Müslim, Cihad, 94; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 486; İbn Kəsir, *əl-Bidayə*, IV, 168-175-176.
345. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, III-IV, 330; Vahidi, *Əsbəbun-Nüzul*, s, 255.
346. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, III-IV, 317; Təbəri, *Tarix*, II, 634; Bəlazuri, *Ənsab*, I, 350.
347. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 163; *İslamda Dövlət İdarəsi*, s, 242-243.
348. Qəzali, *Fiqhus-Sira*, s, 403; Həsən İbrahim, *Tarixul-İslam*, I, 129.

ni-Kərimi (xüsusilə Hz. Peyğəmbərdən) dinləyən insanlar qruplar şəklində İslamı qəbul etməyə başladılar. Sülh dövrü müddətində İslamı qəbul edənlərin sayı o vaxta qədər İslamı qəbul edənlərlə müqayisə edilməyəcək qədər çox artdı.

Müqavilənin ardından vaxtilə Məkkədə Hz. Peyğəmbərdən *(s.ə.s)* İslamın əsaslarını eşitmiş insanlar Mədinəyə gələrək İslamı qəbul etməyə başladılar. Hətta bunların içərisində Məkkənin nüfuzlu insanları da vardı.[349] Bunlara misal olaraq məşhur sərkərdələrdən Xalid ibn Vəlid, Osman ibn Talha və Amr ibn Ası göstərmək olar.[350]

Müqavilə nəticəsində o dövrə qədər İslamı tanımaq imkanı olmayan kənar qəbilə mənsubları da Hz. Peyğəmbərlə *(s.ə.s)* görüşmək imkanı qazandılar.[351]

İrana qonşu olan müəyyən ərəb qəbilələri Sasanilərin əsarəti altında idi. Həmin qəbilələri bu əsarətdən qurtarmaq əhəmiyyətli idi. Bunu həyata keçirə bilmək üçün Məkkə ilə sülh müqaviləsi imzalanmalı idi. Hz. Peyğəmbər *(s.ə.s)* Hüdeybiyyə müqaviləsi ilə bu məsələni də həll etmiş oldu. Hz. Peyğəmbər *(s.ə.s)* Hüdeybiyyə müqaviləsindən bir neçə həftə sonra İranın əsarətində olan bölgələrlə əlaqələr qurdu. Və nəticədə Sasanilər dövlətinə bağlı olan Bəhreyn İslam dövlətinin hakimiyyətini qəbul etdi.[352]

Təbliğdə mühüm sayılan məsələlərdən biri də İslamın yayılmasına mane olanlara qarşı çalışmaqdır. Hüdeybiyyə müqaviləsinə qədər İslama düşmən olan qüvvələr lazım gəldikdə birləşə bilirdilər. Bu müqavilə sayəsində bunun qarşısı qismən də olsa alınırdı. Müsəlmanlar üçün ən böyük təhlükə mənbəyi sayılan iki yer vardı. Bunlarda biri Məkkə, digəri isə yəhudilərin məskəni olan Xeybər idi. Hz. Peyğəmbər *(s.ə.s)* bunların hər ikisi ilə də eyni anda müharibə apara bilməzdi. Bunlardan birinə hücum etsəydi düşmənlər müqaviləyə əsasən boş qalmış Mədinə şəhərini istila edə bilərdi. Bu səbəblə də onların

---

349. Arnold, *İslam Tarixi*, s, 74.
350. İbn Kəsir, *əl-Bidayə*, IV, 236-240.
351. Arnold, *İslam Tarixi*, s, 74.
352. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 162-165.

arasıda olan müqavilə pozulmalı idi. Bunu edə biləcəyi yer isə Məkkə idi. Hz. Peyğəmbər *(s.ə.s)* M. Həmidullahın vurğuladığı kimi bu məqsədini həyata keçirmək üçün ümrə ziyarətinə çıxdı. Müqavilə zamanı Məkkəni hiss etdirmədən bitərəf olmağa razı salmağı bacardı və bunu müqavilənin şərtlərinə əlavə elədi. Bununla da təhlükə sovuşdu. Bu isə böyük bir fəth idi. Mədinəyə qayıdan Hz. Peyğəmbər *(s.ə.s)* Xeybər məsələsini üç həftə kimi qısa müddət ərzində həll elədi.[353]

Hüdeybiyyə müqaviləsinin təbliğ yönündən faydası ondan ibarətdir ki, bu müqavilə ilə təbliğ üçün imkan yaranmışdı.

### 7. İslama dəvət məktubları və elçilər

Rəsulullahın *(s.ə.s)* İslamı cahana yaymaq üçün istifadə etdiyi təbliğ vasitələrindən biri də ətraf ölkələrin başçılarına yazdığı məktublar və göndərdiyi elçilərdir. Rəsulullah *(s.ə.s)* gedə bilmədiyi ölkələrin rəhbərlərinə məktublar və elçilər göndərərək təbliğ vəzifəsini yerinə yetirmişdir.

Mənbələrin bildirdiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)* Məkkə dövründə də bir sıra məktublar göndərmişdir. Məsələn, bisətin ilk illərində Təmim qəbiləsindən olan Əksəm ibn Sayfi Rəsulullaha *(s.ə.s)* məktub göndərmiş və ondan İslam haqqında məlumat istəmişdir. Hz. Peyğəmbər *(s.ə.s)* ona belə şəkildə vermişdir:

*"Allahın Rəsulu Muhamməddən Əksəm ibn Sayfiyə...*

*"Allahın salamı üzərinizə olsun. Allaha olan həmdimi sənə bildirirəm".*

*"Allah mənə "Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh" deməyimi və insanlara bu sözü təbliğ etməyimi əmr edir. Bütün məxluqat və hökmranlıq Allaha aiddir. Hər şey Onundur. Allah onları yaradır, öldürür və axirətdə təkrar dirildir. Şübhəsiz ki, dönüş Onadır. Peyğəmbərlərin kəlamlarını, nəsihətlərini sizə çatdırdım. Böyük xəbər haqqında əlbəttə sizdən soruşacaqlar. Bir müddət sonra onun xəbərini əlbəttə öyrənəcəksiniz".*[354]

353. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 159-165.
354. M. Həmidullah, *əl-Vəsaiq*, s, 254-255.

Hz. Peyğəmbər *(s.ə.s)* Həbəşistana göndərdiyi ilk məktubunda Həbəşistan kralı Nəcaşidən ora hicrət edən müsəlmanları himayə etməyini istəmiş və onu İslama dəvət etmişdi. Amma Hz. Peyğəmbərin *(s.ə.s)* ətraf ölkələrlə məktub və elçilər vasitəsiylə təbliğ fəaliyyətinə başlaması hicrətin altıncı ilindən sonraya təsadüf edir.

Hz. Peyğəmbər *(s.ə.s)* Hüdeybiyədən Mədinəyə qayıtdıqdan sonra bir gün səhabələrinə:

– *"Ey insanlar! Heç şübhəsiz ki, Uca Allah məni hamıya rəhmət olaraq göndərmişdir. Həvarilərin İsa bin Məryəmə qarşı gəldiyi kimi siz də mənə qarşı gəlməyin"* – buyurdu.

Səhabələr:

– Ya Rəsulallah! Həvarilər necə müxalifət etdilər? – deyə soruşdu.

Allah Rəsulu *(s.ə.s)*:

*" – Mənim sizi dəvət edəcəyim şeyə o da həvariləri dəvət etmişdi. Yaxın yerə göndərdiyi kimsələr razı oldular və salamatlığa çatdılar. Uzaqlara göndərdiyi kimsələr isə üzlərini turşutdular və pis davrandılar"* – buyurdu.

Səhabələr ayağa qalxaraq:

– Sən bizi hara göndərmək istəyirsənsə, ora da göndər. Biz sənin əmrini yerinə yetirərik. Vallah, heç bir şeydə sənə müxalif olmarıq və qarşı çıxmarıq – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)* hökmdarlara məktub yazdırmaq istədikdə səhabələr:

– Ya Rəsulallah! Onlar bir məktubu möhürlü olmasa oxumurlar – dedi. Hz. Peyğəmbər *(s.ə.s)* gümüşdən bir üzük düzəltdirdi. Üzərinə «Allah-Rəsul-Muhamməd" kəlmələrini yazdırdı və bu üzüyü məktublarında möhür kimi istifadə etdi.[355]

Hz. Peyğəmbərin *(s.ə.s)* Həbəşistan kralı Nəcaşiyə göndərdiyi məktubu belə idi.

---

355. Müslim, Libas, 57, 58; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 264.

– "Bismilləhir-rahmənir-rahim!

*"Allahın Rəsulu Muhamməddən Həbəşistan hökmdarı Nəcaşi Ashamaya. Müsəlman ol! Özündən başqa ilah olmayan Allah-Təalaya həmd edirəm. O, Məlikdir, Quddusdur, Salamdır, Mömindir, Müheymindir. İsa ibn Məryəmin Allahın ruhu və kəlməsi olduğuna şəhadət edirəm. Allah onu iffətli, təmiz və qorunmuş Məryəmin bətninə qoymuş, o da beləcə İsaya hamilə qalmışdır. Allah Adəmi əli və üfürməsiylə yaratdığı kimi, onu da ruhu və üfürməsiylə yaratmışdır.*

*Mən səni şəriki olmayan tək Allaha, Ona itaətdə davamlı olmağa, mənə tabe olmağa və vəhy olunan Kitaba iman etməyə çağırıram. Çünki mən Allahın Rəsuluyam. Sənin yanına əmim oğlu Cəfərlə birlikdə bir qrup müsəlman göndərirəm. Gəldiklərində onları qonaq et! Onlara etiraz etmə. Səni və ordunu Allaha ibadət etməyə çağırıram. Beləliklə, mən təbliğ vəzifəmi yerinə yetirdim və sizə nəsihət etdim. Artıq nəsihətimi qəbul edin. Hidayətə tabe olanlara salam olsun!".*

Nəcaşi Hz. Peyğəmbərin *(s.ə.s)* məktubunu alan kimi öpüb gözlərinə qoydu. Elə o dəqiqə taxtından endi, yerə oturdu və şəhadət gətirərək müsəlman oldu. Sonra da:

– Əgər yanına getməyə imkan tapsaydım, şübhəsiz, gedərdim. Allah şahid olsun ki, kitab əhli olan yəhudilərlə nəsranilərin gələcəyini gözlədikləri ümmi peyğəmbər budur. Hz. Musa Hz. İsanın gələcəyini müjdələdiyi kimi İsa peyğəmbər də Hz. Muhammədin gələcəyini müjdələmişdir. Xəbər almaq, gözlə görmək kimi deyil.

Bundan sonra Nəcaşi Hz. Peyğəmbərin *(s.ə.s)* məktubuna belə cavab verdi:

– Bismilləhir-rahmənir-rahim!

Bu məktub Allahın Rəsulu Muhamməda Nəcaşi Ashama tərəfindən yazılmışdır:

"Ey Allahın Peyğəmbəri! Özündən başqa heç bir ilah olmayan və məni İslamla hidayətə çatdıran Allahın salamı, rəhmət və bərəkəti sənin üzərinə olsun.

İsadan bəhs etdiyin məktub mənə çatdı. Göylərin və yerlərin Rəbbinə and olsun ki, İsa da özü haqqında sənin söylədiklərindən zərrə qədər artıq bir şey deməmişdi. Həqiqətən də o, sənin təsvir etdiyin kimidir. Biz sənin nə üçün göndərildiyini bilirik. Əmioğlunu və yoldaşlarını da səmimi qarşıladıq.

Sənin qəti olaraq sözündə doğru olduğuna və əvvəlki peyğəmbərləri təsdiqedici olaraq göndərildiyinə şəhadət edirəm. Mən sənin vəkilin əmin oğluna beyət etdim və aləmlərin Rəbbi olan Allaha təslim oldum. Oğlum Ərha ibn Ashamı da sənin yanına göndərirəm. Ailəmdən başqasına gücüm çatmır. Əgər yanına gəlməyimi istəyirsənsə onu da edərəm, Ya Rəsulallah! Sənin söylədiyin şeylərin haqq və gerçək olduğuna şəhadət edirəm. Allahın salamı üzərinə olsun, ya Rəsulallah!".[356]

Hz. Peyğəmbərin *(s.ə.s)* göndərdiyi bu məktublar yaxşı qarşılanmışdır. Bu isə Allah Rəsulunun peyğəmbərliyinin və İslam dövlətinin ətraf ölkələrdə tanındığından xəbər verir. Hz. Peyğəmbər *(s.ə.s)* mümkün olan hər vasitə ilə insanları dinə dəvət etmişdir.

Rəsulullah *(s.ə.s)* Bizans kralı Herakla, Dihyə ibn Xəlifə əl-Kəlbi ilə bir məktub göndərmiş və onu İslama dəvət etmişdi. Rəsulullahın *(s.ə.s)* məktubu Bizans sarayında böyük əks-sədaya səbəb olmuş, Herakl müsəlman olmaq istəmiş, ancaq nəfsinin və qövmünün təsirləri ilə bundan imtina etmişdir.[357]

Hz. Peyğəmbər *(s.ə.s)* Abdullah ibn Hüzafəni Fars şahı Kisranın yanına göndərmiş və yazdığı məktubda belə buyurmuşdu:

– "Bismilləhir-rahmənir-rahim!

*"Allahın Rəsulu Muhamməddən farsların böyüyü Kisraya! Hidayətə tabe olanlara, Allaha və Rəsuluna iman edənlərə, Allahdan başqa heç bir ilah və məbud olmadığına, Onun bənzəri, ortağı olmadığına və Muhammədin Onun qulu və elçisi olduğuna şəhadət gətirənlərə salam olsun!*

356. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 258; M. Həmidullah, *əl-Vəsaiq*, s, 100, 104-105.
357. Buxari, *Bədul-Vəyh*, 5-6; Müslim, Cihad, 74; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 262.

*Səni Allaha imana dəvət edirəm. Çünki mən diriləri xəbərdar etmək, inanmayanların həqiqətən cəza görəcəklərini bildirmək üçün Allahın bütün insanlara göndərdiyi bir elçiyəm. Elə isə müsəlman ol ki, salamata çatasan. Dəvətimdən üz çevirsən, bütün məcusilərin günahı sənin boynunda olacaq".*

Məktubu dinləyən Kisra adamlarına elçi Abdullah ibn Hüzafəni çölə çıxarmağı əmr etdi. Abdullah Kisranın hüzurundan çıxan kimi heyvanına minib Mədinəyə üz tutdu. Öz-özünə:

– Allaha and olsun, mənim üçün iki yoldan (ölüm və qurtuluş) hansı olursa-olsun qəm çəkmərəm. Rəsulullahın məktubunu ünvanına çatdırmış və vəzifəmi icra etmişəm – dedi.[358]

Səhabələr uzaq diyarlara Allah Rəsulunun *(s.ə.s)* məktublarını aparmağı şərəf sayırdılar. Abdullah ibn Hüzafə kimi ölümlə üz-üzə gələnlər də olurdu. Hər birinin bir hədəfi vardı, o da Hz. Peyğəmbərin *(s.ə.s)* məktubunu yerinə çatdırmaq idi. Bu yolda ölüm, əsarət, əziyyət kimi şeylər onların ağıllarından belə keçmirdi.

Hz. Peyğəmbər *(s.ə.s)* yenə bir gün:

– *Ey insanlar! Əcr və savabını Allahdan gözləyərək kim bu məktubu İsgəndəriyyə kralı Mukavkısa apara bilər?* – deyə soruşanda, Xatib ibn Əbi Bəltəa ayağa qalxdı və Hz. Peyğəmbərə *(s.ə.s)* doğru addımladı:

– Ya Rəsulallah! Mən apararam – dedi.

Allah Rəsulu *(s.ə.s)*:

– *Ey Xatib! Allah bu vəzifəni sənin üçün mübarək etsin!* – buyurdu.

Xatib Hz. Peyğəmbərin *(s.ə.s)* məktubunu İsgəndəriyyə kralı Mukavkısa[359] apardı.

---

358. Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 305; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 260; IV, 189; İbn Kəsir, *əl-Bidayə*, IX, 263-6; M. Həmidullah, *əl-Vəsaiq*, s, 140.
359. Bizans imperatorlarına Qeysər və Rum Qeysəri, Fars hökmdarlarına Kisra, Həbəşistan hökmdarlarına Nəcaşi, Misir hökmdarlarına Firon, İsgəndəriyyə hökmdarlarına Mukavkıs, Yəmən və Şıhhir hökmdarlarına Tubba, Hind hökmdarlarına Batlımus adlarından istifadə edilmişdir. Bunlar ad deyil, titullardır. İbn Kəsir, *əl-Bidayə*, XI, 228.

Məktubda belə yazılırdı:

– Bismillahir-rahmənir-rahim!

*"Allahın qulu və rəsulu Muhamməddən qibtilərin böyüyü Mukavkısa. Hidayətə tabe olan, doğru yol tutanlara salam olsun!*

*İndi səni İslama dəvət edirəm. Müsəlman ol və salamatlığı əldə et ki, Allah da sənə əcr və mükafatını ikiqat versin. Əgər bu dəvətimi qəbul etməzsən, qibtilərin günahı sənin üzərində olacaq.*

(Ya Rəsulum!) **söylə: Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan** (fərqi olmayan) **bir kəlməyə tərəf gəlin! "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi** (özümüzə) **Rəbb qəbul etməyək"**. (Ali-İmran, 3/64)

Hz. Peyğəmbərin *(s.ə.s)* məktubu oxunandan sonra Mukavkıs din xadimlərini toplayaraq Xatib ibn Əbu Bəltəanı yanına çağırdı.

Hadisənin davamını Xatib belə xatırlayır:

Mukavkıs mənə:

Öyrənmək istədiyim bəzi şeyləri səndən soruşacağam dedi.

Ona:

– Buyurun, danışaq – dedim.

Mukavkıs:

– Sənin rəhbərin  peyğəmbərdir, elə deyilmi? – deyə soruşdu.

– Bəli, o, Allahın Rəsuludur – dedim.

Mukavkıs:

O, həqiqətən peyğəmbərdirsə, nə üçün o, onu yurdundan çıxardıb sürgün edən qövmünə qarşı Allaha dua etmədi – deyə soruşdu.

– Ona:

– Sən İsa ibn Məryəmin Allahın Rəsulu olduğuna şəhadət edirsən, elə deyilmi? O, həqiqətən peyğəmbər olduğuna görə,

qövmü onu asmaq istədikdə onların həlakı üçün dua etsəydi necə olardı? – dedim.

Mukavkıs deyəcək söz tapmadı. Bir müddət susduqdan sonra:

– Sözünü təkrarla, dedi.

Sonra da:

Təkrarladım. Mukavkıs yenə susdu.

Gözəl dedin. Sən bir həkimsən (hikmət sahibisən), yerli yerində danışırsan və hakim olanın yanından gəlirsən, – dedi.

Bundan sonra ona:

– Səndən əvvəl burada bir adam özünün ən uca tanrı olduğunu iddia etmişdi. Uca Allah o Fironu dünya və axirət əzabıyla cəzalandırdı. Sən özündən əvvəlkilərdən ibrət al ki, başqalarına pis nümunə olmayasan – dedim.

Mukavkıs:

– Bizim bir dinimiz var, daha xeyirlisini görməyincə onu tərk etmərik – dedi

Mən:

– Şübhəsiz İslam, sənin tabe olduğun dindən daha üstündür. Biz səni Allah-Təalanın insanlara din olaraq seçdiyi İslama dəvət edirik. Hz. Muhamməd *(s.ə.s)* yalnız səni yox, bütün insanları dəvət edir. Ona qarşı ən qatı və kobud davrananlar qüreyşlilər, ən çox düşmənçilik edənlər də yəhudilərdir. Ən çox yaxınlıq edənlər isə xristianlardır. Hz. Musa, Hz. İsanı necə müjdələmişdisə, o da Hz. Muhammədi *(s.ə.s)* müjdələmişdir. Bizim səni Qurana dəvət etməyimiz, sənin Tövrata bağlı olanları İncilə dəvət etməyin kimidir. Hər insan öz zamanında gələn peyğəmbərə ümmət olmaq məcburiyyətindədir. Sən də Hz. Muhamməd *(s.ə.s)* dövründə yaşayanlardansan. Bu səbəbdən biz səni İslama dəvət etməklə Hz. İsanın dinindən uzaqlaşdırmırıq. Bilavasitə onun risalətinə uyğun əməl etməyi təklif edirik, – dedim.

Mukavkıs:

Mən bu peyğəmbərin dinini tədqiq etdim. Gördüm ki, onda nə dünyadan əl-ətək çəkmək əmr edilir, nə də arzu olunan və qəbul olunmuş şeylər qadağan edilir. O, nə yolunu azmış bir sehrbaz, nə də qeybdən xəbər aldığını iddia edən yalançıdır. Lakin bir az daha düşünmək üçün möhlət istəyirəm - dedi.

Daha sonra Hz. Peyğəmbərin *(s.ə.s)* məktubuna cavab yazdırdı.

– Bismilləhir-rahmənir-rahim!

Muhamməd ibn Abdullaha Mukavkısdan.

"Sənə salam olsun! Məktubunu oxudum. Zikr etdiyin və məni dəvət etdiyin şeyləri başa düşdüm. Bir peyğəmbərin gələcəyini bilir, amma, onun Şamdan çıxacağını gözləyirdim. Elçini yaxşı qarşıladım. Sənə mövqeyi yüksək iki cariyə və paltarlar göndərirəm. Minmək üçün də bir qatır hədiyyə edirəm. Sənə salam olsun".

Mukavkıs nə bundan artıq bir şey etdi, nə də müsəlman oldu. Mənə də: "Bax ha! Qibtilər sənin ağzından tək kəlmə belə eşitməsinlər" – deyə xəbərdarlıq etdi.[360]

Hz. Peyğəmbərin *(s.ə.s)* məktublarının göndərilməsi və məzmunları qədər, onları aparan elçilərin şəxsiyyət, xarakter və tərbiyələri də bizim üçün böyük əhəmiyyət kəsb etməkdədir. Çünki dəvətin həmsöhbətlər tərəfindən qəbul edilməsində bu xüsusun təsiri böyükdür. Bu həqiqəti çox gözəl bilən Rəsulullah *(s.ə.s)* məktublarını aparan elçilərində bir çox qabiliyyətlərin olmasına daha çox diqqət yetirərdi.

Mənbələrdən anlaşıldığına görə göndərilən bu elçilər gözəl nitqə malik, cəsur, ağıllı, İslamın həqiqətini yaxşı qavramış, örnək həyat tərzinə malik, qabiliyyətli və ləyaqətli şəxslər idi. Onlar elçi olaraq göndərildikləri bölgələrə əvvəlcədən fərqli səbəblərlə getmiş, oraların adət-ənənələrini, inanc və düşüncələrini bilən, dillərini başa düşən, tədbirli insanlar idi. Çünki

360. İbn Kəsir, *əl-Bidayə*, IV, 266-267; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 260-261; İbn Həcər, *əl-İsabə*, III, 530-531.

görünüş insanlara təsir etmək baxımından olduqca mühümdür. Rəsulullah *(s.ə.s)* onlara xitabən buyurmuşdur.

*"Siz qardaşlarınızın yanına gedəcəksiniz; minik heyvanlarınıza diqqət edin, paltarlarınızın təmizliyinə fikir verin".*[361]

Allah Rəsulu *(s.ə.s)* göndərdiyi elçilərə diqqət etmələri lazım olan xüsuslarda əhəmiyyətli tövsiyələr etmişdir. Məsələn, Allah Rəsulu *(s.ə.s)* Himyerdə olan Haris, Məsruh və Nuaym ibn Əbdikülalə bir məktub yazmışdı. Məktubu İyaş ibn Əbi Rabia Məhzumi ilə göndərərkən ona bu tövsiyələri etdi:

*"Ora çatanda gecə vaxtı (şəhərə) girmə, səhərin açılmasını gözlə. Sonra ən gözəl şəkildə dəstəmaz al, iki rükət namaz qıl. Müvəffəqiyyət qazanmağın üçün Allaha dua et. Daha sonra yaxşı hazırlıq gör. Məktubunu sağ əlinə al və onu sağ əlinlə onların sağ əlinə ver. Belə etsən onlar səni daha asan qəbul edəcəklər".*[362]

Hz. Peyğəmbərin *(s.ə.s)* göndərdiyi məktublar və elçilərin sayı kifayət qədər çoxdur. Allah Rəsulu bütün fürsətlərdə təbliğ vasitəsi olaraq bu yoldan istifadə etmişdir. O dövrün xəbərləşmə vasitələrindən maksimum dərəcədə yararlanmışdır. Bu imkanlar qısa və uzun vaxtlarda öz səmərəsini verərək İslamın ətraf ölkələrdə tanınmasına və haqq dini qəbul etməsinə zəmin hazırlamışdır.

Biz də informasiya imkanlarının son dərəcə çoxaldığı və asanlaşdığı bugünkü dövrümüzdə insanların İslama dəvətində yeni vasitələrdən ən məhsuldar şəkildə istifadə etməliyik.

### 8. Gələn heyətlər

Mədinə dövrünün son illərində İslam ətraf bölgələrdə tanınmağa başlamışdı. Həmin bölgələrdən qəbilələr axın-axın Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib müsəlman olurdular. Bu heyətlərin müxtəlif məqsəd və tələbləri olurdu ki, bunları aşağıdakı kimi sıralıya bilərik.

Qəbilə və qövmlərinin müsəlman olduğunu bildirmək və onlar adından beyət etmək.

361. Əbu Davud, Libas, 25.
362. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 282.

İslamın ehkamını öyrənmək və qayıtdıqda qəbilələrinə başa salmaq.

İslamı təbliğ edən və öyrədən müəllimlər istəmək.

İslam dini qəbul edilmədiyi halda cizyə verərək İslam idarəsinə girmək və müqavilə imzalamaq.

Rəsulullah ilə həm dini, həm də elmi müzakirələrdə iştirak etmək.

İslam dövlətinin və Rəsulullahın vəziyyətini öyrənmək.

Bunlara bir neçə misal göstərək:

Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələn heyətlərdən biri də Tayy qəbiləsi olmuşdu. Mədinəyə gəldikləri zaman Hz. Peyğəmbər *(s.ə.s)* məsciddə idi, elə gəlib çatan kimi onun yanına girdilər.

Hz. Peyğəmbər *(s.ə.s)* onlara baxıb:

*" − Mən sizə heç bir faydası olmayan və itaət etdiyiniz Uzzadan daha xeyirlisini tövsiyə edə bilərəm"* − deyə buyurdu.

Zeydül-Xayl:

− Ya Rəsulallah! Mən sənin yanına doqquz mənzillik (gecəlik) yerdən heyvanımı yoraraq gəldim. Gecələrim yuxusuz, gündüzlərim isə susuz keçdi − dedi.

Allah Rəsulu *(s.ə.s)*:

− *Səni yamaclardan, düzəngahlardan bura qədər gətirən, qəlbini imana yaxınlaşdıran Allaha həmd olsun* − dedi və Zeydin əlini ovcunun içinə alıb:

− *Sən kimsən, adın nədir?* − deyə soruşdu.

Zeyd:

− Mən Zeydül-Xaylam. Şəhadət edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur və sən də onun qulu və rəsulusan − dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

− Sən Zeydül-Xayl deyil, Zeydül Xeyrsən − dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* Tayy təmsilçilərinə İslamdan bəhs etdi. Onlar da müsəlman oldular.

Yəmən xalqından Sədi Hüzeym qəbiləsinin təmsilçiləri isə İslamı qəbul edib beyət etmək və İslamın ehkamlarını öyrənmək üçün gəlmişdilər. Onlardan Əbu Numan belə deyir:

Mənim rəhbərliyimlə qövmümdən bir neçə şəxslə Rəsulullahın *(s.ə.s)* yanına getmək üçün yola çıxdıq. Məscidin qapısına çatanda Rəsulullahı *(s.ə.s)* cənazə namazı qıldırarkən görüb, arxada gözlədik. Hz. Peyğəmbər *(s.ə.s)* namazı qıldırıb qayıdanda bizə baxıb:

– *Siz kimsiniz?* – deyə soruşdu.

– Sədi Hüzeym oğullarındanıq – dedik.

– Hz. Peyğəmbər *(s.ə.s)*:

– *Siz müsəlmansınızmı?* – dedi.

– Bəli, dedik. Rəsulullah *(s.ə.s)*:

– *Qardaşınızın cənazə namazını qılmadınızmı?* – deyə soruşdu.

–Ya Rəsulallah! Sənə beyət edincəyə qədər bunun bizə mümkün olmadığını sanırdıq – dedik.

Bu dəfə Allah Rəsulu *(s.ə.s)*:

– *Siz harada müsəlman olursunuz olun, müsəlmansınız!* – buyurdu.

– Beyət etdik, sonra qaldığımız yerə qayıtdıq. Rəsulullah (s.ə.s) qonaq edilməyimiz və yaxşı qarşılanmağımız üçün əmr verdi. Mədinədə üç gün qaldıqdan sonra vidalaşmaq üçün Hz. Peyğəmbərin (s.ə.s) yanına getdik. Geri qayıdanda Allah Rəsulu (s.ə.s) Bilala əmr etdi, o da hər birimizə hədiyyə olaraq bir neçə gümüş verdi. Beləcə qövmümüzün yanına qayıtdıq.

Gələn heyətlərin İslamı Hz. Peyğəmbərdən *(s.ə.s)* şəxsən öyrənib döndükdən sonra qəbilələrinə başa salmalarına gözəl bir nümunə də Bəni Tuciblilərdir. Bunlardan on üç nəfərlik bir heyət Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəldi. Özləri ilə zəkat mal-

ları da gətirmişdilər. Onların bu davranışları Hz. Peyğəmbərin *(s.ə.s)* çox xoşuna gəldi. Heyətə:

– *Xoş gəldiniz!* – buyurdu. Bilal Həbəşiyə onları ən yaxşı bir şəkildə qarşılamasını əmr etdi.

Bəni Tucib heyəti:

– Ya Rəsulallah! Mallarımızın üzərindəki Allahın haqqını sənə gətirdik, – dedilər.

Allah Rəsulu *(s.ə.s)*:

*" – Onları geri qaytarıb kasıblarınız arasında paylayın"* – buyurdu.

Bəni Tucib heyəti:

– Ya Rəsulallah! Biz kasıblarımıza payladığımızdan artıq qalanı sənə gətirdik – dedilər.

Hz. Əbu Bəkir:

–Ya Rəsulallah! Doğrusu Ərəb heyətləri içərisində bu Tucib heyəti kimisi yoxdur – dedi.

–Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Hidayət Uca Allahın əlindədir. Allah istədiyi kimsənin qəlbini imana açar!"* – buyurdu.

Tucib heyəti Hz. Peyğəmbərdən *(s.ə.s)* Quranla və Sünnəylə bağlı bəzi şeylər soruşdu. Soruşduqları şeylərin cavabları yazılaraq onlara verildi. Bu və digər fəzilətlərinə görə Rəsulullahın *(s.ə.s)* onlara rəğbəti daha da artdı. Bəni Tucib heyəti bir neçə gün qaldıqdan sonra getmək istədi. Onlara:

– Nəyə görə tələsirsiniz? – deyildi.

– Qövmümüzün yanına qayıdıb Rəsulullahdan *(s.ə.s)* gördüklərimizi, soruşub öyrəndiklərimizi onlara danışacağıq – dedilər.

Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib vidalaşdılar. Hz. Peyğəmbər *(s.ə.s)* onların yanına Bilal Həbəşini göndərdi. Di-

gər heyətlərə verilənlərdən daha çox hədiyyə verilməsini əmr etdi.[363]

Göründüyü kimi Hz. Peyğəmbər *(s.ə.s)* Quranı və İslamı öyrənmək istəyənlərə daha çox diqqət göstərmişdir. Məsələn; bir heyətdən Quranı daha yaxşı bilən birini, yaşca kiçik olmasına baxmayaraq onlara rəhbər təyin etmişdir.[364]

Rəsulullah *(s.ə.s)* Mədinəyə gələn heyətlərlə həddindən çox diqqətli və nəzakətli şəkildə maraqlanmışdır. Onun gələn heyətlərə qarşı nəzakətli davranması, problemləri ilə yaxından maraqlanması İslamın hər tərəfdə yayılmasına səbəb olmuşdur. Heyətlər bir cəmiyyətin təmsilçisi olaraq gəldikləri üçün, onlara qarşı çox diqqətli davranılması, əlaqə göstərilməsi lazım idi. Onların məmnuniyyəti təmsil etdikləri qəbilənin məmnuniyyətini artıracağı kimi, narazılıqları da yenə təmsil etdikləri cəmiyyətin İslamdan uzaqlaşdırılması mənasına gəlirdi. Bu səbəbdən Rəsulullahın *(s.ə.s)* tətbiq etdiyi əsaslar əsrlər boyu öz qüvvəsini itirmir.

Hz. Peyğəmbər *(s.ə.s)* gələn heyətlərlə görüşmək üçün məscidində «Elçilər sütunu" adlanan bir yer müəyyənləşdirmişdi. Hz. Peyğəmbər *(s.ə.s)* qonaqları qarşılayan zaman gözəl və təmiz paltarlar geyinərdi. Qəbul mərasimində onun yanında iştirak edən şəxslərin də eyni şəkildə geyinməyini tələb edərdi. Məsələn, Kində heyəti gəldiyi zaman Hz. Peyğəmbər, Hz. Əbu Bəkir, Hz. Ömər və Hz. Əli Yəməndən gətirilən qiymətli paltarlarını geyinmişdilər.[365]

Rəsulullah *(s.ə.s)* gələn heyətlərlə maraqlanacaq məmurlar da təyin edirdi. Onlar heyətlərin gəlişini Hz. Peyğəmbərə *(s.ə.s)* xəbər verir, elçiləri qarşılayıb Allah Rəsulunu *(s.ə.s)* necə salamlayacaqlarını və hüzurunda necə davranacaqlarını öyrədirdilər. Hz. Əbu Bəkir də təşrif işlərindən məsul idi. Qonaqlara xidməti Rəsulullahın *(s.ə.s)* xidmətçisi Səvban edər, Bilal da

---

363. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 323.
364. İbn Sad, *ət-Təbəqatul-Kubra*, V, 508; Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 218.
365. İbn Sad, *ət-Təbəqatul-Kubra*, IV, 346.

ziyafətlərin təşkilinə nəzarət edərdi. Heyətlərə bəzən çörəklə ət, bəzən çörəklə süd verilirdi.[366]

Hz. Peyğəmbər *(s.ə.s)* hüzuruna çıxan elçilərin hal-əhvalını soruşar, olduqları bölgələrin vəziyyəti haqqında məlumat alıb, tələblərini dinləyər, suallarına cavab verər və problemlərini həll edərdi.[367]

Çox vaxt gələnlərə şəxsən özü xidmət edərdi. Məsələn, gələn bir heyətə şəxsən özü xidmət edəndə səhabələr:

– Ya Rəsulallah! Anamız, atamız sənə fəda olsun. İcazə verin bunları biz edək – deyə xahiş etdikdə:

*" – Onlar bizim əshabımıza xidmət ediblər. Bunun qarşılığında onları mükafatlandırmaq istəyirəm"* – deyərək xidmətinə davam etmişdir.[368]

Səhər-axşam nə zaman vaxt tapsa, gedib heyətdəkilərlə görüşür, uzun-uzadı danışırdı. Hətta Saqif heyəti ilə ənənəvi olaraq hər yatsı namazından sonra görüşən Hz. Peyğəmbər *(s.ə.s)*, bir dəfə ayaq üstə xütbəsini bir xeyli davam etdirdiyindən bədəninin ağırlığını bir ayağına salaraq, o biri ayağının yorğunluğunu çıxardırdığı – nəql olunur.[369]

Hz. Peyğəmbər *(s.ə.s)* elçi və qonaqlarla son dərəcə təvazökar davranırdı. Hz. Peyğəmbər *(s.ə.s)* qəbilə mənsubları ilə öz ləhcələrində danışardı. Diplomatik görüşlərdə şərt olan həddindən artıq rəsmiyyət və ciddilik, Hz. Peyğəmbərin *(s.ə.s)* söz və davranışlarında yox idi.[370]

Heyətlər geri dönəndə Hz. Peyğəmbər *(s.ə.s)* onlardan burada öyrəndiklərini öz vətənlərində öyrətmələrini tələb edərdi.[371]

Hz. Peyğəmbər *(s.ə.s)* heyətlərin bir müddət Mədinədə qalaraq Quran-Kərimi və dinin əsaslarını öyrənmələrini, şəxsən

366. Kəttani, *Təratib*, I, 8.
367. Nəsai, Ümrə, 5.
368. Beyhəqi, *Şuabul-İman*, VI, 518, VII, 436.
369. Əbu Davud, *Ramazan*, 9.
370. Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 9, 343.
371. Nəsai, Azan, 8.

özünün tətbiqini müşahidə edərək İslamı başa düşmələrini istəyərdi. Məsələn, Əbdül-Qeys heyəti gəldiyi zaman ənsardan onları qonaq etməyini istəmişdi. Bu arada lazımi dini məlumatı öyrətmələrini, namaz üçün lazımi surələri əzbərləmələrini məsləhət görmüşdü. Səhər tezdən gəldiklərində hal və əhvallarını, ənsarın göstərdiyi qayğıdan məmnun olub-olmadıqlarını soruşdu. Onlar da öz məmnuniyyətlərini bildirdilər. Daha sonra Hz. Peyğəmbər *(s.ə.s)* heyətdəkiləri dini daha rahat öyrənə bilmələri üçün səhabələrin evlərinə bir-bir, iki-iki bölüşdürdü. Bu metod daha faydalı oldu. Səhabələrin zəhməti və əbdül-qeyslilərin öyrənmək əzmindən son dərəcə məmnun olan Hz. Peyğəmbər *(s.ə.s)* onlarla tək-tək maraqlanaraq əzbərlədikləri Təhiyyatı, Fatihəni, başqa surələri və öyrəndikləri digər sünnələri şəxsən özü yoxladı.[372]

Mədinədə bu şəkildə on gün və ya daha çox qalan heyətlər üçün xüsusi qonaq evləri də təsis edilmişdi. Əbdürrəhman bin Avfın evi bu məqsədlə istifadə olunurdu. Ramlə binti əl-Harisin xurmalıqlar arasında inşa edilmiş geniş və gözəl evinin də bu işlər üçün təsis edildiyi qeyd edilir.[373]

Hz. Peyğəmbərin *(s.ə.s)* həyata keçirdiyi bu metod və əsaslar, insan fitrətindən gələn əsas və dünyəvi prinsiplərdir. Təbliğ və dəvət fəaliyyətlərində bu əsaslardan istifadə etmək olduqca zəruridir.

### 9. Təbük qəzvəsi

Təbük səfəri hicri 9-cu ilin rəcəb ayında baş vermişdir. Ətraf bölgələrdən heyətlərin Mədinəyə gələrək İslam dövləti tanımasında Təbük səfərinin əhəmiyyəti böyükdür.

Mədinədə qassanilərin yeni döyüş hazırlıqlarına başladıqları xəbəri yayılmağa başladı. Əvvəlki illərə baxanda çox şey dəyişmişdi. Məkkə və Taiflə yanaşı Bəsrə körfəzi sahilləri kimi ucqar bölgələr belə bu vaxt ərzində İslamın müttəfiqləri halına gəlmişdilər. Hz. Peyğəmbər *(s.ə.s)* 30 000 nəfərlik bir ordunun komandiri idi. Və bu ordu şimala tərəf hərəkətə keçdi. Niyyət-

---

372. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 402.
373. Əbu Davud, Ramazan, 9; Kəttani, *Təratib*, I, 347.

ləri döyüşmək deyildi, lakin gözlənilməz hər hansı hücuma qarşı hazır idilər.[374]

O vaxta qədər getdiyi yerləri gizli saxlamağa çalışan Hz. Peyğəmbər *(s.ə.s)* bu dəfə getdiyi yeri açıq şəkildə bəyan etmişdi. Məqsədi isə bədəvilər üzərində psixoloji təsir yaratmaq idi. "Muhamməd Bizans imperatoru ilə savaşmağa gedir!". Könüllü yardımlardan əlavə Hz. Peyğəmbər *(s.ə.s)* Ərəbistanın hər bir nöqtəsində vəzifələndirdiyi idarəçi və məmurlardan əllərində olan bütün dövlət mallarını göndərməyini tələb etdi.[375] Zəngin insanlardan da zəkatları vaxtından qabaq vermələri tələb olunmuşdu.

Hz. Peyğəmbər *(s.ə.s)* Təbukda olan ordugahdan hər tərəfə hərbi birliklər göndərdi. Bunun nəticəsində də müxtəlif bölgələrdən buraya təcili heyətlər gəldi və ona tabe olduqlarını bəyan etdilər. Bu heyətlər Şərqdə Dumətul-Cəndəldən, Qərbdə Maqnadan, Eylə limanından, Cərbələdən və Fələstində Maandan bir az uzaqda yerləşən Əzruhdan gəlmişdilər.

Təbuka çatdıqda Hz. Peyğəmbər *(s.ə.s)* Herakla yenidən bir məktub göndərərək ondan İslamı qəbul etməyini istədi. Heç olmazsa rəiyyətinin İslam dininə girməyinə mane olmamağa və onları cəzalandırmamağa çağırdı. Herakl da elçi göndərərək İslam dövlətini tanımaq məcburiyyətində qaldı.

### 10. Vida həcci

Rəsulullahın *(s.ə.s)* həcc məqsədilə şəxsən özünün Kəbəyə gələcəyi xəbəri o qədər böyük əks-sədaya səbəb oldu ki, onun Ərəfatdakı Cəbəlür-Rəhmə/Rəhmət dağının təpəsindən səslənəcəyi tarixi "Vida Xütbə"sini dinləmək məqsədilə kişi və qadın olmaqla 140 minə yaxın insan toplaşdı. Bu xütbə bir konstitusiya mətni kimi, insanların hüquq və öhdəliklərini bildirirdi. Eyni zamanda üç aydan sonra həyatla vidalaşacaq Rəsulullahın *(s.ə.s)* vəsiyyəti mahiyyətində idi.

---

374. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, III-IV, 525-526; İbn Kəsir, *əl-Bidayə*, V, 16-18.
375. M. Həmidullah, *Vəsaiqus-Siyasiyyə*, Nom. 63-64.

"Vida Xütbəsi" olaraq qeyd edilən bu nitqin mənbələrdən götürülən müqayisəli mətni belədir:

"Həmd və şükür Allaha məxsusdur. Biz Ona həm edir, Ondan kömək diləyir, Ondan əfv istəyir və Ona sığınırıq. Nəfslərimizin şərindən, mənfi hərəkət və davranışlarımızdan Allaha pənah aparırıq. Allah kimi doğru yola yönəldərsə, həmin şəxs artıq zəlalətə düşməz, kimi də zəlalətə yönəldərsə, həmin şəxsi artıq heç kəs doğru yola yönəldə bilməz. Allahdan başqa ilah (məbud, tanrı) olmadığına, Onun təkliyinə və heç bir tayı-bərabəri olmadığına şahidlik edirəm. Həmçinin şahidlik edirəm ki, Muhamməd Onun bəndəsi və rəsuludur.

Ey Allahın bəndələri! Sizə Allahdan qorxub çəkinməyinizi tövsiyə edir, sizi Ona itaət etməyə çağırır və təşviq edirəm. Ona görə də (sözümə) ən yaxşı və ən xeyirli bir şeylə başlamaq istəyirəm:

Ey insanlar! Sözlərimi diqqətlə dinləyin! Bilmirəm, bəlkə də bu ildən sonra sizinlə burada bir daha görüşə bilməyəcəyəm.

Ey insanlar! Bu günləriniz necə müqəddəs bir gündürsə, bu aylarınız necə müqəddəs bir aydırsa, bu şəhəriniz Məkkə necə mübarək bir şəhərdirsə, bilin ki, canlarınız, mallarınız və namuslarınız da eləcə müqəddəsdir. Hər cür təcavüzdən qorunmuşdur. Diqqət edin! Təbliğ etdimmi?... Ey Allahım, sən şahid ol!

Kimin yanında bir əmanət varsa, onu sahibinə çatdırsın!

Cahiliyyə dövründəki (borclardan irəli gələn) riba/faiz ləğv edilmişdir. Lakin (borc olaraq verdiyiniz) sərmayələriniz (əsas alacağınız, verdiyiniz borc) sizindir. Beləliklə də nə zülm edəcək, nə də zülmə məruz qalacaqsınız. Allah (bundan sonra) faizin qətiyyən olmayacağına qərar verdi. Ləğv etdiyim ilk faiz əmim Abbas ibn Əbdülməttəlibin faizidir.

Həmçinin cahiliyyə dövründə güdülən bütün qan davaları tamamilə ləğv edilmişdir. Ləğv etdiyim ilk qan davası da

(əmim oğlu) Amir ibn Rəbiə ibn Haris ibn Əbdülmüttəlibin qan davasıdır.[376]

Cahiliyyə dövrünün (Məkkə şəhəri ilə bağlı) hökumət vəzifələri ləğv edilərək qüvvədən düşmüşdür. Kəbənin mühafizəsi (sidanə) və hacıların su işləri (siqayə) vəzifəsi bundan istisnadır.

Qəsdən insan canına qıymaq qisas ilə cəzalandırılacaqdır. Daş və dəyənəklə işlənilən cinayət kimi qəsdən edilib-edilməməsi şübhəli olan hallarda yüz dəvə qanbahası verilməlidir. Daha çox istəyən isə cahiliyyə dövrü insanlarından hesab olunar. Diqqət edin! Təbliğ etdimmi?... Ey Allahım, sən şahid ol!

Ey insanlar! Şeytan sizin bu torpaqlarınızda yenidən özünə sitayiş olunmasından ümidini tamamilə kəsmişdir. Lakin bundan başqa sizin kiçik hesab etdiyiniz iş və hərəkətlərinizdə ona tabe olsanız, bu, onu sevindirəcəkdir. Dininizi qorumaq üçün bunlardan da çəkinin!

Ey insanlar! **"Həqiqətən,** (haram ayları) **gecikdirmək** (məsələn, rəcəbi şəbana və ya zülqədə, zilhiccə və məhərrəmi gecikdirib səfərə, yaxud başqa bir aya saxlamaq) **ancaq küfrü artırmaqdır ki, bununla kafir olanlar** (doğru yoldan) **azdırılarlar. Onlar Allahın haram etdiyi ayların sayını düzəltmək, Allahın haram buyurduğunu halal etmək məqsədilə onu** (gecikdirilən ayı) **bir il halal, bir il haram sayarlar.** (Ayları gecikdirmək, yerlərini dəyişdirmək və qəməri ilə daha bir ay əlavə etməklə haram olan bir ayı bəzən halal, halal olan bir ayı da bəzən haram hesab edərlər)**"**. (Ali-İmran, 3/64) Beləliklə də, onlar Allahın halal etdiyini haram edərlər. İndi vaxt (yəni təqvim) Allahın yeri və göyləri xəlq etdiyi gündəki halına geri qayıtmışdır (yəni nəsi tətbiq edilən il ilə, nəsisiz aylar bir-biri ilə üst-üstə düşmüş, başqa bir ifadə ilə qəməri təqvim, heç bir nəsi əməliyyatına ehtiyac duymadan o il tam günəş təqvimindəki aylarla uyğunluq təşkil etmişdi). **"Həqiqətən, Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın Kitabında on ikidir. Onların dördü haram aylardı"**. (Tövbə, 9/37) Bu ay-

376. Onun əvvəlcə bir oğlu öldürülmüşdü.

ların dördündən üçü bir-birinin ardınca gəlir. Belə ki, zilqədə, zilhiccə və məhərrəm ayları məhz arxa-arxayadır. Müstəqil və tək olan digər ay isə Müdər qəbiləsinin rəcəb ayıdır ki, bu ay cəmaziyəl-axir ilə şaban ayının arasındadır. Diqqət edin! Təbliğ etdimmi?... Ey Allahım, sən şahid ol!

Ey insanlar! Zövcələrinizin sizin üzərinizdə haqları olduğu kimi sizin də onlar üzərində hüquqlarınız var. Sizin onlar üzərindəki hüquqlarınız sizin xoşlanmadığınız hər hansı bir adamı icazəniz istisna olmaqla, evlərinizə qəbul etməməsidir. Onların pis hərəkətlər etməsinə icazə verməyin. Əgər belə bir şey etsələr, artıq Allah sizə onları qınayıb töhmət verməyinizə və yataqlarınızı ayırmağınıza, yüngül formada onlara vurmağınıza icazə vermişdir. Əgər onlar həmin hərəkətlərdən daşınsalar, hər kəs tərəfindən bilinən formada (yəni adət-ənənəyə müvafiq şəkildə) onların yemək və geyimlərindən məsuliyyət daşıyırsınız. Qadınlara qarşı yaxşı rəftar edin. Çünki onlar sizə sığınmış, himayəniz altında olan insanlardır. Onlar özbaşlarına çox zəifdirlər və siz onları Allahın bir əmanəti olaraq aldınız. Onlara Allahın adı ilə yaxınlaşın. Qadınlar mövzusunda Allahdan qorxun və onlarla çox yaxşı rəftar edin! Diqqət edin! Təbliğ etdimmi?.. Ey Allahım, sən şahid ol!

Ey insanlar! Möminlər qardaşdırlar. Heç kəsə razılığı olmadan qardaşının malı halal olmaz. Diqqət edin! Təbliğ etdimmi?.. Ey Allahım, sən şahid ol!

Məndən sonra küfrə düşüb, bir-birinizin boynunu vurmaq həddinə çatmayın! Sizə bir əmanət qoyub gedirəm. Ondan bərk yapışdığınız müddətdə yolunuzu heç vaxt azmazsınız. Bu əmanət Allahın Kitabı və onun Peyğəmbərinin Sünnəsidir. Diqqət edin! Təbliğ etdimmi?.. Ey Allahım, sən şahid ol!

Ey insanlar! Rəbbiniz birdir. Atanız da birdir. Hamınız Adəmin övladlarısınız. Adəm isə torpaqdandır. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Ərəbin ərəb olmayana təqvası xaricində heç bir üstünlüyü yoxdur. Diqqət edin! Təbliğ etdimmi?.. Ey Allahım, sən şahid ol!

(Ona qulaq asan möminlər "Bəli!" deyərək təsdiqlədikdən sonra Hz. Peyğəmbər *(s.ə.s)* nitqinə belə davam etdi):

Burada olanlar (sözlərimi) olmayanlara çatdırsınlar!...

Ey insanlar! Şübhəsiz ki, Allah hər varisin mirasdakı payını müəyyən etmişdir. Belə olan təqdirdə bir vəsiyyət hər hansı bir varis üçün (digər varislərin hissəsindən) daha çox ola bilməz. (Varislərdən qeyrisi üçün edilən) bir vəsiyyət isə qoyulan mirasın üçdə birindən daha çox ola bilməz. Uşaq yatağa aiddir. Zina edənin (cəzası) daşqalaq (rəcm)dır. Atasından başqasına mənsub olduğunu iddia edənə, yaxud (özünü himayə edən) ağasından qeyrisini ağa kimi qəbul edənə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Belə bir insanın nə nafilə ibadətləri, nə də fərz ibadətləri qəbul olunar. Vəs-sələmu aleykum (Allahın salamı sizə olsun)!".[377]

Rəsulullah *(s.ə.s)* bu xütbəsini orada toplaşan hər kəsin eşidə bilməsi üçün lazımi tədbirləri görmüş və söylədiyi hər cümləni bərkdən təkrarlayan carçıları müəyyən məsafələrlə müxtəlif yerlərə qoymuşdu. Hz. Peyğəmbərin *(s.ə.s)* söylədiyi nitqin heç bir siyasi tərəfi olmamışdır. Xütbətə diqqətimizi daha çox çəkən məsələ onun yaxın günlərdə bu dünyadan köçəcəyinə dair açıq-aydın ifadəsinə baxmayaraq, Hz. Peyğəmbər *(s.ə.s)* siyasi iqtidara kimin qoyulacağına dair heç bir söz deməmişdir. O, insanların yalnız Quranda mövcud olan qaydalarla, özünün tətbiqatı və sünnəsində olan prinsiplərin heç bir vəhclə tərk edilmədən yaşamalarının vacibliyini bildirməklə kifayətlənmişdir.

Bu nitq Ərəfatda zilhiccə ayının 9-da cümə günü söylənmiş və həmin gün vəhy edilən bir ayədə Hz. Peyğəmbərin *(s.ə.s)* ilahi təbliğ vəzifəsinin sona çatdığını uca Allah açıq-aşkar bəyan etmişdir.

**"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi** (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, cahiliyyə dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) **tamamladım və sizin üçün din olaraq islamı**

377. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 252-254.

**bəyənib seçdim. Kim aclıq üzündən naçar qalarsa** (çətinliyə düşərsə)**, günaha meyil etmək niyyətində olmayaraq** (zəruri ehtiyacını ödəyəcək qədər bu haram ətlərdən yeyə bilər)**. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!”**[378]

378. Maidə, 5/3; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 28.

## II. RƏSULULLAHIN TƏBLİĞ METODUNUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

İnsan ruh və bədəndən ibarət varlıqdır. İnsanın fitrətində müəyyən duyğu və hisslər var. «Hiss və duyğulara təsir edən psixoloji hadisələr" insanın düşüncə, inanc və yaşayışına da təsir edir.

İnsanları haqq və həqiqətlərdən xəbərdar etmək üçün psixologiya elmini bilmək lazımdır.[379]

Hz. Peyğəmbərlə *(s.ə.s)* birgə digər peyğəmbərlər dəvətlərində psixoloji ünsürləri nəzərə alaraq hərəkət etmişlər. Vəzifələndirdikləri təbliğçilərə də bu xüsusda təlimatlar vermişlər.

Hz. Peyğəmbərin *(s.ə.s)* İslama təbliğ metoduna psixoloji olaraq diqqət yetirmək lazımdır. Bu xüsus Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ metodunu araşdıranlar üçün zəruridir. Bu önəmli məsələni iki yöndən araşdırmaq istəyirik: A. Həmsöhbət nöqteyi-nəzərindən, B. Təbliğçi nöqteyi-nəzərindən.

### A. Həmsöhbət nöqteyi-nəzərindən

Təbliğçi həmsöhbətinə psixoloji olaraq təsir etməyi bacarmalı və təbliğini buna əsasən aparmalıdır. Təbliğçinin qarşısındakına mövzu haqqında ətraflı məlumat verməsi təbliğçi haqqında etimad yaradan, həmçinin həmsöhbətin ona bağlanmasını təmin edən davranışlardandır. Həmsöhbətə İslam dininin çətinlik dini olmadığını anlatmaq və isbat etmək aradakı sevgi bağının artmasına səbəb olar. Həmsöhbətə gözəl davranış onun İslama yaxınlaşmasına gətirib çıxarar. Bəzi psixoloji təsir vasitələrinə nəzər salaq:

379. Bazarlı, *Din Tərbiyə və Təhsilində Ümumi Metodlar*, s, 13.

**1. Dəyər vermək**

İslamda bütün həmsöhbətlər kişi-qadın, gənc-qoca – dəyərlidir. Təbliğ fəaliyyəti və dəvət müddətində qarşılaşılan bütün çətinliklərə sinə gərmək də insana verilən dəyərin nişanəsidir. Çox vaxt qarşıdakı insanlar bunu anlaya bilmir. Belə olduğu təqdirdə qarşıdakı insana açıq şəkildə verilən dəyəri hiss etdirmək lazımdır. Həmçinin mövcud olan məziyyətlərini öyməklə həmin insana psixoloji təsir edərək nəticəyə çatmaq olar.

Hər insanın bəyənilməkdən və öyülməkdən xoşu gəlir və bunu edən insana hörməti artır. Bu təbii duyğudur. Bu baxımdan təbliğçi bu metoddan istifadə etməlidir. Lakin bunu edərkən həddi aşmamalıdır.

Qurani-Kərimdə xristian və yəhudilər "Əhli-kitab" adlandırılır. Bununla onların Allahın Kitabına əhil olduqları xüsusuna işarə edilərək onlara dəyər verildiyi ifadə edilir. Həmçinin "dəyər verilmə" duyğusuna xitab edərək onların qəlbini qazanmaq metodu tətbiq edilmişdir.[380]

Hz. Peyğəmbərin *(s.ə.s)* eyni metoddan qonşu dövlətlərə məktub göndərərkən istifadə etdiyini görürük. İslama dəvət məktublarında dövlət başçılarına "Rumun ulusu, Qibtilərin böyüyü" deyə xitab etdiyinə, "Bizans hökmdarı və ya Qibtilərin rəisi" demədiyinə şahid oluruq.[381] Əslində izzət, böyüklük və ucalıq Allaha, Rəsuluna və müsəlmanlara aid olduğu halda[382] Hz. Peyğəmbər *(s.ə.s)* onlara dəyər verərək qəlblərini qazanmaq üçün onlara ucalıq və ululuq nisbət etmişdir.[383]

Hz. Peyğəmbərin *(s.ə.s)* verdiyi səlahiyyət və örnəklə İslam elçisi Mühacir ibn Əbu Ümeyyə də nitqi əsasında Haris ibn Əbdi Kulala: "Sən liderlər içəsində qədr-qiyməti ən uca olansan" deyərək mədh etmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* insan fərqi qoymadan hər kəsə dəyər verirdi.

---

380. Razi, *Təfsir*, VIII, 91; Muhamməd əl-Xıdr Hüseyn, *əd-Dəvətu iləl-İslah*, s, 44-45.
381. M. Həmidullah, *Vəsaiqus-Siyasiyyə*, s, 45-46,50, 72, 76-77.
382. Munafiqun, 63/8.
383. Kəttani, *Təratib*, I, 142.

Ənəsin (r.a) xəbər verdiyinə görə Rəsulullah *(s.ə.s)* bir nəfərlə rastlaşdığı zaman onunla danışar, ayrılana qədər üzünü ondan çevirməzdi. Əl verib görüşdükdə, görüşən adam əlini çəkməsə o da əlini çəkməzdi. Hz. Peyğəmbərin *(s.ə.s)* oturarkən dizlərinin yanında oturan adamın dizlərindən irəli çıxdığı da görülməmişdir.[384]

Hz. Peyğəmbərin *(s.ə.s)* həmsöhbətlərinə dəyər verməsinin bir nümunəsi söhbət əsnasında onlara danışmaq hüququ və bildikləri doğru şeyləri ifadə etməsinə icazə verməsidir. İbn Abbasın (r.a) xəbər verdiyinə görə bir adam Rəsulullahın *(s.ə.s)* yanına gələrək bu yuxunu danışdı:

Bu gecə yuxumda buluda bənzər bir şey gördüm. Ondan yağ və bal yağırdı. İnsanlar da əllərini açıb bu yağışdan götürməyə çalışırdılar. Kimi ovcuna az, kimi də çox toplayırdı. Yerdən göylərə qədər uzanan bir ip gördüm. Siz o ipdən tutub yuxarı qalxdınız. Sizdən sonra bir nəfər də tutub səmalara qalxdı. Sonra başqa birisi qalxdı. Sonra da daha başqa birisi ipdən tutdu amma ip qopdu. Onun ipini birləşdirdilər, o da göylərə yüksəldi.

Hz. Əbu Bəkir (r.a) irəli çıxaraq:

Ey, Allahın Rəsulu! Atam-anam, sənə qurban olsun, icazə versən bu yuxunu mən yozardım – dedi.

Rəsulullah da:

*"Yaxşı yoz!"* – dedi.

Hz. Əbu Bəkir belə dedi:

O, buluda bənzəyən kölgə İslamdır. Ondan axan bal və yağ Qurandır. Quran (bal kimi) şirin və (yağ kimi) yumşaqdır. İnsanların ovuc-ovuc bu yağışdan toplaması Qurandan kiminin çox, kiminin isə az bəhrələnməsi deməkdir. Yerdən göyə qədər uzanan ip isə, sənin gətirdiyin həqiqətdir. Sən bu ipdən yapışdığına görə Allah Səni ucaldacaqdır. Səndən sonra bir nəfər o ipdən tutacaq və göylərə yüksələcəkdir. Ondan sonra başqa biri bu ipdən tutacaq və göylərə yüksələcəkdir. Ondan sonra

384. İbn Macə, Ədəb, 21

da başqa bir nəfər bu ipdən yapışsa, ip qopacaq, amma onun ipini bağlayacaqlar. O da tutub səmalara yüksələcək. Ey Allahın Rəsulu, atam-anam sənə fəda olsun, doğru yozub-yozmadığımı xəbər ver!

Allah Rəsulu *(s.ə.s)* bu cavabı verdi:

*"Yozumun bir hissəsini düz tapdın, bir hissəsində isə xəta etdin"*.[385]

Bu hədisdən göründüyü kimi Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Əbu Bəkrin xahişi ilə ona danışmağa icazə verir. Onu diqqətlə dinləyir, sonunda da mövzuyla bağlı öz dəyərli fikrini deyir və mövqeyini bildirir.

– Hz. Peyğəmbər *(s.ə.s)* uşaqlara da çox dəyər verər və davamlı olaraq onlarla məşğul olardı. Özü ilə onlar arasına hər hansı bir maneə qoymamışdı. Onlar istədiləri vaxt Hz. Peyğəmbərə *(s.ə.s)* müraciət etmək səlahiyyətinə sahib idilər. Hz. Peyğəmbər *(s.ə.s)* və uşaqlar arasında olan münasibəti belə xülasə etmək olar:

Yanına getməkdə sərbəst idilər.

Onlarla rastlaşdıqda salam verərdi.

Onlarla hal-əhval tutardı.

Xəstə olanları ziyarət edərdi.

Onlarla zarafatlaşardı və

Onlara ad qoyardı.[386]

Rəsulullahın *(s.ə.s)* bu şəkildə davranması hər zaman müsbət nəticə vermişdir. İmran ibn Husayn, Xalid ibn Vəlid, Əbu Süfyan, Süheyl ibn Amr, Malik ibn Avf, Adi ibn Xatim, Bazan və bir çox insanın hidayətə gəlməsinə səbəb Hz. Peyğəmbərin *(s.ə.s)* onlara dəyər verib iltifat göstərməsi, ağıl və elmlərini, məqam və mövqelərini mədh etməsi olmuşdur.[387]

---

385. Buxari, Təbir, 47; Müslim, Röya, 17.
386. İbrahim Canan, *Sünnədə Tərbiyə*, s, 127.
387. İbn Kəsir, *əl-Bidayə*, IV, 239, 289, 292; Yaqubi, *Tarix*, II, 59; Qandəhləvi, *Həyatus-Səhabə*, I, 98-99.

Hz. Peyğəmbər *(s.ə.s)* bu psixloji duyğunun həmsöhbətlərində arzu etdiyi nəticəni verəcəyini bilir və "dəyər verməyə" böyük əhəmiyyət verirdi. Bunun ən bariz nümunəsi olan hadisə ilə mövzumuzu yekunlaşdıraq: Əbu Rifaə: "Rəsulullah *(s.ə.s)* xütbə oxuyarkən yanına getdim və xütbə əsnasında dedim ki: «Ya Rəsulullah! (Özünü qəsd edərək) Qərib və xam bir insan gəldi. Dini haqqında məlumat istəyir və dinini yaxşı bilmir". Bunu eşidən Hz. Peyğəmbər *(s.ə.s)* mənə baxdı və xütbəsini yarıda kəsərək yanıma gəldi. Allahın öyrətdiklərindən mənə öyrətməyə başladı. Sözünü bitirdikdə isə geri qayıtdı və xütbəsinə davam etdi".[388]

**2. Yaxınlaşma vəsiləsi**

Özünə dəyər verilən insanla təbliğçi arasında isti münasibət yarandıqda təbliğçi daha rahat şəkildə istədiyi məlumatları həmsöhbətinə çatdıra bilər.

Təbliğçi özü ilə həmsöhbətini bir-birinə yaxınlaşdıracaq yolları axtarmalı və həmsöhbəti ilə yaxından münasibət qurmalıdır.

Hz. Peyğəmbər *(s.ə.s)* bunu həyata keçirə bilmək üçün hər vasitədən istifadə etmişdir.

O, açıq təbliğə başladığı qəbilələri İslama dəvət etmək üçün bazarlara getdiyi zaman ənsab elmini yaxşı bilən Hz. Əbu Bəkrlə gedirdi. Əvvəlcə Hz. Əbu Bəkir həmsöhbətinin hansı qəbilədən, hansı qoldan və hansı ailədən olduğunu soruşar və qarşı tərəflə ünsiyyət qurardı. Bundan sonra həmin şəxsi təqdim edər və Hz. Peyğəmbər *(s.ə.s)* ona Quran oxuyar və İslamdan bəhs edərdi.[389] Bu vəsilə ilə Əqəbədə qarşılaşdıqları Övs və Xəzrəclilərin müsəlman olmalarından sonra Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Əbu Bəkrin ənsab elmini bilməyinə çox sevindi.[390]

Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ etdiyi şəxs və qəbilələrin adlarına diqqət yetirərdi. Qəbilələrə təbliğ edərkən Bəni Kəlb qəbiləsinin bir qolu olan Bəni Abdullah ilə qarşılaşmış və *"Bəni*

388. Müslim, Cümə, 60; Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 80.
389. İbn Kəsir, *əl-Bidayə*, III, 142-143.
390. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 145.

*Abdullah! Sizin nə gözəl adınız var. Allahın qulu! Tək olan Allaha inanmağa və yalnız Onun qulu olmağa ən çox layiq olanlar sizlərsiniz. Belə olduğu təqdirdə tövhidi qəbul edin!"* buyurmuşdur. Lakin onlar iman etməkdən imtina etdilər.[391]

Hicrət əsnasında Hz. Peyğəmbər *(s.ə.s)* və Hz. Əbu Bəkri ələ keçirə bilməyən Qüreyş onları tapıb gətirənlərə mükafat vəd etmişdi. Bu mükafat üçün bir çox insan yollara düşmüşdü. Hz. Peyğəmbərin *(s.ə.s)* qafiləsi Bəni Huzaa qəbiləsinin ərazisindən keçərkən bu qəbilənin bir qolu olan Əsləmin rəisi Bureydə ibn əl-Huseyb qafilədən şübhələnərək onu təqib edir və qafiləyə çatır. Hz. Peyğəmbər *(s.ə.s)* Bureydədən daha əvvəl davaranaq *"Sən kimsən?"* deyə soruşdu. Bureydə ibn Huseybəm cavabını eşidən Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Əbu Bəkrə dönərək: *"Əbu Bəkir! İşimiz asanlaşıb gözəlləşdi"* dedi. Daha sonra sualı təkrarlayaraq *"Bəs kimlərdən və hansı qəbilədənsən?"* deyə soruşdu. Bureydə "Əsləmin Bəni Səhm sülaləsindən" deyə cavab verdi. Hz. Peyğəmbər *(s.ə.s)*: *"Çox gözəl! Deməli səlamatlığa çatdıq və xeyirli nəsibimiz çıxdı Ey Əbu Bəkir"* deyə düşüncəsini onunla paylaşdı. Heyranlıqla və qürurla bu dəfə Bureydə Hz. Peyğəmbərdən *(s.ə.s)* kim olduğunu soruşmuşdur. Hz. Peyğəmbər *(s.ə.s)* özünün Allahın qulu və Rəsulu, Əbdülmüttəlibin oğlu Abdullahın oğlu olduğunu bildirdi. Hz. Peyğəmbəri *(s.ə.s)* və qafiləsini diri və ya ölü ələ keçirmək üçün yola çıxan bu şəxs dəstəsi ilə birgə müsəlman olmuşdur. Büreydə müsəlman olduqdan sonra başındakı sarğısını açaraq: «Ya Rəsulullah! İcazə ver, bayraqdarın olum!" – dedi. Beləcə, Quba kəndinə qədər Allah Rəsuluna *(s.ə.s)* bayraqdarlıq etdi.[392]

Bunlardan əlavə Hz. Peyğəmbər *(s.ə.s)* qohumluq əlaqələrini də yaxınlaşmaq vasitəsi kimi istifadə edirdi. Hicrətin səkkizinci ilində Bəli qəbiləsinə İslama dəvət etmək üçün xüsusilə Amr ibn Asın göndərilməsi də bu yaxınlığın diqqətə alınmasından qaynaqlanır. Çünki Amr ibn Asın anası bu qəbilədən idi. Hz. Peyğəmbər *(s.ə.s)* onlara bu yaxınlıqdan istifadə edərək İslamı çatdırmağı qarşısına məqsəd qoymuşdu.[393]

391. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 136; M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 353.
392. Hələbi, *İnsan*, II, 51-52.
393. İbn Kəsir, *əl-Bidayə*, IV, 273; Qandəhləvi, *Həyatus-Səhabə*, I, 174.

### 3. Hisslərə xitab

Bütün insanlarda irq, toplum və fərdlərə görə dəyişən əsas xüsusiyyətlər var. Bu xüsusiyyətlər insan xarakter və şəxsiyyətinin əsasını təşkil edir. Müəyyən hadisə və ətraf mühitin təsiri ilə insanda hər an dəyişən hisslər var.

Təbliğçi hisslərə xitab etməyi yaxşı bilməli və təbliğ etdiyi əsnada buna görə hərəkət etməlidir.[394]

İnsanı digər yaradılmışlardan fərqləndirən əsas xüsusiyyət onların ağıl sahibi olması, düşünə bilməyi, təfəkkür etməyi və həqiqətləri qavraya bilməyidir. Bu təməl xüsusiyyətlər korlanmadığı təqdirdə insan hidayətə çata bilər. Bu yöndə insanlara xitab edən bir çox ayə var. **"Onlar düşünmürlərmi", "İbrət almırlarmı?", "Görmürlərmi?", "Təfəkkür etmirsinizmi?"** və s. şəkildə.

Rəsulullahın *(s.ə.s)* dəvətinə müxatəb olan Ərəb toplumunun əsas xüsusiyyətlərindən biri himayəyə çox böyük dəyər vermələri idi. Onlardan aman istəyən biri düşmən belə olsa onu həyatları bahasına qoruyardılar. Bu onlar üçün şərəf sayılırdı. Buna görə də bu ünsürdən istifadə etmək olar. Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Əbu Bəkirlə birgə qəbilələri İslama dəvət edərkən bəzi qrup və insanların himayə duyğularına toxunmuşdur.

Belə bir təbliğ fəaliyyəti zamanı Hz. Peyğəmbər *(s.ə.s)*, Hz. Əbu Bəkir və Hz. Əli bir qrupla qarşılaşdı. Hz. Əbu Bəkir onlara: "Kimlərdənsiniz?" deyə soruşdu. Onlar: "Bəni Şeyban ibn Saləbə qolundanıq" deyə cavab verdilər. Hz. Əbu Bəkir Hz. Peyğəmbərə *(s.ə.s)* yönələrək: «Atam və anam sənə fəda olsun Yə Rəsulullah! İnanın ki, qövmləri içərisində bunlardan daha əsil-nəcabətli insan yoxdur. Bunlar qövlərinin ən şərəfli və seçilmiş insanlarıdır" dedi. Hz. Əbu Bəkir daha sonra onlardan: «Bəs himayənizə sığınanları necə qoruyursunuz?" deyə soruşdu. Onlar: «Biz bu xüsusda bütün gücümüzü səfərbər edirik. Əlbəttə hər qövmün öz şərəfi var" deyə cavab verdilər. Hz. Əbu Bəkir təkrar: «Düşmənlə aranızdakı döyüş necə olur?"

394. Gustave Leo Bon, *Kütlələr Psixologiyası*, s, 115; Dale Carnegie, Söz Söyləmək, s, 51; Domenach, *Siyasət və Propoganda*, s, 84-85.

deyə soruşdu. Onlar: «Qəzəbləndiyimiz vaxt heç kim bizim önümüzə çıxmasın. O təqdirdə uşaqlarımızla sağ qalmaqdansa atalarımıza qovuşmağı, xanımlarımızla yatmaqdansa silaha sarılmağı daha üstün tutarıq. Lakin yardım Allahdandır. Bəzən döyüşü leyhimizə, bəzənsə əleyhimizə çevirir. Zənn edirəm ki, siz Qureyşdənsiniz?" deyə soruşdular. Hz. Əbu Bəkir Hz. Peyğəmbəri *(s.ə.s)* onlara təqdim etdi və onlara təbliğ edildi. Təbliğ ediləndən sonra deyilənlərin haqq olduğunu, lakin bu xüsusda tələsməyəcəklərini və qövmləri ilə məsləhət edəcəklərini bildirdilər.[395]

Hz. Peyğəmbər *(s.ə.s)* Ukaz bazarında Amir ibn Sasaa qəbiləsinə mənsub bəzi şəxslərlə qarşılaşmışdı. Onlarla tanış olduqdan sonra: *"Himayənizə sığınmış insanı necə qoruyursunuz?"* deyə soruşdu. Onlar dərhal: "Bizim himayəmizdə olana kimsə toxuna bilməz". Bu cavabı eşidən Hz. Peyğəmbər *(s.ə.s)* onlara: *"Mən Allahın Rəsuluyam. Əgər sizin himayənizə sığınsam Rəbbimin peyğəmbərliyini yerinə yetirənə qədər məni qoruyarsınız?"* deyərək özünü himayə etmələrini istədi. Onlar da himayə etməyi sevərək yerinə yetirəcəklərini, lakin iman etmələrinin mümkün olmadığını bildirdilər.[396]

Hz. Peyğəmbər *(s.ə.s)* eyni üslubla Həmədandan bir nəfəri də İslama dəvət etmiş, qövmünün himayəyə sığınanları qoruyub qorumadıqlarını bildirərək onların himayəsinə girmək istədiyini bildirmişdir. Həmin şəxs özünün onu himayəyə götürə biləcəyini, lakin qövmünün əhdə vəfasızlıq edəcəyindən qorxaraq qövmü ilə görüşmək istədiyini demişdir. Əgər müsbət nəticə olarsa xəbər edəcəyini bildirərək Hz. Peyğəmbərin *(s.ə.s)* yanından ayrılmışdır.[397]

Yaxınların, qohum-əqrəbaların və məhrəmləri qısqanmaq iffət və namus duyğusunu itirməmiş hər insanda olan gözəl xüsusiyyətdir.

Bu mövzu ilə bağlı başqa bir hadisəni Əbu Ümamə əl-Bəhili (r.a) belə nəql edir:

395. İbn Kəsir, *əl-Bidayə*, III, 143-145.
396. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 132.
397. İbn Kəsir, *əl-Bidayə*, III, 146.

Bir gənc Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələrək dedi:

– Ya Rəsulallah! Zina etmək üçün mənə icazə ver.

Orada olanlar dərhal onu məzəmmət edib susmasını tələb etdilər.

Hz. Peyğəmbər *(s.ə.s)* həmin gəncə xitabən:

– *"Bura yaxınlaş!"* – dedi. Gənc oğlan da gəlib Hz. Peyğəmbərin *(s.ə.s)* yanında oturdu.

Hz. Peyğəmbər *(s.ə.s)* ona:

– *"Ananın zina etməsini istəyərsən?"* – deyə soruşdu.

Həmin gənc:

– Allah-Təala məni sənin yolunda qurban etsin, vallahi istəmərəm, Ya Rəsulallah! – dedi.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Digər insanlar da anaları üçün belə şeyi istəməzlər"* – dedi.

Allah Rəsulu *(s.ə.s)* eyni sualı gəncin qızı, bacısı, xalası, bibisi haqqında da təkrarladı. Gənc də hər dəfəsində eyni cavabı verdi.

Hz. Peyğəmbər *(s.ə.s)* sonra mübarək əllərini gəncin sinəsinə qoydu və belə dua etdi:

– *"Allahım, onun günahlarını bağışla, qəlbini təmizlə və zinadan mühafizə eylə!"*

O gənc bundan sonra belə bir şeyə əsla yaxınlaşmadı.[398]

Hz. Peyğəmbər *(s.ə.s)* burada mənfi istiqamətə yönəlmiş bir gənci əshabın həyacanına baxmayaraq, sakit tərzdə təmkinlə, ehtiramla qarşılamış, əsəbiləşməmiş, ona yanında yer göstərmiş, dediklərinə qulaq asmış, sonra məsələni əqli və məntiqli izah etmiş, gəncin ən həssas yerlərinə toxunaraq ağlının tərəzisində çəkməyi təmin etmiş və Allahın izni ilə bu şəriətə uyğun gəlməyən düşüncəni qəlbindən çıxardıb atmışdır. Həmin gənc də əqlən və qəlbən buna inanmış, bir daha belə şeyə əsla

398. Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 256.

təşəbbüs göstərməmişdir. Müəllim və tərbiyəçilər inadkarlıq etmədən, təmkinlə və ehtiramla hərəkət edərək məsələləri izah etmək üçün bu metodlardan istifadə etməlidirlər. Xüsusilə, itaətkarlığın azaldığı, hər şeyin ağıl pəncərəsindən dəyərləndirildiyi və rasionalizmin hakim olduğu bugünkü həyatımızda bu əqli və məntiqi izahlara daha çox ehtiyac duyulmaqdadır.

Təbliğ fəaliyyətində müvəffəq olmaq üçün həmsöhbətin sahib olduğu hissləri nəzərə alaraq hərəkət etmək lazımdır. Buna görə də təbliğçi müxatəblərinin hisslərini duymalı, üz xətlərindən xarakterini oxumağı bacarmalıdır.

Hz. Peyğəmbər *(s.ə.s)* aman istəmək üçün gələn Tayy qəbiləsinin liderlərindən biri olan Adiy ibn Xatimi İslama dəvət etdi. Lakin üz ifadələrindən onun tərəddüd içərisində olduğu hiss edildi. Hz. Peyğəmbər: *"Mən bilirəm ki, sən nə səbəblə müsəlman olmursan. Mənə sosial baxımdan zəif insanların və ərəblərin bir kənara atdığı yoxsulların iman gətirməsinə görə iman etmirsən. Hira şəhərini tanıyırsanmı?"*

Adiy ibn Xatim: "Xeyr, oranı görməmişəm. Lakin eşitmişəm," – deyir.

Allah Rəsulu *(s.ə.s)*: *"Allaha and olsun ki, Allah bu dini tamamlayacaq. Hətta bir gün gələcək, bir qadın dəvəsinin belində "kəcavə" içində təkbaşına arxayınlıqla Hiradan (Kufə yaxınlığında qədim bir şəhər) Məkkəyə gəlib Kəbəni təvaf edəcək. İran hökmdarı Hörmüzün xəzinələri fəth ediləcək,"* – buyurdu. Adiy ibn Xatim: "Nə!! İran hökmdarı Hörmüzmü?" – deyə heyrətlə soruşur. Rəsulullah *(s.ə.s)*: *"Bəli, ondan da çox gəlirlər o qədər artacaq ki, heç kim hər hansı bir şeyə əl açmayacaq,"* – buyurur.

Gün gələcək, Rəsulullahın *(s.ə.s)* gələcəyə dair verdiyi bu xəbərlər bir-bir gerçəkləşəcək, Adiy b. Xatim də bunlara şahid olacaqdı.[399]

İçindən keçənlərin və hisslərinin oxunduğunu və cavablandığını görən Adiy Hz. Peyğəmbərin *(s.ə.s)* hüzurunda İslamı qəbul edir.[400]

---

399. İbn Kəsir, *əl-Bidayə*, V, 66.
400. Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 257; Qandəhləvi, *Həyatus-Səhabə*, I, 102-103.

Günah bataqlığına nə qədər batmağına baxmayaraq hər insanın içində insani bir duyğu və səmimi hisslər qalır. Mühüm olan bu duyğu və hisslərə xitab edərək onları hərəkətə keçirə bilməkdir. Bu şəkildə davransaq bir çox insanın hidayətinə səbəb ola bilərik.

**4. Müştərək nöqtələrdə birləşmək**

Uca Allah Hz. Peyğəmbərə *(s.ə.s)* müştərək mövzularda uzlaşmaq metodunu tətbiq etməyi əmr etmişdir. "(Ya Rəsulum!) **Söylə: «Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan** (fərqi olmayan) **bir kəlməyə tərəf gəlin!** (O kəlmə budur:) **"Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi** (özümüzə) **Rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman** (onlara) **deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq** (Allaha təslim olanlarıq)**!"**. (Ali-İmran, 3/64)

Tək olan Allaha ibadət etmək bütün peyğəmbərlərin və onlara iman edən insanların müştərək olduqları xüsusdur. "(Ya Rəsulum!) **Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: «Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də yalnız Mənə ibadət edin!" – deyə vəhy etməyək".** (Ənbiya, 21/25) **"Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin! – deyə peyğəmbər göndərmişdik"**. (Nəhl, 16/36)

Təbliğ fəaliyyətində Hz. Peyğəmbəri *(s.ə.s)* nümunə götürən İslam elçisi Xətib ibn Əbi Bəltəa Misir Mukavkısına belə demişdir: «Bu Peyğəmbər insanları dinə dəvət edir. Ona qarşı ən sərt davrananlar qövmü Qureyşdir. Ən çox düşmənçilik edənlər yəhudilərdir. Lakin mən siz nəsranilərin (xristianların) ən çox yaxınlıq göstərəcəyinə inanıram. Allaha and içirəm ki, Hz. Musanın Hz. İsanı müjdələməsi necədirsə, Hz. İsanın da Hz. Muhammədin peyğəmbərliyini müjdələməsi eynidir. Bizim sizləri Qurana dəvət etməyimiz eynilə sizin Tövrat əhlini (yəhudiləri) İncilə dəvət etməyiniz kimidir. Hansı qövmə peyğəmbər gəlmişsə həmin qövm o peyğəmbərin ümməti olur və həmin peyğəmbərə itaət etmək lazımdır. Sən bu peyğəmbərin dövrünü görənlərdənsən və bu səbəblə də müsəlman ol. Biz

səni xristianlıqdan uzaqlaşdırmırıq. Əksinə xristianlığın əslini yerinə yetirməyinizi istəyirik".[401]

Hz. Peyğəmbərin *(s.ə.s)* elçisi Xətibin bəhs etdiyi təhrif edilməmiş xristianlıqdır. Əsası tövhid olan xristianlığın gərəyi İslama və Hz. Peyğəmbərə *(s.ə.s)* iman gətirməkdir. Təhrif edilmiş xristianlıqdakı müəyyən əxlaqi əsaslar, Allaha ibadət, cənnət, cəhənnəm kimi müştərək xüsuslar bu insanların İslama dəvət edilməsi üçün vasitə və metod olaraq istifadə edilə bilər.

Hz. Peyğəmbər *(s.ə.s)* təhrif edilərək əslini itirmiş yəhudilik və xristianlıq dininin mənsubları ilə müştərək xüsusları əsas alaraq xoş keçinərdi. Təbliğ fəaliyyəti ilə məşğul olan qruplar Hz. Peyğəmbərin *(s.ə.s)* bu metodunu yaxşı mənimsəməli və tətbiq etməlidirlər. Öz aralarındakı müəyyən ixtilaf edilən məsələlər səbəbilə bir-birlərindən uzaqlaşmaq əvəzinə müştərək nöqtələr əsasında birləşərək fəailiyyət göstərməlidirlər. İxtilaf edilən xüsuslar müştərək xüsusların önünə keçməməlidir.

İslami fəaliyyətlərin metodu kiçik fərqlər səbəbi ilə aradakı münasibəti kəsmək deyil, əksinə müştərək nöqtələrdə birləşərək hərəkət etməkdir.

### 5. Bəxşiş, hədiyyə, ziyafət və yığıncaqlar

İnsanın fitrətən mülkə və maddi imkanlara meyli vardır. O, bu cür arzu və istəklərini müxtəlif yollarla təmin etmək istəyir. Beləliklə, bu mövzularda ona kömək edən, könlünü şad edənlərə qarşı rəğbət və məhəbbət bəsləyir. Allah-Təala dəvət əhlinin xarakter və metodlarından bəhs etdiyi ayələrin birində belə buyurur:

**"Yaxşılıqla pislik eyni ola bilməz.** (Ey mömin kimsə!) **Sən** (pisliyi) **yaxşılıqla dəf et!** (Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə cömərdliklə, cəzaya bağışlamaqla cavab ver!) **Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!".** (Fussilət, 41/34)

---

401. Qəzali, *Fiqhus-Sira*, s, 387.

Bu baxımdan İslam təbliğçiləri həmsöhbətinin psixologiyasında müsbət təsir yaradan, ruhunu oxşayan və könlünü xoş edən bu təbliğ vasitələrindən istifadə edərək, yerinə görə qonaqpərvər olmalı, hədiyyələr verməli və ehtiyaclarına uyğun kömək etməlidirlər. Aralarındakı düşüncə və yaşayış fərqlərindən qaynaqlanan soyuqluğu dostluq və məhəbbətə çevirməlidirlər.

Allah Rəsulu *(s.ə.s)*:

*"Aranızdakı kin və düşmənçiliyi aradan qaldırmaq üçün bir-birinizə hədiyyə verin və bir-birinizə məhəbbət bəsləyin"* – buyurmaqdadır.[402]

Hz. Peyğəmbər *(s.ə.s)* ümmətinə əmr etdiyi bu əsaslar çərçivəsində ona verilən hədiyyələri qəbul etmiş, imkan tapdıqda dost və düşmən – hamıya, xüsusilə, gələn heyətlərə hədiyyələr verməyə çalışmışdır. Hətta son xəstəliyi dövründə çox əziyyət çəkərkən belə, gələn heyətlərə hədiyyələr verilməsini əmr etmişdir.[403]

Rəsulullah *(s.ə.s)* təbliğə başladığı ilk illərdə xüsusilə yaxın qohumlarını İslama dəvət edərkən yığıncaqlar təşkil etmiş, ziyafətdən sonra ilahi xəbərdarlıqları onlara bildirmişdir. Hz. Əli bu mövzu ilə bağlı bir hadisəni belə nəql edir:

Allah-Təalanın yaxın qohumlarını axirət əzabı ilə xəbərdar etməsi əmri gəlincə[404] Hz. Peyğəmbər *(s.ə.s)* məni çağırıb Əbdülmüttəlib oğullarını dəvət etməyimi və yemək hazırlamağımı tapşırdı. Rəsulullahın əmrini yerinə yetirdim. Əbdülmütəllib oğulları bir yerə toplandılar, onların sayı qırx nəfərdən ibarət idi. Hz. Peyğəmbər *(s.ə.s)* məni çağırıb hazırlanmış yeməyi gətirməyi xahiş etdi. Yeməyi gətirib qabağına qoydum. Əti parçalayaraq çanağın qırağına qoydu və sonra:

– *Haydı, yeyin, bismillah!* – buyurdu.

Doyunca yedilər. Allaha and olsun ki, onların hamısını qonaq etdiyim yeməyi bir nəfər belə tək başına yeyə bilərdi.

402. Tirmizi, Vəla, 6.
403. Buxari, Cizyə, 6.
404. Şuəra 29/214.

Bundan sonra Allah Rəsulu:

*"Ya Əli! Qonaqlara süd ver!"* – dedi.

Onlara süd qabını gətirdim, hamısı doyunca içdilər. Allaha and olsun ki, o qabdakı südü onlardan bir nəfər tək başına içə bilərdi. Süfrədən qalxdıqda sanki ətə və südə heç kim əl vurmamış kimi görünürdü. Rəsulullah *(s.ə.s)* sözə başlamaq istəyəndə Əbu Ləhəb buna mane oldu və oradakılar hamısı dağılıb getdilər. Hz. Peyğəmbər *(s.ə.s)* ikinci dəfə ziyafət təşkil etdi. Yenə onlara yemək qonaqlığı verdi. Yeməkdən sonra Allahın əmrlərini bir-bir başa saldı.[405]

Hz. Peyğəmbər *(s.ə.s)* xüsusilə «müəllifeyi-qulub" deyilən, qəlblərini İslama isindirəcək kimsələrə qənimət mallarının öz payına düşən hissəsindən çoxunu hədiyyə vermişdir. Hz. Peyğəmbər *(s.ə.s)* onlara sədəqə və qənimət vermək və gözəl münasibət göstərməklə eyni zamanda bir qrup şəxsdən gələ biləcək təhlükələrin qarşısını almışdır.

Bir dəfə Hz. Peyğəmbər *(s.ə.s)* yeni müsəlman olmuş birisinə xeyli sayda qoyun sürüsü vermişdi. Həmin şəxs qəbiləsinə dönən kimi:

"Ey qövmüm! Dərhal gedin, müsəlman olun. Çünki Muhamməd kasıblıq və ehtiyac qorxusu duymadan çox böyük comərdlik edir, ehsanlar verir – dedi.

Hədisin ravisi Ənəs (r.a) belə deyir:

Bəzi insanlar sırf dünya malı əldə etmək üçün müsəlman olurdular. Amma çox keçmədən müsəlmanlıq onların gözündə dünyadan və üzərindəki hər şeydən daha dəyərli hala gəlirdi.[406]

Hz. Peyğəmbər *(s.ə.s)* yanına gələn heyətlərə və digər insanlara da hədiyyə verərdi. Belə ki, Bəhreyn xalqından iyirmi nəfərə məktub yazaraq Mədinəyə dəvət etmişdi. Gələnlərin on ikisi Əbdül-Qeys qəbiləsindən idi. Onlar Hz. Peyğəmbərlə *(s.ə.s)* görüşüb müsəlman oldular və bir çox şeylər soruşub öyrəndilər.

---

405. Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 111, 159; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 187.
406. Müslim, *Fədail*, 57-58.

Hz. Peyğəmbər *(s.ə.s)* dönərkən Əbdül-Qeys heyətinin hər fərdinə hədiyyələr verilməsini əmr etdi. Heyət təmsilçisi Abdullah ibn Əvfə isə on iki yarım uqiyyə[407] gümüş verdi.[408]

Yenə Haris ibn Əfvin rəhbərliyi ilə Bəni Mürrənin 13 nəfər təmsilçisi Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlmişdi. Hz. Peyğəmbər *(s.ə.s)* onlara:

– *Yurdunuz necədir?* – deyə soruşdu.

Haris:

– Vallah, biz quraqlığa və qıtlığa düçar olduq. Heyvanlarım güclə nəfəs alır. Bizim üçün Allaha dua et – dedi.

Bunu eşidən Hz. Peyğəmbər *(s.ə.s)*:

– *Allahım! Onları yağmurunla sula* – deyərək dua etdi.

Bəni Mürrə təmsilçiləri Mədinədə bir neçə gün qaldıqdan sonra yurdlarına geri dönmək istədilər. Hz. Peyğəmbər *(s.ə.s)*, Haris ibn Əvfi onlara rəhbər təyin etdi. Bilal Həbəşiyə təmsilçilərə hədiyyələr verməyi əmr etdi. O da təmsilçilərdən hər birinə on uqiyyə, Haris ibn Əvfə on iki uqiyyə gümüş verdi.[409]

Allah Rəsulu *(s.ə.s)* yanına gələn heyətlərə olduqları bölgələrdəki bir sıra əraziləri və su mənbələrini də verirdi. Bəni Uqeyl heyəti gəlib müsəlman olmuşdu və tayfaları adından da beyət etmişdilər. Hz. Peyğəmbər *(s.ə.s)* onlara Əqiq ərazisini verdi. Onlar üçün bu barədə üzərinə yazdırdığı qırmızı dəridə belə buyururdu:

"Bismilləhir-rahmənir-rahim!

Bu, Allahın Rəsulu Muhammədin Rəbi, Mutarrif və Ənəsə verdiyi yazıdır!

*Namaz qıldıqları, zəkat verdikləri və itaət etdikləri müddət ərzində onlara Əqiq ərazisini vermişdir. Belə etməklə onlara digər bir müsəlmanın haqqı verilmiş deyildir".*[410]

---

407. Bir uqiyyə qırx gümüş dirhəm miqdarındadır.
408. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 315.
409. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 298; İbn Əsir, *Üsdul-Ğabə*, I, 410.
410. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 301.

Hz. Peyğəmbərin *(s.ə.s)* bu şəkildə qəlbləri İslama isindirmək üçün verdiyi bəxşiş, hədiyyə və ərməğanların sayı-hesabı yoxdur. İnsanın mala və mənfəətə olan arzusu o gün necə idisə, bu gün də elədir. Bəlkə daha da çoxalmışdır. Bu baxımdan Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğdə istifadə etdiyi bu əhəmiyyətli vasitələrdən imkan daxilində istifadə etmək məcburiyyətindəyik. Bu gün xristian missionerləri öz işlərində bu xüsusa daha çox əhəmiyyət verməkdə və bu sahəyə çoxlu sərmayələr yatırmaqdadırlar. Onları bu yola sövq edən, şübhəsiz, insanın mal-dövlətə düşkünlüyünü və maddiyyatın insan üzərindəki təsirini çox yaxşı bilmələridir. Ümumiyyətlə, bu gün İslamı təbliğ edənlər müraciət etdiyi insanların maddi sıxıntı və problemləriylə maraqlanmalı, yaralarını sarmalı və ehtiyaclarını ödəməlidirlər. Ən təsirli metod budur. Hətta "Qarnı ac olan insana ilk ediləcək İslami təbliğ, onun qarnını doydurmaqdır".

**6. Təkrar**

Danışarkən həmsöhbətinin diqqətini çəkməyin üsullarından biri də mühüm olan xüsusiyyətlərin vəziyyətə görə bir və ya bir neçə dəfə təkrar edilməsidir. Bəzi dərin mövzular və həqiqətlər vardır ki, insan onları dəfələrlə dinləyib, oxusa da özününküləşdirilməsi zaman tələb edir.

Fikrin əhəmiyyətini bildirmək üçün əgər lazım gələrsə eyni kəlmə və cümlələr müxtəlif yerlərdə istifadə oluna, təkrarlana bilər. Çünki, burdakı təkrar eynimənalı deyil. Eyni kəlmə çoxmənalı ola, yerinə görə başqa mənaları da ifadə edə bilər. Təkrardan bəhs edərkən bunları nəzərə almalıyıq.

Quranda bəzi ayələrin təkrar olunmasının bir çox hikməti var. Təkrarlardan bəhs edərkən həmin dilin özünəxas xüsusiyyətlərinə də baxılmalıdır.

Quran insanlara çatdıracağı mesajı müxtəlif üslublarla təqdim edir. **"Biz onu ərəbcə Quran olaraq nazil etdik. Biz orada təhdidləri təkrar-təkrar izah etdik ki, bəlkə, onlar pis əməllərindən çəkinsinlər, yaxud ibrət alsınlar!"** (Taha, 20/113) ayəsində də bu həqiqət bildirilmişdir.

Məsələn, "Rəhman" surəsində insanlar və cinlər üçün yaradılan nemətlərin zikr edildiyi cümlələrin arasında gələn və 31 dəfə təkrar edilən:

**"Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?"** – ayəsi qulların gözündəki qəflət pərdələrini açaraq, ilahi nemətləri etiraf etmələrini təmin etməklə şükr vəzifəsini xatırlatmaqdadır.

Təkrarın insan üzərində təsiri böyükdür. Bu mövzuda Gustave Le Bon belə demişdir. "İddianın həqiqi təsir yaratması üçün mümkün olduğu qədər eyni kəlmələrlə təkrar edilməsi şərtdir". İddia olunan şey çox təkrar olunduqda isbat edilmiş həqiqət kimi yaddaşlara həkk olunur. Davamlı olaraq təkrar edilən fikir insanın şüur altına yerləşir.[411]

Qurani-Kərim təkrarın qalıcı təsiri gücünə əsasən ifadə etmək istədiyi mənanı qəlblərə daha yaxşı yerləşdirmək üçün bəzən bir kəlməni, bir cümləni, bir ayəni və ya bir hadisəni eynilə, bəzən eyni möhtəvanı müxtəlif kəlmələrlə və ya müxtəlif yönləri ilə təkrarlayaraq bu metoddan istifadə etmişdir. Bu təkrarlar istər kəlmələrin, istər mövzuların təkrarı şəklində olsun hamısında ayrı bir ahəng və incəlik vardır.

Ənəs ibn Malikin rəvayət etdiyinə görə, Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ fəaliyyəti zamanı eyni metoddan istifadə edirdi. O, belə nəql etmişdir: «Hz. Peyğəmbər *(s.ə.s)* salam verdiyi zaman üç dəfə salam verər, (dediyi söz daha yaxşı başa düşülsün deyə) danışdığı zaman üç dəfə təkrar edərdi".[412]

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən insanların həssaslıq və ciddiyyətlə yanaşması gərəkli və çox əhəmiyyətli məsələlərdən bəhs etdiyi zaman həddindən artıq çox təkrar edərdi.

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən də onu dinləyənlərin diqqətini çəkmək üçün oturuşunu dəyişdirərək sözünü təkrar edərdi. Məqsədi yenə də dediyi məsələnin əhəmiyyətini göstərmək idi. Buna misal olacaq hadisəni Nüfey ibn Haris (r.a) belə nəql edir:

411. Gustave Le Bon, *Kütlələr Psixologiyası*, s, 126-127.
412. Buxari, Elm, 30.

Bir gün Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Sizə böyük günahların hansılar olduğunu xəbər verimmi?"* – deyə üç dəfə soruşdu.

Biz də:

– Bəli, ya Rəsulallah! – dedik.

Rəsulullah *(s.ə.s)*:

– *"Allaha şirk qoşmaq, ata-anaya itaətsizlik etmək"* – dedikdən sonra söykəndiyi yerdən qalxıb oturdu:

– *"Yaxşı qulaq asın! Bir də yalan söyləmək və yalançı şahidlik etməkdir"* – dedi. Bu sözü dayanmadan təkrarladı. Həddindən artıq üzülməsini istəmədiyimiz üçün kaş ki, sussaydı deyə düşündük.[413]

Allah Rəsulu *(s.ə.s)* burada iki böyük günahı söylədikdən sonra, üçüncüyə gəldikdə oturuşunu dəyişdirmiş, söykəndiyi yerdən qalxıb oturmuşdur. Bu davranış dəyişikliyi, yalançılığın və yalançı şahidliyin ən böyük haramlardan olduğunu daha yaxşı başa salmaq üçündür.

Rəsulullah *(s.ə.s)* hər hansı bir məsələyə münasibətini başa salarkən sözlərini açıq-aydın deyər, danışdıqlarının doğru başa düşülməsi üçün bəzən bir neçə dəfə təkrarlayardı.[414]

Təbliğçi də yeri gələndə müəyyən xüsusları həmsöhbəti üçün təkrar etməlidir. Çünki təkrar mövzunun daha asan yadda qalmasına və ya daha yaxşı mənimsənilməsinə səbəb olar.

### 7. İnciklik

Sevdiyimiz və hörmət bəsləyərək bağlandığımız bir şəxsin səhvimiz səbəbilə bizdən inciməsi bizi narahat edər. Qarşımızdakı insan bizdən inciməsin deyə xətamızdan üz döndəririk. Təbliğ metodu olaraq yeri və zamanına əsasən təbliğçinin bu üsuldan istifadə etməsi, onu istədiyi nəticəyə aparan vasitə ola bilər.

---

413. Buxari, Ədəb, 6; Müslim, İman, 143.
414. Buxari, Elm, 30.

Hz. Peyğəmbərin *(s.ə.s)* hayatında baş vermiş aşağıda qeyd edəcəyimiz hadisə səhabələrin sədaqətini, ixlas və səmimiyyətini, Hz. Peyğəmbərə *(s.ə.s)* bağlılığını göstərən bariz nümunədir.

Kab ibn Malik (r.a) gözlərini itirdiyi vaxt onu əlindən tutaraq gəzdirmək vəzifəsini üzərinə götürən oğlu Abdullahdan rəvayət edildiyinə görə o belə demişdir:

Rəsulullah *(s.ə.s)* ilə birlikdə Təbuk qəzvəsi səfərbərliyinə qatılmadığı üçün başına gələn hadisələri danışarkən Kab ibn Malikin (r.a) belə dediyini eşitdim:

Rəsulullahın *(s.ə.s)* getdiyi döyüşlərdən yalnız Təbuk qəzvəsində iştirak etməmişdim. Düzdür, Bədir döyüşündə də iştirak etməmişdim. Bədirdə iştirak etmədiyi üçün heç kimi qınamamışdılar. O vaxt Rəsulullah *(s.ə.s)* və müsəlmanlar (döyüş üçün deyil) Qüreyş karvanını təqib etmək üçün yola çıxmışdılar. Nəhayət, Allah-Təala müsəlmanlarla düşmənləri aralarında heç bir qərar olmadığı halda qarşılaşdırdı. Halbuki mən Əqəbə beyətinin[415] baş tutduğu gecə İslama yardım etmək üzrə söz verərkən Rəsulullahın *(s.ə.s)* yanında idim. İnsanların gözündə hər nə qədər Bədir döyüşü Əqəbədən daha məşhur olsa da, mən Bədirdə iştirak etməyi Əqəbədən üstün tutmaram.

Rəsulullahla *(s.ə.s)* birlikdə Təbuk qəzvəsinə getməməyim belə oldu:

Mən iştirak etmədiyim bu qəzvə ərəfəsində çox zəngin oldum. Vallahi, Təbuk qəzvəsinə qədər heç vaxt iki dəvəm olmamışdı. Bu qəzvə ərəfəsində iki minik dəvəm vardı. Bir də Rəsulullah *(s.ə.s)* adətən döyüşə və ya qəzvəyə hazırlaşarkən hədəfi söyləməzdi. İnsanlar da elə zənn edərdi ki, o başqa yerə gedəcək. Lakin bu yürüş yayın istisində çox uzağa olacağı üçün, eyni zamanda böyük düşmən gücü ilə qarşılaşılacağına görə Hz. Peyğəmbər *(s.ə.s)* məsələni açdı. Döyüşə hazırlaşmaları üçün müsəlmanlara hara gedəcəklərini söylədi. Rəsulullahla

---

415. Əqəbə beyəti Hz. Peyğəmbərin *(s.ə.s)* Mədinəyə hicrətindən əvvəl oraya hicrət etdikləri zaman özünü və digər müsəlmanları qoruyacaqlarına dair mədinəli müsəlmanlarla sözləşməsidir.

*(s.ə.s)* birlikdə döyüşə gedəcək müsəlmanların sayı həddən artıq çox idi. Adlarını dəftərə yazmaq mümkün deyildi.

Döyüşə getməmək üçün gözdən itən adam haqqında ayə nazil olmadıqca işin gizli qalacağı zənn edilə bilərdi. Rəsulullah *(s.ə.s)* bu qəzvəyə səfərbərliyi meyvələrin yetişdiyi, insanların kölgəlik axtardığı qızmar yay mövsümündə elan etmişdi. Mən də saydıqlarıma həddən artıq düşkün adam idim. Rəsulullah *(s.ə.s)* və əshabı döyüş hazırlıqlarına başladılar. Mən də onlarla birlikdə döyüşə hazırlaşmaq adı ilə çıxır, lakin heç nə etmədən geri qayıdırdım. Öz-özümə «nə vaxt olsa hazırlaşaram", – deyirdim. Beləliklə günlər gəlib keçdi. Hamı işinə ciddi yanaşdı və bir gün səhər erkəndən müsəlmanlar Rəsulullahla *(s.ə.s)* birlikdə yola çıxdılar. Mənsə hələ hazır deyildim. Yenə səhər evdən çıxdım, heç nə etmədən geri qayıtdım. Hər dəfə eyni şeyi edirdim. Hələ döyüş başlamamışdı, amma mücahidlər xeyli yol qət etmişdilər. Yola çıxıb onlara çatmaq istədim (kaş elə edəydim), amma bunu da edə bilmədim. Rəsulullah *(s.ə.s)* gedəndən sonra camaatın arasına çıxanda məni ən çox kədərləndirən məsələ döyüşə getməyib geridə qalanların münafiqlər, yaxud da acizlikləri səbəbi ilə orduya qatılmayanlar olduğunu görmək idi.

Rəsulullah *(s.ə.s)* Təbuka çatana qədər adımı heç çəkməmişdi. Təbukda əshabı ilə birlikdə oturduğu zaman:

*" – Kab ibn Malik nə etdi?"* – deyə soruşduqda Bəni-Səlimə qəbiləsindən bir nəfər:

– Ya Rəsulallah, libasına və sağına-soluna baxıb qürurlanması onu Mədinədə qalmağa vadar etdi, – cavabını vermişdi.

Bu zaman Muaz ibn Cəbəl ona:

– Çox pis söz söylədin, – demiş, sonra da Hz. Peyğəmbərə *(s.ə.s)* baxaraq: "Ya Rəsulallah, biz onun haqqında ancaq yaxşı şeylər bilirik", demişdi. Rəsulullah *(s.ə.s)* heç nə demədən susmuşdu. Bu əsnada çox uzaqdan ağ paltarlar geyinmiş bir nəfərin gəldiyini görüb:

*"– Bu Əbu Heysəmə olaydı"*, – demişdi. Yaxınlaşdığı zaman gələnin Əbu Heysəmə əl-Ənsari olduğunu görmüşdü.

Əbu Heysəmə (bir döyüşə səfərbərlik zamanı) bir ölçək xurma gətirdiyinə görə münafiqlər tərəfindən məsxərəyə qoyulan adamdır.

Kab sözlərinə belə davam etdi:

Rəsulullahın *(s.ə.s)* Təbukdan Mədinəyə hərəkət etdiyini öyrəndiyim zaman qüssə məni bürüdü. Deyəcəyim yalan barədə fikirləşməyə başladım. Öz-özümə «sabah onun qəzəbindən necə xilas olacağam", – dedim. Fikrinə dəyər verdiyim yaxınlarımdan məsləhət almağa çalışdım. Rəsulullahın *(s.ə.s)* gəlmək üzrə olduğunu dedikləri zaman beynimdəki pis fikirlər dağıldı. Onun əlindən heç cür xilas ola bilməyəcəyimi başa düşdüm. Hər şeyi olduğu kimi deməyə qərar verdim. Hz. Peyğəmbər *(s.ə.s)* səhər vaxtı Mədinəyə gəldi. Səfərdən qayıdanda əvvəlcə Məscidi-Nəbəviyə gedərək iki rükət namaz qılar, sonra camaatın arasına qatılaraq oturardı. Yenə elə etdi. Bu zaman orduya qatılmayanlar hüzuruna gələrək nə üçün döyüşə getmədiklərini and içərək deməyə başladılar. Onların sayı səksəndən çox idi. Hz. Peyğəmbər *(s.ə.s)* onların üzrxahlığını qəbul etdi, beyətlərini aldı. Allah-Təalaya dua edərək bağışlanmalarını dilədi və iç üzlərini Ona həvalə etdi. Sonda mən gəldim. Salam verdim, küskün-küskün gülümsədi, sonra:

*" – **Gəl!**"* – dedi. Mən də addımlayaraq yanına getdim və qarşısında oturdum. Məndən soruşdu:

*" – Nə üçün döyüşə getmədin? Minik heyvanı almamışdın?"*. Mən bu cavabı verdim:

– Ya Rəsulallah *(s.ə.s)*, Allaha and olsun ki, səndən başqa kimin yanında olsaydım, irəli sürəcəyim səbəblərlə onun qəzəbindən xilas olardım. Çünki fikrimi insanlara qəbul etdirməyi yaxşı bacarıram. Lakin yenə and içirəm ki, bu gün sənə yalan deyərək könlünü qazansam da, sabah Uca Allah işin əslini sənə bildirəcək və sən məndən inciyəcəksən. Əgər düzünü desəm, mənə hirslənəcəksən. Amma mən düzünü deyəcəyəm. Allahdan işin xeyirlə nəticələnəcəyini gözləyirəm. Vallahi, döyüşə

getməmək üçün heç bir üzrüm yox idi. Heç vaxt da bu döyüşdən geri qaldığım günlərdəki qədər güclü və varlı olmamışam.

Bu cavabdan sonra Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Bax, bu düzünü dedi. Haydı qalx, Allah-Təala sənin haqqında hökm verənə qədər gözlə!"* – buyurdu. Mən ayağa qalxanda Bəni-Səlimədən bəzi adamlar yanıma gəlib:

– Vallahi, sənin daha əvvəl bir günah işlədiyini bilmirik. Orduya qatılmayanlar kimi heç bir üzr irəli sürmədin. Halbuki günahlarının bağışlanması üçün Peyğəmbərin *(s.ə.s)* istiğfar etməsi kifayət idi, – dedilər.

Kab sözünə belə davam etdi:

Məni o qədər qınadılar ki, hətta Rəsulullahın *(s.ə.s)* yanına qayıdıb, bir az əvvəl dediklərimin yalan olduğunu söyləmək barəsində düşündüm. Sonra onlara:

– Mənə verilən cəza ilə cəzalandırılan başqa kimsə varmı? – deyə soruşdum.

– Bəli. Sənin kimi cəzalandırılan iki nəfər də var,- dedilər. Onlar da sənin dediyini dedilər və eyni cavabı aldılar.

– Həmin iki nəfər kimdir? – deyə soruşdum.

– Biri Mürarə bin Rəbi əl-Amri, digəri isə Hilal bin Ümeyyə əl-Vaqifi, – deyərək hər ikisi Bədir döyüşündə iştirak edən iki nümunəvi şəxsin adını çəkdilər. Bu zaman mən geri qayıtmaq fikrindən daşınaraq yoluma davam etdim.

Rəsulullah *(s.ə.s)* səfərbərliyə qatılmayanlardan yalnız üçümüzlə danışmağı qadağan etdi. Camaat bizimlə danışmadı və bizə qarşı rəftarları dəyişdi. Dünya mənə dar gəlməyə başladı. Sanki bura mənim yurdum deyildi. Bu minvalla əlli gün keçdi. İki dostum boynunu bükdü, ağlayaraq evdə oturdular. Mən isə onlardan daha gənc və dözümlü idim. Evdən çıxaraq camaatla namaza gedir, bazarda dolaşırdım. Lakin heç kim mənimlə danışmırdı. Namaz qılındıqdan sonra Rəsulullah *(s.ə.s)* yerində oturarkən yanına gedib salam verirdim. Öz-özümə "görəsən, salamımı alarkən dodaqları tərpəndimi, yoxsa yox?", – deyə

sual verirdim. Sonra ona yaxın yerdə namaz qılar və hiss etdirmədən Rəsulullaha *(s.ə.s)* baxardım. Namaza başladığım zaman mənə tərəf çevrilər, ona baxdığım zaman da üzünü çevirərdi.

Müsəlmanların mənə qarşı sərt rəftarı uzun müddət davam etdikdə, ən çox sevdiyim adam, – əmim oğlu Əbu Qatadənin bağçasına getdim və salam verdim. Vallahi, salamımı almadı. Ondan:

– Ey Əbu Qatadə, Allaha and verərək soruşuram. Allahı və Rəsulunu nə qədər sevdiyimi bilmirsənmi? – deyə soruşdum. Heç bir cavab vermədi. And verərək bir daha soruşdum. Yenə cavab vermədi. Bir daha and verəndə:

– Allah və Rəsulu daha yaxşı bilir, – dedi. Bu cavab qarşısında gözlərimdən yaşlar töküldü. Geri qayıtdım.

Bir gün Mədinə bazarında gəzirdim. Mədinəyə ərzaq malları satmaq üçün gələn şamlı bir kəndli:

– Kab bin Maliki mənə kim göstərər? – deyə soruşdu. Camaat məni göstərdi. Yanıma gələrək Qəssan məliyindən gətirdiyi məktubu mənə uzatdı. Oxuyub-yaza bildiyimə görə məktubu açıb oxudum. Salam verdikdən sonra belə deyirdi:

– Eşitdiyimizə görə ağan səni incidir. Allah səni qiymətinin bilinmədiyi və haqqının tapdandığı bir yerdə yaşamağın üçün yaratmamışdır. Dərhal yanımıza gəl, səni izzətləndirək.

Məktubu oxuduqda "bu da başqa bir bəla" dedim. Dərhal oda atıb yandırdım.

Nəhayət, əlli gündən qırxı keçmiş, amma hələ vəhy gəlməmişdi. Bir gün Rəsulullahın *(s.ə.s)* göndərdiyi bir nəfər gəldi və:

– Rəsulullah *(s.ə.s)* sənə yoldaşından ayrı qalmağı əmr edir, – dedi.

– Onu boşayım, yoxsa necə? – deyə sual verdim.

– Xeyr, ondan ayrı duracaq, yanına yaxınlaşmayacaqsan, – dedi. Hz. Peyğəmbər *(s.ə.s)* digər iki dostuma da eyni əmri göndərdi. Xanımıma:

– Allah-Təala bu məsələ haqqında hökm verənə qədər ailənin yanına get və onların yanında qal, – dedim.

Hilal bin Ümeyyənin yoldaşı Rəsulullahın *(s.ə.s)* yanına gedərək:

– Ya Rəsulallah, Hilal ibn Ümeyyə çox yaşlıdır. Ona baxacaq xidmətçi də yoxdur. Ona xidmət etməyimdə hər hansı bir qəbahət görürsünüzmü? – deyə soruşdu. Hz. Peyğəmbər də:

– *Xeyr, bir qəbahət görmürəm, amma qətiyyən sənə yaxınlaşmasın,* – buyurdu. Qadın da belə deyir:

– Vallahi, onun qımıldamağa taqəti yoxdur. Allaha and olsun ki, başına bu iş gələndən elə hey ağlayır.

Kab sözünə belə davam etdi:

– Yaxınlarımdan biri mənə: Rəsulullahdan *(s.ə.s)* yoldaşının sənə xidmət etməsi üçün izin alsan olmaz? Görürsənmi, Hilal bin Ümeyyəyə baxması üçün yoldaşına izin verdi,- dedi. Mən də cavabında: Xeyr, bu məsələdə Rəsulullahdan *(s.ə.s)* icazə istəyə bilmərəm. Üstəlik gəncəm, icazə istəsəm də Hz. Peyğəmbərin *(s.ə.s)* mənə nə deyəcəyini bilmirəm, – dedim.

Beləcə on gün də gözlədim. Bizimlə danışmağın qadağan edildiyi gündən tam **əlli gün** keçmişdi. Əllinci gecənin səhəri evlərimizdən birinin damında sübh namazını qıldım. Allah-Təalanın (Qurani-Kərimdə) bizdən bəhs etdiyi kimi ürəyim sıxılmış, yer üzü geniş olmasına baxmayaraq mənə dar gəlməyə başlamışdı. Bu vəziyyətdə oturarkən Sel dağının təpəsində bir nəfərin var gücü ilə:

"Kab ibn Malik, müjdə!" – deyərək qışqırdığını eşitdim. Məşəqqətdən qurtulma gününün gəldiyini anlayaraq dərhal səcdəyə qapandım.

Rəsulullah *(s.ə.s)* sübh namazını qıldırdıqdan sonra Allah-Təalanın tövbəmizi qəbul etdiyini elan etmişdi. Camaat da bizə xoş xəbəri verməyə tələsmişdi. Digər iki dostuma da müjdəçilər getmişdi. Biri də mənə tərəf at çapmışdı.

Əsləm qəbiləsindən başqa bir adam qaçaraq Sel dağına çıxmış, onun səsi atlıdan əvvəl mənə çatmışdı. Səsini eşitdiyim müjdəçi yanıma gəlib məni təbrik edəndə əynimdəki paltarı çıxardıb ona (muştuluq) verdim. Allaha and olsun ki, o gün əynimə geyinəcək başqa paltarım da yox idi. Əmanət bir paltar tapıb əynimə geyindim. Peyğəmbəri *(s.ə.s)* görmək üçün yola çıxdım. Qrup-qrup məni qarşılayan səhabələr tövbəmin qəbul edilməsi səbəbi ilə təbrik edir və «Allahın səni bağışlaması mübarək olsun", – deyirdilər.

Nəhayət, məscidə girdim. Rəsulullah *(s.ə.s)* əshabının ortasında oturmuşdu. Talha ibn Übeydullah dərhal ayağa qalxdı, qaçaraq yanıma gəldi, əlimi sıxıb məni təbrik etdi. Vallahi, ondan başqa mühacirlərdən heç kim ayağa qalxmadı.

Kab sözünə belə davam etdi:

Peyğəmbər *(s.ə.s)*ə salam verdiyim vaxt sevincdən üzü parıldayaraq:

– *"Dünyaya gəldiyindən bəri yaşadığın bu ən xeyirli günün mübarək olsun!"* – buyurdu. Mən də:

– Ya Rəsulallah, bu təbrik sənin tərəfindəndir, yoxsa Allah tərəfindən, – deyə soruşdum.

– *"Mənim tərəfimdən deyil, Uca Allah tərəfindəndir"*, – buyurdu. Peyğəmbər *(s.ə.s)* sevindiyi zaman üzü parıldayar, ay parçasına bənzəyərdi. Biz də bu halından sevindiyini başa düşərdik.

Hz. Peyğəmbərin *(s.ə.s)* qarşısında oturduğum zaman:

– Ya Rəsulallah, tövbəmin qəbul edilməsinə şükür olaraq bütün malımı Allah və Rəsulunun uğrunda kasıblara paylamaq istəyirəm, – dedim. Rəsulullah *(s.ə.s)*:

– *"Malının bir hissəsini paylamayıb əlində saxlamağın sənin üçün daha xeyirli olar"*, – buyurdu. Mən də:

– Xeybərin fəthində əlimə keçən malı saxlayıram,- dedikdən sonra sözümə belə davam etdim: "Ya Rəsulallah, düz danışdığıma görə Allah-Təala məni xilas etdi. Tövbəmin qəbul

edilməsi səbəbi ilə artıq yaşadığım müddət ərzində düz danışacağam".

Vallahi bunu Hz. Peyğəmbərə *(s.ə.s)* dediyim gündən bəri düz sözlü olduğum üçün Allah-Təalanın heç kimi məndən daha gözəl mükafatlandırdığını bilmirəm. And olsun ki, Peyğəmbərə *(s.ə.s)* o sözləri dediyim gündən bəri bilərək əsla yalan danışmamışam. Ömrümün qalan hissəsində də Allah-Təalanın məni yalan söyləməkdən qoruyacağını ümid edirəm.

Kab sözünün davamında belə dedi:

Bunun üzərinə Allah-Təala bu ayələri nazil etdi:

**"Allah** (müsəlmanlardan) **bir qisminin ürəyi** (şəkk-şübhəyə düşüb Peyğəmbərdən və cihaddan) dönmək üzrə ikən Peyğəmbərə, çətin saatda onun arxasında gedən mühacirlərə və ənsara tövbə nəsib etdi. Sonra da onların tövbələrini qəbul buyurdu (onları bağışladı)**. Çünki O, həqiqətən, onlara qarşı çox şəfqətli, çox rəhimlidir.**

**Həmçinin tövbələri** (Allahın əmri gələnə qədər) **geri qalan üç nəfərin də** (tövbələrini qəbul etdi)**. Belə ki, dünya onlara dar olmuş, ürəkləri** (qəm-qüssədən) təngə gəlib sıxılmışdı. Onlar Allahdan (Allahın əzabından) **yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir!**

**Ey iman gətirənlər! Allahdan qorxun və** (imanında, sözündə, işində) **doğru olanlarla olun!** (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!)**".** (Tövbə, 9/117-119)

Kab sözünə belə davam etdi:

Allaha and olsun ki, mən İslamla şərəfləndikdən sonra Allah-Təalanın mənə verdiyi ən böyük nemət Hz. Peyğəmbərin *(s.ə.s)* hüzurunda düz danışmaq və yalan deyərək həlak olmamaqdır. Çünki Allah-Təala həmin yalan söyləyənlər haqqında vəhy nazil etdiyi zaman heç kimə demədiyi ağır sözləri söylədi və belə buyurdu:

**“Yanlarına qayıtdığınız zaman onlardan vaz keçməniz** (onları məzəmmət etməməniz) üçün (yalandan) **Allaha and içəcəklər. Siz də onlardan vaz keçin!** (Qoyun qiyamət günü əzabı daha şiddətli olacaq küfr və nifaqlarında davam etsinlər!) Çünki onlar murdardırlar və qazandıqlarının (qazandıqları günahların) cəzası olaraq düşəcəkləri yer də Cəhənnəmdir! Onlardan razı olasınız deyə, qarşınızda (Allaha) **and içəcəklər. Siz onlardan razı olsanız da, Allah fasiq bir tayfadan razı olmaz!”** (Tövbə, 9/95-96)

Kab belə davam etdi:

Rəsulullah *(s.ə.s)* Allahın haqqımızda hökm verməsinə qədər bizə qarşı necə rəftar edəcəyini təxir etmişdi.

Nəhayət, Allah-Təala (dediyimiz kimi) hökmünü verdi. Allah-Təalanın “tövbələri geri qalan üç nəfərin” deyərək bəhs etdiyi bu geri qalmaq bizim döyüşdən geri qalmağımız deyildi. Bu, Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib and içərək üzrlü səbəbləri olduğunu deyənlərin üzrlərini Peyğəmbər *(s.ə.s)in* qəbul etməsi, bizə nə edəcəyini geriyə (sonraya) buraxması hadisəsidir.

İncikliyin təsir gücünü göstərən başqa bir rəvayət isə belədir: Ənəsdən (r.a) rəvayət olunduğuna görə Hz. Peyğəmbər *(s.ə.s)* digər evlərə nisbətən qübbəsi daha hündür olan bir ev görür. Bu nədir? deyə soruşur. Səhabələr bu “Ənsardan filankəsin evidir” deyə qarşılıq verirlər. Hz. Peyğəmbər *(s.ə.s)* bu hadisədən narahat olmasına baxmayaraq susur. Daha sonra həmin evin sahibi Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələrək ona salam verir. Hz. Peyğəmbər isə onun salamına cavab vermir. Və bu vəziyyət bir neçə dəfə təkrarlanır. Həmin şəxs Hz. Peyğəmbərin *(s.ə.s)* ondan incidiyini anlayır və bu vəziyyəti dostlarına bildirir. Onlar da: Hz. Peyğəmbər *(s.ə.s)* sənin evinin qübbəsini gördü və bu onun xoşuna gəlmədi deyirlər. Hz. Peyğəmbər *(s.ə.s)* bir neçə gün sonra həmin qübbəni yerində görmədikdə *“Qübbəyə nə oldu?”* deyə soruşur. Baş verənləri Hz. Peyğəmbərə *(s.ə.s)* bildirirlər. Buna qarşılıq Hz. Peyğəmbər

*(s.ə.s)*: *"Ehtiyacdan artıq olan hər ev üçün sahibi məsuliyyət daşıyır"* buyurmuşdur.[416]

Yuxarıdakı nümunələrdən də göründüyü kimi yerində göstərilən inciklik təbliğ fəaliyyətində faydalı ola bilər.

**8. Təhdid**

Hz. Peyğəmbər *(s.ə.s)* uyğun gördükdə təhdid metodundan istifadə edərdi. Hz. Peyğəmbər *(s.ə.s)* hicrətin 3-cü ilində Bədir savaşından sonra yəhudiləri Bəni Qaynuqa bazarında toplamış və onlara belə xitab etmişdir: *"Ey Yəhudilər! Qüreyşin başına gələn fəlakətin sizin də başınıza gəlməməsi üçün Allahdan qorxun və müsəlman olun. Siz mənim Allahın Rəsulu olduğunu bilirsiniz. Bu sizin kitabınızda var və siz onu oxuyursunuz"*. Yəhudilər Qureyşin döyüş taktikasını bilmədiyini iddia edərək Hz. Peyğəmbərin *(s.ə.s)* istəyini qəbul etmədilər.[417]

Hz. Peyğəmbər *(s.ə.s)* bir gün səhabələrinə: *"Qalxın yəhudilərin yanına gedək"* buyurdu və onların yanına getdi. Onlara belə xitab etdi: *"Ey Yəhudi topluluğu! Qurtuluşa çatmaq üçüm müsəlman olun!"*. Onlar: "Biz bunu bilirik və sən təbliğ vəzifəsini yerinə yetirdin" dedilər. Hz. Peyğəmbər də: *"Mən bunu etiraf etməyinizi istəyirəm"* deyərək istəyini üç dəfə təkrarladı. Yəhudilərin cavabı isə eyni oldu. Onlardan eyni cavabı eşidən Hz. Peyğəmbər *(s.ə.s)*: *"Xəbəriniz olsun ki, yer üzü Allahın və Onun Rəsulunundur. Sizi buradan sürgün etmək istəyirəm. Kimin əlində malı varsa sata bilər. Buna icazə verirəm. Və təkrar edirəm. Yer üzü Allah və Rəsulunundur"* buyurdu.[418]

Rəsulullah *(s.ə.s)* həmçinin Təbuk səfəri əsnasında həmin bölgədə olan qəbilə və dövlətlərə dəvət məktubları göndərmişdir.

*"Əgər göndərilən elçiləri lazımi cavab verilmədən geri göndərsəniz, mən bunu müharibə elan etmək sayaram. Uşaqlarınızı əsir alıb, böyüklərinizi məhv edərəm. Çünki mən həqiqətən Allahın Rəsuluyam. Allaha və Onun kitablarına, rəsullarına, Məryəm oğlu İsa Məsihin*

416. Əbu Davud, Ədəb, 160.
417. Əbu Davud, İmarət, 22; İbn Kəsir, *əl-Bidayə*, IV, 3-4.
418. Buxari, İkrah, 2, İtisam, 18; Müslim, Cihad, 61; Əbu Davud, İmarət, 22.

*Allahın kəlməsi və Onun elçisi olduğuna inanıram. Elə isə başınıza bir bəla və müsibət gəlmədən siz lazım olanları yerinə yetirin!"*[419]

Hər cür fitnə və zülmə qarşı İslam dövlətinin və bu dövlətə bağlı olan İslam təbliğçisinin lazım olduğu anda müdaxilə edərək gərəkli ultimatum verməsi və təhdid etməsi təbliğin əsas şərtlərindəndir.

### 9. İfşa, həbs və sürgün etmək

Pedaqoqlar pis söz və davranışların heç bir tərbiyəvi yönü olmadığı qənaətindədirlər. Həqiqətən təbliğ və tərbiyədə əsas olan yumşaqlıq, gözəl əxlaq, davranış və gözəl sözdür. Bəzən digərlərini onların zərərlərindən uzaqlaşdırmaq üçün qəlbi möhürlənmiş insanları və pis əxlaq sahiblərini bildirmək lazım gəlir.

Münafiqlər kafirlərdən daha təhlükəlidir. Onların zərərləri daha böyükdür. Bu baxımdan müsəlmanlar bu cür insanları tanımağa çalışmalıdır. Hz. Peyğəmbər *(s.ə.s)* **"Ya Peyğəmbər! Kafirlərə qarşı** (qılıncla)**, münafiqlərə qarşı (sözlə) vuruş. Onlarla sərt rəftar et"** (Təhrim, 66/9) əmri gəldiyi zaman məscidində olan münafiqlərin adlarını çəkərək *"Sən çıx, sən çıx"* deyərək onları çölə çıxarmışdır. Daha sonra Hz. Peyğəmbər *(s.ə.s)* onların məruz qalacağı acı aqibəti bildirmiş və **"Onların məskəni Cəhənnəmdir. Ora necə də pis sığınacaqdır!"** (Təhrim, 66/9) buyurulduğuna diqqət çəkmişdir.[420]

Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə xüsusi həbsxanalar olmamışdır. Lakin bəzi günahkarlar xüsusi yerlərdə həbsə atılırdı. Hz. Peyğəmbər *(s.ə.s)* tərəfindən borclarını verməyənlər, hərbi əsirlər, qatillər və cinayətdə şübhəli bilinənlərin məsciddə, dəhliz və quyularda, davamlı olaraq bu iş üçün təsis edilməmiş evlərdə həbsdə saxlandıqları qaynaqlarda mövcuddur.[421]

İslam Dövlətinin başçısı cəmiyyət, təbliğ üçün zərərli gördüyü şəxsləri istədiyi yerə sürgünə göndərmək səlahiyyətinə

---

419. M. Həmidullah, *əl-Vəsaiq*, No. 30.
420. Mərağİ, Təfsir, XXVIII, 166; Qasimi, Təfsir, V, 1359.
421. Atar, İslami Ədliyyə Təşkilatı, s, 217-218.

sahibdir. Hz. Peyğəmbər *(s.ə.s)* özünün bəzi hərəkətlərini ələ salaraq təqlid edən Hakəm ibn Əbil-Ası Taifə sürgün etmişdir.[422]

Əlbəttə bu cəzanın tətbiq edilməsində əsas olan İslam camaatını qorumaqdır.

**10. Cəzalandırmaq**

Nəzakət, kibarlıq, zəriflik və yumşaq xasiyyətli olmaq əxlaq normalarının təzahürüdür. Buna baxmayaraq bəzi vəziyyətlərdə sərtlik gərəkli olur. Uca Allah Hz. Peyğəmbərə *(s.ə.s)*: **"Ya Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş!** (Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!) **Onlarla sərt davran! Onların məskəni Cəhənnəmdir. Ora nə pis yerdir!"** (Tövbə, 9/73) **"Ya Peyğəmbər! Kafirlərə qarşı** (qılıncla)**, münafiqlərə qarşı** (sözlə) **vuruş. Onlarla sərt rəftar et. Onların məskəni Cəhənnəmdir. Ora necə də pis sığınacaqdır!"** (Təhrim, 66/9) buyurmuşdur.

Sərt davranışda da əsas olan eyni ilə qarşılıq verməkdir. Uca Allah Qurani-Kərimdə belə buyurur: **"Hər hansı bir pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə hər kəs** (pislik edəni) **bağışlasa və** (onunla) **barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz!"** (Şura, 42/40)

Zalım olanlar cəzalandırılmadığı təqdirdə məzlum tərəfin intiqam hissləri qabaracaq və heç də xoş olmayan nəticələr ortaya çıxacaq. Məzlumlar özləri intiqamlarını almağa çalışacaqlar və bu özlüyündə cəmiyyətdə xaos və özbaşınalığın yaranmasına səbəb olacaq. Bir çox qan davalarının təməlində yatan bu intiqam hissidir. Misli ilə cəza vermək bu kimi problemlərin həlli olduğu üçün Uca Allah Qurani-Kərimdə: **"Ey ağıl sahibləri, bu qisas** (qisas hökmü) **sizin üçün həyat deməkdir. Ola bilsin ki,** (bununla) **pis əməldən** (qətldən) **çəkinəsiniz"** (Bəqərə, 2/179) buyurmuşdur.[423] Cəzalandırarkən də həddi aşmaq azğınlıqdır.[424] Misli ilə cəzalandırmaq ədalətin təcəllisi olaraq görülməlidir.[425]

422. Kəttani, Təratib, I, 301.
423. İbrahim Canan, Sünnədə Tərbiyə, s, 328-329.
424. Bəqərə, 2/178.
425. Əbu Zəhra, İslamda Bəşəri Münasibətlər, s, 66-71.

İslam hüququnda xalqın islah edilməsi üçün zina, oğurluq, içki içmək və zina iftirası kimi günahları işləyənlər şəriətin təyin etdiyi hədd cəzası ilə cəzalandırılır. İlahi əmrlər müxtəlifdir. Bunlardan bəzi insanın şəxsinə, bəzisi də insanlarla münasibətinə aiddir. Hz. Peyğəmbər *(s.ə.s)* bu fərqli dərəcələrdəki ölçülərin hamısına layiqincə əməl etmişdir. İlahi ölçülərin şəxsi həyatla əlaqəli sahəsində həssas olmaqla yanaşı, ictimai həyata aid məsələlərdə bu həssaslığı daha artıq qorumuşdur. Allah Rəsulunun *(s.ə.s)* həyatında bu mövzuda çoxlu nümunələrə rast gəlmək mümkündür.

Rəsulullah *(s.ə.s)* ilahi əmrlərə əməl etmədəki həssaslığı, xüsusilə qul haqqına aid həddlərin tətbiqində görülməkdədir. Hz. Peyğəmbər *(s.ə.s)* Allah-Təalanın **"Zinakar kişiyə və zinakar qadına yüz çubuq vurun. Allaha və axirət gününə inanırsınızsa, Allahın dini barəsində** (bu işin icrasında) **ürəyiniz onlara yumşalmasın və möminlərdən bir dəstə də onların əzabına şahid olsun.** (Bu, subay kişiyə və ərsiz qadına aiddir. Evli kişi və qadın zina etdikdə isə onların cəzası daşqalaq edilməkdir)**"** (Nur, 24/2) əmrini diqqətə alıb belə buyurmuşdu:

*"Siz Allahın hədd cəzalarını, (qohumluq və başqa hallarda) sizə yaxın olana da uzaq olana da tətbiq edin. Allahın hökmünü tətbiq etməyə sizə heç bir qınayanın qınağı mane olmasın".*[426]

Hz. Peyğəmbərin *(s.ə.s)* Allahın əmr etdiyi bir məsələdə əsla yavaş və ya əksinə hərəkət etməzdi.

Bəni Məhzum qəbiləsindən bir qadın oğurluq etmişdi. Bu barədə Hz. Peyğəmbərlə *(s.ə.s)* kim danışa bilər deyə müzakirə edirdilər. Bəziləri, "Buna Hz. Peyğəmbərin *(s.ə.s)* çox sevdiyi Üsamə ibn Zeyddən başqası cürət etməz", – dedilər. Üsamə (r.a) bu hadisəni onların istəyilə Rəsulullahla *(s.ə.s)* danışdı. Hz. Peyğəmbər *(s.ə.s)* ondan:

– *Allah qoyduğu cəzalardan birinin icra edilməməsinə görə vasitəçilik edirsən?* – deyə soruşdu, sonra isə ayağa qalxıb xalqa xitab etdi. *"Sizdən əvvəlki millətlər buna görə yox olub getdilər. Aralarından soylu, adlı-sanlı, vəzifəsi olan biri oğurluq edəndə ona heç nə*

426. İbn Macə, Hüdud, 3.

*etməz, zəif və kimsəsiz biri oğurluq edəndə onu dərhal cəzalandırardılar. Allaha and olsun ki, Muhammədin qızı Fatimə oğurluq eləsəydi, əlbəttə, onun da əlini kəsərdim".*[427]

Allah-Təala haqsız yerə insan öldürməyi qadağan etmiş və bunu bütün insanları öldürmək qədər böyük günah saymışdır.[428] Hz. Peyğəmbər *(s.ə.s)* də bu barədə çox həssas və tələbkar idi. Bunun nəzərə çarpan nümunələrindən biri bu hadisədir:

Mikdad ibn Əsvəd (r.a) nəql edir:

Rəsulullaha *(s.ə.s)* dedim ki;

– Kafirlərdən biriylə qarşılaşsam və onunla vuruşsam, o mənim əllərimdən birini qılıncla vurub kəssə, sonra canını məndən qurtarmaq üçün bir ağacın dalına gizlənib "Mən Allah rizası üçün müsəlman oldum" – desə, bu sözdən sonra onu öldürə bilərəm?

Rəsuli-Əkrəm *(s.ə.s)* buyurdu:

– *Onu əsla öldürmə!*

Mən dedim:

– Ey Allahın Rəsulu! O şəxs mənim iki əlimdən birini kəsdi, sonra məndən qorxduğu üçün belə dedi:

Rəsulullah *(s.ə.s)* buyurdu:

– *Qətiyyən öldürmə, əgər onu öldürsən, o sənin onu öldürmədən əvvəlki vəziyyətində olar, sən isə onun o sözü demədən əvvəlki vəziyyətinə düşərsən,* – buyurdu.

Bir başqa hadisə də Üsamə ibn Zeydin (r.a) özü ilə bağlı nəql etdiyi bu rəvayətdir:

Rəsulullah *(s.ə.s)* bizi Cuheynə qəbiləsinin Hüraqa qolu üzərinə səfərə göndərmişdi. Səhər onlara hücum etdik. Mən və ənsardan bir nəfər ondardan birinin üzərinə getdik. O anda adam "lə iləhə illəllah" dedi. Buna görə ənsardan olan yoldaşım ona hücum etmək fikrindən daşındı, mən isə mızrağımla

427. Buxari, Ənbiya, 54 ; Müslim, Hüdud, 8-9.
428. Maidə, 5/32.

həmin şəxsi öldürdüm. Biz Mədinəyə gəldikdə, bu hadisə Hz. Peyğəmbərin *(s.ə.s)* qulağına çatdı.

O belə buyurdu:

– *Ey Üsamə! Həmin adam "Lə iləhə illallah" dedikdən sonra öldürdün?*

– Ya Rəsulallah! O bu sözü ancaq canını xilas etmək üçün dedi. O isə:

– *"Lə iləhə illallah" dedikdən sonra adamı öldürdün"* – sözünü təkrar etdi.

Digər bir rəvayətdə:

– *Ürəyini yarıb baxdın ki, o niyyətlə deyib-demədiyini biləsən?* – deyə təkrar-təkrar soruşdu. Bu sözü o qədər çox təkrarladı ki, mən, kaş daha əvvəl yox, indi müsəlman olaydım, – dedim.[429]

**"Ey iman gətirənlər! Allah yolunda** (cihad etmək üçün) **səfərə çıxdığınız zaman diqqətli olun! Sizə müsəlman olduğunu bildirən** (salam verən) **bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahsılanaraq: "Sən mömin deyilsən!" deməyin! Halbuki çox qənimətlər Allah yanındadır. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə mərhəmət etdi. Elə isə, siz də** (insanları bir-birindən fərqləndirməkdə) **diqqətli olun! Şübhəsiz ki, Allah bütün etdiklərinizdən xəbərdardır!"** (Nisa, 4/94) ayəsi bu hadisədən sonra nazil olmuşdur.

Hz. Peyğəmbər *(s.ə.s)* Allah-Təalanın açıq əmri olan mövzularda əmrə qeyd-şərtsiz təslim olmaq, şəxsi təmayüllərlə hərəkət etməmək lazım gəldiyini bu hadisələrdəki örnək davranışlarıyla bizə göstərmişdir.

### 11. Kəffarə

Müsəlmanların dünya və axirətlə əlaqəli tabe olması gərəkən müəyyən əmr və qadağalar vardır. Şəxsi və ümumi olaraq bütün müsəlmanların yararına olan bu əmr və qadağalara əməl etməyənlər günah işləmiş olur və şəriətin təyin etdiyi

429. Buxari, Diyət, 2; Müslim, İman, 158-159.

cəzalarla cəzalandırılırlar. Cəzalar yönündən günahlar üç yerə bölünür:

1. Kəffarənin olmayıb hədd cəzasının gərəkdiyi günahlar. Zina, oğurluq, içki içmək, zina iftirası atmaq kimi,

2. Kəffarənin olduğu hədd cəzasının olmadığı günahlar. Ehramlı ikən və ya Ramazan ayında oruclu ikən cinsi münasibət kimi,

3. Həm kəffarənin, həm də hədd cəzasının olmadığı günahlar. Əl kəsməyi gərəkdirməyəcək oğurluq və naməhrəmə baxmaq kimi.[430]

Təbliğçi kəffarənin gərəkli olduğu günahları bilməli və bu günahların hansılar olduğunu insanlara bildirməlidir. Həmçinin İslamın hökmlərini tətbiq edən quruma bu xüsusda yardımçı olmalıdır.

**12. Bəddua**

Biz müsəlmanlar olaraq, zərərkeşlərin bəşəriyyətə verdiyi zərərə görə onların həlak olmalarına yox, islah olmalarına çalışmalıyıq. İlk növbədə belələrinə Haqqı təbliğ etməli, onlara təlim-tərbiyə verməliyik.

Allah istərsə yer üzündəki zalımları və onların törətdiyi pislikləri bir anda yox edər. O zaman da imtahan bitər və dünyada da heç kim qalmaz. Bir də hər kəs bunu bilməlidir ki, Allah heç kimin əmrində deyildir. Münasib görəni bu dünyada, münasib görməyəni isə axirətdə cəzalandırar. Qurani-Kərimin ifadəsilə: **"Əgər Allah insanları etdikləri günahlara görə** (dərhal) **cəzalandırsaydı, yer üzündə bir canlını belə sağ buraxmazdı. Lakin Allah onlara müəyyən vaxtadək möhlət verir. Vaxtları çatanda isə** (hər kəsə öz **əməlinə görə cəza, yaxud mükafat verəcəkdir). Şübhəsiz ki, Allah Öz qullarını görür".** (Fatir, 35/45)

Heç kəsə bəddua etmək tövsiyə olunmur. Lakin bunun bəzi istisnaları var. İnsan emosiyalarına qapılıb, şərdən xilas olmaq

430. İbn Qayyim, ət-Turuqul-Hukmiyyə, s, 105-106.

üçün Allahdan kömək istəyərək bəddua edir. Burada əvvəlcə bəddua edənin özü haqlı olmalıdır, yoxsa bəddua özünə qayıda bilər.

Hz. Peyğəmbər *(s.ə.s)* bəzi hallarda bəddua etmişdir. Buna misal olaraq Rəci və Biri-Maunə hadisələrini göstərə bilərik.

Allah Rəsulu *(s.ə.s)* bu hadisələrdən çox kədərləndi. *"Ey Allahım! Allaha və Rəsuluna üsyan etmiş olan Ril, Zəkvan və Usayyə (qəbilələrinə) lənət et!"*, – deyə bir ay ərzində sabah namazından sonra onlara bu şəkildə dua etdi.[431]

Sələmə ibn Əqva (r.a) belə nəql edir: "Bir nəfər Hz. Peyğəmbərin *(s.ə.s)* yanında sol əliylə yemək yeyirdi. Hz. Peyğəmbər *(s.ə.s)* ona:

– "*Sağ əlinlə ye!*" – buyurdu. Həmin adam:

– "Yeyə bilmərəm, deyə cavab verdi. Allah Rəsulu *(s.ə.s)* həmin adama:

– "*Heç yeyə bilməyəsən!*" – dedi.

Sələmənin bildirdiyinə görə, həmin adam təkəbbürünə görə belə demişdi. Rəsulullahın *(s.ə.s)* bədduasını aldıqdan sonra, həqiqətən də əlini ağzına apara bilmədi.[432]

Rəci və Biri-Maunə hadisələri təbliğ və maarifləndirmə vəzifəsinin möminlər üçün nə qədər önəmli və həyati bir məsələ olduğunu göstərməkdədir. Rəsulullah *(s.ə.s)* əshabının ən seçilmişlərini, bütün mümkün təhlükələri nəzərə alaraq İslam təbliğçisi və müəllimi olaraq göndərmişdir. Uca Allah bu önəmli vəzifə uğrunda şəhid olan mücahidlərdən razı olduğunu və onların da Rəblərindən razı olduqlarını bəyan etmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurur:

*"Özünüzə bəddua etməyin, övladlarınıza bəddua etməyin, mallarınıza bəddua etməyin. (Məhz bu hal) arzuların qəbul edildiyi zamanla üst-üstə düşər və Allah bədduanızı qəbul edər"*.[433]

---

431. Buxari, Cihad, 9, 19, Məğazi, 28; Müslim, Məsəcid, 297.
432. Müslim, Əşribə, 107.
433. Müslim, Zöhd, 74.

Hətta Hz. Peyğəmbər *(s.ə.s)* mərhəmətinin təzahürü olaraq qulluqçulara bəddua etməyi qadağan etmişdir.

*"Arzularınızın qəbul edildiyi vaxtla üs-üstə düşdüyündən Allah bədduanızı da qəbul edər"* – demişdir.[434]

**13. Möcüzələr**

Möcüzə Allah-Təalanın izni ilə peyğəmbərlərin göstərdiyi və digər insanların bunun bənzərini etməkdə aciz qaldığı qeyri-adi hadisələrdir. Quran-Kərim peyğəmbərlərin təbliğlərini qəbul etdirə bilmək üçün bir sıra möcüzələr göstərmək məcburiyyətində qaldıqlarını bildirir.

Onu da qeyd etmək lazımdır ki, möcüzələr nübüvvətin zəruri bir dəlili deyil, yalnız həmsöhbətə ani təsir edərək peyğəmbərin doğruluğunu göstərən bir əlamətdir. Nübüvvətin əsas qayəsi fəzilət və gözəl əxlaqı öyrətməkdir. Kafirlərin maddi möcüzələr göstərmək tələbinə qarşı Allah-Təala möcüzə olaraq Quranın kifayət etdiyini bu şəkildə ifadə etmişdir:

**"**(Müşriklər) Bəs nə üçün Rəbbindən ona (başqa peyğəmbərlər kimi) möcüzə nazil olmadı? dedilər. (Ya Rəsulum!) **De: Möcüzələr ancaq Allahın əlindədir. Mən isə sadəcə olaraq** (insanları Allahın əzabı ilə) açıq-aşkar qorxudan bir peyğəmbərəm! Məgər (müşriklərə) **oxunmaqda olan Kitabı sənə nazil etməyimiz onlara kifayət etmədimi? Həqiqətən, bunda iman gətirən bir tayfa üçün həm mərhəmət, həm də öyüd-nəsihət** (ibrət) **vardır!".** (Ənkəbut, 29/50-51)

Kafirlərin möcüzə tələbi səmimi və həqiqəti qəbul etmək niyyəti ilə deyildi. Onlar yalnız inadkarlıq, inkar etmək və məsxərəyə qoymaq niyyətilə möcüzə istəyirdilər. Bu isə möcüzənin baş verməsi zamanı inanmayanların həlakına səbəb ola bilərdi. Qövmünün belə bir günah ucbatından həlak olmasını istəməyən Hz. Peyğəmbər *(s.ə.s)* onların möcüzə göstərmək tələbinə qəti etiraz edirdi. Aşağıdakı bu hadisə onun canlı nümunələrindən birini təşkil edir:

---

434. Əbu Davud, Vitr, 27.

Qüreyş müşrikləri bir gün Hz. Peyğəmbərdən *(s.ə.s)* bir möcüzə göstərməyini tələb etdilər. Hz. Peyğəmbər *(s.ə.s)* onlara:

*" – Sizə necə bir möcüzə göstərməyimi istəyirsiniz?"* – deyə soruşduqda müşriklər:

– Səfa təpəsini bizim üçün qızıl et! – dedilər.

Allah Rəsulu *(s.ə.s)*:

*" – Bunu etsəm məni qəbul edərsiniz?"* – deyə soruşdu.

Onlar:

– Bəli, əgər dediklərin doğrudursa və bizim iman gətirməyimiz səni sevindirəcəksə Səfa təpəsini qızıla çevir, biz sənə iman gətirək, – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Dediyinizi edəcəksiniz?"* – deyə təkrar soruşduqda müşriklər:

– Bəli, edəcəyik, deyib and içdilər.

Bundan sonra Rəsulullah *(s.ə.s)* Uca Allaha dua etdi. Cəbrail (ə.s) gəlib:

*"Ya Muhammməd! Uca Rəbbin sənə salam göndərir və; "İstəyirsənsə Səfa təpəsini onlar üçün qızıl edim. Lakin bundan sonra hər kim küfr edərsə, o zaman heç kimə etmədiyim bir şəkildə onlara əzab verəcəm! İstəyirsənsə onların istəyini yerinə yetirməyim və onlara tövbə və rəhmət qapısını açıq tutum?"* – buyurur. Bu xəbərdarlığı eşitdikdən sonra Hz. Peyğəmbər:

*" – Xeyr! Səfa təpəsini qızıla çevirib onları əzaba uğratma ya Rəbb! Əksinə olaraq onlara tövbə və rəhmət qapısını aç. Tövbə edənə qədər onlara möhlət ver!"* – deyərək dua etdi, müşriklər də qorxaraq bu tələblərindən əl çəkdilər. Məhz:

**"Bizə möcüzələr göndərməyə mane olan şey ancaq əvvəlkilərin** (keçmiş ümmətlərin) **onları yalan hesab etmələridir. Biz Səmud tayfasına açıq-aşkar bir möcüzə olaraq dişi** (maya) **bir dəvə verdik, lakin onlar ona zülm etdilər** (dəvəni

tutub kəsdilər) **Biz möcüzələri yalnız** (bəndələrimizi) **qorxutmaq üçün göndəririk"** (İsra, 17/59) mənasına gələn ayə bundan sonra nazil oldu.[435]

Bununla yanaşı Rəsulullahın *(s.ə.s)* müəyyən vaxtlarda möcüzə göstərdiyi və bunun nəticəsində bir çox insanın müsəlman olduğu da məlumdur.

Hz. Peyğəmbərin *(s.ə.s)* İslamı təbliğ etdiyi ilk illərdə bir bədəvi onun yanına gələrək:

– Sənin Allahın Rəsulu olmağının dəlili nədir? – dedi. Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Xurma ağacındakı o salxımı çağırım, o mənim Allahın elçisi olduğuma şəhadət gətirəcək",* – dedi və onu çağırdı. Salxım ağacdan qopub Rəsulullahın *(s.ə.s)* yanına düşdü:

– Salam sənin üzərinə olsun, ey Allahın Rəsulu, – dedi.

Sonra Hz. Peyğəmbər ona:

*" – Öz yerinə qayıt!"* – deyə əmr etdikdə salxım qayıtdı və qopduğu yerə bitişdi.

Bədəvi bu mənzərə qaşısında dərhal müsəlman oldu.[436]

Həm hidayət, həm də imanın kamilləşməsini təmin edən digər möcüzələrdən bəziləri belədir:

Müşriklərdən bir nəfər Allah Rəsulunun *(s.ə.s)* yanına gələrək:

–Yalnız mənim ölən qızımı diriltdiyin təqdirdə müsəlman olaram, dedi.

Qızın məzarının üstünə getdilər və Hz. Peyğəmbərin *(s.ə.s)* xitab etməsindən sonra qız məzardan çıxıb:

– Buyur, gəldim, ya Rəsulallah! – dedi.

Allah Rəsulu *(s.ə.s)*:

---

435. Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 242; Təbəri, *Təfsir*, XV, 108. Möcüzə göstərməyi ən çox kafirlər istəmiş, müsəlmanlar belə nəzakətsizlikdən uzaq olmuşlar. Çünki onların qəlblərinin sükunət tapması üçün Hz. Peyğəmbəri *(s.ə.s)* görmələri kifayət edirdi.
436. Tirmizi, Mənəqib, 6.

*" – Yer üzündə qalıb ata-ananla birlikdə yaşamaq istəyərsən?"* – buyurdu.

Bu suala qarşılıq olaraq qız:

– Xeyr, çünki o biri tərəfdə ata-anamdan daha üstün bir çox şeylə qarşılaşdım – deyərək təkrar məzarına qayıdıb gözdən itdi.

Hz. Peyğəmbərin *(s.ə.s)* həyatında bu cür ən azı iki möcüzənin cərəyan etdiyi bildirilir.[437]

Yenə rəvayətə görə Hz. Peyğəmbərin *(s.ə.s)* əmisi Abbas, Bədir əsirləri arasında Mədinəyə gətirildikdə Hz. Peyğəmbər *(s.ə.s)* ona:

*" – Ey Abbas! Özün, qardaşının oğlu Aqil, Novfəl ibn Haris və şərikin Utbə ibn Amr üçün fidyə ödə. Sən sərvət sahibi bir insansan"* – buyurdu.

Abbas:

" – Ya Rəsulallah! Mən, müsəlman idim, Qüreyş məcbur edərək məni yola çıxardı" –dedi.

Rəsulullah *(s.ə.s)*:

*" – Sənin müsəlmanlığını Allah bilir. Dediyin doğrudursa Allah əlbəttə əcrini verər. Lakin sən bizim əleyhimizə olan bir insan kimi görünürdün. Bir sözlə fidyəni ödəməyin lazımdır"* – buyurdu və onun yanında olan 800 dirhəm qızılı da müharibə qəniməti kimi aldı.

Abbas:

– Ya Rəsulallah, demək ki, ömrümün qalan hissəsini məni dilənməyə məcbur edəcəksən – dedi.

Bundan sonra Allah Rəsulu *(s.ə.s)*:

*" – Ey Abbas! Xanımın Ümmül-Fadla verdiyin o qızıllar nə olacaq?"* – deyə soruşduqda Abbas:

– Hansı qızıllar? – dedi.

Hz. Peyəmbər *(s.ə.s)*:

---

437. Həmidullah, *İ. Peyğəmbəri*, I, 125-126.

*"Hansı ki, sən Məkkədən yola çıxacağın gün, yanınızda Allahdan başqa bir kimsə olmadığı anda arvadın* Ümmül-*Fadla; "Bu səfərimdə başıma nə gələcəyini bilmirəm. Əgər başıma bir müsibət gəlsə bu qədəri sənin, bu qədəri Übeydullahın, bu qədəri Fadlın, bu qədəri Kusəmin və bu qədəri də Abdullahındır!"*, – dediyin qızıllar!" – buyurdu.

Bu sözlərdən sonra heyrətlə çaşıb qalan Abbas:

" – Ya Rəsulallah heç olmasa bunları fidyə yerinə say, – dedi.

Rəsulullah *(s.ə.s)*:

*"Xeyr, bunlar Allahın səndən bizə nəsib etdiyi qənimətdir"* – buyurdu.

" – Bunu sənə kim xəbər verdi"– deyə soruşduqda Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Allah xəbər verdi"* – buyurdu.

Bundan sonra Abbas:

– Səni peyğəmbər olaraq göndərən Allaha and içirəm ki, bunu məndən və Ümmü Fəzldən başqa heç kim bilmirdi. Şübhəsiz sən Allahın Rəsulusan, dedi.[438]

Allah Rəsulunun *(s.ə.s)* göstərdiyi bu möcüzə Hz. Abbasa dərindən təsir etmiş və İslamla şərəflənməsinə səbəb olmuşdur.

Rəsulullahın *(s.ə.s)* möcüzəsi ilə baş verən digər bir hidayət hadisəsi də bu şəkildə gerçəkləşmişdir:

Hz Ömərin nəql etdiyinə görə Süleym oğullarından bir nəfər böyük bir kərtənkələ tutub Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəldi:

– Lat və Uzzaya and içirəm ki, bu kərtənkələ iman gətirmədikcə mən də sənə iman gətirməyəcəm, – dedi.

Bundan sonra Allah Rəsulu *(s.ə.s)*:

---

438. Buxari, Cihad, 172; Əhməd ibn Hənbəl, Müsnəd, I, 353; İbn Sad, *ət-Təbəqatul-Kubra*, IV, 13-15.

*" – Ey kərtənkələ, kimə qulluq (itaət) edirsən?"* deyə soruşdu.

Kərtənkələ ərəbcə:

– Buyur ya Rəsulallah, əmrinə hazıram. Mən Allaha ibadət edirəm, – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – O halda mən kiməm?"* – dedikdə kərtənkələ:

– Sən aləmlərin Rəbbi olan Allahın Rəsulu, peyğəmbərlərin sonuncususan. Səni təsdiq edən qurtular, səni təkzib edən məhv olar, – deyə cavab verdi.

Bundan sonra həmin şəxs böyük bir eşq və həyəcanla:

– Şəhadət gətirirəm ki, Allahdan başqa heç bir ilah yoxdur. Sən Allahın haqq peyğəmbərisən. Allaha and olsun ki, bura gəldiyimdə yer üzündə ən nifrət etdiyim şəxs sən idin. Lakin indi səni özümdən və uşaqlarımdan daha çox sevirəm. Daxilən və zahirən bütün varlığımla sənə inandım, – dedi.

Sonra qayıdıb gördüyü möcüzəni qövmündən min nəfərə danışdı və hamısı da gəlib müsəlman oldu.[439]

Hz. Peyğəmbər *(s.ə.s)* insanların iman gətirməsi üçün möcüzə göstərməklə yanaşı maddi və mənəvi cəhətdən çətin vəziyyətə düşmüş əshabı üçün də möcüzələr göstərərək onların imanlarını qüvvətləndirmişdir.

Hz. Cabir (r.a) belə nəql edir:

Hüdeybiyyə günü xalq susadı və Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəldilər. Rəsulullahın *(s.ə.s)* qarşısında dəridən düzəldilmiş bir su qabı var idi və onunla dəstəmaz aldı. Camaat ona tərəf irəlilədi. Bunu görən Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Nə dərdiniz var?"* – deyə soruşdu.

– Yanımızda dəstəmaz almağa və içməyə suyumuz qalmadı, – dedilər.

Allah Rəsulu *(s.ə.s)* dərhal əllərini qabın içinə qoydu və həmin anda barmaqlarının arasından su fışqırmağa başladı.

439. Heysəmi, *Məcməuz-Zəvaid*, VIII, 293.

Eynilə bulağın qaynaması kimi idi. Hamımız o sudan içdik və dəstəmaz aldıq.

Hz. Cabirə (r.a):

– Həmin gün neçə nəfər idiniz, – dedilər.

– Əgər yüz min nəfər də olsaq su kifayət edəcəkdi, lakin biz min beş yüz nəfər idik, cavabını verdi.[440]

Hz. Peyğəmbərin *(s.ə.s)* buna bənzər bir möcüzəsini də Əbu Hüreyrə belə nəql edir:

Biz Rəsulullahla *(s.ə.s)* birlikdə bir səfərdə idik. Yolda olarkən hamının azuqəsi tükəndi. Miniklərindən bəzilərini kəsmək istədilər.

Hz. Ömər:

" – Ey Allahın Rəsulu! Mən camaatın yerdə qalan azuqələrini toplasam və sən də onların üzərinə bərəkətlənməsi üçün dua etsən daha yaxşı olmaz?" – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* də onun dediyi kimi etdi. Buğdası olan buğdasını, xurması olan xurmasını, (xurma) çəyirdəyi olan da çəyirdəyini gətirdi.

– Çəyirdəyi nə edirdilər?  deyə soruşduqda Əbu Hüreyrə:

– Camaat onu sorurdu və üstündən də su içirdi.

Rəsulullah *(s.ə.s)* dua etdi. Azuqələr o qədər bərəkətləndi ki, hər kəs azuqə qabını doldurdu. Hz. Peyğəmbər *(s.ə.s)* bu ilahi lütf qarşısında:

" – Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur və mən Onun Rəsuluyam. Bu iki məsələdə şübhəyə düşmədən Allaha qovuşan şəxs cənnətə gedəcəkdir" – buyurdu.[441]

Göründüyü kimi Rəsulullah *(s.ə.s)* təbliğdə qarşısındakı insanların könlünü və ruhunu mənən təsir altında qoyaraq İslamı qəbul etmələrini təmin emək məqsədilə möcüzələr göstərmişdir. Rəsulullahın *(s.ə.s)* göstərdiyi möcüzələrin sayı çoxdur.

440. Buxari, Mənəqib, 25.
441. Müslim, İman, 44.

Biz yalnız örnək ola bilmək baxımından onlardan bir neçəsinə toxunduq. Amma Hz. Peyğəmbər *(s.ə.s)* bu cür möcüzələri, öz bacarığı (istedadı) ilə deyil, yalnız Uca Allahın icazəsi və yardımı ilə həyata keçirmişdir.

**B. Təbliğçi nöqteyi-nəzərindən**

Təbliğdə nələrin söyləndiyi qədər bunların necə söylənməsi də vacibdir. Təbliğat aparanın vəzifəsi sadəcə Quran ayələrini bir-birinin ardınca oxumaq, iman məsələlərini anlatmaq və qarşısındakına "iman gətir" deməkdən ibarət deyil. Bütün bunlarla yanaşı qarşı tərəfin ən çox hansı üslubdan, hansı izahetmə tərzindən təsirlənəcəyini müəyyənləşdirməli, ünsiyyət zamanı həmişə onun reaksiyasını diqqətlə izləyərək anlayıb-anlamadığını nəzarətdə saxlamalı, əgər bir əskiklik varsa, buna uyğun bir metod təşkil etməlidir.

Şübhəsiz ki, təbliğin nəticə verməməsi, qarşı tərəfin inkarda israr etməsi də mümkündür. Belə olan halda təbliğin hansı nöqtəyə qədər gedəcəyi, harada kəsiləcəyi və sonda nə etmək lazım gəldiyi də mühüm məsələlərdəndir.

Ayələrə nəzər salsaq, peyğəmbərlərin təbliğat apararkən müxtəlif üsullardan istifadə etdiyini, mövcud şərtlərə və qarşılarındakı insanlara görə fərqli metodlardan yararlandığını görərik.

Təbliğçi nəticəyə çata bilmək üçün bəzi vəsflərə sahib olmalıdır. Onları müxtəsər şəkildə aşağıdakı kimi sıralaya bilərik:

**Doğru inanc -** Təbliğçi doğru əqidə ilə dinə və Allaha bağlı olmalı, Onun rizasını umaraq, savabını yalnız Ondan istəyərək, Onun yardımına arxalanaraq və Ona təvəkkül edərək ixlas və səmimiyyətlə təbliğ fəaliyyətinə davam etməlidir.

**Elmli olmaq -** Təbliğçi, İslamı təbliğ edə bilmək üçün hər şeydən əvvəl təbliğ edəcəyi əsasları, İslamın əmr və qadağalarını, Quran və Sünnəni çox yaxşı bilməlidir. Olduğu yerin adət-ənənəsini, mədəniyyətini və həmçinin dilini bilməlidir. Elm təbliğçi üçün əvəzolunmazdır.

**Gözəl əxlaq -** İslam təbliğçisi, İslamın əmr və qadağan etdiyi prinsiplərə böyük həssaslıqla riayət etməli, şübhəli şeylərdən uzaq durmalı, fərz və sünnələrlə yanaşı nafilə ibadətlərə də diqqət göstərməlidir. O, hər cür gözəl əxlaqa sahib olmalıdır. Həmçinin pis davranışlardan çəkinməlidir. Səbirli və əzmli olmalıdır. Qəlbi ancaq Allaha bağlı və Ondan ümidvar olmalıdır. Həmçinin şəfqətli, mərhəmətli və təvazökar olmalıdır. İnsanın davranışlarının təsiri sözlərin təsirindən daha güclüdür.

**Maddi imkan -** Təbliğçi hər şeydən əvvəl təbliğ mükəlləfiyyətini çiyinlərinə ala bilmək üçün sağlam bədənə sahib olmalıdır. Bundan əlavə kimsəyə möhtac olmadan və kimsəyə yük olmadan özünün və ailəsinin güzəranını təmin edə biləcək işi olmalıdır.

İslam təbliğçisində bu xüsusiyyətlər olmalıdır:

### 1. Səbir

İslami dəvət vəzifəsini yerinə yetirmək olduqca məşəqqətlidir. Bu səbəblə də təbliğ fəaliyyəti səbirli olmağı tələb edir. İslam təbliğçisi təbliğ fəaliyyətində orta yolu mühafizə etməli, ağrı-acıya dözməli, çətinlik və məşəqqətlərə qarşı soyuqqanlılıqla müqavimət göstərməli, ağlın və dinin göstərdiyi yolda sabitqədəm olmalıdır. İmam Nəvəvi səbri belə izah edir, «Səbir, nəfsi əmr edilən şeyləri yerinə yetirməyə məcbur etməkdir. Bu da ibadətlərin çətinliklərinə, bəlalara və günah xaricindəki zərərlərə dözməklə olur".

Bütün peyğəmbərlər və haqqı təbliğ edənlər hər zaman çətinliklərlə üzləşmiş və bir çox məşəqqətlərə qatlanmaq məcburiyyətində qalmışlar. Uca Allah belə buyurur: **"Səndən əvvəl də peyğəmbərlər təkzibə məruz qalmışdılar. Lakin onlar təkzib olunduqları və əziyyət verildikləri şeylərə dözdülər",** (Ənam, 6/34) "(Ya Rəsulum!) **Peyğəmbərlərdən əzm** (və səbat, şəriət) **sahibləri olanların səbr etdiyi kimi, sən də** (Allah yolunda çətinliklərə, əziyyətlərə) **səbr et".** (Əhqaf, 46/35)

Səbir Allaha imanın bir təzahürüdür. Səbirdə məqsəd gözlənilməz hadisələr və başa gələn çətinliklər qarşısında narahat-

çılıq keçirməmək, dözmək və tələsərək uyğun olmayan hərəkət etməməkdir. Ancaq səbir, mütiliyə, yoxsulluğa və zillətə razı olmaq, nahaq təcavüzlərə, insan heysiyyətinə xələl gətirəcək hərəkətlərə dözmək və səsini çıxarmamaq demək deyil. Çünki, məşru olmayan şeylərə qarşı səbir etmək caiz deyil. Bunlara qarşı əməli və sözlü mübarizə aparmaq, bu mümkün olmasa belə ürəyimizdə nifrət etmək lazımdır.

İslamı bütün insanlara çatdırmaq məqsədi daşıyan təbliğçilər əlbəttə məşəqqətlərlə üzləşəcəklər. Allaha dəvət yolunda qarşılaşılan çətinliklərə sinə gərmək təbliğçiyə yaraşan ən uyğun və ən gözəl davranışdır.

Səbir, təbliğçi üçün o qədər önəmlidir ki, Qurani-Kərimdə səbrdən bəhs edən 100-dən artıq ayə var. Həmçinin bir çox hədisi-şərifdə də səbrdən, növlərindən, fəzilətindən, mükafatından və s. bəhs edilmişdir.

İnsanın öz gücü və iradəsi ilə öhdəsindən gələ biləcəyi pisliklərə dözməsi ya da təmin edə biləcəyi ehtiyaclarına etinasız yanaşması acizlik və tənbəllikdir. Səbir, başa gələn bir müsibət anında birdən-birə özümüzdən çıxaraq sonra peşman olacağımız işlər etməyin qarşısını alan təskinlik və təssəli vasitəsidir. Buna görə əsl səbir, müsibətin ilk anında göstəriləndir. Ənəsin (r.a) rəvayət etdiyinə görə, Hz. Peyğəmbər *(s.ə.s)* (uşağının) qəbri başında (fəryad edərək) ağlayan bir qadının yanından keçdi. Ona: – *Allahdan qorx və səbir et!* – buyurdu. Qadın: – Çıx get yanımdan, mənim başıma gələn fəlakət sənin başına gəlməyib, – dedi. Qadın Hz. Peyğəmbəri *(s.ə.s)* tanıya bilməmişdi. Sonradan qadına onun Allah Rəsulu *(s.ə.s)* olduğunu dedilər. Bunu eşidən kimi Hz. Peyğəmbərin *(s.ə.s)* qapısına qaçdı. Orada ona mane olan heç kim olmadığı üçün Hz. Peyğəmbərin hüzuruna gəlib (üzr istəyərək): – Ya Rəsulullah *(s.ə.s)*, sizi tanıya bilmədim, – dedi. Allah Rəsulu *(s.ə.s)*: – *Həqiqi səbir, müsibətin ilk anında göstəriləndir!* – buyurdu".[442]

Rəsulullah *(s.ə.s)* səbrin növlərini və fəzilətlərini bildirdiyi bir hədisi-şərifində belə buyurmuşdur: *"Səbir üç növdür; Müsi-*

---

442. Buxari, Cənaiz, 32.

*bətlərə qarşı səbir, Allaha qulluqda səbir, günah işləməməkdə səbir. Kim başına gələn müsibətə layiqincə səbir etsə, Allah ona üç yüz dərəcə yazar. İki dərəcə arasındakı məsafə isə göy ilə yer arasındakı məsafə qədərdir. Kim də itaətdə səbir etsə Allah ona altı yüz dərəcə yazar. İki dərəcə arasındakı məsafə yerlə yeddi qat altının arasındakı məsafə qədərdir. Kim də günahlara qarşı səbir etsə Allah ona doqquz yüz dərəcə yazar. İki dərəcə arasındakı məsafə yer ilə Ərş arasındakı məsafə qədərdir".*[443] Qurani-Kərimdə səbrlə bağlı bir çox ayə var. Allah-Təala, insanların axirəti qazana bilmələri üçün imtahan olunduğu şeylərdən birinin səbir olduğunu belə ifadə edir: **"Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can** (övlad) **və məhsul qıtlığı ilə imtahan edərik.** (Ya Rəsulum! Belə imtahanlara) **səbir edən şəxslərə müjdə ver!".** (Bəqərə, 2/155)

Allah-Təala, səbir edənləri ortaya çıxartmaq və mükafatlandırmaq üçün bəndələrini imtahana çəkir, **"**(Ey möminlər!) **And olsun ki, Biz içərinizdəki mücahidləri və** (əziyyətlərə) **səbir edənləri ayırd edib bilmək** (ümmətə məlum etmək) **üçün sizi imtahana çəkəcək və sizə dair xəbərləri** (əməllərinizi) **də yoxlayacağıq.** (Elə edəcəyik ki, Allahın sizin barənizdə əzəldən bildikləri – kimin həqiqi, kimin yalançı mömin olduğu zahirə çıxıb Onun bütün bəndələrinə bəlli olsun!)**".** (Muhəmməd, 47/31)

Allah səbir edən bəndələrini sevir, onlarla bir yerdə olduğunu bildirir və savablarını hesabsız şəkildə verəcəyini vəd edir. Ayədə belə buyurulur: "(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) **de: "Ey Mənim iman gətirən bəndələrim! Rəbbinizdən qorxun. Bu dünyada yaxşılıq edənlərə** (axirətdə) **yaxşılıq** (Cənnət) **vardır. Allahın yeri genişdir** (sizə bir çətinlik üz versə, başqa ölkələrə hicrət edə bilərsiniz)**. Yalnız** (dünyada Allah yolunda çətinliklərə) **səbir edənlərə** (axirətdə) **saysız-hesabsız mükafat veriləcəkdir!".** (Zumər, 39/10)

Hz. Peyğəmbər *(s.ə.s) "Mömінin halı qibtə və heyranlığa şayandır. Çünki, hər halı onun üçün bir xeyrə səbəbdir. Belə bir xüsusiyyət, ancaq mömində var. Sevinsə şükür edir, bu onun üçün xeyir olur. Başına bir bəla gəlsə səbir edir, bu da onun üçün xeyir olur"*[444]

443. Süyuti, *əl-Fəthul-Kəbir*, II, 42, 190.
444. Müslim, Zöhd, 64.

buyuraraq müsəlmanın fərqləndirici vəsfinin səbir və şükür olduğunu bildirmişdir. Allah Rəsulunun *(s.ə.s)* tərif və tövsiyə etdiyi səbir, bütün peyğəmbərlərin ümumi vəsfidir. Allahın dinini təbliğ edərkən hamsı müxtəlif çətinliklərə və əziyyətlərə məruz qalmış, yurdlarından çıxarılmış, hökmdarlar tərəfindən zindanlara atılmışlar. Hətta bir çoxu da bu yolda şəhid edilmişlər. Ancaq onlar, səbir edərək öz vəzifələrini icra etməyə davam etmişlər. Hz. Peyğəmbərin *(s.ə.s)* həyatı isə ən gözəl səbir nümunələri ilə doludur. Onun İslam dinini təbliği yolunda qatlaşdığı çətinliklər haqqında Rəbia ibn Abbad bir müşahidəsini belə nəql edir: «Rəsulullahı *(s.ə.s)* Zülməcaz yarmarkasında üstündə qırmızı bir geyimlə görmüşdüm: – *Ey insanlar! Lə ilahə illallah, deyin və xilas olun!* – deyə yüksək səslə müraciət edirdi. Bir adam da əlindəki daşla onun dalınca gedir və: – Ey insanlar, qətiyyən ona inanmayın, itaət etməyin. Çünki, o yalançıdır, – deyib qışqırırdı. Atdığı daşlarla Hz. Peyğəmbərin *(s.ə.s)* topuqlarını qanatmışdı. Oradakılardan: – Bu kimdir? – deyə soruşdum.

– Bu, Əbdülmüttəlib oğullarından bir nəfərdir, – dedilər.

– Bəs onun dalına düşüb daş atan kimdir?

– O da onun əmisi Əbu Ləhəbdir, – dedilər”.[445]

Kədərli hadisələr yalnız bir dəfə deyil, iyirmi üç illik peyğəmbərlik həyatı boyu dəfələrcə təkrarlanmışdı. Onlardan birini də Müdrik əl-Əzdi belə nəql edir:

– Atamla birlikdə həcdə idik. Minaya gəldikdə bir topluluq gördüm. Atamdan soruşdum:

– Bu camaat nə üçün yığılıb? Atam:

– Qövmünün dinindən imtina edən bu insan üçün, – dedi. İşarə elədiyi tərəfə baxdıqda Rəsuli- Əkrəmi gördüm:

– Ey insanlar! Lə iləhə illəllah deyin və xilas olun! – deyirdi.

İnsanlardan bəziləri onun üzünə tüpürür, bəzisi üstünə torpaq atır, bəzisi də söyürdü. Bu vəziyyət günortaya qədər davam etdi. O vaxt, yaxası açıq bir qız, içində su olan bir qab

445. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 492; Heysəmi, *Məcməuz-Zəvaid*, VI, 22.

və bir dəsmalla gəldi. Ağlayırdı. Hz. Peyğəmbər *(s.ə.s)* qabı götürüb su içdi və əl-üzünü yudu. Başını qaldırıb: – *Qızım, yaxanı yaylığınla ört! Atan üçün də tələyə düşüb öldürüləcək və zəlil olacaq deyə qorxma!* – buyurdu. Onun kim olduğunu soruşduq, "Qızı Zeynəbdir!" – dedilər.[446]

Səbir əziyyət və məşəqqətlərə qatlanmaqdan ibarət deyil. Səbrin mənası çox genişdir və hər bir şeyə səbir etməyi ehtiva edir. İbadətlərdə, günahlara qarşı, haqqı təbliğ edənlərin azlığına, əziyyət və məşəqqətlərə, nəfsin istəklərinə, insanların cahilliklərinə və s. səbir etmək lazımdır. Həmçinin bolluq və qıtlıqda, sevinc və kədərdə, Uca Allahın qədərinə təslimiyyətdə və s. səbir gərəklidir. Səbir Allaha güvənmək, Ona arxalanmaq və Ondan ummaqdır. Allah yolunda cəmiyyətdən gələn bütün çətinliklərə sinə gərmək,[447] bu yolda qarşılaşılan çətinliklərdən usanmamaq deməkdir.

Allah Rəsulunun *(s.ə.s)* İslamı təbliğ yolunda məruz qaldığı hər cür əziyyət və işgəncələrə qarşı səbir etmişdir. Özü və əshabı ən ağır işgəncələrə məruz qaldıqları halda Allahın əmrinə görə səbir etdilər. Rəsulullahın *(s.ə.s)* həyatında bunun nümunələri sayıla bilməyəcək qədər çoxdur.

Hz. Peyğəmbər *(s.ə.s)*, vaxtaşırı səbri daşan əshabının mətanətini yeniləyir, onlara ümid və müjdə verirdi. Habbab ibn Ərət (r.a) nəql edir ki, "Rəsulullah *(s.ə.s)* Kəbənin kölgəsində bir əbanı özünə balış edib uzandığı bir vaxt, yanına gəldim. O vaxtlar müşriklərdən çox işgəncələr görürdük. Allah Rəsuluna *(s.ə.s)*: – Bizə kömək etmirsiniz, bizim üçün Allaha yalvarmırsınız? – deyib şikayət etdim. Hz. Peyğəmbər *(s.ə.s)* mübarək üzü qızarmış halda qalxdı və belə buyurdu: – *"Sizdən əvvəl elə insanlar vardı ki, tutulur, əvvəlcədən hazırlanan çuxura basdırılır, sonra bir mişarla başı ortadan ikiyə ayrılırdı. Ancaq bu başına gətirilənlər, onu dinindən əsla döndürə bilmirdi. Yenə elələri vardı ki, dəmir daraqlarla daranır, dərisi soyulurdu. Ancaq bunlarda onu dinindən döndərmirdi. And olsun ki, Allah bu dini tamamlayacaq"*.[448]

---

446. Heysəmi, *Məcməuz-Zəvaid*, VI, 21.
447. A. Faiz, *Tariqud-Dəavə*, I, 198-208.
448. Buxari, Mənəqib, 25.

Hz. Peyğəmbər *(s.ə.s)* din düşmənləri ilə mübarizə edərkən, onların verdiyi əziyyətlərlə yanaşı, imkansızlıqdan irəli gələn bir çox çətinliyə də dözmüşdur. Heç vaxt bunları bəhanə olaraq göstərməmişdir. Yoxsulluq və qıtlığın ən şiddətli vaxtında belə Allah yolunda işinə davam etmiş, imkansızlıqların gətirdiyi hər çətinliyə əshabı ilə bir yerdə səbir etmişdir. Əbu Musa əl-Əşari (r.a) buna bir nümunə olaraq belə nəql edir:

"Rəsulullahla *(s.ə.s)* səfərə çıxmışdıq. Altı nəfər növbə ilə bir dəvəyə minirdik. Ayaqlarımız yara olmuşdu. Mənim ayaqlarım yara oldu və dırnaqlarım düşdü. Ayaqlarımızı bez parçaları ilə bağladıq. Bu bez parçalarına görə o səfərə Zatur-Riqa adı verildi". Hədisi nəql edən Əbu Bürdə deyir, "Əbu Musa bunları dedi; sonra da dediyi sözdən xoşu gəlməyib "Bunları danışmaqda yaxşı etmədim" deyə peşmanlığını dilə gətirdi. Yəqin o, Allah yolunda etdiyi igidliyi üzə çıxardığına görə kədərləndi".[449]

Hz. Peyğəmbər *(s.ə.s)* nə qədər çətin şərait olsa da, əshabı ilə daim eyni həyat şərtlərini bölüşmüş, heç vaxt özünü onlardan fərqli mövqedə görməmişdir. İnsanlar aclıq çəkiblərsə, bunu hamıdan əvvəl Hz. Peyğəmbər *(s.ə.s)* və ailəsi çəkmişdir. Halbuki, Allah-Təala Hz. Peyğəmbərə *(s.ə.s)*, istəsə yer üzünün xəzinələrini verəcəyini, istəsə Məkkə dağlarının onun üçün qızıl olacağını demişdi. Rəsuli-Əkrəm *(s.ə.s)* bunları istəməyərək belə dedi: *"Bir gün ac qalıb səbir edirəm, bir gün qarnımı doydurub şükür edirəm. Çünki, iman bir-birini tamamlayan iki yarımdan ibarətdir: Biri şükür, biri də səbirdir."* Allah-Təala belə buyurur, **"Biz Musaya: "Tayfanın** (İsrail oğullarını) **zülmətdən nura çıxart və Allahın** (vaxtilə onlara ne'mət verdiyi) **günlərini xatırlat. Bunda çox səbir və şükür edənlər üçün, sözsüz ki, neçə-neçə ibrətlər var!"** (deyib) **onu möcüzələrimizlə** (peyğəmbər) **göndərdik".**[450]

Hz. Peyğəmbər *(s.ə.s)* zəfər əldə etdikdən və dövlətini qurduqdan sonra belə bədəvilərin kobudluqlarına, münafiqlərin əziyyətlərinə qatlaşmış və onları ən gözəl şəkildə idarə etmiş-

449. Buxari, Məğazi, 31.
450. İbrahim, 14/5; Hakim, *Müstədrək*, II, 484.

dir. Ümmətinin də ondan nümunə götürərək insanları xoşluqla idarə etmələrini və onlara xidmət göstərmələrini istəyərək: *"İnsanların arasına qarışıb onların əziyyətinə dözən müsəlman, onlara qarışmayıb əziyyətlərinə dözməyəndən daha xeyirlidir"* buyurmuşdur.[451]

Abdullah ibn Məsud (r.a) buna misal olacaq bir hadisəni belə nəql edir: "Rəsulullah *(s.ə.s)* Cinarədə Hüneyn qənimətini bölüşdürdüyü bir vaxta, başına yığışıb o qədər narahat etdilər ki, nəhayət (əvvəlki peyğəmbərlərdən birindən bəhs edərək): *"Uca Allah bəndələrindən birini qövmünə göndərmişdi. Qövmü onu döymüş və başını yarmışdılar. O bəndə isə həm alnından axan qanı əli ilə silir, həm də qövümümü bağışla ey Rəbbim! Çünki, nə etdiklərini bilmirlər,* – deyərək dua edirdi" – buyurdu.[452]

Hz. Peyğəmbər *(s.ə.s)* xəstə olanda da bizə nümunə olacaq səbir nümayiş etdirmişdir. Əbu Səid əl-Xudri, Rəsulullah *(s.ə.s)* xəstə olanda ona baş çəkmiş və onun nə qədər böyük acılara dözdüyünü şəxsən müşahidə etmişdir. O sözlərinə belə davam edir: "Əlimi üstünə qoydum, hərarətini yorğanın üstündən hiss edirdim.

– *Ey Allahın Rəsulu, qızdırmanız çoxdu!* – dedim.

– *Biz (peyğəmbərlər) beləyik. Bizə bəlalar artıqlaması ilə gəlir, əvəzində mükafatlar da artıqlaması ilə verilir* – buyurdu.

– Ey Allahın Rəsulu! İnsanlardan ən çox kimlər bəlaya düçar olur? – deyə soruşdum.

– *Peyğəmbərlər!* – buyurdu.

– Sonra kimlər, – dedim.

– *Sonra salehlər!* – buyurdu və belə dedi: *Onlardan biri elə kasıb olar ki, onu örtən bir əbadan başqa bir şey tapmaz. Onlar, sizin bolluluğa sevindiyiniz kimi bəlaya sevinirlər"*.[453]

Rəsulullah *(s.ə.s)* insanların həyatda başlarına gələcək kiçik və ya böyük müsibətlərə səbir etmələrini və Allah-Təaladan

451. Tirmizi, Qiyamət, 55.
452. Müslim, Cihad, 105; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 456.
453. İbn Macə, Fitən, 23.

savabını gözləmələrini istəmişdir. İki sevdiyi ilə (yəni iki gözünün alınması ilə) imtahan olunan kəslərdən səbir edənlərin mükafatının cənnət olduğunu,[454] xəstələnəndə Allah-Təalaya həmd-səna edən bəndənin, ölsə cənnətə girəcəyini, şəfa tapsa ətinin daha xeyirli bir ətlə, qanının da daha xeyirli bir qanla dəyişdiriləcəyini və günahlarının da əfv ediləcəyini bildirmişdir.[455] Bu səbəblə xəstəliklərə və bəlalara, Allahdan savabını gözləyərək səbir etmək lazımdır. Xəstəliklərə və fəlakətlərə səbir etmək insana cənnəti qazandırır. Bunu açıq-aydın ortaya qoyan bir hadisə belədir: İbn Abbas (r.a) Ata ibn Əbi Rabaha "Sənə cənnət əhlindən bir qadın göstərimmi?" – dedi. O da "Bəli, göstər!" – dedi. Bundan sonra İbn Abbas belə davam etdi. «Bax, bu qaradərili qadın Rəsulullahın *(s.ə.s)* yanına gəlib, "Mən epilepsiya xəstəliyinə tutulmuşam, özümdən gedəndə üst-başımı açıram. Allaha mənim üçün dua et!" demişdi.

Hz. Peyğəmbər *(s.ə.s)*, *"İstəyirsən səbir et, sənə cənnət verilsin, istəyirsən şəfa verməsi üçün Allaha dua edim"* buyurunca, qadın: Elədisə səbir edəcəyəm, ancaq üst-başımı açmamağım üçün dua et!" – dedi. Rəsulullah da ona dua etdi". [456] Hz. Peyğəmbər *(s.ə.s)* bu cür müsibətlərə düçar olanların necə dua edəcəklərini də öyrətmişdir. Ümmü Sələmə (r.anhə) belə deyir: Bir dəfə Rəsululahın *(s.ə.s)* belə buyurduğunu eşitdim: Başına bir müsibət gələn müsəlman, Allahın əmr etdiyi: Biz Allaha aidik və ancaq ona qayıdacağıq. Allahım! Mənə bu müsibətdən ötrü səvab ver və mənə bundan daha xeyirlisini ehsan et!" desə Allah o müsibətə son verər və daha xeyirli mükafat ehsan edər. "Həyat yoldaşım Əbu Sələmə vəfat edəndə "Hansı müsəlman Əbu Sələmədən daha xeyirlidir? Rəsulullahın əmri ilə ilk hicrət edən ailə onun ailəsi idi" dedim və yuxarıdakı duanı oxudum. Allah-Təala mənə Əbu Sələmənin yerinə Rəsulullahı *(s.ə.s)* verdi.[457]

Səbrin həqiqi mənasına daha bir gözəl nümunəni səhabələrdən gətirək: Uhud müharibəsindən sonra Əbdülmüttəli-

454. Buxari, Mərda, 7.
455. İmam Malik, Muvvata, Ayn, 5.
456. Buxari, Mərda, 6.
457. Müslim, Cənəiz, 3

bin qızı Safiyə, qardaşı Hz. Həmzəni görmək üçün şəhidlərin olduğu tərəfə getdi. Oğlu Zübeyr qarşısına çıxaraq belə dedi:

– Rəsulullah *(s.ə.s)* geri qayıtmağını əmr edir. O da:

– Niyə? Qardaşımı görməyim? Mən onsuz da onun kəsilib doğrandığı xəbərini almışam. O, bu müsibətə Allah yolunda düçar oldu. Bizi də bundan başqa heç nə təsəlli etməzdi. İnşallah səbir edib savabını Allahdan gözləyəcəm, – dedi. Zübeyr anasının dediklərini Allah Rəsuluna bildirdi. Hz. Peyğəmbər *(s.ə.s)*: – *Onda, qoy görsün* – buyurdu. Safiyə də qardaşının cəsədinin yanına gəlib dua etdi.[458]

Hamı tərəfindən sevilən, İslama çox xidmət etmiş və "Allahın Aslanı" adına layiq olan belə bir qəhrəmanın düçar olduğu bu faciəvi müsibətə dözmək çox çətin bir işdir. Ancaq, qardaşının başına gələn bu hadisənin Allah yolunda olması, Hz. Safiyəni təsəlli etməyə kifayət idi. O, Allah rizası üçün səbir etmiş və savabını da yenə Ondan gözləmişdi. Müsəlmanlar üçün, şübhəsiz ən böyük acı, səbir etmək və təhəmmül etmək baxımından ən ağır hadisə, Hz. Peyğəmbərin *(s.ə.s)* ümmətini yetim qoyub Rəfiqi-Əlaya getməsidir. O gün, Hz. Ənəsin ifadə etdiyi kimi Mədinədəki hər şey qaralmışdı. Səhabələr o mübarək, əzizlərdən əziz vücudu, vəfatına inana bilməyərək dəfn etmək istəmirdilər.[459] Buna baxmayaraq nə qədər çətin olsa da müsəlmanlar, Hz. Peyğəmbərin *(s.ə.s)* vəfatına belə səbir etmiş və iztirablarını ürəklərində çəkmişdilər. Bundan sonrakı müsibət və bəlalar isə artıq onlar üçün heç idi. Artıq, bir acıya düçar olan möminlərin, Hz. Peyğəmbərin *(s.ə.s)* vəfatını yada salıb təsəlli tapmaları daha asan idi. Belə ki, Rəsulullah *(s.ə.s)* *"Hər hansı bir müsibətə düçar olan müsəlmanlar, mənim vəfatımla başlarına gələn müsibəti düşünüb təsəlli tapsınlar və səbir etsinlər"*[460] sözləri ilə bunu nəzərdə tutmuşdu. Bir sözlə, səbir qəm və çətinlikdən xilas olub rahat olmağın ən əmin yoludur. Çünki, səbir dərmanı, həm gözdəki qəflət pərdəsini götürür, həm də sahibinin ürəyinə gümrahlıq verər və açar. Allah-Təala, yüz minlərlə təsir-

458. İbn Həcər, *əl-İsabə*, IV, 349.
459. Tirmizi, Mənaqib, 3; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 221, 268, 287.
460. İmam Malik, Muvatta, Cənaiz, 14.

li və faydalı dərman yaratmışdır, ancaq insan oğlu üçün səbir kimi faydalı bir dərman yoxdur.

Hz. Peyğəmbər və səhabələrin səbrini göstərən nümunələrdən təbliğçilər örnək almalı və onların həyatını təbliğlərinə şüar etməlidirlər. Qurana sarılan, Sünnəyə bağlı olan təbliğçi səbirlə, təmkinlə, bezmədən və səmimiyyətlə təbliğinə davam etməlidir.

### 2. Ümidvar olmaq

Təbliğçi ümidini itirmədən, hidayətin Allahdan olduğunu bilərək təbliğinə davam etməlidir. Ümidsizliyə düşmək məğlubiyyəti qəbul etmək deməkdir.

Təbliğçi dayanmadan və yorulmaq bilmədən təbliğinə davam etməlidir. Bu müddətdə də qətiyyətli olmalı və səmimiyyətini itirməməlidir. Dəfələrlə rədd cavabı alması və qeyri-islami mühitdə olması onun ümidinə təsir etməməlidir. Çünki ümidsizliyə düşmək İslamda qadağan edilmişdir. Uca Allah bu xüsusda belə buyurur: **"Allahın rəhmindən ümidsiz olmayın"**. (Zumər, 39/53)

Təbliğçi qurtuluşun İslamda olduğu şüuru içərisində və ətrafındakılara bu inancı aşılayaraq, hidayətin Allahın əlində olduğunu bilərək təbliğinə davam etməlidir.[461]

Bu xüsusda da tətbiq etdiyi metodla ən gözəl örnək Hz. Peyğəmbər *(s.ə.s)* olmuşdur. O, əsla ümidsizliyə düşmədən, əzmlə qatı düşmənlərinə, hətta kafirlərə belə dəfələrlə təbliğ etməkdən geri durmamışdır.

İslamın ən qatı düşməni olan Əbu Cəhil Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğdə israr etdiyini görmüş və bir gün ona belə demişdir: «Muhamməd! İlahlarımıza dil uzatmaqdan və bizimlə məşğul olmaqdan nə vaxt əl çəkəcəksən? Əgər sən təbliğ etdiyinə bizi şahid tutmaq istəyirsənsə, biz sənin təbliğ etdiyinin şahidləriyik".[462]

461. Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 312.
462. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 112-115; Səid Həvva, *Rəsul*, I, 22.

Hz. Peyğəmbər *(s.ə.s)* qəbilələr arasında İslamı yaymaq üçün usanmadan fəaliyyət göstərmişdir. Qəbilə mənsublarından dəfələrlə eşitdiyi cavab belə olmuşdur: «Ey Muhammməd! Bizdən ümidini kəsmək vaxtı çatmadımı?".[463] Əlbəttə, xeyr! O, heç bir zaman ümidini itirmədən təbliğinə davam etmişdir.

Təbliğçi özü ümidvar olmaqla yetinməməli, həmçinin ətrafındakı insanlara da ümid aşılamalıdır.

Məkkə dövründə hər cür zülm və işgəncə altında əzilən müsəlmanlara Hz. Peyğəmbər *(s.ə.s)* səbri tövsiyə edir və əvvəlki ümmətlərdən iman edənlərin qarşılaşdıqları çətinliklərdən bəhs edərək onlara ümid verir, tələsməməli olduqlarını vurğulayırdı.

*"Sizdən əvvəl elə insanlar vardı ki, tutulur, əvvəlcədən hazırlanan çuxura basdırılır, sonra bir mişarla başı ortadan ikiyə ayrılırdı. Ancaq bu başına gətirilənlər, onu dinindən əsla döndürə bilmirdi. Yenə elələri vardı ki, dəmir daraqlarla daranır, dərisi soyulurdu. Ancaq bunlar da onu dinindən döndərmirdi. And olsun ki, Allah bu dini tamamlayacaq. Elə ki, bir yolçu dəvəsinə minib Sənadan Hadraməvtə qədər gedəcək və Allahdan başqa heç nədən qorxmayacaq! Qoyunu üçün də canavardan qorxacaq. Amma siz tələsirsiniz".*[464]

İnsanın ən çətin zamanlarda ehtiyac duyduğu yeganə şey ümiddir. Hz. Peyğəmbər *(s.ə.s)* də bu ehtiyacı çox yaxşı bilirdi.

Qureyş və müşrik ərəblərin birləşərək Mədinə İslam dövlətinin üzərinə hücuma keçməsi xəbərini alan Hz. Peyğəmbər *(s.ə.s)* əshabı ilə birgə xəndək qazır və qarşılaşdıqları sərt bir qaya parçasını parçalayarkən verdiyi xəbərlərlə səhabələrinə ümid bəxş edirdi.

Səhabələr Rəsulullaha *(s.ə.s)* çox böyük və sərt bir daşı qıra bilmədiklərini bildirdilər. Hz. Peyğəmbər *(s.ə.s)* iri çəkici əlinə alaraq bəsmələ oxudu və üç dəfə o daşa vurdu və daşı qum kimi dağıtdı. O hər vuruşda möminlərə böyük müjdələr verdi. Birinci vuruşda Şamın (Bizans), ikincisində İranın, üçüncü vuruşda da Yəmənin açarlarının ona verildiyini, bu ölkələrin

463. Səid Həvva, *Rəsul,* I, 107.
464. Buxari, *Mənaqib*, 25.

saraylarını hal-hazırda olduğu yerdən gördüyünü bildirdi. O, bu yerlərin Allahın kəlamı ilə şərəflənəcəyini müjdələdi, gələcək zəfərlərin həyəcanı ilə mömin könüllərə ümid toxumları səpdi. Haqqın yaxın gələcəkdə mütləq batil üzərində qələbə çalacağını müjdələdi. Baş verməsi qeyri-mümkün sayılan bir çox işin mütləq baş verəcəyini bildirdi və bütün dünyanı əhatə edəcək bir hidayət xəritəsi çəkdi.[465]

Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ əsnasında dinləyələrə ümid bəxş edəcək qissələrdən bəhs edir və qissədə ifadə edilən duyğulardan örnək alaraq həmsöhbətinin qəbuluna çalışırdı.

Əvvəlki ümmətlərdən 99 insanı öldürən və tövbə etməyə niyyətlənən və rahib tərəfindən "tövbən qəbul edilməz" deyildiyi üçün onu öldürməsi və sonra alim birinin "Allah ilə bəndə arasına kimsənin girə bilməyəcəyini" ifadə edərək ümid verməsi və irşad etməsi qissəsi[466] həqiqətən insan psixologiyasına ümid, şövq və əzm aşılayır.

---

465. İbn Kəsir, *əl-Bidayə*, IV, 99-103.

466. Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurmuşdur: "Sizdən əvvəl yaşayanlar arasında 99 insanı öldürən bir nəfər vardı. Dünyadakı ən elmlı insanın kim olduğunu soruşdu. Ona bir rahibi məsləhət gördülər. Onu axtarıb tapıb, doxsan doqquz adam öldürdüyünü, bağışlanma ehtimalının olub-olmadığını soruşdu.

Rahib: – Xeyr yoxdur! dedi. Bu cavabı eşidəndə onu da öldürdü. Beləcə 100 nəfəri öldürmüş oldu. Qatil dünyadakı ən elmli insanı axtarmağa davam etdi. Ona bir alimi məsləhət gördülər. Onu da tapdı və ondan yüz insan öldürdüyünü, bağışlanma ehtimalının olub-olmadığını soruşdu.

Alim: – Bəli, bağışlanma diləyə bilərsən. Səninlə tövbən arasına kim pərdə ola bilər? – dedi. Və əlavə etdi:

– Ancaq, filan məmləkətə getməlisən. Çünki orada Allaha ibadət edən kəslər var. Sən də onlarla Allaha ibadət etməli və bir daha öz məmləkətinə geri qayıtmamalısan.

Adam yola çıxdı. Gedərkən mənzil başına çatar çatmaz ölüm mələyi gəlib ruhunu aldı. Rəhmət və əzab mələkləri onun haqqında qərar verə bilmədilər. Rəhmət mələkləri:

– Bu adam tövbə etdi. Ürəkdən Allaha yönəlmişdi, – dedilər.

Əzab mələkləri də:

– Bu adam heç bir xeyir iş görməyib, – dedilər.

Onlar belə mübahisə edərkən insan surətində bir mələk gəldi. Mələklər onu hakim təyin etdilər.

Hakim onlara:

– Onun çıxdığı yerlə, gedəcəyi yer arasındakı məsafəni ölçün, hansı tərəfə daha yaxındırsa buna görə qərar verin, dedi. Ölçdülər, gördülər ki, getməyi arzu etdiyi yerə bir qarış daha yaxındır. Onu dərhal rəhmət mələkləri apardılar". Buxari, Ənbiya, 50; Müslim, Tövbə, 46.

Bu duyğulara sahib olaraq İslama bağlanan və təbliğ fəaliyyəti ilə məşğul olanların müsbət nəticə əldə edəcəklərinə şübhə yoxdur.

**3.Şəfqət və mərhəmət**

Mərhəmət Allahın "Rəhman" və "Rəhim" sifətlərinin təcəllası olan ilahi bir hissdir. Rəhman sifəti, Allah-Təalanın inanan və inanmayan arasında fərq qoymadan bütün insanlara, hətta bütün məxluqata çatan ən geniş rəhmətidir. Rəhim sifətinin işarə etdiyi mərhəmət isə, qiyamət günü yalnız möminlərə ediləcək xüsusi mərhəmətdir. Qurani-Kərimin bir ayəsində bu xüsusa aşağıdakı kimi diqqət yetirilir:

"...**Rəhmətim hər şeyi ehtiva etmişdir. Onu Allahdan qorxub pis əməllərdən çəkinənlərə, zəkat verənlərə, ayələrimizə iman gətirənlərə yazacağam!".** (Əraf, 7/156)

Şəfqət və mərhəmət aradakı kin və ədavəti yox edən, nifrətin yerini sevgi ilə dolduran, həmçinin insanları bir-birinə yaxınlaşdıran və onları birləşdirən hissdir. Dəvətdə ən əhəmiyyətli davranış dəvətçinin şəfqət və mərhəmətlə rəftarıdır. Bütün insanlara qarşı şəfqət və mərhəmət bəsləmək və bu şəkildə davranmaq Quran və Sünnənin əmr etdiyi xüsuslardandır.[467]

Müsəlmanların və dəvətçinin bütün insanlara şəfqət və mərhəmət duymasını anlamaq üçün Uca Allahın insanlara hidayət yolunu göstərməsini düşünmək kifayətdir. Uca Allah rəhmət və mərhəməti səbəbilə insanları irşad etmək üçün peyğəmbərlər göndərmişdir. Uca Allah bu həqiqəti ifadə etmək üçün Hz. Peyğəmbər haqqında belə buyurmuşdur. **"Səni də** (Ya Rəsulum!) **aləmlərə** (bütün insanlara və cinlərə) **ancaq bir rəhmət olaraq göndərdik.** (Sən təkcə insanlara deyil, eyni zamanda cinlərə də peyğəmbər göndərilmisən. Bütün aləmlər əhli, o cümlədən göydəki mələklər, yerdəki insanlar və cinlər sənin vücudunla şərəfə nail olurlar. Sənin sayəndə günahkarlara möhlət verilmiş, hətta səni inkar edənlərin belə cəzası qiyamətə qədər təxirə salınmışdır. Möminlər isə sənə iman

467. Bəqərə, 2/157; Ali-İmran, 3/107; Nisa, 4/96; Ənam, 6/147. Buxari, Ədəb, 18; Müslim, Tövbə, 14; Əbu Davud, Ədəb, 66; Tirmizi, Dəavat, 109; İbn Macə, *Müqəddimə*, 14.

gətirməklə dünyada böyük savab qazanıb axirətdə yüksək dərəcələrə, əbədi səadətə nail olacaqlar)". (Ənbiya, 21/107)

Digər yandan Allah-Təala, yolunu azanları hidayətə dəvət edərkən mərhəməti ilə təcəlla (rəhm) edəcəyini belə xəbər verir.

"(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) **de: "Ey mənim** (günah törətməklə) **özlərinə zülm etməkdə həddini aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın, Allah** (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!". (Zümər, 39/53)

Şübhə yoxdur ki, burada ilahi rəhmətin genişliyinin xatırlanması, günah etməyə təşviq üçün deyil, ən günahkar insanların belə bir an əvvəl tövbə etmələrini istəmək məqsədini güdür. Zikr edilən ayənin nüzul səbəbi kafirlərin müsəlman olmasını istəmək olsa da, hökmün asi olanların tövbəsini də əhatə etdiyində şübhə yoxdur.[468] Çünki Allah-Təala Qurani-Kərimdə yalnız şirk və küfr edənləri bağışlamayacağını, bunun xaricində istədiyi kimsələrin bütün günahlarını bağışlaya biləcəyini xəbər vermişdir.[469]

Hz. Ömərdən nəql edilən bu rəvayət Allahın bəndələrinə olan mərhəmətini təsvir etməsi baxımından olduqca diqqətçəkicidir. Hz. Ömər deyir ki:

– Bir dəfə Rəsulullahın *(s.ə.s)* yanına əsirlər gətirildi. Bir də baxdı ki, əsirlərdən bir qadın (itkin düşmüş uşağını) axtarır. Əsirlər arasında bir uşaq görən kimi onu bağrına basır və əmizdirirdi. Rəsulullah *(s.ə.s)* bizə:

*" – Bu qadının uşağını atəşə atmasına inanarsınızmı?"* – deyə soruşdu.

– Xeyr, Allaha and olsun ki, əsla atmaz! – dedik.

Bundan sonra Allah Rəsulu *(s.ə.s)*:

*" – Bax Allah-Təala bəndələrinə bu qadının körpəsinə olan şəfqətindən daha mərhəmətlidir"* – buyurdu.[470] Mərhəmət cövhərinin

468. Razi, *Təfsir*, XXVII, 5.
469. Nisa, 4/48.
470. Müslim, Tövbə, 22.

yalnız insanlara deyil, bütün məxluqata verilmiş böyük bir lütf olduğunu və bizə verilən məhəbbətin Allahın nəzdində olana görə çox məhdud səviyyədə olduğunu Hz. Peyğəmbər *(s.ə.s)* belə izah edir:

*"Allah-Təala rəhmətini yüz hissəyə ayırdı; bunun doxsan doqquzunu öz dərgahında saxladı və bir hissəsini yer üzünə endirdi. Məhz bu bir hissəyə görə yaradılmışlar bir-birinə mərhəmət edir. Ana atın, (süd əmizdirərkən) balasına zərər verər deyə ayağını yuxarı qaldırması belə, bu yüzdə bir rəhmətin əsəridir".*[471]

Allah-Təala, öz adlarından olan Rauf (çox şəfqətli) və Rəhim (çox mərhəmətli) sifətlərini Hz. Peyğəmbərə *(s.ə.s)* vermişdir. Halbuki əvvəlki peyğəmbərlərdən heç biri bu sifətlərin hər ikisinə birdən nail olmamışdır.[472] Çünki cahiliyyə dövrünün qatı qəlbli insanları arasında İslamın yayılması və möhkəmlənməsi, yalnız belə böyük mərhəmətə sahib Hz. Peyğəmbər *(s.ə.s)* sayəsində mümkün olmuşdur. Çünki şəfqət və mərhəmət, sərtliyi yumşaldan, nifrətin yerinə sevgi gətirən, insanları bir-birinə yaxınlaşdıran bir hissdir. Bütün bu həqiqətlər Qurani-Kərimdə belə ifadə olunur:

**"**(Ya Rəsulum!) **Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər"**. (Ali-İmran 3/159)

Hz. Peyğəmbər *(s.ə.s)* mərhəmət hissini ən başlıca olaraq insanlarda yaratmağın vacib olduğunu vurğulamışdır. Bu haqda:

*"Möminlər bir-birilərini sevməkdə, bir-birilərinin halına acımaqda və bir-birilərini qorumaqda bir vücud kimidirlər. Vücudun bir üzvü xəstə olduğu zaman digər üzvlər də bu səbəblə yuxusuzluğa və hərarətli xəstəliyə tutulurlar"* buyurmuşdur.[473]

Bundan əlavə insanın mərhəmətli və yardımsevər olması daxilindəki sevgi hissinə bağlıdır. Çünki sevginin olmadığı yerdə mərhəmətdən söhbət etməyin yersiz olduğunu bu hədisi-şərif açıq şəkildə bəyan edir:

---

471. Buxari, Ədəb, 19; Müslim, Tövbə, 1.
472. Qurtubi, *Təfsir*, VII, 192.
473. Buxari, Ədəb 27; Müslim, Birr, 66.

Hz. Peyğəmbərin *(s.ə.s)* bəzi uşaqları öpdüyünü görən bir bədəvi buna təəccüb edərək:

– Deməli sən uşaqları öpürsən, eləmi?! Halbuki mən uşaqları heç vaxt öpməmişəm, – demişdir.

Bu adamın halına acıyan Rəsulullah *(s.ə.s)*:

*" – Allah, sənin qəlbindən mərhəməti çıxarıb atmışsa mən nə edə bilərəm ki?"* – buyurmuşdu.[474]

Yenə Rəsulullah *(s.ə.s)* qızı Hz. Zeynəbin (r.anhə) ölüm ayağındakı uşağının halına dözməyib ağlamış, bunu görənlər təəccüblənərək:

– Sən də ağlayırsanmı ya Rəsulallah? – dediklərində, Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Bu bir rəhmətdir. Allah-Təala onu bəndələrinin qəlbinə yerləşdirmişdir. Allah, yalnız mərhəmətli olan bəndələrinə rəhm edər"* – buyurmuşdur.[475]

Mərhəmətsizlik qatı qəlbli olmağın nəticəsidir. Hz. Peyğəmbər *(s.ə.s)* qəlbinin qatı olmasından şikayət edən bir səhabəyə, «Əgər qəlbinin yumşalmasını istəyirsənsə kasıbı doyuzdur, yetimin başını sığalla!"[476] buyuraraq qəlbi sınıq, yardıma möhtac insanlara mərhəmət hissi ilə yanaşmağın şəxsdə meydana gətirəcəyi vicdan hissinin oyanmasından bəhs edir.

Hz. Peyğəmbərin *(s.ə.s)* ümmətinə öyrətdiyi mərhəmət, yalnız yaxınları və ona inananları yox, bütün bəşəriyyəti və hətta bütün məxluqatı əhatə etmişdir. Bir hədisdə bu xüsus bu şəkildə ifadə edilir:

*"İnsanlara mərhəmət etməyənə Allah da mərhəmət etməz"*.[477]

*"Mərhəmət edənlərə, Allah da mərhəmət edər. Siz yer üzündəkilərə mərhəmət edin ki, göydəkilər də sizə mərhəmət etsin"*.[478]

474. Buxari, Ədəb, 18; Müslim, Fədail, 65.
475. Buxari, Cənəiz, 33; Müslim, Fədail, 65.
476. Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 263, 387.
477. Müslim, Fədail, 66.
478. Əbu Davud, Ədəb, 58; Timizi, Birr, 16.

Başqa bir hədisi-şərifdə isə etdiyi əxlaqsızlığa görə günah bataqlığına batmış bir qadının, bir itin halına acıyıb yardım etdiyi üçün Allahın əfvinə nail olduğu bildirilir. Belə ki, qızmar günlərin birində adı keçən bu günahkar qadın səhrada susuzluqdan taqəti kəsilib yerə yıxılır. Gördüyü bir su quyusuna enərək doyunca su içir. Yuxarı çıxanda susuzluqdan inildəyən bir itin quyunun ətrafında gəzdiyini və nəmli torpağı yaladığını görür. İtin bu halına acıyan qadın təkrar quyuya enərək ayaqqabısını doldurub itə su verir. Onun bu mərhəmətli davranışından xoşu gələn Allah-Təala, etdiyi günahları bağışlayır.[479]

Mərhəmət, bəzi insanların sandığı kimi, yalnız acımaq hissindən ibarət deyildir. Sevgi ilə meydana gələn, yardım və fədəkarlıqla böyüyən geniş bir hissdir. Əgər bir qəlbdə mərhəmət yoxdursa, həmin qəlb mənən xəstədir.

Aləmlərə rəhmət olaraq göndərilən Hz. Peyğəmbər *(s.ə.s)* istər örnək davranışları, istərsə də bəyanları ilə yer üzündə mərhəmətin ən böyük təmsilçisi olmuşdur.

Təbliğçi mərhəmətin ən böyük təmsilçisi olmuş Hz. Peyğəmbərin *(s.ə.s)* həyatından nümunə götürməli, kin və ədavətdən uzaq olmalı və bu kimi mənfi xislətlərin yerini gözəl duyğularla doldurmalıdır. Təbliğçi kin və ədavətin, həmçinin digər bir çox mənfi duyğuların təbliğə mane olduğu şüurunu daşımalıdır. Bacardığı qədər Uca Allahın sevdiyi gözəl xislətləri qazanmağa çalışmalıdır. Təbliğçi həmsöhbətlərinə hər zaman sevgi və mərhəmət bəsləməlidir.

Nəticə olaraq deyə bilərik ki, təbliğçi şəxsi üçün əsla kin və düşmənçilik bəsləməməli, qəzəbini boğmağı bacarmalı, bütün insanlara şəfqət və mərhəmətlə yanaşmalı, ən başlıcası onların hidayətə gəlməsi üçün çalışmalıdır.

---

479. Müslim, Salam, 153-155.

## 4. Helm

Helm özünə qarşı xəta edən kimsələrə qəlbində kin bəsləməmək, səbir və dözüm sahibi olmaqdır.

Helm Allah-Təalanın sevdiyi xüsusiyyətlərdəndir. Helmin ziddi olan sərtlik, qabalıq insanları incidən, təhqir edən, qorxub nifrət etmələrinə yol açan pis bir xasiyyətdir. Bu səbəblə helm, peyğəmbərlərə xas olan xüsusiyyətlərdən biridir.

İslam təlim-tərbiyə və təbliğ kimi xidmətlərdə də ifrat və təfritə düşmədən etidal üslubunu əsas almağı tövsiyə etmişdir. Bu da şübhəsiz ki, "helm"lə gerçəkləşə bilər.

Cəzalandırılacağını gözləyən birini bağışlamaq həmin insanın dost olmasına səbəb olar. Uca Allahın Hz. Peyğəmbərə *(s.ə.s)* əmr etdiyi kimi xəyanət edənlərin günahını bağışlayaraq əfv etmək[480] İslami dəvətin metodlarından biridir.

Hz. Peyğəmbərin *(s.ə.s)* həyatında bunun misalları çoxdur.

Bəni Hənifə rəislərindən Sümamə ibn Üsal böyük cinayətlər işləmiş qatı İslam düşməni idi. Tutularaq Mədinəyə gətirildi. Hz. Peyğəmbər *(s.ə.s)* onun Məscidin bir dirəyinə bağlanmasını və ona qarşı yaxşı davranılmasını əmr etdi. Hər namaz vaxtı Hz. Peyğəmbər *(s.ə.s)* onunla yaxından maraqlanır və ona iman etməsini təklif edirdi. Lakin Sümamə Hz. Peyğəmbərin *(s.ə.s)* təklifini qəbul etmirdi. Hz. Peyğəmbər *(s.ə.s)* heç bir qarşılıq almadan onu əfv etdi. Buna çox heyrətlənən Sümamə yoldan geri qayıdaraq Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəldi, kəlmeyi-şəhadət gətirərək müsəlman oldu. Müsəlman olduqdan sonra Hz. Peyğəmbərə *(s.ə.s)* belə etiraf etmişdir: "İndiyə qədər sən mənim nəzərimdə dünyadakı ən nifrətə layiq insan idin. Lakin bu an dünyada ən heyran olduğum insansan". Hz. Peyğəmbərin *(s.ə.s)* özünü əfv etməsi Sümaməni o dərəcədə sevindirmiş və heyrətə gətirmişdi ki, ümrə üçün getdiyi Mək-

480. **"Sonra əhdlərini pozduqları üçün onları lənətlədik və ürəklərini sərtləşdirdik. Onlar sözlərin** (Tövratda peyğəmbərin vəsfinə dair kəlmələrin və bəzi başqa ayələrin) **yerlərini dəyişib təhrif edir və xəbərdar edildikləri şeylərin bir hissəsini** (Muhamməd peyğəmbərə iman gətirməyi) **unudurlar. Onların az bir qismi müstəsna olmaqla, sən onlardan həmişə xəyanət görəcəksən. Bununla belə, onları bağışla, günahlarından keç. Şübhəsiz ki, Allah yaxşılıq edənləri sevər!".** Maidə, 5/13.

kədə iman etdiyini açıq-aşkar söyləməkdən çəkinməmişdir. Həmçinin Hz. Peyğəmbərin *(s.ə.s)* icazəsi olmadan məkkəlilərə Yəmamədən qida məhsulları göndərməyəcəyini bildirmişdir.[481]

Məkkənin fəthində Hz. Peyğəmbərin *(s.ə.s)* etdiyi ilk iş Kəbəni bütlərdən təmizləmək olmuşdur. Namaz vaxtı çatdıqda Hz. Bilalın azanını eşidən digər məkkəlilər kimi Attab ibn Əsid də deyinməyə başlamış və: "Nə yaxşı ki, atam həyatda deyil və baş verənləri görmür" demişdi. Lakin buna baxmayaraq Hz. Peyğəmbərin *(s.ə.s)* ümumi əfvindən o dərəcədə sevinmişdi ki, məkkəlilərdən əvvəl irəli atılaraq iman etmişdir. O dərəcədə İslama sarıldı ki, Hz. Peyğəmbər *(s.ə.s)* Məkkədən Mədinəyə qayıdanda onu Məkkənin valiliyinə təyin etmişdir.[482]

Günümüzdəki təbliğ əhli də Hz. Peyğəmbərin *(s.ə.s)* yolundan gedərək şəxsi düşmənçilikləri bir tərəfə ataraq bağışlama yolunu əsas tutmalıdırlar. Mülayim xasiyyətli olmaq üçün zülmə boyun əymək və ya ilahi qanunların pozulmasına göz yummaq və güzəştə getmək əsla doğru bir davranış deyil. Belə bir davranış, pis insanların pislik etmək arzusunu və cəsarətini artıracağından, son dərəcə yanlışdır. Bəni Məhzum qəbiləsidən oğurluq edən qadının günahının bağışlanması üçün edilən müraciətlərə Hz. Peyğəmbərin *(s.ə.s)* cavabı sərt olmuşdur.[483] Müsəlman olacaqlarını lakin namaz qılıb zəkat verməyəcəklərini və cihadda iştirak etməyəcəklərini şərt qoşan Taif heyətinə Hz. Peyğəmbər *(s.ə.s)* qətiyyətlə: *"Namazsız dində xeyir olmadığını"* ifadə edərək belə bir güzəştə getməyəcəyini göstərmişdir.[484]

İslam dəvətində helm metodu güzəştə getməmək şərti ilə keçərlidir. İslam təbliğçiləri qeyd etdiklərimizi özləri üçün şüar edərək təbliğ fəaliyyəti ilə məşğul olmalıdırlar.

### 5. İnsan qazanmağa çalışmaq

Qeyd etdiyimiz metodların tətbiqinin və həmin əsaslara riayət olunmasının arxasında yatan səbəb insan qazanmaqdır.

481. Buxari, Məğazi, 70; Müslim, Cihad, 59; Əbu Davud, Cihad, 119; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 246-247; M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 270-271.
482. İbn Kəsir, *əl-Bidayə*, IV, 301; M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 172.
483. Buxari, Ənbiya, 54 ; Müslim, Hüdud, 8-9.
484. Əbu Davud, Xərac, 25.

İslamın insana verdiyi dəyər məlumdur. Uca Allahın digər məxluqatı xidmətinə verdiyi insanın hidayətə gəlməsi üçün çalışmaq təbliğ əhlinin vəzifəsidir. Bu yolda bir insanın hidayətinə səbəb olmaq belə təbliğçi üçün böyük dəyər ifadə edir. Hz. Peyğəmbərin *(s.ə.s)* Xeybərin fəthi vaxtı Hz. Əlinin timsalında söylədiyi kimi *"bir insanın hidayətinə səbəb olmaq dəyərli dəvələrə sahib olmaqdan daha xeyirlidir"*.[485]

Hz. Peyğəmbər *(s.ə.s)* hər qarşılaşdığı insanın könlünü almağa çalışardı. Bir gün Hakəm ibn Keysan əsir alınaraq Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gətirilmişdi. Hz. Peyğəmbər *(s.ə.s)* ona İslamdan bəhs etdiyi halda o qəbul etmədi. Hz. Peyğəmbər *(s.ə.s)* dəvətini təkrarlamasına baxmayaraq o yenə də dəvətdən üz çevirdi. Onun İslama yanaşmadığını görən Hz. Ömər dayana bilmədi və: «Yə Rəsulullah! Nə üçün bununla bu qədər məşğul olursan?! Vallahi bu insan müsəlman olmaz. İcazə ver ki, onun boynunu vurum və cəhənnəmə getsin" dedi. Lakin Hz. Peyğəmbər *(s.ə.s)* onun sözünə fikir vermədi və dəvətinə davam etdi. Nəhayət həmin şəxs müsəlman oldu. Bundan sonra Hz. Peyğəmbər *(s.ə.s)* səhabələrinə dönərək: *"Əgər az öncə sizi dinləmiş olsaydım onu öldürəcəkdim və cəhənnəmlik olacaqdı"* buyurdu. Hakəm səmimi müsəlman olmuş və cihadlarda iştirak etmişdir.[486]

İnsan qazanma məqsədilə Hz. Peyğəmbərin *(s.ə.s)* fərz ibadəti yarımçıq qoyaraq müxatəbi ilə yaxından məşğul olduğu məlumdur. Bir gün cümə xütbəsi vaxtı bir nəfər gələrək İslam haqqında məlumat almaq istəmiş və bunu eşidən Hz. Peyğəmbər *(s.ə.s)* xütbəni yarımçıq qoyaraq ona İslamdan bəhs etmişdir. Daha sonra xütbəsinə davam etmişdir.[487]

Hz. Peyğəmbər *(s.ə.s)* insanların reaksiyalarını həmişə nəzərə alırdı. Öz yanındakıları küsdürməmək, qarşı tərəfi qorxutmamaq və İslamdan uzaqlaşdırmamaq üçün planlı şəkildə hərəkət edirdi. Bəni Mustaliq qəzvəsindəki xainliyi səbəbilə

---

485. *"Allaha and olsun ki, Allah-Təalanın sənin vasitənlə bir insanı hidayətə çatdırması (ən qiymətli dünya neməti sayılan) qırmızı (qızıl) dəvələrə sahib olmağından daha xeyirlidir".* Buxari, Cihad, 102; İbn Kəsir, *əl-Bidayə*, IV, 185.
486. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 75-76.
487. Müslim, Cümə, 60; Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 80.

münafiqlərin rəisi Abdullah ibn Übeyin qətlini istəyənlərin təklifini qəbul etməmişdir.[488] Əgər o öldürülmüş olsaydı onun münafiq tərəfdarları, qan bağına böyük əhəmiyyət verən qohumları və qəbiləsi qorxaraq İslamdan uzaqlaşacaqdı. İslam dəvətinin siyasət və metodu isə, qorxutmaq və uzaqlaşdırmaq yox, sevdirmək və yaxınlaşdırmaqdır.

Günümüzdəki İslami dəvət hərəkatlarındakı ən böyük əskiklik bu yöndədir. Mütləq bilinməlidir ki, tutulan yol və metoda qarşı olan kəsləri və qeyri-islami yaşayış sahiblərini ittiham etmək, onlara müharibə elan etmək, hər cür əlaqə və münasibəti kəsmək təbliğ fəaliyyətinə heç bir şey qazandırmayacaq, belə davranmaq insanları İslamdan uzaqlaşdıracaqdır.

**6. Təvazö**

Dünya həyatında insanları bəzəyən ən mühüm zinət, təvazödür. Təvazö təbliğ əhli üçün fərz, kibir və qürur isə haramdır. Uca Allah belə buyurmuşdur: **"Yer üzündə təkəbbürlə gəzib dolanma. Çünki sən nə yeri yara bilər, nə də** (boyca) **yüksəlib dağlara çata bilərsən".** (İsra, 17/37) **"Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!".** (Loğman, 31/18) **"Həqiqətən, Allah özünü bəyənənləri, lovğalıq edənləri sevməz!".** (Nisa, 4/36) **"Allah özünü bəyənən,** (özü ilə) **fəxr edən heç bir kəsi sevməz!".** (Hədid, 57/23)

Uca Allah təvazökar bəndələri mədh etmiş və onlar haqqında belə buyurmuşdur: **"Rəhmanın** (əsl) **bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə** (təvazökarlıqla) **gəzər, cahillər onlara söz atdıqları** (xoşlarına gəlməyən bir söz dedikləri) **zaman** (onları incitməmək üçün) **salam deyərlər".** (Furqan, 25/63)

Rəsulullah *(s.ə.s)* mövzu haqqında belə buyurmuşdur: *"Kim Allah-Təalanın rizası üçün bir zərrə təvazö göstərərsə, bu səbəblə Allah onu bir dərəcə yüksəldər. Kim də Allaha qarşı bir zərrə təkəbbürlük göstərərsə, Allah da onu bu səbəblə, bir dərəcə alçaldar, axırda da onu əsfələ-səfilinə (aşağılardan da aşağıya) atar"*.[489]

488. Buxari, Mənaqib, 8.
489. Müslim, Birr, 69; İbn Macə, Zöhd, 16.

Təkəbbürün nə qədər pis bir xüsusiyyət olduğunu Hz. Peyğəmbər *(s.ə.s)* belə ifadə etmişdir. *"Üç tip insan var ki, qiyamət günü Allah, onları nəzərindən uzaq tutar, üzlərinə baxmaz və onlara haqq qazandırmaz. Həm də onları şiddətli bir əzab gözləyir"*. Rəsulullah *(s.ə.s)* bu cümləni üç dəfə təkrarladıqdan sonra Əbu Zərr (r.a): – Bunlar tam bir məhrumiyyətə və pərişanlığa məruz qalmışlar. Kimdir onlar, ey Allahın Rəsulu? – deyə soruşdu. Hz. Peyğəmbər də: *Paltarını təkəbbürlə yerlə sürüyən, etdiyi yaxşılığı başa vuran və yalan yerə and içərək malını yaxşı qiymətə satmağa çalışandır"* – cavabını verdi.[490]

Hədisdən də başa düşüldüyü kimi lovğalanmaq və özündən razı olmaq, insanı, axirət-də Allah-Təalanın kəlamından, nəzərindən və müdafiəsindən məhrum edib ələmli bir əzaba düçar edəcək qədər pis bir xislətdir. Belələri, həqiqət yolundan çıxdıqları kimi, insanlar tərəfindən də sevilməzlər. Təvazö isə insanı həqiqətə alışdırar, eyni zamanda ucaldar. Bir mütəfəkkirin dediyi kimi "İctimai həyatda hamının görəcəyi və görünəcəyi, mərtəbə adlanan bir pəncərə var. Boyu qısa olanlar o, pəncərədən görünə bilmək üçün təkəbbürlə yuxarı qalxarkən, böyüklər də təvazö ilə əyilirlər. Bir insanda böyüklük təvazö ilə, kiçiklik də təkəbbürlə ölçülür". Nəticədə, bütün insanlar təvazökarları qeyri-ixtiyari sevərlər. Çünki, hər şey kimi sevgi də yuxarıdan aşağıya doğru axar.

Təvazökarlığın saysız nümunələrini Hz. Peyğəmbərin *(s.ə.s)* həyatında görə bilərik.

Allah-Təala təvazökar olmağı ilk növbədə ən sevimli bəndəsi olan Hz. Peyğəmbərə *(s.ə.s)* əmr edir. **"Sənə tabe olan möminləri qanadının altına al!"** (Şuəra, 26/215) əmrini alan Rəsulullah *(s.ə.s)* Allah-Təala mənə, *"O qədər təvazökar olun ki, heç kim heç kimə qarşı lovğalanmasın; heç kim heç kimə zülm etməsin!"* deyə əmr etdi[491] – buyurmuş və həyatını təvazökarlığın zirvəsində yaşayaraq biz ümməti üçün saysız-hesabsız nümunələr göstərmişdir. Allah-Təalaya bəndəliyi özünə ən böyük şərəf bilib

490. Müslim, İman, 171.
491. Müslim, Cənnət, 64.

nə krallığa, nə də şahlığa meyl etməmişdir. Hz. Peyğəmbərin *(s.ə.s)* bu seçimi haqqında rəvayət belədir:

"Bir gün, Allah Rəsulu *(s.ə.s)* Cəbrayıl ilə söhbət edirdi. Həmin anda səmadan bir mələk endi. Cəbrayıl (ə.s) bu mələyin dünyaya ilk dəfə endiyini söylədi. Mələk «Ya Muhammməd! Məni sənə Rəbbin göndərdi. Soruşur ki, məlik peyğəmbər, yoxsa bəndə peyğəmbər olmaq istəyirsən?" dedi. Hz. Peyğəmbər *(s.ə.s)* Cəbrayıla (ə.s) baxdı. O da təvazökar olmağına işarət edib, «Ey Allahın Rəsulu! Rəbbinə qarşı təvazökar ol!" – dedi. Rəsulullah *(s.ə.s)* – *"Bəndə peyğəmbər olmaq istəyirəm"*[492] – buyuraraq müstəsna bir təvazökarlıq nümunəsi nümayiş etdirdi. Bu seçimdən sonra bəndəlik, insanın çata biləcəyi ən şərəfli mövqe oldu. Rəsulullah *(s.ə.s)* ona həddindən artıq hörmət göstərənlərə, *"Siz məni haqqım olan dərəcənin üstünə çıxarmayın! Çünki, Uca Allah məni rəsul etmədən əvvəl bəndə olaraq yaratmışdı"*[493] – deyə xəbərdarlıq edərək bəndə olmağın qiymətini bildirmişdir.

Abdullah ibn Cubeyr (r.a) nəql edir: Bir gün Hz. Peyğəmbər *(s.ə.s)* bir qrup səhabəylə yolda gedərkən onlardan biri örtüklə Allah Rəsulunu *(s.ə.s)* günəşdən qorumaq istədi. Rəsulullah *(s.ə.s)* kölgəni gördükdə başını qaldırdı, birinin ona kölgə saldığını gördü. O şəxsə: *"Burax onu"*, dedi. Örtüyü alıb yerə qoydu və *"Mən də sizin kimi bir insanam!"* buyurdu.[494]

Hz. Peyğəmbər *(s.ə.s)* insanların ən şərəflisi olmasına baxmayaraq heç kimin göstərə bilməyəcəyi təvazökarlığı göstərmiş, insanların arasında onlardan biri kimi yaşamışdır. Abbas (r.a) belə nəql edir: Rəsulullaha *(s.ə.s)*: " – Ya Rəsulallah! Özünüz üçün taxt-tac düzəldib orada otursanız, daha yaxşı olmaz? Görürəm ki, caamat sizi narahat edir, dedim. Allah Rəsulu *(s.ə.s)* belə buyurdu: – *Xeyr! Allah məni onların yanından alıb rahatlığa çıxarana qədər onların arasında qalacağam. Qoy dabanlarımı bassınlar, paltarımı dartsınlar, qaldırdıqları tozlar məni narahat etsin!"*.[495]

492. Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 231; Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 18, 20.
493. Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 21.
494. Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 21.
495. İbn Sad, *ət-Təbəqatul-Kubra*, II, 193; Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 21.

Bu geniş təvazökarlığına görə Hz. Peyğəmbər *(s.ə.s)* nə bağlı qapılar və pərdələr arxasında gizlənir, nə də qabağına yemək gətirilirdi. Torpaq üstündə oturur, yerdə yemək yeyir və «Mən hər hansı bir insanın yaşadığı kimi yaşayır, yemək yediyi kimi yeyirəm!" buyururdu.[496] Kölələr belə arpa çörəyinə dəvət etsələr, dəvətlərini qəbul edər,[497] uşaqlara belə salam verərdi.[498]

Mədinəli hər hansı bir nəfər, hətta bir kölə belə Hz. Peyğəmbərin *(s.ə.s)* əlindən tutar, onu istədiyi yerə aparar, istəyini ərz edər və çətin işini həll edərdi.[499]

Hz. Peyğəmbər *(s.ə.s)* Allah-Təala dərgahındakı izzəti bilindiyi və sonsuz ilahi lütfkarlıqla şərəfləndiyi halda səhabələrdən dua istəyəcək qədər təvazökar ola bilmişdi. Hz. Ömər (r.a) belə nəql edir. Hz. Peyğəmbərdən *(s.ə.s)* ümrə üçün icazə istədim. İcazə verdi və: *" – Məni də duanda yada sal, əziz qardaşım!"* – buyurdu. Rəsulullahın *(s.ə.s)* bu sözünün əvəzində mənə dünyaları versəydilər, bu qədər sevinməzdim.[500]

Hz. Peyğəmbər *(s.ə.s)* evində olanda paltarını yamayar, ayaqqablarını təmir edər[501] və qoyunu sağardı.[502] Əşyasını da yenə özü daşıyar, heç kimə yük olmaq istəməzdi. Əbu Hüreyrənin (r.a) nəql etdiyi bu xatirəsi buna çox gözəl nümunədir:

"...Bir gün Hz. Peyğəmbərlə *(s.ə.s)* bir yerdə bazara getmişdim. Rəsulullah *(s.ə.s)* oradan paltar aldı. Dərhal yanına qaçıb əlindən almaq istədim. O isə: *"İnsanın əşyasını özünün aparmağı daha məqsədəuyğundur. Ancaq, apara bilmirsə müsəlman qardaşı ona kömək edər"* – buyurdu.[503]

Ənəsin (r.a) nəql etdiyinə görə Rəsulullah *(s.ə.s)* xəstələrə baş çəkər, cənazələrin aparılmasında iştirak edər və hamının mindiyi miniklərdən istifadə edərdi. Məsələn, uzunqulağa minməkdən çəkinməzdi. Belə ki, Xeybər fəth ediləndə, Qurey-

496. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 372.
497. Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 20.
498. Buxari, İstizan, 15.
499. Buxari, Ədəb, 16.
500. Əbu Davud, Vitr, 23.
501. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 366.
502. Heysəmi, *Məcməuz-Zəvaid*, IX, 20.
503. Heysəmi, *Məcməuz-Zəvaid*, V, 122.

za oğullarına səfərə gedəndə noxtası xurma lifindən olan bir uzunqulaqdan minik olaraq istifadə etmişdi.[504] Heç bir miniyi olmadan piyada da gəzərdi və bu, onun üçün olduqca normal bir hal idi. Cabir (r.a); "Xəstəydim, Rəsulullah *(s.ə.s)* mənə baş çəkdi. Heç nəyə minmədən, gəzərək gəlmişdi"[505] sözlərilə onun bu təvazökar davranışından bəhs edir.

Məscidi-Nəbəvi inşa ediləndə hami kimi kərpic daşıyan, xəndək qazmada hamı acından qarnına bir daş bağlayarkən iki daş bağlayan Hz. Peyğəmbər *(s.ə.s)*, əshabı arasında onlardan fərqlənməyəcək şəkildə yaşamış, özünü onlardan üstün tutmamışdır. Abdullah ibn Busr (r.a) belə bir hadisə nəql edir: "Hz. Peyğəmbərin *(s.ə.s)* dörd nəfərin götürə bildiyi «Qarra" adlı bir yemək qazanı vardı. Quşluq vaxtı girib quşluq namazı da qılındıqdan sonra, içində şorba olan bu qabı gətirdilər. Səhablər ətrafına yığışdı. Sahabələr çoxalanda Rəsulullah *(s.ə.s)* dizi üstə oturdu. Bunu görən bir bədəvi, həyatında heç vaxt bu qədər üstün bir təvazö görmədiyi uçün təəccüblə: – Bu necə oturmaqdır, deyə soruşdu. Rəsulullah *(s.ə.s)* buyurdu: – *Allah-Təala məni inadkar bir zorba deyil, şərəfli bir bəndə olaraq yaratdı"*.[506]

Allah Rəsulu *(s.ə.s)* bir kimsənin özünü yoldaşlarından fərqli görməsini xoşlamazdı. Bir səfərdə əshabına qoyun kəsib bişirməyi əmr etmişdi. Əshabından biri, "Ya Rəsulallah, mən kəsərəm" – dedi. O biri, "Ya Rəsulallah, mən də soyaram" – dedi. Biri də, Ya Rəsulallah, mən də bişirərəm" – dedi. Hz. Peyğəmbər də: " – *Onda, mən də odun yığaram"*, – buyurdu. Səhabələr: – Ya Rəsulallah! Onu da biz edərik, sən işləmə desələr də Hz. Peyğəmbər *(s.ə.s)*: " – *Bilirəm ki, siz mənim işimi də görə bilərsiniz. Ancaq mən, sizə nisbətən imtiyazlı görünməyi xoşlamıram. Çünki, Allah-Təala bəndəsinin, yoldaşları arasında özünü üstün tutmağını sevməz"*.[507]Allah Rəsulu *(s.ə.s)*, həm dövlət başçısı, həm də ordu komandiri kimi rütbə və dərəcələrə sahib olduğu halda, tayı-bərabəri olmayan bir təvazökarlıq nümunəsi nümayiş etdirmişdir. Bu əzmkarlıq və cəhdləri, Allah-Təalanın inayəti

504. Hakim, *Müstədrək*, II, 506.
505. Buxari, Mərda, 15.
506. Əbu Davud, Ətimə, 17.
507. Qandəhləvi, *Həyatus-Səhabə*, I, 97.

ilə birlikdə ona böyük fəthlər nəsib etmişdir. Ancaq, bunların heç biri Hz. Peyğəmbərin *(s.ə.s)* təvazökarlığına zərrə qədər də xələl gətirməmişdir. Hz. Peyğəmbərin *(s.ə.s)* fəthdən sonra Məkkeyi-Mükərrəməyə girişi təvazökarlığın ən gözəl nümunələrindəndir. Orada olan səhabələr bu vəziyyəti belə nəql edirlər: «Rəsulullah *(s.ə.s)*, Məkkəni fəth etməyə gedən ordunun başında idi. Zəfər nəsib olandan sonra dəvəsinin üstündə Məkkəyə girəndə, Uca Rəbbinə qarşı başını elə təvazökarlıqla əymişdi ki, saqqalının ucları az qala dəvəsinin yəhərinə dəyirdi. O əsnada daim: *"Ey Allahım! Həyat ancaq axirət həyatıdır!"* –deyirdi.[508]

Hz. Peyğəmbər *(s.ə.s)*, bu zəfərlərinə baxmayaraq, insanlara qarşı təvazökarlığından əl çəkməmişdir. Məsələn, səhabələrdən biri dəvədə gedərkən o, sadə bir insan kimi piyada gəzmişdir. Bir gün Rəsulullah *(s.ə.s)*, Mühacir və Ənsardan bir neçə nəfərlə bir yerdə Muaz ibn Cəbəli Yəmənə vali olaraq yola salmağa çıxmışdı. Muaz (r.a) minik üstündə, Allahın Rəsulu *(s.ə.s)* isə yanında piyada gedir və ona bəzi məsləhətlər verirdi. Muaz: – Ya Rəsulallah! Mən minikdəyəm sən isə piyada gedirsən! Mən də düşüb səninlə və əshabınla bir yerdə getsəm, olmaz? – deyə xəcalətini dilə gətirdi. Ona təskinlik verən Hz. Peyğəmbər *(s.ə.s)*, onun üçün əsas məsələnin nə olduğunu açıq şəkildə göstərən bu cavabı verdi: *" – Ey Muaz! Bu addımlarımın Allah yolunda atılan addımlar olmağını istəyirəm".*[509]

Yenə, Hz. Peyğəmbər *(s.ə.s)*, bu yüksək təvazökarlığına görə, səfərdə arxada gedər, getməyə çətinlik çəkəni tərkinə alar və onlar üçün dua edərdi.[510]

Belə bir təvazökarlığın mahiyyətində, məqam və mövqelərə heç bir qiymət verməmək durur. Onun nəzərində həyat, ancaq axirət həyatı idi və bir-birilə yarışanlar da bunun üçün yarışmalı idilər. Bütün bu rəvayətlərdə gördüyümüz misallar, Onun üstün təvazökarlığından bizə əks edən parıltılardır. O isə, onun

508. Buxari, Riqaq, 1, 47; Vaqidi, *Məğazi*, II, 824.
509. Diyarbəkri, *Tarixul-Xamis*, II, 142.
510. Əbu Davud, Cihad, 94.

haqqında bəhs etdiklərimizdən daha yüksəklərdədir. Çünki, təvazökarlıq, onun şüarıdır.

Təbliğ əhli sadalananlardan nəticə çıxarmalıdır. Təbliğçinin kibirli davranması insanları ondan soyutmaqla yanaşı onların İslamdan uzaqlaşmasına və nəticədə İslam dəvətini qəbul etməməsinə gətirib çıxarar. Üstəlik İslam haqqında yanlış qənaət sahibi olmalarına səbəb olar. Halbuki təbliğ əhlinin vəzifəsi, Rəsulullahın *(s.ə.s)* izini təqib etmək və işıqlı yolunda getmək olmalıdır.

### 7. Nümunə olmaq

Allaha dəvətdə ən mühüm vasitələrindən biri, təbliğ əhlinin mədh edilməyə layiq davranışları, yüksək məziyyətləri və təmiz əxlaqı ilə göstərdiyi örnək yaşayış tərzidir. Təbliğ əhli, insanların İslam əsaslarını onda görüb oxuduğu açıq bir kitab kimi olmalıdır. Buna görə də İslami dəvətin uğur qazana bilməsi üçün təbliğ əhlinin təbliğ etdiyi əsasları həyatında tətbiq edərək Üsveyi-həsənə (ən gözəl əxlaq sahibi) olması zəruridir.

Başqa bir ifadə ilə təbliğ əhlində söz və əməl uyğunluğu, elm və əməl bütünlüyü olmalıdır. Çünki insanın təbiəti həqiqətləri eşitməkdən çox, onları əməldə görməyə meyllidir. Bir sözlə İslamın təbliğdən daha çox təmsilə ehtiyacı vardır.

Allah-Təala, İslam təbliğçilərini örnək şəxsiyyətlər olmağa dəvət edir və əməllərinin dediklərinin tərsi olmamasını istəyir.

**"Ey iman gətirənlər! Nə üçün etmədiyiniz şeyləri deyirsiniz? Etmədiyiniz şeyi deməyiniz Allah qatında böyük bir qəzəbə səbəb olar".** (Saff, 61/2-3)

**"İnsanlara yaxşılığı əmr edib özünüzü unudursunuz? Hələ üstəlik kitabı da oxuyursunuz. Heç düşünmürsünüzmü?".** (Bəqərə, 2/44)

Sağlam bir şəxsiyyətə malik olmayan və əməli sözünə uyğun gəlməyən adamın dedikləri heç kimə təsir etməz. Bu mənada Hz. Peyğəmbər *(s.ə.s)* və onun ardınca gedənlər, insanlara örnək olmalı, sözləri ilə əməlləri arasında təzad olmamalıdır.

Hz. Şüeyb (ə.s) ayədə göstərildiyi kimi qövmünə belə xitab etmişdir:

**"...Etməyinizi qadağan etdiyim şeyləri** (özüm etməklə) **sizə** (və dediklərimə) **müxalif davranmaq istəmirəm".** (Hud, 11/88)

Beləliklə həyatın hər sahəsində "Üsveyi-həsənə" olan Allah Rəsulunda bu həqiqət ən kamil şəkildə idi. Rəsulullah *(s.ə.s)* təbliğ etdiyi əsasları elə bir şəkildə yaşayır və təmsil edirdi ki, ona baxan bir insan, başqa heç bir dəlilə ehtiyac duymadan doğruluğuna qənaət gətirirdi. Çox vaxt onu görmək peyğəmbərliyini qəbul etməyə kifayət edirdi. Abdullah ibn Rəvahanın (r.a) bu beyti həqiqəti tam şəkildə ifadə edir:

*"O açıq-aşkar möcüzələrlə gəlməmiş olsaydı belə, yalnız mübarək üzünə baxmaq, əxlaq və şəmailini seyr etmək onun doğruluğunu anlamaq üçün sənə kifayət edərdi".*

İnsanları özünə heyran edəcək bu örnək yaşayış tərzi Rəsulullah *(s.ə.s)* hələ peyğəmbər olmadan öncə də mövcud idi. O, peyğəmbərliyinə qədərki qırx il boyunca hər cür pislikdən uzaq pak bir həyat sürmüş, yaşadığı cəmiyyətdə geniş yayılan günah və çirkinliklərin (eybəcərliklərin) heç birinə bulaşmamışdır. Qurani-Kərimin bir ayəsində:

**"Vəhy gəlmədən** (Quran nazil ediləndən) **öncə sizin aranızda** (qırx il) **ömür sürmüşəm. Məgər** (Quranın mənim sözlərim deyil, məhz Allahın kəlamı olduğunu) **dərk etmirsiniz?"** (Yunus, 11/16) buyurularaq bəhs edilən həqiqətə işarə edilir.

Bu ilahi ifadələr Allah Rəsulunun *(s.ə.s)* peyğəmbərlikdən əvvəlki həyatına işıq salır və *"Ey inadkarlıqla və israrla mənim peyğəmbərliyimə qarşı çıxan məkkəlilər Quranı gətirmədən əvvəl sizin aranızda qırx il yaşadım. Mənim nə qədər doğru və dürüst bir insan olduğumu başa düşməyiniz, xatırlamağınız və belə ecazkar bir Quranın da yalnız Allah kəlamı ola biləcəyini qəbul etməyiniz üçün bu qədər uzun zaman ərzində sizinlə bir yerdə olmağım kifayət etmirmi?"* deyə xəbərdarlıq edir.

Allah Rəsulu *(s.ə.s)* gənc yaşlarından etibarən comərdlikdə insanların ən üstünü, həyada ən kamili, əsil-nəcabətdə ən kübarı, himayə etməkdə ən gözəli, təhəmmül etməkdə ən güclüsü, sözünə ən sadiqi, etibarlılıqda hər cür nadanlıqdan uzaq olanı idi. Qövmü onu əl-Əmin deyə vəsfləndirmişdi. Hətta əl-Əmin vəsfi Hz. Peyğəmbərin *(s.ə.s)* ikinci bir adı olmuşdur. O, 25 yaşına çatdıqda yalnız əl-Əmin adı ilə çağrılırdı.[511] Hz. Peyğəmbərin *(s.ə.s)* dünyaya gəlişindən bəri yaşadığı müstəsna həyatı Hz. Xədicə anamız nə gözəl ifadə edir:

"Allaha and olsun ki, Allah səni heç vaxt utandırmaz. Çünki sən qohum-əqrəbana diqqət edirsən, işini görməkdə aciz olanların yükünü daşıyır, yoxsullara əl tutur, gələn qonağı qəbul edirsən. Haqq yolunda qarşılaşdıqları müsibət və fəlakətlərdə xalqa yardım edir, sözün düzünü deyir və əmanətə riayət edirsən. Sənin əxlaqın olduqca gözəldir".[512]

Hz. Peyğəmbər Səfa təpəsində etdiyi ilk dəvətdə də həmkarlarını inandırmaq məqsədilə ilk dəlil olaraq "örnək həyatını" göstərmişdir.

*"Əgər bu vadinin arxasında hücum etmək üçün gözləyən atlılar var, desəm mənə inanarsınız?"* şəklindəki bir sual ilə danışmağa başlamış, eşidənlər də bu qarşılığı vermişdilər:

– Sən doğru danışan və əmin bir insansan, indiyə qədər hər hansı bir yalanını heç eşitmədik.

Onların bu təsdiqindən sonra Hz. Peyğəmbər *(s.ə.s)* onlara İslamı təbliğ etmişdi.[513]

Təbliğ əhlinin təbliğ etdiyi məsələləri hamıdan öncə özünün həyatda tətbiq etməsi lazım gəldiyini göstərən bu misal da olduqca mühümdür. Umman məliki əl-Cündiyə Rəsulullahın *(s.ə.s)* İslama dəvət məktubu çatdığı zaman o, Hz. Peyğəmbərin *(s.ə.s)* həyatı haqqında məlumat istədi. Ətraflı məlumat əldə etdikdən sonra:

---

511. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 121, 156.
512. Buxari, Vəhyin başlanğıcı, 1.
513. Müslim, İman, 355.

– Allah mənə bu peyğəmbəri tanımağı nəsib etdi. O, heç bir yaxşılığı ilk olaraq özü tətbiq etmədən əmr etmir, heç bir pisliyi də öncə özü tərk etmədən qadağan etmir. O mütləq qalib gələcək, onun qarşısını heç kim ala bilməyəcək. Mütləq hamıdan üstün olacaq, darda qalmayacaq. O, əhdinə vəfa göstərir, vədini yerinə yetirir. Mən əminliklə qəbul edirəm ki, o, bir peyğəmbərdir, deyərək müsəlman olmuşdur.[514]

Yəhudilərin məşhur alimlərindən Abdullah ibn Səlam onun üzünü gördüyündə; " – Bu üz, yalançı ola bilməz!" – deyərək yalnız bu səbəblə iman gətirmişdir.[515]

Hz. Peyğəmbər *(s.ə.s)* təbliğatının mücərrəd olmasından daha çox qeyri-mücərrəd (konkret) olmasına əhəmiyyət vermişdir. Hz. Ənəsin (r.a) bildirdiyinə görə: «Rəsulullah *(s.ə.s)* mühacirlərin və ənsarın, (namazın ədəblərini) ondan dəqiqliklə görüb öyrənə bilmələri üçün arxasında namaza durmalarını istəyirdi".[516]

Yenə həcc ibadətini yerinə yetirərkən müsəlmanların rahat şəkildə görüb öyrənə bilmələri üçün, bir çox rüknü dəvə üzərində etmiş və:

*"– Ey insanlar! Həcc əməllərinin necə ediləcəyini məndən öyrənin. Bilmirəm, bəlkə bu ildən sonra bir daha həccə gələ bilmədim"* – buyurmuşdur.[517]

İbadətlərin bu şəkildə yerinə yetirilməsində nümunə olan Hz. Peyğəmbər *(s.ə.s)* haramların tərk edilməsində də canlı nümunə olmuşdur. Qızıl taxmağın kişilərə haram qılındığını təbliğ etmək üçün barmağındakı qızıl üzüyü camaata göstərmiş:

*" – Mən üzüyü taxır və qaşını da əlimin içinə çevirirdim"* – dedikdən sonra onu çıxarıb atmış və:

514. İbn Həcər, *əl-İsabə*, I, 262.
515. Tirmizi, Qiyamət, 42. Cəfər Sadiq (rəhmətullah) belə deyir: "Dilinizdən daha çox örnək həyatınızla İslam dəvətçiləri olun. Sizin hal və davranışlarınızda təqva, saleh əməl və yaxşılıqlar özünü göstərsin. Məhz qəlbləri fəth edərək İslama cəzb edəcək həqiqi dəvət əhli bu xislətlərə malik olmalıdır".
516. İbn Macə, Salət, 44.
517. Müslim, Həcc, 310; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 318.

*" – Allaha and olsun ki, bir daha onu taxmayacağam!"* – demişdir.[518]

Rəsulullah *(s.ə.s)* İslama dəvət etdiyi insanlara İslami yaşayış tərzini göstərərək fikir və qərarlarını ona uyğun təyin etmələrinə imkan yaratmışdır. Bədir savaşında ələ keçirilən əsirləri toplu bir yerdə saxlamamış, onları səhabələrə bir-bir paylayaraq qonaq etmələrini tövsiyə etmişdir. Allah Rəsulunun *(s.ə.s)* tətbiq etdiyi bu üsul, əsirlərin, səhabənin yaşadığı İslami həyatı yaxından müşahidə etməsi, bu həyatın gözəlliyini görməsi və beləliklə könüllərinin haqq yoluna alışması məqsədini güdürdü.

Eynilə də Mədinəyə müxtəlif səbəblərlə gələn bəzi heyət üzvlərinin səhabələrin evlərinə bölüşdürülərək qonaq edilməsində də bu məqsəd güdülmüşdür.[519] Necə ki, Hz. Peyğəmbər *(s.ə.s)*, Taif heyəti Mədinəyə gəldiyində, müsəlmanların Quran oxumaları, namaz qılmaları, xüşu və hüzur içində ibadətləri onların qəlblərini riqqətə gətirsin deyə heyəti məsciddə qonaq etmişdir.[520]

Rəsulullah *(s.ə.s)* yanına gəlib İslamı öyrənən şəxsləri öz vətənlərinə göndərərək, xalqın arasında örnək həyat tərzləri ilə təbliğ etmələrini istəyirdi. Malik ibn Huveyris belə nəql edir:

Yaş cəhətdən həmyaşıd olan beş on nəfərlə Rəsulullahın *(s.ə.s)* yanına gəlib iyirmi gün orada qaldıq. Hz. Peyğəmbər *(s.ə.s)* çox mərhəmətli və şəfqətli idi. Ailəmizdən ötrü darıxdığımızı başa düşüb evdə kimləri qoyub gəldiyimizi soruşdu. Biz də dedik və bundan sonra buyurdu ki:

*"Əhlinizin (ailənizin) yanına qayıdın və onların arasında olun. Onlara lazım olan məlumatları verin, deyiləcək şeyləri deyin".*

Daha sonra bir çox şeylər buyurdu ki, hal-hazırda onların bir qismini xatırlayır, bir qismini isə unutmuşam. Sonra belə davam etdi:

---

518. Buxari, Əymən, 6.
519. Əhməd ibn Hənbəl, *Müsnəd,* III, 432.
520. Əbu Davud, İmarət, 26.

*" – Məndən gördüyünüz kimi namaz qılın. Namaz vaxtı gəldiyində aranızdan bir nəfər azan oxusun, ən yaşlınız da imam olsun".*[521]

Təbliğ əhli bütün bu sadalanan xüsuslara diqqət etməyə və gözəl nümunə olmağa çalışmalıdır.

**8. Xarici Görünüş**

İslam məna və möhtəvaya önəm verdiyi qədər xarici görünüşə də dəyər verir. Zamanla insanın qəlbinin, təfəkkür və düşüncəsinin təsiri simasına əks olunur. Ayədə ifadə edildiyi kimi[522] səcdə, iman edənlərin üzünə bir nur verir. Bunun əksi də mümkündür.

İnsanın ruhunu əks etdirən xarici görünüşün, geyim-kecimin həmsöhbət üzərindəki təsiri danılmazdır. Əksər hallarda dəvət edilən insan təbliğçinin görünüşünə görə qərar verir.

Rəsulullah *(s.ə.s)* Mədinəyə təşrif edəndə onu görmək üçün yanına gələn yəhudi alimi Abdullah ibn Səlam, "Vallah bu sima yalançı ola bilməz" demişdir.[523]

Hz. Peyğəmbəri *(s.ə.s)* öldürmək məqsədilə gələn bir bədəvi də Hz. Peyğəmbərin *(s.ə.s)* üzünü gördüyü anda "Ağlının getdiyini" etiraf etmişdir.[524]

Xarici görünüşün böyük təsiri olduğu üçün təbliğçinin görünüşü gözəl, bədəni sağlam, geyimi təmiz və səliqəli olmalıdır.

Hz. Peyğəmbər *(s.ə.s)* İslam təbliğçisi olaraq göndərdiyi elçilərin xarici görünüşünün gözəl olmasına çalışardı. Çox yaraşıqlı olan Dihyətul-Kəlbinin Bizansa iki dəfə elçi göndərilməsi də bunun bariz nümunəsidir.[525] Hz. Peyğəmbərin *(s.ə.s)* valilərə belə təlimat verdiyi nəql edilir: *"Mənə göndəriləcək elçiləri yaraşıqlı və adı gözəl olanlardan seçin".*[526]

---

521. Buxari, Azan, 18.
522. Fəth, 48/29.
523. Tirmizi, Qiyamət, 42; İbn Macə, İqamət, 174; Darimi, Salət, 156; Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 451; İbn Kəsir, *əl-Bidayə*, III, 210-212.
524. İbn Kəsir, *əl-Bidayə*, IV, 69-70.
525. Kəttani, *Təratib*, I, 190; M. Həmidullah, *İ. Peyğəmbəri*, II, 260.
526. M. Həmidullah, *İ. Peyğəmbəri*, II, 260.

Hz. Peyğəmbər *(s.ə.s)* səhabələrin dağınıq vəziyyətdə oturmalarından xoşlanmazdı. Bir gün onların dağınıq vəziyyətdə oturduqlarını gördükdə *"bir yerə yığılın"* deyə əmr vermiş və onları bir yerə toplamışdır.[527]

Bir gün hüzuruna saçı-saqqalı dağınıq və üstü-başı səliqəsiz bir nəfər gəldi. Əli ilə üst başını düzəltməsini işarə etmiş, həmin şəxs özünü səliqəyə saldıqdan sonra yenidən yanına gəlmişdir. Bunu görən Hz. Peyğəmbər *(s.ə.s)*: *"Belə səliqəli olmaq Şeytan kimi saçı-başı dağınıq gəzməkdən daha yaxşı deyilmi?!"* buyurmuşdur.[528]

Rəsulullah *(s.ə.s)* saçları dağınıq bir adam gördü:

*"Bu adam saçlarını düzəldib səliqə-sahmana salacaq bir şey tapmadımı?"* − deyə narazılığını bildirdi.

Bu vaxt üst-başı kirli başqa bir adam onların yanından keçdi. Onun haqqında da:

*"Bu adam paltarını yuyacaq bir şey tapa bilmirmi?"* – deyə öz fikrini bildirdi.[529]

Hz. Peyğəmbər *(s.ə.s)* bir gün səhabələrinə kibir haqqında danışırdı. Dinləyənlərdən birisi: "İnsanın paltarının və ayaqqabısının gözəl olmasını istəməyi kibirdir?" − deyə soruşdu. Hz. Peyğəmbərin *(s.ə.s)* cavabı isə təşviq edici mahiyyətdə belə olmuşdur: *"Xeyr! Allah gözəldir və gözəli sevir"*.[530]

Bilindiyi kimi bədən quruluşu və üz gözəlliyi insanın əlində deyil. Bu Uca Allahın yaradılışı ilə əlaqəlidir. Doğuşdan qüsurlu doğulanlar olduğu kimi sonradan hər hansı bir xəstəlik və ya qəza nəticəsində də gözəlliyini itirənlər ola bilər. Bir insanın belə olması onun üzərindən təbliğ məsuliyyətini qaldırmır. Təbliğ fəaliyyəti insanın ailəsi içində, dost və qohumları və digər insanlar arasında edilməsi gərəkli olan vəzifədir. Burada diqqət edilməsi gərəkən xüsus hər hansı bir yerə elçi göndərərkən xarici görünüşü daha gözəl olan insanın seçilməsidir.

527. S. Sabiq, *Fiqhus-Sünnə*, II, 600.
528. İmam Malik, Muvatta, Şəar, 7.
529. Əbu Davud, Libas, 14.
530. Müslim, İman, 147; İbn Macə, Dua, 10; Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 133.

**9. Həmsöhbətin fikirlərini soruşmaq**

Yaddan çıxarmaq olmaz ki, təbliğ yalnız bir "anlatma" işi deyil. Qarşı tərəfin fikirlərinin öyrənilməsi, suallarına cavab verilməsi, onu narahat edən məsələlərin dəlillərlə aradan götürülməsi lazımdır. Buna görə ünsiyyət zamanı onun fikri soruşulmalı, əmin olub-olmadığına nəzarət edilməli və buna uyğun olaraq yeni mövzuya və ya üsluba keçilməlidir. Quranda rəsulların istifadə etdiyi metodlara nəzər salsaq, onların sorğu-sual yolu ilə qövmlərinin fikirlərini öyrəndiyini görürük. Qövmünə **"Ey qövmüm! Bir deyin görək! Əgər mən Rəbbimdən aşkar bir möcüzə ilə gəlsəm və Rəbbim mənə Öz dərgahından gözəl** (halal) **bir ruzi versə** (mən ona haram qatarammı)**?..."** (Hud, 11/88) deyə soruşan Hz. Şüeyb buna bir nümunədir. Hz. İbrahim isə bir-birinin ardınca gələn suallarla qövmünə təbliğ edir:

**"Biz daha öncə İbrahimə də doğru yolu nəsib etmişdik** (peyğəmbərlik ehsan buyurmuşduq)**. Biz onu** (onun buna layiq olduğunu) **bilirdik.** (İbrahim) **atasına və tayfasına: "Sizin tapınıb durduğunuz bu heykəllər nədir?" – dediyi zaman onlar: "Biz atalarımızı onlara ibadət edən gördük!" – deyə cavab vermişdilər.** (İbrahim onlara:) **"And olsun ki, siz də, atalarınız da** (haqq yoldan) **açıq-aşkar azmısınız!" – demişdi. Onlar: "Sən bizə ciddi deyirsən, yoxsa zarafat edirsən?** (Sən bizə haqlamı gəldin, yoxsa oyunbazlardansan?)**" – deyə soruşduqda** (İbrahim) **belə cavab vermişdi: "Xeyr, Rəbbiniz göylərin və yerin Rəbbidir ki, onları yaratmışdır. Mən də buna şahidlik edənlərdənəm! Allaha and olsun ki, siz çıxıb getdikdən sonra bütlərinizə bir hiylə quracağam!** (Başlarına bir oyun açacağam!)**"** (Onlar gedən kimi İbrahim bütləri) **parça-parça edib yalnız onların böyüyünü saxladı ki, bəlkə, qayıdıb ona baş çəkdilər.** (Qoy anlasınlar ki, bu dilsiz-ağılsız bütlər nəinki başqalarını, hətta özlərini belə qorumağa qadir deyillər. Buna görə də onlara ibadət etmək ən böyük günahdır)**.** (Onlar qayıdan kimi işin nə yerdə olduğunu görüb) **dedilər: "Bunu tanrılarımıza kim edibsə, o, şübhəsiz ki, zalımlardandır!"** (Müşriklərin bəziləri:) **"İbrahim deyilən bir gəncin onları pis-**

**lədiyini eşitmişik!" – dedilər.** (Qalanları:) **"Bunların şahidlik edə bilmələri üçün onu** (tapıb) **camaatın gözü qabağına gətirin!" – dedilər.** (Müşriklər İbrahimi tapıb gətirərək:) **"Ya İbrahim! Tanrılarımızı sənmi bu günə saldın?" – deyə soruşdular.** (İbrahim sındırmadığı iri bütü göstərib:) **"Bəlkə, onların bu böyüyü bunu etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!" – deyə cavab verdi. Bunun nəticəsində onlar** (ağıllarını başlarına yığıb) **öz-özlərinə müraciətlə: "Siz, doğrudan da, zalımlarsınız** (dilsiz-ağılsız, heç özlərini belə qorumağa qadir olmayan bütlərə tapınmaqla özünüz özünüzə zülm edirsiniz)**", – dedilər. Sonra** (mübahisədə aciz qaldıqlarını görüb) **yenə də öz küfrlərinə** (başlarında olan əski etiqada) **qayıdaraq** (İbrahimə)**: "Axı sən bilirsən ki, bunlar danışmırlar!" – dedilər.** (İbrahim) **dedi: "Elə isə Allahı qoyub sizə heç bir xeyir və zərər verə bilməyən bütlərəmi ibadət edirsiniz? Tfu sizə də, Allahdan başqa ibadət etdiyiniz bütlərə də! Əcaba,** (etdiyiniz əməllərin qəbahətini) **anlamırsınız?".** (Ənbiya, 21/51-67)

Təbliğat aparan mömin anlatdıqlarının təsirini ölçmək, hansı anlatma üsuluna üstünlük verəcəyini bilmək və həmsöhbətinin qavrama tərzini yoxlamaq üçün arabir suallar verməlidir. Qarşısındakının fikirlərində irəliləyiş olub-olmadığını ölçməli, söylənənlər haqqında nə düşündüyünü öyrənməlidir. Bu yolla insanın həm səmimiyyətini, həm də nəyi necə söyləyəcəyini təyin etmiş olur.

### 11. İnsanın xarakterinə ən çox uyğun gələn və ən təsirli izah metodundan istifadə etmək

Təbliğin təsiredici olması üçün söylənənlərin həqiqətə uyğun olması ilə yanaşı anlatma vurğusunun gücü də nəzərə alınmalıdır. Həmçinin Quranda "(İnsanları) **Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et...."** (Nəhl, 16/25) buyurulur.

Anlatmaq istənilənin üzərində önəmlə durub mövzunun təsirli nümunələrlə, insanın ehtiyacını tam ödəyəcək şəkildə izah edilməsi bunun bir formasıdır. Bununla yanaşı hər kəsin fərqli xarakteri və fərqli ehtiyacları olduğundan eyni danışıq

tərzi və xitabdan istifadə etmək olmaz. Buna görə də müxtəlif insanlara fərqli üslublar tətbiq ediləcəyi kimi müxtəlif izahat metodlarıdan istifadə etmək də öz təsirini göstərəcəkdir. Məsələn, bir mövzunu lazım gəldikdə geniş şəkildə, ətraflı olaraq söyləməyin xeyri ola bilər. Bəzən isə arada söhbət açıb qısa və konkret fikirlər söyləmək olar. Bu metodlar qarşıdakı insanın qavrama qabiliyyətini, vəziyyətini və hansı şəkildə daha çox təsirlənəcəyini müəyyən olunmaqla tətbiq edilir.

### 10. İnsanı fikirləşməyə sövq etmək

Sual verməyin məqsədi qarşı tərəfin fikrini öyrənməklə yanaşı onu müəyyən bir mövzu üzərində düşünməyə vadar etmək də ola bilər. Bu ikincisi təbliğat apararkən çox təsiredici bir metoddur.

Cahil cəmiyyətin xüsusiyyətlərindən biri də Quranda buyurulduğu kimi, düşünməyi bilməməsidir. Bu toplum həyatın həqiqi mənasını düşünməyib sadəcə qazanacağı pul və ya edəcəyi iş haqqında düşünür. Heç biri kainatın necə yarandığını, sahib olduqları bədənin kimin tərəfindən yaradıldığını, ölümlə bərabər insanın hara getməsi kimi təməl iman mövzuları haqqında düşünmür. Fikirləri də sadəcə öz fərdi maddi maraqları üzərində qurulur. Elə bu səbəbdən də insanı mütləq düşünməyə sövq etmək lazımdır. Həm içində yaşadığı sistemin əyriliyini görməsi, həm də imana aid mövzuları qavraması üçün bu, onun həyatı qədər önəmlidir. Düşünmək insanın öz-özünə bəzi suallar verməsinə, çatışmazlıq və qüsurları görməsinə və düşdüyü vəziyyətdən sıxıntı keçirməsinə səbəb olacaq. Quranda düşünməyin insanlar üçün böyük faydasından da bəhs olunur. Məsələn, bir yerdə insanlara belə xitab edilir:

"(Ya Rəsulum!) **De: "Bir deyin görüm, əgər Allah sizin qulaqlarınızı və gözlərinizi əlinizdən alsa, ürəklərinizə möhür vursa, onları sizə Allahdan qeyri hansı tanrı qaytara bilər?" Gör Biz ayələrimizi onlara necə izah edirik, sonra onlar ondan gör necə üz döndərirlər".** (Ənam, 6/46)

Başqa ayələrdə də yenə düşünməklə bağlı məsələlər var:

**"De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs** (belə olduğu halda) (Allahdan) **qorxmursunuz?" O sizin həqiqi Rəbbiniz olan Allahdır. Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?! Belə isə** (haqdan) **necə döndərilirsiniz?".** (Yunus, 10/31-32)

Hz.İbrahim də qövmünün azğınlığının səbəbini onları düşündürərək özlərinə tapdırır:

"(Ya Rəsulum!) **Onlara İbrahimin hekayətini söylə! O zaman ki, o öz atasına və tayfasına demişdi: "Nəyə ibadət edirsiniz?" Onlar: "Bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik!" – deyə cavab vermişdilər.** (İbrahim) **demişdi: "Onları çağırdığınız** (dua etdiyiniz) **zaman sizi eşidirlərmi? Yaxud sizə bir xeyir və ya zərər verə bilirlərmi?" Onlar: "Xeyr, ancaq biz öz atalarımızın belə** (ibadət) **etdiklərini gördük!" – deyə cavab vermişdilər".** (Şuəra, 26/69-74)

İnanmaq insanın öz iradə və istəyinə veriləcəyi üçün mühüm olan məsələ onu həqiqətlər üzərində düşünməyə sövq etməkdir. Doğrunu görə bilmək üçün insan gərək mövzu haqqında mühakimə yürüdə bilsin. Bu səbəbdən mömin təbliğat apardığı insanı düşünməyə sövq edən tərzdə söhbətlər aparmalıdır.

### 11. Danışıqlarda istiqamətverici olmaq

Mömin təbliğat apararkən əsl məqsədinin qarşı tərəfə dini anlatmaq və onun inamına vəsilə olmaq olduğunu heç vaxt unutmamalıdır. Çünki qarşı tərəf böyük ehtimalla mövzunu başqa tərəfə çəkməyə meyllidir. Bunu fikrini dini mövzulara cəmləməkdə çətinlik çəkməsi, vicdanında narahatlıq duyması və yaxud da ciddi olmaması kimi müxtəlif səbəblərdən edə bilər. Mömin bu mövzuda diqqətli davranmalıdır. Əlbəttə ki, eşitmək istəməyən, darıxan birinə nəyisə başa salmağın bir mənası yoxdur. Şüurlu şəkildə mövzunu dəyişdirərək başqa bir üslu-

ba keçmək və qarşı tərəfə dincəlmək üçün vaxt vermək olar. Ancaq söhbətə nəzarət hüququnu qarşı tərəfə verərək onun boş və lazımsız fikirləri ilə və ya əlacsız problemləri ilə məşğul olmaq böyük xəta olacaqdır.

Bir sözlə, mömin danışanda mütləq istiqamətverici olmalıdır. Qarşı tərəfin eşitmək istədiklərindən çox öz fikirlərini söyləməlidir. Hz.Yusufun zindandakılarla danışarkən yararlandığı metod bu baxımdan yaxşı bir nümunədir:

**"Onunla birlikdə iki cavan oğlan da** (padşahı zəhərləməyə cəhd göstərməkdə ittiham edilmiş şah sarayının saqisi və aşpazı) **zindana atıldı.** (Gənclər Yusifin çox gözəl yuxu yozduğunu bildikdən sonra) **onlardan biri** (şərab paylayan) **dedi: "Mən** (yuxuda) **gördüm ki, şərab** (üçün üzüm) **sıxıram". Digəri** (aşpaz) **isə belə dedi: "Mən gördüm ki, başımın üstündə çörək aparıram, quşlar da ondan yeyir. Gəl bu yuxunu bizə yoz. Biz, həqiqətən, sənin yaxşı adamlardan olduğunu görürük!" O dedi: "Sizə veriləcək yemək gəlməmişdən əvvəl mən bunun yozumunu sizə bildirərəm. Bu, Rəbbimin mənə öyrətdiklərindəndir. Mən Allaha iman gətirməyən, özləri də axirəti inkar edən adamların dinindən uzaqlaşmışam. Mən ata-babalarım İbrahim, İshaq və Yəqubun dininə tabe oldum. Bizə heç bir şeyi Allaha şərik qoşmaq yaraşmaz. Bu** (tövhid) **Allahın bizə və** (bütün) **insanlara bəxş etdiyi nemətdir, lakin insanların əksəriyyəti** (Ona) **şükür etməz! Ey mənim iki zindan yoldaşım!** (Sizə nə bir xeyir, nə də bir zərər verə bilən) **ayrı-ayrı tanrılar daha yaxşıdır** (ibadət olunmağa daha layiqdir)**, yoxsa bir olan,** (hər şeyə) **qadir** (qalib) **olan Allah?!** (Allahdan) **qeyri ibadət etdikləriniz sizin və atalarınızın** (özündən uydurub) **qoyduğunuz** (Allaha heç bir aidiyyəti olmayan) **adlardan** (bütlərdən) **başqa bir şey deyildir. Allah isə onlara** (ibadət edilməsinə dair) **heç bir dəlil nazil etməmişdir. Hökm ancaq Allahındır. O sizə yalnız Onun Özünə ibadət etmənizi buyurmuşdur. Doğru** (həqiqi) **din budur, lakin insanların çoxu** (bu həqiqəti) **bilməz! Ey iki zindan yoldaşım!** (Yuxularınızın mənasına gəldikdə) **sizin biriniz yenə ağasına şərab içirdəcək, digəriniz isə edam olunacaq, quşlar da onun**

**başından** (dimdikləyib) **yeyəcəklər. Haqqında soruşduğunuz iş belə həll edilmişdir!"** (Birinizin həbsdən azad edilməsi, o birinizin asılması barəsində fərman verilmişdir!)**".** (Yusuf, 12/36-41)

Göründüyü kimi, Hz.Yusuf ona yuxu yozumunu soruşan insanlara əvvəlcə bir təbliğat aparmış, suallarının əsl cavabını isə axırda vermişdir. Əgər əvvəlcə yuxunun yozumunu söyləsə, sonra təbliğata başlasaydı, bəlkə də onu daha az maraqla dinləyəcəkdilər. Eyni şəkildə Hz. Musa da Fironla danışarkən istiqamətverici bir üsubdan yararlanır:

**"**(Firon) **soruşdu: "Bəs əvvəlki nəsillərin halı necədir?"** (Musa) **belə cavab verdi: "Onlara dair bilik yalnız Rəbbimin dərgahında olan bir kitabdadır** (lövhi-məhfuzdadır)**. Rəbbim** (heç bir şeydə) **xəta etməz və** (heç bir şeyi) **unutmaz!" O** (böyük Allah) **ki, yer üzünü sizin üçün döşəmiş** (döşək etmiş)**, orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik".** (Taha, 51-53)

Hz. Yusufun və Hz. Musanın danışıqlarında göstərdiyi bu "ağıl" möminlərin də hər zaman müdrik, ağıllı və yolgöstərici bir danışıq üslubundan istifadə etmələrinin vacibliyinə işarədir. Mömin söhbətin ümumi gedişatına hakim olmalı, söhbəti qarşısındakının istəyinə uyğun şəkildə deyil, özünün lazım bildiyi və çox faydalı olacağına inandığı şəkildə aparmağı və istiqamətləndirməyi bilməlidir.

### 12. Digər əhəmiyyətli cəhətlər

**İnsanın imanı güclənmədikcə ibadətə təşviq etməmək -** Dini təzəcə tanıyacaq insanların ilk öncə Allaha və axirət gününə iman gətirməsi təmin edilməlidir. Çünki dinin vacib bildiyi şeyləri etməsi üçün bunların məntiqini qavramalı, ibadətləri şüurlu olaraq və öz istəyi ilə etməlidir. Belə olmasa, yamsılayaraq nə etdiyini bilməz və ya məntiqini bilmədiyi üçün etmək istəməz. Bu səbəbdən bir insanı dini ibadətləri yerinə yetirmək istəyəcəyi və anlayacağı imani səviyyəyə gətirmək təbliğçinin üzərinə düşən mühüm məsələlərdəndir. Bu müddət ərzində o,

soruşana və ya tətbiq edəcəyi qənaəti formalaşana qədər ibadətə aid təkliflər verməmək də olar. Onsuz da Allaha səmimi bir qəlblə iman gətirən və axirət gününə inanan bir insan da vaxtı gəldikcə Quranda göstərilən ibadətləri yerinə yetirməyi özü istəyəcəkdir.

**Uyğun üsul təyin etmək -** Danışıqda istiqamətverici olmağın üsullarından biri də əvvəlcə qarşı tərəfin fikrini və ya ideyasını öyrənib sonra da buna görə bir mövzu və üslub təyin etməkdir. Bu, qarşı tərəfi çox tez tanımaq üçün şərait yaradar və möminin həmsöhbətinin ehtiyacı olmayan bir mövzudan danışaraq vaxtı itirməsinin qarşısını alar.

Quran bu incə taktikanı Hz. Musa qissəsində verir. Hz. Musa ilə Fironun cadugərləri arasındakı dialoq belədir:

**"Firon tayfasının əyanları dedilər: "Şübhəsiz ki, bu çox bilikli bir sehrbazdır. O sizi yurdunuzdan çıxartmaq istəyir!"** (Firon da:) **"Elə isə tədbiriniz nədir?" -** (deyə soruşdu). **Onlar dedilər: "Onu** (Musanı) **qardaşı** (Harun) **ilə birlikdə saxla və şəhərlərə** (sehrbazları) **yığan adamlar göndər ki, nə qədər bilikli sehrbaz varsa, hamısını tutub gətirsinlər!" Sehrbazlar Fironun yanına gəlib dedilər: "Əgər biz** (Musaya) **üstün gəlsək, yəqin ki, bizə bir mükafat veriləcək!"** (Firon:)**"Bəli şübhəsiz ki, siz** (mənə) **ən yaxın adamlardan olacaqsınız!" – deyə cavab verdi. Sehrbazlar dedilər: "Ya Musa! Ya sən** (əvvəlcə əsanı yerə) **at, ya da biz** (əlimizdəkiləri) **ataq!"** (Musa:) **"Siz atın" – dedi. Onlar** (əllərindəkiləri və əsaları yerə) **atdıqda, adamların gözlərini bağlayıb** (sehrləyib) **onları qorxutdular və böyük bir sehr göstərdilər. Biz də Musaya: "Əsanı tulla!" – deyə vəhy etdik. Bir də** (baxıb gördülər ki) **əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu.** (Sehrbazlar) **orada məğlub edildilər və xar olaraq geri döndülər".** (Əraf, 7/109-119)

Hz. Musa Fironu sehrbazlarına "əvvəlcə siz atın" deməklə uğur əldə etmişdir, bu üsul peyğəmbərlərin yolunu davam etdirən möminlər üçün də hər zaman yararlanacaqları bir qaynaqdır. Əvvəlcə qarşı tərəfin fikrini soruşmaq, əvvəlcə onun

düşündüklərini ortaya çıxarıb buna nəzərən bir münasibət və anlatma tərzi müəyyən etməklə o batil fikir quruluşunu yıxmaq daha təsirli olacaq.

**Dolayı yolla anlatmaq -** Qarşılıqlı söhbətlərdə çox vaxt insanın şəxsinə bir xitab tərzindən istifadə edilir. Ancaq bir təbliğ metodu olaraq bundan başqa bir də başqa şəxslər və insanlar nümunə götürülərək, bəzi izahatlar verilərək, amma yenə qarşıdakına çatdırılmaq istənənləri söyləmək mümkündür. Bu da təbliğat aparanla təbliğ edilən arasında yaranacaq gərginliyi əngəlləmək yaxud da onun müdafiə psixologiyasına girərək ona söylənənlərə qulaq tıxamasına mane olmaq üçün faydalı bir metoddur.

**Vicdanlı və həssas olmağa istiqamətləndirmək -** Təbliğdəki məqsəd sadəcə məlumat vermək, yəni öyrətmək deyil. Əksinə, bundan daha mühüm olan iş qarşı tərəfin vicdanını oyandırmaq, onu səmimi bir nəfsi ilə hesablaşmağa yönəltməkdir. Bunun üçün də iki tərəf arasında səmimi və isti bir dialoqun, öyrədici üslubdan çox köməkedici bir üslubun qurulması lazımdır. Hz. İbrahimin qövmü ilə olan dialoqu nəticəsində aparıcı inkarçıların vicdanlı olmaq məcburiyyətində qalması buna nümunədir. Quranda belə deyilir:

"(Onlar gedən kimi İbrahim bütləri) **parça-parça edib yalnız onların böyüyünü saxladı ki, bəlkə, qayıdıb ona baş çəkdilər.** (Qoy anlasınlar ki, bu dilsiz-ağılsız bütlər nəinki başqalarını, hətta özlərini belə qorumağa qadir deyillər. Buna görə də onlara ibadət etmək ən böyük günahdır). (Onlar qayıdan kimi işin nə yerdə olduğunu görüb) **dedilər: "Bunu tanrılarımıza kim edibsə, o, şübhəsiz ki, zalımlardandır!"** (Müşriklərin bəziləri:) **"İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik!" – dedilər.** (Qalanları:) **"Bunların şahidlik edə bilmələri üçün onu** (tapıb) **camaatın gözü qabağına gətirin!" – dedilər.** (Müşriklər İbrahimi tapıb gətirərək:) **"Ya İbrahim! Tanrılarımızı sənmi bu günə saldın?" – deyə soruşdular.** (İbrahim sındırmadığı iri bütü göstərib:) **"Bəlkə, onların bu böyüyü bunu etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!" – deyə cavab verdi. Bunun nəticəsində onlar** (ağıllarını başlarına yı-

ğıb) **öz-özlərinə müraciətlə: "Siz, doğrudan da, zalımlarsınız** (dilsiz-ağılsız, heç özlərini belə qorumağa qadir olmayan bütlərə tapınmaqla özünüz özünüzə zülm edirsiniz)**", - dedilər".** (Ənbiya, 21/58-64)

Bu qissədən də göründüyü kimi, vicdan insanın içindəki doğru yolgöstərəndir. İnsanlar vicdanlarına uyduğu zaman düzgün hərəkət edirlər. Bu, dinin özündə də var. Allah rizasına ən uyğun olan davranışı insana vicdanı vasitəsilə bir növ ilham edər. Buna görə də dini öyrənən insanın vicdanı qarşısında ondan səmimi olaraq istifadə etməsini əngəlləyən şeylər varsa (məsələn, ətrafın təsirindən çəkinmək, adətlərdən əl çəkmək və s. kimi), bu əngəlləri ortadan qaldırmaq və onu vicdanına itaət etməyə istiqamətləndirmək lazımdır.

**Müstəqil düşünməsini təmin etmək -** İnsanın doğrunu görə bilməsi, doğru qərar verə bilməsi, Quran ayələrinə görə, yanlış düşüncəsini doğru ilə əvəz edə bilməsi üçün müstəqil düşünməsi əsas şərtdir. Bunun üçün ağlın təzyiqlərdən uzaq olması, təəssübdən təmizlənməsi lazımdır. Dini təzə öyrənən bir insanı cahil cəmiyyətdə bunlara nail olmayacağını düşünərək müstəqil düşünməsini əngəlləyəcək səbəbləri aradan götürən izahlar vermək olar. Bu şəkildə rahat olması üçün şərait hazırlamaq söylənənlərin təsirini artıracaq.

**Təzyiq göstərməmək və məcbur etməmək -** Təbliğat aparan qarşısındakına bir şeyi inandırmaq, fikrini ona qəbul etdirmək məcburiyyətində deyil. Onun üzərinə düşən iş sadəcə Allahın dinini təbliğ etməkdir. Hidayəti və iman gətirməsini ona Allah verəcəkdir. Bu səbəbdən təzyiq göstərməsinin və məcbur etməsinin heç bir köməyi olmayacaq. Həmçinin Quran "(Ya Peyğəmbər! Mənim bəndələrimə) **öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən!"** (Ğaşiyə, 88/21-22) və ya **"Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!** (Bu sənin işin deyildir. Sənin vəzifən ancaq islamı təbliğ etməkdir)" (Yunus, 10/99) kimi hökmlərlə mömini bu davranışdan uzaqlaşdırır. Təzyiq göstərməmək və qarşıdakı insanı inanmaqda sərbəst buraxmaq təbli-

ğat aparanın səmimiliyinə və bir mənfəət düşünmədiyinə dair təsəvvür oyadacağı üçün söylənənləri daha təsirli edəcək.

**Söylənənlərə biganə qalmamasını təmin etmək -** Görünüşdə onlarla danışmağın çox asan, ancaq əslində ən çətin olan insanlar söylənənlərə biganə qalanlardır. Çünki bu tip insanların fikirlərini öyrənmək asan deyil. Söylənənlərə susaraq və ya münasibət göstərmədən təsdiq etmiş kimi görünmələri ilə danışılanları qəbul etdikləri zənn edilir. Əslində daxilən bunu qəbul etmir və ona maraq göstərmirlər. Əks fikirlə mübahisə edən biri heç olmasa reaksiya göstərir və nəhayətdə bir nəticə əldə edilə bilir. Qərarsız və biganə insanın vəziyyəti daha dolaşıq olur. Belə insanları mövzuya cəlb etmək üçün normal danışıq tərzindən başqa onlarda maraq oyatmaq üçün çox təsiredici üsullardan istifadə etmək lazımdır. Məsələn, ölümdən bəhs edib onun da bir gün çürüyüb torpağa qarışacağından, maddənin əslindən və ya onun çox böyük əhəmiyyət verdiyi "dəyərlərin" boş, mənasız olmasından bəhs edib onu bu vəziyyətdən çıxarmaq mümkündür. İnsanların maraq göstərməsini bu şəkildə təmin etmək olar.

**Hər kəslə layiq olduğu şəkildə davranmaq -** Peyğəmbərlərin təbliğat zamanı onlara göstərilən rəftara görə bir üslubdan yararlandığını görürük. Bəzən çox mülayim danışıq tərzindən yararlanan peyğəmbərlər bəzən də Allahın əzabı ilə qorxudaraq sərt bir danışıq üslubu və davranış tərzi göstərirlər. Həmçinin Allah da insanların dinə və möminlərə qarşı olan rəftarına görə onlara müxtəlif cür davranmağı məsləhət görmüşdür. Məsələn, ikiüzlülərə, Quran ayələrinə qarşı mübarizə aparanlara, inkar edənlərə qarşı sərt davranmağı uyğun görərkən[531] aman istəyən bir müşrikə də aman verməyi söyləmişdir.[532] Bunun kimi təbliğat aparan mömin də qarşısındakının dinlə və möminlərlə rəftara görə bir üslub və tərz göstərə

531. "**Ya Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş!** (Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!) **Onlarla sərt davran! Onların məskəni Cəhənnəmdir. Ora nə pis yerdir!"** Tövbə, 9/73.

532. **Əgər** (basqına uğrayan) **müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını** (Quranı) **dinləsin. Sonra** (islamı qəbul etmədiyi təqdirdə) **onu əmin olduğu** (müşriklərin yaşadığı) **yerə çatdır. Çünki onlar** (haqqı) **bilməyən bir tayfadır!** Tövbə, 9/6.

bilər. Danışıq tərzində və mövzuların izahında dozanı insanların vəziyyətinə görə azaldıb-çoxalda bilər. Üstəlik hərənin bir cür təsirlənməsi və ehtiyacı ola bilər. Kimisini mülayim sözə, kimisinin də konkret bir izaha ehtiyacı var. Bu, bir həkimin qarşılaşdığı müxtəlif xəstələrə aspirin verməkdən, iynə vurmaqdan əməliyyat etməsinə qədər ən müxtəlif müalicələr aparması kimi bir şeydir.

**İnsanın acizliyini anlatmaq -** Allahı gərək olduğu qədər qiymətləndirməyən bir insan özünün mahiyyətini də qavraya bilməz. Allahın böyüklüyünü və qüdrətini anlamamışsa, özünün acizliyini də dərk bilməz. Bu səthi düşünən insan hər şeyi özünün etdiyini, güclü olduğunu, həqiqətdə Allahın sahib olduğu surətlərə özünün də sahib olduğunu zənn edib öz-özünə lovğalanır. Bu düşüncəyə görə də hər şeyi azğın bir anlayışla görər. Bu səbəbdən onun ətdən, sümükdən olduğunu, damarından cüzi bir zədədən ölə biləcəyini, bədənindəki heç bir şeyə az da olsa təsirinin olmadığını, ağzı qoxuyan, gözü, qulağı, burnu çirklənən, ayaqyoluna ehtiyacı olan aciz və zəif bir varlıq olduğunu yaxşıca tərif etmək lazımdır. Üstəlik onu yaşadanın, nəzarət edib qoruyanın, ona ruzi verənin, bütün güc və qüvvət sahibinin Allah olduğunu, sahib olduğunu zənn etdiyi şeylərin ona Allah tərəfindən verildiyini və sahibinin də O olduğunu, bir sözlə, Allahın böyüklüyünü və öz acizliyini anlaması üçün şərait yaratmaq lazımdır. İnsanın bilməsi vacib olan ən böyük elm Quranda belə göstərilir:

**"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə** (heç nəyə, o cümlədən sizin ibadətinizə) **möhtac deyildir. O** (hər cür) **şükrə** (tərifə) **layiqdir!** (Onun bütün işləri bəyənilləndir!)**".** (Fatir, 35/15)

**13. Dua**

Çağırmaq, səslənmək və yardım istəmək kimi mənalara gələn dua, Allahın ucalığı qarşısında bəndənin acizliyini etiraf edərək sevgi və təzim hissləri ilə Ondan lütf və yardım istəməsi deməkdir. Dua insanın Allaha halını ərz etməsi və Ondan bir şey istəməsi baxımından bəndə ilə Yaradanı arasında sanki

qarşılıqlı bir dialoqdur. Bunun həqiqətə çevrilməsi üçün öncə Allah insanı öz varlığından xəbərdar etmiş, insan da varlığını mənimsədiyi bu ali qüdrətlə rabitə (əlaqə) qurmaq ehtiyacı hiss etmişdir. Məhz dua belə bir əlaqə nəticəsində insanın həm ehtiyac və əskikliklərinin qarşılanmasını, həm də daha mükəmməl olana çata bilməyi qarşısına məqsəd qoyan bir dialoq vasitəsidir. Ayə və hədislərdə dua ilə insan qəlbinin islah edilməsinə dair bir çox əmr və tövsiyələr vardır.

Ehtiyacların ödənilməsi və xətaların əfv olunması üçün Allaha müraciət etmək, verdiyi nemətlərə görə Onu xatırlamaq və yad etmək, insanda ruhən rahatlıq və xoşhallıq meydana gətirir.[533] Həmçinin bu hal insanı əxlaq cəhətdən kamilləşməyə və ucalmağa sövq edir ki, bu da şəxsiyyətin formalaşmasında xüsusi rol oynayır. Dua və ibadətlə meydana gələn yaxınlıq, Allahın sevgisinə, bu sevgi də bəndədə saf bir qəlbin meydana gəlməsinə səbəb olur.[534]

Dua imanın qəlbdə kök atmasına səbəb olan faktordur. Belə ki, Rəsulullah *(s.ə.s)* "*Ey qəlbləri haldan hala salan Allahım! Qəlbimi dinində sabitqədəm eylə*!"[535] duası ilə məsələnin əhəmiyyətinə diqqət çəkir. Allah-Təala dində sabitqədəm insanların:

"**Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-şübhə** (azğınlıq, əyrilik) **salma! Bizə Öz tərəfindən bir mərhəmət bəxş et, çünki Sən, həqiqətən,** (bəndələrinə mərhəmət, nemət) bəxş edənsən!" (Ali-İmran, 3/8) deyə dua etdiyini xəbər verərək müsəlmanları bu xüsusda həm xəbərdar edir, həm də tərbiyələndirir.

Dua əslində bəndələrin Allah qarşısındakı acizliyini idrak və etiraf etməsidir. Bəndənin Allahın nəzdində yalnız duası ilə dəyər qazanacağı Qurani-Kərimdə belə bəyan edilir:

"**De ki, əgər duanız olmasa, Rəbbim sizə nə qiymət verər?**". (Furqan, 25/77)

533. Rad, 13/28.
534. Buxari, Riqaq, 38.
535. Tirmizi, Qədər, 7; İbn Macə, Dua, 2.

Hz. Peyğəmbər *(s.ə.s)* müstəsna yaxınlığına baxmayaraq Rəbbinə daim dua etmiş, bəndə olduğunu hər zaman xatırlamışdır. Bir bəşər övladı və peyğəmbər kimi üzərinə düşəni etmiş və ardınca da:

*"Allahım! Əlimdən gələn budur. Sənin gücünün çatdığı, amma mənim taqətim xaricində olan bütün xüsuslarda məni hesaba çəkmə!"* (Əbu Davud, Nikah, 38) deyə dua etmişdir. Bundan başqa qəlblərin Allahın əlində olduğunu deyən[536] Hz. Peyğəmbər *(s.ə.s)* bu duaları ilə bizə örnək olmuşdur.

*"Allahım! Səndən doğru danışan dil və sağlam qəlb istəyirəm"*. (Tirmizi, Dəavat, 23; Nəsai, Səhv, 61)

*"Allahım! Qulağımın, gözümün, dilimin və qəlbimin şərrindən Sənə sığınıram"*. (Əbu Davud, Vitr, 32; Tirmizi, Dəavat, 28)

*"Allahım! Səndən qəlbimə hidayət verəcəyin, işlərimi asanlaşdıracağın, çətinliklərimi nizamlayacağın və məni kor olmaqdan qoruyacağın rəhmət istəyirəm. Ey bütün işlərin hakimi, ey qəlblərə şəfa bəxş edən Allahım! Dənizləri bir-birinə qarışmaqdan qoruduğun kimi məni də cəhənnəm əzabından qoru. Qəbrimi və qəlbimi nurlandır!"*. (Tirmizi, Dəavat, 30)

*"Allahım Səndən başqa ilah yoxdur. Yalnız Sənə həmd edirəm. Səndən günahlarımın əfvini və rəhmətini istəyirəm. Allahım elmimi artır, məni hidayətə çatdırdıqdan sonra qəlbimi səhv yola yönəltmə! Öz dərgahından mənə rəhmət ehsan eylə. Şübhəsiz ki, Sən çox bağışlayan və mərhəmətlisən"*. (Əbu Davud, Ədəb, 99)

Rəsulullah *(s.ə.s)* özü üçün dua etməklə yanaşı hidayətinə və müvəfəqiyyətinə vəsilə olmaq istədiyi şəxs və toplumlar üçün də Allah-Təaladan kömək istəmişdir. Yəmən xalqının hidayəti üçün *"Allahım! Onların qəlblərini bizə yönəlt!"* (Tirmizi, Mənəqib, 71) – deyə dua etmişdir. Yenə Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Əlini Yəmənə qazı kimi göndərərkən üzərinə düşən vəzifələrin cavabdehliyindən təlaşlanan kürəkəninin sinəsinə əlini qoyub belə dua etmişdir:

536. Tirmizi, Qədər, 7.

*"Allahım! Bu bəndənin qəlbinə hidayət bəxş et, dilini haqda sabitqədəm eylə".*

Hz. Əli (r.a) deyir ki:

"Bu duadan sonra iki nəfər arasında hökm verərkən heç bir tərəddüd etmədim".[537]

Hz. Peyğəmbər *(s.ə.s)* dəvətin ilk vaxtlarında Qureyşin iki qüvvətli şəxslərindən olan Ömər ibn Xəttab və ya Amr ibn Hişam (Əbu Cəhl) ilə müsəlmanları qüvvətləndirməsini Uca Allahdan istəmişdir. Bu dua səbəbilə də Hz. Ömər müsəlman olmuşdur.[538]

Bəni Devs qəbiləsindən olan Tufeyl ibn Amr Hz. Peyğəmbər *(s.ə.s)* Məkkədə ikən müsəlman olmuş və qəbiləsinə İslamı təbliğ etmişdir. İkinci dəfə Hz. Peyğəmbərlə *(s.ə.s)* görüşməyə gəldiyi zaman qəbiləsindən şikayətlənmiş və həlak olmaları üçün Hz. Peyğəmbərdən *(s.ə.s)* dua istəmişdir. Hz. Peyğəmbər *(s.ə.s)* isə əl qaldıraraq onlara belə dua etmişdir: *"Ey Rəbbim! Devs qəbiləsinə hidayət nəsib eylə".* Bundan sonra Tufeylə səbirlə dəvətinə davam etməyini tövsiyə etmişdir. Və bu təbliğ öz gözəl nəticəsini vermişdir.[539]

Buna bənzər hadisə Taifin mühasirəsi zamanı da yaşanmışdır. Hz. Peyğəmbərdən *(s.ə.s)* müsəlmanlara təslim olmayan, əksinə müsəlmanları ox yağışına tutan Saqif qəbiləsinə bəddua etməsi istənildiyi halda o bunu etməmişdir. Əksinə onların hidayəti üçün dua etmişdir. Bu dua səbəbilə də onlar müəyyən müddət sonra Hz. Peyğəmbərin *(s.ə.s)* hüzuruna gələrək müsəlman olduqlarını bildirmişlər.[540]

Əbu Hüreyrə dəfələrlə təbliğ etdiyi halda İslamı qəbul etməyən anası üçün Hz. Peyğəmbərdən *(s.ə.s)* dua istəmişdir. Bu duanın bərəkətilə onun anası müsəlman olmuşdur.[541]

---

537. İbn Macə, Ehkam,1.
538. Tirmizi, Mənəqib, 17; İbn Macə, *Müqəddimə*, 11.
539. Buxari, *Məğazi*, 77; Müslim, *Fədailus-Səhabə*, 197.
540. İbn Kəsir, *əl-Bidayə*, IV, 350-352.
541. Müslim, *Fədailus-Səhabə*, 158.

Hz. Peyğəmbər *(s.ə.s)* İslam təbliğçilərindən duanın təsir gücünə görə dua metodundan istifadə etmələrini əmr etmişdir.

Himyər rəislərinə İslama dəvət məktubu ilə bir təbliğçi göndərən Hz. Peyğəmbər *(s.ə.s)* elçisini belə təlimatlandırmışdır: "Himyərə çatdığın zaman gecə ora girmə və səhərin açılmasını gözlə. Səhər açıldıqda gözəlcə dəstəmaz al və iki rükət namaz qıl. Uca Allahdan müvəffəqiyyət dilə və duanın qəbul edilməsini istə. Ona sığın və məktubumu sağ əlinlə onlara təqdim et".[542]

Təbliğ fəaliyyətində və həyatın hər bir anında da hidayət verən, yardım edən yalnız Uca Allahdır.

542. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 282.

# III. HZ. PEYĞƏMBƏRİN TƏBLİĞ METODUNUN SOSİOLOJİ XÜSUSİYYƏTLƏRİ

## A. Təbliğin ictimai yönü

Bilindiyi kimiİslami dəvət vəzifəsini yerinə yetirmək vacibdir. Bu vacibin yerinə yetirilməsi üçün insanlarla bir yerdə olmaq və onlara qaynayıb-qarışmaq zəruridir. Vacibin yerinə yetirilməsi üçün lazım olan şey də vacib hökmündədir. Sosioloqlar da cəmiyyətin təşəkkülündə ailə və evliliyin əhəmiyyətli olduğunu bildirirlər. İnsanların bir yerə toplandığı məbədlər, məktəblər, bazar və dükanlar və s. ictimai  xidmət yerləri rolunu oynayır.

İslam təbliğçisi İslam üçün hər fürsəti dəyərləndirmək məcburiyyətindədir.

Hz. Peyğəmbərin *(s.ə.s)* İslami təbliğ metodunu sosial münasibətlər və ictimai yerlər baxımından tədqiq etmək əhəmiyyətlidir. Rəsulullahın *(s.ə.s)* İslama dəvət metodunu araşdıranlar üçün onun ictimai yerlərlə əlaqəsini görməzlikdən gəlmək doğru deyil. Digər tərəfdən günümüzdəki müsəlmanlar fərqli qrup və topluluqlarla qarşılaşdıqda necə davranacaqlarını bilmirlər. Təbliğ metodlarını bilmədikləri üçün həmin qruplarla əlaqələrini kəsirlər. Halbuki həmin qrup və topluluğa İslamı təbliğ etmək lazımdır. Bütün bu kimi problemlərə işıq tutmaq üçün Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ həyatını araşdırsaq hər dövrün problemlərinin həlli nümunələrini onun həyatında tapa bilərik.

Rəsulullahın *(s.ə.s)* təbliğ metodunun sosial-ictimai yönləri:

### 1. Qohum-əqrəba ilə münasibətlər

İslam təbliğçisi təbliğini bütün bəşəriyyətə çatdıra bilmək üçün tədriciliyə riayət etməlidir. İnsan əvvəlcə təbliğə öz ailə, qohum-əqraba və yaxınlarından başlamalıdır. Çünki onu tanı-

yanlar dəvəti daha tez qəbul edə bilər. İnsanın yaxınları, qohum-əqrəbaları onu qəbul edib dəstəkləməzsə digər insanlar da ona inanıb güvənməz və etimad göstərməzlər. Çünki insan hər şeydən daha əvvəl öz ailəsindən və yaxın ətraf mühitdən məsuliyyət daşıyır. Onlara təbliğ etdikdən sonra digər mərhələlərə başlaya bilər. Bu səbəblə təbliğçi təbliğinə özünə ən yaxın insanlar olan ailə fərdlərindən başlamalıdır. Qurani-Kərim müsəlmanlara ailələri ilə maraqlanmalarını və onları atəşdən qorumalarını əmr edir.[543]

Təbliğçi valideynlərinə təbliğ etməklə mükəlləfdir. Bunu Hz. İbrahimin (ə.s) atasına davrandığı kimi[544] nəzakət, hörmət və sevgi ilə onları incitmədən və təhqir etmədən şirindillə etməlidir.

Təbliğçi ikinci mərhələdə Hz. Peyğəmbərin *(s.ə.s)* gizli təbliğ dövründəki metoduna uyğun olaraq ən yaxın yoldaşlarına və səmimi dostlarına təbliğ etməlidir. Xüsusilə onların arasından haqqı daha çox axtaran və haqqa daha artıq meyl edənlər seçilməlidir.

Təbliğdə daha sonra qohumlar gəlir. Təbliğçi özünə müxalif olmalarına, İslamdan tamamilə uzaq yaşamalarına baxmayaraq qohumları ilə əlaqəsini əsla kəsməməli, onları mütəmadi ziyarət etməli, problemləri ilə yaxından maraqlanmalıdır. Ancaq bu şəkildə davranmaqla onların könlünü alıb İslama yaxınlaşdırmaq mümkündür. Müəyyən səbəblərlə qohumluq əlaqələrini kəsənlər onları İslam dəvətindən uzaqlaşdırmış olurlar. İslam qohumluq əlaqələrinə böyük önəm vermişdir. Hz. Peyğəmbər *(s.ə.s)* açıq dəvətinə qohumlara təbliğ etməklə başlamış və bu xüsusda da gözəl nümunə olmuşdur. Qohumluq əlaqələrini kəsənlərə belə xəbərdarlıq etmişdir: *"Qohumlarını ziyarət etməyən və onlarla əlaqəsini kəsən cənnətə girə bilməz"*.[545]

Təbliğçi yanlış düşüncə və yaşayışları, hətta dinləri və inancları tamamilə ayrı olanlara qarşı da Hz. Peyğəmbərin *(s.ə.s)* metodunu əsas alaraq hərəkət etməlidir. Qohumlarala

543. Təhrim, 66/6.
544. Məryəm, 19/42-45.
545. Buxari, Ədəb, 12-13; Müslim, Birr, 18-19; Əhməd ibn Hənbəl, Müsnəd, II, 484.

mütəmadi olaraq maraqlanmalı, fər fürsətdə təbliğini təkrarlamalıdır. Yaxınları tərəfindən dəfələrlə qəbul edilməsə belə ümidsiz olmamalıdır. Və bilməlidir ki, təbliğ və yaşayışın onlar üzərində təsiri mütləqdir.

Şübhəsiz ki, təbliğçinin yaxın ətraf mühiti, qohum-əqrəbaları ilə əlaqəsini kəsməməsi və bunu davam etdirməsinin əsas məqsədi onlara İslamı çatdırmaqdır.

**2. Evlilik**

Evlilik, hər insanın həyatında önəmli dönüş nöqtələrindən birini təşkil edir və insanın şəxsiyyət və xarakterinə təsir göstərən mühüm amillərdəndir. Allah-Təalanın bəşər nəslini davam etdirmək üçün müəssisə olaraq yaratdığı ailə, ilk insan Hz. Adəmlə (ə.s) başlamış və Rəsulullahın *(s.ə.s)* həyatında ən kamil mərtəbəyə çatmışdır.

Uca Allah hər şeyi dərin və incə bir hikmətlə yaratmışdır. Kişi və qadının xarakter xüsusiyyətləri, fitrətlərinin bir-birini tamamlaması və s. hamısı bir qayə üçün xəlq edilmişdir. Bunlar yaradıldıqları məqsəd üçün istifadə edildikdə, insan kainatla həmahəng olur və mənəvi sarsıntılar yaşamır. Dünyası da, axirəti də cənnət olur. Bunun əksinə, ona verilən xüsusiyyətləri və imkanları ilahi təlimatların əksinə istifadə etməyə başladıqda ani həzləri səadət zənn edərək bədbəxtliyini xeyli artırır və hələ dünyada ikən özünü böhranların girdablarına atır.

Təbliğçi öz evliliyinin İslama uyğun olmasına çalışmalıdır. Təbliğçi üçün evlilik nəfsin istəklərini qarşılamaqdan ibarət sosial hadisə deyil. Evlilik təbliğ fəaliyyətinin həyata keçirilməsi üçün vəsilədir və bu səbəblə də ibadətdir.

Evlilik – insan nəslinin davamı, sağlam bir cəmiyyətin inşası, əxlaq və ləyaqətin mühafizəsi, Allaha yaxınlaşmaq, müsəlmanların sayını artırmaq məqsədi ilə olmalıdır.

İslam təbliğçisi də bu məqsədlə evlənməlidir. Həyat və təbliğində özünə köməkçi və yoldaş olacaq şəxsin əxlaq və yaşayışı etibarilə İslama uyğun olmasına diqqət etməlidir. Evlilikdən sonra ailədə İslamın tətbiq edilməsinə çalışmalıdır.

Təbliğin normal şəkildə davam etməsi və axsamaması üçün ailəvi münasibətlərdə ifrat və təfritdən qaçmaq da təbliğçinin vəzifəsidir.[546]

Çoxevliliyə gəlincə isə çoxevlilik, cəmiyyətin həyat tərzi, ənənəsi, mədəniyyəti, əhali tarazlığı, yerli şərtlər kimi bir çox səbəblərə bağlı olub bəşəriyyətin tarixi ilə yaşıddır. Araşdırmalar nəticəsində dünyanın hər yerində və hər millətində çoxevliliyə rast gəlinir. Çoxevlilik şərq dinlərində Brahmanizm və Zərdüştlükdə qanuna uyğun olaraq qəbul edildiyi kimi, yəhudilik və xristianlıqda da qadağan edilməmişdir. Tövrat və İncildə Hz. İbrahim, Hz. Yaqub, Hz. Davud, Hz. Süleyman və başqa peyğəmbərlərin birdən çox qadınla evləndikləri bildirilir. Amma sonrakı dövrlərdə insanlar öz həvəs və ehtiraslarının əsiri olduqları üçün çox evliliyi qadağan etmiş, doğru yoldan azaraq cəmiyyətin dağılmasına səbəb olmuşlar. İslam dinini çoxevliliyə icazə verdiyinə görə tənqid edənlər əslində kor-koranə təəssüb içindədirlər. Məhz bu düşüncə sahibləri rəsmi olaraq tək evli görünməklə yanaşı, qeyri-qanuni münasibətlərdən geri qalmamışlar.

Hz. Peyğəmbər *(s.ə.s)* İslama dəvət hərəkatında evliliyə sosial təbliğ metodu kimi müraciət etmişdir. Onun çoxevliliyində müəyyən dini məqsədlər olmuşdur. Ərəbistanda çox yayğın bir adət olaraq müxtəlif qruplar arasında dostluq və ittifaq vasitələrindən biri olaraq evlilikdən istifadə edilirdi. Ehtiyaca əsasən Hz. Peyğəmbərin *(s.ə.s)* bu üsula müraciət etməsi dini məqsədləri həyata keçirməyi üçün təbii haldır.[547]

Mədinədə qurulan İslam dövləti güclənmək və dünyaya yayıla bilmək üçün bir çox qəbilə və xoş münasibətlər qurmalı idi. İslam dininin qadınlar arasında təbliğ edilib öyrədilməsi də qadın tələbələrin yetişdirilməsi zərurətini yaradırdı. Həm də İslam ümmətinin hamisi olan Allah Rəsulu *(s.ə.s)* sıxıntıya düşənlərə də kömək etməli idi. Bütün bu və bu kimi səbəblər Hz. Peyğəmbəri *(s.ə.s)* birdən artıq qadınla evlənməyə sövq

546. F. Yekən, *Müşkilət*, s, 49-56.
547. Əhzab, 33/37. M. Həmidullah, İ. Peyğəmbəri, II, 13.

edirdi. Allah-Təala da bu məsələdə Rəsuluna *(s.ə.s)* bir neçə qadınla evlənməyə icazə verdi.

İyirmi beş yaşında ikən, özündən on beş yaş böyük olan Hz. Xədicə ilə evlənib əlli yaşına qədər onunla xoşbəxt bir ailə həyatı yaşayan Hz. Peyğəmbərin *(s.ə.s)*, bir neçə dəfə evlənməsini Mədinə dövründə həyata keçirməsi bu evlilik şərtlərinin daha çox peyğəmbərlik missiyası ilə əlaqədar olduğunu göstərməkdədir.

Hz. Peyğəmbərin *(s.ə.s)* İslam dinini sadəcə evlilik yolu ilə yaydığı kimi bir nəticəyə gəlmək olmaz. Ancaq Rəsulullah *(s.ə.s)* Allahın dinini təbliğ və təlimdə evliliklə qurulan qohumluq və dostluq bağlarından da istifadə etmişdir.

Rəsulullahın *(s.ə.s)* evlənərkən diqqət etdiyi xüsusiyyətlərdən biri də siyasi münasibətlərdir. Evlilik vasitəsi ilə qurulan qohumluq əlaqəsi nəticəsində bir çox qəbilə ilə dostluq əlaqələri qurulmuş və bunun sayəsində bir çox insan İslamı qəbul etmişdir. Məsələn, Allah Rəsulunun Cüveyriyyə ilə evlənməsi Bəni Müstaliqdən 700-ə qədər müharibə əsirinin əvəzsiz azad edilməsinə gətirib çıxarmış, nəticədə yüzlərlə insan müsəlman olmuşdur.

Hz. Cüveyriyyə Bəni Müstaliq qəbiləsinin rəisi Haris ibn Əbu Dirarın qızı idi. Hicrətin 5-ci ili bu qəbilənin müsəlmanlara qarşı döyüşə hazırlaşdığını öyrənən Hz. Peyğəmbər *(s.ə.s)* onlardan əvvəl hərəkətə keçdi və qalib gəldi. Götürülən əsirlərin arasında Cüveyriyyə də var idi. Hz. Peyğəmbər *(s.ə.s)* bu qəbiləni İslama yaxınlaşdırmaq üçün ərəblərin ənənəsindən istifadə elədi. Onlarla qohumluq əlaqələri qurmaq üçün Cüveyriyyəyə evlənmək təklif etdi. O da bu təklifi qəbul edərək möminlərin anası olmaq şərəfinə nail oldu. Müsəlmanlar Cüveyriyyənin Hz. Peyğəmbərlə *(s.ə.s)* evləndiyini eşitdikdə Allah Rəsulunu *(s.ə.s)* məmnun etmək üçün «Bunlar artıq Rəsulullahın qohumlarıdır!" – deyərək əllərindəki əsirləri azad etdilər.

Hz. Aişə (r.anhə):

"Qövmü üçün Cüveyriyyədən daha xeyirli olan bir qadın görmədik – onun vasitəsi ilə Bəni Mustaliqdən yüz evin sakini azad olundu" – demişdir.[548]

Müstaliq oğulları da çox keçmədən müsəlman oldular.

Hz. Peyğəmbərin *(s.ə.s)* yəhudilərin tanınmış adamlarından Hüyeyin qızı Səfiyyə ilə evlənməsi isə Xeybər yəhudiləri ilə yaxınlaşmasına səbəb olmuşdur.

Hz. Peyğəmbər *(s.ə.s)* yəhudilərlə müsəlmanlar arasındakı ədavəti azaltmaq və aradakı münasibətləri inkişaf etdirmək məqsədi ilə bu qohumluq bağından istifadə etmişdir.

Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkə lideri Əbu Sufyanın qızı Ümmü Həbibə ilə evlənməsi Əbu Süfyanın vasitəsi ilə məkkəlilərin qəlbini İslamla yumşaltmaq məqsədini daşımışdır. Hətta Əbu Süfyan evlilik xəbərini eşitdikdə müşrik olmasına baxmayaraq, Hz. Peyğəmbər *(s.ə.s)* haqqında tərifəlayiq sözlər demişdir.

Bütün bunlar Hz. Peyğəmbərin *(s.ə.s)* yürütdüyü siyasətdə nə qədər müvəffəq olduğunun göstəriciləridir.

Rəsulullah *(s.ə.s)* evlilik münasibətlərindən istifadə edərək müşriklərlə olduğu kimi, müsəlmanlardan bir çoxu ilə də qohumluq əlaqələri qurmuş və bunun sayəsində sağlam bir cəmiyyət ortaya çıxmışdır. İslamın təbliğində və yayılmasında mühüm rol oynayan simalara baxdığımızda onların, evlilik telləri ilə bir-birlərinə necə bağlandıqlarını görürük.

Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Əbu Bəkir və Hz. Ömərin qızları ilə evlənmiş, Hz. Osman və Hz. Əliyə qızlarını vermişdir. Beləliklə, ən öndə gedən səhabələri ilə daha yaxın qohumluq əlaqələri qurmuşdur.[62]

Rəsulullah *(s.ə.s)* Meymunə anamızla Ümrətül-Qəzadan qayıdanda evlənmişdir. Bu vaxt Hz. Meymunə 36 yaşında iki dəfə ərə getmiş, dul bir qadın idi. Hz. Meymunənin səkkiz bacısı var idi. Hamısı da ayrı-ayrı qəbilələrin tanınmış adamlarına ərə getmişdilər. Allah Rəsulu da bu izdivac sayəsində bir çox

548. Əbu Davud, İtq, 2.

insanla qohum və dost oldu. Bununla yanaşı, Hz. Peyğəmbər *(s.ə.s)* məkkəlilərin qəlbini yumuşaltmaq, aradakı düşmənçiliyi yox etmək istəyirdi.[549]

Hz. Peyğəmbərin *(s.ə.s)* evlənmə səbəblərindən biri də ümmətinə olan şəfqət, mərhəmət, sonsuz vəfa duyğusudur. Rəsulullahın *(s.ə.s)* həyatına nəzər saldıqda İslamın ilk təbliği illərində əzab-əziyyət çəkənlərə, layiqli xidmət edənlərə qarşı təşəkkür borcunu unutmadığı və vəfalı olduğunu görürük. Bu fədakar insanlar daha sonra dara düşdükdə Rəsulullah *(s.ə.s)* onların imdadına çatmış, əlindən gələn hər cür köməyi etmişdir. Qadın səhabələr üçün bu yardımın kafi olmadığı zamanlarda onları ya əshabından biri ilə evləndirmiş, ya da özü evlənmişdir. Hz. Sevda, Ümmü Sələmə, Zeynəb binti Hüzeymə və Ümmü Həbibə bu xoşbəxt insanlardandır.

Xülasə, Hz. Peyğəmbərin *(s.ə.s)* bütün evlilikləri bir uzaqgörənliyin nəticəsidir və çox ülvi məqsədlərə xidmət etmişdir. Bu baxımdan Hz. Peyğəmbərin *(s.ə.s)* sözügedən siyasətdə nə qədər müvəffəqiyyət qazandığını və məqsədə nail olduğunu asanlıqla görmək mümkündür.

Günümüzdəki təbliğçilər Hz. Peyğəmbərin *(s.ə.s)* ailə həyatından dəvətdə metod olaraq istifadə etməli, həmçinin ailə müəssisəsinə lazımi diqqət və qayğı göstərməlidirlər.

### 3. Liderə hörmət

Cəmiyyətlərə hər hansı bir ideologiyanı qəbul etdirməyin yollarından biri də onların lidelərini razı salmaqdır. Bunu təmin etdikdə liderin arxasından gedən insanları istənilən yönə istiqamətləndirmək asandır. Əks halda həmin cəmiyyətə nəyisə qəbul etdirmək xeyli çətinləşir.

Bu Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə də belə olmuşdur. Qəbilə rəisləri İslama qarşı çıxdıqları üçün xalq kütlələri də şüursuzca onların arxasından gedir, haqq və həqiqəti qəbul etmək istəmirdilər. Bu insanlara haqqı çatdırmaq üçün liderlərinə xüsusi diqqət göstərmək lazım gəlirdi. Hz. Peyğəmbər də

549. Buxari, Məğazi, 43, Tirmizi, Həcc, 24; İbn Həcər, *əl-İsabə*, IV, 412-423.

belə davranırdı. Kafir və müşriklərin öndə gələnlərinin qəlbini qazanmaq üçün onlara dəyər verdiyini həmişə hiss etdirirdi.[550]

Hz. Peyğəmbərin *(s.ə.s)* bu mövzudakı təlimatları ilə Mədinəyə göndərilən İslam təbliğçisi Musab ibn Ümeyrin (r.a) nəzakət və hörmətlə Ənsarın iki lideri Sad ibn Muaz və Üseyd ibn Xudayra İslamı təbliğ edərək müsəlman olmalarını təmin etməsi, Mədinənin İslam dövlətinin mərkəz olmasında ən önəmli amillərdən biri idi.[551]

İslamdan əvvəl Mədinə daxili çaxnaşmalar hökm sürürdü. Qəbilələr birləşərək Abdullah ibn Übeyin Mədinə hökmdarlığına qərar vermişdilər. Hətta bununla əlaqədar olaraq bəzi zərgərlərə hökmdar tacı düzəltmək üçün sifariş belə verilmişdi. Lakin İslamın burada zühuru və Rəsulullahın da Mədinəyə hicrətindən sonra sözügedən hökmdarlıq təşəbbüsü alt-üst oldu. Rəsulullah *(s.ə.s)* hökmdarlıq məsələsinə görə onun kədərləndiyini çox yaxşı bilirdi. Ona görə də bacardığı qədər ona təsəlli verməyə çalışır və hər hansı bir məsələdə inciməməsi üçün ona hörmət və ehtiram göstərirdi. Bu hörmət ömrü boyu davam etmişdir. Bu mövzu ilə əlaqədar olaraq Səmhudidə belə qeyd olunur.[552]

"Qubadan (Mədinəyə doğru) hərəkət edəndə yanında silahlı bir qrup ənsar və məkkəli mühacirlərlə birgə yol üstündə Xəzrəclilərdən Bəni-Hübla qəbiləsinə baş çəkdi və Abdullah ibn Übeyin evinə girib qalmaq (surətilə onu şərəfləndirmək) istədi. Lakin bu Abdullah evinin qabağında ayağını ayağının üstünə aşırmış və çiyinlərini örtəcək şəkildə üstünə bir şal örtmüş halda Rəsulullahı (s.ə.s) qarşıladı və onun (qalmaq istəyini rədd edərək) belə dedi: Səni dəvət edən insanların yanına get və onların evində qal!..."[553] Bütün bunlara rəğmən Hz. Peyğəmbər *(s.ə.s)* onunla münasibətini kəsməmiş, hətta öldüyü zaman Hz. Ömərin qarşı çıxmağına baxmayaraq onun cənazə namazını qılmış və qəbri başında dayanmışdır.[554]

550. Kəttani, *Tərətib*, I, 387-388.
551. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 435-437; İbn Kəsir, *əl-Bidayə*, III, 152-153.
552. Səmhudi, *Vəfa*, II, 258.
553. İbn Kəsir, *əl-Bidayə*, III, 199.
554. İbn Kəsir, *əl-Bidayə*, V, 34-35.

Abdullah ibn Səlam Mədinə yəhudilərinin alim və rəislərindən idi. Hz. Peyğəmbərlə *(s.ə.s)* ilk görüşündə İslamı qəbul etmişdi. Hz. Peyğəmbər *(s.ə.s)* onun vasitəsilə yəhudilərin müsəlman olmasını istəyirdi. Bir gün Rəsulullah *(s.ə.s)* yəhudiləri evinə dəvət etdi və onlardan Abdullah ibn Səlamın necə bir insan olduğunu soruşdu. Abdullahın müsəlman olduğunu bilməyən yəhudilər onu tərifləməyə başladılar. Bu zaman Abdullah bin Salam gizləndiyi yerdən çıxdı və belə dedi: "Ey Yəhudilər, Allahdan qorxun! Sizə gələn bu həqiqəti qəbul edin. And olsun ki, bu şəxsin Allahın Peyğəmbəri olduğunu bilirsiniz. Əlinizdəki Tövratda həm adını, həm də əlamətlərini oxumusunuz. Mən şahidlik edirəm ki o, Allahın Rəsuludur. Ona iman etdim, onu təsdiq etdim və onu tanıdım…" Yəhudilər bunu gözləmirdilər, qəzəbləndilər və Abdullah ibn Səlamı təhqir etməyə başladılar. Əvvəl dedikləri sözləri təkzib etdilər və müsəlman olmadılar.[555]

Liderlərin cəmiyyət üzərindəki təsirini yaxşı bilən Hz. Peyğəmbər *(s.ə.s)* Hüneyn qəzvəsində ələ keçirilən qənimət mallarını liderlər arasında bölüşdürmüşdür. Əgər onlar İslamı qəbul etsələr, onların ardınca gələnlər də İslamı qəbul edəcəkdilər.[556]

Hz. Peyğəmbər *(s.ə.s)* Hüneyn qəzvəsindən qaçaraq canını qurtaran Həvazin qəbiləsinin lideri Malik ibn Əvfə xüsusi elçi göndərmiş, əgər müsəlman olarsa əsir edilən ailələrin sərbəst buraxılacağını, qənimət olaraq payladığı malları geri qaytaracağını, hətta bir çox hədiyyələr verəcəyini bildirmişdir. Özü ilə bu qədər yaxından maraqlandığını görən Malik Hz. Peyğəmbərin *(s.ə.s)* hüzuruna gələrək İslamı qəbul etmişdir. Və İslamın müdafiəçisi olmuşdur.[557]

Təkcə lider və öndə gələn şəxslərlə yaxından maraqlanmaq İslamı öyrənmək arzusunda olanlardan üz çevirməyə səbəb olmamalıdır. Çünki həqiqəti axtaranlardan üz çevirmək və

---

555. İbn Kəsir, *əl-Bidayə*, III, 210-212.
556. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 297.
557. İbn Kəsir, *əl-Bidayə*, IV, 361.

səhər-axşam Allahı zikr edənləri məqam və mövqe səbəbilə özündən uzaqlaşdırmaq Allahın xəbərdarlığına səbəbdir.[558]

İnsanlar liderlərini eynilə təqlid etməyə meyllidir. Bu səbəblə bu metodu xalq kütlələrinin İslama bağlanmasında bir vasitə olaraq istifadə etmək olar.

**4. Yaxşı mühit**

İctimai mühitin insan üzərindəki təsiri danılmazdır. Münasibətdə olduğumuz cəmiyyət insan əxlaqını və yaşayışını yaxşıdan pisə dəyişdirdiyi kimi, pisdən yaxşıya doğru da dəyişə bilər.[559] Yaxşı insanlarla birgə olan yaxşı, pis insanlarla birgə olan isə (istisnalar xaric) pis olur.

Bu həqiqəti Hz. Peyğəmbər *(s.ə.s)* nə gözəl ifadə etmişdir: *"Yaxşı və pis dostun misalı, müşk daşıyanla körüyə üfürənə bənzəyir. Müşk daşıyan ya ondan sənə hədiyyə verər, ya sən ondan nə isə alarsan, ya da ondan gələn xoş qoxunu duyarsan. Körüyə üfürənə gəlincə, o, ya sənin paltarını yandırar, ya da ondan gələn pis qoxunu duyarsan".*[560]

Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurmuşdur: *"Sizdən əvvəl yaşayanlar arasında 99 insanı öldürən bir nəfər vardı. Dünyadakı ən elmli insanın kim olduğunu soruşdu. Ona bir rahibi məsləhət gördülər. Onu axtarıb tapıb, doxsan doqquz adam öldürdüyünü, bağışlanma ehtimalının olub-olmadığını soruşdu.*

*Rahib:*

*– Xeyr yoxdur! – dedi. Bu cavabı eşidəndə onu da öldürdü. Beləcə 100 nəfəri öldürmüş oldu. Qatil dünyadakı ən elmli insanı axtarmağa davam etdi. Ona bir alimi məsləhət gördülər. Onu da tapdı və ondan yüz insan öldürdüyünü, bağışlanma ehtimalının olub-olmadığını soruşdu.*

*Alim:*

---

558. (Ya Rəsulum!) **Rəbbinin camalını** (rizasını) **diləyərək səhər-axşam Ona dua edənləri yanından qovma. Onların əməllərini sənə, sənin əməllərinin isə onlara heç bir dəxli yoxdur. Buna görə də** (onları qovsan) **zalımlardan olarsan.** Ənam, 6/52.

559. İ. Canan, *Sünnədə Tərbiyə*, s, 296.

560. Buxari, Zəbəih, 31; Müslim, Birr, 146.

*– Bəli, bağışlanma diləyə bilərsən. Səninlə tövbən arasına kim pərdə ola bilər? – dedi. Və əlavə etdi:*

*– Ancaq, filan məmləkətə getməlisən. Çünki orada Allaha ibadət edən kəslər var. Sən də onlarla Allaha ibadət etməli və bir daha öz məmləkətinə geri qayıtmamalısan.*

*Adam yola çıxdı. Gedərkən mənzil başına çatar çatmaz ölüm mələyi gəlib ruhunu aldı. Rəhmət və əzab mələkləri onun haqqında qərar verə bilmədilər. Rəhmət mələkləri:*

*– Bu adam tövbə etdi. Ürəkdən Allaha yönəlmişdi, – dedilər.*

*Əzab mələkləri də:*

*– Bu adam heç bir xeyir iş görməyib, – dedilər.*

*Onlar belə mübahisə edərkən insan surətində bir mələk gəldi. Mələklər onu hakim təyin etdilər.*

*Hakim onlara:*

*– Onun çıxdığı yerlə, gedəcəyi yer arasındakı məsafəni ölçün, hansı tərəfə daha yaxındırsa buna görə qərar verin, dedi. Ölçdülər, gördülər ki, getməyi arzu etdiyi yerə bir qarış daha yaxındır. Onu dərhal rəhmət mələkləri apardılar".*[561]

İnanc və davranışları dəyişdirmək üçün arzu edilən cəmiyyət və mühit hazırlanmalıdır. Belə bir cəmiyyət və mühitdə yaşayan fərd müəyyən müddət sonra onların düşüncə və davranışlarını mənimsəyərək onlar kimi hərəkət edəcək, onlar kimi olmağa çalışacaqdır.

Buna Sosial Psixologiyada "qrupla eyniləşmək zərurəti" deyilir.[562] Hz. Peyğəmbər *(s.ə.s)* dəvət hərəkatında bu psinsipə hər zaman diqqət etmiş və insanın yaxşı olması üçün yaxşı dost seçməsi gərəkdiyini bildirmişdir.[563] Hz. Peyğəmbər *(s.ə.s)* İslamın ilk illərində mühitin təsirinə əsasən hicrəti əmr etmişdir. Bu tətbiqat Məkkənin fəthinə qədər davam etmişdir.[564]

561. Buxari, Ənbiya, 54; Müslim, Tövbə, 46.
562. Kerch, *Sosial Psixologiya*, I, 212-213.
563. Əbu Davud, Ədəb, 16; Tirmizi, Zöhd, 45, 56; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 303, 334.
564. M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 304, II, 277.

İslami bir cəmiyyət və mühit yaradıldıqdan sonra cəmiyyət özbaşına buraxılmamalı və cəmiyyətdə həmişə xeyirli əməllər və yaxşılıqlar hakim olmalıdır. Cəmiyyət içərisində işlənən cinayət xəstəlik mikrobu kimi çevrəyə də sirayət edir. Buna mane olmaq üçün «əmri bil-məruf, nəhyi ənil-münkər" hər fərdin borcudur. Bunun məqsədi insanların İslama bağlı qalmalarını, dünya və axirət səadətini təmin etməkdir.

**5. Zaman və məkan**

Tərəf müqabilinə müsbət mənada təsir edə bilmək üçün zaman və məkanın mühüm rolu vardır. İnsanların münasib vaxtlarının nəzərə alınması və hər baxımdan əlverişli şəraitin seçilməsi məqsədə nail olmaqda böyük əhəmiyyət kəsb edir. Yerində və vaxtında edilən təbliğ daha təsirli və faydalı olduğu halda, yersiz söylənilən söz də kin və nifrətə səbəb olar.

Buna görə təbliğ əhli hər şeydən öncə yaşadığı zaman və məkanın şərtlərini müəyyən etməli, sonra da bu şərtlərə uyğun plan hazırlayıb tətbiq etməyə başlamalıdır. Yersiz bir çıxış, hər şeyin həmin anda bitməsinə səbəb ola bilər. Bu səbəblə müsəlman olduğunda:

– Ya Rəsulallah sən mənə nə etməyimi əmr edirsən? – deyə soruşan Əbu Zərrə (r.a) Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Ey Əbu Zərr! Bu hadisəni gizli saxla və məmləkətinə qayıt. Ortalığa çıxıb aşkar dəvətə başladığımızı eşitdiyin zaman yanıma gəl!"* – buyurmuşdur.[565]

Eyni şəkildə dəvətə mane olanlara qarşı göstəriləcək davranış xüsusiyyətlərində də zamanın böyük əhəmiyyəti vardır. Fərvə ibn Müseyk deyir ki:

Bir gün Hz. Peyğəmbərə *(s.ə.s)*:

– Ey Allahın Rəsulu! Qövmümdən İslamı qəbul edənlərlə birləşərək dinimizdən üz çevirənlərə qarşı mübarizə edim? – deyə soruşdum.

565. Buxari, Mənəqib, 6.

İcazə verdi və məni bu xüsusda əmir təyin etdi. (Mədinədən) ayrıldığım zaman:

" – *Qutayfi nə etdi?"* – deyə soruşmuş, getdiyim xəbər verilincə dərhal arxamca adam göndərərək məni geri çağırdı. Gəldiyimdə əshabının bir qismi onunla birlikdə idi. Mənə bu təlimatı verdi:

*" – Qövmünü İslama dəvət et. Onlardan İslamı qəbul edənlərin müsəlmanlığını qəbul et. İnkar edənlərlə vuruşmağa tələsmə, mən sənə yeni bir əmr göndərincəyə qədər gözlə!".*[566]

Hz. Peyğəmbər *(s.ə.s)* Məkkə dövründə hər cür tələskənlikdən və hər hansı bir nəticəsi olmayan emosional davranışlardan qaçınaraq şirklə mübarizə aparmışdır. İlk olaraq insanları iman əsaslarını qəbul etməyə çağırmış və beləliklə hər şeydən əvvəl sağlam əqidənin təməllərini atmışdır.

Müsəlmanlara nəsihət edərkən də zaman və məkana riayət etmək lazımdır. Əbu Vali belə rəvayət edir:

Abdullah ibn Məsud insanlara cümə axşamı günləri moizə edərdi. Bir nəfər ona:

– Əbu Əbdürrəhman! Kaş bizə hər gün moizə verəydin, – dedi.

İbn Məsud bunları dedi:

– Sizi yormamaq üçün hər gün moizə vermirəm. Necə ki, Rəsulullah da bezib usanmayaq deyə, dinləməyə münasib günləri seçərdi.[567]

Dinləyənlərin bezməməsi üçün qısa və konkret danışmağa diqqət edilməli, insanların çox vaxtını alaraq və israr edərək nifrətə səbəb olunmamalıdır.

Yenə Əbu Valinin rəvayət etdiyinə görə Ammar ibn Yasir çox təsirli xütbə oxumuşdu. Xütbəni zövqlə dinləyən müsəlmanlar ona ləqəbi ilə müraciət edərək:

566. Tirmizi, *Təfsir*, 34/1.
567. Buxari, Elm, 11-12.

– Əbül-Yaqzan! Çox gözəl danışdın. Xütbəni bir az da uzatsaydın yaxşı olardı, dedilər.

O zaman Ammar xütbəsini nə üçün gərəyindən artıq uzatmadığını belə açıqladı:

– Mən Rəsulullahı *(s.ə.s)* belə-belə deyərkən eşitdim:

*"Bir adamın namazı uzun qıldırıb xütbəni qısa kəsməsi, İslamı yaxşı bildiyini göstərir. Bu səbəbdən namazı uzun qıldırıb xütbəni qısa kəsin. Çünki elə sözlər vardır ki, sanki insanı sehrləyir".*[568]

Allah Rəsulu *(s.ə.s)* zaman və məkana uyğun şəkildə təbliğ etmək düsturuna son dərəcə əhəmiyyət verirdi. Bəzən bir sual verildiyində onunla bağlı açıqlama vermiş, bəzən də çox əhəmiyyətli bir hadisə olmasa da diqqəti cəlb edən ifadələr işlətmiş, yanındakıları dinləməyə və öyrənməyə hazırladıqdan sonra demək istədiklərini onlara çatdırmışdır. Beləliklə, təbliğ etdiyi prinsipləri qulaqardı edilən və eşidildikdən sonra unudulan adi bir söz kimi deyil, hətta uzun illər sonrada yad edilən, qiyamətə qədər qalan qiymətli biliklər və unudulmayan xoş xatirələr kimi ümmətinə əmanət etmişdir.

Göründüyü kimi təbliğin hədəfinə çata bilməsi üçün zaman və məkan ünsürünün böyük əhəmiyyəti vardır. Bu mənada təbliğ əhli vəzifəsini haqqı ilə yerinə yetirə bilmək üçün daima ən uyğun zaman və məkanı seçmək məcburiyyətindədir.

### 6. Məşvərət yeri

Təbliğ İslamın yayılması və insanların hidayətə qovuşması üçün mövcud olan vasitələrdən istifadə etməklə yanaşı yeni vasitələr üçün də çalışmaqdır. Xüsusilə təbliğ mesajını çatdırmaq və problemlərin həlli üçün insanları bir yerə toplamaq, bunun üçün məkan seçmək bu vasitələrdən biridir.

İslamın camaata və camaatlaşmağa verdiyi əhəmiyyəti bilməyən yoxdur. Gündə beş vaxt qıldığı camaat namazı, həftədə bir dəfə qılınan cümə namazı və ildə iki dəfə qılınan bayram namazı müsəlmanların bir araya gəlməsini təmin edir. Bütün

568. Müslim, Cümə, 47.

bunlardan başa düşürük ki İslam, müsəlmanların bir yerə toplaşmalarına çox böyük əhəmiyyət vermiş, hətta ibadət vaxtlarında bu xüsusu həyata keçirməyi şərt qoşmuşdur.

Bunlardan əlavə Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ metodu olaraq insanları müxtəlif məkanlarda da bir yerə toplamışdır. Daha əvvəldə ifadə etdiyimiz kimi Hz. Peyğəmbər *(s.ə.s)* ilk iman edənləri Darul-Ərkamda bir yerə toplayardı. İlk dəfə dəvətini açıqladığı zaman öz qohum-əqrəbalarını evinə çağırmışdı. Bütün Qüreyşə İslamı çatdıra bilmək üçün Səfa təpəsini toplantı yeri olaraq seçmişdir. Birinci və ikinci Əqəbə beyətləri İslam dəvəti yönündən önəmli qərarların verildiyi toplantılardır.

Digət tərəfdən Hz. Peyğəmbər *(s.ə.s)* bir yerə toplaşmağın insan üzərindəki təsirini bildiyi üçün müsəlman olmayanların toplantı yerlərinə gəlməyini xoş qarşılamazdı. Misal üçün onun münafiqlərə qarşı siyasəti onların bir yerə toplaşmalarının qarşısını alaraq cəmiyyətdə fərd olaraq yaşamaqlarını təmin etmək idi. Bu tətbiqatına nümunə olaraq Təbuk səfəri əsnasında fitnə məkanı olan bir evi yandırtmış,[569] məşhur Məscidi-Dirarı da yıxdırmışdır.[570]

İslam təbliğçisi müsəlmanların ibadət vaxtlarında bir yerə toplaşmalarından istifadə etməli, hətta qeyri-müsəlmanlara xitab etmək üçün konfrans və seminarlar, xüsusi sohbətlər tərtib etməlidir. Onun vəzifəsi bütün imkanlardan istifadə edərək İslamı insanlara çatdırmaq olmalıdır.

### 7. İnsanların çox olduğu yerlərə getmək

Müxtəlif məqsədlərlə insanların bir yerə toplandığı yerləri təbliğçi mütləq dəyərləndirməlidir. O, əlinə keçən hər fürsəti dəyərləndirmək məcburiyyətindədir. Hz. Peyğəmbər *(s.ə.s)* belə fürsətləri hər zaman dəyərləndirərdi. Məkkə yaxınlığında Mina, Məcənnə, Zül-Məcaz və Ukaz adını daşıyan dörd fərqli ticarət yarmarkası keçirilirdi. Hz. Peyğəmbər *(s.ə.s)* bu yarmarkalarda iştirak edir və insanlara İslamı təbliğ edirdi.

569. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, III-IV, 517.
570. İbn Kəsir, *əl-Bidayə*, V, 21-22.

Hz. Peyğəmbər *(s.ə.s)* bir gün Üsamə ibn Zeydlə birgə müşriklərlə yəhudilərin toplaşdığı yerdən keçirdi. Onların könüllərini qazana bilmək üçün salam verərək yanlarında dayanmış, onları İslama dəvət etmiş və Quran oxumuşdur.[571]

Bir dəfə Yəhudilərə xəbərdarlıq etmək üçün Bəni-Qaynuqanın məşhur bazarına getmişdir.[572] Bu və bənzəri səbəblərlə insanların bir yerə toplaşmasını Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ üçün fürsət bilmiş və təbliğ fəaliyyətini həmin toplantı yerlərində aparmışdır. Təbliğçi də onu nümunə götürməli və bu cür vəsilələri nemət bilməlidirlər.

**8. Ziyarət etmək**

İnsanın ətrafındakı insanlarla maraqlanması, dərd və problemlərinə şərik olması insanlıq borcudur. İslami dəvəti çatdıra bilmək üçün təbliğçi xeyir və şər yerlərinə getməlidir. Hz. Peyğəmbər *(s.ə.s): "Xəstə ziyarətinə gedən insan qayıdana kimi cənnət yolundadır"*[573] buyurmuşdur.

Bir şəxsi evində ziyarət etmək, hal-əhvalını soruşmaq, könlünü almağa çalışmaq İslam qardaşlığından irəli gəlir. Allah-Təala bütün müsəlmanları qardaş elan etmiş və onların bir-birlərini sevməyini, bir-birlərinə kömək etməyini əmr etmişdir. İnsanlar arasında sevginin yaranmasına kömək edən ən mühüm səbəblərdən biri də ailəvi ziyarətlərdir. Bu baxımdan İslam, ziyarətə böyük əhəmiyyət vermişdir.

Ziyarət xəstəlik, doğum, bayram, vəfat kimi müxtəlif vəsilələrlə yerinə yetirilə bilər. Hər hansı bir səbəb olmadan nəzakət üçün edilən ziyarətlər də vardır. Müsəlmanlar ziyarət vasitəsilə bir-birlərinin sıxıntılarını, problemlərini və ehtiyaclarını öyrənərək yardımlaşmaq fürsəti əldə edirlər. Eyni zamanda bir-birlərinin dünyagörüşü, düşüncə və təcrübələrindən istifadə edərək, bir çox məsələni öz aralarında müzakirə edərək qərar vermək imkanı əldə edirlər. Cəmiyyətdə yalnız olmadıqlarını hiss edir, gələcəyə ümidlə baxırlar. Sevincli və

571. Buxari, *Təfsiru Surati Ali-İmran*, 15; Müslim, Cihad, 116.
572. Əbu Davud, İmarət, 22; İbn Kəsir, *əl-Bidayə*, IV, 3-4.
573. Müslim, Birr, 38-42; Tirmizi, Cənəiz, 2, Birr, 64; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 81.

kədərli anlarında ətrafında qardaşlarını görmək onlara xoş təsir edir. Ona görə də qonşu və yaxınları ziyarət etməyin bir çox faydaları vardır. Allah Rəsulu, buna görə əshabını mütəmadi olaraq ziyarət edirdi.

Rəsulullah *(s.ə.s)* ümmətinə də xəstə və din qardaşlarını ziyarət etməyini əmr edirdi. Bir hədisi-şərifində belə buyurmuşdur:

*"Kim Allah rizası üçün bir xəstəni və ya bir müsəlman qardaşını ziyarət edərsə, bir münadi (mələk) ona belə səslənir; "Nə gözəl və nə xoş bir əməl işlədin. Bunu etməklə sənin getməyinin əcri də gözəl oldu və cənnətdə özünə bir yer hazırladın!"*.[574]

Ziyarətlər, hər hansı bir mənfəət üçün yox, Allah rizası üçün edilməlidir. Allah-Təala, saf niyyətlə ziyarət edənləri sevdiyini bildirmişdir. Bir qüdsi hədisdə belə buyurulur:

*"Mənim rizam üçün bir-birlərini sevənlərə, Mənim rizam üçün çoxlu infaq edənlərə, bir-birlərini sevməkdə səmimi davranan sadiqlərə, qohum və dost münasibətlərini kəsməyənlərə və ya bir-birlərini ziyarət edənlərə sevgim haqdır"*.[575]

Allah Rəsulu *(s.ə.s)* xəstə ziyarəti kimi insanları bir-birinə yaxınlaşdıran ictimai davranışları bütün insanlara əmr etmişdir. Bəra ibn Azib belə deyir:

Allah Rəsulu *(s.ə.s)* bizə xəstə ziyarətini, cənazənin arxasından getməyi, asqırana "yərhəmukəllah" deməyi, and içənin andını yerinə yetirməsini, haqsızlığa uğrayana yardım etməyi, dəvət edənin dəvətini qəbul etməyi və salamı yaymağı tövsiyə etdi".[576]

Xəstə ziyarəti zamanı ayrı-seçkilik edilməməlidir. Belə ki, Allah Rəsulu *(s.ə.s)* xəstə olan yəhudi bir uşağı ziyarət etmiş və müsəlman olmasına səbəb olmuşdur.[577] Ziyarətindən müsbət nəticə əldə edən Hz. Peyğəmbər *(s.ə.s)* buna çox sevinərək Uca

574. Tirmizi, Birr, 64.
575. Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 229.
576. Buxari, Cənəiz, 2; Müslim, Libas, 3.
577. Buxari, Cənəiz, 80.

Allaha şükür etmiş və: *"Mənim vasitəmlə bu uşağı cəhənnəmdən qurtaran Allaha həmd olsun"* demişdir.[578]

Uzaq olduğuna görə şəxsən gedib ziyarət etmək imkanı olmadığında, başqa birisinin vasitəsilə salam göndərmək və ya məktub, telefon kimi xəbərləşmə vasitələrilə şəfa diləmək də gözəl bir davranışdır.

**9. Məscid**

Hz. Peyğəmbərin *(s.ə.s)* İslama dəvət hərəkatında məscidin müstəsna yeri var. Müxtəsər şəkildə Hz. Peyğəmbərin *(s.ə.s)* dəvətində məscidin oynadığı rolu qeyd edək:

Müsəlmanlar üçün bütün yer üzü təmizdir və üzərində ibadət edilə bilər.[579]

İslam birlik və bərabərlik, sevgi və qardaşlıq dinidir. Etibar, mal-mülk və mövqe fərqli güdülmədən hər kəs məscdiddə bir yerə toplaşır, qaynayıb-qarışır və İslamın arzuladığı qardaşlıq ruhuna sahib olurlar.[580]

Məscid İslamın insanlara təbliğ edildiyi, moizə və nəsihətin verildiyi yerdir.

Məscid elm məclisi, təlim və tərbiyə müəssisəsidir. Tikildiyi gündən etibarən orada dərs halqaları təşkil edilmiş Quran, hədis, fiqh, təfsir kimi mühüm elmlərin tədris edildiyi mərkəz olmuşdur.[581]

Məscid İslam Mədəniyyət mərkəzidir. Orada natiqlik və şeir yarışmaları keçirilirdi.[582]

Siyasi məsələlərin müzakirə edildiyi məşvərət məclisi, diplomatik görüşlərin aparıldığı rəsmi toplantı salonudur. Hz. Peyğəmbər dövlətə aid məsələləri səhabələri ilə orada müzakirə edərdi. Həmçinin qəbilə mənsublarını da orada qəbul

578. Əbu Davud, Cənəiz, 2; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 175.
579. Qəzali, *Fiqhus-Sira*, s, 190.
580. Buti, *Fiqhus-Sira*, 152-153.
581. Buxari, Salət, 84; İ. Canan, *Sünnədə Tərbiyə*, s, 322, 373; Qəzali, *Fiqhus-Sira*, s, 190.
582. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 294; Qəzali, *Fiqhus-Sira*, s, 190.

edirdi. Hz. Peyğəmbərdən *(s.ə.s)* sonra xəlifələr də eyni yolu davam etmişlər.[583]

Hz. Peyğəmbər *(s.ə.s)* bir çox hüquqi məsələləri məsciddə həll edər və oranı məhkəmə salonu kimi istifadə edirdi.[584]

Hz. Peyğəmbər *(s.ə.s)* məsciddə sosial məsələlərlə məşğul olurdu. Verdiyi hökmlər buradan açıqlanırdı.[585]

Məscid İslam iqtisadiyyatı ilə əlaqəli məsələlərin müzakirə edildiyi yer olmuşdur. Ehtiyac sahiblərinin ehtiyacı buradan qarşılanır,[586] həmçinin burada iqtisadi müzakirələr edilirdi.[587]

Məscid bir mənada ordu qərərgahı idi. Hərbi və starateji plan və müzakirələr burada aparılırdı.

Məscidin xəstəxana kimi istifadə edildiyinə də şahid ola bilərik. Döyüşdə yaralananlar orada müalicə olunurdu. Hacamat (qan aldırmaq) bəzən orada edilirdi.[588]

Bəzən müəyyən məqsədlərlə məhbuslar məscidin dirəklərinə bağlanırdı. Bu mənada məscid həbsxana kimi də istifadə edilmişdir.[589]

Hz. Peyğəmbər *(s.ə.s)* Saqif heyətini Mədinədə qaldıqları müddətdə məsciddə qonaq saxlamışdır. Oranı bir mənada karvansaray kimi istifadə edirdi. Hz. Ömər (r.a) dövrünə qədər xaricdən gələn qonaqlar məscidin bir kənarında yatardılar.[590]

Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə məscid mərasim və idman zalı kimi də istifadə edilirdi. Onun izni ilə bayram ərəfəsində həbəşlilər mizraq və qalxan oyunları göstərirdilər.[591]

---

583. M. Həmidullah, *İ. Peyğəmbəri*, II, 264; İ. Canan, *Sünnədə Tərbiyə*, s, 373.
584. J. Pedersen, "Məscid", İ. A, VIII, 46.
585. Buxari, Salət, 70-71.
586. Buxari, Salət, 42.
587. Buxari, Salət, 71, 83.
588. İ. Canan, *Sünnədə Tərbiyə*, s, 373; J. Pedersen, "Məscid", İ. A, VIII, 3.
589. Buxari, Məğazi, 70; Müslim, Cihad, 59; Nəsai, Məsəcid, 20.
590. Qandəhləvi, *Həyatus-Səhabə*, III, 564; M. Həmidullah, *İ. Peyğəmbəri*, I, 329; İ. Canan, *Sünnədə Tərbiyə*, s, 373; J. Pedersen, "Məscid", İ. A, VIII, 3,19.
591. Buxari, İydeyn, 2, 25, Cihad, 81; İ. Canan, *Sünnədə Tərbiyə*, s, 373; J. Pedersen, "Məscid", İ. A, VIII, 3.

Məscid bir ərazinin İslama aid olduğunu bildirən simvoldur. Hz. Peyğəmbər *(s.ə.s)* hərbi birliklər göndərdiyi zaman harada məscid görsələr ora toxunmağı qadağan edərdi.[592]

İslam dəvətindəki bu cür mümtaz mövqeyi və cəmiyyət həyatındakı əhəmiyyətinə əsasən Rəsulullahın *(s.ə.s)* ilk mərhələdə gördüyü iş Mədinəyə yaxın olan Qubada hal-hazırda da məşhur olan Quba məscidini inşa etmək olmuşdur. Bu tikintidə hər kəs işləmişdir. Belə ki, Hz. Peyğəmbər *(s.ə.s)*, Hz. Əbu Bəkir və Hz. Ömər də inşaatda istifadə ediləcək daşları daşımışlar.[593]

Bunlardan əlavə təbliğdəki rolu səbəbilə Hz. Peyğəmbər *(s.ə.s)* məscidlərin sayının artırılmasını tövsiyə etmişdir. *"İçərisində Allahın zikr edildiyi bir məscid tikdirənə Uca Allah cənnətdə bir köşk hazırlayar"* buyuraraq[594] hər məhəllədə məscid tikilməsini və təmizliyinə riayət edilməyini əmr etmişdir.[595]

Səmhudinin ad və yerlərini qeyd edərək bildirdiyinə görə Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə məscid[596] kimi istifadə edilən evlər müstəsna, Məscidi-Nəbi xaricində şəxsən Hz. Peyğəmbərin *(s.ə.s)* namaz qıldığı Mədinə daxilində 18, Mədinə xaricində isə 40 məscid vardı.[597]

Hz. Peyğəmbərin *(s.ə.s)* məscidlə bağlı əmr və tətbiqatı səbəbilə sonrakı dövrlərdə də məscid tikmək adət halına gəlmiş-

---

592. Əbu Davud, Cihad, 91; Tirmizi, *Siyər*, 2.
593. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 496-497; İbn Kəsir, *əl-Bidayə*, III, 214-219.
594. Müslim, Məsəcid, 24; Nəsai, Məsəcid, 24.
595. Əbu Davud, Salət, 13; İbn Macə, Məsəcid, 9.
596. Tarixçilərin verdiyi məlumata görə, Əbu Bəkir öz həyətində kiçik bir məscid tikdirmişdi. Oradan keçənlər Qurani-Kərim oxuyanda içəridən gələn gözəl səsini eşidirdilər. Çöldən görünməsə də qonşu qadın və uşaqlar onun tilavətinə qulaq asmaq üçün evinin qabağında toplaşırdılar. Bəlazurinin "Ənsab" (I, no. 364-365) adlı əsəri ilə İbn Kəsirin *"əl-Bidayə"* (VII, 311) adlı əsərində qeyd olunduğuna görə, müsəlman aləmində ilk inşa edilən məscid Əmmar ibn Yasir əl-Ənsinin (görünən odur ki, Kəbədə ibadət etməsinə müşriklər mane olduğuna görə) o dövrdə öz evində inşa etdirdiyi məsciddir. Bu səhabə Məkkədə yaşaması üçün Əbu Cəhlin ailəsi tərəfindən təhlükəsizliyinə təminat verilən, Məkkəyə kənardan gələn şəxs idi. Məhz bu səbəbdən onun Kəbənin həyətinə girməsinə mane olurdular. Bəlazurinin yuxarıda qeyd olunan əsərində aydın olur ki, bu hadisə hicrətdən əvvəlki Məkkə dövrünə aiddir. Odur ki, bəzilərinin düşündüyünün əksinə, İslamda ilk məscid Mədinədəki Quba məscidi yox, Məkkədəki həmin bu məsciddir.
597. Səmhudi, *Vəfa*, III, 819-880.

dir. Hz. Ömər (r.a) fəth edilən bölgələrə təyin edilən valilərinə cümə namazı üçün böyük məscid, qəbilələr üçün də ayrı-ayrı məscid tikdirmələrini əmr edərdi.[598]

İslam dəvətində müstəsna yeri olmasına baxmayaraq məscidlər artıq əvvəlki funksiyasını itirərək ancaq ibadət edilən yer halına gəlmişdir.

İslam təbliğçisi İslami bir cəmiyyət meydana gətirmək və İslamı bütün dünyaya yaya bilmək üçün məscidlərə layiq olduğu dəyəri verərək Hz. Peyğəmbərin *(s.ə.s)* dövründəki fəallığı qazandırmağa çalışmalıdır. Bunun üçün də qəlbi Allaha bağlı olan, səmimi, qabiliyyətli, dəvət üçün çırpınan imam və natiqlərə möhtacıq. Cəmiyyətin içinə düşdüyü bataqlıqdan qurtarılmasında onlara böyük məsuliyyət düşür və qurtuluş ancaq onların əli ilə olacaqdır.

### 10. Suffə-Məktəb

Daha əvvəl ifadə etdiyimiz kimi İslamın müxatəbi yalnız qeyri-müsəlmanlar deyil. Əksinə İslama dəvət hərəkatı bütün bəşəriyyət çərçivəsində İslami cəmiyyət meydana gətirmək, bu cəmiyyətin davamlı olaraq İslama bağlı qalmasını təmin etmək, bu şəkildə dünya və axirət səadətini qazanmaq fəaliyyətidir. Bir cəmiyyətdə tətbiq edilən təlim-tərbiyə hansı müstəvidədirsə cəmiyyət ona uyğun formalaşır.

Bu əsasdan hərəkətlə İslam dəvətinin əsasını təşkil edən İslami bir cəmiyyət və İslami əsaslara bağlı nəsil yetişdirmək üçün təlim-tərbiyə metodları çox önəmlidir. Bunun üçün ələ keçən bütün fürsətlər dəyərləndirilməlidir. İslam dəvətinin əsas metodlarından biri təlim-tərbiyə yolu ilə nəticə hasil etməkdir.

Hicrətin ilk aylarında Hz. Peyğəmbərin *(s.ə.s)* məscidə bitişik müstəqil bir məktəb binası (Suffə) tikdirməyi[599] həqiqətən düşündürücüdür.

---

598. Çələbi, *Təlim-Tərbiyə Tarixi*, s, 98.
599. Səmhudi, *Vəfa*, II, 453-454.

Suffə köhnə evlərdə olan səki, hündür eyvan deməkdir, dilimizdə buna "söffə" də deyilir. İslam tarixində «Suffə" Hz. Peyğəmbərin *(s.ə.s)* məscidinə bitişik tikilən məktəbin adıdır. Burada yaşayan səhabələrə də «Əshabi-suffə" və ya «Əhli-suffə" deyilir. Mənbələrin ittifaqla ifadə etdiyi kimi Suffə yalnız kasıb müsəlmanların qaldığı yer olmamış, əksinə elm və irfan ocağı olmuşdur.[600]

Muhamməd Həmidullahın ifadəsinə görə Suffədə 400-ə yaxın tələbə vardı.[601]

Hz. Peyğəmbərin *(s.ə.s)* ilk illərdə qarşılaşdığı ən böyük çətinlik oxuma yazma bilən müəllimlərin azlığı idi. Bu səbəblə kafirlərdən də dərs alınırdı.[602] Hətta oxuma-yazmanı öyrənmək üçün müsəlman uşaqlar yəhudilərə aid məktəblərə belə göndərilirdi.

Qadınlara da dərs verilirdi. Kəttani oxuma-yazma bilən qadın müəllimələrdən bəhs etmişdir. Misal üçün Şifa Ümmü Süleyman ibn Əbi Xatmənin şəxsən Hz. Peyğəmbər *(s.ə.s)* tərəfindən Hz. Həfzə və Ruqiyyəyə oxuma-yazma öyrətmək üçün vəzifələndirildiyini bildirir.[603]

Qeyd edilənlərdən də göründüyü kimi Hz. Peyğəmbər *(s.ə.s)* məqsədini gerçəkləşdirmək, İslami bir cəmiyyət meydana gətirmək üçün kişi-qadın, böyük-kiçik fərqi qoymadan təlim-tərbiyə ilə şəxsən özü məşğul olmuşdur. Bunu həyata keçirə bilməyi və ələ keçən hər fürsəti dəyərləndirməyi təbliğin təməl metodlarından biri kimi qəbul etmişdir. Əlbəttə ki, təlim-tərbiyəyə verilən dəyər öz bəhrəsini verməli və arzu edilən ümmət formalaşmalı idi. Hz. Peyğəmbər *(s.ə.s)* belə bir ümməti miras qoyaraq axirətə köçmüşdür.

### 11. Xəbərləşmə və elçilər

İnsanların sosial münasibətlərinin təbii nəticəsi olan ictimai müəssisə olaraq xəbərləşmə təşkilatı şübhəsiz ki, Hz. Adəmdən

600. Kəttani, *Tərətib*, I, 40, 48; M. Həmidullah, *İ. Peyğəmbəri*, II, 75-77.
601. M. Həmidullah, *Müxtəsər Hədis Tarixi*, s, 21.
602. Kəttani, *Tərətib*, I, 48-49.
603. Kəttani, *Tərətib*, I, 49-50.

(ə.s) bu yana mövcud olmuşdur. İnsanlar müəyyən ehtiyaclarını qarşılamaq, məqsədlərini həyata keçirmək üçün bu quruluşdan istifadə etmişlər. Hz. Peyğəmbər *(s.ə.s)* də qaçınılmaz olan bu müəssisədən təbliğ hərəkatının faydası üçün istifadə etmiş, təbliğinə müxatəb etdiyi insanlarla o dövrün şərtlərinə uyğun olaraq elçilər və məktublar göndərərək əlaqə qurmuş və xəbərləşmişdir.

Biz bu mövzunu daha əvvəl "Diplomatik Dəvətin" bir hissəsi olaraq "İslama Dəvət Məktubları və Elçilər" başlığı altında qeyd etmişik. Bu səbəblə də bu mövzunun üzərində təfsilata girmirik. Ancaq onu qeyd edək ki, xəbərləşmə metodunun tətbiq edilməsində dövrümüzdəki telefon, radio, televizor, internet, mətbuat və s. kimi imkanlardan təbliğ əhli mütləq faydalanmalıdır.

### 12. İqtisadi münasibətlər

İslam insanların həyat tərzini nizamlayan və tənzimləyən sosial-iqtisadi, ictimai-siyasi, hüquqi və əxlaqi qaydalarının hamısını ehtiva edir. Ticari münasibətlər dövlətlər üçün əhəmiyyətlidir. Bu baxımdan iqtisadi münasibətlər də bir dinin yayıla bilməyində böyük önəmə malikdir.

İnsan maddi olaraq müəyyən ehtiyaclarını qarşılamaq məcburiyyətindədir. Bunun üçün alış-veriş etməli, başqaları ilə iqtisadi münasibətlər qurmalıdır. Bir insanın bu kimi ehtiyaclarını qarşılaya bilməməsi müəyyən problemlərə gətirib çıxarar.

Hz. Peyğəmbərin *(s.ə.s)* 23 illik peyğəmbərlik dövrünün böyük hissəsi digər qəbilələrlə münaqişə içində keçdiyi üçün iqtisadi əlaqələrdən bəhs etmək yanlış olar. Qısa müddət davam edən Hüdeybiyyə sülhü dövründə səhabələr təhlükəsiz şəkildə ətraf bölgələrin insanları ilə ticari münasibətlər qura bilmişlər. Bu qısa müddətdə onlar ticari münasibətlərdən istifadə edərək insanlara Quran oxumuş və İslamı təbliğ etmişlər. Ticarət onlar üçün məqsəd yox, İslamı yaymaq üçün vasitə rolunu oynamışdır. Bu fəaliyyət İslam dəvəti yönündən çox faydalı olmuş, İslam əvvəlki 16 ilə nisbətlə daha sürətlə yayılmışdır.

Hüdeybiyyə sülhü dövründə Məkkədə iqtisadi böhran başlamışdı. Bunu öyrənən Hz. Peyğəmbər *(s.ə.s)* Məkkə əhalisinin ehtiyaclarını qarşılamaq üçün müəyyən miqdar qızıl göndərdi. Əbu Süfyan xaric Məkkənin öndə gələnləri bunu qəbul etmədilər. Əbu Süfyan Hz. Peyğəmbərin *(s.ə.s)* göndərdiyini qəbul edərək Məkkə əhalisinə payladı. Bunu edərkən də Hz. Peyğəmbərin böyüklüyünü etiraf etdi.[604] Bu hadisədən çox keçməmiş Əbu Süfyanın və başqa bir çox insanın müsəlman olmasına şahid oluruq.

Bir çox insan ticari münasibətlər səbəbilə müsəlman taciri tanımış və onların gözəl əxlaq və davranışlarından təsirlənərək müsəlman olmuşdur.[605]

Hz. Peyğəmbər *(s.ə.s)* iqtisadi embarqo ilə insanların müsəlman olmasına çalışmamışdır. Belə davranış İslama görə doğru deyil. Ənsar yəhudilərin kasıblarının ehtiyaclarını qarşılayırdı. Bir müddət özlərindən asılı və nəticədə müsəlman olsunlar düşüncəsi ilə onlara etdikləri yardımı kəsdilər. Bu hadisədən sonra Uca Allah: **"**(Ya Rəsulum!) **İnsanları doğru yola yönəltmək sənin borcun deyildir.** (Sənin vəzifən ancaq onları haqq yola dəvət etməkdir)**. Allah kimi istərsə, onu doğru yola yönəldər. Malınızdan sərf etdiyiniz hər hansı bir şeyin** (mənfəəti) **ancaq özünüz üçündür. Siz onu yalnız Allahın razılığını qazanmaq üçün verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz!".** (Bəqərə, 2/272) buyurduğu üçün onlar yardımlarına davam etdilər.[606]

Bu cür davranışlar müşrik və kafirlərə aiddir. Müsəlmanlara qarşı tətbiq edilən boykot dediyimizə ən gözəl nümunədir.[607]

İslam təbliğ əhli iqtisadi embarqonu təbliğdə vasitə kimi istifadə edə bilməz. O, ticari münasibətlərdə doğru-dürüst olmalı, İslami əsaslardan əsla ayrılmamalı, söz və davranışları ilə nümunə olaraq insanların İslama yaxınlaşmasına səbəb olmalıdır.

604. Yaqubi, *Tarix*, II, 56.
605. Zəhəbi, *Müşkilət*, s, 21-22; Arnold, *İslam Tarixi*, s, 587-588.
606. Razi, *Təfsir*, VII, 82; Qurtubi, *Təfsir*, III, 337.
607. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, I-II, 350, 375; İbn Kəsir, *əl-Bidayə*, III, 84-86.

# *İkinci Bölüm*

# RƏSULULLAHIN TƏLİM-TƏRBİYƏ METODLARI

## I. TƏBLİĞDƏ METOD VƏ ÜSLUB

**"**(Ya Rəsulum!) **De: "Bu mənim** (təbliğ, dəvət) **yolumdur. Mən və mənə tabe olanlar açıq-aşkar bir dəlillə** (insanları) **Allaha çağırırıq"**. (Yusuf, 12/108)

Təbliğ və dəvət fəaliyyətində nəticə əldə etmək üçün müəyyən bir metod və proqramla hərəkət etmək lazımdır. Təbliğ əhli məqsədinə nail olmaq üçün sağlam və səhih metodlar seçmək məcburiyyətindədir. Bu baxımdan təbliğ metodu təbliğin ayrılmaz parçasıdır. Allah-Təala təbliğ fəaliyyətinin gözəl bir üsul ilə edilməsini əmr etdiyi bir ayədə belə buyurur:

**"**(Ya Rəsulum!) **İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə Rəbbinin yoluna dəvət et, onlarla ən gözəl surətdə mücadilə et. Həqiqətən, sənin Rəbbin yolundan azanları ən yaxşı bilən, doğru yolda olanları da ən yaxşı tanıyandır"**. (Nəhl, 16/125)

Bu ayədə keçən "hikmət" və "gözəl öyüd" təbliğ vəzifəsini yerinə yetirən insanlar üçün çox mühümdür. Hikmət, şəxsin təbliğ edərkən diqqətli və bəsirətli olması, təbliği kor-koranə etməməsi, doğrunu söyləyərək yanlışdan və başqalarını yanlışa sürükləməkdən çəkinməsi, doğru qərar verməsi və söylədiyi şeylərin asanlıqla qəbulunu təsdiq edən dəlillər gətirməsidir. Hikmət, xitab ediləcək şəxsin qavraya biləcəyi qabiliyyəti nəzərə alınaraq qoyulan məsələnin münasib bir şəkildə çatdırılmasını tələb edir.

Gözəl öyüdə gəlincə, insanın həmsöhbətini yalnız məntiqi dəlillərlə yox, hərtərəfli inandırmağa çalışmasıdır. Ayədə keçən "Onlarla ən gözəl şəkildə mücadilə et!" əmri isə təbliğ vəzifəsini ciddi bir şəkildə yerinə yetirməyi tələb edir. Buna görə də təbliğ əhli səmimi olmalı, qəlb qırmaqdan və sərt davranışlardan çəkinməlidir. Təbliğdə nümunəvi və vüqarlı davranışlar göstərməli, ağıl və məntiqə uyğun fikirlər irəli sürməli

və tərəf müqabilini ən gözəl şəkildə inandırmağa çalışmalıdır. Təbliğ əhlinin vəzifəsi başa salmaq və başa saldığı məsələlərin insanlara faydalı oduğunu təlqin etməkdən ibarətdir. Bundan sonrası Allaha aiddir.

Bu mövzu ilə bağlı Qurani-Kərimin bir ayəsində belə buyurulur:

**“Kitab əhlinin zülm edənləri istisna olmaqla, onlarla ən gözəl tərzdə mücadilə edin!” Və belə deyin: “Biz həm özümüzə nazil olana, həm də sizə nazil olana inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız ona təslim olanlarıq!”.** (Ənkəbut, 29/46)

**“**(Ya Rəsulum!) **De: “Bu mənim** (təbliğ, dəvət) **yolumdur. Mən və mənə tabe olanlar** (bəsirətlə) açıq-aşkar bir dəlillə (insanları) **Allaha çağırırıq. Allah pakdır, müqəddəsdir. Mən isə müşriklərdən deyiləm!”.** (Yusuf, 12/108)

Bəsirət haqq ilə batili bir-birindən ayıran bir xüsusiyyətdir. Bu ayədən aydın olur ki, Haqqa dəvət və irşad vəzifəsi olanlar həmişə açıq-aşkar dəlillərə dayanmalı, cəhalətdən və zor gücünə qəbul etdirməkdən qəti şəkildə çəkinməlidirlər. Açıq-aşkar bir dəlillə dəvət və irşad etmək Hz. Peyğəmbərə *(s.ə.s)* tabe olmağın xüsusi bir şüarıdır.

Əxlaqının kamilliyi, qəlbinin incəliyi, sözlərinin açıq-aydın başa düşülməsi, üslubunun şirinliyi, xəbərdarlığındakı nəzakəti, əsəbiləşdiyində belə səbirli və hikmətli davranışı, son dərəcə diqqətcil və gözüaçıq olması, zəkasının yüksəkliyi, insanlara qarşı münasibəti və məhəbbəti ilə Allah Rəsulu *(s.ə.s)* tayı-bərabəri olmayan müəllim və tərbiyəçidir.

Hz. Peyğəmbər *(s.ə.s)* imkan düşən hər yerdə bütün gücü ilə xeyri yaymağa, istəyənlərə elm öyrətməyə çalışırdı. Tələbələri sayılan səhabələrinin lazımi bilikləri öyrənməsini arzulayırdı. Onlara qarşı çox şəfqətli və mərhəmətli idi. Bu haqda Allah-Təala belə buyurur:

“(Ey ümmətim) **Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir, o sizdən** (sizin iman

gətirməyinizdən) **ötrü təşnədir, möminlərə şəfqətli, mərhəmətlidir!**". (Tövbə, 9/128)

Hz. Peyğəmbərin *(s.ə.s)* səhabələrini tərbiyə edərkən ən çox istifadə etdiyi metod söhbətdir. Hz. Peyğəmbərin *(s.ə.s)* söhbət məclisləri, ilahi rəhmət, bərəkət, feyz və sükunətin aramsız yağdığı cənnət bağçaları olmuş, səhabələr bu feyzli mühitdə ən gözəl şəkildə yetişmək imkanı əldə etmişdir. Müsəlman olmaq üçün məscidə gələn Kəb ibn Zübeyr Hz. Peyğəmbərin *(s.ə.s)* səhabələrini necə tərbiyə etdiyinin şahidi olmuşdur. Kəbin dediyinə görə Rəsulullah *(s.ə.s)* halqa-halqa oturan əshabının arasında oturur, gah o tərəfdəkilərlə, gah da bu tərəfdəkilərlə söhhət edirdi.[608] Bu Allah Rəsulunun *(s.ə.s)* həyatı boyunca tətbiq etdiyi ən mühüm tərbiyə metodudur.

Səhabələr, Hz. Peyğəmbərin *(s.ə.s)* söhbətlərinə o qədər əhəmiyyət verirdi ki, bir sıra işlərlə məşğul olduqlarına görə söhbətin feyz və bərəkətindən məhrum olmamaq üçün növbə ilə Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gedir və eşitdiklərini bir-birləri ilə paylaşırdılar. Hz. Ömər ilə Ənsardan olan qardaşı arasında cərəyan edən bu hadisə olduqca ibrətamizdir. Hz. Ömər belə rəvayət edir:

"Ənsardan bir qonşum ilə birlikdə Bəni Ümeyyə ibn Zeyd tərəfində yaşayırdım. Bura Mədinənin Avali səmtində idi. (Bir şey öyrənmək məqsədilə) Hz. Peyğəmbərin *(s.ə.s)* yanına növbə ilə gedirdik. Bir gün o gedir, bir gün də mən gedirdim. Mən getdiyim zaman həmin gün nə eşidərdimsə onu qonşuma xəbər verirdim. Qonşum da öyrəndiklərini mənə xəbər verirdi".[609]

Səhabələr Rəsulullahın *(s.ə.s)* söhbətindəki əhvalı:

"*Sanki başımızın üstünə bir quş qonmuş və onu uçuracağıq deyə gözümüzü belə qırpmırdıq*"[610] şəklində ifadə etmişlər.

Allah Rəsulu *(s.ə.s)* kişi səhabələrinə dəyər verdiyi qədər, qadınların da təlim və tərbiyələrinə əhəmiyyət verirdi. Xüsusilə xanımları vasitəsilə onların bütün məsələlərinə aydınlıq

608. Hakim, *Müstədrək*, III, 671.
609. Buxari, *Məzalim*, 25.
610. Əbu Davud, Sünnə, 23-24.

gətirərdi. Qadınlara məxsusi söhbətləri də olardı. Bir gün qadınlardan bir nəfər Rəsulullahın *(s.ə.s)* yanına gəldi və:

– Ey Allahın Rəsulu! Sənin söhbətlərindən həmişə kişilər faydalanır. Bizə də bir gün ayır, həmin gün bir yerə yığışıb Allahın sənə öyrətdiklərindən biz də öyrənək! – dedi.

Rəsulullah *(s.ə.s)*:

" – *Yaxşı, filan gün burada toplaşın*!" – buyurdu.

Qadınlar toplaşdılar. Hz. Peyğəmbər *(s.ə.s)* də gedib Allahın vəhy etdiklərindən onlara öyrətdi.[611]

"Rəsulullaha *(s.ə.s)* Quran nazil olduğunda onu öncə kişilərə, daha sonra da qadınlara oxuyurdu".[612]

Bu söhbətin bərəkəti ilə bütün ümmətə nümunə analar halına gələn səhabə xanımlar yetişdi. Onlar Hz. Peyğəmbəri *(s.ə.s)* gec-gec görən və uzun zaman onun söhbətində iştirak etməyən övladlarını danlayardılar.[613]

Səhabələrin əksəriyyəti, Hz. Peyğəmbərin *(s.ə.s)* söhbətinə çox böyük şövqlə gedər və bundan feyz alardılar. Onsuz da Hz. Peyğəmbər *(s.ə.s)*, hər vəsilə ilə əshabını buna təşviq edirdi. Əbu Vaqid əl-Leysi belə nəql edir:

Bir gün məsciddə Hz. Peyğəmbər *(s.ə.s)* hüzurunda idik. Həmin anda qapıda üç nəfər göründü. Biri içəri girmədən getdi, digər ikisi isə içəri girib Rəsulullahın *(s.ə.s)* yanına qədər gəldilər. Onların biri camaatın arasında boş yer tapıb oturdu, digəri isə, yer qalmadığı üçün və heç kimi narahat etməmək məqsədilə dairəvi oturanların arxasında əyləşdi. Hz. Peyğəmbər *(s.ə.s)* söhbətinin bir yerində belə buyurdu:

" – *Sizə bu üç nəfərdən danışım? Halqada oturan Allah-Təalaya sığındı, Allah da onu himayəsinə aldı. İkincisinə gəlincə o Allahdan həya etdi, ədəbli davrandı və Allah-Təala da o bəndəsindən həya etdi,*

611. Buxari, Elm, 36.
612. İbn İshaq, *Siyər*, 128.
613. Tirmizi, Mənəqib, 30; Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 391-392.

*onu əzabından uzaq tutdu. Digər içəri girməyən isə bu məclisdən üz çevirdi və Allah da ondan üz çevirdi".*[614]

Allah Rəsulunun *(s.ə.s)* həyata keçirdiyi təbliğ fəaliyyətinin üstündən əsrlər keçməsinin təbii nəticəsi olaraq, bu günün dəyişən şərtləri və müasir imkanlarına görə bir sıra müxtəlif metodlar tətbiq edilə bilər. Zaman və məkana uyğun bəzi metodların tətbiq edilməsi Hz. Peyğəmbərin *(s.ə.s)* Sünnəsinə qarşı olmadığı kimi, əksinə olaraq onun da təbliğində istifadə etdiyi üsullardan biridir. Rəsulullah *(s.ə.s)* sərt və bezdirici bir üsula əsaslanan təbliğ metodundan uzaq olmuşdur. Buna görə də bu gün təbliğ fəaliyyətində olarkən, Allah Rəsulunun *(s.ə.s)* tətbiq etdiyi bütün təbliğ metodlarının tam təfərrüatı ilə öyrənilməsi və tətbiq edilməsi zəruridir. İslam təbliğ əhlinə örnək olması baxımından Hz. Peyğəmbərin *(s.ə.s)* tətbiq etdiyi bu üslub və qaydalardan bir qismini ümumi şəkildə izah etmək faydalı olacaqdır.

### A. Həmsöhbətin vəziyyətini nəzərə almaq

Qüreyş müşriklərinin İslamın yayılmasının qarşısını ala bilmək üçün hər cür maneələrdən istifadə etməsinə baxmayaraq Hz. Peyğəmbər *(s.ə.s)* heç kimdən qorxmadan gecə-gündüz, gizli-aşkar xalqı Allahın dininə dəvət etməkdən çəkinməmişdir. Mümkün olan hər metodu tətbiq edərək, insanları səviyyəsinə görə İslama dəvət etmişdir. Onların əqli səviyyəsini, cəmiyyətdəki mövqelərini, yaşadıqları həyat tərzini və ümidlərini imkan daxilində nəzərə almışdır.

Təbliğdə əsas məqsədə çatmaq və insanlara faydalı ola bilmək üçün təbliğ ediləcək mövzular qədər xitab edilən şəxsi tanımaq da zəruridir. Həmsöhbətin tanınması, ən azı həkimin xəstəsinin xəstəliyini bilməsi qədər əhəmiyyətlidir. Əks təqdirdə xəstəliyi bilmədən və dəqiq diaqnoz qoymadan dərman verməyə bənzəyər. Buna görə də Allah-Təala xüsusilə təbliğin ilk illərində əksəriyyəti müşrik olan insanları nəzərə alaraq hərəkət etməyin əhəmiyyətinə işarə etmişdir.

614. Buxari, Elm, 8.

**"Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər"**. (Ənam, 6/108)

Bu ayədə təbliğ zamanı həmsöhbətin əvvəlki inanc və düşüncələrinə birbaşa etiraz etməkdən uzaq durmağa işarə edilir.

Bu baxımdan Hz. Peyğəmbər *(s.ə.s)* həmsöhbətlərini yaxşı tanımış və onun səviyyəsinə uyğun üslubdan istifadə etmişdir. İnsanların başa düşə biləcəyi tərzdə, onların ağıl səviyyəsinə uyğun danışmış və əshabına da eyni şəkildə davranmağı tövsiyə etmişdir. Necə ki, Sad ibn Bəkir heyətilə gələn Muhamməd bin Atiyyə (r.a):

"Rəsulullah *(s.ə.s)* mənə bizim ləhcəmizlə müraciət etdi"[615] - deyərək Hz. Peyğəmbərin *(s.ə.s)* tətbiq etdiyi bu üsluba diqqət çəkmişdir. Eyni şəkildə Hz. Əli də (r.a):

"İnsanlarla başa düşə biləcəkləri tərzdə danışın"[616] sözü ilə Hz. Peyğəmbərdən *(s.ə.s)* öyrəndiyi bu həqiqətə diqqət çəkmişdir.

Cəmiyyətin və insanların müştərək məsələlərindən xəbərsiz bir şəxsin edəcəyi təbliğ heç vaxt istənilən nəticəni verməyəcəkdir. Buna görə də Hz. Peyğəmbər *(s.ə.s)* gətirdiyi misalları xitab etdiyi şəxslərin sevdiyi və maraqlandığı mövzulardan seçmişdir. O, həmsöhbətlərinə anlaya biləcəkləri bir dillə xitab edərək, onları sadə və təsirli üsullarla inandırmağa çalışmışdır. Bunun gözəl bir nümünəsini İmranın atası Husaynın İslamı qəbul etməsində görürük:

Qüreyşlilər çox hörmət bəslədikləri Husaynın yanına gələrək:

– Bizim adımızdan bu adamla danış. O, tanrılarımızı təhqir edir – deyərək və birlikdə Allah Rəsulunun *(s.ə.s)* qapısına qədər gəldilər. Müşriklər qapıya yaxın bir yerdə oturdular. Husayn isə içəri girdi.

Rəsulullah *(s.ə.s)*:

615. Hakim, *Müstədrək*, IV, 363.
616. Buxari, Elm, 49.

*" – Ağsaqqala yer verin!"* – buyurdu. Husaynın müsəlman olan oğlu İmran və yoldaşları olduqca qələbəlik bir halda Allah Rəsulunun *(s.ə.s)* yanında idilər.

Husayn Hz. Peyğəmbərə *(s.ə.s)*:

– **"**Bu səndən eşitdiklərimiz nədir? Tanrılarımızı rədd edir, onlara dil uzadırmışsan. Halbuki sənin atan ağıllı, xeyirxah bir insan idi", – dedi.

Allahın Rəsulu *(s.ə.s)* belə cavab verdi:

*" – Ey Husayn, neçə tanrıya ibadət edirsən?"*

– Yeddisi yerdə biri göydə olmaqla səkkiz tanrıya.

*" – Sənə bir zərər gəldiyində hansına yalvarırsan?"*

**-** Göydəkinə

*" – Malın-mülkün əldən çıxdıqda kimə yalvarırsan?"*

– Göydəkinə

*" – Sənin istəklərini qəbul edən yalnız biri olduğu halda niyə başqalarını Ona şərik qoşursan? Şükür edərək onları razı etdiyini sanırsan, yoxsa səni həlak etmələrindən qorxursan?"*

– Heç biri.

Husayn deyir ki:

– Bu günə qədər onun kimi birisi ilə heç danışmadığımı anlamışdım.

Rəsulullah *(s.ə.s)*:

*" – Husayn! Müsəlman ol səlamətə çatarsan"* – buyurdu. O:

– Qövmüm və yaxınlarım da var, onlara nə deyim? deyə soruşduqda Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – İlahi, işimi kamala çatdırmağım üçün Səndən hidayət diləyirəm. Mənə fayda verəcək elmimi artır,* de!" – buyurdu.

Husayn bu duanı etdi və sonra da müsəlman oldu. Ayağa qalxınca oğlu İmran sevincindən atasının başını, əllərini və ayaqlarını öpdü.

Rəsulullah *(s.ə.s)* bunu görüncə təsirlənərək ağladı və:

*" – İmranın etdiyinə ağladım. Atası Husayn kafir olaraq içəri girəndə İmran ayağa qalxmadı, onun üzünə baxmadı. Amma İslamı qəbul etdikdən sonra haqqını ödədi. Məhz bu nəzakəti görəndə ağladım"* – buyurdu.

Husayn ayrılmaq istədiyində Allah Rəsulu *(s.ə.s)* əshabına:

*" – Qalxın, onu evinə qədər yola salın!"* – buyurdu.

Onun yanındakılarla qapıdan çıxdığını görən Qüreyş müşrikləri:

– Husayn da dinin tərk etdi! – deyərək onunla görüşmədən dağılıb getdilər.[617]

Həmsöhbətin səviyyəsinə görə davranmağa başqa bir nümunə də Məkkənin fəthində baş vermişdir. Hz. Abbas (r.a) müsəlman olmağı qəbul edən Əbu Süfyanı gətirdi və Allah Rəsuluna *(s.ə.s)*:

– Ey Allahın Rəsulu! Əbu Süfyan iltifat etməyi sevən adamdır. (Onun könlünü alacaq) bir şey etsəniz yaxşı olar, – dedi.

Bundan sonra Allahın Rəsulu *(s.ə.s)*:

*" – Doğru dedin! (Şəhərə girərkən elan edin) Kim Əbu Süfyanın evinə girərsə amandadır, kim qapısını örtüb (evindən bayıra çıxmazsa) amandadır"* – buyurdu.[618]

Beləliklə Hz. Peyğəmbər *(s.ə.s)* Məkkənin rəisinin könlünü almış və onun İslama rəğbətini artırmışdı.

Eyni şəkildə Yəmən krallarından Vail ibn Hucra göstərilən münasibət də bir əvvəlkinə bənzəyir. Vail Mədinəyə gəlmədən üç gün əvvəl Hz. Peyğəmbər *(s.ə.s)* onun gəldiyini əshabına xəbər verdi və:

" – Vail bin Hucr uzaq bir yerdən, Hadramevtdən Allaha və Rəsuluna itaət etmək üçün gəlir. O kral nəslindəndir" – buyurdu.

617. Tirmizi, Dəavat, 69; İbn Həcər, *əl-İsabə*, I, 337.
618. Əbu Davud, Xərac, 24-25.

Daha sonra Vail bin Hucr, Allah Rəsulunun *(s.ə.s)* yanına gəldi və onu salamladı. Hz. Peyğəmbər *(s.ə.s)* də onun salamını aldı.

Vail: Mən İslamın və hicrətin həsrəti ilə gəldim! – dedi.

Rəsulullah *(s.ə.s)*:

*" – Xoş gəlib səfa gətirdin!"* – buyurdu və dərhal çiynindəki əbanı onun üçün yerə sərdi və birlikdə üzərində oturdular. Hz. Peyğəmbər *(s.ə.s)* Vailin gəlişinə çox sevinmişdi. Müsəlmanların məscidə toplanmalarını istədi. Müsəlmanlar toplandıqdan sonra minbərə çıxdı və onu da yanına çağırdı. Uca Allaha həmd etdikdən və peyğəmbərlərə salət və salam gətirdikdən sonra bir xütbə oxudu. Xütbədə Vailə və atası Hucra dua etdi.[619]

Hz. Peğəmbərin *(s.ə.s)* Vailin (r.a) İslamı qəbul etməsinə çox sevinməsi və ona xüsusi münasibət göstərməsi, onun qövmü arasındakı tutduğu mövqeyinə görə bir çox insanın imanına vəsilə olacağına ümid etdiyinə görə olmuşdur.

Hz. Peyğəmbər *(s.ə.s)* insanlara yaşadığı mühitə uyğun davranmaq prinsipini İslamı qəbul edən şəxslərin mənəvi təkamülünü inkişaf etdirməkdə də tətbiq etmişdir. O, İslamı anlatdığı insanların və ya hər hansı bir sual soruşan şəxsin səviyyəsinə görə cavab vermiş, hər şəxsə özünə məxsus metodlardan istifadə etmişdir. Məsələn:

– Əməllərin ən fəzilətlisi hansıdır? sualına, xitab edilən şəxslərə və yerinə görə:

*" – Allaha iman, Allah yolunda cihad və məqbul olan həcc!".*[620]

*" – Zikrullah!".*[621]

*" – Allah rizası üçün sevmək!".*[622]

*" – Namaz!".*[623]

---

619. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 349.
620. Buxari, Həcc, 4.
621. İmam Malik, Muvatta, Quran, 24.
622. Əbu Davud, Sünnə, 2.
623. İbn Macə, Təharət, 4.

*" – Ata və anaya xidmət!".*[624]

*" – Hicrət!"*[625] şəklində müxtəlif cavablar verərək hər birinə onun üçün ən münasib olan əməli tövsiyə etmişdir. Çünki Hz. Peyğəmbər *(s.ə.s)* həmsöhbətin ehtiyacını və vəziyyətini çox yaxşı təhlil edirdi.

– Sədəqənin hansı daha fəzilətlidir? – deyə sual verən və çox kasıb bir insan olan Əbu Hüreyrəyə (r.a):

*" – Kasıb olanın gücü və qüvvəsi ilə insanlara yardım etməsidir"*[626] – buyurarkən, eyni sualı soruşan və qəbilə rəisi olan Səd ibn Übadəyə:

*" – Quyu qazdıraraq su çıxarmaqdır"* – cavabını vermişdir.[627]

İnsanların təbiət və xarakterləri fərqli olduğundan hər birinə deyiləcək sözün, göstəriləcək münasibətin ona uyğun olması təbii bir haldır. Buna görə də təbliğ əhli insanların xarakterini çox yaxşı təhlil edə bilməlidir.

### B. Hər fürsəti dəyərləndirmək

Hz. Peyğəmbər *(s.ə.s)* İslamın təbliğində uğur qazanmaq üçün ən gözəl metod və vasitələrdən istifadənin lazım gəldiyini və bütün vaxtını bu məsələyə həsr etməyin zəruri olduğunu bilirdi. Allahın dinini insanlara çatdıra bilmək üçün çarə və fürsət tapmaq lazım idi. Bu səbəbdən də ələ keçirdiyi hər fürsəti dəyərləndirir və insanlara ünsiyyət qurmaq üçün müxtəlif metodlar axtarırdı. Çünki əbədi qurtuluşun yeganə çarəsi olan İslamın vaxt itirilmədən insanlara çatdırılması zəruri idi.

Mədinəli Ənəs ibn Rafi, bir dəstə gənclə Məkkəyə gəlmişdi. Xəzrəc qəbiləsinə qarşı qüreyşlilərlə müqavilə bağlamaq istəyirdilər. Rəsulullah *(s.ə.s)* onların gəldikləri xəbərini alınca dərhal yanlarına getdi. Onlarla birlikdə oturdu və:

*" – Sizə gəlişinizə səbəb olan işdən daha xeyirli bir şey söyləyimmi?"* – buyurdu.

624. İbn Əsir, *Üsdul-Ğabə*, IV, 330.
625. Nəsai, Beyət, 14.
626. Əbu Davud, Zəkat, 40.
627. Əbu Davud, Zəkat, 41.

– Nədir o? – deyə soruşduqda:

*" – Mən Allahın Rəsuluyam. Allah məni bəndələrinə peyğəmbər olaraq göndərdi. Onları Allaha dəvət edirəm. Allaha ibadət etmələrini, Ona heç bir şeyi şərik qoşmamalarını söyləyirəm. Bununla bağlı Allah mənə kitab endirdi"* deyərək İslamdan bəhs etdi və Quran-i-Kərimdən bəzi ayələr oxudu.

Hz. Peğəmbər *(s.ə.s)* dünyəvi bir məqsədlə gələn bu gənclərə əbədi bir qurtuluş yolunu göstərmək istəyirdi. Məkkədə nə qədər insan varsa, onlara bir vasitə ilə İslamı çatdırmışdı. Lakin qəbul edənlər çox az idi. Məkkəyə yeni gələn bu insanlar arasında həqiqəti qəbul edən bir nəfər çıxar ümidi ilə onların yanına getmişdi. Bu elə də oldu. Aralarından İyas ibn Muaz adında bir gənc çıxdı:

– Yoldaşlar! Vallah bu, gəldiyiniz işdən daha xeyirlidir, dedi. Amma yoldaşları tərəfindən təhqir və əziyyətlərlə susduruldu. Mədinəyə qayıtdıqda isə Muaz savaşı başladı. Qısa bir müddət sonra İyas ibn Muaz vəfat etdi. Can verərkən başının üstündə duranlar onun durmadan zikr etdiyini eşitdilər. Müsəlman olaraq öldüyündən heç kəsin şübhəsi yox idi. Çünki İyas Hz. Peyğəmbəri *(s.ə.s)* dinlədikdə İslamın gözəlliklərini görmüş və qəbul etmişdi.[628]

Beləliklə, Hz. Peyğəmbərin *(s.ə.s)* ümidi boşa çıxmamış və bu vəsilə ilə bir nəfərin əbədi qurtuluşuna səbəb olmuşdu. Bir dəfə də Dimad ibn Saləbə ümrə ziyarəti üçün Məkkəyə gəlmişdi. Dimad həkim olmağa həvəslənir, ruhi xəstələri müalicə edir və elm əldə etməyə çalışırdı. Müşriklərin "Muhamməd (haşa) dəlidir" dediklərini eşitdikdə, öz-özünə:

– Mən gedib bu şəxsi görüm və müalicə edim. Bəlkə Allah ona mənim əllərimlə şəfa verər, deyərək müşriklərin məclisindən ayrıldı. Həmin gün Hz. Peyğəmbəri *(s.ə.s)* axtardı və tapa bilmədi. Ertəsi gün təkrar axtarmağa başladı və bu dəfə onu tapdı:

628. Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 427; Hakim, *Müstədrək*, III, 199.

– Ey Muhamməd! Mən ruhi xəstəliyi müalicə edirəm, istəyirsənsə səni də müalicə edim. Bəlkə Allah sənə şəfa verər! - dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* ona belə cavab verdi:

*“ – Həmd Allaha məxsusdur. Biz Ona həmd edir, yardımı və bağışlanmağı Ondan diləyirik. Nəfslərimizin şərindən Allaha sığınırıq. Allahın doğru yola çatdırdığını heç kim azdıra bilməz. Azdırdığını da heç kim doğru yola qaytara bilməz. Mən şəhadət edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur. O təkdir, Onun tayı və bənzəri yoxdur. Yenə şəhadət edirəm ki, Muhamməd onun qulu və rəsuludur”.*

Hz. Peyğəmbərin *(s.ə.s)* dedikləri Dimadın xoşuna gəldi:

– Mən heç vaxt bundan daha gözəl bir kəlam eşitmədim! Sən bu sözlərini təkrar edə bilərsən? dedi.

Allahın Rəsulu *(s.ə.s)* sözlərini təkrarladı. Dimad bu inci kimi gözəl sözləri iki dəfə də təkrar etdirdikdən sonra:

– Allaha and olsun ki mən kahinlərin də, sehrbazların da, şairlərin də sözlərini dinləmişəm. Amma sənin bu söylədiklərin kimi heç bir söz eşitmədim. Əlini ver sənə beyət edim, dedi. Rəsulullah *(s.ə.s)* əlini uzadınca Dimad beyət edib müsəlman oldu.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*“ – Bu beyət qövmünün də adınadır?”* – deyə soruşdu.

Dimad:

– Qövmümün də adınadır – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*“ – Həm özün, həm də qövmün adından?”* – dedi.

Dimad təkrar:

– Həm özüm, həm də qövmüm adından, dedi.[629]

Hz. Peyğəmbər *(s.ə.s)* Dimad əl-Əzdini müsəlman olmağa razı saldıqdan sonra, dərhal qövmü adından da ondan beyət

629. Müslim, Cümə, 46; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 302.

almışdı. Bundan sonra onu qövmü üçün elçi və müəllim kimi vəzifələndirdi.

Allah Rəsulu *(s.ə.s)* yeni imkan və fürsətlər tapmaq üçün getdiyi Taifdə ələ salınaraq daş-qalaq edilmişdi. Qayıdıb gələrkən özünə gəlmək üçün bir ağacın altında oturdu. Yaralı halda və iztirablar içində idi. Həmin anda Addas adında bir kölə yanına gəlincə çəkdiyi ağrıları unutdu və köləyə İslamı anlatmağa başladı.

Addas:

– Ya Rəsulallah! Yunus bin Məttadan mənə xəbər ver, dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* ona Hz. Yunus (ə.s) haqqında Uca Allah tərəfindən ona vəhy olunanları xəbər verincə Addas:

– Mən şəhadət edirəm ki, sən Allahın qulu və rəsulusan, deyib müsəlman oldu. Hz. Peyğəmbərə *(s.ə.s)* sarılıb başını, əllərini və ayaqlarını öpdü!.[630]

Hz. Peyğəmbərin *(s.ə.s)* Taifə etdiyi məşəqqətli səfərindəki yeganə qazancı Addas idi. Hz. Peyğəmbər *(s.ə.s)* onun müsəlman olmasına çox sevinmişdi. Bəlkə də: "Bu qədər yol və bütün bu çəkdiklərim, yalnız bir kölənin müsəlman olmasına dəyər" deyə düşünürdü.

Hz. Peyğəmbər *(s.ə.s)* bir müddət sonra Mədinəyə hicrət etməyi və İslamı orada yaymağı düşündü. Buna görə də məşəqqətli və təhlükəli bir səfərə çıxdı. Müşriklərin onu öldürmək üçün hər kəsi səfərbər etmələrinə və bir çox təhlükələrə baxmayaraq o yenə vəzifəsini yerinə yetirməyə davam edir, yolda qarşılaşdığı insanlara İslamı təbliğ edirdi. Səhabədən Sad əd-Dəlilin[631] oğlu atasından belə nəql edir:

Hicrət edərkən Allahın Rəsulu *(s.ə.s)* Əbu Bəkir (r.a) ilə bizə gəldi. Həmin vaxt Əbu Bəkrin (r.a) bir qızı yanımızda süd anasında idi. Hz. Peyğəmbər *(s.ə.s)* qısa yolla Mədinəyə getmək istəyirdi.

---

630. Yaqubi, *Tarix*, II, 36.

631. Bu səhabə Mədinəyə gedən yolu Hz. Peyğəmbərə *(s.ə.s)* göstərib Rəqubə yolunda rəhbər olduğu üçün "Dəlil" adı ilə məhşur olmuşdur.

– Bura Rəqubə keçidinin Qair yoludur. Burada Əsləm qəbiləsindən Mühənən deyilən iki oğru var. İstəyirsənsə onların yanına gedək, dedik.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Sən bizi onların yanına apar"* - buyurdu. Bundan sonra yola düşdük. Rəqubəni çıxıb yoxuşun başına çatdığımızda həmin iki oğrudan biri digərinə:

– Bu şəxs yəmənlidir, – deyirdi.[632] Hz. Peyğəmbər *(s.ə.s)* onları yanına çağırıb İslamı anlatdı və müsəlman olmalarını istədi. Onlar da müsəlman oldular. Adlarını soruşdu:

– Biz iki dəyərsiz insanıq – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)*:

" – Əksinə siz iki şərəfli insansınız" – buyurdu və müjdəçi olaraq qabaqcadan Mədinəyə getmələrini əmr etdi.[633]

Bütün düşmənləri onun həyatına qəsd etdiyi anda belə o, İslamı bir insana da olsa çatdırmağın dərdində idi. Hz. Peyğəmbər *(s.ə.s)* çəkdiyi bütün əziyyət və məşəqqətləri unudaraq bu iki yolun kəsişməsində İslamı anlatmışdır.

Hz. Peyğəmbər *(s.ə.s)* müharibələrini də sırf bu məqsəd üçün, yəni İslamı təbliğ etmək üçün etmişdir. Hətta müharibə zamanında da fürsət düşən kimi İslamı anlatmaq və öyrətmək Allah Rəsulunun *(s.ə.s)* şüarı olmuşdur. Xeybərin mühasirəsində bir yəhudi aman istəyərək müsəlmanlara pənah gətirmişdi. Düşmən qoşunları haqqında çox faydalı məlumatlar verdikdən sonra:

– Ey Əbül-Qasım! Mənə aman verəcək, qanımı tökməyəcəksən elə deyilmi? – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Sən amanda və salamatdasan"* – buyurdu.

632. Bu ifadə ilə Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkəli olduğu qəsd edilmişdir. Çünki Məkkə Tihamə bölgəsində idi, Tihamə isə Yəmənin ərazisi sayılmışdır. Buna görə də Kəbəyə «əl-Kəbətul-Yəməniyə» deyilmişdir. İbn Əsir, *ən-Nihayə*, V, 300.
633. Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 74.

Yəhudi:

– Nizar qalasında olan xanımımı da mənə bağışla! – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Onu da sənə bağışladım!"* – buyurdu və onu İslama dəvət etdi. Bir neçə gün möhlət istəyən yəhudi axırda müsəlman oldu.[634]

Savaşın məqsədi təbliğ olduğu üçün Allah Rəsulu *(s.ə.s)* hətta döyüş vaxtında da bir nəfərin qurtuluşuna vəsilə olmaq ümidi ilə hərəkət etmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* əshabına mühüm məsələləri yaxşıca öyrədə bilmək üçün hər imkanı dəyərləndirmiş, onların zehnlərinə İslamın gözəlliklərini tam şəkildə yerləşdirmişdir. Hz. Ömər (r.a) belə nəql edir:

Bir dəfə Allah Rəsulunun *(s.ə.s)* yanına bir dəstə əsir gətirdilər. Aralarında övladından ayrı düşən və övlad həsrətilə qabağına çıxan hər uşağı qucaqlayan, bağrına basıb əmizdirən bir qadın da var idi. Hz. Peyğəmbər *(s.ə.s)* ətrafındakılara (o qadını göstərərək):

*" – Bu qadının uşağını oda atacağına inanarsınız?"* – deyə soruşdu.

– Əsla atmaz, dedik.

Bundan sonra Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Bax Allah-Təala bəndələrinə bu qadının körpəsinə olan şəfqətindən daha mərhəmətlidir"* – buyurdu.[635]

İnsanları kövrəldən bu mənzərə, baxışı ibrət olan Hz. Peyğəmbərə *(s.ə.s)* Allahın bəndələrinə olan şəfqət və mərhəmətini xatırlatmışdı. Bunu yerinə düşən bir məqam bilərək Allahın mərhəməti kimi mücərrəd bir mövzunu əshabına canlı bir şəkildə öyrətmişdi.

Yenə bir gün Allahın Rəsulu *(s.ə.s)* Əbu Hüreyrəni ağac əkərkən gördü və:

634. Vaqidi, *Məğazi*, II, 647-648.
635. Buxari, Ədəb, 18; Müslim, Tövbə, 22.

" – Əbu Hüreyrə, nə əkirsən?" – deyə soruşdu.

O da:

– Özüm üçün bir ağac əkirəm, – dedi.

Allahın Rəsulu *(s.ə.s)*:

*" – Sənə bundan daha xeyirli bir ağacı xəbər verimmi?"* – deyə soruşdu.

Əbu Hüreyrə:

– Bəli ya Rəsulallah, – deyərək nə buyuracağını maraqla gözləməyə başladı.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Subhanallahi vəl-həmdu lilləhi vələ iləhə illəllahu vallahu əkbər,* – de! Bu sözlərin hər birinə qarşılıq olaraq cənnətdə sənə bir ağac əkilər" – buyurdu.[636]

Əshabını həmişə ağac əkməyə təşviq edən Allahın Rəsulu *(s.ə.s)* bu vərdişi qazanan Əbu Hüreyrəyə (r.a) əlavə bir əməl də bildirərək onun mənəvi cəhətdən tərəqqi etmiş daha fəzilətli bir şəxs olmasını istəmişdir. Bunu edərkən də məşğul olduğu işə bənzətmə edərək mücərrəd məfhumların başa düşülməsini asanlaşdırmışdır.

Hz. Peyğəmbər *(s.ə.s)* eyni zamanda burada bir insanın qiyamətdə ən çox möhtac olacağı savabı, zikr sayəsində əldə edə biləcəyini xatırlatmış və zikrin ən fəzilətlilərindən birini öyrətmişdir.

### C. Tədriciliyə riayət etmək

Dini ehkamların təbliği zamanı tədriciliyə riayət etmək Uca Allahın insanlara göstərdiyi asan yollardan biridir. Allah-Təala belə buyurur:

**"İnsanlara aramla** (yavaş-yavaş) **oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb** (ayə-ayə, surə-surə) **göndərdik".** (İsra, 17/106)

---

636. İbn Macə, Ədəb, 56.

Hz. Aişə (r.anhə) Qurani-Kərimin nüzulundakı tədricilikdən bəhs edərək belə deyir:

İlk nazil olan surə müfəssəl surələrdən[637] biri idi. Bu surədə cənnət və cəhənnəmdən bəhs edilirdi. Halal və haramlara dair hökmlər isə yalnız insanlar İslama tam olaraq bağlandıqdan sonra nazil olmağa başladı. Əgər ilk dəfə:

– İçki içməyin! ayəsi nazil olsaydı, insanlar:

– Biz içkini qətiyyən tərgidə bilmərik! – deyərdilər. Yenə ilk olaraq:

– Zina etməyin! əmri gəlsəydi insanlar eyni şəkildə:

– Zinanı əsla tərk edə bilmərik! – deyərdilər. Mən Məkkədə oyun oynayan bir uşaq idim. Həmin vaxtlar Hz. Peyğəmbərə *(s.ə.s)*:

**"Xeyr, onların əsl əzab vaxtı qiyamət günüdür. Qiyamət gününün əzabı daha şiddətlidir"** (Qəmər, 54/56) (kimi iman və qiyamətlə əlaqəli) ayələr nazil olmuşdu. (Müamələtlə bağlı hökmlər ehtiva edən) Bəqərə və Nisa surələri isə mən onun yanındaykən (Mədinədə) nazil olmuşdur".[638]

Məlum olduğu kimi ilk nazil olan ayələr tövhidə dəvət, möminləri cənnətlə müjdələmək, kafirlərə və asilərə cəhənnəmi xəbər vermək kimi əqidəyə aid hökmlər idi. İnsanlar imanlarını qüvvətləndirdikdən sonra, müamələtlə bağlı hökmlər enməyə başladı. Çünki insanın vərdiş halına gətirdiyi bəzi əməllərdən əl çəkməyi o qədər də asan deyil. Təbliğdə tədricilik prinsipinə riayət etmədən birbaşa pis vərdişlərdən çəkindirməyə çalışmaq kin və nifrətə gətirib çıxarar.

İlk dövrlərdə nazil olan ayələrdə başlıca olaraq İslam etiqadı üzərində durulmuş, müşriklərin inancının tənqidi isə daha sonrakı mərhələdə olmuşdur.

---

637. Müfəssəl surələr, Qurani-Kərimin son hissəsidir və qəbul olunan görüşə görə 50-ci surə olan "Qaf"-dan etibarən "Nas" surəsinə qədər olan qismdir. Surələrin qısalığı səbəbi ilə tez-tez bəsmələ ilə ayrıldığı üçün bu ad verilmişdir.
638. Buxari, *Fədailul-Quran*, 6.

Mədinədə müsəlmanlara enən hökmlərdə də tədriciliyə riayət edilmiş, xüsusilə cahiliyyə davranışlarının düzəldilməsi və yeni hökmlərin tətbiqinə dair hər sahədə bu metod tətbiq edilmişdir. Namaz, oruc və zəkatın fərz buyurulmasında, içki, zina və faizin qadağan olunmasında hər zaman bu üsula müraciət olunmuşdur. Bunların bir neçəsinə aid aşağıdakı misalları vermək olar:

Namaz bisətin[639] ilk illərində, Muddəssir surəsinin nüzulu ilə səhər və axşam vaxtlarında iki rükət olmaqla fərz buyurulmuşdu. Daha sonra Muzzəmmil surəsinin ilk ayələri ilə gecə namazı əmr edilmiş və müsəlmanlar bir il gecə namazını fərz olaraq qılmışlar. Muzzəmmil surəsinin son ayəsi ilə bu hökm qaldırılmış və gecə namazı nafilə ibadət halına gəlmişdir. Beş vaxt namaz isə bisətin on birinci ilində Meracda fərz buyurulmuşdur. Hicrətə qədər yaşadığı yerdə və səfərdə iki rükət qılınan bu namazlar, hicrətdən sonra Mədinədə yaşayanlar üçün dörd rükət olmuş, səfərdə isə iki rükət olaraq davam etmişdir. Hicrət zamanı Mədinəyə girərkən Cümə namazı fərz buyurulmuş, daha sonra da bayram namazları əmr edilmişdir.

Orucla bağlı nəql olunan hədislərə nəzər saldıqda insanın tərbiyəsində çox mühüm yeri olan bu ibadətin üç mərhələdə fərz buyurulduğu görərik. Əvvəlcə, **"Oruc tutmaq sizə fərz buyuruldu"** (Bəqərə, 2/183) ayəsilə hər ayda üç gün oruc tutmaq fərz buyurulmuşdur. Bəqərə surəsinin 184-cü ayəsi ilə istəyənin oruc yerinə fidyə verib bir kasıbı doyuzdura biləcəyi hökmü nazil olmuş, ən sonda da Bəqərə surəsinin 185-ci ayəsi ilə Ramazan ayında oruc tutmaq hər kəsə fərz buyurulmuşdur.

İçkinin haram buyurulması isə bu mərhələlərlə baş vermişdir:

Məkkədə; **"Xurma və üzümdən, həm sərxoşluq verən içki, həm də gözəl qidalar əldə edirsiniz. Şübhəsiz bunda ağlını işlədən kimsələr üçün alınacaq bir ibrət vardır".** (Nəhl, 16/67) ayəsi nazil olmuşdu. Beləliklə, sərxoşluq verən şeylərin xoş qarşılanmadığı bildirilərək gələcəkdə qadağan ediləcəyinə

639. Bisət, Hz. Peyğəmbərin *(s.ə.s)* peyğəmbər olaraq göndərilməsini ifadə edir.

işarə olunmuşdur. Məkkə dövründə içki haqqında başqa ayə nazil olmamışdır.

Hz. Peyğəmbər *(s.ə.s)* Mədinəyə hicrət etdikdən sonra insanların suallarına qarşı Allah-Təala belə buyurdu:

"(Ya Rəsulum!) **Səndən içki və qumar** (meysir) **haqqında sual edənlərə söylə: Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət** (dünya mənfəəti) **vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür!".** (Bəqərə, 2/219)

Bu ayənin nüzulundan sonra müsəlmanların çoxu içkini tərk etdi, bir qismi isə içməyə davam etdi.

Səhabələrdəm biri axşam namazını qıldırarkən, bir ayəni mənası pozulacaq şəkildə səhv oxudu. Bundan sonra:

**"Ey iman gətirənlər!" Sərxoş ikən nə dediyinizi anlamayana qədər və cunub** (murdar) **olduğunuz zaman – yol ötən müsafirlər müstəsnadır – qüsl edənədək namaza** (namaz qılınan yerə) **yaxınlaşmayın!"** (Nisa, 4/43) ayəsi nazil oldu.

Bundan sonra müsəlmanlardan içki içənlərin sayı xeyli azaldı. Namaz qılınacağı zaman Allah Rəsulunun carçısı*: "Sərxoş olanlar qətiyyən namaza yaxınlaşmasın!"* – deyərək səslənirdi. Müsəlmanlar artıq içkinin qəti olaraq qadağan ediləcəyini başa düşmüşdülər və buna hazır idilər.

Nəhayət müsəlmanların böyük əksəriyyəti içkini tərk etmişdi. Bəziləri də içki üzündən qarşılaşdıqları xoşagəlməz hadisələrdən əziyyət çəkirdilər. Hz. Ömər (r.a) "Allahım, içki haqqında bizə açıq və qəti bir dəlil göndər" deyə dua edirdi. Allah-Təala: **"Ey iman gətirənlər! Şərab da** (içki də)**, qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət, kin salmaq və sizi Allahı zikr etməkdən, namaz qılmaqdan ayırmaq** (yayındırmaq) **istər. Artıq bu işə son qoyacaqsınızmı?"** (Maidə, 5/90-91) ayələrini nazil etdi.

Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Öməri (r.a) çağırıb ona bu ayələri oxudu. **"Artıq bu işə son qoyacaqsınızmı?"** hissəsinə gəlincə o:

– Əl çəkdik! Əl çəkdik ya Rəbb! deyirdi. Yalnız Hz. Ömər deyil, bütün müsəlmanlar da:

– Artıq içkidən imtina etdik, ya Rəbb! – dedilər.

Bu ayələr nazil olduqdan sonra Hz. Peyğəmbərin *(s.ə.s)* əmri ilə bir nəfər Mədinənin küçələrində: Xəbəriniz olsun ki, içki haram buyurulmuşdur! – deyə səsləndi. Bundan sonra çəlləkləri deşilib boşaldılan və küpləri sındırılıb yerə tökülən içkilər Mədinənin küçələrində su kimi axmağa başladı.

Daha sonra Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Şübhə yoxdur ki, Allah içkiyə, onu süzdürənə, süzüldüyü yerə, içənə, içirdənə, daşıyana, satana, satın alana, əvəzini və qazancını yeyənə lənət etmişdir"* – buyurdu.[640]

Quran kök salmış ictimai bir xəstəliyi müalicə edərkən bu məsələni bir dəfəyə və məcburiyyətlə yox, mülayimliklə bir-birinə zəncirvari şəkildə bağlanmış sağlam addım atmaqla hədəfə tədriciliklə çatmışdır.

İçki məsələsində olduğu kimi, faiz haqqında da eyni metod tətbiq edilmiş və faiz də dörd mərhələdə qadağan olunmuşdur. Faizdə də içkidə olduğu kimi dörd mərhələnin tətbiqi içki ilə faizin ortaq cəhətlərinin olduğuna ilahi bir işarə sayıla bilər. Belə ki, hər ikisinin zərərləri ilə yanaşı onlarda aldadıcı ləzzət və faydasız qazanc var ki, zəif təbiətli insanlar asanlıqla onların təsiri altına düşür. Həmçinin, bunlar arasında bu xəstəliyə mübtəla olmaq baxımından da bir bənzərlik vardır. Buna görə də iki pis əməli qadağan etmək üsulundakı bənzərliklə yanaşı ayələrin endirildiyi yerlərdə və hər bir mərhələnin daşıdığı xüsusiyyətlərdə də oxşarlıq mövcuddur.

Faiz haqqında nazil olan ilk ayə Məkkə dövrünə aid olub və həmin dövrdə bu haqda başqa ayə nazil olmamışdır:

---

640. Nəsai, Əşribə, 1-2; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 53, II, 351; Hakim, *Müstədrək*, II, 305.

**"**(Sərvətinizin) **xalqın mal-dövləti hesabına artması üçün sələmələ** (faizlə) **verdiyiniz malın Allah yanında heç bir bərəkəti olmaz. Allah rizasını diləyərək verdiyiniz sədəqə** (zəkat) **isə belə deyildir. Bunu edənlər** (dünyada mallarının bərəkətini, axirətdə isə öz mükafatlarını) **qat-qat artıranlardır".** (Rum, 30/39)

Burada faizin Allah qatında bir dəyərinin olmadığı və heç bir mükafatının da olmayacağı bildirilmiş, haramlığına təmas edilməmişdir.

İkinci mərhələ Mədinədə nazil olan bu ayə ilə başlamışdır:

**"Və qadağan olunmasına baxmayaraq, sələm** (faiz) **aldıqlarından, haqsız yerə xalqın malını yediklərindən dolayı** (halal olanı onlara haram buyurduq) **Biz onlardan olan kafirlər üçün şiddətli bir əzab hazırlamışıq!".** (Nisa, 4/161)

Burada yəhudilərə faizin haram buyurulmasına baxmayaraq, onların faiz yeməyə davam etmiş, buna görə Allahın onları cəzalandırdığı göstərilir. Diqqət və anlayış səviyyəsi yüksək olanlar bu ayədən sonra faizi haram buyuracaq hökmün gələcəyinin yaxın olduğunu bilirdilər.

Üçüncü mərhələdə faiz qəti olaraq haram buyurulmaqla yanaşı məhdud bir qadağadan bəhs edilir. Faizin fühuş olan bir növü - getdikcə böyüyən növü- haram buyurulmuşdur:

**"Ey iman gətirənlər! Sələmi** (borc üzərinə qoyduğunuz faizi) **qat-qat artırıb yeməyin.Allahdan qorxun ki, bəlkə nicat tapasınız!".** (Ali-İmran, 3/130)

Nəhayət, faiz haqqında son və ümumi qadağa gəlmişdir:

**"Sələm** (müamilə, faiz) **yeyənlər** (qiyamət günü) **qəbirlərindən ancaq Şeytan toxunmuş** (cin vurmuş dəli) **kimi qalxarlar. Bunların belə olmaları: "Alış-veriş də sələm kimi bir şeydir!"- dedikləri üzündəndir.Halbuki, Allah alış-verişi halal, sələm almağı isə haram** (qadağan) **etmişdir.İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə** (bu işə) **son qoyarsa, keçmişdə aldığı** (sələmlər) **onundur** (ona bağışlanar) **Onun işi Allaha aiddir. Amma** (yenidən sələmçiliyə)

**qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar! Allah sələmi** (sələmlə qazanılan malın bərəkətini) **məhv edər,sədəqələri** (sədəqəsi veilmiş malın bərəkətini) **artırar. Allah kafiri, günahkarı sevməz! İman gətirən, xeyirli işlər görən, namaz qılan, zəkat verən şəxslərin Rəbbi yanında mükafatları vardır. Onların** (axirətdə) **heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər! Ey möminlər! Əgər, doğurdan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən** (faizdən) **vaz keçin!** (Onu borclulardan almayın!) **Əgər belə etsəniz, o zaman Allaha və Onun Peyğəmbərinə qarşı müharibəyə girişdiyinizi bilin! Yox, əgər tövbə etsəniz, sərmayəniz** (malınız) **sizindir. Beləliklə, nə siz zülm eərsiniz, nə də sizə zülm olunar!".** (Bəqərə, 2/275-279)

Hətta bu ayədə yalnız faizin hökmü yox, Qurani-Kərimin də hökmü tamamlandı. Hz. Ömər (r.a) bu haqda belə demişdir:

Qurandan ən son nazil olan ayə faiz haqqındadır. Hz. Peyğəmbər *(s.ə.s)* bu ayəni təfsir etmədən Uca Allahın rəhmətinə qovuşdu. Bundan başqa siz faizi də, faiz qarışma ehtimalı olan şeyləri də tərk edin".[641]

Ümumiyyətlə bu kimi ibadət və müamələtlə bağlı digər əmrlər də Mədinədə nazil olmuşdur. Bunların əmr edilməsi və tətbiqində müəyyən tədricilik mövcuddur. Hz. Peyğəmbər *(s.ə.s)* iman, ibadət, əxlaq cəhətdən mükəmməl hala gətirdiyi əshabını yavaş-yavaş və tədricən o səviyyəyə çatdırmışdır. Muaz bin Cəbəli (r.a) Yəmənə göndərərkən etdiyi tövsiyələr bunun bariz nümunəsidir:

"Şübhə yoxdur ki, sən kitab əhli olan insanların yanına gedirsən. Onları Allahdan başqa ilah olmadığına və mənim Allahın rəsulu olduğuma şəhadət etməyə dəvət et. Əgər buna itaət edərlərsə, Allahın onlara gün ərzində beş vaxt namazı fərz buyurduğunu bildir. Bunu qəbul edib itaət edərlərsə, zənginlərindən alınıb kasıblarına verilmək üçün onlara zəkatın fərz buyurulduğunu xəbər ver. Buna da itaət etdikləri təqdirdə, mal-dövlətlərinin ən qiymətlilərini almaqdan çəkin! Məzlu-

641. İbn Macə, Ticarət, 58.

mun bədduasından uzaq dur, çünki onun bədduası ilə Allah arasında pərdə yoxdur".[642]

Bir insana nəyisə təbliğ edərkən əvvəlcə sağlam İslami inancı aşılamalıyıq. Bundan sonra tədricən inandığı ilə əməl etməyə təşviq edilə bilər. Təşviq zamanı asanlaşdırmaq və müjdələmək üslubundan istifadə olunmalıdır.

Unutmamaq lazımdır ki, təbliğin əsası tədricilikdir. Bu xüsus əsla qulaqardı edilməməlidir.

### Ç. Asanlaşdırıb çətinləşdirməmək

Qiyamətə qədər yeganə haqq din olaraq davam edəcək İslamı, bütün zaman və məkanlarda insanlara çatdıra biləcək və əmrlərini onlara anlada biləcək təbliğ əhlinin bilməsi və tabe olması gərəkli olan əsaslardan biri də asanlaşdırmaqdır. Qurani-Kərimdə və Hz. Peyğəmbərin *(s.ə.s)* hədislərində İslam dininin asanlıq dini olduğu dəfələrlə xatırladılır. Bunun bir çox hikmətləri vardır. Çünki dinin təbliğində və insanların İslamı qəbul etməsində asanlıq prinsipi əsasdır. Bu, eyni zamanda həyatın bütün sahələrində qəbul edilən bir düsturdur.

İnsan psixologiyası asana meyil edir və bir şeyə yavaş-yavaş alışdıqdan sonra onu qəbul edir. Qarşılaşılan ağır bir təklif məsələni tamamilə inkar edilməsinə səbəb ola bilər. Bu səbəbdən şəriətə uyğun prinsiplər əsasında insanlar üçün ən asan olanını seçmək, asandan çətinə, əsasdan təfərrüata, bilinəndən bilinməyənə doğru tədricən nail olmaq lazımdır. Çünki insanlar çox fərqli xarakter və xüsusiyyətə malikdirlər. Onların ən zəifini nəzərə almaq və hər kəsin edə biləcəyi bir şəkildə hərəkət etmək lazımdır. Allah-Təala belə buyurur:

**"Allah sizin üçün asanlıq istər, çətinlik istəməz".** (Bəqərə, 2/185)

**"O sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı".** (Həcc, 22/78)

642. Buxari, Zəkat, 41, 63; Müslim, İman, 29-31.

İnşirah surəsi nazil olduğunda Allah Rəsulu *(s.ə.s)* Allah-Təalanın bir çətinliyə qarşılıq olaraq iki asanlıq təqdir buyurmasına çox sevinmiş, son dərəcə şad olmuş və təbəssüm edərək:

**" – Bir çətinlik iki asanlığa əsla qalib gələ bilməz. Çünki "Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr!"** (İnşirah, 5-6) – buyuraraq səhabələrinin yanına gəlmişdir". [643]

Hz. Peyğəmbər *(s.ə.s)* həyatı boyunca Allah-Təalanın bəndələrinə olan bu mərhəmətini ən gözəl şəkildə təbliğ etmişdir. Belə ki, bir hədisində:

*"Asanlaşdırın, çətinləşdirməyin. Müjdələyin, nifrət etdirməyin"* buyurmuşdur.[644]

Hz. Peyğəmbər *(s.ə.s)* insanlarla asan münasibət qurmaq haqqında:

*"Biz insanlara ağılları nisbətində danışmaqla əmr olunduq"*[645] – buyuraraq onlara başa düşməkdə çətinlik çəkdikləri şəkildə danışmağı və davranmağı uyğun görməmişdir.

Əbu Hüreyrə (r.a) belə bir hadisə nəql edir:

Bir bədəvi Məscidi-Nəbəvidə tualet ehtiyacını görmüşdü. Səhabələr onu danlamaq istədi.

Rəsulullah *(s.ə.s)* onlara :

*" – O adama toxunmayın. Kirlətdiyi yerə bir qab su tökün. Siz asanlıq yaratmaq üçün göndərildiniz, çətinlik çıxarmaq üçün deyil"* – buyurdu.[646]

---

643. Hakim, II, 575. Usr (çətinlik) və yusr (asanlıq) kəlmələri bu ayələrdə təkrar edilmişdir. Lakin usr əlif-lam artiklı ilə müəyyənlikdə, yusr isə qeyri-müəyyənlikdə işlənmişdir. Ərəb dilinin qrammatikasına görə müəyyənlikdə olan sözün təkrar edilməsi eyni şeyi (mənanı) ifadə etdiyi halda, qeyri-müəyyənlikdə olan kəlmənin təkrarlanması fərqli bir mənanı ifadə edir. Buna görə də usr iki dəfə təkrar edilməsinə baxmayaraq bir çətinlik kimi qalmış, yusr isə iki ayrı asanlıq olmuşdur. (Bax. Buxari, Təfsir,94)
644. Buxari, Elm, 11.
645. Əli əl-Müttəqi, *Kənzul-Ummal*, X, 242.
646. Buxari, Vudu, 58.

Hər kəsin asanlıqla qəzəblənə biləcəyi bir məqamda Allahın Rəsulu *(s.ə.s)*, bədəvinin əvvəlki vərdişlərinə anlayışlı və səmimi (asanlaşdırıcı) münasibət göstərmiş, bütün ümmətinin də bu şəkildə davranmasının uyğun olduğunu vurğulamışdır.

Allah-Təala bəndələrinin onun dərgahında təqva ilə şərəf qazanacağını, bir-birlərinə olan üstünlüklərinin yalnız bu vasitə ilə mümkün ola biləcəyini bildirmişdir. Buna baxmayaraq təqvada da bəndələrin taqətləri nisbətində hərəkət etmələrini tövsiyə edərək onlara olan sonsuz mərhəmətini göstərmişdir. Qurani- Kərimdə belə buyurulur:

**" – Allah-T**əalaya qarşı gücünüz yetdiyi qədər təqva sahibi olun". (Təğabun, 64/16)

Burada: **"Ey iman gətirənlər! Allaha qarşı necə təqvalı olmaq lazımdırsa, o şəkildə təqva sahibi olun"** (Ali-İmran, 3/102) ayəsi böyük bur asanlıq gətirmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* də beyət alarkən əshabına güclərinin çatdığı qədərini söyləyir və hər zaman asanlıq yolunu seçirdi.[647]

Bunun gözəl bir nümunəsini Ümeyyə binti Ruqeyqə belə nəql edir.

Ənsardan bir qrup qadınla Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib:

– Allaha heç bir şeyi şərik qoşmamaq, oğurluq etməmək, zina etməmək, uşaqlarımızı öldürməmək, heç vaxt iftira etməmək və əmrlərinə qarşı üsyan etməməklə sənə beyət edirik, deyincə Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Gücünüz çatdığı və taqət gətirə biləcəyiniz məsələlərdə!"* – buyurdu.

Bu şəfqətli və mərhəmətli sözünə qarşı biz:

" – Allah və Rəsulu bizə qarşı bizdən daha mərhəmətlidir, gəlin beyət edək" – dedik.

Qadınlar beyəti əl tutaraq etmək istədilər. Amma Hz. Peyğəmbər *(s.ə.s)*:

647. Buxari, Ehkam, 43; Müslim, İmarə, 90.

*" – Mən qadınlarla əl tutmuram! Mənim yüz qadına ümumilikdə söylədiyim bir söz, hər qadın üçün ayrı-ayrı deyilmiş kimi sayılır"* – buyurdu.[648]

Hz. Peyğəmbər *(s.ə.s)* hətta ibadətlərdə belə çətin olanı deyil, orta yolu tutmağı istəyir və:

"İbadətləri gücünüz çatdığı qədər edin!" – buyururdu.[649] Buna görə də səhablərindən bu şəkildə davranmayanları dəfələrlə xəbərdarlıq etmək məcburiyyətində qalmışdır. Bunlardan biri belə olmuşdur:

Muaz ibn Cəbəl qövmünə imamlıq edirdi. Bir gecə namaz qıldırarkən Bəqərə surəsini oxumağa başladı. Bir adam salam verərək camaatdan ayrıldı, namazını təkbaşına qılaraq çıxıb getdi. Həmin adama:

– Ey filankəs, nifaq salırsan? – dedilər. O:

– Vallah xeyr, Rəsulullahın *(s.ə.s)* yanına gedib (Muazın etdiyini) xəbər verəcəyəm dedi.

Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəldi və:

– Ey Allahın Rəsulu, biz dəvələrlə su daşıyan insanlarıq. Gündüzlər işləyirik. Muaz bizə gəlib Bəqərə surəsi ilə namaz qıldırmağa başladı, – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* Muaza tərəf yönəldi və:

*"– Ey Muaz sən fitnə çıxaransan? Vəşşəmsini, Vədduhanı, Vəlleyli izə Yəğşəni, Səbbih ismə Rabbikəl əlanı oxu!"* – buyuraraq ona qısa surələri oxumasını tövsiyə etdi.[650]

İnsanları çətin vəziyyətə sala biləcək hər hansı bir məsələ ibadət də olsa Allah Rəsulunun *(s.ə.s)* xoşuna gəlməzdi. Bu səbəbdən də xalqı camaat olmaqdan soyudacaq bu cür davranışları qadağan etmişdir. Bunun əksinə olaraq, həlim xasiyyətli olub insanlara asanlıq göstərənlərə cəhənnəmdən qurtuluş vəd etmişdir:

648. İmam Malik, *Muvatta*, Beyət, 2; Tirmizi, *Siyər*, 37.
649. Buxari, İman, 32.
650. Müslim, Salət, 178; Buxari, Azan, 60, 63, 66.

*"Cəhənnəmin kimi yandırmayacağını sizə xəbər verimmi? Hər kəsə can yandıran, hər kəslə xoş keçinən və mülayim olub insanlara asanlıq göstərən şəxsləri cəhənnəm atəşi yandırmaz."*.[651] Göründüyü kimi sevgi, şəfqət və mərhəmət dini olan İslam, insanlara xeyir olanı istəyir və İslamın gözəlliklərinə sarıla bilmələri üçün öz səviyyələrinə uyğun, ən asan yolları göstərir. Belə olduğu halda İslamın həqiqətini anlamaq istəməyənlərin, səhv ideya və anlayışlarla dini çətinləşdirmələri və insanları İslamdan soyutmaları əsla doğru deyildir. Bu xətanı edənlər böyük bir günaha girərlər. Lakin göstərilən asanlıqlar insanları səhlənkarlığa və tənbəlliyə sövq edəcək tərzdə də olmamalıdır. Asanlaşdırma adı altında Allahın əmrlərində heç vaxt güzəştə gedilməməlidir.

### D. Müjdələyib nifrət etdirməmək

İnsanlara bir şeyi yalnız qorxu vasitəsilə qəbul etdirməyə çalışmaq, həmçinin nifrət yarada biləcəyinə görə müjdələməyi şüar etmək lazımdır. Belə ki, Qurani-Kərimdə yalnız qorxudan istifadə edilməmiş, əksinə cənnət və cəhənnəm, mömin və kafir, yaxşı və pis təsvirləri hər dəfə xatırladılmış, amma müjdələmək (sevindirmək) cəhətinə daha çox əhəmiyyət verilmişdir.

Allah-Təala; "**Rəhmətim hər şeyi əhatə etmişdir"** (Əraf, 7/156) buyuraraq bəndələrinə olan mərhəmətinin sonsuzluğunu bildirmişdir. Bu həqiqəti Allah Rəsulu *(s.ə.s)* belə ifadə etmişdir:

"Allah-Təala varlıqları yaratdığında *"Rəhmətim doğrudan da qəzəbimə qalibdir!"* – deyə yazmışdır.[652]

Şanı Uca Rəbbimiz biz bəndələrinə qarşı hər zaman bağışlayıcı, Rəhman və Rəhim olduğunu xatırladır. Bütün işlərimizin əvvəlində dediyimiz "bismillah" və namazlarda oxuduğumuz Fatihə Uca Allahın mərhəmət sifətini hər an yadımıza salır. Uca Rəbbimizin günahkar bəndələrə mərhəmətini müjdələyən diqqət çəkici bir hadisəni İbn Abbas belə nəql edir:

651. Tirmizi, Qiyamət, 45.
652. Buxari, Tövhid, 15.

Bir qrup müşrik adam öldürmək və əxlaqsızlıq (zina) kimi ağır günahlar işlədikdən sonra Hz. Peyğəmbərə *(s.ə.s)* müraciət edərək:

– Ey Muhammməd! Bizə anlatdığın və dəvət etdiyin əsaslar doğrudan da gözəldir. Əgər indiyə qədər etdiyimiz günahların bir kəffarəsi olduğunu desən müsəlman olarıq, – dedilər. Bundan sonra bu ayə nazil oldu:

**"Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz, zina etməzlər. Hər kəs bunu** (bu işləri) **etsə, cəzasını çəkər. Qiyamət günü onun əzabı qat-qat olar və** (o əzab) **içində zəlil oub əbədi qalar. Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir!".**[653]

Etmiş olduqları böyük günahlar ucbatından ümidsizliyə düşmüş bu insanlar ilahi müjdələr sayəsində təkrar həyata qayıtdılar və qurtuluşa çatdılar.

Rəhman və Rəhim olan Rəbbimiz Hz. Peyğəmbəri *(s.ə.s)* bütün bəşəriyyət üçün bir rəhmət olaraq göndərmiş, Hz. Peyğəmbər də *(s.ə.s)* insanları gözəlliklərlə müjdələmiş və pisliklərdən qorumağa çalışmışdır. Allah-Təala; **"**(Ya Rəsulum!) **Biz səni bütün insanlara** (möminlərə Cənnətlə) **müjdə verən,** (kafirləri isə Cəhənnəm əzabı ilə) **qorxudan bir Peyğəmbər olaraq göndərdik. Lakin insanların əksəriyyəti** (bunu) **bilməz!"** (Səbə, 34/28) – buyuraraq Hz. Peyğəmbərin *(s.ə.s)* "mübəşşir-müjdəçi" vəsfini öncə, "münzir-qorxuducu" vəsfini isə daha sonra zikr edir.

Buna görə də Hz. Peyğəmbər *(s.ə.s)* ilk dəfə təbliğ və dəvətə başlayarkən:

*"Sizi "Lə iləhə illəllahu vəhdəhu lə şərikə ləh" deyərək şəhadət gətirməyə dəvət edirəm! Mən də onun qulu və rəsuluyam! Bunu bu şəkildə qəbul edib, dilinizlə təsdiq etdiyiniz təqdirdə cənnətə girəcəyinizə zəmanət verirəm!".*[654]

653. Furqan, 25/68-70; Müslim, İman, 193.
654. Bəlazuri, Ənsab, I, 119-120.

*"Getdiyim yolda mənə yardımçı və qardaşım olmağı və beləliklə cənnəti qazanmağı hansınız qəbul edərsiniz?*[655] – deyərək insanları cənnətlə müjdələmişdir".

İman gətirməyə çağrılan, günahlardan tövbəyə dəvət edilən insanlarda olduğu kimi, iman və əməli ilə kamilliyə doğru gedən şəxslərin də bu müjdəyə ehtiyacı var. Eşidəcəkləri müjdəli xəbərlər onların xidmətlərində daha həvəsli olmağına səbəb olar. Bu səbəbdən Hz. Peyğəmbər *(s.ə.s)* zaman-zaman əshabını cənnətlə müjdələmişdir. Cənnətlə müjdələnən və "Aşərəyi-mübəşşərə"[656] adlandırılan on səhabə məşhurdur.[657]

Hz. Peyğəmbərin *(s.ə.s)* müjdə verdiyi bu on nəfər səhabədən başqa səhabələri və gözəl əməllər edən ümmətini də cənnətlə müjdələmişdir. Məsələn; Əshabi-Bədir yəni Bədir savaşında iştirak edənlər,[658] Hz. zHXədicə,[659] Abdullah ibn Səlam,[660] Harisə ibn Suraka əl-Ənsari[661] belələrindəndir.

Bununla yanaşı, müjdələmək məsələsində çox diqqətli davranmaq lazımdır. İnsanları ibadət etməkdən uzaqlaşdıran, səhlənkarlıq etmələrinə səbəb olan müjdələrdən çəkinməli, Allahın rəhmət və məğfirətini yada salaraq şeytanın, insanları aldatmasına imkan verilməməlidir. Çünki Allah-Təala bəndələrini xəbərdar edərək:

**"Şeytan sizi Allaha arxayın edib** (Allah Öz bəndələrinə mehribandır, onların hamısını bağışlayacaq, günahlardan keçəcək deyə) **tovlamasın!".** (Loğman, 31/33)

Bu iki nöqtə arasındakı tarazlıq çox sağlam şəkildə qurulmalı və həmsöhbətinin vəziyyətinə görə davranılmalıdır. Hz.

655. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 187.
656. «Əşəreyi-mübəşşərə» sağlığında Hz. Peyğəmbər tərəfindən *(s.ə.s)* cənnətlə müjdələnən on səhabəyə verilən ümumi addır. Əşereyi-mübəşşərəyə daxil olan səhabələr: Hz. Əbu Bəkir, Hz. Ömər, Hz. Osman, Hz. Əli, Hz. Talha ibn Übeydullah, Hz. Zübeyr ibn Avvam, Hz. Əbdürrəhman ibn Əvf, Hz. Sad ibn Əbi Vəqqas, Hz. Əbu Übeydə ibn Cərrah və Hz. Səid ibn Zeyd (radiyallahu anhum əcməin).
657. Tirmizi, Mənəqib, 27; Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 187-188.
658. Buxari, Məğazi, 9.
659. Buxari, Mənəqibul-Ənsar, 19.
660. Buxari, Ədəb, 55; Tirmizi, Mənəqib, 36.
661. Buxari, Məğazi, 9.

Peyğəmbər *(s.ə.s)* Muaz bin Cəbəli (r.a) tərkinə aldı və ona xitab edərək üç dəfə:

*" – Ey Muaz!"* – deyə səsləndi.

O da hər dəfə:

– Buyur ey Allahın Rəsulu, əmrinə hazıram! – deyə cavab verdi.

Bundan sonra Allah Rəsulu *(s.ə.s)*:

*" – Kim Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın qulu və rəsulu olduğuna səmimi şəkildə şəhadət gətirərsə, Allah ona cəhənnəmi haram edər"* – buyurdu.

Bundan sonra Muaz (r.a):

– Olarmı bu müjdəni müsəlmanlara xəbər verim sevinsinlər ey Allah Rəsulu? – deyərək icazə istədi. Hz. Peyğəmbər *(s.ə.s)* icazə vermədi. Daha sonra səbəbini belə açıqladı:

*" – O zaman insanlar buna arxayın olaraq tənbəlləşər"* – buyurdu.

Muaz ibn Cəbəl (r.a) belə bir bilgini gizləməyin günahından qorxaraq vəfatına yaxın ətrafındakılara bunu xəbər vermişdir.[662]

Bu müjdə ilə Muaz ibn Cəbəl (r.a) kimi ibadətlərə daha çox sarılacaq şəxslər olduğu kimi, belə xəbərlərə arxayın olub tənbəllik edən şəxslər də ola bilər. Hətta ikinci qrup insanlar daha çoxdur. Belə bir məqamda hansı sözün necə təsir edəcəyini müəyyən etmək dəvət əhli üçün çox olduqca əhəmiyyətlidir.

### E. İlahi əzaba qarşı xəbərdarlıq etmək

Allah Rəsulunun *(s.ə.s)* vəzifəsi insanlara həqiqətləri öyrədərək onları cənnətlə müjdələmək və cəhənnəm əzabından çəkindirmək idi. O, cənnət müjdəsi ilə Allahın əmrlərinə tabe olmayan şəxsləri əzab ilə qorxudaraq İslama dəvət etmişdir. Çünki qorxu şüuru insana daha çox təsir edir. Buna görə də müjdə ilə doğru yola qayıtmayan, nəfsinin istəklərinə tabe olan şəxslər üçün son çarə əzabla qorxutmaqdır. Bunu edərkən

662. Buxari, Elm, 49.

tarazlığı qorumalı, heç vaxt birtərəfli hərəkət edilməməlidir. Çünki əsas məqsəd hər bir insanı ilahi əzaba uğramaqdan qurtarmaqdır.

Allah-Təala dünyada imtahandan çıxa bilməyən insanlar üçün axirətdə böyük əzab hazırlamışdır. Bu səbəbdən bilə-bilə xəta etməkdə israr edənlər etdiklərinin nəticəsinə qatlanmaq məcburiyyətində qalacaqlar.

Hz. Peyğəmbər *(s.ə.s)* Uca Allahın əmri ilə yaxın qohumlarından başlayaraq bütün insanları ilahi əzabla qorxutmuşdur. Haşim oğullarını çağırdıqda onlara belə xitab etmişdi:

" – Əgər siz qiyamət günü yanıma yaxşı əməllərinizlə yox, dünyanı boynunuza yükləyərək gəlsəniz mən sizdən üz çevirərəm. Onda siz mənə; «Ya Muhamməd!" deyərsiniz. Mən isə belə edərəm" – buyurdu.

Hz. Peyğəmbər *(s.ə.s) "Belə edərəm"* buyurarkən, üzünü onlardan başqa tərəfə çevirdi və bunu iki dəfə təkrar etdi. Allah Rəsulu *(s.ə.s)* qohumlarına qiyamətin dəhşətini bu şəkildə izah etmiş, iman etmədikləri təqdirdə başlarına gələcək ilahi əzabı xəbər vermiş və kafir olaraq ölənlərə həmin gün heç bir kömək edə bilməyəcəyini bildirmişdir.

Hz. Həmzənin (r.a) müsəlman olmasında da eyni hadisənin şahidi oluruq. Hz. Həmzə (r.a) iman gətirməkdə bir çox tərəddüdlər edib gecəni yuxusuz keçirdikdən sonra sabah erkəndən Hz. Peyğəmbərin *(s.ə.s)* yanına getdi. Yuxusunu qaçıran şübhə və tərəddüdləri ona danışdı:

– Ey qardaşım oğlu! Mən elə bir çarəsizliyə düşmüşəm ki, çıxış yolu tapa bilmirəm. Nə olar mənə bir şey söylə, bir çıxış yolu göstər, dedi.

Bundan sonra Hz. Peyğəmbər *(s.ə.s)* ona nəsihət etdi. Axirət əzabını və nemətlərini başa salaraq Allahın əzabı ilə qorxutdu və cənnətlə müjdələdi. Hz. Peyğəmbərin *(s.ə.s)* bu nəsihətləri nəticəsində Hz. Həmzə (r.a) iman etdi.[663]

---

663. Hakim, *Müstədrək*, III, 213; İbn Kəsir, *əl-Bidayə*, III, 84.

Möminlər peyğəmbərlərin mərhəmətdən doğan bu qorxutmalarını nəzərə almalı və dünyaya aldanaraq axirəti unutmamalıdırlar.

Rəsulullah *(s.ə.s)* iyirmi üç illik təbliğ həyatında qarşılaşdığı hər insanı Allahın rəhməti və cənnəti ilə müjdələmiş, əzabı və cəhənnəmi ilə də qorxutmuşdur. İnsanların cəhənnəmə düşməmələri üçün quş kimi çırpınmış, hər bir insanı qurtarmağa çalışmışdır. Bir gün əshabını xəbərdar edərək məsələnin ciddiliyini belə anlatmışdır:

*" Allah-Təala cənnəti yaratdığı zaman Cəbrayıla:*

*– Get ona bax buyurdu. O da gedib cənnətə baxdı və:*

*– Ey Rəbbim! Sənin izzətinə and olsun, eşidib ora girmək istəməyən qalmayacaq! – dedi.*

*(Allah-Təala)* Cənnətin ətrafını nəfsin xoşlamayacağı şeylərlə əhatə etdi. Sonra :

*– Get ora bir daha bax! – buyurdu.*

*Cəbrail gedib bir daha baxdı! Sonra da:*

*– Qorxuram ki, ora heç kim girməyəcək! – dedi.*

*Cəhənnəmi yaratdıqdan sonra Cəbrayıla yenə:*

*– Get bir də ora bax! – buyurdu.*

*O da gedib baxdı və:*

– İzzətinə and olsun, eşidənlərdən heç kim ora girməyəcəkdir! – *dedi.*

*Allah-Təala onun ətrafını nəfsin arzu edəcəyi şeylərlə əhatə etdi. Sonra da:*

*– Get ora bir daha bax! – dedi.*

*O da gedib baxdı! Qayıtdığı zaman:*

– İzzətinə and olsun ki, hər kəsin ora girəcəyindən, bircə nəfərin belə kənarda qalmayacağından qorxuram! – *dedi ".*[664]

664. Əbu Davud, Sünən, 21-22; Tirmizi, Cənnət, 21.

Burada Hz. Peyğəmbər *(s.ə.s)* müvəffəqiyyət və cazanın ciddiliyinə diqqət çəkməklə bu həqiqəti insanların gözündə canlandırmışdır.

Hz. Peyğəmbər *(s.ə.s)* İslamın qadağan etdiyi əməlləri işləyən insanları da cəhənnəm əzabı ilə qorxutmuşdur. Bunlardan biri belədir:

*"Merac gecəsində dırnaqları misdən olan bir qövmün yanına getdim. Üzlərini cırmaqlayırdılar.*

*– Ey Cəbrail, bunlar kimdir, deyə soruşdum.*

*– Qeybət edərək insanların ətini yeyənlər və namuslarını ayaqlar altına atanlardır,* – dedi".[665]

Haqsız yerə başqasının malını almaq istəyənlər üçün də belə buyurmuşdur.

*"Hər kim (başqasının) bir qarış ərazisinə təcavüz edərsə, qəsb etdiyi sahə yeddi qat yerin tərkinə qədər boynuna dolandırılaraq cəzalandırılar"*.[666]

Hz. Peyğəmbər *(s.ə.s)* vəfatından öncə möminlərə son dəfə xitab edərək və onlara son xatırlatmalarını edirdi. Bir ara sözü qul haqqına gətirərək :

*" – Ey insanlar! Kimin üzərində keçmişdən qalmış bir haqq varsa onu dərhal ödəsin, dünyada rüsvay olaram deyə düşünməsin! Yaxşı bilin ki, dünyada rüsvay olmaq axirətdə rüsvay olmaqdan daha asandır"* – buyurdu.[667]

Hz. Peyğəmbərin *(s.ə.s)* bu sözündən sonra bəzi insanlar əvvəllər etdikləri bəzi haqsızlıq və xətaları etiraf edərək Allah Rəsulundan *(s.ə.s)* dua və istiğfar istədilər. Bir müddət sonra bir nəfər ayağa qalxıb :

"Ya Rəsulallah! Allaha and olsun mən də çox yalançıyam, həm də münafiqəm. Elə bir pislik yoxdur ki, mən onu etməmiş olum" – dedi.

---

665. Əbu Davud, Ədəb, 35.
666. Buxari, Məzalim, 13.
667. İbn Əsir, *əl-Kəmil*, II, 319.

Hz. Ömər (r.a) ona:

– Ay ağılsız, özünü rəzil etdin, – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:“ – Ey ibn Xəttab! Dünya rüsvayçılığı axirət rüsvayçılığından asandır!” – buyuraraq, orada olan möminləri axirətin dəhşətindən qorxutmuş, qiyamət günü rüsvay olmamaq üçün diqqətli davranmalarını bildirmişdir.

Daha sonra da bu şəxs üçün:*“Ey Allahım! Ona doğru sözlülük və kamil iman nəsib et. Onun pis əməllərini yaxşı əməllərə çevir!”* – deyərək dua etmişdir.[668]

İnsanın həyatında doğru yolu tuta bilməsi, axirətə imanının gücünə bağlıdır. Axirətə həqiqi mənada inanan bir şəxsin səhv hərəkətlər etməsi təsəvvür edilə bilməz. Çünki əksər hallarda qorxusunu və qorxduğu şeyləri nəzərə alaraq həyatını nizamlayar. Bunların arasında axirət hesabını və ilahi əzabdan qorxmağı ön planda tutmalıdır. Allah-Təala Quranda insanları şirk bataqlığından qurtarmaq üçün axirətə iman gətirməyə və qiyamət hadisələrinə çox geniş yer vermişdir.

Bura qədər təbliğ və dəvətdə izlənilən bəzi üsul və qaydalardan bəhs etdik. Məlum məsələdir ki, bir işi görərkən onun üslub və qaydalarına riayət etməklə daha tez nəticəyə çatmaq mümkündür. Əks halda məqsədə çatmaq çox çətin məsələdir. Dünyada möminlərin çatması lazım gələn ən mühüm qayələrdən biri imanı və Allah sevgisini insanlara aşılamaqdır. Ağacın torpağa əkilməsi və ya daşın divara qoyulması kimi sadə və ağır işlərin belə bir üsulu olduğuna görə insanların mənəviyyatına xitab etmək kimi olduqca həssas işlərin də özünəxas üsulları var. Təbliğ əhli hədəfinə çatmaq üçün yuxarıdakı qayda və üsulları tətbiq etməli nəticəni Allahdan gözləməlidir.

### Ə. Tətbiq edərək öyrətmək

Təbliğ edərək (birbaşa) öyrətmək, Rəsulullahın *(s.ə.s)* tərbiyə metodlarından biridir. Həmsöhbətin məsələni asan şəkildə anlayıb tətbiq edə bilməsi baxımından ən faydalı metod

668. Təbəri, *Tarix*, III, 190.

budur. Amr ibn Şüeybin babasından rəvayət etdiyinə görə bir nəfər Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələrək:

– Ya Rəsullallah! Dəstəmaz necə alınır, deyə soruşdu. Allah Rəsulu *(s.ə.s)* dərhal bir qab su istədi. Əllərini, üzünü, qollarını üç dəfə yudu. Sonra başına məsh etdi. Şəhadət barmaqlarını qulaqlarının içinə salaraq baş barmaqları ilə qulaqlarının xaricini, şəhadət barmaqları ilə də içini məsh etdi. Sonra da ayaqlarını üç dəfə yudu və:

*" – Bax dəstəmaz bu şəkildə alınır. Bundan əskik və ya artıq edən şəxs səhv etmiş olar"* – buyurdu.[669]

Süleyman ibn Büreydənin atasından rəvayət etdiyinə görə bir nəfər Hz. Peyğəmbərdən *(s.ə.s)* namaz vaxtlarını soruşdu.

Allah Rəsulu *(s.ə.s)*:

*" – Bizimlə birlikdə iki günün namazını qıl!"* – buyurdu və sonra birinci gün beş vaxt namazı ilk vaxtında, ikinci gün isə son vaxtında qıldırdı. Daha sonra isə:

*" – Namaz vaxtlarını öyrənmək istəyən şəxs haradadır?"* – deyə soruşdu. Həmin şəxs:

– Buradayam ya Rəsulallah, deyincə Allah Rəsulu *(s.ə.s)*:

" – Namazlar, bu gördüyün vaxtlar arasında qılınır" – buyurdu.[670]

Hz. Peyğəmbər *(s.ə.s)* həcc ibadətini yerinə yetirərkən müsəlmanların rahat şəkildə görüb öyrənə bilmələri üçün, bir çox rüknləri dəvə üzərində etmiş və:

*" – Ey insanlar! Həcc əməllərinin necə ediləcəyini məndən öyrənin. Bilmirəm, bəlkə də bu ildən sonra bir daha həccə gələ bilmədim"* – buyurmuşdur.[671]

İbadətlərin bu şəkildə yerinə yetirilməsində nümunə olan Hz. Peyğəmbər *(s.ə.s)*, haramların tərk edilməsində də hərəkətləri ilə bir nümunə olmuşdur. Qızıldan istifadə etməyin kişilərə

669. Əbu Davud, Təharət, 52.
670. Müslim, Məsəcid, 176.
671. Müslim, Həcc, 310; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 318.

haram buyurulmasını təbliğ edərkən barmağındakı qızıl üzüyü camaata göstərmiş və onu bir daha taxmayacağını deyərək barmağından çıxarıb atmışdır.[672]

Hz. Peyğəmbərin *(s.ə.s)* əməli davranışı ilə insanları istiqamətləndirməsinə Hüdeybiyyə müqaviləsində yaşanan bu hadisə çox gözəl bir misaldır: Kəbə ziyarəti zamanı maneçiliklə üzləşən müsəlmanlar, müqavilədən məmnun qalmayaraq Rəsulullahın *(s.ə.s)* qurbanları kəsmək əmrinə etinasız yanaşdılar. Hz. Peyğəmbər *(s.ə.s)* xanımı Ümmü Sələmənin tövsiyəsi ilə uca səslə *"Bismillah, Allahu əkbər!"* – deyib qurbanlıq dəvəsini kəsmişdi. Səhabələr, Hz. Peyğəmbərin *(s.ə.s)* qurbanını kəsdiyini görən kimi durub dəvələrini kəsməyə başladılar. Bu hadisəni müşahidə edən Ümmü Sələmə anamız:

– Müsəlmanlar qurbanlıq heyvanlara doğru yerlərindən elə sıçradılar ki, bir-birlərini əzəcəklərindən qorxdum, – demişdir.[673]

Rəsulullah *(s.ə.s)* qoyun dərisini soymağa çalışan bir gəncin yanından keçərkən ona:

*" – Kənara çəkil (dərinin necə soyulacağını) sənə göstərim"* - buyurdu. Əlini dəri ilə ət arasına elə saldı ki, qolu dərinin tam sonuna qədər getdi və:

*" – Ey Gənc! Dərini bax belə soy!"* – buyurdu. Sonra yoluna davam etdi...[674]

Hz. Peyğəmbərin *(s.ə.s)* təlim və tərbiyə həyatında belə örnəklərə çox rast gəlmək olar. Çünki tərbiyədə nümunə olmaq vasitələrin ən təsirlisi və uğur qazanmağa ən yaxın olanıdır. Misalsız və model olmayan təlimdə tam şəkildə uğur qazanmaq mümkün deyildir. Oxumaq və öyrənmək üçün göz nə qədər vacibdirsə, eyni orqanın təlimdə də böyük əhəmiyyəti vardır. Allah Rəsulunun *(s.ə.s)* müqəddəs izi ilə gedən səhabələr və sələfi-salehin də təlim və tərbiyədə məhz nümunə olmaq metodunu tətbiq etmişlər. Allah dostlarının həyatına baxdığımız zaman onların, həmişə tələbələrini halları və davranışları

672. Buxari, Əymən, 6.
673. Buxari, Şurut, 15; Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 326, 331; Vaqidi, *Məğazi*, II, 613.
674. Əbu Davud, Təharət,72; İbn Macə, Zəbəih, 6.

ilə tərbiyə etdiklərini, edilməsi gərəkli olanları hamıdan öncə artıqlaması ilə yerinə yetirdiklərini, hər bir qadağadan şiddətlə çəkindiklərini müşahidə edə bilərik. Bu gün İslamı insanlara təbliğ və dəvət edənlər «nümunə olmaq" düsturunu Allah yolunda xidmət etməyin əsas prinsipi kimi qəbul etməlidirlər.

**1. Asandan çətinə doğru getmək**

İnsan tədricən yaradıldığı kimi, təlim-tərbiyəsi də eləcə yavaş-yavaş olmalıdır. Bununla bağlı Allah-Təala belə buyurur:

**"İnsanlara aramla, yavaş-yavaş oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb** (ayə-ayə, surə-surə) **göndərdik".** (İsra, 17/106)

Quranda böyük yer tutan keçmiş peyğəmbərlərin və qövmlərin hekayələri belə, ilk zamanlarda hissə-hissə bildirilmiş, cəmiyyətin qavrama təfəkkür tərzi artdıqca bunların həcmi və məzmunu da artmışdır.

İlahi kəlamın tədricən nazil olmasının tərbiyə nöqteyi-nəzərindən qoruyub saxladığı faydaları belə sıralaya bilərik.

1. Nazil olan ayələri asanlıqla oxuyub əzbərləyə bilmək.

2. Bunların mənalarını həddindən artıq zəhmət çəkmədən və lazımi şəkildə başa düşə bilmək.

3. Əvvəllər qəbul etdikləri batil inanclardan, yanlış ibadətlərdən, mənasız adət və ənənələrdən yavaş-yavaş uzaqlaşıb təmizlənə bilmək.

4. Möminlərin ixlas, təqva, səbir, mərifət, məhəbbət kimi mənəvi xüsusiyyətlərini və əxlaqi fəzilətlərini heç bir çətinlik çəkmədən inkişaf etdirmək.

Qurani-Kərimdə müəllimin insanların təlim-tərbiyəsi ilə əlaqəli tətbiq etmələri lazım olan düsturlara da işarə edilməkdədir. Allah-Təala belə buyurur:

**"Öyrətdiyimiz kitabın və öyrəndiyiniz şeyin sayəsində rəbbani** (mükəmməl elm və əməl, gözəl əxlaq və itaət sahibi) **olun".** (Ali-İmran, 3/79)

Cündəb ibn Abdullah (r.a) belə nəql edir: "Biz Hz. Peyğəmbərin *(s.ə.s)* yanında olanlar, həddi-buluğa çatmış bir qurup gənc idik. Quranı öyrənməmişdən əvvəl imanı öyrəndik. Daha sonra Quranı öyrəndik və onun sayəsində imanımız artdı".[675]

Allah Rəsulu *(s.ə.s)* bu gənclərə və digər əshabına, ilk olaraq mənəvi tərbiyədə ümdə olan imanı öyrədirdi. Sonra Quranın təliminə və ehkamın tədrisinə başlayırdı. Məhz iman olmadan, öyrəniləcək digər məlumatlar bir məna ifadə etməyəcəkdir. Bu mövzu ilə bağlı İbn Ömər (r.a) belə deyir: "Uzun bir ömür sürdüm. Bizlərdən bir çoxuna Qurandan əvvəl iman nəsib oldu. Onlar, hər hansı bir surə nazil olanda, surədəki halal və haramları, lazım olanları öyrənirdi. Sonra insanlar gördüm onlardan birinə imandan öncə Quran verilir, o, da Fatihədən sonuna qədər onu oxuyur, amma nəyi əmr etdiyini, nəyi qadağan etdiyini və nələri öyrənmək lazım olduğunu bilmirdi. Adi xurmanı səpən kimi onu səpirdi".[676]

İbn Ömər (r.a) bu məzəmmətlə elm öyrənmək üçün tətbiq edilməsi lazım olan metoda diqqət çəkməkdə, buna riayət edilmədiyi zaman əmələ gələcək mənfi halları işıqlandırmaqdadır.

Hz. Peyğəmbər *(s.ə.s)* səhabələrə Qurani-Kərimin hamısını öyrətməz, tədricən öyrətməyi əsas götürərdi. Əbu Əbdürrəhman əs-Süləmi belə nəql edir:

Allah Rəsulunun *(s.ə.s)* əshabından bizə Qurani-Kərimi öyrədən biri var idi. O, bizə bu xəbəri verdi:

"Biz Hz. Peyğəmbərdən *(s.ə.s)* on ayə alıb, bu ayələrdəki məlumat və əməlləri öyrənmədən, başqa on ayəyə keçməzdik. Rəsulullah *(s.ə.s)* bizə həm elm, həm də əməli (birlikdə) öyrədirdi".[677]

Hz. Peyğəmbər *(s.ə.s)* tətbiq etdiyi bu metodla öyrəndiklərimizi mənimsəmək üçün ehtiyatla davranmış və əməlsiz elmin bir fayda verməyəcəyi həqiqətini ortaya çıxarmışdır. Bu-

675. İbn Macə, Müqəddimə, 9.
676. Heysəmi, *Məcməuz-Zəvaid*, I, 165.
677. Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 410; Heysəmi, *Məcməuz-Zəvaid*, I, 165

nunla da Allah Rəsulu *(s.ə.s)* faydasız elmdən Allah-Təalaya sığınmışdır.[678]

Təlim-tərbiyə və təhsildə istədiyimiz müvəffəqiyyəti əldə etmək üçün Rəsulullahın *(s.ə.s)* və səhabələrin tətbiq etdikləri bu tərbiyə metodundan istifadə etməyimiz zəruridir. Məhz insanın qabiliyyət, istedad, idrak gücü və qüdrəti müəyyən olub hər şeyi bir anda və ya qısa bir zamanda öyrənməsi mümkün deyildir. Məlumatların faydalı olduqları kimi, zərərlisi də vardır. Hətta bu gün müxtəlif yollarla zərərli məlumatlar insanların zehin və qəlblərinə daha çox nüfuz edir. Çox vaxt lazımsız və mənasız məlumatlar, lazımlı hətta zəruri olan məlumatların qarşısına keçərək gənc zehinlərə aşılanmağa çalışılır. Yaxşı ilə pis, faydalı ilə zərərli bir-birinə qarışmaqdadır. Belə məlumat anarxiyasının tuğyan etdiyi şərtlər altında sağlam təlim-tərbiyə və təhsil təbliğatını aparmaq olduqca çətindir. Bunları Allah və Rəsulunun *(s.ə.s)* əmrləri çərçivəsində diqqətli bir şəkildə tənzim etmək zərurəti vardır.

### 2. Təmkinli olmaq və usandırmamaq

Rəsulullah *(s.ə.s)* təcrübəli bir müəllim kimi təmkini əsla əldən verməz, həmsöhbətləri bezikdirib usandırmaz, istək və ümidlərini qorumaq üçün hər zaman söhbət etməz, asudə vaxtlarını da nəzərdən qaçırmazdı.[679]

Ümumiyyətlə, Allah Rəsulu *(s.ə.s)* bu hərəkətin peyğəmbər metodu olduğunu belə bəyan etmişdir. *"Gözəl rəftar, davranış və təmkin peyğəmbərliyin 24 hissəsindən biridir"*.[680]

Əbu Sələmənin dediyinə görə Rəsulullahın *(s.ə.s)* əshabı nə təmkindən uzaq, nə də təmbəllik edən kimsələr idi. Söhbət məclislərində bəzən şeir oxuyar və cahiliyyə dövründəki xatirələrini anladardılar.[681]

Təbliğçi də həmsöhbətini bezdirməməli, yormamalı və usandırmamalıdır. Həmçinin lazımından artıq danışmamalı,

678. Müslim, Zikr, 73.
679. Buxari, Elm, 12.
680. Əbu Davud, Ədəb, 2.
681. İbn Əbi Şeybə, *Müsənnəf*, V, 278.

dinləməyi də bacarmalıdır. Təmkinini həmişə qorumalı, gözəl və xoş rəftarı ilə həmsöhbətlərinin könlünü fəth etməyə çalışmalıdır.

**F. Həmsöhbətə dəyər vermək**

Allah Rəsulu *(s.ə.s)* həmsöhbətlərinin hər birinə lazımi dəyəri verirdi. Allah Rəsulu *(s.ə.s)* ona inanıb tabe olan möminlərə dua etdiyi kimi, imansız kafirlərin hidayəti üçün də gecə-gündüz çalışır və dua edərdi. Hətta Uca Rəbbindən ona hər zaman:

"(Ya Məhəmməd! Məkkə müşrikləri) **iman gətirməyəcəklər deyə, bəlkə, özünü həlak edəsən?!** (Özünü həlakmı edəcəksən?)" (Şuəra, 26/3) xəbərdarlıq edilirdi.

Hz. Peyğəmbər *(s.ə.s)* həmsöhbətlərinin qəlblərini fərəhləndirəcək, özünə olan etimadı və etibarı artıracaq söhbətlər edərdi. Məhz həmsöhbətə dəyər vermək onu ələ almağın ilk addımıdır.

Ənəsin (r.a) xəbər verdiyinə görə Rəsulullah *(s.ə.s)* bir nəfərlə rastlaşdığı zaman onunla danışar, ayrılana qədər üzünü ondan çevirməzdi. Əl verib görüşdükdə, görüşən adam əlini çəkməsə o da əlini çəkməzdi. Hz. Peyğəmbərin *(s.ə.s)* oturarkən dizlərinin yanında oturan adamın dizlərindən irəli çıxdığı da görülməmişdir.[682]

Abdullah ibn Amrın (r.a) nəql etdiyinə görə Allah Rəsulu *(s.ə.s)* Kəbəni təvaf edərkən, möminin Allah dərgahındakı dəyərini belə anlatmışdır: *"Sən nə qədər təmizsən, qoxun da o qədər gözəldir. Sən nə qədər ucasan, sənin dəyərin də o qədər böyükdür. Allaha and olsun ki, bir möminin Allah dərgahındakı dəyəri sənin qiymətindən daha böyükdür. Mömininin malının və qanının dəyəri də belədir. Biz mömin haqqında sadəcə hüsnü-zəndəyik"*.[683]

Möminləri təhqir edən və lağa qoyan bir söz Hz. Peyğəmbərdən *(s.ə.s)* əsla eşidilməmişdir. Onun nəzərində hər mömin dərəcəsindən aslı olmayaraq qiymətli idi.

682. İbn Macə, Ədəb, 21
683. İbn Macə, Fitən, 2.

Hz. Peyğəmbərin *(s.ə.s)* həmsöhbətlərinə dəyər verməsinin bir nümunəsi söhbət əsnasında onlara danışmaq hüququ və bildikləri doğru şeyləri ifadə etməsinə icazə verməsidir. İbn Abbasın (r.a) xəbər verdiyinə görə bir adam Rəsulullahın *(s.ə.s)* yanına gələrək bu yuxunu danışdı:

Bu gecə yuxumda buluda bənzər bir şey gördüm. Ondan yağ və bal yağırdı. İnsanlar da əllərini açıb bu yağışdan götürməyə çalışırdılar. Kimi ovcuna az, kimi də çox toplayırdı. Yerdən göylərə qədər uzanan bir ip gördüm. Siz o ipdən tutub yuxarı qalxdınız. Sizdən sonra bir nəfər də tutub səmalara qalxdı. Sonra başqa birisi qalxdı. Sonra da daha başqa birisi ipdən tutdu amma ip qopdu. Onun ipini birləşdirdilər, o da göylərə yüksəldi.

Hz. Əbu Bəkir (r.a) irəli çıxaraq:

Ey, Allahın Rəsulu! Atam-anam, sənə qurban olsun, icazə versən bu yuxunu mən yozardım – dedi.

Rəsulullah da:

*"Yaxşı yoz!"* – dedi.

Hz. Əbu Bəkir belə dedi:

O, buluda bənzəyən kölgə İslamdır. Ondan axan bal və yağ Qurandır. Quran (bal kimi) şirin və (yağ kimi) yumşaqdır. İnsanların ovuc-ovuc bu yağışdan toplaması Qurandan kiminin çox, kiminin isə az bəhrələnməsi deməkdir. Yerdən göyə qədər uzanan ip isə, sənin gətirdiyin həqiqətdir. Sən bu ipdən yapışdığına görə Allah Səni ucaldacaqdır. Səndən sonra bir nəfər o ipdən tutacaq və göylərə yüksələcəkdir. Ondan sonra başqa biri bu ipdən tutacaq və göylərə yüksələcəkdir. Ondan sonra da başqa bir nəfər bu ipdən yapışsa, ip qopacaq, amma onun ipini bağlayacaqlar. O da tutub səmalara yüksələcək. Ey Allahın Rəsulu, atam-anam sənə fəda olsun, doğru yozub-yozmadığımı xəbər ver!

Allah Rəsulu *(s.ə.s)* bu cavabı verdi:

*"Yozumun bir hissəsini düz tapdın, bir hissəsində isə xəta etdin"*.[684]

684. Buxari, Təbir, 47; Müslim, Röya, 17.

Bu hədisdən göründüyü kimi Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Əbu Bəkrin xahişi ilə ona danışmağa icazə verir. Onu diqqətlə dinləyir, sonunda da mövzuyla bağlı öz dəyərli fikrini deyir və mövqeyini bildirir.

Hz. Peyğəmbərin *(s.ə.s)* həmsöhbətlərinə dəyər verməsini məşhur mövzulara istinadən tədqiq etsək aşağıdakı təsnifat qarşımıza çıxar:

**1. Həmsöhbətə iltifat etmək**

Hz. Peyğəmbər *(s.ə.s)* həmsöhbətlərinin vəziyyətinə və qabiliyyətinə görə rəftar edirdi. Bu fərdi yanaşma və münasibətin səhabələrin bir şəxsiyyət kimi formalaşmalarında çox böyük təsiri olmuşdur. Əmir ibn Tağrib belə nəql edir:

Rəsulullaha *(s.ə.s)* qənimət malı gətirmişdilər Onu dərhal bölüb payladı. Amma qənimətdən səhabələrin bir neçəsinə verdi, bir neçəsinə isə vermədi. Pay almadıqlarına görə narazılıq edib, dedi-qodu edənlərə Hz. Peyğəmbər *(s.ə.s)* Allaha həmd və şükür etdikdən sonra belə dedi:

*"Vallahi, bəzən birinə verib digərinə vermirəm. Ancaq vermədiyim, nəzərimdə verdiyimdən daha çox sevgiyə layiqdir. Mən bu insanların bir neçəsinə qəlblərində gördüyüm səbirsizliyə və hərisliyə görə mal verirəm. Bir neçəsinə isə Allah-Təalanın qəlblərə qoymuş olduğu könül zənginliyi və xeyir səbəbi ilə vermirəm. Bax, bunlardan biri də Əmir ibn Tağlibdir".*

Əmir sözünə belə davam etdi:

Vallahi, Rəsulullahın *(s.ə.s)* haqqımda dediyi bu sözlərin müqabilində qırmızı dəvələr versəydilər bu qədər sevinməzdim.[685]

Ənəs (r.a) belə nəql edir:

Müsəlmanlar Hüneyn döyüşündən çox qənimət əldə etdilər. Hz. Peyğəmbər *(s.ə.s)* bu qənimətləri Mühacirlər və Tuləqa, yəni fəthdən sonra əfv edilib sərbəst buraxılan məkkəlilər arasında bölüşdürdü, ancaq Ənsara heç nə vermədi.

685. Buxari, Cümə, 29.

Ənsardan bəziləri bunu narazılıqla qarşıladı və belə deməyə başladılar:

Çətinlik olduqda bizi çağırırlar, amma qənimət bizə yox, başqalarına verilir!.

Bu sözləri eşidən Hz. Peyğəmbər *(s.ə.s)* dərhal Ənsarı bir yerə topladı və belə dedi:

Ey Ənsar camaatı! Hər kəs dünyəviliklə yaşayarkən, siz Muhamməd ilə yaşamaqdan, evində onunla bərabər olmaqdan razı deyilsinizmi?

Ənsar:

Əlbəttə razıyıq, ey Allahın Rəsulu! - dedilər.

Daha sonra Allah Rəsulu *(s.ə.s)* sözünə belə davam etdi:

"İnsanlar bir vadiyə, Ənsar isə başqa vadiyə tərəf getsə, mən Ənsarla bir yerdə gedərəm".[686]

Hz. Peyğəmbər *(s.ə.s)* həmsöhbətinə sahib olduğu gözəl əxlaq və fəzilətləri zikr edərək səmimi münasibət göstərir, onun könlünü ələ alır, beləliklə ya hidayətinə, ya da İslami həqiqətləri öyrənməsinə vəsilə olurdu. Etibar edib tapşırdığı işləri müvəffəqiyyətlə yerinə yetirən əshabına daha çox dəyər verir, onlara olan rəğbət hisslərini müxtəlif şəkillərdə ifadə edirdi.

Hz. Peyğəmbər *(s.ə.s)* Zeyd ibn Harisəni (r.a) Bəni Fəzariyə qəbiləsinə göndərdiyi hərbi birliyə başçı olaraq təyin etmişdi. Səfər müvəffəqiyyətlə başa çatıb mücahidlər Mədinəyə qayıtdıqda Zeyd Hz. Peyğəmbərin *(s.ə.s)* qapısını döydü. Hz. Peyğəmbər *(s.ə.s)* Zeydi qarşıladı, qucaqlayıb alnından öpdükdən sonra nə etdiklərini soruşdu. Zeyd də Allah-Təalanın lütf etdiyi mərhəmət və köməyi Hz. Peyğəmbərə *(s.ə.s)* xəbər verdi.[687]

Hz. Peyğəmbər *(s.ə.s)* əshabı ilə birlikdə qəza ümrəsini yerinə yetirdiyi zaman Abdullah ibn Rəvaha təvaf edərkən şer oxumağa başladı.

---

686. Buxari, Məğazi, 56; Müslim, Zəkat, 135.
687. Vaqidi, *Məğazi*, II, 565; İbn Sad, *ət-Təbəqatul-Kubra*, II, 91.

Hz. Ömər ona :

Sən Rəsulullahın *(s.ə.s)* hüzurunda və Allahın evində şeir deyə-deyə duracaqsan?!

Hz. Peyğəmbər *(s.ə.s)* Hz. Ömərə:

*"Ona mane olma! Allaha and içirəm ki, onun sözləri Qüreyş müşriklərinə ox yağdırmaqdan daha təsirlidir! Ey, İbn Rəvaha davam et!"*- dedikdən sonra Abdullah ibn Rəvahaya:

*"Allahdan başqa heç bir ilah və məbud yoxdur! O təkdir! O vədinə xilaf çıxmaz! Bu quluna yardım edən odur. Əsgərlərini gücləndirən odur. Bir yerə yığışan, toplanan qəbilələri də məğlubiyyətə uğradan yalnız Odur, de! – deyə buyurdu".*

Abdullah ibn Rəvaha bunu söyləməyə başladıqda müsəlmanlar da onun dediklərini təkrarladılar.[688]

Hz. Peyğəmbər *(s.ə.s)* bununla əshabına, bir-birilə münasibətdə nəzakət qaydalarına diqqət etməyin vacibliyini göstərmişdir. Abdullah ibn Rəvahaya da xüsusi iltifat göstərərək etdiyi işin yerində və faydalı olduğunu bildirmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən də göstərdiyi bu xüsusi münasibətlə bir qəbiləni xeyirə təşviq etməyi qarşısına məqsəd qoyardı. Məsələn, Həmdan təmsilçilərinin Mədinəyə gəlib İslamı qəbul etdiyi dövrdə belə bir vəziyyət yaşanmışdır. Heyət üzvlərindən biri istedadlı şair olan Malik ibn Nəmat Hz. Peyğəmbərin *(s.ə.s)* hüzurunda ayağa qalxıb:

Ya Rəsulallah! Bunlar səni salamlayırlar. Şəhərliləri də, köçəriləri də Həmdanın tanınmış adamlarındandır. Rəsulullahın dəvətini qəbul etdilər. Önlərində qurbanlar kəsilən bütlərdən ayrıldılar. Onlar dağlar yerində durduğu və Sel çölündə ceyran balaları gəzib-dolandığı müddət ərzində əhdlərini pozmadılar! - dedi və hamısı müsəlman oldular.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Məşəqqətlərə səbir edib qatlandıqlarına görə Həmdan çox gözəl qəbilədir"* – deyərək onları möhtacların yardımına tələsməyə,

688. Vaqidi, *Məğazi*, II, 736; İbn Sad, *ət-Təbəqatul-Kubra*, II, 122-123.

bu işdə başlarına gələcək çətinliklərə səbir etməyə təşviq etmişdir.[689]

Şair Ləbidlə bağlı bu hadisə də buna bənzər məqsəd daşıyır. Müsəlman olmaq üçün Allah Rəsulunun *(s.ə.s)* yanına gələn Bəni Ğilab heyəti arasında olan Ləbid bin Rəbia, ərəblərin ən böyük şairlərindən biridir. Hz. Peyğəmbər *(s.ə.s)* onun haqqında:

*"Şairlərin söylədiyi ən doğru söz Ləbidin: "Əlbəttə, Allahdan başqa hər şey batildir, boşdur!"* sözüdür" – deyərək ona xoş münasibət göstərmişdir. Ləbid müsəlman olduqdan sonra şeir deməyi tərk etmişdi. Bir gün Hz. Ömər ona:

Ey Əbu Aqil! Mənə şeirlərindən birini oxusana! – dedikdə:

Allahın mənə "Bəqərə" və "Ali-İmran" surələrini öyrətdikdən sonra əsla şer demərəm!. Allah məni bu Quranla dəyişdirdi! – demişdir.[690]

Bəzən Allah Rəsulu *(s.ə.s)* əshabını imtahan edər, elmlərini yoxlamaq üçün onlardan bəzi şeylər soruşardı. Doğru cavab verdikdə təbrik edər, onlarla fəxr edərdi. Übeyy ibn Kəb (r.a) belə nəql edir:

Bir gün Hz. Peyğəmbər *(s.ə.s)* məndən:

"Ey Əbül-Münzir! Allahın kitabından əzbər bildiyin hansı ayə daha böyükdür?" - deyə soruşdu.

Doğrusunu Allah və Rəsulu bilir – dedim.

Hz. Peyğəmbər *(s.ə.s)* təkrar:

"Ey Əbül-Münzir! Allahın kitabından əzbər bildiyin hansı ayə daha böyükdür?" – deyə soruşduqda mən bunun:

"**Allahdan başqa heç bir tanrı yoxdur.** (Zatı və kəmal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) **əbədi və əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər"** (Bəqərə, 2/255) ayəsi (yəni ayətül-kürsü) olduğunu söylədim.

---

689. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, IV, 268-269; İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 341.
690. İbn Sad, *ət-Təbəqatul-Kubra*, VI,33; İbn Əsir, *Üsdul-ğabə*, IV, 516.

Bunu eşidən Allah Rəsulu *(s.ə.s)* əli ilə sinəmə toxunaraq:

*"Elmin mübarək olsun, Ey Əbül-Münzir!"* – dedi.[691]

Rəsulullahın *(s.ə.s)* nəzərində bütün insanlar eyni idi. Buna görə də hamı ondan layiq olduğu münasibət görürdü. Hz. Peyğəmbər *(s.ə.s)* hər insana Allah-Təalanın əmanəti olaraq baxırdı. Bu səbəbdən həmsöhbətinin zahiri görünüşündən çox daxili aləminin zənginliyinə baxardı.

İnsanların təlim-tərbiyə və təhsili ilə məşğul olan şəxslər Hz. Peyğəmbərin *(s.ə.s)* bu metodundan ən gözəl nümunə kimi yararlanmalıdırlar. Dəvətçilər xüsusi münasibətə layiq və möhtac olanları başqalarından fərqləndirməli, onlarla məxsusi maraqlanmalıdırlar. Bəzən xüsusi qayğı ilə böyüyən və yetişən bir insan, minlərlə insandan daha faydalı işlər görə bilər. Bu baxımdan istedadlı tələbə xüsusi qiymətləndirilməli – ona lazımi qayğı göstərilməlidir. Bunlarla yanaşı, başqa insanlara qarşı nəzakətli davranmaq, insanları qısqanclığa sövq edən davranışlardan uzaq durmaq lazımdır.

**2. Həmsöhbətin səviyyəsinə nəzərə almaq**

Allah-Təala insanların dilləri və rəngləri kimi qabiliyyət və istedadlarını da fərqli yaratmışdır. Heç bir insanın bənzəri yoxdur. Hər insanın ağıl, idrak və qavrama səviyyəsi, duyma qabiliyyəti bir-birindən olduqca fərqlənir.

Bu səbəblə Hz. Əli:

"İnsanlara anladıqları şeyləri söyləyin" – demişdir.[692]

Mikdam ibn Madikərb isə belə deyir:

"İnsanlara Rəblərindən bəhs etdiyiniz zaman onlara anlaşılmaz və çətin dərk edilən şeylər söyləməyin!".[693]

Səhabələr:

– Ey Allahın Rəsulu! Səndən eşitdiklərimizin hamısını xəbər verə bilərikmi? – deyə soruşdular.

691. Müslim, *Müsafirin*, 258.
692. Buxari, Elm, 49.
693. Beyhəqi, *Şuabul-İman*, II, 281.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Bəli, ancaq bir topluma ağıllarının dərk etməyəcəyi bir şeyi anlatmağınızdan başqa. Çünki bu vəziyyət bəzilərinin fitnəyə düşmələrinə yol açar"* – dedi.

Bu xəbərdarlıqdan sonra İbn Abbas (r.a) bir topluma hər hansı bir mövzunu izah edərkən bəzi şeyləri eyhamla danışardı.

Allah Rəsulu *(s.ə.s)* təlim və tərbiyə fəaliyyətində bu qaydanı lazımi şəkildə tətbiq etmişdir. Hz. Peyğəmbər *(s.ə.s)* söhbət edərkən dinləyənlərin və sual verənlərin səviyyələrinə son dərəcə diqqət yetirərdi. Hər kəsə başa düşdüyü şəkildə xitab edərdi. Öyrənməyə yeni başlayanların vəziyyətini göz önündə canlandırar, daha yüksək səviyyədə olanlara öyrətdiklərini onlara öyrətməzdi. Hər kəsin istəyinə onu maraqlandıranı və ehtiyacı olan qədər qarşılıq verərdi.

Abdullah bin Amrın (r.a) bildirdiyinə görə bir adam Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələrək:

– Hicrət və cihad etmək üçün Sənə beyət edirəm. Bunların savabını Allahdan diləyirəm – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Valideynlərindən həyatda sağ olanı varmı?"* – deyə soruşdu.

Həmən adam:

– Bəli, hər ikisi də sağ və salamatdır – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*" – Allahdan savab qazanmaq istəyirsən, elə deyilmi?"* – deyə soruşdu.

O adam:

– Bəli! – dedikdə:

*" – Ata və ananın yanına qayıt. Onlara yaxşı bax!"* – buyurdu.[694]

---

694. Buxari, Cihad, 138; Müslim, Birr, 6.

Hz. Peyğəmbər *(s.ə.s)* hicrət və cihada əhəmiyyət verməsinə, ümmətini buna təşviq etməsinə baxmayaraq, sual verən adamın xüsusi vəziyyətini nəzərə alaraq, bu kimsənin ata və anasına xidmət etməsinin hicrət və cihaddan daha önəmli olduğunu bildirmişdir.

Əbu Hüreyrənin (r.a) rəvayətinə görə bir nəfər Hz. Peyğəmbərə *(s.ə.s)*:

Mənə öyüd ver – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* ona :

*"Qəzəblənmə!"* – dedi. Adam sözünü bir neçə dəfə təkrar etdi. Hz. Peyğəmbər *(s.ə.s)* bunu deməklə həmin şəxsə qəzəblənmək və tez özündən çıxmağın yanlış olduğunu göstərmək istəmişdir.[695]

Hz. Peyğəmbərlə *(s.ə.s)* bir bədəvi arasında baş verən bu hadisə dediklərimizə gözəl bir misaldır. Əbu Hüreyrənin (r.a) dediyinə görə bədəvilərdən bir nəfər Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib:

Ey Allahın Rəsulu! Mənə cənnətə girmək üçün bir əməl tövsiyə et – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Allaha heç bir şeyi şərik qoşmadan qulluq elə. Fərz olan namazlarını qıl. Yenə fərz olan zəkatı ver və Ramazan orucunu tut"* – dedi.

Bədəvi:

Allaha and içirəm ki, bu dediklərinə heç nə əlavə etmərəm - dedi. Adam geri dönüb gedəndə Hz. Peyğəmbər *(s.ə.s)*: *"Cənnətlik birisini görmək istəyən, o adama baxsın!"* – dedi.[696]

Burada bədəvinin səviyyəsi və göstərdiyi davranış qarşısında Hz. Peyğəmbərin *(s.ə.s)* bədəviyə yaxınlaşma tərzi və tətbiq etdiyi metod diqqətə layiqdir. Hz. Peyğəmbər *(s.ə.s)* bədəvinin o sözünün müqabilində məsələn, «Bu dini bir məsələdir, bunu edərəm, bunu etmərəm demək olmaz. Daha diqqətli

695. Buxari, Ədəb, 76.
696. Buxari, Zəkat, 1; Müslim, İman,15.

ol!" şəklində də cavab verə bilərdi. Amma Allah Rəsulu *(s.ə.s)* belə etməmiş, onun idrak səviyyəsini nəzərə almış, hətta onun dediyini əməli ilə yerinə yetirərsə cənnətə girəcəyini müjdələmişdir.

Uqbə ibn Amir (r.a) Hz. Peyğəmbərə *(s.ə.s)*:

Ya Rəsulallah! Qurtuluş nədir? – deyə soruşduqda Allah Rəsulu *(s.ə.s)*:

*"Dilinə sahib ol! (fitnələr ortalığı bürüyəndə) evinə sığın və günahlarına göz yaşı tök!"* – demişdir.[697]

Allah Rəsulundan *(s.ə.s)* soruşulan bir-birinə bənzər suallara fərqli cavablar verməsi həmsöhbətinin səviyyəsi və vəziyyəti ilə birbaşa əlaqəlidir. Hz. Peyğəmbər *(s.ə.s)* hər kəsə ehtiyacı olanı və hələ öyrənmədiyi İslamın təməl əsaslarından birini, yaxud tətbiqə uyğun və ya sual verənə uyğun olan şeyi söyləmişdir. Bəzən də şərtlərə bağlı cavab vermişdir. Məhz bütün bəşəriyyətin müəllimi, mürşidi və hidayət rəhbəri olan Hz. Peyğəmbər *(s.ə.s)* peyğəmbərlik, fərasət və bəsirəti ilə kimin nəyə ehtiyacı olduğunu o dəqiqə hiss edər və ona əsasən məsləhət verərdi.

### 3. Həmsöhbətə yaxşılıq etmək

İnsan fitrətinə görə öz tamahının əsiridir. Hər fəaliyyətində, təşəbbüs göstərdiyi hər işində əvvəlcə öz mənafeyini düşünür. O ömrü boyu bədəninə zəruri olan və olmayan ehtiyaclarını ödəmək üçün cəhd göstərir. Xeyir, mənfəət umduğu hər şeyə hərisliklə, həvəslə qoşulur. Yorulana qədər onların arxasınca qaçır. Uca Rəbbimiz insan xislətinə uyğun bu həqiqəti belə bəyan edir:

**"Həqiqətən insan** (sərvətə) **çox həris, tamahkar və kəmhövsələ yaradılmışdır. Ona bir pislik üz verdikdə fəryad qopardar. Ona bir xeyir nəsib olduqda da xəsis olar".** (Məaric, 70/19-21)

**"Həqiqətən insan var-dövlətə çox hərisdir!".** (Adiyat, 100/8)

697. Tirmizi, Zöhd, 61.

Allah-Təala belə bir fitrətdə yaratdığı quluna, bəyənmədiyi bu xüsusiyyətləri müalicə etmək üçün yaxşılıq etməyi əmr etmişdir. Bir ayədə belə buyurulur:

**"**(Malınızı) **Allah yolunda xərcləyin. Öz əməlinizlə özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq** (ehsan) **edənləri sevir".** (Bəqərə, 2/195)

İnsan xarakterinə çox yaxşı bələd olan Allah Rəsulu *(s.ə.s)* təlim-tərbiyə fəaliyyətində tələbələrin ehtiyaclarını həmişə diqqət mərkəzində saxlamışdır. Tərbiyə və etibarı ilə məşğul olduğu kimsələrə imkanı müqabilində ehsan və yaxşılıq etmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* əshabının hər cür məsələləri ilə maraqlanar, imkanı olan kəsləri də buna təşviq edərdi. Əbdürrəhman ibn Əbu Bəkir (r.a) belə nəql edir:

Suffə əshabı[698] fağır kimsələr idi. Bir dəfə Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurdu:

"İki nəfərlik yeməyi olan (Suffə əshabından) üçüncünü, dörd nəfərlik yeməyi olan da beşinci və hətta altıncıya ehtiram göstərib yeməyə aparsın!".

Əbu Bəkir, onlardan üç nəfəri evinə gətirdi. Hz. Peyğəmbər *(s.ə.s)* də on nəfəri özü ilə apardı.[699]

Yaxşlığın, ehsan və qonaqpərvərliyin qəlbləri fəth etmək və ruhlara təsir etmək baxımından nə qədər əhəmiyyətli olduğunu bilən Allah Rəsulu *(s.ə.s)* yenə ümmətinə belə tövsiyə etmişdir:

"Kim sizdən Allah adına sığınacaq istəsə, onu mühafizə edin. Kim sizi dəvət edərsə onunla razılaşın. Kim sizə yaxşılıq edərsə əvəzini verin, əgər əvəzində verəcək bir şey tapmasanız, ona istədiyinin verilmiş olduğunu görənə qədər dua edin".[700]

---

698. İslam tarixində «Suffə» Hz. Peyğəmbərin *(s.ə.s)* məscidinə bitişik tikilən məktəbin adıdır. Burada yaşayan səhabələrə də «Əshabi-Suffə» və ya «Əhli-Suffə» deyilir.
699. Buxari, Məvaqit, 41; Müslim, *Əşribə*, 176-177.
700. Əbu Davud, Zəkat, 38; Nəsai, Zəkat, 72.

Hər vəziyyətdə ehsan və yaxşılıq etmək Rəbbimizin əmri, dinimizin gərəyi və Hz. Peyğəmbərin *(s.ə.s)* tövsiyəsidir. İnsanlara Allahın dinini öyrədərkən və onları Allah Rəsulunun *(s.ə.s)* əxlaqına dəvət edərkən bu peyğəmbərlik düsturundan makisimum dərəcədə istifadə etmək lazımdır.

**4. Sevgi və şəfqət**

Rəsulullah *(s.ə.s)* bir məhəbbət, şəfqət və mərhəmət ümmanıdır. Allah-Təala Hz. Peyğəmbəri *(s.ə.s)* tanıtdırdığı ayələrdən birində möminlərə qarşı şəfqət və mərhəmətlə dolu olduğunu belə bəyan edir:

**"**(Ey Ümmətim!) **sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə, məşəqqətə düşməyiniz ona çox ağırdır, o** (sizin iman gətirməyinizi) **çox istəyir, möminlərə şəfqətli və mərhəmətlidir!".** (Tövbə, 9/128)

Hz. Peyğəmbər *(s.ə.s)* insanlarla asan ünsiyyət qurmaq, onların hallarını, yaşadıqları vəziyyəti qavramaq kimi yüksək məziyyətlərə malik idi. Ədra əs-Süləminin (r.a) nəql etdiyi bu hadisə olduqca təsirlidir:

Bir gecə Rəsulullahın *(s.ə.s)* mühafizəsi üçün növbə tutmağa gəlmişdim. Bu vaxt uca səslə Quran oxuyan bir adam peyda oldu. Bir müddət sonra Hz. Peyğəmbər *(s.ə.s)* çölə çıxdı. Ona:

Ey Allahın Rəsulu! Bu adam riyakardır – dedim.

Həmin adam bir müddət sonra Mədinədə vəfat etdi. Səhabələr dəfn üçün lazımi hazırlıqları tamamladılar, tabutu apardılar. Allah Rəsulu *(s.ə.s)*:

*"Onunla sevgi ilə, şəfqətlə rəftar edin. Allah-Təala onunla sevgi ilə rəftar etdi. Çünki o, Allahı və Rəsulunu sevərdi"* – dedi.

Sonra onun qəbrini qazdırdı və belə buyurdu:

*"Qəbrini geniş tutun, (çünkü) Allah ona bol-bol lütf və ehsan etdi".*

Səhabələrdən biri:

Ey Allahın Rəsulu! Siz bu adamın vəfatına çox kədərləndiniz – dedikdə Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Bəli kədərləndim. Çünki o, Allahı və Rəsulunu sevərdi"* – deyə cavab verdi.[701]

Hz. Peyğəmbər *(s.ə.s)* bütün əshabını sevməklə yanaşı, onları qısqanclığa sövq edən hərəkətlərdən uzaq tutardı. Onun məhəbbəti o qədər zəngin idi ki, bütün insanlar Rəsulullahın *(s.ə.s)* özünü hamıdan çox sevdiyini düşünürdü. O, öz məhəbbəti ilə insanları biri-birinə bağlayar, aralarında sağlam, etibarlı bir müvazinət vasitəsi olardı. Kab ibn Ucrə (r.a) bu ibrət verici hadisəni anlatmaqdadır:

Bir gün Məscidi-Nəbəvidə Allah Rəsulunun *(s.ə.s)* hüzurunda oturmuşduq. Ənsardan, Mühacirlərdən və Haşim oğullarının hərəsindən bir qrup var idi.

Rəsulullah *(s.ə.s)* hansımızı daha çox sevir? – deyə mübahisə edirdik.

Biz Ənsar camaatı:

Allah Rəsuluna *(s.ə.s)* iman etdik, ona tabe olduq, düşmənlərinə qarşı yanında döyüşdük. Buna görə Rəsulullah *(s.ə.s)* bizi daha çox sevir – dedik.

Mühacir qardaşlarımız da:

Allah və Rəsulu uğrunda hicrət etdik. Bu yolda ailəmizdən ayrıldıq, mallarımızdan əl çəkdik, sizin olduğunuz döyüşlərdə biz də iştirak etdik. Buna görə də Allah Rəsulu *(s.ə.s)* bizi daha çox sevir – dedilər.

Haşim oğullarından olan qardaşlarımız da:

Biz Hz. Peyğəmbərin *(s.ə.s)* ən yaxın qohumlarıyıq, sizin olduğunuz yerdə bizdə olduq. Bu səbəbdən Hz. Peyğəmbər *(s.ə.s)* bizi daha çox sevir – dedilər.

Rəsulullah *(s.ə.s)* yanımıza gəldi və bizə xitabən:

*"Siz nə isə deyirdiniz, nədir onlar?"* – dedi.

---

701. İbn Macə, Cənəiz, 41.

Biz də dediklərimizi təkrarladıq. Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Doğru dediniz. Kim bunun əksini iddia edə bilər?"* – dedi.

Mühacir qardaşlarımızın dediklərini ona ərz etdik. Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Onlar da doğru deyir, kim bunun əksini iddia edə bilər?"* – dedikdən sonra Haşim oğullarının dediklərini bildirdik. Bunun əvəzində:

*"Onlar da həqiqəti ifadə edib, kim bunun əksini iddia edə bilər?"* – dedikdən sonra:

Aranızda hökm etməyimi istəyirsinizmi? – deyə soruşdu.

Əlbəttə, ya Rəsulallah! Atalarımız və analarımız sənə fəda olsun – dedik.

Allah Rəsulu *(s.ə.s)*:

*"Siz ey Ənsar Camaatı! Mən sizin qardaşınızam"* – dedi.

Ənsar:

Allahu Əkbər! Kəbənin Rəbbinə and olsun ki, onu biz qazandıq – dedilər.

Rəsulullah *(s.ə.s)*:

*"Ey Mühacir camaatı! Mən sizinəm"* – dedi.

Mühacirlər:

Allahu Əkbər! Kəbənin Rəbbinə and olsun ki, biz də onu qazandıq – dedilər.

Rəsulullah *(s.ə.s)*:

*"Ey Haşim oğulları! Sizə gəlincə, siz məndənsiniz və mənim yanıma gəldiniz"* – dedi.

Haşim oğulları:

Allahu Əkbər! Kəbənin Rəbbinə and olsun ki, biz də onu qazandıq – dedilər.

Hamımız razı halda yerimizdən qalxdıq. Hər bir qrup Allah Rəsulunun *(s.ə.s)* iltifatını hiss etmişdi.[702]

**G. Hadisələrə düzgün yanaşmaq**

Hz. Peyğəmbər *(s.ə.s)* hər hadisəyə həmişə inamla yanaşardı. Onun başqalarından fərqli həyatında maneələrin, ümidsizliyin, həll edilməyən heç bir şeyin əsla yeri yox idi. Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Mömin qulun vəziyyəti nə qədər heyrət edicidir. Onun hər işi xeyirdir. Belə bir xüsusiyyət sadəcə mömində vardır. Başına xeyir iş gələrsə şükr edər, bu da onun üçün xeyirli olar. Yox əgər başına bir müsibət gələrsə səbir edər, yenə də sonunda onun üçün xeyirli olar"*[703] – deyərək ümmətini hadisələri düzgün qiymətləndirməyə dəvət edərdi. Hz. Peyğəmbərin *(s.ə.s)* bu anlayışı, həyatın hər sahəsində, xüsusi ilə də təlim və tərbiyədə daha çox müşahidə edilməkdədir. Ənəsdən (r.a) rəvayət edildiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurdu:

*"Uğursuzluq yoxdur. Mən xeyirə yozmağı üstün tuturam."*

Səhabələr:

Xeyirə yozmaq (təfəül) nədir? – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Gözəl və doğru sözdür"* – dedi.[704]

Urvə ibn Amir (r.a) belə deyir:

Rəsulullahın *(s.ə.s)* yanında uğursuzluqdan danışırdılar. Bunun müqabilində: *"Ən gözəli xeyirə yozmaqdır. Uğursuzluq düşüncəsi gərək heç bir müsəlmanı təşəbbüsündən yayındırmasın. Hər hansı birimiz xoşuna gəlməyən bir şeyi gördüyü zaman: "Allahım! Xeyir və bərəkəti yalnız Sən verirsən. Pislikləri yalnız Sən uzaqlaşdırırsan. Günahdan qaçılacaq güc, ibadət ediləcək qüvvət yalnız Sənin yardımınla əldə edilir"* – deyə dua etsin buyurdu.[705]

---

702. Heysəmi, *Məcməuz-Zəvaid*, X,14.
703. Müslim, Zühd, 64.
704. Buxari, Tibb, 19, Müslim, Salam, 102.
705. Əbu Davud, Tibb, 24.

Allah Rəsulu *(s.ə.s)* xoşumuza gəlməsə belə külək, fırtına və digər təbiət hadisələri haqqında pis danışmamağı, bilavasitə daxilən əmin olmaq üçün Allah-Təalaya dua etməyi tövsiyə etmişdir.[706]

Rəsulullahın *(s.ə.s)* tövsiyə etdiyi «xeyirə yozma", «uğurlu saymaq" belə vəziyyətlərdə hər bir müsəlmanın müraciət edə biləcəyi ən gözəl yoldur. Hz. Peyğəmbər *(s.ə.s)* bir müddət nəticəsi bilinməyən Hüdeybiyyə sazişi əsnasında müşriklərin adından Süheyl ibn Amirin təmsilçi olaraq gəldiyini gördükdə onun adını (Süheyl) "asanlıq" mənasına yozaraq, *"İşiniz asanlaşdı"* – demişdir.[707]

Həyatda hadisələr və insanlar haqqında daim hüsnü-zənndə olmaq lazımdır.

Hz. Peyğəmbərin *(s.ə.s)* hadisələrə müsbət yanaşmasının bir örnəyi də budur:

Müaviyə ibn Hakəmin qoyunlarını otaran bir xidmətçisi var idi. Bir gün qoyunlardan birini canavar apardı. Bunu eşidən Müaviyə çox qəzəbləndi və qızcığazın üzünə sillə vurdu. Sonra da etdiyinə peşman oldu. Rəsulullahla *(s.ə.s)* söhbətində bu mövzunu açdı. Hz. Peyğəmbər *(s.ə.s)* ona qarşı haqsızlıq etdiyini dedikdə:

Ya Rəsulallah! O halda xidmətçini azad etsəm olarmı? – deyə soruşdu.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Onu mənim yanıma gətir"* – dedi

Müaviyə dərhal gedib xidmətçini gətirdi.

Hz. Peyğəmbər *(s.ə.s)* ona:

*"Allah haradadır?"* – deyə soruşdu.

O da:

Göydə! – dedi.

706. Müslim, İstisqa, 15.
707. Buxari, Şurut,15.

Hz. Peyğəmbər *(s.ə.s)* təkrar soruşdu:

*"Mən kiməm?"*

Xidmətçi:

Rəsulullahsan – dedi.

O zaman Allah Rəsulu Müaviyəyə çevrilərək:

*"Onu azad et, çünki mömindir"* – dedi. Müaviyə də onu azad etdi.[708]

Hz. Peyğəmbər *(s.ə.s)* burada öz ağıl və elm səviyyəsinə görə suallara cavab verən və tövhid əqidəsini qəbul etdiyini bəyan edən qızcığazın şəhadətini qəbul edərək onu bir mömin kimi təsvir etmiş, sonda da şəfqət və mərhəmətlə onu azadlığa qovuşdurmuşdur.

Hz. Peyğəmbərin *(s.ə.s)* hadisələrə müsbət yanaşması onun yuxuları yozmasında da özünü göstərir. Bir gün Hz. Abbasın xanımı Ümmül-Fadl, Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib:

Mən bu gecə bir yuxu gördüm – dedi

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Nə gördün?"* – deyə soruşdu.

Ümmül-Fadl:

Çox dəhşətli və qorxulu bir yuxu! – dedi.

Allah Rəsulu *(s.ə.s)*:

*"De görüm nə görmüsən?* – deyə buyurduqda Ümmül-Fadl:

Sənin bədəninin bir parçasının kəsilib mənim evimə qoyulduğunu gördüm – dedi. Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*: *"Xeyir görmüsən inşallah! Fatimə bir oğlan uşağı dünyaya gətirəcək, sən də ona oğlun Kusəmin südünü əmizdirəcəksən"* – dedi. Bir müddət sonra Hz. Hüseyn dünyaya gəldi. Ümmül-Fadl onun süd anası oldu.[709]

708. Müslim, Məsəcid, 33.
709. Hakim, *Müstədrək*, III, 194; İbn Sad, *ət-Təbəqatul-Kubra*, VIII, 278-279.

Rəsulullah *(s.ə.s)* yuxuları pisə, uğursuzluğa yozmaqdan çəkindirərək:

*"Yuxular üç cürdür. Biri Allahdan müjdədir. Biri nəfsin danışmasıdır. Biri də şeytanın vəsvəsəsidir. Biriniz xoşuna gələn bir yuxu gördükdə, istəsə onu başqalarına danışsın. Əgər xoşuna gəlməyən bir şey görərsə, onu heç kimə danışmasın. Qalxıb namaz qılsın"* – buyurmuşdur.[710]

Davamlı olaraq xeyirə yozmaq, xeyri düşünmək insanın mənəvi, psixoloji vəziyyətini rahat etdiyi kimi, hadisənin də bu istiqamətdə təcəlli etməsinə təsir göstərir.

**Ğ. Qabiliyyətlərin kəşfi**

Allah-Təala insanları fərqli xasiyyət, istedad və qabiliyyətlərdə yaratmışdır. Hər kəs öz xislətinə görə hərəkət edər və iş görər. Bu həqiqət ayədə belə xəbər verilməkdədir:

"**De ki: "Hərə öz qabiliyyətinə** (xislətinə) **görə iş görər. Rəbbiniz kimin doğru yolda olduğunu daha yaxşı bilir!".** (İsra, 17/84)

Yəni hər bir insan təbiətinə, əxlaqına, qabiliyyətinə və vəziyyətinə görə hərəkət edər, öz hissiyyatına görə iş görər.

Digər bir ayədə insanların müxtəlif istedadlarla yaradıldığı, bunun ictimai həyatda tarazlığın təmin olunması məqsədini daşıdığı bildirilir.

**"**(Ya Məhəmməd!) **Məgər sənin rəbbinin mərhəmətini (peyğəmbərliyi) onlarmı paylaşdırırlar?! Dünyada onların dolaşacaqlarını öz aralarında Biz bölüşdürdük. Biri o birinə iş gördürsün deyə, birinin dərəcəsini digərindən üstün etdik. Sənin Rəbbinin mərhəməti onların yığdıqları dünya malından daha yaxşıdır!". (**Zuxruf, 43/32**)**

Allah Rəsulu *(s.ə.s)* belə buyurmuşdur:

---

710. İbn Macə, Tabir, 3.

*"Siz insanları mədənlər (kimi müxtəlif) görürsünüz. Onların cahiliyyə dövründə xeyirli və dəyərli olanları dini hökmləri yaxşı dərk etsə İslamiyyət dövründə də xeyirlidirlər".*[711]

Ayələrin işarə etdiyi və Rəsulullahın *(s.ə.s)* buyurduğuna görə insanlar mədənlər kimidir. Bəziləri qızıl dəyərində, bəziləri gümüş dəyərində, bəzisi mis, bəzisi də kömür dəyərindədir. Buna görə də onların qabiliyyət, məharət və istedadları da fərqlidir. Birində olan üstünlük o birində olmaya bilər. Hansı insanda hansı qabiliyyətin olduğunu kəşf etmək və bunları üsuluna uyğun olaraq inkişaf etdirmək elə də asan məsələ deyil. Allah Rəsulu *(s.ə.s)* bu xüsusi qabiliyyətinə görə də ən yüksək zirvədədir. Hz. Peyğəmbər *(s.ə.s)* bəsirət və fərasəti ilə həmsöhbətlərinin sirli dünyalarını görə bilir, o dərinliklərdə hansı incilərin, hansı cövhərlərin gizləndiyini, bunların üzə çıxarılması yollarını çox yaxşı bilirdi.

Hz. Əbu Bəkrlə Hz. Ömərin, Hz. Osman və Hz. Əlinin, Hz. Bilal və Hz. Musabın xarakter və qabiliyyətləri eyni deyildi. Amma hər biri öz istedadına görə ulduz ola biləcək bir mükəmməllikdəydi. Hər biri Allah Rəsulunun *(s.ə.s)* mübarək əllərindən tutaraq pillə-pillə fəzilət nərdivanına çıxdılar, zirvələrə yüksəldilər. Hz. Əbu Bəkir təslimiyyətin, məhəbbətin, Allah yolunda malından və canından keçmənin, Hz. Ömər ədalətin və igidliyin, Hz. Osman həya və mülayimliyin, Hz. Əli qəhrəmanlıq və elmin timsalı oldu. Hz. Bilal Qiyamətə qədər gələcək müəzzinlərin başçısı titulunu alarkən, Musab bin Ümeyr də "Quran" müəllimi kimi bir rütbə ilə şərəfləndi.

Hz. Peyğəmbər *(s.ə.s)* ona inanan və qəlbən bağlanan hər bir səhabəsi ilə şəxsən maraqlanar, qabiliyyətlərini kəşf edərək inkişaf etdirər, tərbiyələndirib yetişdirərdi.

Əbdül-Qeys heyəti Mədinəyə gəlmişdi. Heyətin başçısı Abdullah bin Əvf, Hz. Peyğəmbərin *(s.ə.s)* yanına getməmişdən əvvəl səfər paltarını çıxartdı, gözəl və təmiz paltar geyindi. Başqaları isə paltarlarını dəyişmədən birbaşa Hz. Peyğəmbərin

---

711. Buxari, Mənəqib,1; Müslim, Fədailus-Səhabə, 199.

*(s.ə.s)* yanına getdilər. Allah Rəsulu *(s.ə.s)* onlara xoş gəldiniz - deyib dua etdikdən sonra:

*"Abdullah əl-Əşəc hansınızsınız?"* – deyə soruşdu.

Abdullah ibn Əvf:

Ya Rəsulallah, mənəm – dedi.

Abdullah zahiri görünüşünə görə çox çirkin adam idi. Allah Rəsulu *(s.ə.s)* ona baxanda o:

– Ya Rəsulallah, insanın dərisindən tuluq düzəldib ondan su içilməz ki! İnsanın sadəcə iki kiçik şeyinə dəyər verilir, bunlar dil və qəlbdir! – dedi.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Abdullah! Səndə Allahın sevdiyi iki xarakter var"* – dedi.

Abdullah bunların nə olduğunu soruşduqda:

*"Səbir və mülayimlik"* – buyurdu.

Abdullah:

Ey Allahın Rəsulu! Bu xüsusiyyətlər məndə sonradan oldu, yoxsa mən belə yaradıldım? – deyə soruşdu.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Sən belə bir əxlaqla yaradıldın!"* – dedi.[712]

Gənclərin öz qabiliyyətlərindən lazımi şəkildə istifadə edə bilmələri üçün onlara imkan verməli və yolları açılmaldır. Bununla bağlı İbn Ömərdən (r.a) belə nəql edilir:

Rəsulullah *(s.ə.s)* ilə bir səfərdə idik. Mən atam Ömərə aid gənc bir dəvənin üstündə idim. Onu ram edə bilmədiyimə görə dəvə qövmün önünə keçib durdu. Atam bundan narahat oldu və dəvəni geri çəkərək mənə: Ona sahib ol! Allah Rəsulunun *(s.ə.s)* önünə keçməsin – dedi.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Ey Ömər onu mənə satarsanmı?"* – dedi.

---

712. İbn Sad, *ət-Təbəqatul-Kubra*, I, 314, V, 557-560.

Atam:

Dəvə sizindir ya Rəsulallah! – deyərək dəvəni ona verdi.

Bundan sonra Hz. Peyğəmbər *(s.ə.s)* mənə belə buyurdu:

*"O sənindir ey Abdullah! Ondan istədiyin kimi istifadə et".*[713]

Hz. Peyğəmbər *(s.ə.s)* bu gözəl hərəkəti ilə gənclərin təzyiq altında qalmamalarının, onların qabiliyyətlərini inkişaf etdirmək üçün qanuni çərçivədə sərbəst buraxılmalarının lazım olduğunu göstərmişdir.

Uqabə ibn Amir (r.a) belə deyir:

İki nəfər gəlib problemlərini Hz. Peyğəmbərə *(s.ə.s)* ərz etdilər.

Hz. Peyğəmbər *(s.ə.s)* mənə:

*"Qalx ey Uqabə! İkisi arasında hökm ver!"* – dedi.

Mən:

Ya Rəsulallah! Buna siz məndən daha çox layiqsiniz – dedim.

Allah Rəsulu *(s.ə.s)*:

*"Elə olsa belə ikisi arasında sən hökm ver. Bütün səyini sərf edərək doğru qərar versən on savab, yanılsan bir savab vardır"* – buyurdu.[714]

Ümumiyyətlə, ictimai həyat üçün hər bir vəzifə uyğun şəkildə icra edilməlidir. Bunun həyata keçməsi üçün də bilavasitə etibarlı, ləyaqətli məharətli və işininəhli insana ehtiyac vardır. Bu səbəbdən təhsil sistemləri insanları yetişdirəcək tərzdə tənzimlənməlidir. Ayrıca istedadlar kiçik yaşlarda müəyyənləşdirilməli, insanlar bu nəticələrə görə müxtəlif peşələrə, və məsləklərə yönəldilməlidirlər.

Allah Rəsulunun *(s.ə.s)* tələbkarlıqla tətbiq etdiyi qabiliyyətləri kəşf edib mükəmməlləşdirmək, təlim və təbliğ fəaliyyətimizin təməl əsaslarından biri olmalıdır. Faydalı insan ye-

713. Buxari, Büyü, 47.
714. Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 205.

tişdirmək və xüsusi ilə də insan israfının qarşısını almaq üçün buna ehtiyac vardır.

**H. Sual-cavab metodundan istifadə etmək**

Allah Rəsulu *(s.ə.s)* səhabələri ilə ünsiyyətdə olarkən, onları təfəkkürə sövq etmək üçün suallar verərdi. İstədiyi əlverişli an gəldikdə isə öyrətmək istədiyi şeylərdən bəhs edərdi. Bunun Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ və təlim həyatında çox gözəl nümunələri var.

**1. Suallara cavab vermək**

Səhabələr Allah Rəsuluna *(s.ə.s)* sual verərək məsələləri öyrənmək, qarşılaşdıqları problemləri və şübhələri həll etmək, beləliklə həm elmlərini, həm də imanlarını artırmaq üçün çalışardılar. Hz. Peyğəmbər *(s.ə.s)* də hər birinin sualına qənaətbəxş cavab verərdi. Bu ilahi metoddur. Allah-Təala bu metodu Allah Rəsuluna *(s.ə.s)* Cəbrayıl vasitəsi ilə öyrətmişdir. Səhabələrə dinlərini təlim etmək üçün gələn Hz. Cəbrayıl sual-cavab üsulundan istifadə etmişdir. Mövzumuzla bağlı misallardan biri «Cibril hədisi" olaraq bilinən hədisdir. Hz. Ömər belə nəql edir:

Bir gün Rəsulullahın *(s.ə.s)* hüzurunda olduğumuz vaxt ağ paltarda, saçları qapqara, yolçu təsiri bağışlayan, heç kəsin tanımadığı bir adam gəldi Hz. Peyğəmbərin *(s.ə.s)* yanına yaxınlaşdı, önündə oturdu, dizlərini Hz. Peyğəmbərin *(s.ə.s)* dizlərinə söykədi, əllərini dizlərinin üstünə qoyub:

Ey Muhamməd! İslam nədir? - deyə soruşdu.

Rəsulullah *(s.ə.s)*:

*"İslam Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın rəsulu olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, Ramazan orucunu tutmaq, yoluna gücün çatsa həcc etməkdir"* – deyə cavab verdi.

Adam:

Doğru söylədin – dedi.

Onun həm soruşub, həm də təsdiq etməsi bizə qəribə gəldi. Sonra:

Yaxşı, iman nədir? – dedi.

Rəsulullah *(s.ə.s)*:

*"Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmaqdır. Qədərə, xeyrinə və şərrinə Allahdan olduğuna iman etməkdir"* – deyə cavab verdi.

Adam təkrar:

Doğru söylədin – deyə təsdiq etdi və:

Ehsan nədir? – deyə soruşdu.

Rəsulullah *(s.ə.s)*:

*"Ehsan, onu görürmüş kimi Allaha ibadət etməyindir. Hər nə qədər sən onu görməsən də, O, səni mütləq görməkdədir"* – deyə cavab verdi.

Adam yenə:

Doğru dedin deyə təsdiq etdi və sonra da:

Qiyamət nə zaman qopacaq? – deyə soruşdu.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Bu mövzuda soruşulan soruşandan çox bilmir"* – deyə cavab verdi.

Adam:

Onda əlamətlərini söylə – dedi.

*"Anaların onlara kəniz münasibəti bəsləyəcək uşaqlar dünyaya gətirməsi, yalın ayaq, başı keçəl və çılpaq qoyun çobanlarının, yüksək binalar tikməkdə bir-biriləri ilə yarışmalarıdır"* – dedi.

Gələn adam (səssizcə) çıxıb getdi. Mən bir müddət donub qaldım. Daha sonra Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Ey, Ömər, sual verən adamın kim olduğunu bilirsənmi?"* – deyə soruşdu.

Mən:

Allah və Rəsulu yaxşı bilir – dedim.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"O, Cəbrayıl idi. Sizə dininizi öyrətməyə gəlmişdi"* – dedi.[715]

Hədisdə təlim-tərbiyə və təbliğ fəaliyyətlərində diqqət edilməsi lazım olan xüsuslar bildirilir.

Sual verəni dinləmək, fikrini öyrənmək zəruridir. Belə davranıldığı təqdirdə həmsöhbət çəkinmədən suallarını verə bilər.

Sual verən şəxs suallarını nəzakətli, ədəbli və nəcib bir şəkildə verməlidir.

Sual-cavab metodu ilə bəzi məsələlər daha yaxşı başa düşülür.

Hz. Peyğəmbər *(s.ə.s)* İslam dininin bir çox qayda və hökmünü səhabələrin soruşduğu suallara cavab verməklə öyrətmişdir. Hətta, Hz. Peyğəmbər *(s.ə.s)* onları səmimi niyyətlə sual verməyə həvəsləndirərək:

*"Cəhalətin dərmanı soruşmaqdır"* – deyərdi.[716]

Bununla bərabər lazımlı-lazımsız hər şeyi soruşmaq da qadağan edilmişdir. Ümumiyyətlə, o dövrdəki bəzi insanlar sırf rişxənd olsun deyə, bəziləri Hz. Peyğəmbəri *(s.ə.s)* imtahan etmək üçün, bəziləri də həqiqətən bilmədiklərinə görə qəribə suallar verirdilər. Məsələn, "Atam kimdir?", "İtən dəvəm haradadır?" kimi suallar bunlardandır.[717]

Bir rəvayətə görə də **"Onun yoluna** (ərzaq, minik və sağlamlıq baxımından) **gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur..."** (Ali-İmran, 3/97) ayəsi nazil olduqda Hz. Peyğəmbərə *(s.ə.s)*:

*"Ey Allahın elçisi, hər il?* – deyə soruşdular.

Rəsulullah *(s.ə.s)* susdu, cavab vermədi.

---

715. Müslim, İman, 1, 5; Buxari, İman, 37.
716. Əbu Davud, Təharət, 125.
717. Buxari, Təfsir, 5/12.

İkinci dəfə:

Ey Allahın elçisi, hər il? – dedilər.

*"Xeyr! Bəli desəydim, hər il fərz olacaqdı"* – demişdir.[718]

Beləliklə bu cür suallar verən şəxslər haqqında bu ayə nazil oldu:

**"Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında "Quran" nazil edildikdə soruşsanız, onlar sizə aydın olar.** (Lakin pis vəziyyətdə qalar kədərlənərsiniz) **Allah onları** (indiyə qədər verdiyiniz bu cür sualları) **bağışladı. Allah bağışlayan və həlimdir!** (Bəndələrinə əzab verməkdə tələsən deyildi!) **Sizdən əvvəl bir tayfa** (belə lüzumsuz şeyləri) **soruşmuş, sonra da buna görə** (onlara aid olan hökümləri inkar edib yerinə yetirmədikləri üçün) **kafir olmuşdu".** (Maidə, 5/101-102)

Nəticə etibarı ilə mədinəli müsəlmanların əksəriyyəti Hz. Peyğəmbərə *(s.ə.s)* qarşı qəlblərindəki dərin məhəbbət və təzim səbəbi ilə ona sual verməkdən çəkinərdilər. Belə ki, kənar bir şəxsin və ya bədəvinin gəlib müxtəlif mövzularda suallar verməsini gözləyərdilər.

Nəvvas ibn Səman (r.a) belə deyir:

Mədinədə Rəsulullahın *(s.ə.s)* yanında bir il (qonaq) qaldım. Ona sual verə bilmək üçün (xüsusilə) Mədinəyə hicrət etmirdim. Hz. Peyğəmbərdən *(s.ə.s)* bir dəfə yaxşılıq və günahın nə olduğunu soruşdum. O da buna cavab olaraq:

*"Yaxşılıq əxlaq gözəlliyidir. Günah isə içində gizlətdiyin və insanların bilməsini istəmədiyin şeylərdir".*[719]

Nəvvasın Mədinəyə hicrət etməməyinə səbəb Hz. Peyğəmbərə *(s.ə.s)* sual verə bilmək arzusu idi.

Xülasə, sual vermək elmin açarı, cəhalət xəstəliyinin dərmanıdır.

---

718. Tirmizi, Təfsir, 5/15.
719. Müslim, Birr, 14-15.

**2. İzah etmək üçün sual vermək**

Hz. Peyğəmbər *(s.ə.s)* bir məsələyə diqqət çəkmək üçün çox vaxt sual verər, daha sonra da bunu izah edərdi. Bir gün yanında olanlara:

*"Müflis (iflasa uğrayan) bilirsinizmi kimdir?"* – deyə soruşdu.

Əshab:

Bizim nəzərimizdə müflis, pulu və malı-dövləti olmayan kimsədir - dedilər.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Şübhəsiz ki, ümmətimin müflisi qiyamət günü namaz, oruc və zəkat savabı ilə gələn, amma birisinə söydüyünə, bir başqasına zina böhtanı atdığına, onun-bunun malını yediyinə, bir başqasının qanını tökdüyünə, onu-bunu döydüyünə görə etdiyi yaxşılıqların savabını ona-buna verən, üstündəki qul haqları bitmədən savabları bitən, qalan haqlara görə də haqq sahiblərinin günahları ilə yüklənən, sonra da cəhənnəmə atılan kimsədir"* – dedi.[720]

Hz. Peyğəmbərin *(s.ə.s)* sorğu-sual metoduna misal olacaq bir hadisəni Muaz ibn Cəbəl (r.a) belə nəql edir:

Mən Rəsulullahın *(s.ə.s)* tərkinə minmişdim. Mənə:

*"Ey Muaz! Allahın qulları üzərindəki, qulların da Allah üzərindəki haqları bilirsən nədir?"* – deyə soruşdu.

Mən:

Allah və Rəsulu daha yaxşı bilir dedim. Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Allahın qulları üzərindəki haqqı onların sadəcə Allaha qulluq etmələri və heç bir şeyi Ona şərik qoşmamalarıdır. Qulların da Allah üzərindəki haqqı, Ona heç bir şeyi şərik qoşmayanlara əzab etməməsidir"* – dedi.

Dərhal mən:

Ey Allahın Rəsulu! Bu dediklərinizi insanlara müjdələyimmi? – dedim.

720. Müslim, Birr, 59; Tirmizi, Qiyamət, 2.

*"Müjdələmə, onlar buna arxayın olub tənbəllik edərlər"* – dedi.[721]

Allah Rəsulu *(s.ə.s)* burada həm bir həqiqəti bildirməkdə həm də insanların idrak səviyyələrini nəzərə alaraq onları tənbəlliyə sövq edəcək şeylərdən bəhs etməməyə çağırmaqdadır.

Hz. Peyğəmbər *(s.ə.s)* hər hansı bir hərəkət və ya təbəssüm edər, sonra da nəyə görə bu hərəkəti etdiyini yanındakılardan soruşar və cavabını deyərdi. Ənəs ibn Malik belə nəql edir:

Bir gün Allah Rəsulu *(s.ə.s)* təbəssüm etdi və:

*"Mənim niyə təbəssüm etdiyimi bilirsinizmi?"* – dedi.

Daha sonra sözünə belə davam etdi:

*"Bir qulun qiyamət günü Rəbbi ilə mübahisəsinə təəccübləndim".*

Bəndə:

Ey Rəbbim, mənə zülm etməyəcəyini vəd etməmişdinmi? – deyir.

Allah-Təala:

Bəli – deyir.

Bəndə:

Mən haqqımda özümdən başqa heç kimin şəhadətini qəbul etmərəm – deyir.

Allah-Təala:

Mən və kiramən-katibin mələklərinin (hər bir insanın savab və günahını qeyd etmək üçün onun sağ və sol çiyinlərində qərar tutan iki mələk) şahidliyi kifayət etməzmi? – deyə soruşur

Bəndə əvvəl dediyi sözü təkrarlayıb durur. Dərhal ağzına möhür vurulur, əzaları etdiyi əməlləri danışmağa başlayır. Bunun müqabilində qul:

Heyf, ar olsun sizə! Sizə yazığım gəlir. Məndən uzaq olun. Mən sizi müdafiə etməyə çalışıram (Siz isə hər şeyi danışırsınız) – deyir.[722]

721. Buxari, Cihad, 46; Müslim, İman, 48-49.
722. Hakim, *Müstədrək*, IV, 644.

Səhabələr də Hz. Peyğəmbərdən *(s.ə.s)* sonra insanlara onun davrandığı kimi davranmağa və hər xüsusda onu təqlid etməyə çalışmışlar.

Bir gün Hz. Osman su istəyib dəstamaz alır, gülür və sonra da yoldaşlarına:

*"Nəyə görə güldüyümü soruşmayacaqsınız?"* – deyir.

Onların suallarına cavab olaraq belə söyləyir:

Bir gün Allah Rəsulu *(s.ə.s)* bu qədər su istədi. Mənim kimi dəstəmaz aldı və güldü. Sonra da:

*"Nəyə görə güldüyümü soruşmayacaqsınız?"* – dedi.

Soruşduğumuzda bu izahatı verdi:

*"Qul dəstəmaz almaq üçün su ilə üzünü yuduğu zaman Allah-Təala üzü ilə etdiyi günahları silər ki, bütün üzvlər də bu şəkildədir".*[723]

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən də əshabını saleh əməllər işləməyə təşviq etmək üçün suallar verərdi. Əbu Ümmamədən nəql edildiyinə görə bir gün Allah Rəsulu *(s.ə.s)* yanında olan səhabələrə:

*"İçərinizdə bu gün oruc tutan varmı?"* – deyə soruşdu.

Hz. Əbu Bəkir:

Ya Rəsulallah! Mən orucluyam – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Bu gün kim cənazə namazında iştirak etdi?"* – deyə soruşdu.

Hz. Əbu Bəkir:

Mən ya Rəsulallah! – dedi

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Bu gün kim bir yoxsulu doydurdu?"* – deyə soruşdu.

Hz. Əbu Bəkir:

Mən ya Rəsulallah! – dedi.

723. Heysəmi, *Məcməuz-Zəvaid*, I, 22.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Bu gün xəstə ziyarətinə gedən var?"* – deyə soruşdu.

Hz. Əbu Bəkir:

Mən ya Rəsulallah! – dedi.

Bunun müqabilində Allah Rəsulu *(s.ə.s)* belə dedi:

*"Kim bu saleh əməllərin hamısını bir yerə cəmləşdirərsə o, mütləq cənnətə girər"*.[724]

**3. Sual verəni istiqamətləndirmək**

Səhabələr bəzən Hz. Peyğəmbərə *(s.ə.s)* bir mövzu ilə bağlı suallar verər, o isə müxtəlif səbəb və hikmətlərlə onu başqa tərəfə istiqamətləndirərdi. Bunun bir misalını bu ayədə görürük:

**"**(Ya Məhəmməd!) **Yeni doğan aylar** (hilal) **barəsində səndən sual edildikdə. Söylə ki, bunlar insanların istifadəsi və həcc üçün vaxt ölçüləridir..." (**Bəqərə, 2/189**)**

Səhabələr:

Ey Allahın Rəsulu! İlk dəfə aya baxdıqda onun ip kimi olduğunu, böyüyüb yuvarlaqlaşdığını, sonra təkrarən kiçilib əvvəlki kimi incə olduğunu görürük. Bəs nəyə görə ay bir vəziyyətdə durmur? – dedilər. Bununla bağlı yuxarıdakı ayə nazil oldu.[725]

Səhabənin ay haqqında soruşduğu bu sual ayın fiziki quruluşu ilə bağlı ikən ayə onun insan həyatındakı funksiyasına diqqət çəkmişdir.

Ənəs bin Malik (r.a) belə rəvayət edir: «Bir gün bir adam Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlib:

Ya Rəsulallah! Qiyamət nə zaman qopacaq? - deyə soruşdu.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Qiyamət üçün nə hazırladın?"* – deyə suala sualla cavab verdi.

724. Müslim, Fədailus-Səhabə, 12
725. Vahidi, Əsbəbun-Nüzul, s. 56.

Həmən adam:

Qiyamət üçün həddindən çox namaz, oruc və sədəqə hazırlaya bilmədim, amma Allah və Rəsulunu çox sevirəm – dedi.

Bunu eşidən Allah Rəsulu *(s.ə.s)*:

*"Sən sevdiklərinlə birlikdə olacaqsan!"* – dedi.[726]

Hz. Peyğəmbər *(s.ə.s)* bu sualı verən səhabəsini, Allah-Təalanın heç kimə bildirmədiyi qiyamətin nə zaman qopacağını öyrənməkdən daha çox özünə faydalı olan axirəti üçün saleh əməllər hazırlamağa istiqamətləndirmiş, diqqətini bu nöqtəyə cəlb etmişdir.

Yenə səhabələr Rəsulullahdan *(s.ə.s)*:

Ya Rəsulallah! Əməllərdən hansı daha fəzilətlidir? – deyə soruşdular.

O:

*"Allahı tanımaq!"* – deyə cavab verdi.

Hansı əməl insanın dərəcəsini artırar? – deyə soruşdular. Yenə:

*"Allahı tanımaq!"* – deyə cavab verdi.

Bunun müqabilində:

Ya Rəsulallah! Biz əməli soruşuruq. Siz isə elmdən bəhs edirsiniz! – dedikdə Rəsulullah *(s.ə.s)*:

*"Allahı tanıyaraq edilən az əməl fayda verər, amma cəhalətlə edilən çox əməl fayda verməz"* – deyə cavab verdi.[727]

726. Buxari, Əshabin-Nəbi, 6.
727. Münəvi, *Feyzul-Qadir*, IV, 668.

**4. Sual verənin sualına daha ətraflı cavab vermək**

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən sual verənin sualına daha ətraflı cavab verərdi. Əbu Hüreyrdən (r.a) belə nəql edilmişdir. Bəni Mudlic qəbiləsindən bir nəfər Hz. Peyğəmbərə *(s.ə.s)* belə sual verdi: "Ya Rəsulullah! Biz dəniz səyahətinə (yolçuluğuna) çıxırıq. Yanımıza içmək üçün su götürürük. Bu su ilə dəstəmaz alsaq susuz qalarıq. Dəniz suyu ilə dəstəmaz ala bilərik?" Hz. Peyğəmbər *(s.ə.s)* ona belə cavab verdi: *"Dənizin suyu təmiz, ölüsü halaldır"*.[728]

Hədisdən göründüyü kimi Hz. Peyğəmbər *(s.ə.s)* dəniz suyu ilə dəstəmazın hökmünü soruşan şəxsə daha ətraflı cavab vermişdir. Əlavə olaraq beynində sual yaranma ehtimalını nəzərə alaraq dəniz ölülərinin hökmünü də bildirmişdir.

**5. Hökmü tam ifadə etmək üçün sual soruşandan sualını təkrarlamasını istəmək**

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən sual verənin sualını təkrarlamasını istəyərdi.

Əbu Qatadə Haris ibn Rəbidən (r.a) rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* əshabın arasında ayağa qalxaraq onlara əməllərin ən üstününün Allah yolunda cihad və Allaha iman olduğundan bəhs etdi. Əshabdan bir nəfər ayağa qalxaraq:

– Ya Rəsulallah, əgər mən Allah yolunda öldürülsəm, bu şəhidlik günahlarıma kəffarə olar? – deyə soruşdu. Rəsulullah *(s.ə.s)*:

– *"Bəli, əgər səbir edərək, qarşılığını yalnız Allahdan umaraq, cəbhədən qaçmadan Allah yolunda öldürülsən, günahlarına kəffarə olar"*, – buyurdu.

Sonra Rəsulullah *(s.ə.s)*:

– *"Necə demişdin?"* – deyə soruşdu. Həmin adam dedi:

– Əgər Allah yolunda öldürülsəm, bu şəhidlik günahlarıma kəffarə olar?

728 .Əbu Davud, Kitabut-Təharə, 21.

Rəsulullah *(s.ə.s)*:

– *"Bəli, əgər səbir edərək, əcrini yalnız Allahdan gözləyərək və cəbhədən qaçmadan Allah yolunda öldürülsən, günahlarına kəffarə olar. Ancaq borcların bundan müstəsnadır. Bunu mənə Cəbrayıl dedi"*, – buyurdu.[729]

**X. Təşbeh, təmsil və müqayisə etmək**

Allah Rəsulu *(s.ə.s)* anlatmaq istədiyi məsələlərin qavranılması üçün təşbeh, təmsil, və müqayisələr edər, insanların hiss etdikləri, gözləri ilə görüb əlləri ilə tutduqları şeylərdən misallar verərdi.

"**Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər** (Tövrata iman gətirdikdən, onu oxuyub öyrəndikdən sonra hökmlərini lazımınca yerinə yetirməyənlər) **belində çoxlu kitab daşıyan** (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) **ulağa bənzərlər** (Məhəmməd əleyhissəlamın həqiqi peyğəmbər olmasına dair) **Allahın ayələrini yalan sayanlar barədə çəkilən məsəl necə də pisdir! Allah zalim** (kafir) **qövmü doğru yola yönəltməz!".** (Cumuə, 62/5)

Allah-Təala bu misalla, özlərinə "Tövrat" öyrədilmiş amma, içindəkiləri anlayıb lazımi şəkildə əməl etməyən yəhudilərin vəziyyətindən bəhs etməkdədir.

Bu üslubdan istifadə edilməyin hikməti belə bəyan edilir:

**"Biz bu Quranda insanlar üçün hər cür məsəl çəkdik ki, bəlkə, öyüd-nəsihət qəbul etsinlər!".** (Zumər, 39/27)

**"Biz bu məsələləri insanlar üçün çəkirik ki, bəlkə, düşünələr".** (Həşr, 59/21)

Əbu Musa əl-Əşaridən (r.a) rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurmuşdur:

*"Allahın mənimlə göndərmiş olduğu hidayət və elm, yer üzünə yağan bol yağışa bənzər. Yağışın yağdığı yerin bir hissəsi məhsul-*

729. Müslim, İmarə, 117.

*dar torpaqdır. Yağış suyunu özünə çəkər, gur çəmən və ot bitirər. Bir hissəsi də suyu özünə çəkib üzərində saxlayan qeyri məhsuldar bir yerdir. Allah bura yığılan su ilə insanlara fayda verir. Həm özləri içir, həm heyvanları sulayır, həm də əkinlərini suvarırlar. Yağışın yağdığı bir yer daha vardır ki, düz və heç bir bitki bitməyən ərazidir. Nə su saxlayar, nə də ot bitirər. Bu Allahın dinində anlayışlı olan və Allahın mənimlə göndərdiyi hidayət və elmlə özünə fayda verən, onu həm öyrənən, həm də öyrədən kəslə, Allahın mənimlə göndərdiyi hidayəti qəbul etməyən, buna başını qaldırıb qulaq asmayan kəsin misalıdır."*[730]

Bu hədisi-şərifdə Hz. Peyğəmbər *(s.ə.s)* Allah-Təalanın göndərdiyi dini, insanların ehtiyacı olan bir zamanda üstlərinə yağan bol yağışa bənzətməkdədir. Yağış ölü torpağı diriltdiyi kimi, İslami həqiqətlər də ölü qəlbləri dirildir. Hz. Peyğəmbər *(s.ə.s)* insanları mənəvi həqiqətləri qəbul etmə baxımından, üç cür torpağa bənzətməkdədir. Allah Rəsulu *(s.ə.s)* belə bir təmsillə, elmdən faydalanma və elmi yayma mövzularını çox gözəl izah etmişdir.

Nüman bin Bəşirdən (r.a) rəvayət edildiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurmuşdur:

*"Allahın hüdudlarına riayət edənlə, səhlənkarlıq edən kimsənin halı, mindikləri gəminin göyərtəsini bölüşmək üçün püşk atan bir qrup insanın halına bənzəyir. Püşk nəticəsində bir qrup aşağıya, bir qrup da yuxarıya yerləşər. Aşağıdakılar, su ehtiyaclarını qarşılamaq üçün göyərtəyə çıxarlar və su götürdükləri vaxt oradakıları narahat edərlər. Bundan xilas olmaq üçün aşağıda olanlardan biri balta ilə gəmini dəlməyə başlayar. Göyərtədəkilər ondan soruşarlar: Nə üçün belə edirsən? O, isə belə cavab verir: Su götürərkən sizə əziyyət veririk; Suya da ehtiyac duyuruq. Əgər onlar buna mane olsalar, həm özlərini, həm də onları xilas edərlər. Əgər mane olmasalar həm özləri, həm də onların hamısı suda boğularlar".*[731]

Cəmiyyətdəki günah və pisliklərə biganə qalmaq da eyni ilə bunun kimi həlak səbəbidir. İnsan fərd olaraq özünü mühafizə etsə belə, digər insanları doğru yola istiqamətləndirmək məsuliyyətindən boyun qaçırmaqla cəzasını həm bu dünyada,

730. Buxari, Elm, 320; Müslim, Fədail, 15.
731. Buxari, Şəhadət, 30; Tirmizi, Fitən, 12.

həm də axirətdə çəkəcəkdir. Pisliyin yayılmış olduğu toplumda dünyaya gələn nəsillər də özlərini o axına sürükləyər, fitnə-fəsad, pozğunluq və iğtişaş artar və böyüyər. Məhz yaxşılığı əmr edib pisliklərdən çəkindirmək müsəlmanların ən mühüm vəzifələrindən biridir. Bu həqiqəti Hz. Peyğəmbər *(s.ə.s)* gözəl bir misalla daha dolğun ifadə etmişdir.

Allah Rəsulunun *(s.ə.s)* təlimində təşbihdən istifadə etməsinə dair digər bir misal belədir:

Əbu Rəzin əl-Uqayli (r.a) belə nəql edir: «Bir gün Hz. Peyğəmbərdən *(s.ə.s)*:

Ey Allahın Rəsulu! Allah məxluqatı yenidən necə diriləcək? Bunun dünyadakı bənzəri nədir? - deyə soruşdum.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Sən heç qövmünün yaşadığı vadidən quraqlıq mövsümündə keçdin? Sonra hər tərəfin yamyaşıl olduğu bahar fəslində ora heç bir dəfə də olsun baş çəkdinmi?"* – deyə soruşdu.

Mən:

Əlbəttə – dedikdə,

Allah Rəsulu *(s.ə.s)*:

*"Bax bu, Allahın yenidən diriltməsinə dəlildir. Allah ölüləri də belə dirildəcəkdir"* – dedi.[732]

Hz. Peyğəmbər *(s.ə.s)* möminlərin cənnətdə Allahın camalını seyr etmələrini başa salmaq üçün yenə təmsil metodundan istifadə etmişdir. Cərir bin Abdullah (r.a) belə deyir:

Bir gecə Rəsulullahın *(s.ə.s)* yanında idik. Bədirlənmiş bütöv aya baxdıqdan sonra belə dedi:

*"Bu ayı heç bir çətinlik çəkmədən gördüyünüz kimi, Rəbbimizi də eyni şəkildə tam aydın görəcəksiniz"*.[733]

Hz. Peyğəmbər *(s.ə.s)* bu hədisi-şərifdə möminlərin axirətdə Allah-Təalanı rahat bir şəkildə görəcəklərindən bəhs edir.

---

732. Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 11.
733. Buxari, Məvaqitus-Salət, 16; Müslim, Məsəcid, 211.

Səhabələrin "Görəsən Rəbbimizi orada açıq-aydın bir şəkildə görə biləcəyikmi? – kimi narahatçılığının qarşısını almaq üçün onlara bu misalı çəkmişdir.

Rəsulullah *(s.ə.s)* tövbəyə həvəsləndirmək üçün belə bir təşbih edir:

*"Hər hansı birinizin tövbə etməsinə görə Allah-Təalanın duyduğu razılıq, adam yaşamayan çöldə gedərkən azuqə ilə yüklü dəvəsini əlindən qaçıran, ələk-vələk etdikdən sonra bir nəticə verməyincə dəvəni tapmaq ümidini itirərək bir ağacın kölgəsində yatan, oyandıqda dəvəsinin yanında olduğunu görən kimi yüyənindən yapışıb həddindən artıq sevinən və sevincindən çaşıb nə söylədiyini bilməyərək:*

*Allahım! Sən mənim qulumsan, mən də sənin rəbbinəm – deyən kimsənin sevincindən daha çoxdur".*[734]

Hədisi-şərifdə Allah-Təalanın sonsuz mərhəməti təmsillə bildirilir. Hədisdə haqqında bəhs edilən Allah-Təalanın məmnuniyyəti, razılığı, sevinməsi kimi ifadələr məcazi mənadadır.

Əbu Musa əl-Əşaridən (r.a) rəvayət edilən bir hədisi-şərifdə də Rəsulullah *(s.ə.s)* Quranı oxuyan kimsə ilə oxumayanı bu bənzətmə ilə təsvir etməkdədir:

*"Quran oxuyan mömin, portağal kimidir – qoxusu xoş, dadı gözəldir. Quran oxumayan mömin xurma kimidir – qoxusu yoxdur, dadı isə gözəldir. Quran oxuyan münafiq reyhan kimidir – qoxusu xoş, amma dadı acıdır. Quran oxumayan münafiq Əbu Cəhl qarpızı kimidir – qoxusu yoxdur və dadı da acıdır."*[735]

Qurani-Kərimin insanların həm qəlblərinə və hisslərinə, həm də zahiri əməllərinə olan təsiri bu nümunədə çox gözəl şəkildə təsvir edilmişdir. Yəni Qurandan nəsibi olanlar möminlər, nəsibi olmayanlar isə münafiqlərdir. Bəziləri sadəcə xarici görünüşlərinə görə Quranın təsiri altında qalmış kimi görünsə də, əslində daxili aləmlərinə Quranın heç bir təsiri yoxdur. Quran oxuduqlarını görərsən, amma oxuduqları Quranı həyatlarında tətbiq etməzlər. Beləları riya və göstəriş əhli, özlərində nifaq təzahürü olan kəslərdir. Bir qrup insanlar da bunun tam

734. Müslim, Tövbə, 7.
735. Buxari, Fədailul-Quran, 17; Müslim, Musafirin, 243.

əksinədir. Quran oxuduqlarını görməzsən, həqiqətən də oxumağı bilməzlər, amma daxili aləmlərində və yaşayışlarında Quranın təsiri hər an görünər. Qurana və əmrlərinə qarşı son dərəcə ehtiramlı və həssasdırlar. Bunlar da Quran oxumayan, oxuya bilməyən, amma öyrəndildiklərini həyat tərzi etmiş möminlərdir. Onların üzərinə düşən ən önəmli vəzifə, hansı yaşda olmalarından asılı olmayaraq ilk fürsətdə Quran oxumağı öyrənməkdir.

Allah Rəsulunun *(s.ə.s)* istifadə etdiyi təlim metodlarından biri də müqayisəli izahdır. Müqayisəli izahlarda məsələlərin tam əksi ilə bir yerdə verilməsi mövzunun daha asan başa düşülməsinə zəmin yaradır. İnsan idrakı, əşyanı ancaq müqayisəli şəkildə, yəni tam əksi verildikdə daha yaxşı qavrayır. Qaranlıq olmasa işığı, gecə olmasa gündüzü, şər olmasa xeyiri, zülm olmasa ədaləti və mərhəməti başa düşmək çətin olduğu kimi. Bu səbəblə Hz. Peyğəmbər *(s.ə.s)* bəzi mövzuları bir-biri ilə müqayisə edərək başa salardı.

İbn Abbas (r.a) belə nəql edir:

Cüheynə qəbiləsindən bir qadın Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələrək:

Anam həccə getməyə söz vermişdi, amma vəfat etdi. Onun yerinə həccə gedə bilərəmmi? – deyə soruşdu.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Bəli, onun yerinə həcc et. Ananın birinə borcu olsa idi onu ödəyərdin?"* – dedi.

Qadın:

Bəli – dedikdə Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Allah-Təalanın haqqını yerinə yetirin. Məhz Allah ona verilən əhdə vəfa göstərilməsinə hər kəsdən daha çox layiqdir"* – dedi.[736]

Hz. Peyğəmbər *(s.ə.s)* burada mənəvi borcu maddi borcla müqayisə edərək onun da mütləq ödənməsinin zəruri olduğunu bildirmiş, beləliklə də sual verən xanım səhabənin

---

736. Buxari, Sayd, 22.

məsələni daha asan başa düşməsinə və qane olmasına müvəffəq olmuşdur.

Allah Rəsulu *(s.ə.s)* bir hədisi-şərifində hicrət edənlə günahlarını tərk edəni müqayisə edərək belə buyurmuşdur:

*"Həqiqi mühacir, Allahın qadağan etdiyi şeyləri tərk edib onlardan uzaqlaşan kimsədir".*[737]

Digər diqqət çəkən bir misal, Hz. Peyğəmbərin *(s.ə.s)* maddi korluqla, mənəvi korluq arasında etdiyi müqayisədir. Allah Rəsulu *(s.ə.s)* əsas korluğun gözlərin görməməsi deyil, bəsirət və qəlb korluğu olduğunu belə ifadə etmişdir:

*"Kor gözü kor olan deyildir. Əsl kor bəsirəti kor olandır".*[738]

Bəsirəti kor olanlar maddəni görüb mənanı görməyən, dünyanı görüb ona meyl edərək, ilahi həqiqətlərə gözünü yuman kimsədir. Hz. Peyğəmbərin *(s.ə.s)* bu müqayisəsinin bir bənzəri də "Qurani-Kərim"də belə bildirilir.

**"Bu dünyada** (Allahın dəlillərinin möcüzələrini görməyib gözü və qəlbi) **kor olan axirətdə də kor olar və haqq yoldan daha da çox azar!".** (İsra, 17/72)

Xülasə, təşbeh, təmsil və müqayisə ilə izahlar insanları küfrdən, şirkdən, nifaqdan və hər cür əxlaqsızlıqdan uzaqlaşdıraraq gözəl əxlaq sahibi olmağa, sırf Allah üçün xeyirli əməllər etməyə sövq etməkdədir. Bəşəriyyətin idrak üfüqlərini aydınladan, həyata baxışlarını dəyişdirən və ona istiqamətlənmiş yolu göstərən bu izah üslubu ifadəni gözəlləşdirməklə yanaşı, çətin məsələləri asan və anlaşılan hala salmaqda və öyrənilən şeylərin yadda qalmasını təmin etməkdədir. Bu səbəbdən insanların təlim və tərbiyəsində Allah-Təalanın və Rəsulunun istifadə etdiyi bu əsasları tədbiq etmək və bunlardan ən gözəl şəkildə istifadə etmək lazımdır.

737. Buxari, İman, 4.
738. Beyhəqi, *Şuabul-İman,* II, 127.

### I. Danışarkən jest və mimikalardan istifadə etmək

Hz. Peyğəmbər *(s.ə.s)* danışarkən məqsədini daha gözəl ifadə etmək üçün yeri gələndə jest və mimikalardan, yəni əl və qol hərəkətlərindən istifadə edirdi.

Əbu Musa əl-Əşari (r.a) belə nəql edir:

"Mömin, digər mömin üçün hissələri bir-birinə pərçimlənmiş bina kimidir" – dedi və bunu izah etmək üçün barmaqlarını bir-birinə keçirdi.[739]

Səhl bin Sadın (r.a) bildirdiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Yetimi qoruyub qayğısına qalanla mən, cənnətdə birgəyik"* – dedi. Şəhadət və orta barmaqlarını göstərdi. [740]

Hz. Peyğəmbər *(s.ə.s)* həm sözləri ilə, həm də barmaqları ilə işarə edərək ümmətini yetim, kimsəsiz və çarəsizləri qoruyub qayğısına qalmağa istiqamətləndirmiş, belə davrananların cənnətdə onunla qonşu olacaqlarını bildirmişdir. Göstərilən bu işarə, cənnətdə Hz. Peyğəmbər *(s.ə.s)* ilə gözlənilən yaxınlığı ifadə edir.

Cabir (r.a) belə nəql edir. Rəsulullah *(s.ə.s)*:

– *"Bəhreyndən sədəqə malı gələndə sənə bax bu qədər, (ovuc-ovuc) verəcəyəm"* – dedi və üç dəfə əliylə göstərdi. Bəhreyndən mal gələnə qədər Allah Rəsulu *(s.ə.s)* vəfat etdi. Malın gətirilməsi Hz. Əbu Bəkrin xəlifəliyi dövrünə təsadüf etdiyindən Hz. Əbu Bəkir carçısı ilə xalqa bunları elan etdi:

– Rəsulullahın *(s.ə.s)* kimə vədi və ya borcu varsa yanıma gəlsin – dedi.

Mən birbaşa Hz. Əbu Bəkrin (r.a) yanına getdim və:

– Rəsulullahın *(s.ə.s)* Bəhreyndən sədəqə malı gələndə sənə bax bu qədər, (ovuc-ovuc) verəcəyəm deyib, üç dəfə iki əli ilə işarə etdiyini söylədim.

---

739. Buxari, Məzamim, 5.
740. Buxari, Ədəb, 24.

Bunun müqabilində Hz. Əbu Bəkir (r.a) mənə istədiyimi dərhal verdi".[741]

İbn Məsud (r.a) belə nəql edir:

"Qüreyş qəbiləsindən 80 nəfərə yaxın adamla birlikdə Allah Rəsulunun *(s.ə.s)* yanında idik. Orada qüreyşlilərdən başqa heç kim yox idi. Allaha and olsun ki, o gün gördüyüm simalardan daha gözəlini görmədim. Qadınlardan söz açdılar və onlar haqqında söhbət etdilər. Hz. Peyğəmbər *(s.ə.s)* də onların söhbətinə qoşuldu... Sonra mən yanına gələndə şəhadət gətirib belə dedi:

– Ey, Qüreyşlilər! Allah-Təalaya üsyan etmədiyiniz zamana qədər bu işin (insanları idarə etməyin) əhli sizsiniz. Əgər Allaha asi olsanız O, – əlindəki budağı göstərərək – bu dəyənəyin soyulduğu kimi sizi soyacaq birini sizə göndərər" – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* sonra əlindəki budağın qabığını ağappaq olana qədər soydu.[742]

Cabirin (r.a) qiyamətin yaxınlaşması ilə bağlı nəql etdiyi bu rəvayət də mövzumuz baxımından çox mühüm bir misaldır:

Rəsulullah *(s.ə.s)* – xütbə oxuyanda gözləri qızarır, səsi ucadan çıxırdı. *"Düşmən səhər və axşam üzərinizə hücum edəcək, özünüzü qoruyun!"* – deyə ordusunu xəbərdar edən başçı kimi hiddətlənir və şəhadət barmağı ilə orta barmağını bir yerdə tutaraq:

*"Mənimlə qiyamətin arası bu iki barmağın arası qədər yaxınlaşanda mən peyğəmbər olaraq göndərildim"* – dedi.[743]

Yəni Rəsulullah *(s.ə.s)* qiyamətin yaxınlaşdığını ifadə etmək üçün şəhadət barmağı ilə orta barmağını bir-birinə yaxınlaşdırmışdır.

Əbu Səid (r.a) belə nəql edir:

Mühacirlərin kasıblarından bir qrupla birlikdə oturmuşdum. Bir nəfər də bizə Quran oxuyurdu. Elə bu vaxt Rəsulul-

741. Buxari, Hibə, 18.
742. Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 458.
743. Müslim, Cümə, 43.

lah *(s.ə.s)* yanımıza gəldi. Rəsulullahı *(s.ə.s)* görən şəxs Quran oxumağını dayandırdı. Rəsulullah *(s.ə.s)* da salam verib:

– *"Nə edirsiniz?"* – deyə soruşdu.

– Ey Allahın Rəsulu! O, müəllimimizdir, bizə "Quran" oxuyur. Biz də Allah-Təalanın kitabını dinləyirik **–** dedik.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Ümmətimin arasında onlarla birlikdə səbir etməyim əmr edilən kəsləri yaradan Allaha həmd olsun!* – dedi. [41]

Sonra Allah Rəsulu *(s.ə.s)* yanımızda oturdu, əli ilə işarə edib:

– *"Belə dairə düzəldin"* – dedi.

Camaat dərhal onun ətrafında halqa kimi toplaşdı və üzlərini ona doğru çevirdilər. Hz. Peyəmbər *(s.ə.s)* bizə bu müjdəni verdi:

– *"Ey yoxsul mühacirlər, sizə müjdələr olsun! Sizə qiyamət günündə tam bir nur müjdələyirəm. Siz Cənnətə insanların varlılarından yarım gün əvvəl girəcəksiniz. Bu yarım gün (dünya günləri ilə) beş yüz ilə bərabərdir"*.[744]

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən də mübarək əllərilə hər hansı bir şeyi tutub qaldırar və onun vasitəsilə nə isə öyrədərdi. Übadə ibn Samitin (r.a) nəql etdiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)* qənimət dəvələrindən birinin üstündən bir tük götürüb (orada olanlara göstərərək) belə buyurdu:

*"Bu qənimət malında sizdən birinizin nə qədər haqqı varsa, mənim də o qədər haqqım var. Qənimət malından haqsız yerə bir şey almayın, çünki bu, qiyamət günü sahibi üçün utancdır. İpi, iynəni və bundan daha dəyərsiz şeyləri (saxlamayıb) verin..."*[745]

Hz. Peyğəmbər *(s.ə.s)* burada da qul haqqına riayət etməyi tövsiyə edərək bu xüsusda zərrə qədər kiçik bir haqsızlığı qadağan etmiş, bunu da dəvədən götürdüyü nazik bir tüklə müqayisə olaraq göstərmişdir.

744. Əbu Davud, Elm, 13.
745. Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 330.

Xülasə, təlim və tərbiyədə jest və mimikadan istifadə edilməlidir. Məhz bu üsul mövzuların asanlıqla anlaşılmasına, yadda qalmasına və unudulmamasına kömək edir.

**İ. Mövzuları izah etmək üçün şəkil çəkmək**

Hz. Peyğəmbər *(s.ə.s)* mövzuların bir hissəsini əl işarələri ilə izah etdiyi kimi, bəzi mövzuları da torpaq üzərində şəkillər çəkərək başa salardı. Bu üsul da yenə mücərrəd və çox çətin başa düşülən məsələləri daha asan başa salmaq üçündür.

Abdullah ibn Məsud (r.a) belə nəql edir:

Hz. Peyğəmbər *(s.ə.s)* yerdə dördbucaqlı xətt çəkdi. Sonra dördbucaqlının ortasına doğru düz xətt çəkdi. Bu xətt dördbucaqlını bölərək kənara çıxırdı. Ortadakı bu xəttin hər iki tərəfindən ona perpendikulyar bir neçə kiçik xətt daha çəkdi. Sonra xətləri göstərərək belə dedi:

*"Bu ortadakı xətt insan, bu dördbucaqlı da onu əhatə edən əcəlidir. Dördbucaqlını bölərək kənara çıxan insanın arzularıdır. Ortadakı kiçik perpendikulyar xətlər isə onun dərd və iztirablarıdır. İnsan bu dərdlərin birindən xilas olub o birinə tuş gəlir. Ondan da xilas olsa bu tərəfdəki onu yaxalayır".*[746]

Hz. Peyğəmbər *(s.ə.s)* bu izahında səhabələrin önündə şəkil və sxem çəkərək insanla onun bitməz-tükənməz arzularını təsvir etmişdir. O, insanın bu əməllərlə əlaqəsinin ani münasibətlərlə, dərdlərlə və ya ölümlə necə kəsildiyini canlı şəkildə göstərmişdir. Əshabını və biz ümmətini əməlinə qarşı diqqətli olmağa, hər an öləcəkmiş kimi yaşamağa təşviq etmişdir. Hz. Peyğəmbərin *(s.ə.s)* bir məsələni şəkil çəkərək başa salması ilə bağlı digər bir misalı İbn Abbas (r.a) belə nəql edir:

Hz. Peyğəmbər *(s.ə.s)* yerə dörd xətt çəkdikdən sonra:

*"Bu xətləri nəyə görə çəkdiyimi bilirsinizmi?"* – dedi.

Səhabələr:

– Allah və Rəsulu daha yaxşı bilir – dedilər.

746. Buxari, Riqaq, 4.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Cənnət qadınlarının ən fəzilətliləri Xədicə binti Xüveylid, Fatimə bini Muhammməd, Məryəm binti İmran və Fironun xanımı Asiyə binti Müzahimdir"* – dedi.[747]

Hz. Peyğəmbər *(s.ə.s)* burada cənnət əhli olan ən fəzilətli dörd xanımı, yerdə çəkdiyi dörd xətlə ifadə etmişdir.

Digər bir misalda Allah Rəsulunu *(s.ə.s)* "Sırati-müstəqimi" tərif edərkən görürük. Hz. Cabir (r.a) belə rəvayət edir:

Rəsulullah *(s.ə.s)* önünə bir xətt çəkərək:

– *"Bu, Allah-Təalanın doğru yoludur"* – dedi. Sonra həmin xəttin hər tərəfinə daha iki xətt çəkdi və:

– *"Bunlar da şeytanın yoludur"* – dedi.

Daha sonra mübarək əllərini ortadakı xəttin üstünə qoydu və bu ayəni oxudu.

**"Bu şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizə Allahın yolundan sapdıracaq yollara uymayın Allah sizlərə bunları tövsiyyə etdi ki, bəlkə pis əməllərdən çəkinəsiniz!".**[748]

Bəzi elm sahələrində izahlar üçün şəkil çəkmək zəruridir. Riyaziyyat, həndəsə və fizika bunlardandır. Allah Rəsulunun *(s.ə.s)* etdiyi kimi, imkan daxilində taxta və ya buna bənzər materialların üzərində mövzunu dolğun şəkildə izah edəcək şəkillər çəkilməlidir. Bundan əlavə, insanın ağlı ilə bərabər göz və qulaqlarına təsir edəcək hər cür təlim və tərbiyə vasitələrindən istifadə edilməlidir.

### J. Deyilənlərin əhəmiyyətinə diqqət çəkmək

Rəsulullah *(s.ə.s)* söylədiklərinin əhəmiyyətinə diqqət çəkmək üçün bəzən söhbətinə and içərək başlar, bəzən sözünü iki, üç dəfə və ya daha çox təkrar edər, bəzən də söhbətə başlamamışdan əvvəl oturuşunu dəyişdirərdi.

747. Əhməd ibn Hənbəl, *Müsnəd*, I, 293.
748. Ənam, 6/153; Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 397.

Allah-Təala Rəsulullaha *(s.ə.s)* "Qurani-Kərim"in bir çox ayəsində, dediyi şeyləri təsdiq etmək üçün and içməyini əmr etmişdir. Bu əmrlərdən ikisi belədir:

**"**(Ya, Peyğəmbər! Sən onlara) **de: "Qeybi bilən Rəbbimə and olsun ki, qiyamət sizə gələcəkdir".** (Səba, 34/3)

**"De ki: "Bəli, Rəbbimə and olsun ki, siz mütləq diriləcəksiniz".** (Təğabun, 64/7)

Qurani-Kərimin öndə gələn ifadə üslubundan biri də and içməkdir. Allaha and içərək mövzunu bəyan etmək, o anddan sonra ifadə edilənlərin əzəmət, ucalıq və əhəmiyyətini göstərir. Allah-Təala bir çox ilahi həqiqəti, öz əzəmətini və cəlalına və ya müvafiq bildiyi varlıqlara and içərək bəyan etməkdədir. Məsələn, "Şəms" surəsinin başlanğıcında bir-birinin arxasınca on bir dəfə and içərək nəfsin həqiqətini, onu pisliklərdən təmizləyənin xilas olacağını, nəfsini pisliklərdən qorumayanların isə qəm-qüssəyə uğrayacağını bildirməkdədir.[749]

Əbu Hüreyrədən (r.a) rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurmuşdur:

*"Allaha and olsun ki, iman etmədikcə cənnətə girə bilməzsiniz. Bir-birinizi sevmədikcə də iman etmiş sayılmazsınız. Sizə bir-birinizi sevdirəcək şeyi xəbər verimmi? Aramızda salamı yayın".*[750]

Hədisdən göründüyü kimi salamı yaymaq sevginin, sevgi isə imanın mükəmməlliyinə işarədir.

Hz. Peyğəmbər *(s.ə.s)* bu həqiqəti Allaha and içərək bildirmişdir.

Ənəsdən (r.a) rəvayət edildiyinə görə Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurmuşdur:

*"Allaha and olsun ki, sizdən biriniz özü üçün arzu edib dilədiyi şeyi müsəlman qardaşı üçün istəmədikcə, həqiqi mənada iman etmiş olmaz".*[751]

749. Şəms, 91/1-10.
750. Müslim, İman, 94.
751. Buxari, İman, 7; Müslim, İman, 72.

Danışarkən həmsöhbətinin diqqətini çəkməyin üsullarından biri də mühüm olan söz və cümlələrin bir və ya bir neçə dəfə təkrarlanmasıdır.

Təkrar yolu ilə həqiqətlərin təbliğ və təliminin Quran və Sünnədə müstəsna yeri var.

Bu təkrarların hikmətini bəyan edən ayədə belə deyilir:

"(Ya Məhəmməd!) **Biz onu** (Sənə göndərilən İlahi kitabı) **ərəbcə Quran olaraq nazil etdik. Biz orada** (kafirlərə əzab veriləcəyinə dair) **təhdidləri** (cürbəcür misallarla) **təkrar-təkrar izah etdik ki, bəlkə, onlar pis əməllərdən çəkinsinlər yaxud** (onun öyüd nəsihətlərindən) **ibrət alsınlar!** (Quran onlara öyüd nəsihət versin)". (Taha, 20/113)

Qurani-Kərimdə bir qisim söz və cümlələrin təkrar edildiyini görməkdəyik. Məsələn, "Rahmən" surəsində insanlar və cinlər üçün yaradılan nemətlər haqqında danışılarkən cümlələrin arasında gələn və 31 dəfə təkrar edilən:

**"Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz?"** – ayəsi qulların gözündəki qəflət pərdələrini açaraq, şükür vəzifəsini xatırlatmaqdadır.

Rəsulullah *(s.ə.s)* hər hansı bir məsələyə münasibətini başa salarkən sözlərini açıq-aydın deyər, danışdıqlarının doğru-düzgün başa düşülməsi üçün bəzən bir neçə dəfə təkrarlayardı.[752] Ümumiyyətlə, Hz. Peyğəmbər *(s.ə.s)* Abdullah ibn Hübeyb, Uqbə ibn Amir və Cabir ibn Abdullah kimi bəzi səhabələrə səhər və axşam saatlarında oxumaqları üçün bəzi surələri tövsiyə etdi. O, bu surələrin əhəmiyyətinə diqqət çəkmək üçün mühüm bir üsulu tətbiq etmişdir. Əvvəlcə onlara adları ilə xitab edərək:

– *"Oxu!"* – demiş, onların:

– Nə oxuyaq ya Rəsulallah? – dedikdə eyni əmri bir daha təkrarlamışdır. Sual-cavab üç dəfə təkrarlandıqdan sonra:

752. Buxari, Elm, 30.

– *"Axşam və səhər vaxtlarında "Qul-huvəllahu əhəd" ilə "Müavvizəteyn"*[753] *surələrini 3 dəfə oxu. Hər cür pislikdən qorunmaq üçün bunlar sənə kifayətdir"* – demişdir.[754]

Əbu Ümamədən nəql edildiyinə görə, Allah Rəsulu *(s.ə.s)* yatsı namazında əshabına:

– *"Sabah namaz vaxtı toplaşın, sizə deyəcəklərim var"* – dedi.

Səhabələrdən biri o birinə belə dedi:

– Ey filankəs, sən Rəsulullahın birinci sözünü, sən ondan sonrakını, sən də ondan sonrakını yaxşı əzbərlə ki, Allah Rəsulunun *(s.ə.s)* danışdıqlarından heç bir şeyi yaddan çıxartmayaq.

Hz. Peyğəmbər *(s.ə.s)* sübh namazından sonra:

– *"Əmr etdiyim kimi toplaşdınızmı?* – dedi.

Səhabələr:

– Bəli! – dedilər.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)* belə dedi:

– *"Allaha qulluq edin və Ona heç bir şeyi ortaq qoşmayın. Başa düşdünüzmü? – dedi və bu sözü üç dəfə təkrarladı.*

Əshab:

– Bəli! – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Namaz qılın və zəkat verin! Namaz qılın və zəkat verin! Namaz qılın və zəkat verin! Başa düşdünüzmü? – deyərək bu sözünü üç dəfə təkrar etdikdə əshab yenə:*

– Bəli! – dedilər.

– Peyğəmbər *(s.ə.s)* təkrar:

– *"Dinləyin və itaət edin! Dinləyin və itaət edin! Dinləyin və itaət edin! Başa düşdünüzmü? – deyərək bu sözünü də üç dəfə təkrarladı".*

753. Müavvizəteyn deyildikdə Fələq və Nas surələri nəzərdə tutulur.
754. Əbu Davud, Ədəb, 101; Tirmizi, Dəvət, 116.

Səhabələr də:

– Bəli! – deyə qəbul etdilər.[755]

Bu hədisdə ilk diqqətimizi cəlb edən xüsusiyyət səhabələrin Hz. Peyğəmbərin *(s.ə.s)* sözlərini hafizələrində saxlamaq üçün diqqətli və tələbkar olmalarıdır. Diqqətimizi cəlb edən digər məqam isə Hz. Peyğəmbərin *(s.ə.s)*:

*"Allaha qulluq, ona heç bir şeyi şərik qoşmamaq, namaz qılmaq, zəkat vermək və peyğəmbərləri dinləyib qeyri-şərtsiz itaət etmək kimi İslamın əsaslarını təşkil edən qaydaları üç dəfə təkrarlamışdır."*

Mövzumuzla bağlı digər bir misalı Abdullah ibn Amr (r.a) belə nəql edir:

Səfərlərin birində Allah Rəsulu *(s.ə.s)* geridə qalmışdı. Bir az sonra gəlib bizə çatdı. Axşam namazının vaxtı çıxmaq üzrə idi. Ayaqlarımızı (tam yumayıb) məsh etməyə başladıqda Hz. Peyğəmbər *(s.ə.s)* yüksək səslə iki və ya üç dəfə:

*"Atəşdə yanacaq dabanların vay halına!"*.[756] dedi.

Buna görə bilməyənə öyrətmək, yanlış olaraq anlaşılan və edilən bir şeyi gördükdə səsin tonunu qaldıraraq xəbərdarlıq etmək, mövzunun başa düşülməsi üçün təkrarlamaq kimi metodlardan təbliğ zamanı istifadə etmək olar. Təkrarlatma həmsöhbətin idrak səviyyəsinə görə olmalıdır. Əgər kimsə birinci dəfədən qavramırsa, izahı təkrarlamaq ayıb deyil.

Əbu Hüreyrənin (r.a) nəql etdiyinə görə bir gün Rəsulullah *(s.ə.s)*:

– *"Sizə ən xeyirlinizin və ən şərlinizin kim olduğunu xəbər verimmi?"* – dedi və bunu üç dəfə təkrar etdi.

Oradakılar:

Bəli, xəbər verin – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)*:

---

755. Təbərani, *Möcəmul-Kəbir*, VIII, 162; Heysəmi, *Məcməuz-Zəvaid*, I, 46.
756. Buxari, Elm, 30

– *"Ən xeyirliniz ondan xeyir umulan və şərrindən əmin olunandır. Ən şərliniz isə ondan xeyir ümid edilməyən və şərrindən də əmin olunmayan kimsədir".*[757]

Allah Rəsulu *(s.ə.s)* burada bir-birinə bütövlükdə iki zidd xarakteri müqayisə etmiş və suallarını üç dəfə təkrarlamışdır.

Hz. Peyğəmbər *(s.ə.s)* bəzən də onu dinləyənlərin diqqətini çəkmək üçün oturuşunu dəyişdirərək sözünü təkrar edərdi. Məqsədi yenə də dediyi məsələnin əhəmiyyətini göstərmək idi. Buna misal olacaq hadisəni Nüfey ibn Haris (r.a) belə nəql edir:

Bir gün Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Sizə böyük günahların hansılar olduğunu xəbər verimmi?"* – deyə üç dəfə soruşdu.

Biz də:

– Bəli, ya Rəsulallah! – dedik.

Rəsulullah *(s.ə.s)*:

– *"Allaha şirk qoşmaq, ata-anaya itaətsizlik etmək"* – dedikdən sonra söykəndiyi yerdən qalxıb oturdu:

– *"Yaxşı qulaq asın! Bir də yalan söyləmək və yalançı şahidlik etməkdir"* – dedi. Bu sözü dayanmadan təkrarladı. Həddindən artıq üzülməsini istəmədiyimiz üçün kaş ki, sussaydı deyə düşündük.[758]

Allah Rəsulu *(s.ə.s)* burada iki böyük günahı söylədikdən sonra, üçüncüyə gəldikdə oturuşunu dəyişdirmiş, söykəndiyi yerdən qalxıb oturmuşdur. Bu davranış dəyişikliyi, yalançılığın və yalançı şahidliyin ən böyük haramlardan olduğunu daha yaxşı başa salmaq üçündür.

Hz. Peyğəmbərin *(s.ə.s)* böyük günahları sadalamağa başlamazdan əvvəl üç dəfə:

*"Böyük günahların hansılar olduğunu sizə xəbər verimmi?"* – deyə təkrarlaması, söyləyəcəyi sözün əhəmiyyətinə və bu sə-

757. Tirmizi, Fitən, 76.
758. Buxari, Ədəb, 6; Müslim, İman, 143.

bəbdən də həmin günahların nə dərəcədə ağır olduğuna əshabının diqqətini çəkmək olmuşdur.

Allah Rəsulu *(s.ə.s)* daha fərqli üsullarla da həmsöhbətinin diqqətini cəlb etməyə çalışardı. Bu üsullardan bir də danışarkən müəyyən bir məqsədlə həmsöhbətinin əlini və çiynini tutmaqdır.

Abdullah ibn Məsud (r.a) belə nəql edir:

"Rəsulullah *(s.ə.s)* əllərimi ovucları arasında tutaraq təşəhhüdü (Təhiyyət duasını) Qurandan hər hansı bir surəni öyrətdiyi kimi öyrətdi".[759]

Hz. Peyğəmbər *(s.ə.s)* əhəmiyyətli bir mövzunu öyrədərkən bəzən də səhabəsinin çiyninə əlini qoyar və istədiyini bu şəkildə başa salardı. Abdullah ibn Ömər (r.a) belə rəvayət edir:

Bir gün Hz. Peyğəmbər *(s.ə.s)* çiynimdən tutaraq mənə *"Bu dünyada sanki bir qərib və ya yolçu kimi ol"* – dedi.[760]

Hz. Peyğəmbər *(s.ə.s)* burada İbn Ömərin çiynindən tutaraq yaxınlığını və mehribanlığını hiss etdirmiş və onu fani arzu-istəklərdən uzaqlaşdırıb Allah- Təalaya doğru istiqamətləndirən nəsihətlər vermişdir.

Hz. Peyğəmbərin *(s.ə.s)* təlim və tərbiyədə tətbiq etdiyi üsullardan bir də həmsöhbətinin diqqətini cəlb etmək üçün adı ilə müraciət etməsi və bunu bir neçə dəfə təkrar etdikdən sonra əsas mövzuya keçməsidir. Məsələn, səfərlərindən birində tərkinə aldığı Muaza xitabən üç dəfə:

– *"Ey, Muaz!"* – deyə səslənmiş,

O da hər dəfə:

– Buyur, ey Allahın Rəsulu! Əmrinə hazıram! – deyə cavab vermişdir.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

---

759. Buxari, İstizan, 28.
760. Buxari, Riqaq, 3.

– *"Kim Allahdan başqa ilah olmadığına və Muhammədin Allahın qulu və rəsulu olduğuna, səmimi bir şəkildə şəhadət edərsə, Allah ona cəhənnəmi haram edər"* – demişdir.[761]

Burada Allah Rəsulunun *(s.ə.s)* "Ey Muaz!" – deyə üç dəfə səslənməsi söyləyəcəklərinə onun diqqətini tam çəkmək üçündür. Təbliğdə, təlim və tərbiyədə İslamı insanlara daha asan, təsirli bir şəkildə öyrətmək üçün Hz. Peyğəmbərin *(s.ə.s)* tətbiq etdiyi bu üsulların hər birindən ən gözəl şəkildə istifadə edilməlidir.

### K. Nəsihət vermək və hekayə danışmaq

#### 1. Nəsihət vermək

Uca Rəbbimiz insanlara gözəl öyüd-nəsihət verməyi və uyğun bir üslub seçməyi əmr etmişdir. Ayədə belə buyurulur:

"**Sən** (onlara Quranla) **öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir".** (Zariyat, 51/55)

Hz. Peyğəmbərin *(s.ə.s)* moizə, xütbə və söhbətlərinin hamısı öyüd-nəsihət xarakteri daşıyır. İrbaz ibn Sariyə belə rəvayət edir:

Rəsulullah *(s.ə.s)* bizə çox təsirli öyüd-nəsihət verdi. Bunları eşidən qəlblər ürpəşdi, gözlər yaşardı. Biz:

– Ey Allah Rəsulu, bu nəsihət sanki ayrılmaq üzrə olan birinin söhbətinə bənzəyir. Heç olmasa bizə tövsiyə verin – dedik.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)* belə dedi:

*"Allaha çox ehtiram etməyinizi, həbəşli bir kölə başçınız olsa belə, onu dinləyib itaət etməyinizi tövsiyə edirəm. Məndən sonra bu həyatda sağ qalıb uzun ömür sürənlər həddindən çox ixtilaflarla qarşılaşacaqlar. O zaman mənim və rəşidi xəlifələrin sünnəsinə sarılmaq sizin borcunuzdur. Bu sünnələrdən bərk yapışın, sonradan ortaya çıxmış bidətlərdən qəti olaraq uzaqlaşın. Çünki hər bidət zəlalətdir"*.[762]

761. Buxari, Elm, 49; Müslim, İman, 53.
762. Əbu Davud, Sünnə, 5; Tirmizi, Elm, 16.

Hz. Peyğəmbərin *(s.ə.s)* nəsihətləri qısa, dolğun və diqqətçəkici idi. Buna görə də səhabələr onu asanlıqla əzbərləyir və bir-birilərinə nəql edirdilər.

Mövzu ilə bağlı başqa bir misal Əbu Zərdən (r.a) nəql edilmişdir:

Bir gün mən Hz. Peyğəmbərə *(s.ə.s)*:

– Ya Rəsuallah! Məni vali təyin edərsənmi? – dedim.

O, əli ilə çiynimə vuraraq belə dedi:

– *"Əbu Zərr! Sən zəif bir adamsan. İstədiyin vəzifə isə bir əmanətdir. Bu əmanətə bələd olaraq alan və üzərinə düşəni yerinə yetirənlər müstəsna, əslində bu vəzifə qiyamət günündə utanc və peşmançılıqdır".*[763]

Cabir ibn Süleym (r.a) belə nəql edir:

İnsanların daim müraciət etdiyi və fikir aldığı bir nəfəri gördüm. Onun dediyi hər şeyi qəbul edib yerinə yetirirdilər.

– Bu adam kimdir?

– Allah Rəsuludur *(s.ə.s)* – dedilər.

Mən iki dəfə:

– Aleykəs-salam Ya Rəsulallah! (Sənə salam olsun ey Allahın Rəsulu!) – dedim.

– Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Aleykəs-salam, demə! – Bu ölülərə verilən salamdır. əs-Sələmu aleykə! (Salam sənə olsun!"* – de, – buyurdu.

Mən:

– Sən Allahın Rəsulusan? – deyə soruşdum.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Mən, çətinlikdə dua etdikdən sonra səndən həmin çətinliyi uzaqlaşdıran, qıtlıq olarsa dua etdikdən sonra sənin üçün məhsul bi-*

763. Müslim, İmarət, 16.

*tirən, çöldə dəvən itdikdə dua etdikdən sonra dəvəni sənə geri qaytaran Uca Allahın Rəsuluyam"* – deyə cavab verdi.

Bunun müqabiliyində:

– Mənə tövsiyə edin – dedim.

Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Heç kimə söymə"* – dedi. Mən də ondan sonra nə azad, nə də kölə olan heç kimə, dəvə və qoyun olmaqla heç bir heyvana söymədim".

Sonra tövsiyəsinə belə davam etdi:

*"Heç bir yaxşılığı kiçik bilmə, qardaşınla gülərüzlə danış, çünki bu da bir yaxşılıqdır. Paltarını yerdə sürünəcək qədər uzatma, çünki bu təkəbbürdən və özünü bəyənməkdən irəli gəlir. Allah lovğalanıb özünü bəyənənləri sevməz. Əgər bir adam səni söyər və gördüyün bir işə görə səni mühakimə edər və qınayarsa sən o adam haqqında bildiyin şeylərə görə mühakimə etmə, qınama. Onun davranışı, günahı özünə aiddir".*[764]

Nəsihətin insanlar üzərindəki təsiri danılmazdır. Bu səbəbdən təbliğçi də nəsihət elədiyi xüsuslara əvvəlcə özü əməl etməli, sonra insanlara tövsiyə verməlidir. Əks halda elədiyi nəsihət faydasız olar.

### 2. Qissələr və əvvəlki ümmətlərə aid xəbərlər

Hekayələrin insanın təlim-tərbiyəsində, həqiqətlərin izahında son dərəcə mühüm rolu vardır. Hz. Peyğəmbər *(s.ə.s)* müəyyən vaxtlarda əvvəlki ümmətlərə aid qissələrdən bəhs etməklə səhabələrinə müəyyən şeyləri öyrədərdi. Bunlar daha çox ibrət alınacaq hadisələr olurdu. Qurani-Kərimdə peyğəmbərlər və qövmlərinin hekayələrinə geniş yer verilir. Bu xüsus ayədə belə ifadə edilir:

**"**(Ya Muhamməd!) **Biz** (bu surəni) **vəhy etməklə sənə ən gözəl hekayəti danışırıq. Hərçənd ki, sən əvvəlcə ondan əsla xəbərdar deyildin".** (Yusuf, 12/3)

764. Əbu Dabud, Libas, 25.

**"**(Ya Muhamməd!) **Biz peyğəmbərlərin xəbərlərindən (başlarına gələnlərdən) ürəyini möhkəmləndirəcək, qəlbinə verəcək nə varsa, hamısını sənə nağıl edirik. Bu** (surə) **sənə haqq, möminlərə isə moizə və öyüd-nəsihət olaraq gəlmişdir".** (Hud, 11/120)

Abdullah ibn Ömərdən (r.a) nəql edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə ibrətli bir hadisədən bəhs etmişdir:

*"Sizdən əvvəl yaşayanlardan üç nəfər birlikdə səfərə çıxdı. Onlar axşam bir mağaraya girdilər. Amma dağdan qopan qaya parçası mağaranın ağzını tutdu. Onlar bir-birilərinə:*

*– Etdiyimiz yaxşılıqların hörmətinə Uca Allaha dua etməkdən başqa heç bir şey bizi bu bəladan qurtara bilməz – dedilər.*

*Onlardan biri:*

*– Allahım! Mənim atam və anam yaşlı insanlardır. Onlara yeməklərini verməmiş uşaqlarıma və xidmətçilərimə yemək verməzdim. Bir gün heyvanlara yem tapmaq üçün evdən çıxdım. Onlar yatmamışdan əvvəl də geri qayıda bilmədim. Evə çatan kimi heyvanları sağıb südünü valideynlərimə aparanda ikisinin də yatdığını gördüm, oyandırmaq istəmədim. Onlardan əvvəl isə evdəkilərin yemək içməsini münasib görmədim. Dan yeri sökülənə qədər əlimdə süd onların oyanmalarını gözlədim. Yanımda uşaqlar acından ağlayırdılar. Nəhayət yuxudan oyanıb südlərini içdilər. Allahım! Əgər bunu Sənin rizanı qazanmaq üçün etmişəmsə, bu bəlanı bizdən uzaqlaşdır! – deyə yalvardı. Qaya parçası bir az aralandı, lakin çölə çıxmaq mümkün deyildi.*

*Digəri isə:*

*– Allahım! Məmim əmim qızı vardı. Onu hamıdan çox sevirdim. Onunla yaxınlıq etmək istədim. Amma o, qəbul etmədi. Bir il qıtlıq olmuşdu. Əmim qızı yanıma gəldi. Mənim olmaq şərti ilə 120 qızıl verdim. Qəbul etmək məcburiyyətində qaldı. Ona sahib olmaq istədikdə:*

*Allahdan qorx! Dinimizin uyğun görmədiyi yolla məni əldə etmə! – dedi.*

*Çox sevib arzu etdiyim halda ondan uzaqlaşdım. Verdiyim qızılları da geri istəmədim. Allahım! Əgər mən bu işi Sənin rizanı qazanmaq üçün etmişəmsə, bu bəlanı bizdən uzaqlaşdır – deyə yalvardı. Qaya parçası bir az da aralandı. Lakin yenə də mağaradan çıxmaq mümkün deyildi.*

*Üçüncüsü isə:*

*– Allahım! Mən vaxtı ilə bir neçə muzdlu işçi tutdum. Pulunu almayıb gedən bir işçidən başqa hamısının pulunu verdim. Əmək haqqını almayıb gedən həmin adamın pulundan istifadə etdim. Bu puldan böyük bir sərvət əldə etdim. Günlərin bir günü həmin adam yanıma gəldi. Mənə:*

*– Ey Allahın qulu! Mənim əmək haqqımı ver – dedi.*

*Mən də ona:*

*– Bu gördüyün dəvələri, mal-qaranı, qoyunları və kölələri sənin əmək haqqınla əldə etdim -dedim.*

*Həmin adam:*

*– Ey Allahın qulu! Mənimlə zarafat etmə! – dedi.*

*– Səninlə zarafat etmirəm – deyə cavab verdim.*

*Bunun müqabilində o heçnə saxlamadan hamısını qabağına qatıb apardı. Ey Rəbbim! Əgər bu işi sırf Sənin rizanı qazanmaq üçün etmişəmsə, bizi bu çətinlikdən qurtar – deyə yalvardı. Qaya parçası bir az da aralandı. Onlar da çıxıb getdilər".*[765]

Burada Hz. Peyğəmbər *(s.ə.s)* keçmiş ümmətlərdən hekayələr nəql edərək ata-anaya qulluq, nəfsə hakim olmaq və insan haqqına hörmət etmək kimi mövzuların əhəmiyyətini vurğulamışdır.

Mövzumuzla bağlı Əbu Hüreyrədən (r.a) nəql olunduğuna görə Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurmuşdur.

*"Bəni İsraildən bir nəfər yoldaşından min dinar borc istədi. O isə:*

*– Mənə şahidlərini gətir. Onların hüzurunda verim ki, şahid olsunlar – dedi.*

765. Buxari, Büyü, 98; Müslim, Zikr, 100.

*Borc istəyən:*

*– Şahid üçün Allah kifayətdir! – dedi.*

*O birisi:*

*– Elə isə buna zamin gətir – dedi*

*Borc istəyən:*

*– Zamin olaraq Allah kifayətdir – dedi.*

*O birisi:*

*– Doğru söylədin – dedi və müəyyən olunmuş vaxta qədər pulu ona verdi.*

*Həmin adam dəniz səyahətinə çıxdı. İşlərini sahmana saldı. Sonra borcunu vaxtında ödəmək məqsədi ilə geri dönmək üçün bir gəmi axtardı, amma tapa bilmədi. Sonra bir odun parçası tapıb içini oydu. Sahibinə çatacaq məktubla birlikdə min dinarı da ağacın oyuğuna yerləşdirdi, ağzını bağladı. Dənizin kənarına gətirib:*

*– Ey Allahım! Mənim filankəsdən 1000 dinar borc aldığımı bilirsən. Məndən şahid istədiyində "Şahid olaraq Allah kifayətdir!" – demişdim. O da razılaşdı. Məndən zəmanətçi istədikdə "Zamin olaraq Allah kifayyətdir!" – demişdim. O da zamin olaraq Səndən razı olmuşdu. Sonra mən gəmi tapmaq üçün cəhd etdim, ancaq tapa bilmədim. İndi onu Sənə əmanət edirəm! – dedi və odun parçasını dənizə atdı. Sonra da oradan uzaqlaşıb vətəninə dönmək üçün bir gəmi axtarmağa başladı.*

*Borc verən adam borc alanın yolunu gözləməyə başladı. Bu vaxt içində pul olan ağac parçasını tapdı. Onu istifadə etmək üçün evinə apardı. Mişarla ortadan böləndə pulu və məktubu tapdı.*

*Bir müddətdən sonra borc alan da gəlib çıxdı. Min dinar götürərək həmin adamın yanına gəldi:*

*– Borcumu dediyim vaxtda ödəyə bilmək üçün dayanmadan gəmi axtardım, amma bundan əvvəl gələn bir gəmi tapa bilmədim – dedi.*

*Alacağı olan adam:*

*– Sən mənə nə isə bir şey göndərmisənmi? – deyə soruşdu.*

*Borclu:*

*– Mən sənə bundan əvvəl gəmi tapa bilmədiyimi söylədim – dedi.*

*Alacağı olan adam:*

*– Allah-Təala ağac parçası içərisində göndərdiyin pulu sənin yerinə ödədi. Gətirdiyin bu min dinarı al və sağ-salamat geri dön" –* dedi.[766]

Hz. Peyğəmbərin *(s.ə.s)* bəhs etdiyi bu hekayə ilə Allaha təvəkkül, əhdə vəfa, ticarət əxlaqı kimi mühüm mövzuları gözəl şəkildə səhabələrə öyrətmişdir.

Əbu Hüreyrədən (r.a) rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu:

– *"Vaxtı ilə bir nəfər yolla gedərkən çox susadı. Bir quyu tapıb içinə girdi, oradan su götürüb çölə çıxdı. Bu zaman dili bir qarış çölə çıxmış, susuzluqdan nəm torpağı yalayan bir köpək gördü. Öz-özünə: "bu zavallı köpək də eynən mənim kimi çox susayıb", dedi və dərhal quyuya düşdü, məstinin içini su ilə doldurdu, məstini ağzı ilə tutaraq çölə çıxdı və köpəyə su verdi. Allah-Təala onun bu hərəkətindən razı qaldı və günahlarını bağışladı".*

Səhabələr:

– Ey Allahın Rəsulu, bizə heyvanlara görə də savab var? – dedilər. Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Hər bir canlıya görə savab var"*, – buyurdu.[767]

Əbu Hüreyrədən rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu:

*"Yalnız üç nəfər beşikdə ikən danışmışdır. Onlardan biri Məryəmin oğlu Hz. İsa, digəri Cüreyc ilə macərası olan uşaqdır.*

*Cüreyc ibadətə çox düşkün idi. Bir məbədə yerləşib orada ibadət etməyə başladı. Bir gün anası gəlib:*

*– Cüreyc! – deyə səsləndi.*

766. Buxari, Kəfalət, 1.

767. Buxari, Mülaqat, 9, Məzalim, 23, Ədəb, 27; Müslim, Salam, 153; Əbu Davud, Cihad, 44; İbn Macə, Ədəb, 8.

*Cüreyc öz-özünə: "Ya Rəbb, görəsən, anama cavab verim, yoxsa namazıma davam edim?" – dedi. Sonra namazına davam etdi. Anası da çıxıb getdi.*

*Ertəsi gün yenə Cüreyc namaz qılarkən anası gəldi və:*

*– Cüreyc! – deyə səsləndi.*

*Yenə Cüreyc öz-özünə "Ya Rəbb, anama cavab verim, yoxsa namazıma davam edim?" deyə düşündü. Sonra namazına davam etdi. Bir gün sonra anası yenə Cüreyc namaz qılarkən gəldi və:*

*– Cüreyc! – deyə səsləndi.*

*Cüreyc öz-özünə "Ya Rəbb, anama cavab verim, yoxsa namazıma davam edim?" deyə düşündü. Sonra namazına davam etdi.*

*Anası ona:*

*– Allahım, fahişələrin üzünə baxmadan onun canını alma! – deyə bəddua etdi.*

*Bir gün İsrail oğulları Cüreycin ibadətə düşkünlüyü haqda söhbət edirdilər. Gözəlliyi ilə məşhur bir fahişə də orada idi.*

*– Əgər istəsəniz, mən onu başdan çıxarda bilərəm, – dedi. Vaxt itirmədən Cüreycin yanına getdi. Lakin Cüreyc onun üzünə də baxmadı.*

*Cüreycin ibadətxanasında qalan bir çoban vardı. Qadın onunla münasibətə girərək çobandan hamilə qaldı. Uşağını dünyaya gətirdi və onun Cüreycdən olduğunu iddia etdi. Bunu eşidən camaat Cüreycin yanına gəlib onu çölə çıxardıb döyməyə başladılar və ibadətxanasını yandırdılar. Cüreyc:*

*– Nə üçün belə edirsiniz? – dedikdə:*

*– Sən bu fahişə ilə zina etmisən və sənin uşağını doğub, – dedilər. Cüreyc:*

*– Hardadı uşaq? – deyə soruşdu. Uşağı ona gətirdilər. Cüreyc: "Yaxamı buraxın, namaz qılım", – dedi. Namazını qılıb qurtarandan sonra uşağın yanına gəldi və qarnına toxunub: "Balaca, de görüm atan kimdir?" – deyə soruşdu.*

*Uşaq:*

*– Atam filan çobandır, – cavabını verdi.*

*Bunu görən camaat Cüreycin əlini öpməyə və əllərini ona sürtərək əfv diləməyə başladı.*

*– Sənə qızıldan məbəd tikəcəyik,- dedilər. Cüreyc:*

*– Xeyr, əvvəl necə idisə, yenə də kərpicdən tikin, – dedi. Ona kərpicdən bir məbəd tikdilər.*

(Beşikdə danışan üçüncü şəxsin hekayəsi belədir)

*Bir uşaq anasından süd əmərkən cins ata minmiş və gözəl geyimli yaraşıqlı bir nəfər oradan keçdi. Onu görən ana:*

*– Allahım, mənim oğlumu da belə elə! – deyə dua etdi.*

*Süd əmməyi kəsən körpə həmin adama baxaraq:*

*– Allahım, məni onun kimi etmə, – dedi və əmməyə davam etdi.*

Əbu Hüreyrə deyir ki:

*– Uşağın süd əmməsindən söz edərkən Rəsulullah (s.ə.s)in şəhadət barmağını ağzına alıb əmməsi hələ də gözümün qabağındadır. Hz. Peyğəmbər (s.ə.s) sözünə belə davam etdi:*

*"Bu zaman bir qrup insan "zina etdin, oğurluq etdin" deyərək bir cariyəni döyə-döyə oradan keçirdi. Cariyə isə:*

*– Mənə Allah kafidir, o nə gözəl vəkildir (hasbiyallahu və niməl-vəkil) deyirdi.*

*Bunu görən ana:*

*– Allahım, uşağımı onun kimi etmə! – deyə dua etdi.*

*Məməni ağzından çıxardan uşaq cariyəyə baxdı və:*

*– Allahım, məni onun kimi et! – dedi.*

*Bu zaman ana-bala danışmağa başladılar. Ana:*

*– Yaraşıqlı bir adam keçdi. Mən də "Allahım, mənim oğlumu da belə et!" – deyə dua etdim. Sən isə "Allahım, məni onun kimi etmə!" – dedin. O cariyəni oğurluq və zina etdin deyərək döyə-döyə apardılar.*

*Mən: "Allahım, uşağımı onun kimi etmə!" – deyə dua etdim. Sən isə: "Allahım, məni onun kimi et!" – dedin. Nə üçün? – deyə soruşdu.*

*Uşaq cavab verdi:*

*– O adam zalım biri idi. Ona görə də mən "Allahım, məni onun kimi zalım etmə!" – deyə dua etdim. O cariyə zina etmədiyi halda zina etdin deyib döyürdülər. Oğurluq etmədiyi halda oğurluq etdin deyirdilər. Ona görə də "Allahım, məni onun kimi et!"* – deyə dua etdim.[768]

Bəzən bir mövzunu izah eləmək üçün ən yaxşı vasitələrdən biri də hekayədir. Təbliğçi də yeri gələndə Quranın və Rəsulullahın üslubuna sadiq qalaraq hekayələrdən istifadə etməli, həmsöhbətləri üçün faydalı olacaq hekayələri doğru seçməlidir.

Sadalanan xüsuslardan əlavə Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğdə istifadə etdiyi özünəxas metodlardan bəzilərini də qeyd etmək yerinə düşər. Hansı ki, həmin metodlar təbliğçi nöqteyi-nəzərindən böyük əhəmiyyətə malikdir.

### Q. Həvəsləndirmək və qorxutmaq (Tərğib və Tərhib)

Tərğib – bir işi görməyə və ya bir şeyi əldə etməyə həvəsləndirmək deməkdir. Tərhib – isə bunun əksinə insanı bir şeydən çəkindirmək, faciəli, təhlükəli aqibətdən qorxutmaq mənasındadır. Həm tərğibin, həm də tərhibin insanın ruhuna xeyrə istiqamətləndirmək, şərdən çəkindirmək baxımında təsiri böyükdür. İnsan psixalogiyasının bu xüsusiyyətinə görə Uca Rəbbimiz «Qurani-Kərim"də, Allah Rəsulu da hədisi-şəriflərində tərğib və tərhibdən müvazinətli bir şəkildə istifadə etmişdir.

Qurani-Kərimin adlarından biri də "Məsani"dir. "Məsani" bir mənada "qoşa mənaları gizlədən" – yəni mövzuları müsbət və mənfisi ilə hər iki tərəfi özündə birləşdirən, məsələləri bir-birinə zidd olaraq bəyan edən deməkdir. Həqiqətən Allah kəlamında mövzuların əksəriyyəti belə verilmişdir. Bir neçə misalla mövzumuz daha yaxşı anlaşılacaqdır.

768. Buxari, Əməl fis-salət, 7, Məzalim, 35, Ənbiya, 48, 54; Müslim, Birr, 7, 8.

Qurani-Kərimin ilk surəsi olan "Fatihə" surəsinin ikinci ayəsində Allah-Təalanın "Rəhman və Rəhim – nəhayətsiz mərhəmət sahibi, məxluqata sonsuz mərhəmət edən" sifətləri zikr edilib qullara Uca Allahın mərhəməti ilə ümid verilərkən dərhal arxasınca gələn üçüncü ayədə **"O Allah Haqq-Hesab** (qiyamət) **gününün sahibidir"** xəbərdarlığı ilə insanın ümidsizliyə qapılmasına mane olunur. Yenə bu surə ilə möminlər bir tərəfdən doğru yolda sabitqədəm olmaq üçün dua edir, dərhal ardınca da bunun tam ziddi olaraq qəzəbə uğrayanların və zəlalətə sürüklənənlərin yollarına düşməmək üçün Allaha sığınırlar.

"Bəqərə" surəsinin ilk beş ayəsində Quranın müttəqilər üçün bir hidayət rəhbəri olduğu bildirildikdən sonra təqva sahiblərinin ən mühüm xüsusiyyətləri sadalanmaqdadır. O biri iki ayədə isə kafirlərin vəziyyətləri və başlarına gələcək böyük əzab bildirilməkdədir. Yenə "Bəqərə" surəsinin 24-cü ayəsində Qurani-Kərimi inkar edənlər, yanacağı günahkar insanlar və kibrit daşlarından ibarət olan cəhənnəmlə hədələnərkən, dərhal arxasınca 25-ci ayədə iman gətirən və yaxşı işlər görən şəxslərə ağacları altından çaylar axan cənnətlər və oradakı ağlımızla dərk edə bilməyəcəyimiz nemətlər vəd edilməkdədir.

Qurani-Kərimdə tərğib və tərhib üslubunun bu şəkildə əksər hallarda bir yerdə istifadə edildiyini görürük. Tərğib üçün daha çox Allahın rəhməti, rizası və cənnət nemətləri; tərhib üçün isə Allahın qəzəbi, cəhənnəmi və onun müxtəlif dərəcələrindəki əzabı anladılır.

"Hicr" surəsində İblisin Hz. Adəmə (ə.s) təzim məqsədi ilə səcdə etməməsindən sonra cəhənnəmdən belə bəhs edilir:

**"Sənə uyan azğınlar istisna olmaqla, bəndələrim üzərində** (onlaraı yoldan çıxarıb günaha vadar etməyə) **sənin heç bir hökmün olmaz: Şübhəsiz ki, cəhənnəm onların hamısına vəd olunmuş** (onları gözləyən) **yerdir! Cəhənnəmin yeddi qapısı** (təbəqəsi) **var. Hər qapıdan müəyyən bir dəstə girər".** (Hicr, 15/42-44)

Sonra birbaşa cənnətin təsvirinə keçilir:

**"Allahdan qorxub pis əməllərdən çəkinənlər isə cənnətlərdə və bulaqlar başında olacaqlar. Ora sağ-salamat** (sağlıqla) **və əmin-amanlıqla daxil olun! Biz onların ürəklərindəki kin- küdrəti çıxrıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya** əyləşərlər. Onlara cənnətdə heç bir yorğunluq (zəhmət) üz verməz. Onlar oradan çıxan da deyillər". (Hicr, 15/45-48)

Allah Rəsulu da Qurani-Kərimdəki bu ilahi üslubu təqib edərək söhbətlərində tərğib və tərhibdən istifadə etmişdir. Hz. Peyğəmbər *(s.ə.s)* savabını zikr edib verəcəyi faydalara diqqət çəkərək xeyirli əməllərə təşviq etmiş, cəzasını bildirib zərərlərini xəbər verərək də şərdən çəkindirmişdir. Bilal ibn Haris əl-Muzənidən (r.a) rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurmuşdur:

*"Qul Allahın razı olduğu bir sözü söylər, amma bu sözlə Allahın rizasını qazanacağı heç ağlına gəlməz. Halbuki Allah, həmin sözə görə Özünə qovuşacağı qiyamət gününə qədər o kəsdən razı olar.*

*Yenə bir qul Allahı qəzəbləndirən bir söz söyləyər, amma o sözünə görə Özünə qovuşacağı qiyamət günününə qədər ona qəzəblənər".*[769]

Bu hədisi-şərif tərğib və tərhib üslubu ilə söhbətin ən önəmli ədəb qaydalarından birini öyrətməkdə, diqqətsiz və ya əhəmiyyət vermədən söyləniləcək sadə görünən bir sözün əslində Allah dərgahında çox böyük nəticələrə səbəb ola biləcəyini açıq şəkildə ortaya qoymaqdadır.

Hz. Peyğəmbərin *(s.ə.s)* həm təğrib, həm də tərhibdən yanaşı istifadə etməsinə dair başqa bir misal isə belədir. Rəsulullah *(s.ə.s)* belə buyurdu:

*– "Cəhənnəmə girən iki nəfərin ordakı fəryad və nalələri şiddətlənəcək.*

*Allah Təala:*

*– Bunları çıxardın! – buyuracaq.*

*Onlara:*

*– Nəyə görə fəryad edirsiniz? – deyə soruşacaq.*

769. Tirmizi, Zöhd, 12; İbn Macə, Fitən, 12.

*Onlar:*

*– Bizə mərhəmət edəsən deyə belə etdik! – deyəcəklər.*

*Allah-Təala:*

*– Mənim sizə mərhəmətim özünüzü atəşə atmağınızdır! – buyuracaq.*

*Onlar gedəcəklər. Biri özünü atəşə atacaq. Allah da atəşi ona soyuq edəcək. Başqa birisi ayağa duracaq amma özünü atəşə atmayacaq.*

*Allah Təala:*

*– Yoldaşın atdığı kimi, sən niyə özünü cəhənnəmə atmadın? – deyə soruşacaq.*

*Həmin adam:*

*– Ey Rəbbim! Məni oradan çıxartdıqdan sonra bir daha ora göndərməyəcəyini ümid edirəm! – deyəcək.*

*Bunun müqabilində Allah-Təala:*

*– "Yaxşı, istədiyinizi verdim, buyuracaq. İkisi də Allahın mərhəməti ilə cənnətə girəcək".*[770]

– İnsan təbiəti yeknəsəq öyüd-nəsihətə qarşı bir müddət biganə qalmaqdadır. Bu səbəbdən də təlim-tərbiyədə yeknəsəq və monotonluqdan uzaq durulmalıdır. Xülasə nə fasiləsiz qorxudulmalı, nə də fasiləsiz ümid verilməlidir. Hətta qorxu ünsürlərinin bir az çox olması zəruridir. Çünki xəbərdarlıq insan psixologiyasına müjdə verməkdən daha çox təsir etməkdədir.

**L. Xətaları düzəltmək üslubu**

Allah-Təala insanı bütün məxluqatın ən şərəflisi yaratmışdır. Yaradılışındakı bu mükəmməlliklə bərabər, insan fiziki və mənəvi cəhətdən həddindən çox zəifdir. Bunlar tələskənlik, qəzəb, həsəd, əbədi yaşamaq arzusu, mənfəət düşkünlüyü və s-dir. Bu cür xasiyyətlər insanın xəta etmək ehtimalını artırmaqdadır.

---

770. Tirmizi, Cəhənnəm, 10.

Allah-Təala Hz. Adəm ilə Həvvanı yaradıb cənnətə yerləşdirdi. Bütün cənnət nemətlərindən yemələrinə icazə verdiyi halda, sadəcə bir ağaca yaxınlaşmağı onlara qadağan etdi. Şeytanın onlara açıq-aydın düşmən olduğunu da bildirdi. Şeytan Hz. Adəm və Həvvanı aldatmaq üçün hər cür hiylələrə əl atdı. Bu həqiqət ayeyi-kərimədə belə bildirilir:

**"Şeytan Adəmin və Həvvanın örtülü ayıb** (övrət) **yerlərini özlərinə göstərmək məqsədi ilə pıçıldayıb dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya** (Cənnətdə) **əbədi qalmamağınız üçün qadağan etmişdir."**

**Həm də onlara: "Mən, əlbəttə, sizin xeyirxah məsləhətçilərinizdənəm" - deyə and içdi.**

**Beləliklə, şeytan onları batil sözlərlə aldatdı** (onları aldadaraq uca yerlərdən, yüksək mərtəbədən aşağı endirdi.) **Adəm və Həvva ağacın meyvəsindən daddıqda ayıb yerləri** (gözlərinə) **göründü. Onlar cənnət ağaclarının yarpaqlarından** (dərib) **ayıb yerlərinin üstünü örtməyə başladılar. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə bu ağaca** (yaxınlaşmağı) **qadağan etməmişdimmi?".** (Əraf, 7/20-22; Tirmizi, Qiyamət, 45)

**"Doğrusu, bundan əvvəl Adəmə** (şeytana uymamağı) **tövsiyə etmişdik. Lakin o** (tövsiyəmizi) **unutdu və Biz onda** (əhdi qorumağa) **əzm, səbat görmədik".** (Taha, 20/115)

"İnsan" kəlməsinin iki eyni kökdən törəndiyi söylənmişdir. Birincisi, unutma mənasındakı "nisyan"dır. Ümumiyyətlə, ayədə ifadə edildiyi kimi Hz. Adəm Allaha olan əhdini unutmuşdur. İkincisi isə "ünsiyyət"dir ki, insan yaşadığı yerə, vəziyyətə tez alışır, vərdiş edir və o yerin rənginə boyanır. Hər iki xüsusiyyəti insanın xəta etmə və günaha girmə ehtimalını artırmaqdadır.

İnsanın xarakterini çox yaxşı bilən və onun xəta etmək xüsusiyyətinə yaxından bələd olan Allah Rəsulu *(s.ə.s)* həmsöhbətlərinin səhv davranışlarına qarşı çox həssas münasibət bəsləmiş və onları ən gözəl üsullarla islah etməyə çalışmışdır. Aləmlərə rəhmət olaraq göndərilən Hz. Peyğəmbərin *(s.ə.s)* yeganə vəzifəsi və məqsədi insanları hidayətə qovuşdurmaq

idi. Bu səbəbdən hər hansı bir insanı əldə etmək üçün cəhd göstərirdi. Heç bir insanı hər hansı bir səhvinə görə özündən uzaqlaşdırmazdı. Hz. Peyğəmbərin *(s.ə.s)* səhvləri düzəltmək üçün istifadə etdiyi üsulları aşağıdakı şəkildə izah etmək mümkündür:

### 1. Mehribanlıq, nəvaziş və mülayimlilik

Mehribanlıq, nəvaziş və mülayimlik – deyilən sözdə, edilən işdə, göstərilən davranışda asan olana üstünlük vermək, insanlara qarşı nəzakətli və yumşaq olmaq deməkdir.

Mehribanlıq, nəvaziş və mülayimlik Allah və Rəsulunun razı olduğu, bəyəndiyi və təriflədiyi gözəl əxlaqi xüsusiyyətlərdən biridir. Ayeyi-kərimədə belə buyurulur:

**“Yaxşılıqla pislik eyni cür ola bilməz!** (Ey mömin kimsə!) **Sən pisliyi yaxşılıqla dəf et!** (Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə cömərdliklə, cəzaya bağışlamaqla cavab ver!) **Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!”**

**Bu** (xislət) **Yalnız** (dünyada məşəqqətlərə) **səbr edənlərə verilir və yalnız böyük qismət** (savab, fəzilət) **sahiblərinə əta olunur!.** (Fussilət, 41/34-35)

**“**(Ya Muhamməd!) **Allahın mərhəməti səbəbinə sən onlarla** (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) **yumuşaq rəftar etdin! Əğər qaba,sərt ürəkli olsaydın, əlbəttə onlar sənin ətrafından dağılıb gedərdilər”.** (Ali-İmran, 3/159)

Allah Rəsulu *(s.ə.s)* insanlara mehribanlıq, nəvaziş və mülayimlik ilə münasibəti təbliğ və tərbiyə vəzifəsinin əsası olaraq qəbul etmiş və həyata keçirmişdir. O, ümmətinə də bu gözəl əxlaqla zinətlənmələrini tövsiyə edərək belə buyurmuşdur:

*“Allah-Təala bəndələrinə lütfkardır. Onlara yardım göstərilməsindən məmnun qalar”.*[771]

Başqa hədisi-şərifdə Hz. Peyğəmbər *(s.ə.s)* belə buyurur:

---

771. Buxari, Ədəb, 35; Müslim, Birr, 77.

*"Harda mülayimlik və rahatlıq varsa, orda gözəllik vardır. Rahat olmayan hər şey çirkindir".*[772]

Hz. Peyğəmbər *(s.ə.s)* bədəvilərin ədəbsiz davranışlarına qarşı həmişə mehriban və mülayim münasibət göstərmişdir. Onların sərt yanaşmalarına sərtliklə deyil, bilavasitə qəlbləri-ni fəth edəcək yumşaqlıqla cavab vermişdir. Hz. Peyğəmbərin *(s.ə.s)* həyatında buna aid çoxlu misallar var. Əbu Hüreyrə (r.a) belə nəql edir:

Bir bədəvi Hz. Peyğəmbərin *(s.ə.s)* ziyarətinə gəlmişdi. Məscidi-Nəbəvidə namaz qıldıqdan sonra əllərini qaldırıb dua etməyə başladı:

– Ya Rəbbi! Mənə və Muhammədə mərhəmət et, ikimizdən başqa heç kimə mərhəmət etmə – dedi.

Bunu eşidən Hz. Peyğəmbər *(s.ə.s)* bədəvinin bu qəribə duasına güldü. Sonra ona tərəf dönərək :

– *"Allahın geniş olan mərhəmətini daraltdın"* – dedi.

Bədəvi Hz. Peyğəmbərin *(s.ə.s)* yanında bir az oturduqdan sonra dəstəmazını pozmaq üçün məscidin kənarına çəkildi və orada dətəmazını pozmağa başladı. Bədəvinin heç kəsin gözləmədiyi bu hərəkətini görən səhabələr təlaşa düşdülər. Bəziləri oturduğu yerdən "Etmə, eləmə!" – deyə çığıraraq, bəziləri də hisslərinə qapılıb bədəvinin üstünə hücum edərək ona mane olmağa çalışdılar. Bu hadisəyə dərhal müdaxilə edən Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Qoyun işini tamamlasın"* – dedikdən sonra, bədəvinin dəstəmazını pozduğu yerə böyük bir qabla su tökmələrini tapşırdı.

Sonra da:

– *"Siz rahatlıq göstərmək üçün göndərildiniz, çətinlik üçün yox!"* – deyərək səhabələri sakitləşdirdi.[773]

---

772. Müslim, Birr, 78; Əbu Davud, Ədəb, 10.
773. Əbu Davud, Təharət, 136.

Bədəvilər Hz. Peyğəmbərin *(s.ə.s)* yanında çox qalmadıqları üçün İslam ədəbini öyrənə bilmir, bu səbəbdən də vaxtaşırı bu cür ədəbsiz hərəkətlər edirdilər. Hz. Peyğəmbər *(s.ə.s)* onların xətaları, kobudluqları, qaba hərəkət və davranışlarına baxmayaraq onlarla mülayim davranmışdır. Dinini bilməyən insanlara Hz. Peyğəmbərin *(s.ə.s)* göstərdiyi bu xoş münasibət onun daha çox sevilməsinə, öyrətdiyi dini əsasların daha çox mənimsənilməsinə səbəb oldu. Həmin səhabə daha sonra belə demişdir:

– Atam-anam ona fəda olsun, məni nə məzəmmət etdi, nə də pis söz dedi. Ancaq mənə belə bir xəbərdarlıq etdi:

*"Məscidlərdə dəstəmazı pozmaq olmaz. Buralar Allahı zikr etmək və namaz qılmaq üçündür".*[774]

Mövzumuzla əlaqəli bir hadisəni Müaviyə ibn Hakim (r.a) belə rəvayət edir:

Rəsulullahın *(s.ə.s)* arxasında namaz qılarkən bir nəfər asqırdı. Mən də dərhal "Yərhamukəllah" – dedim. Camaat mənə baxmağa başladı.

Bunun müqabilində:

– Vay başıma gələnlər! Axı, niyə mənə elə baxırsınız? – dedikdə əllərini dizlərinə vurmağa başladılar. Onların məni susdurmağa çalışdıqlarını gördükdə əsəbiləşdim. Amma yenə də susdum.

Atam-anam Rəsulullaha *(s.ə.s)* fəda olsun! Nə ondan əvvəl, nə də ondan sonra daha yaxşı müəllim görmədim. Vallahi məni nə məzəmmət etdi, nə döydü, nə də pis söz dedi.

Namazı bitirdikdən sonra mənə:

– *"Bu ibadətin adı namazdır. Namaz qılarkən dünya kəlamı danışmaq olmaz. Çünki namaz təsbeh, təkbir və Quran oxumaqdan ibarətdir"* – dedi.[775]

Abdullah ibn İkraş (r.a) atasından bu hadisəni nəql edir:

---

774. İbn Macə, Təharət, 78.
775. Müslim, Məsəcid, 33.

Qövmüm Mürrə ibn Abid oğulları mallarının zəkatını mənimlə Rəsulullaha *(s.ə.s)* göndərdilər. Mədinəyə çatanda Hz. Peyğəmbəri *(s.ə.s)* mühacirlə ənsarın arasında oturan gördüm. Hz. Peyğəmbər *(s.ə.s)* məni evinə apardı:

– *"Yeməyə bir şey varmı?"* – deyə soruşdu. Bizə içərisi ət parçaları ilə dolu bir sini yemək gətirdilər. Yemək üçün yaxınlaşdıq. Mən qabın hər tərəfindən yeyirdim. Allah Rəsulu *(s.ə.s)* isə öz qarşısından yeyirdi. Sol əli ilə sağ əlimdən tutub:

– *"Ey İbn İkraş! İstədiyin yerdən ye! Çünki (boşqabın içindəkilərin hamısı) eyni cür xurma deyil"* – dedi.[776]

Hz. Peyğəmbər *(s.ə.s)* bu hadisədə öz mehribanlığı və mülayimliyi ilə İkraşın əlindən tutaraq ona yemək ədəbini öyrətmişdir.

Abbad ibn Şürahbil belə nəql edir:

Bir zamanlar çox kasıb idim. Buna görə də Mədinənin bağlarından birinə icazəsiz girdim. Sünbül ovub həm yedim, həm də torbama yığdım. Birdən bağ sahibi gəlib məni yaxaladı, döydü, torbamı əlimdən aldı və Rəsulullahın *(s.ə.s)* yanına apardı. Baş verənləri ona danışdı. Allah Rəsulu *(s.ə.s)* mal sahibinə:

*"Cahil olduğu halda öyrətmədin, ac olduğu halda doydurmadın!"* – dedi.

Sonra bağ sahibinə torbamı qaytarmağı əmr etdi.

Daha sonra da Rəsulullah *(s.ə.s)* mənə bir və ya yarım sa[777] miqdarında azuqə verdi.[778]

Rəsulullah *(s.ə.s)* sevmədiyi və davranışlarını bəyənmədiyi kimsələrin şərindən uzaq olmaq üçün onlarla mülayim davranırdı. Hz. Aişənin bu rəvayəti dediklərimizə gözəl nümunədir:

Bir gün bir nəfər Hz. Peyğəmbərin *(s.ə.s)* yanına girmək üçün icazə istədi. Onun adını eşitdikdə Hz. Peyğəmbər *(s.ə.s)*:

---

776. Tirmizi, Ətimə, 41; İbn Macə, Ətimə, 11.
777. Sa- 2120 qrama bərabər bir ölçü vahidi.
778. Əbu Davud , Cihad, 85; Nəsai, Qudat, 21.

– *"Tayfasının ən pis adamı!"* – dedi. Sonra da girməsinə icazə verdi. Həmin adam hüzurunda olarkən onunla mülayim tərzdə danışmağa başladı. Adam getdikdən sonra mən:

– Ey Allahın Rəsulu, onunla çox mülayim danışdın, halbuki bir az əvvəl onun haqqında tayfasının ən pis adamı deyirdin – dedim.

Belə cavab verdi:

– *"Qiyamət günü Allah nəzərində məqamına görə insanların ən pisi insanların dilinə və kobud davranışlarına görə və hamını qaçaraq ondan uzaq durduğu kimsədir".*[779]

– Rəsulullah *(s.ə.s)* insanlara şəxsən mehriban, nəvazişli yanaşdığı kimi, təlim üçün vəzifələndirdiyi adamlara da getdikləri yerlərdə belə davranmalarını əmr və tövsiyə edərdi. Bunun bir nümunəsini bu hadisədə görə bilərik:

Əmir ibn Mürrə (r.a) Hz. Peyğəmbərin *(s.ə.s)* onu İslama dəvət etdiyini eşidib birbaşa Mədinəyə gəldi. Hz. Peyğəmbərin *(s.ə.s)* hüzurunda bu şeri oxudu:

*Şəhadət etdim Allah haqdır.*

*Daş ilahları ilk tərk edən mənəm*

*Mühacir olaraq əl-qolumu çırmaladım*

*Sənə doğru maneələri, sərt yolları aşdım.*

*Zatı və soyu baxımından insanların ən xeyirlisi ilə yoldaş olmaq üçün.*

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Xoş gəldin, ey Əmir!"* – buyurdu.

Əmir (r.a):

– Atam-anam sənə fəda olsun, ey Allahın Rəsulu! Məni qövmümə göndər. Allah-Təala Sənin vasitənlə mənə lütf etdiyi kimi, ümid edirəm ki, mənimlə də onlara rəhm edər – dedi.

---

779. Müslim, Birr, 73.

Hz. Peyğəmbər *(s.ə.s)* onu tayfasının yanına göndərərkən belə tövsiyə etdi:

– *"Ey Əmir! Amandır mülayim və doğru sözlü ol, qaba və daş qəlbli olma, təkəbbür və həsəddən uzaq dur!".*[780]

Xülasə, insan sərtlik və kobudluqdan xoşlanmır. Özü kobud olsa belə, mülayim və xoş münasibət görmək istəyir. Buna görə də insanları İslama dəvət edərkən və dinlərini öyrədərkən onlarla mehriban və mülayim tərzdə davranmaq lazımdır. İnsanlarla ülfət və məhəbbətin şərti budur.

**2. Xətalara qarşı səbir və dözüm göstərmək**

Hz. Peyğəmbər *(s.ə.s)* səhv davranış sahibləri ilə mehriban və mülayim rəftar etdiyi kimi, onlara qarşı böyük səbir və dözüm də göstərirdi. Əsla səbirsizlik etməzdi. Hz. Peyğəmbərin *(s.ə.s)* sadəcə bu xüsusiyyətini nəzərə alaraq müsəlman olanlar var idi. Alim və varlı yəhudi Zeyd ibn Sanə onlardan biridir. O, Allah Rəsulunun göstərdiyi səbrə dair belə bir misal nəql edir:

Muhammədin *(s.ə.s)* üzünə baxanda peyğəmbəlik əlamətlərindən iki cəhətdən başqa, bütün xüsusiyyətlərini olduğu kimi sezdim. Görəsən ondakı yumşaqlıq və dözümlülük qarşılaşdığı cahillik və kobudluqdan üstündür? Bu davranışlar onun dözümlülüyünü artırar ya azaldar? Bununla bağlı heç bir məlumat əldə etməmişdim. Əgər onunla bir müddət bir yerdə olsam hər halda bunu da öyrənərdim deyə – düşünmüşdüm.

Bir gün Rəsulullah *(s.ə.s)* Əli ibn Əbu Taliblə birlikdə evindən çıxdı. Bu vaxt bədəviyə oxşayan bir adam gəldi və Hz. Peyğəmbərə xitabən:

– Ya Rəsulallah! Kənd camaatından filankəsin oğulları müsəlman oldular. Demişdin ki, müsəlman olsalar bolluq və bərəkət sahibi olacaqlar. Amma tam əksinə, quraqlıq üzündən son dərəcə qıtlığa, məhrumiyyətlərə məruz qaldılar. Ya Rəsulallah! Onların bir şey umub qəbul etdikləri İslamdan çıxmalarından qorxuram. Onlara yardım etsəniz çox yaxşı olar! – dedi.

---

780. İbn Kəsir, *əl-Bidayə*, III, 16-17.

Hz. Peyğəmbər *(s.ə.s)* həmin adama baxdı, sonra yan tərəfə döndü Hz. Əlini gördü. Hz. Əli (r.a):

– Ya Rəsulallah! Onlara veriləcək heç bir şey qalmadı – dedi.

Bunun müqabilində mən dərhal Rəsulullaha *(s.ə.s)* yaxınlaşıb:

– Ey Muhamməd! Sizə aid olan filankəsin oğullarının bağından sonra qaytarmaq şərti ilə mənə bu qədər xurma satsan olar? – dedim.

Allah Rəsulu *(s.ə.s)*:

– *"Xeyr, olmaz ey Yəhudi! Amma müəyyən miqdarda xurma sata bilərəm"* – dedi.

Mən də:

– Olar! – dedim.

Satış üçün mənə xurma verdikdə bir müddət sonra, xurmanın əvəzində ona səksən misqal[781] qızıl verdim. Hz. Peyğəmbər *(s.ə.s)* dərhal bu qızılları həmin adama verdi və dedi:

– Ədalətlə paylaşdır və bununla onlara yardım et!"

Alacağımın vədəsindən 2-3 ay sonra Rəsulullahın *(s.ə.s)* yanına gəldim. Köynəyinin yaxasından tutdum. Qaşqabaqlı və qanıqara bir surətdə üzünə dik-dik baxaraq:

– Ey Muhamməd! Haqqımı hələ ödəmək istəmirsən? Vallahi, ey Əbdülmütəllib oğulları! Sizin borcunuzu ödəməkdə pis davranan kəslər olduğunuzu, vaxtı daim uzatdığınızı bilməzdim. Sizinlə bir yerdə yaşadıqdan sonra sizin belə olduğunuz mənə bəlli oldu – dedim.

Hz. Ömər (r.a) gözlərini mənə dikdi və belə dedi:

– Ey Allahın düşməni! Rəsulullaha *(s.ə.s)* bu sözləri söyləyən, onunla belə davranan sənsən?! Onu haqq din və kitabla göndərən Allaha and olsun ki, əgər ondan çəkinməsəydim, şübhəsiz qılıncımla vurub kəlləni üzərdim!

781. Təxminən 4,26 q-a bərabərdir.

Rəsulullah *(s.ə.s)* sakitcə gülümsədi və Hz. Ömərə baxdıqdan sonra:

– *"Ey Ömər! O və mən səndən daha fərqli bir davranış göstərməyini istərdik. Sən mənə borcumu gözəl şəkildə ödəməyimi, ona da alacağını gözəl şəkildə istəməyini tövsiyə etməliydin! Ey Ömər! Get onun haqqını ödə, 20 sa da artıq ver!"* – dedi.

Mən:

– Ey Ömər! Mənə alacağımdan artıq verməyinizin səbəbi nədir? – deyə soruşdum.

Ömər:

– Allah Rəsulu *(s.ə.s)* səninlə sərt davranmağıma və sənə acıqlı baxmağıma görə artıq verməyimi əmr etdi – dedi.

Mən Ömərə:

– Ey Ömər! Məni tanıdın? – deyə soruşdum.

Ömər:

– Xeyr, tanımadım, sən kimsən? – dedi.

– Zeyd ibn Sanəyəm! – dedim.

Ömər:

– Yəhudilərin alimi? – deyə soruşdu.

– Yəhudi alimi! – dedim.

Ömər:

– Elə isə, Allah Rəsulu *(s.ə.s)* ilə belə davranmağının səbəbi nə idi? – deyə soruşdu.

Mən Ömərə:

– Ey Ömər! Muhamməddin *(s.ə.s)* üzünə baxanda, onda peyğəmbərlik əlamətlərinin ikisindən başqa hər şeyin tamamlandığını anladım. Görəsən yumşaqlıq və dözümlülük sifəti qarşılaşacağı cahillik və kobudluqdan üstündür? Ən kobud və cahil davranışlar onun dözümünü artırar, yoxsa azaldar? kimi xüsusiyyətləri hələ tədqiq etməmişdim. Bax, ona söylədikləri-

mi ancaq bu məqsədlə dedim və axtardığım bu xüsusiyyətlərin də onda olduğunu gördüm. Ey Ömər! Mən Allahı Rəbb, İslamı din, Muhamməmdi *(s.ə.s)* də peyğəmbər olaraq qəbul etdiyimə səni şahid tuturam. Malımın yarısını Muhammədin *(s.ə.s)* ümmətinə sədəqə verdiyimin şahidi ol. Çünki var-dövlətimə görə mən onlardan zənginəm.

Hz. Ömər:

Onların bir hissəsinə de! Çünki sən onların hamısına sədəqə verməyə mal çatdıra bilməzsən – dedi.

Mən də:

– Onların bir hissəsinə – dedim

Zeyd ibn Sanə Hz. Peyğəmbərin *(s.ə.s)* yanına qayıtdıqda:

– Şəhadət edirəm ki, Allahdan başqa heç bir ilah yoxdur. Yenə şəhadət edirəm ki, Muhamməd Allahın qulu və elçisidir – deyərək müsəlman oldu.[782]

Allah-Təala hər dərd üçün dünyada bir dərman yaratmışdır. Mənəvi dərdlərin də dərmanı səbirdir. İnsanlar düşüncələrinə və psixoloji quruluşlarına görə bir-birlərindən fərqlənirlər. İnsanların daxili aləmini, orada gizlətdiyi niyyətləri bilmək və ona görə davranmaq çox çətindir. Allah Rəsulunun *(s.ə.s)* nümayiş etdirdiyi kimi səbir və dözümlə hərəkət etmək ən səmərəli yoldur.

Hz. Peyğəmbərin *(s.ə.s)* göstərdiyi səbirlə bağlı başqa bir misalı isə Ənəs (r.a) belə nəql edir:

Rəsulullahla *(s.ə.s)* bir yerdə addımlayırdıq. Əynində nəcran parçasından tikilmiş qalın yaxalıqlı cübbə var idi. Bir bədəvi Hz. Peyğəmbərə *(s.ə.s)* arxadan yaxınlaşıb cübbəsindən bərk dartdı. Hz. Peyğəmbərin *(s.ə.s)* boynuna baxdım, cübbənin boynunda iz qoyduğunu gördüm.

Bədəvi:

---

782. Hakim, *Müstədrək*, III, 700-701.

– Ya Muhamməd! Allahın sənin yanında olan malından bu iki dəvənin üzərinə yüklə! Çünki sən nə öz malından, nə də atanın malından mənim dəvəmə yükləyəsi deyilsən – dedi.

Rəsulullah *(s.ə.s)* güldü. Sonra da bir adam çağırıb:

*"Bu iki dəvənin birinə arpa, digərinə xurma yüklə!"* – deyə əmr etdi.[783]

Hz. Peyğəmbərin *(s.ə.s)* geniş səbir və dözümü ilə bağlı Cübeyr ibn Mutim (r.a) belə nəql edir:

Hüneyn qəzvəsindən dönəndə Hz. Peyğəmbər *(s.ə.s)* ilə bir yerdə gedən bədəvi ərəblər qənimətdən onlara düşən payı təkidlə tələb etməyə başladılar. Nəhayət Hz. Peyğəmbəri *(s.ə.s)* Səmurə ağacının altında saxladılar. Cübbəsi ağacda ilişib qaldı. Hz. Peyğəmbər *(s.ə.s)* dəvəsini saxlayıb:

*"Cübbəmi mənə verin! Gördüyünüz bu ağaclar qədər heyvanım olsaydı, onların hamısını sizin aranızda paylaşdırardım. Siz də mənim xəsis, yalançı və qorxaq olmadığımı görərdiniz!"* – dedi.[784]

Gördüyümüz kimi, Hz. Peyğəmbər *(s.ə.s)* insanların cahil və kobud davranışlarına qarşı daim səbir və dözüm nümayiş etdirmiş və onların xətrinə dəymədən, incitmədən tərbiyə etmişdir.

### 3. Səhv edəni cəmiyyət içərisində utandırmamaq

Hz. Peyğəmbər *(s.ə.s)* səhv hərəkət və davranış gördükdə, səhv edənə şəxsən müraciət etmədən sanki hamıya söyləyirmiş kimi ümumi ifadələrdən istifadə edərək həmin hərəkət və ya hadisəyə öz münasibətini bildirərdi. Beləliklə də səhv edəni camaat içərisində incitmədən, pərt etmədən və şəxsiyyətini təhqir etmədən səhvini düzəltməyə çalışardı.

Hz. Aişə (r.anhə) belə nəql edir:

Hz. Peyğəmbər *(s.ə.s)* birisinin özü haqqında bir şey söylədiyini eşitdikdə:

783. Müslim, Zəkat, 128; Əbu Davud, Ədəb, 1.
784. Buxari, Cihad, 21.

*"Filankəsə nə olub ki, belə-belə deyir"* – deməyib, *"Bəzi kimsələrə nə olur ki, belə-belə deyirlər"* – deyərdi.[785]

Bəşəri münasibətlərdə xəta edəni utandırmamaq, onu təhqir etməmək və gözdən salmamaq üçün ümumi ifadələrdən istifadə etmək Hz. Peyğəmbərdə *(s.ə.s)* olduğu kimi müsəlmanların da şüarı olmalıdır. Çünki Allaha doğru gedən yol qəlbləri qırmaq deyil, könülləri fərəhləndirmək üçündür. Həqiqətən, qüsurlarına görə başqaları tərəfindən qınanaraq kənarlaşdırılan və gözə xor görünən bir sıra insanlar ancaq bu üslub və anlayışın bərəkəti ilə qazanıla bilər.

Yəla ibn Ümeyyə (r.a) belə nəql edir:

Bir gün Rəsulullah *(s.ə.s)* açıq yerdə yuyunan bir adam gördü. Dərhal minbərə çıxdı. Allaha həmd və şükürlər etdikdən sonra belə dedi:

– *"Allah diridir və ayıbları örtəndir. Abır-həyanı və örtünməyi sevir. Ona görə də kim yuyunarsa örtünsün"* – dedi.[786]

Hz. Peyğəmbər *(s.ə.s)* Allah-Təalanın "Səttar" (örtən) adını xatırladaraq ümumi bir ifadə ilə qullarının örtünmələrini istədiyini bildirmişdir. "Səttar" sözü də bu əmri yerinə yetirmək, Allahın əxlaqı ilə əxlaqlanmaq mənasını ifadə edir. Hz. Peyğəmbər *(s.ə.s)* bu yanaşma üsulu ilə sözügedən adamı camaat arasında rüsvay etmədən abır-həyaya, örtünməyə təşviq etmişdir.

Fitrətinə görə səhv etməyə meylli olan insan, qüsur etsə də psixoloji baxımdan səhvinin qabardılmasını qəbul etməz. İnsan nəfsinə başqalarını bağışlamaq çətin olsa belə, özünün bağışlanılmasını, hətta günahlarının üstünün örtülməsini arzu edər. Buna görə də Hz. Peyğəmbər *(s.ə.s)* heç kimsənin səhvini üzünə vurmaz, bilavasitə onu islah etmək üçün qəlbinə dəyməyəcək bir yol axtarıb tapardı.

Ənəs ibn Malik (r.a) belə nəql edir:

---

785. Buxari, Mənaqib, 25; Müslim, Salət, 119.
786. Əbu Davud, Həmmam, 2; Nəsai, Qüsl, 7.

– Bir dəfə Hz. Peyğəmbər *(s.ə.s)* bir adamın bədənində sarı boyalar görmüş və bundan xoşu gəlməmişdi. O adam çıxıb getmək istəyəndə Hz. Peyğəmbər *(s.ə.s)* yanındakılara:

*"O adama deyin ki, vücudundakı o sarı boyaları yusun!"* – dedi.

Allah Rəsulu *(s.ə.s)* birisində xoşlamadığı bir hərəkəti gördükdə heç bir zaman onun üzünə vurmazdı.[787]

Uca Rəbbimizin şərəfli adlarından biri də "Səttarul-uyub"-dur. Yəni eyibləri örtən, eyibləri gizlədən mənasını daşıyır. Hər bir müsəlman Rəbbinin bu adıyla əxlaqlanaraq Hz. Peyğəmbərin *(s.ə.s)* və səhabələrin nümunəvi davranış və hərəkətlərindən faydalanmalı və bacardığı qədər insanların səhvini örtməyə çalışmalıdır. Ən azından onları cəmiyyət içərisində, insanların arasında utandırıb rüsvay etməməlidir. Əks təqdirdə bu davranış həmin adamın səhvinin düzəldilməsinə yox, səhvinin təkrarlanmasına səbəb olar.

### 4. Alternativ göstərmək

İnsan bəzən necə davrandığını bilmədiyi üçün səhv edə bilər. Onu bu yanlış davranışdan çəkindirməyin ən etibarlı yollarından biri ona nə edəcəyini göstərən alternativ variantlar təqdim etməkdir. Xüsusən yeni böyüməkdə olan uşaqların tərbiyəsində bu metod böyük əhəmiyyət kəsb etməkdədir. Çünki uşaqlar gördükləri və duyduqları hər şeyə maraq göstərməklə bunların doğru və yanlış olduğunu düşünmədən dərhal təqlid edirlər. Onları bu təsadüfi həvəs və meyllərdən çəkindirmək: "Ay uşaq! Belə etmə, elə etmə!" – deməkdən çox "Belə etmə, amma belə et!", "Bunu yemə, amma bunu ye!", "Bu oynu oynama, amma bu oynu oynaya bilərsən" kimi məsələlərin alternativ həlli yollarını təqdim etmək daha əhəmiyyətlidir. Böyüdükcə insanların çoxunda bu xüsusiyyətlər qalmaqdır. Onlar da etdikləri səhvləri göstərilən alternativ davranışlar sayəsində düzəldə bilərlər.

Hz. Peyğəmbərin *(s.ə.s)* alternativ həll yolları göstərməsinin ən gözəl misallarından birini Rafi ibn Amr (r.a) belə nəql edir:

787. Əhməd ibn Hənbəl, *Müsnəd*, III, 133.

Uşaq vaxtı Ənsarın xurma ağaclarına daş atardım. Bir gün məni tutub Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gətirdilər. Allah Rəsulu *(s.ə.s)* mənə:

– *"Mənim balam! Nəyə görə xurma ağaclarına daş atırsan?"* – deyə soruşdu.

Mən:

– Ya Rəsulallah! Ac idim, buna görə yemək üçün daş atırdım – dedim.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Bir daha daş atma! Ağacın dibinə düşənlərdən yığ, ye!"* – dedi və başımı sığalladı. Daha sonra da "Allahım, onun qarnını doydur" – deyə mənə dua etdi.[788]

Gördüyümüz kimi Rəsulullah *(s.ə.s)* uşağa sadəcə *"Xurma ağacına daş atma!"* – deyə qadağa qoymaqla kifayətlənməmiş *"Mənim balam! Altlarına düşənlərdən yığ, ye!"* – deyərək alternativ variant göstərmişdir.

Hz. Ənəs (r.a) belə nəql edir:

Rəsulullah *(s.ə.s)* Mədinəyə gələndə mədinəlilərin iki (bayram) günləri var idi. O günlərdə oynayıb əylənərdilər.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Bu iki gün (ün məna və əhəmiyyəti) nədir?"* – deyə soruşdu.

Onlar:

– Biz cahiliyyə dövründə bu günlərdə əylənərdik! – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Allah bu iki bayramınızı onlardan daha xeyirli iki günlə dəyişdirdi. Qurban və Fitr (Ramazan) bayramı"* – dedi.[789]

Bu mövzu ilə bağlı başqa bir rəvayət isə belədir. Uhud döyüşü əsnasında Müaviyə oğullarının azad edilmiş köləsi Əbu

788. İbn Macə, Ticarət, 67.
789. Əbu Davud, Salət, 239; Nəsai, İydeyn, 1.

Uqbə Ruşeydül-Farisi təpədən dırnağa qədər silahlanmış zirehli, dəbilqəli bir müşriklə qarşılaşdı. O:

– Mən İbn Uveyfəm – deyərək bağırdı. Bu vaxt Xatibin azad olmuş köləsi Sad, ibn Uveyfə bir zərbə endirərək onu iki yerə böldü.

Rüşeyd də:

– Al bu da, mən farslı kölədən! – deyərək qılıncla vurub çiynini zirehi ilə bərabər iki yerə ayırdı. Hz. Peyğəmbər *(s.ə.s)* onların nə etdiklərini görür, söylədiklərini eşidirdi. Hz. Peyğəmbər *(s.ə.s)* Rüşeydə xitabən:

– *"Sən "fars"lı yox, "Ənsar"dan desən olmazmı?"* – dedi.

Bu zaman İbn Uveyfin qardaşı da:

– Mən İbn Uveyfəm! – deyərək köləyə gəlib yetişdi.

Rüşeyd dərhal:

– Al bu da, mən Ənsarın köləsindən – deyərək onun başına bir zərbə endirdi. İbn Uveyfin başını zirehi ilə birlikdə iki yerə ayırdı.

Hz. Peyğəmbər *(s.ə.s)* gülümsədi və belə dedi:

– *"Yaxşı elədin, ey Abdullah!"*.[790]

"Farslı" – sözü, irqçilik və irqlə öyünmək mənasını ifadə edir. Bu isə döyüş zamanı döyüşən adamın ixlasını zədələməkdədir. "Ənsardan" sözündə isə dini bir mahiyyət vardır. Bu eyni zamanda İslamı bir anlayış olub, İslam uğrunda döyüşməyi ifadə edir. Hz. Peyğəmbər *(s.ə.s)* haqqında bəhs etdiyimiz hadisədə o, səhabəni yanlış bir anlayışdan çəkindirmiş və xeyirə istiqamətləndirmişdir. Bunu da sadəcə bir sözlə, yəni alternativ yol göstərməklə yerinə yetirmişdir.

Bir gün Hz. Peyğəmbər *(s.ə.s)* möminlərin yolda oturmaqlarını qadağan etdikdə onlar:

– Biz buna məcburuq, çünki məsələlərimizi orada danışırıq – deyə icazə istədilər.

790. Vaqidi, *Məğazi*, I, 261.

Rəsulullah *(s.ə.s)*:

– *"Oturmaq istəyirsinizsə, onda yolun haqqını verin!"* – dedi və harama baxmamalarını, gəlib-keçənləri incitməmələrini, salam almalarını, doğrunu əmr edib, pisliyi qadağan etmələrini onlardan tələb etdi.[791]

İslami təlim-tərbiyədə əsas olanlardan biri də, insanlara həqiqətləri öyrətmək və onları doğru istiqamətlənədirərək yaşamalarını təmin etməkdir. İnsanların və cəmiyyətin həyatında kök salmış belə səhvləri düzəltmək üçün ən təsirli metodlardan biri də sadəcə səhvləri tənqid etməklə kifayətlənməyib alternativ həlli yollarını göstərməkdədir.

**5. Məzəmmət və xəbərdarlıq**

Hz. Peyğəmbər *(s.ə.s)* son dərəcə ürəyi yumuşaq, mərhəmətli, mehriban, səbrli və dözümlü insan idi. Səhvlərin çoxunu görməzliyə vurar və bir çoxunu da bağışlayırdı. Amma birdən elə vəziyyət yaranırdı ki, Hz. Peyğəmbər *(s.ə.s)* əsəbiləşirdi. Daha doğrusu, bəzi səhvlərin düzəldilməsi üçün qəzəblənmək, hətta məzəmmət etmək zərurəti yarandığına görə Allah Rəsulu *(s.ə.s)* belə davranırdı.

Hz. Aişə (r.anhə) belə nəql edir:

Hz. Peyğəmbər *(s.ə.s)* icazəni (rüsxəti) üstün tutaraq bir iş görmüşdü. Bəzilərinin bundan özünü qoruduqlarını eşitdikdə insanlara belə xitab etdi:

– *"Allah xətrinə düzünü deyin, bəziləri mənim etdiyim şeyi bəyənməyib çəkinirlər, boyun qaçırdırlar, bu doğrudurmu? Allaha and içirəm ki, mən Allahı onlardan yaxşı bilirəm. Allahdan qorxum da onların qorxusundan qat-qat çoxdur"*.[792]

Rəsulullahın *(s.ə.s)* dini əmrləri tam olaraq bilmədən fitva verən və verdikləri bu fitvalara görə insanların zərər görmələrinə səbəb olan kəslərlə necə rəftar etdiyini göstərən bu hadisə olduqca diqqətə layiqdir. Hz. Cabir (r.a) nəql edir:

---

791. Buxari, Məzalim, 22; Müslim, Libas, 144.
792. Buxari, Ədəb, 72; Müslim, Fədail, 127.

Səfərə çıxmışdıq, yoldaşlarımın birinə daş dəydi və başı yaralandı. Həmin şəxs yanındakılardan:

Təyəmmüm edə bilərəmmi? – deyə soruşdu.

– Sudan istifadə etməyə gücün çatdığına görə dəstəmaz almalısan – dedilər.

Həmin adam yaralı halda yuyundu və bu səbəbdən də öldü. Rəsulullahın *(s.ə.s)* yanına gələndə baş verənləri ona xəbər verdilər.

Hz. Peyğəmbər *(s.ə.s)* qəzəblə bunları dedi:

– *"Onu öldürdülər. Allah da onları öldürsün! Madam ki, bilmirdilər nəyə görə soruşmadılar? Məlumatsızlığın dərmanı soruşmaqdır. Onun təyəmmüm edib, yarasının üzərini sarımağı, sonra sarğısının üstünə məsh etməyi, bədəninin də yerdə qalan hissəsini yumağı kifayət idi".*[793]

– Burada Hz. Peyğəmbər *(s.ə.s)* bilmədən fitva verən və bununla da bir müsəlmanın ölmünə səbəb olanlara qəzəblənmiş, ayrıca onlara bəddua etmiş və sanki o adamı öldürmüş kimi günah qazandıqlarına diqqəti çəkmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* möminlərin təmiz, nizam-intizamlı və səliqəli olmasını istəyərdi. Cabir (r.a) belə nəql edir:

Rəsulullah *(s.ə.s)* saçları dağınıq bir adam gördü:

– *"Bu adam saçlarını düzəldib səliqə-sahmana salacaq bir şey tapmadımı?"* – deyə narazılığını bildirdi.

Bu zaman üst-başı kirli başqa bir adam onların yanından keçdi. Onun haqqında da:

– *"Bu adam paltarını yuyacaq bir şey tapa bilmirmi?"* – deyə öz fikrini bildirdi.[794]

Hər bir müsəlmanı öz zahiri və daxili təmizliyinə diqqət etməyi zəruri olduğu kimi, yaşadığı həyatın şərtlərinə, zaman və mahiyyətinə görə də necə davranmaq lazım olduğunu yaxşı bilməlidir. Bütün söz və davranışında ölçülü olmalı, təmki-

793. Əbu Davud, Təharət, 125; İbn Macə, Təharət, 93.
794. Əbu Davud, Libas, 14.

nini itirməməlidir. Rəsulullah *(s.ə.s)* bu istiqamətdə əshabını tərbiyələndirər, ədəb qaydalarının pozulmasından xoşlanmaz, bəzən də qəzəblənərdi. Qəzəblənmə səbəblərindən biri də ona yerli-yersiz, mənalı-mənasız sualların verilməsi idi. Ənəs (r.a) bir müşahidəsini belə nəql edir:

Hz. Peyğəmbərə *(s.ə.s)* suallar verdilər. O qədər ifrata vardılar ki, bir gün minbərə çıxıb (qəzəblə):

– *"Soruşun hər sualınıza cavab verəcəyəm!"* – dedi.

Camaat bu sözü eşitdikdə qorxudan başlarını önə əydilər və böyük bir hadisənin meydana gəlməsindən qorxdular.

Hz. Ənəs belə davam edir:

– Sağıma, soluma baxdıqda hamının paltarını başına keçirib ağladığını gördüm. Bu vaxt atam yaşında şübhəli bir nəfər söz alıb:

– Ey Allahın Rəsulu! Atam kimdir? – deyə soruşdu.

– *"Atan Hüzafədir"* – deyə cavab verdi.

Hz. Ömər də:

– Ya Rəsulallah! Rəbb olaraq Allahdan, din olaraq İslamdan, peyğəmbər olaraq da Muhamməddən razıyıq. Fitnələrdən Allaha sığınırıq – dedi.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Xeyir və şərrin hər iksinin də bu günkü qədər çox endiyini heç vaxt görmədim. Mənə Cənnət və Cəhənnəm gözlə görüləcək halda göstərildi və onları bu divarın önündə gördüm"* – dedi.[795]

– Hz. Peyğəmbərin *(s.ə.s)* əsla güzəştə getməyib sərt münasibət göstərdiyi mövzuların əsasında qul haqqı ictimaiyyətlə əlaqəli məsələlər gəlirdi. Məhz bunlar haqq sahibləri bağışlamadıqca aqibətdən xilas olmaq mümkün olmayan günahlardır. Hz. Peyğəmbər *(s.ə.s)* ümmətindən heç bir şəxsin günahkar olaraq Allahın hüzuruna getməsini arzu etməzdi. Abdullah ibn Amr (r.a) belə nəql edir:

795. Buxari, Təfsir, 5/12; Müslim, Fədail, 134-138.

Rəsulullah *(s.ə.s)* qənimət ələ keçirildikdə Hz. Bilala yüksək səslə xalqa bildirməyini əmr edər, əsgərlər də hərbi qənimət kimi ələ keçirdiklərini gətirib təslim edərdilər. Hz. Peyğəmbər *(s.ə.s)* əvvəlcə beşdə birini (xüms) ayırar, yerdə qalanını bölüşdürərdi. Bir gün qənimətləri bölüşdürdükdən sonra bir nəfər tükdən nazik noxta gətirib:

– Ey Allahın Rəsulu, qənimət olaraq biz də bunu ələ keçirmişik – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Sən Bilalın üç dəfə car çəkdiyini eşitmədinmi? O vaxt niyə gətirmədin?* – deyə soruşdu".

Həmin adam Rəsulullaha *(s.ə.s)* (qəbul etməyəcəyi) bəhanələr gətirdi. Ancaq nəticədə bu cavabı eşitdi.

– *"Xeyr! Bunu səndən qəbul etmirəm. Qiyamət günü sən bununla birlikdə gələcəksən"*.[796] Rəsulullah *(s.ə.s)* vaxtı keçdikdən sonra gətirilən malı o adamdan qəbul etməmişdir. Çünki bunda qənimət almağa haqqı olan bütün əsgərlərin payı vardır. Digər tərəfdən bu hadisə Hz. Peyğəmbərin *(s.ə.s)* haqq-ədalət mövzusunda nə qədər tələbkar olduğunu və bunu əshabına öyrətdiyini göstərməkdədir.

Allah Rəsulunun *(s.ə.s)* haqsız yerə cana qıyan şəxslərə də cavabı həmişə sərt olmuşdur. Döyüşdə "Lə iləhə illəllah" deyən birini öldürən Üsamə ibn Zeydə[797] və yenə oxşar bir vəziyyətlə qarşılaşan Xalid ibn Vəlidə etdiklərindən peşman olacaqları şəkildə münasibət göstərmişdir. Hətta, *"Ya Rəbbi! Mən Xalidin etdiklərindən Sənə sığınıram"* – demişdir.[798]

### 6. Bağışlamaq

Allah-Təala günahkar bəndələrini bağışladığı kimi, möminlər də bir-birlərini əfv etməyə çalışmalıdırlar. İnsanlara qarşı kin və nifrət bəsləmək mömin insanlara xas olan xislət

796. Əbu Davud, Cihad, 134.
797. Buxari, Diyət, 2
798. Buxari, Ehkam, 35.

deyil. Hz. Peyğəmbəri *(s.ə.s)* və onun timsalında bizi əfvə sövq edən ayələrdə belə buyurulmaqdadır:

**"Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!".** (Əraf , 7/199)

**"Onları bağışla, onlarla alicənablıqla davran". (**Hicr, 15/85**)**

Ənəs ibn Malik (r.a) Allah Rəsulunun *(s.ə.s)* bizi əfv etməyə həvəsləndirən bir hədisini belə nəql edir:

Rəsulullah *(s.ə.s)* aramızda oturub gülməyə başladı. Güləndə azı dişləri də göründü.

Hz. Ömər (r.a):

– Atam-anam sənə fəda olsun, ey Allahın Rəsulu! Sizi belə güldürən nədir? – deyə soruşdu.

*– "Ümmətimdən iki nəfər Uca Rəbbimizin hüzurunda diz çökdü".*

*Onlardan biri:*

*– Ey Rəbbim, mənim haqqımı qardaşımdan al – dedi.*

*Allah-Təala:*

*– Haqqını qardaşından necə alım? Axı, onun heç bir savabı qalmayıb – buyurdu. Həmin adam:*

*– Elə isə günahlarımın bir hissəsini ona yüklə – dedi.*

*Bu vaxt Allah Rəsulu (s.ə.s) göz yaşı tökməyə başladı. Sonra belə dedi:*

*– "Qiyamət günü elə böyük bir gündür ki, o gündə insanlar günahlarını başqalarına yüklənməsinə ehtiyac hiss edərlər". Sonra sözünə belə davam etdi:*

*"Allah-Təala haqqını tələb edən adama:*

*– Gözlərini aç, cənnətə bax – buyurdu.*

*Adam başını qaldıraraq:*

*– Ey Rəbbim, qızıldan tikilmiş şəhərlər, qızıldan tikilmiş və incilərlə bəzədilmiş saraylar görürəm. Bunlar hansı peyğəmbər, hansı siddiq və hansı şəhid üçün hazırlandı? – dedi.*

*Allah-Təala:*

*– (İstəsən) Sən bunlara sahib ola bilərsən – buyurdu.*

*Həmin adam:*

*– Nə ilə? – dedikdə.*

*Allah-Təala:*

*– Qardaşını bağışlamaqla – buyurdu.*

*Həmin adam:*

*– Ey Rəbbim qardaşımı bağışladım – dedi*

*Bunun müqabilində Allah-Təala:*

*– Qardaşının əlindən tut və onu cənnətə apar"* – buyurdu.

Bu hadisəni anlatdıqdan sonra Allah Rəsulu *(s.ə.s)*:

– *"Allaha qarşı təqva sahibi olun və bir-birinizlə yola getməyə və ya əfv etməyə çalışın. (Gördüyünüz kimi) Allah-Təala müsəlmanların arasını islah*[799] *edir"* – dedi.[800]

Allah Rəsulu *(s.ə.s)* çətin zamanlarda belə bağışlamaq yolunu tutmuşdur. Bu yüksək əxlaqın nəticəsi olaraq da insanların qəlblərini fəth etmiş və dəstə-dəstə İslamı qəbul etmələrinə vəsilə olmuşdur. Hz. Aişə (r.anhə) bir gün Rəsulullahdan *(s.ə.s)*:

– Uhuddan daha çətin bir gün yaşadınmı? – deyə soruşmuş, Hz. Peyğəmbər *(s.ə.s)* də belə cavab vermişdir:

– Bəli, sənin qövmündən çox pislik gördüm. Onlardan biri mənə Əqəbə günü etdikləridir. Bundan başqa taifli Əbdül-külalın oğlu İbn Əbdiyalilə sığınmaq istəmişdim, amma məni qəbul etməmişdi. (Əksinə avam camaata məni daşladaraq hər yerimi al-qana boyamış, vermədiyi əziyyət qalmamışdı) Mən də kədər içində geri dönüb Qarnus-Səalibə çatana qədər özümə gələ bilmədim. Orada başımı qaldırıb göyə baxanda, bir buludun məni kölgələndirdiyini gördüm. Bu Cəbrayıl (ə.s) idi.

Cəbrayıl mənə səslənərək:

799. **İslah-** Qüsur və nöqsanları aradan qaldıraraq yaxşı hala salma, yaxşılaşdırma.
800. Hakim, *Müstədrək*, IV, 620.

– Ey Muhamməd! Qövmünün sənə nə dediyini, səni himayə etməyi rədd etdiyini Allah-Təala eşitdi. Onlara dilədiyini etmək üçün də sənə dağlar mələyini göndərdi – dedi.

Bunun müqabilində Dağlar Mələyi mənə salam verdi. Sonra da:

– Ey Muhamməd! Qövmünün sənə nə dediyini Allah-Təala eşitdi. Mən Dağlar Mələyiyəm. Sənin əmrlərini yerinə yetirmək üçün Allah-Təala məni sənin yanına göndərdi. Nə əmr edirsən? Əgər istəyirsənsə bu iki dağı onların başına uçurdum – dedi.

O zaman:

– Xeyr. Mən Allah-Təaladan onların soylarından sadəcə Allaha ibadət edəcək və Ona şərik qoşmayacaq insanların çıxmasını diləyirəm" – dedim.[801]

Qəlbi şəfqətlə dolu olan Rəsulullah *(s.ə.s)* mələyin bu təklifini qəbul etməmişdir.

Allah Rəsulu *(s.ə.s)* bəzən bir qrup səhabənin etdiyi ciddi xətaları da bağışlamışdır. Buna ən bariz misal Xatib ibn Əbu Bəltəanın Məkkənin fəthi üçün görülən hazırlıqları Qüreyşə bildirmək üçün yazıb göndərdiyi məktub hadisəsidir. Məktub ələ keçirildikdə Allah Rəsulu *(s.ə.s)* Xatibi yanına çağıraraq:

– *"Ey Xatib, bu nə deməkdir?"* – deyə soruşdu.

Xatib:

– Ey Allahın Rəsulu, tələsik qərar vermə. Mühacirlərin qohumları var. Məkkədəki mallarını və ailələrini himayə edirlər. Mən isə Qüreyşə kənardan qoşulan bir adamam. Qohum-əqrəbam olmadığı üçün oradakı yaxınlarımı himayə edəcək bir adam əldə etmək istədim. Bunu qətiyyən İslamdan sonra küfrü qəbul etdiyim üçün etmədim – dedi.

801. Beləliklə, o cahillərin və özünü bilməyən kəslərin kobudluqlarına, təhqirlərinə cəza ilə cavab vermək əvəzinə, onları bağışlamağın, qüsurlarını görməməzliyə vurmağın daha xeyirxah davranış olduğunu göstərmişdir. Məhz onun mübarizəsi nəfsini məmnun etmək, ona pislik edənlərə iztirab çəkdirərək rahat olmaq deyildi. Hz. Hz. Peyğəmbərin *(s.ə.s)* qayəsi insanları hidayətə çatdırmaq həm bu dünyada, həm də axirətdə xoşbəxt olmalarına zəmin yaratmaq və daha əhəmiyyətlisi Allahı tanıyan və ona boyun əyən insanların sayını çoxaltmaqdır. Buxari, Bədul-Xalq, 7; Müslim, Cihad, 111.

Rəsulullah *(s.ə.s)*:

*"O bizə düz dedi!"* – buyurdu.

Hz. Ömər (r.a) yerindən sıçrayaraq:

– Ey Allahın Rəsulu! İcazə ver bu münafiqin başını bədənindən ayırım – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* belə cavab verdi:

– *"Amma o Bədir döyüşündə iştirak etdi. Nə bilirsən, bəlkə də Allah-Təala Bədir əhlinin halından xəbərdar olduğuna görə "Dilədiyinizi edin. Sizi bağışladım"* – buyurdu.[802]

– Hz. Peyğəmbər *(s.ə.s)* Məkkəni fəth etdikdə qüreyşlilər onun nə edəcəyini səbirsizliklə gözləyirdilər. Allah Rəsulu *(s.ə.s)*:

– *"Ey Qüreyş camaatı! Ey Məkkəlilər! Nə deyirsiniz? İndi sizə nə edəcəyimi düşünürsünüz?"* – deyə soruşdu.

Qureyşlilər:

– Biz sənin xeyir və yaxşılıq edəcəyini gözləyirik. Sən kərəm və yaxşılıq sahibi bir dost, xeyirxah qardaşın oğlusan. Güc və qüvvət indi sənin əlindədir, bizə mərhəmət elə! – dedilər.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

– *Mənimlə sizin vəziyyətiniz Hz. Yusuf (ə.s) ilə qardaşlarının vəziyyətinə bənzəyir. Hz. Yusufun (ə.s) qardaşlarına dediyi kimi*:

Yusuf **dedi: "Bu gün sizə** (etdiklərinizə görə) **heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın!** (Mən Allahdan sizin bağışlanmanızı diləyirəm, O da sizi bağışlayar)**"-deyirəm.** (Yusuf, 12/92) *Gedin! Siz azad və sərbəstsiniz!"* – dedi.

Qüreyş müşrikləri Hz. Peyğəmbərin *(s.ə.s)* əlinə düşdüyü və boyun əydiyi halda o, onları əfv etmiş və sərbəst buraxmışdır.

---

802. Buxari, Məğazi, 9; Müslim, Fədailus-Səhabə, 161.

**7. Mühüm xətaları dərhal düzəltmək**

Hz. Peyğəmbər *(s.ə.s)* bütün davranışlara qarşı eyni münasibət bəsləməmişdir. Davranışın tərzinə və aid olduğu mövzuya görə davranmışdır. Elə hallar var ki, Hz. Peyğəmbər *(s.ə.s)* burada güzəştə getməmiş, bağışlamamış, dərhal müdaxilə etmişdir. Bunların çoxu etiqad, ibadət və haramlarla bağlı mövzulardır.

Allah Rəsulu *(s.ə.s)* ən çox tövhid mövzusunda tələbkarlıq göstərirdi. İslamı qəbul edən qəbilələrdən ilk olaraq bölgələrində olan bütləri sındırıb məhv etmələrini istəyirdi. Saqif qəbiləsinin istəklərinə qarşı Hz. Peyğəmbərin *(s.ə.s)* nümayiş etdirdiyi bu rəftar çox əhəmiyyətlidir:

Saqif qəbiləsinin təmsilçiləri Hz. Peyğəmbərdən *(s.ə.s)* orada olan Lat bütünün 3 il ərzində məhv edilməməsini istədi. Hz. Peyğəmbər *(s.ə.s)* onların bu istəklərini qəbul etmədi. Saqif təmsilçiləri:

– İki il təxirə sal – dedilər. Allah Rəsulu *(s.ə.s)* qəbul etmədi.

– Bir il təxirə sal – dedilər. Hz. Peyğəmbər *(s.ə.s)* yenə də qəbul etmədi.

– Bir ay müddətində təxirə sal – dedilər.

Hz. Peyğəmbər *(s.ə.s)* bunun üçün vaxt təyin etmədi.

Onlar çarəsiz qaldıqda bütlərini heç olmasa öz əlləri ilə qırmamaq şərtilə bağışlanmalarını rica etdilər.

Allah Rəsulu *(s.ə.s)*:

– *"Olar. Mən onu məhv etməyi əshabıma əmr edərəm. Bütünüzü öz əllərinizlə yox etmədiyinizə görə sizi bağışlayıram"* – dedi.[803]

İslamın ilk şərti tövhidi qəbul etmək və şirki rədd etməkdir. Bu səbəbə görə Hz. Peyğəmbər *(s.ə.s)* Saqif qəbiləsinin həddən çox təkid etməsinə baxmayaraq əsla güzəştə getməmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* bu mövzuda o qədər tələbkar davranmışdır ki, hətta tövhid əqidəsinin əleyhinə olan adların

803. İbn Hişam, *əs-Siratun-Nəbəviyyə*, IV, 197.

qoyulmasına müdaxilə etmiş və onları düzəltmişdir. Hani ibn Yezidin (r.a) dediyinə görə Allah Rəsulunun *(s.ə.s)* yanına bir qövm gəldi. Onlardan birini "Əbdül-həcər" – yəni "Daşın qulu" – deyə çağırdıqlarını eşitdi. O adamdan adını soruşdu:

– Əbdül-həcər – dedikdə:

– *"Xeyr, sən Abdullahsan"* – dedi.[804]

Hz. Peyğəmbər *(s.ə.s)* imanın təzahürü olan ibadətlər mövzusundakı səhvləri də güzəştə getmədən, dərhal düzəldərdi.

Rifaə ibn Rafi (r.a) belə nəql edir:

Biz məsciddə olarkən bədəviyə[805] bənzəyən bir adam gəldi. Qibləyə yönəlib tələsik bir tərzdə namaz qıldı. Namazı tamamladıqdan sonra Allah Rəsuluna *(s.ə.s)* salam verdi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– "Va aleykum salam. Ancaq get namazını təkrar qıl, sənin namazın olmadı!" – dedi.

– Həmin adam təkrar namaz qılıb qayıtdı. Rəsulullaha *(s.ə.s)* salam verdi.

Hz. Peyğəmbər *(s.ə.s)* salamını aldı və ona belə dedi:

– *"Geri dön, namazını qıl, çünki sənin namazın düzgün olmadı!"*.

Həmin adam bu şəkildə 2-3 dəfə eyni şeyi təkrarladı və hər dəfə də Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Geri dön, namaz qıl, çünki sənin namazın düzgün olmadı!"* – dedi.

Bunu görən camaat qorxuya düşdü. Namazı tələsik qılan adamın namazının qəbul edilməməsi hamıya çox ağır gəldi.

Nəhayət, həmin adam:

---

804. Buxari, Ədəbul-Müfrəd, hədis No: 812.

805. **Bədəvi-** Səhrada yaşayan köçəri ərəblərə bədəvi deyilir. Dini Terimlər Lüğəti, İpəkyolu Nəşriyyatı, Bakı 2010, s. 32

– Mən də insanam – doğru da edə bilərəm, yanlış da. Mənə (səhvimi) göstər, doğrunu öyrət – dedi.

Allah Rəsulu *(s.ə.s)* bu adama namazın necə qılınacağını təfsilatı ilə öyrətdi:

Bu hadisədə namaz mövzusundan bəhs edilir. Namaz dinin dirəyidir. Hər hansı bir adamın dindarlığı qıldığı namazdan asılıdır. Bu səbəblə Rəsulullah *(s.ə.s)* namazda qüsurunu gördüyü adama dərhal xəbərdarlıq etmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* dəstəmaz mövzusunda da eyni mövqe nümayiş etdirmişdir. Hz. Ömərin (r.a) nəql etdiyinə görə bir adam Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gəlmişdi. Onun dəstəmaz aldığını, amma ayaqlarının üstündə dırnaq qədər bir yeri yumadığını gördü. Rəsulullah *(s.ə.s)* həmin adama:

– *"Get, lazımi şəkildə dəstəmaz al!"* – dedi.

Həmin adam yenidən dəstəmaz aldı və sonra namazını qıldı.[806]

Sədəqə mövzusunda da Rəsulullah *(s.ə.s)* malın bəyənilməyən, keyfiyyətsiz hissəsindən verilməsini xoş qarşılamamışdır.

Əvf ibn Malik (r.a) belə nəql edir:

Bir gün Rəsulullah *(s.ə.s)* əlində əsa ilə məscidə girdi. Bir adam (sədəqə olaraq) içində çürükləri olan xurma salxımı asmışdı. Hz. Peyğəmbər *(s.ə.s)* əlindəki əsa ilə salxıma toxunaraq:

– *"Bu sədəqənin sahibi kaş ki, daha yaxşısını sədəqə versəydi. Qiyamət günü bu sədəqənin sahibi mütləq çürük xurma yeyəcək"* – dedi.[807]

Hz. Peyğəmbər *(s.ə.s)* Allah-Təalanın haram buyurduğu mövzularda əsla güzəştə getməz, ümmətini haramlardan çəkindirərdi. İbn Abbasın (r.a) nəql etdiyinə görə Rəsulullah *(s.ə.s)* bir adamın barmağında qızıldan düzəldilmiş üzük gördü. Onu dərhal çıxarıb atdı və belə dedi:

806. Müslim, Təharət, 31; Əbu Davud, Təharət, 67.
807. Əbu Davud, Zəkat,17; Nəsai, Zəkat, 27.

*"Atəşdən bir parçanı barmağınıza taxmayın!".*

Rəsulullah *(s.ə.s)* getdikdən sonra həmin adama:

Üzüyünü götür (başqa məqsədlə) ondan istifadə et! – dedilər. O:

Xeyr! Vallahi, heç vaxt geri götürmərəm, onu Rəsulullah tulladı – dedi.[808]

**8. Həmsöhbəti əqli və məntiqli izahlarla inandırmaq**

Rəsulullah *(s.ə.s)* sadəcə təbliğ etməklə kifayətlənməz, həmsöhbətinin xasiyyətinə görə əqli və məntiqli dəlillərlə onu inandırardı. Hz. Peyğəmbər *(s.ə.s)* bu metodu ilə yanlış olan bir şeyi doğru zənn edənlərin qəlbindən batili çıxartmağa çalışardı.

Hz. Cabir (r.a) belə nəql edir:

Ömər ibn Xəttab (r.a) bir gün təlaş içərisində gələrək:

– Ey Allahın Rəsulu! Bu gün mən böyük bir səhv etdim, oruclu olduğum halda xanımımı öpdüm! – dedi.

Rəsulullah *(s.ə.s)* belə cavab verdi:

*"Sən oruclu ikən ağzını yaxalamırsan? (Bu orucunu pozur?)"*

Hz. Ömər (r.a):

– Bu orucu pozmur! – dedi.

Rəsulullah *(s.ə.s)* belə dedi:

– *"Elə isə niyə (öpdüyünə görə) təlaşlanırsan?".*[809]

Hz. Peyğəmbər *(s.ə.s)* etdiyi işin səhv olduğunu düşünən Hz. Öməri (r.a) məntiqlə inandıraraq bilmədiyi bir şeyi müqayisə metodu ilə öyrətmişdir.

Bu mövzu ilə bağlı başqa bir hadisəni Əbu Ümamə əl-Bəhili (r.a) belə nəql edir:

Bir gənc Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələrək dedi:

– Ya Rəsulallah! Zina etmək üçün mənə icazə ver.

808. Müslim, Libas, 52.
809. Əbu Davud, Savm, 33.

Orada olanlar dərhal onu məzəmmət etdilər və susmasını tələb etdilər.

Hz. Peyğəmbər *(s.ə.s)* həmin gəncə xitabən:

– *"Bura yaxınlaş!"* – dedi. Gənc oğlan da gəlib Hz. Peyğəmbərin *(s.ə.s)* yanında oturdu.

Hz. Peyğəmbər *(s.ə.s)* ona:

– *"Ananın zina etməsini istəyərsən?"* – deyə soruşdu.

Həmin gənc:

– Allah-Təala məni sənin yolunda qurban etsin, vallahi istəmərəm, Ya Rəsulallah! – dedi.

Bunun müqabilində Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Digər insanlar da anaları üçün belə şeyi istəməzlər"* – dedi.

Allah Rəsulu *(s.ə.s)* eyni sualı gəncin qızı, bacısı, xalası, bibisi haqqında da təkrarladı. Gənc də hər dəfəsində eyni cavabı verdi.

Hz. Peyğəmbər *(s.ə.s)* sonra mübarək əllərini gəncin sinəsinə qoydu və belə dua etdi:

*– "Allahım, onun günahlarını bağışla, qəlbini təmizlə və zinadan mühafizə eylə!"*

O gənc bundan sonra belə bir şeyə əsla yaxınlaşmadı.[810]

Hz. Peyğəmbər *(s.ə.s)* burada mənfi istiqamətə yönəlmiş bir gənci sakit tərzdə təmkinlə, ehtiramla qarşılamış, əsəbiləşməmiş, ona yanında yer göstərmiş, dediklərinə qulaq asmış, sonra məsələni əqli və məntiqli izah etmişdir. O, gəncin ən həssas yerlərinə toxunaraq ağlının tərəzisində çəkməyi təmin etmiş və Allahın izni ilə bu şəriətə uyğun gəlməyən düşüncəni qəlbindən çıxardıb atmışdır. Həmin gənc də əqlən və qəlbən buna inanmış, bir daha belə şeyə əsla təşəbbüs göstərməmişdir.

---

810. Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 256.

### M. Hz. Peyğəmbərin yetişdirdiyi müəllim və *təbliğçilər*

Rəsulullah *(s.ə.s)* əməldə və sözdə təbliği ilə İslamı şəxsən insanlara çatdırmaqla yanaşı, müəllim və dəvətçilər vasitəsi ilə daha geniş təbliğata başlamışdır. Maarifləndirici söhbətləri ilə mənəviyyatını qidalandırdığı əshabını həm Məkkə-Mədinə də, həm də ətraf şəhərlərdə İslamı təbliğlə vəzifələndirmişdi.

Hz. Peyğəmbər *(s.ə.s)* hicrətdən sonra Məscidi-Nəbəviyə bitişik kölgəlikdə bir mədrəsə tikdirmiş, burada ehtiyacı olan dəvət əhlini və müəllimləri yetişdirməyə başlamışdır. Bu mədrəsədə tərbiyə alan şəxslərə "Əshabi-Suffə" deyilirdi. Onların baş rəhbəri Hz. Peyğəmbər *(s.ə.s)* idi. Səhabələrdən Abdullah ibn Məsud, Übeyy ibn Kəb və Muaz ibn Cəbəl kimi səhabələr də burada dərs keçirdilər. Onların maddi-mənəvi bütün ehtiyaclarını Rəsulullah *(s.ə.s)* ödəyir, səhabələrin varlılarını da onlara yardım etməyə təşviq edirdi.

Əshabi-Suffə Hz. Peyğəmbərin *(s.ə.s)* yanında Quran və Sünnəni gözəl bir şəkildə öyrənirdi. Mədinədən kənarda yeni müsəlman olmuş qəbilələr, müəllim və mürşid tələb etdikcə Hz. Peyğəmbər *(s.ə.s)* onlara adətən Əshabi-Suffədən bəzilərini göndərirdi. Bu baxımdan onlar İslamın təbliğində və yayılmasında əhəmiyyətli rol oynamışlar.

Hz. Peyğəmbər *(s.ə.s)* İslamı təbliğə başladığı ilk gündən etibarən ona inanıb, tabe olan hər fərdi, eyni zamanda, bir dəvətçi olaraq görürdü. Belə ki, Vida Xütbəsinin sonunda: *"Burada olanlar olmayanlara təbliğ etsin. Bəlkə özünə məlumat çatdırılan kimsə, onu şəxsən eşidəndən daha yaxşı başa düşər və anlayar"*.[811]

Hz. Peyğəmbərin *(s.ə.s)* bu təlimatlarına uyğun hərəkət edən o seçilmiş insanlar, bir şam kimi ətraflarını işıqlandırmışlar.

Bu seçilmiş insanların öndə gedənlərindən biri Hz. Əbu Bəkir (r.a) idi. O, İslama girib müsəlmanlığını elan edən kimi insanları Allaha dəvətə başladı. Hz. Əbu Bəkir qövmüylə qaynayıb-qarışan, xoş xasiyyətli və çox sevilən bir insan idi. Gözəl əxlaqlı, doğru və dürüst bir tacir idi. Dünyagörüşü və xoş

811. Buxari, Ədahi, 5.

söhbətləri ilə tanınandığına görə insanlar onun yanına gəlir, fikirlərindən bəhrələnirdilər. O da uyğun gördüyü kimsələri Allaha və İslama dəvət edirdi. Onun köməyi ilə Zübeyr ibn Avvam, Osman ibn Affan, Talha ibn Übeydullah, Sad ibn Əbu Vəqqas, Əbdürrəhman ibn Əvf kimi əshabın öndə gedən simaları müsəlman olmuşdu.[812]

İkinci Əqəbə beyətində Hz. Peyğəmbərlə *(s.ə.s)* görüşən on iki müsəlman Mədinədə İslamı yaymağa başlamışdı. Bir müddət sonra Ənsar Allah Rəsuluna *(s.ə.s)* bir məktub göndərdi. Məktubda belə yazılırdı:

"Ya Rəsulallah! Bizə dinimizi öyrədən və Quranı oxudan bir müəllim göndər".

Rəsulullah *(s.ə.s)* Mədinədə İslamı təbliğ etmək üçün Musab ibn Ümeyri vəzifələndirdi.[813] Peyğəmbər aşiqi bu gənc səhabə insanlara Allahın dinini çatdırmaq üçün gecəsini gündüzünə qataraq xidmət etməyə başladı. İlk İslamı qəbul edənlərdən biri Əsəd ibn Zürarə (r.a) oldu və işlərində Musaba (r.a) kömək etdi. Siyər qaynaqlarından nəql edəcəyimiz bu məlumatlar Musabın (r.a) Mədinədəki təbliğ üslubunu və müvəffəqiyyətinin sirrini göstərir.

Əsəd ibn Zürarə (r.a) bir gün Musab bin Ümeyri (r.a) yanına alaraq Zəfər oğullarının bağçasındakı quyunun başında oturdu. Əbdüləşhəl oğulları qəbiləsinin öndərlərindən Sad ibn Muaz bunu eşidəndə Üseyd ibn Xudayra:

– Sən işini bilən və kimsənin yardımına möhtac olmayan bir adamsan. Zəif xarakterli insanların əqidəsini korlamaq üçün məhəlləmizə gələn bu adamların yanına get və xəbərdarlıq et ki, bir də bura gəlməsinlər. Əsəd ibn Zürarə qohumum olmasaydı bu işi özüm görərdim, – dedi. Üseyd ibn Xudayr onların yanına gəlib:

– Bura niyə gəlmisiniz? Bu yanındakı yad adamı insanların əqidələrini korlamaq üçün gətirdin?! Bir də belə şey etməyin. Əgər canınızı sevirsinizsə, elə bu dəqiqə buradan gedin, – dedi.

812. İbn Kəsir, *əl-Bidayə*, III, 80.
813. M. Həmidullah, *Vəsaiq*, s, 52.

Fərasətlə hərəkət edən Musab ibn Ümeyr (r.a) ona:

– Bir az oturub deyəcəklərimizi dinləyə bilərsən? Sən ağıllı adamsan, bəyənsən qəbul edərsən, bəyənməsən qəbul etməzsən, – dedi.

Üseyd:

– Bu sözü lap yerində dedin! – dedikdən sonra nizəsini yerə sancıb onların yanında oturdu.

Musab (r.a) İslamın nə olduğunu anlatdı, Qurani-Kərim oxudu.

Üseyd Quran-Kərimi dinlədikdə qəlbi yumşaldı və:

– Bu nə qədər gözəl, nə qədər böyük bir kəlamdır! – deyərək müsəlman oldu.

Bir müddət sonra Sad ibn Muaz da əsəbi halda onların yanına gəldi, eynən Üseyd kimi o da Musabı dinləyərək müsəlman oldu. Sonra qəbilələrinin yanına gələrək:

– Ey Əbdüləşhəl oğulları! Məni necə tanıyırsınız? – deyə soruşdu.

– Sən bizim böyüyümüzsən, dünyagörüşünə görə hamımızdan üstünsən və yaxşı bir rəhbərsən – dedilər.

Bundan sonra Sad ibn Muaz:

– Siz Allaha və Rəsuluna iman edənə qədər, kişi və qadınlarınızla danışmaq mənə haram olsun – dedi. O gün axşama qədər Əbdüləşhəl oğulları məhəlləsində hamı müsəlman oldu.[814]

Allah Rəsulu *(s.ə.s)* Mədinəyə olduğu kimi digər bölgələrə də əshabından uyğun gördüyü şəxsləri təbliğ əhli olaraq göndərirdi. Bir gün sübh namazını qıldırdıqdan sonra camaata dönüb:

– *Ey Mühacir və Ənsar! Yəmənə hansınız getmək istəyirsiniz?* – deyə soruşdu.

Hz. Əbu Bəkir (r.a):

814. İbn Əsir, *Üsdul-Ğabə*, I, 112-113.

– Mən gedərəm, ya Rəsulallah! – dedi.

– *Ey Mühacir və Ənsar! Yəmənə hansınız getmək istəyirsiniz?* – deyə təkrar soruşdu.

Bu dəfə Hz. Ömər (r.a) qalxıb:

– Mən gedərəm, ya Rəsulallah! – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)* yenə susdu və ona da cavab vermədi. Sonra:

– *Ey Mühacir və Ənsar! Yəmənə hansınız getmək istəyirsiniz?* – deyə üçüncü dəfə soruşanda, bu dəfə də Muaz bin Cəbəl qalxıb:

– Mən gedərəm ya Rəsulallah! – dedi.

Allah Rəsulu *(s.ə.s)*:

– *Ey Muaz, bu vəzifə sənindir!* – dedi.

Sonra Bilala dönüb:

– *Ey Bilal, mənə çalmamı gətir* – deyə buyurdu. Çalma gətirildikdən sonra onu Muazın başına sarıdı və:

– *Sənə bir şikayətlə müraciət etsələr necə və nəyə görə hökm verərsən?* – deyə soruşdu.

Muaz ibn Cəbəl (r.a):

– Allahın kitabına görə hökm verərəm, – dedi.

Hz. Peyğəmbər *(s.ə.s)*:

– *Əgər Allahın kitabında hökmü tapa bilməsən, onda nəyə görə hökm verərsən?* – deyə soruşdu.

Muaz (r.a):

– Rəsulullahın *(s.ə.s)* sünnəsinə görə hökm verərəm, – dedi.

Allahın Rəsulu *(s.ə.s)*:

– *Əgər Allahın Rəsulunun sünnəsində də bu hökmü tapmasan nə edərsən?* – deyə soruşanda, Muaz (r.a):

– O zaman mən də öz ictihadımla hökm verərəm – dedi.

Bu sözdən sonra Allah Rəsulu *(s.ə.s)* əlini Muaz ibn Cəbəlin (r.a) sinəsinə qoyaraq:

– *Rəsulunun elçisini, Rəsulunun razı olacağı şeyə müvəffəq edən Allaha həmd olsun!* – buyurdu.[815]

Hz. Peyğəmbər *(s.ə.s)* Yəmən tərəfə Muazdan (r.a) başqa, Hz. Əlini (r.a) də göndərmişdi. Hz. Əli (r.a) deyir ki:

– Yəməndən bir neçə şəxs Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gələrək, Ya Rəsulallah! Bizə dinimizi öyrədən, aramızda Allahın kitabıyla hökm edən müəllimlər göndər – dedilər.

Allah Rəsulu *(s.ə.s)* mənə:

– *Ey Əli, Yəmən xalqının yanına sən get, onlara sünnələri öyrət, aralarında Allahın kitabıyla hökm et* – buyurdu.

– Ya Rəsulallah, mən gənc və təcrübəsizəm, bilmədiyim mövzularla qarşılaşa bilərəm – dedim.

Hz. Peyğəmbər *(s.ə.s)* əlini sinəmə qoydu və:

– *Get! Allah qəlbini doğru hökmə yönəldəcək və dilinə doğrunu söylətdirəcəkdir* – buyurdu.

Rəsulullahın *(s.ə.s)* bu sözlərindən sonra bu ana qədər verdiyim hökmlərdə heç bir zaman şübhəyə düşmədim.[816]

Səhabələr Hz. Peyğəmbərin *(s.ə.s)* göndərdiyi yerlərə sevə-sevə gedir, hətta bu yolda canlarını belə fəda edirdilər. Bunun ən kədərli misalları Rəci və Biri Maunə hadisələrində yaşanmışdır. Ətraf qəbilələrdən gələn tələbə görə Rəsulullahın *(s.ə.s)* göndərdiyi Quran müəllimləri pusquya salınaraq şəhid edilmişdilər.[817]

Rəsulullahın *(s.ə.s)* etdiyi kimi, Rəşidi Xəlifələr də öz dövrlərində ehtiyac olan bölgələrə təbliğçi və müəllimlər göndərmişlər. Məsələn, Hz. Ömər (r.a) Şam valisinin tələbinə görə Muaz ibn Cəbəl, Übadə ibn Samit və Əbu Dərdanı oraya Qu-

815. Əhməd ibn Hənbəl, *Müsnəd*, V, 230; İbn Sad, *ət-Təbəqatul-Kubra*, III, 584; Diyarbəkri, *Tarixul-Xamis*, II, 142.
816. İbn Macə, Ehkam, 1; Hakim, *Müstədrək*, III, 146.
817. Buxari, Məğazi, 28; Əhməd ibn Hənbəl, *Müsnəd*, II, 294, III, 210.

rani-Kərimi və İslamın hökmlərini öyrətmək üçün göndərmiş, onlara:

– Təbliğ və təlimə Xumus şəhərindən başlayın. İnsanlarda fərqli qabiliyyətlər görəcəksiniz. Elələri var ki, çox tez qavrayır. Belələrini müəyyən etdikdə insanların bir qismini Quran öyrənmələri üçün onlara istiqamətləndirin. Xumusda müəyyən bir irəliləyiş gördükdən sonra biriniz orada qalsın, biriniz Şama, digəriniz də Fələstinə getsin – deyə tövsiyə etmişdir.

Onlar Xumusda bir müddət birlikdə xidmət etdikdən sonra Übadə orada qalmış, Əbu Dərda Şama, Muaz ibn Cəbəl də Fələstinə getmişdir. Muaz Fələstində vəbadan vəfat etdiyi zaman Ubadə oraya keçmişdir. Əbu Dərda isə həyatının sonuna qədər Şamda qalmışdır.[818]

Burada diqqəti cəlb edən xüsus, bu qiymətli dəvətçilərin getdikləri yerdə vəfat edənə qədər xidmət etmələri və Mədinəyə geri dönməmələridir.

O günlərlə əlaqəli bir xatirəni Əbu İdris əl-Həvlani belə yada salır:

Şam məscidinə getmişdim. Orada gülərüzlü bir gənc və ətrafına toplaşmış bir qrup insan diqqətimi çəkdi. Bir məsələdə fikir ayrılığı yarandıqda, həmin gəncə müraciət edir və fikrini qəbul edirdilər. Bu gəncin kim olduğunu soruşdum:

– Muaz ibn Cəbəldir dedilər. Ertəsi gün tezdən məscidə qaçdım. Gördüm ki, o gənc məndən əvvəl gəlib namaz qılır. Namazını bitirənə qədər gözlədim, sonra önünə keçib salam verdim və:

– Allaha and olsun ki, mən səni sevirəm – dedim.[819]

Rəşid xəlifələrdən sonra qurulan İslam dövlətləri də Allah Rəsulunun *(s.ə.s)* təbliğ siyasətini davam etdirmişlər.

Vida Xütbəsində Allah Rəsulunu *(s.ə.s)* dinləyən 120 min (və ya 140 min) səhabədən Məkkə və Mədinə hüdudları içərisində vəfat edib orada dəfn edilənlərin sayı 20 mindən artıq de-

818. İbn Sad, *ət-Təbəqatul-Kubra*, II, 357.
819. İmam Malik, Muvatta, Şəar, 16.

yil. Yüz min səhabə Hz. Peyğəmbərdən *(s.ə.s)* aldıqları mənəvi ilhamla Allahın dinini bütün insanlara çatdırmaq üçün yollara düşmüş, dünyanın hər tərəfinə yayılmışdılar. Onlar olduqları hər şəhərdə bir mənəvi məşəl olmuş, Hz. Peyğəmbərin *(s.ə.s)* gözəl əxlaqından götürdükləri örnək davranışları ilə insanları irşad etmişdilər. Bu gün dünyadakı insanların böyük əksəriyyəti Allah-Təalanın dəvətinə möhtacdır. Allah Rəsulunun *(s.ə.s)* və səhabələrin yolunda gedən dəvətçilər və müəllimlər ordusu bu insanların ehtiyaclarını ödəmək üçün səfərbər olmalıdır.

**N. Digər medot və üslublar**

**Hər hansı bir şeyin haramlılığını bildirmək üçün onu yuxarı qaldırmaq -** Hz. Peyğəmbər *(s.ə.s)* bəzən qadağan etdiyi şeyi əlində tutar və həmsöhbətlərinin görməsi üçün yuxarı qaldırardı. Bu şəkildə qadağan etdiyi şeyi həm sözlə ifadə etmiş, həm də görülməsini təmin etmiş olurdu. Bu metod haram edilən şeyin daha yaxşı başa düşülməsinə kömək edirdi. Hz. Əlidən (r.a) nəql olunduğuna görə Hz. Peyğəmbər *(s.ə.s)* bir gün sağ əlində ipək, sol əlində qızıl tutaraq *"Şübhəsiz ki, bu ikisi ümmətimin kişilərinə haram qılınmışdır"*, – buyurmuşdur.[820]

**Doğru cavab verdikdə öymək -** Rəsulullah *(s.ə.s)* bəzən bəzi səhabələrini imtahan edər, zəka səviyyələrini ölçmək və elmlərindən xəbərdar olmaq üçün onlara hər hansı bir mövzu haqqında soruşardı. Doğru cavab verdikdə onları mədh edər və sinələrinə əli ilə toxunardı. Bununla onlara olan sevgisini göstərərdi.

Übeyy ibn Kəbdən (r.a) rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* soruşdu:

– "Ey Əbu Munzir, Allahın kitabından əzbər bildiyin ayələrdən hansının (mənaca) daha böyük olduğunu bilirsənmi?" Mən:

---

820. Əbu Davud, Libas, 11; Nəsai, Zinət, 40; İbn Macə, Libas, 19. Əbu Musa əl-Əşari *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu: "İpək geyinmək və qızıldan istifadə etmək ümmətimin kişilərinə haram, qadınlarına isə halal qılındı". Tirmizi, Libas, 1; İbn Macə, Libas, 19.

– Allahu lə illəhə illə huvəl-hayyul-qayyum, – dedim. Bu cavabımı eşidib əli ilə sinəmə vurdu və:

– " Elm sənin üçün mübarək olsun, ey Əbu Munzir!" – buyurdu.[821]

**Baş vermiş hər hansı bir hadisəyə susaraq təsdiq etmək -** Bu üsula hədis elmində "təqrir" deyilir. Hz. Peyğəmbərin *(s.ə.s)* belə davranması baş vermiş işin mübah olmasını göstərir. Bir çox xüsus Hz. Peyğəmbərdən *(s.ə.s)* bu şəkildə öyrənilmişdir.

Hz. Peyğəmbər *(s.ə.s)* Salman Farisi ilə Əbu Dərdanı qardaş etmişdi. Bir gün Salman Farisi Əbu Dərdanı ziyarətə getmişdi. Bu zaman onun xanımı Ümmü Dərdanı olduqca köhnə paltarda gördü. Ondan:

– Bu nə haldır? – deyə soruşdu. Qadın:

– Qardaşın Əbu Dərda dünya malına əhəmiyyət vermir, – dedi. Bu əsnada Əbu Dərda evə gəldi və Salmanı hazırlatdığı yeməyə dəvət edib:

– Buyurun, yeməyinizi yeyin, mən orucluyam, – dedi. Salman:

– Sən yeməsən mən də yeməyəcəyəm, – cavabını verdi. Əbu Dərda süfrəyə oturub yemək məcburiyyətində qaldı. Gecə olanda Əbu Dərda təhəccüd namazı qılmağa hazırlaşırdı ki, Salman ona:

– Yat, – dedi. Əbu Dərda yatdı, bir müddət sonra yenə qalxmaq istədi. Salman yenə:

– Yat, deyərək qalxmağına mane oldu. Gecənin sonuna yaxın Salman:

– İndi qalx, dedi və hər ikisi birlikdə namaz qıldılar. Sonra Salman Əbu Dərdaya belə dedi:

– Üzərində Rəbbinin haqqı var, nəfsinin haqqı var, ailənin haqqı var. Bütün haqq sahiblərinə haqqını ver.

821. Müslim, Müsafirin, 258.

Sonra Əbu Dərda Hz. Peyğəmbərin *(s.ə.s)* yanına gedib baş verənləri ona danışdı. Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Salman doğru deyib"*, – buyurdu.[822]

**Zarafat və lətifəylə öyrətmək -** Hz. Peyğəmbər *(s.ə.s)* hərdənbir zarafat etmiş, bəzi səhabələrin də etdiyi zarafatı bəyənmiş və təbəssümlə qarşılamışdır. Bununla yanaşı, yalana əsaslanan, yalandan bəhrələnən, qəlb qıran, alçaldıcı, ifrata çatan zarafatlar qadağan edilmişdir. Hz. Peyğəmbərin *(s.ə.s)* zarafatlarının mütləq həqiqət tərəfi olurdu.

Hz. Peyğəmbərin *(s.ə.s)* doğru sözə əsaslanan, heç kəsi incitməyən gözəl və duzlu zarafatlarına gəlincə, bunlardan birini qeyd edək.

Bir gün bir adam Rəsulullahdan *(s.ə.s)* minmək üçün heyvan istəmişdir. Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Yaxşı, səni bir dişi dəvə balasına mindirək"* – buyurdu. Həmin adam heyrətlə:

Ya Rəsulullah! Dişi dəvə balası nəyimə lazımdır, o məni necə aparacaq? – deyərək heyrətini ifadə etdikdə Hz. Peyğəmbər *(s.ə.s)*:

*"Dəvənin kiçiyi də, böyüyü də şübhəsiz bir dişi dəvədən doğulmayıbmı?"* – deyə təbəssüm etdi.[823]

Hz. Peyğəmbər *(s.ə.s)* bu zarafatı ilə hər dəvənin bir dişinin balası olmasına diqqət çəkmişdir.

**Öyrədiləni andla qüvvətləndirmək -** Hz. Peyğəmbər *(s.ə.s)* adətən xitabətinə Allaha andla başlayardı. Belə etməsinə səbəb söylədiyi şeyin əhəmiyyətinə diqqət çəkmək idi.

Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Rəsulullah *(s.ə.s)* belə buyurdu:

*"Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, iman etmədikcə cənnətə girə bilməzsiniz. Bir-birinizi sevmədikcə də iman etmiş ol-*

822. Buxari, Savm, 51.
823. Tirmizi, Birr, 57.

*mazsınız. Edəcəyiniz təqdirdə bir-birinizi sevəcəyiniz bir əməli xəbər verimmi? Aranızda salamı yayın!".*[824]

Əbu Hüreyrə *radiyallahu anhdan* rəvayət edildiyinə görə Peyğəmbər *(s.ə.s)*:

– *"Vallahi, iman etimiş olmaz. Vallahi, iman etmiş olmaz. Vallahi iman etmiş olmaz",* – buyurdu.

Səhabələr:

– Kim iman etmiş olmaz, ya Rəsulallah? – deyə soruşdular.

– ***«İşləyəcəyi pis əməllərindən qonşusu əmin olmayan kəs",*** – buyurdu.[825]

**Dinləyənin diqqətini cəlb etmək üçün cavabı gecikdirərək söyləmək -** Hz. Peyğəmbər *(s.ə.s)* bəzən verəcəyi cavabı gecikdirər və həmsöhbətinə təkrar səslənərdi. Hz. Peyğəmbərin *(s.ə.s)* bu şəkildə davranması həmsöhbətin diqqətini toplaması və öyrədəcəyi şeyi daha yaxşı yadda saxlamasını təmin etmək üçündü.

Muaz ibn Cəbəldən (r.a) rəvayət edildiyinə görə belə demişdir:

Mən Rəsulullahın tərkində, uzunqulağın belində idim. Hz. Peyğəmbər *(s.ə.s)*:

– *"Ey Muaz bilirsənmi, Allahın qulları üzərində, qulların da Allah üzərində nə haqqı var?"* – buyurdu. Mən:

– Allah və Rəsulu daha yaxşı bilir, – dedim. Rəsulullah *(s.ə.s)*:

– *"Allahın qulları üzərindəki haqqı onların yalnız Allaha qulluq etmələri və Ona heç nəyi ortaq qoşmamalarıdır. Qulların da Allah üzərindəki haqqı ona heç nəyi şərik qoşmayanlara əzab etməməsidir",* – buyurdu. Mən o dəqiqə:

– Ey Allahın Rəsulu, insanları bununla müjdələyimmi? – dedim.

824. Müslim, İman ,93-94; Tirmizi, Ətimə, 45, Qiyamət 56; İbn Macə, Müqəddimə, 9, Ədəb, 11.
825. Buxari, Ədəb, 29; Müslim, İman 73; Tirmizi, Qiyamət, 60.

– *"Müjdələmə, onlar buna arxayın olub tənbəllik edərlər"*, – buyurdu.[826]

**Daha yaxşı başa düşülməsi üçün əvvəlcə xülasə sonra təfsilatlı izah etmək -** Hz. Peyğəmbər *(s.ə.s)* **bəzən həmsöhbətin sual verməsini və dediyini daha yaxşı başa düşməsi üçün söyləyəcəyi şeyi xülasə ilə deyər, daha sonra isə ətraflı izah edərdi. Onun belə etməsi həmsöhbətlər üçün daha təsirli olur, həmçinin daha asan əzbərlənə bilirdi.**

Ənəs (r.a) belə dedi:

Bəzi səhabələr Peyğəmbər *(s.ə.s)* ilə birlikdə ikən yanlarından bir cənazə keçdi. Bəzi səhabələr həmin cənazəni xeyirlə yad etdi. Bu zaman Hz. Peyəmbər *(s.ə.s)* :

– *"Vacib oldu"*, – buyurdu.

Sonra bir cənazə də keçdi. Oradakılar həmin cənazəni pis (sözlərlə) yad etdilər. Rəsuli-Əkrəm *(s.ə.s)* yenə:

– *"Vacib oldu"*, – buyurdu.

Bu zaman Ömər ibn Xəttab:

– Nə vacib oldu, ya Rəsulallah? – deyə soruşdu. Peyğəmbər *(s.ə.s)* belə buyurdu:

– *«Əvvəlcə keçən cənazəni xeyirlə yad etdiniz, ona görə də cənnətə girməsi vacib oldu. Digərini pis adam kimi yad etdiniz, onun da cəhənnəmə girməsi vacib oldu. Çünki siz (möminlər) Allahın yer üzündəki şahidlərisiniz"*.[827]

**Qeyd ediləcək xüsusların bir-bir xülasə edilməsi və daha sonra bunların izah edilməsi -** Hz. Peyğəmbərin *(s.ə.s)* öyrədərkən seçdiyi və əvvəlki metoda yaxın metodlardan biri də söyləyəcəyi şeyi əvvəlcə tək-tək qeyd etməsi və ardından da izah etməsidir Hz. Peyğəmbər *(s.ə.s)* bunu dinləyənlərin daha yaxşı başa düşməsi və əzbərləməsi üçün edərdi.

---

826. Buxari, Cihad, 46; Müslim, İman, 48, 49; Həmçinin bax. Buxari, Libas, 101, İstizan, 30, Tövhid, 1; Tirmizi, İman, 18; İbn Macə, Zöhd, 35.
827. Buxari, Cənəiz, 86, Şəhadət, 6; Müslim, Cənəiz, 60. Həmçinin bax. Əbu Davud, Cənəiz, 76; Tirmizi, Cənəiz, 63; Nəsai, Cənəiz, 50; İbn Macə, Cənəiz, 20. Zöhd, 25.

İbn Abbas (r.a) nəql olunduğuna görə Rəsulullah *(s.ə.s)* belə buyurmuşdur:

*"Beş şey gəlmədən əvvəl bu beş şeyin qədir-qiymətini bilin, onlardan yaxşı istifadə edin. Qocalıq gəlmədən əvvəl gəncliyin, xəstəlik gəlmədən əvvəl sağlamlığın, kasıblıq gəlmədən əvvəl zənginliyin, məşğuliyyətdən əvvəl boş vaxtın və ölüm gəlmədən əvvəl həyatının qədrini bilin və bunların haqqını verin!".*[828]

Əbu Hüreyrə (r.a) rəvayət edildiyinə görə Peyğəmbər *(s.ə.s)* belə buyurdu:

*"Qadınla dörd səbəbdən evlənərlər: Malı, əsil-nəcabəti, gözəlliyi və dindarlığı. Sən dindar olanı seç, yoxsa çətinlik çəkərsən".*[829]

828. Hakim, *Müstədrək*, IV, 306.
829. Buxari, Nikah, 15; Müslim, Rada, 53; Əbu Davud, Nikah, 2; Nəsai, Nikah, 13; İbn Macə, Nikah, 6.

## II. MƏKKƏ VƏ MƏDİNƏ DÖVRÜNDƏKİ TƏBLİĞ METODLARINA ÜMUMİ BAXIŞ

Hz. Peyğəmbər *(s.ə.s)* təbliğ mərhələlərində dəyişən şərtlərə görə fərqli metodlardan istifadə etmişdir. Bu fərqliliyi Məkkə və Mədinə dövrü olaraq ayırmaq daha məqsədəuyğundur. Peyğəmbərliklə başlayan hazırlıq dövrü, kadrlaşma və kütləviləşmə mərhələləri Məkkə dövrü ilə sona çatmamış, eynilə Mədinədə də davam etmişdir. Lakin dövlətləşmə mərhələsi Mədinə dövründə ortaya çıxmış, İslami dövlət məfhumu Mədinədə formalaşmışdır. Bu baxımdan Məkkə və Mədinə dövründəki dəvət metodları bir-birindən fərqlənir.

Təbliğ fəaliyyətində tədriciliyin əhəmiyyətini bilirik. Həmsöhbəti qorxudub uzaqlaşdırmamaq üçün əsasdan başlanmalı, yavaş-yavaş hədəfə doğru hərəkət edilməlidir. Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkə və Mədinə dövrü bunların ən gözəl nümunələri ilə doludur. O, dəvətinə ilk olaraq bütün ilahi dinlərin əsas xüsusiyyəti olan tövhidlə başlamışdır. Məkkədə şirklə mübarizə aparmış, insanları iman əsaslarına dəvət etmiş, hər şeydən daha əvvəl sağlam əqidə formalaşdırmağa çalışmışdır. Bunu edərkən də ifrat və təfritdən tamamilə qaçmışdır. O, gecə qaranlığında ibadət edərkən insanların görmədiyi anda Kəbədə olan bütləri yıxa bilərdi. Lakin Hz. Peyğəmbər *(s.ə.s)* bu kimi davranışlardan hər zaman uzaqlaşmışdır. Çünki bu kimi davranışların dəvətə zərrə qədər faydasının olmayacağını çox yaxşı bilirdi. Halbuki əsas edilməli olan düşüncələrdəki şirki təmizləmək, şirk bataqlığını qurutmaq və onların özlərinin bütləri yıxmasını təmin etmək idi.[830] Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkə dövründə tətbiq etdiyi əsas dəvət metodu budur.

830. M. Məşhur, *Tariqud-Dəavə*, I, 41.

Rəsulullah *(s.ə.s)* bundan əlavə insanları qeyri-əxlaqi davranışlardan qorumuş, qəlblərini təmizləyəcək və Allaha yaxınlaşdıracaq prinsiplər gətirmişdir.[831]

Mədinəyə hicrətdən sonra isə artıq İslama səmimiyyətlə bağlanan, verilən hər əmri yerinə yetirməyə hazır xalq, İslami prinsiplərin tətbiq edildiyi dövlət vardı. Bir çox hökm və qadağalar Mədinə dövründə qoyulmuşdur. Zina, içki, qumar, alış-verişlə əlaqəli qanunlar, nikah, boşama ilə əlaqəli hökmlər, şəri cəzalar Mədinədə nazil olmuş və İslam burada tamamlanmışdır.[832]

Məkkə və Mədinə dövrünün hər ikisində də təbliğ fəaliyyətində mülayimlik əsas meyar olmuşdur. Bu gözəl niyyətə baxmayaraq təbliğə mane olan, iman edənlərə zülm edən, bununla kifayətlənməyərək işgəncə verənlər hər zaman olmuş və olacaqdır. Bu qaçınılmazdır. Hz Adəmdən (ə.s) bu yana haqq olan dəvətin qarşısına hər zaman manelər çıxmışdır. İslam dəvətinin bu kimi manelərə qarşı münasibəti necə olmalıdır? Bu baxımdan Məkkə və Mədinə dövrünün metodları bir-birindən fərqlənir. Məkkədə bu kimi hallar qarşısında Hz. Peyğəmbərə *(s.ə.s)* nazil olan ayələrdə Uca Allah səbri tövsiyə edir,[833] sərt davranışlar qadağan edirdi. Hz. Peyğəmbər də Uca Allahın tövsiyəsinə uyğun olaraq işgəncə altında inildəyən səhabələrinə səbri tövsiyə edir və onlara cənnəti vəd edirdi.[834] Hətta çəkdikləri əzablardan şikayət edən və müşriklərə bəddua etməyini istəyənlərə Hz. Peyğəmbər *(s.ə.s)* hər zaman səbri təlqin etmişdir.

*"Sizdən əvvəl elə insanlar vardı ki, tutulur, əvvəlcədən hazırlanan çuxura basdırılır, sonra bir mişarla başı ortadan ikiyə ayrılırdı. Ancaq bu başına gətirilənlər, onları dinindən əsla döndürə bilmirdi. Yenə elələri vardı ki, dəmir daraqlarla daranır, dərisi soyulurdu. Ancaq bunlar da onları dinindən döndərmirdi".*[835]

831. Qəzali, *Fiqhus-Sira*, s, 98; Həsən İbrahim, *Tarixul-İslam*, I, 172; Saqa, *K. K-nin Dəvət Metodu*, s, 71-73.
832. Həsən İbrahim, *Tarixul-İslam*, I, 173.
833. Ənam, 6/68; Əraf, 7/199; Hicr, 15/85; Nəhl, 16/94; Taha, 20/130, 135.
834. İbn Kəsir, *əl-Bidayə*, III, 58-59.
835. Buxari, *Mənəqibul-Ənsar*, 29.

İbn Abbasdan nəql olunduğuna görə ilk iman edənlərdən Əbdürrəhman ibn Əvf və yoldaşları müşriklərdən gördükləri əzab-əziyyət və həqarətlərdən Hz. Peyğəmbərə *(s.ə.s)* şikayət edərək belə dedi. "Ey Rəsulullah! Biz müşrik olduğumuz zaman izzət içərisindəydik. İslamla şərəfləndik, lakin müşriklər bizi zillətə məhkum etdilər. İcazə ver ki, nə lazımdırsa edək". Hz. Peyğəmbərin *(s.ə.s)* onlara cavabı belə olmuşdur: *"Xeyr! Mən bağışlamaqla əmr olundum. Əsla onlarla döyüşməyə çalışmayın".*[836]

İkinci Əqəbə beyəti zamanı İslama könüldən bağlı və canlarını İslam üçün hər an fəda etməyə hazır olanların Məkkə əhalisini qılıncdan keçirmək istəyinə Hz. Peyğəmbərin *(s.ə.s)* cavabı səbir olmuş və hələki müdafiə üçün olsa belə döyüşməklə əmr olunmadığını xatırlatmışdır.[837]

Məkkədə müsəlmanların döyüşməsinə icazə verilməməyinin bəzi hikmətləri vardı. Əvvəla bilindiyi kimi müsəlmanların sayı az və gücləri zəif idi. Əgər döyüşə girsələr dərhal məğlub ola bilərdilər. Bundan əlavə İslam insana dəyər vermiş və hörmət göstərmişdir. Onlara hidayəti təlqin etmiş, haqqa gələnə qədər gözləmiş, bu uğurda işgəncələrə məruz qalanlara da səbri tövsiyə etmişdi. Əks halda döyüş olsaydı Məkkənin hər yanı döyüş meydanına dönər və İslamın arzu etmədiyi qan tökülərdi. Başlanğıcda İslama qarşı çıxanların sonrakı dövrlərdə İslamın səmimi müdafiəçiləri olacağını Uca Allah bilirdi. Əgər döyüş olmuş olsaydı gələcəkdə İslamın müdafiəçisi olacaq bir çox insan öldürüləcəkdi.

Döyüş və düşmənçilik qarşı tərəfin kin və ədavətini artırır, inad və üsyanını asanlaşdırır. Halbuki İslamın məqsədi insanları bir-birinə yaxınlaşdırmaq və insan qazanmaqdır. Döyüşə ancaq çarəsiz qalındığı zaman icazə verilmişdir. Əks halda məsuliyyət iğtişaşa səbəb olana aiddir.

Bu hikmət və səbəblərə görə Məkkə dövründə döyüş əmr edilməmiş, əksinə müsəlmanlara səbir tövsiyə olunmuşdur. Özlərinə edilən işgəncələrə eynilə qarşılıq vermək nadir hal-

836. Nəsai, Cihad, 1.
837. İbn Kəsir, *əl-Bidayə*, III, 164.

larda olmuşdur.[838] Həmin hadisələr də Hz. Peyğəmbərin *(s.ə.s)* icazəsi ilə baş verməmişdir.

Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkə dövrünə nəzər yetirdiyimiz zaman onun baş verənlərə səbirlə yanaşması ilə yanaşı İslamın yayılması üçün müşriklərin himayəsindən istifadə etdiyinə də şahid oluruq. Peyğəmbərliyinin başlanğıcından etibarən on il müddətində iman etməməyinə baxmayaraq əmisi Əbu Talibin himayəsində olduğu hər kəsə məlumdur. Hz. Peyğəmbərə *(s.ə.s)* qarşı qatı düşmənçiliyi ilə bilinən əmisi Əbu Ləhəb belə onu himayə edə biləcəyini söyləmişdir. Hz. Peyğəmbərin *(s.ə.s)* Taif səfərindən sonra Mutim ibn Adiyin himayəsini tələb etdiyini və onun da bu tələbə razı olaraq Hz. Peyğəmbəri *(s.ə.s)* himayə etdiyini bilirik.[839] Bunlardan əlavə Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkəyə həcc və ümrə üçün gələnlərdən *"Qüreyş Rəbbimin mənə verdiyi peyğəmbərliyi təbliğ etməyimə mane olur"*[840] deyərək himayə tələb etdiyinin şahidi oluruq.

Ehtiyac olduğu zaman müşrik belə olsa qeyri-müsəlmanın himayəsinə sığınmaq və kömək istəmək olar. Əlbəttə müşrikərin verdiyi bu himayə və edilən kömək İslam dəvətinə mane olmamalı, dini hökmləri dəyişdimeməli və tətbiqini ortadan qaldırmamışdır. Əgər bu şərt yerinə yetirilməsə qeyri-müsəlmanların köməyini almaq və himayəsinə girmək icazəli olmaz.[841]

Hz. Peyğəmbərə *(s.ə.s)* döyüş icazəsi ancaq Mədinə dövründə verilmişdir. Hicrətdən bir neçə ay sonra döyüşlə əlaqəli ayələr nazil olmuşdur.[842]

838. Baş verən belə bir hadisələrdən birini Səd ibn Əbi Vəqqasın dilindən dinləyək: "Bir il boyu İslamı gizli tutmağa səy göstərdik və namazlarımızı qapıları arxadan kilidləyərək, yaxud da şəhərin ətrafındakı dağların arasında qıldıq. Bir gün Əbu Düb adı verilən bir dağın yamacına getdik, dəstəmaz aldıq və heç kəsin görmədiyindən əmin olduqdan sonra camaatla namaz qıldıq. Ancaq qüreyşlilər bizi axtarırdılar. Əbu Süfyan, Əhnəs ibn Şərik və başqaları yerimizi tapdılar və bizə təhqiramiz ifadələr deməyə başladılar. Nəhayət, aramızda dava çıxdı. Mənə yaxın olan bir dəvə sümüyünü götürüb çox bərk zərbə ilə müşriklərdən birinə vurdum. Onlar qaçmağa başladılar və mən beləcə Allah yolunda qan tökən ilk müsəlman oldum". İbn Hişam, *əs-Siratun-Nəbəviyyə,* I, 166.

839. İbn Kəsir, *əl-Bidayə*, III, 134, 137.

840. Əbu Davud, Sünnə, 20; Tirmizi, Savabul-Quran, 24; İbn Macə, Müqəddimə, 13; Darimi, Fədailul-Quran, 5.

841. Həsən əl-Bənna, *Risalətut-Təalim*, s, 11; Buti, *Fiqhus-Sira*, s, 102.

842. Dərvəzə, *Siratur-Rəsul*, II, 269-270.

Nəticə olaraq deyə bilərik ki, Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkə və Mədinədə təbliğ metodu tədriciliyə riayət edərək İslamı gözəl əxlaqla, hikmət və öyüd-nəsihətlə, usanmadan təbliğ etmək olmuşdur. Gözəl əxlaqi davranışlara anlayış göstərməyən, inad edən, həmçinin təbliğə mane olan və müsəlmanlara işgəncə verənlərə qarşı Məkkə dövründə ancaq səbir və əfv etməklə qarşılıq verilmişdir. Çünki Uca Allah belə edilməsini əmr etmişdir. Mədinə dövründə isə lazım gəldikdə sərt davranışlara müraciət edilmişdir.

Şübhəsiz ki, təbliğ əhli təbliğ fəaliyyətində nə qədər məsafə qət etdiyinin fərqində olmalı və çatdığı mərhələyə uyğun olan təbliğ metodlarını tətbiq etməlidir. Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğində tətbiq etdiyi metodlar təbliğ əhli üçün əsas nümunə olmalıdır. Bu mövzuda belə bir sual verilə bilər. Bizlər Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ mərhələlərindən hansındayıq?

Bir insan təbliğ etdiyi əsaslara əvvəlcə özü inanmalıdır ki, təbliğində müvəffəq ola bilsin. Təbliğ əhlinin dediyi ilə hərəkətləri fərqli olarsa ona heç kim inanmaz. Bunun üçün səmimi təbliğçilər və kadrlar yetişdirilməlidir. Bu səmimi təbliğçilər xalqa xitab edərək ətraflarına onları toplamaq və ideyalarını onlara qəbul etdirmək məcburiyyətindədirlər. Yəni müvəffəqiyyət üçün gərəkli mərhələlərin sırayla təqib və tətbiq edilməsi şərtdir.

Suala cavab olaraq bütün İslam ölkələrinə, öz dövlətimizə, yaxın çevrəmizə və özümüzə baxaq. Hər şeydən əvvəl təbliğ üçün özümüzü hazır hiss edirikmi? İslamın həyata dair hökm və prinsipləri, qeyri-islami fikir və ideologiyaları haqqında yetərli məlumatımız, həmçinin həmsöhbətlərimizin psixologiyasını ayırd edə biləcək qabiliyyətimiz varmı? İslami birlik və bərabərliyə riayət edirikmi? İctimaiyyətlə münasibətlərimiz necədir və onlara İslamı nə qədər təbliğ edirik? İslami cəmiyyət meydana gətirmək üçün nə qədər güc sərf edirik?

Məncə "Məkkə ya Mədinə dövründən hansındayıq?" sualının əvəzinə bütün bu suallar ətrafında diqqətlə düşünməliyik. Bu suallar bizi səmimiyyətlə təbliğ fəaliyyətinə sövq etməlidir. Fərz edək ki, müzakirə etdik və bir nəticəyə gəldik. Məkkə və

ya Mədinə dövründəyik dedik. Bu bizə nə qazandıracaq?! İslam tamamlandıqdan sonra keçid mərhələsidir deyərək Hz. Peyğəmbərin *(s.ə.s)* Məkkə dövrü ilə əlaqəli hökmlərini tətbiq edəcəyik yoxsa İslam haqqında məlumatı olmayan, İslama dəvət edilməyən şəxslərə bunlar qeyri-islami düşüncə və yaşayış sahibidirlər deyərək hərb elan edəcəyik? Xeyr! Bu ideologiya bizə heç bir şey qazandırmaz. Bu, çıxış yolu deyil. Bununla heç bir zaman müvəffəq ola bilmərik. Yol, Rəsulullahın *(s.ə.s)* izlədiyi yoldur. Hər şeydən əvvəl təbliğ əhli mənəvi, fiziki, elmi və maddi olaraq təbliğə hazır olmalı və həmçinin təbliğ həyatı boyu bu hazırlığı kamilləşdirməyə çalışmalıdır. Daha sonra təbliğinə meyl edərək qəbul edənlərdən ibarət kadrlar toplamalı, bu kadrlar vasitəsilə xalqa xitab edərək könüllərini fəth etməyə çalışmalıdır.

Onların arzularının gerçəkləşməsi, ümidlərinin həqiqət olması buna bağlıdır. Şübhəsiz ki, müvəffəqiyyət və hidayət Uca Allahdandır.

### A. Hz. Peyğəmbərdən sonra təbliğ fəaliyyəti

Hz. Peyğəmbərdən *(s.ə.s)* sonra gətirdiyi İslami əsaslar xələfləri tərəfindən davam etdirildi və təbliğ fəaliyyətinə davam edildi. Hz. Peyğəmbərin *(s.ə.s)* ifadə etdiyi kimi qiyamətə qədər haqq üzrə olan və İslami dəvətə davam edən qrup əlbəttə olacaqdır.[843] Bu qrup az və zəif olsa da Allah onların dəvətini bərəkətləndirdi və İslam dünyada yayılmağa müvəffəq oldu. Hz. Peyğəmbərdən *(s.ə.s)* sonrakı dəvəti ölkələrə görə təsnif etmək və necə yayıldığından bəhs etmək mümkümdür. Amma bu çox geniş mövzudur.

#### 1. Hz. Peyğəmbərdən sonrakı təbliğ fəaliyyətlərindəki nöqsanlar

Əməvilərdən bu yana əsrlərdir İslam dəvəti arzu edilən nəticədən məhrum qalmışdır.[844] Fərdi olaraq bəzi şəxslərin və ya qrupların təbliğ fəaliyyəti ilə məşğul olması ümmətin məsu-

843. Buxari, İtisam, 10, Tövhid, 29; Müslim, İman, 247, İmarət, 170-171-173.
844. Mərağİ, *Təfsir*, IV, 29.

liyyətini onların üzərindən götürmək üçün kifayət deyil. Hz. Peyğəmbərdən *(s.ə.s)* bu yana müsəlmanların məsuliyyət daşıdığı təbliğ fəaliyyətində buraxılan nöqsanları bilmək zəruridir. İslami hərəkatda olması gərəkli vəsfləri belə sıralaya bilərik:

Təbliğ üçün ən mühüm mərhələ hazırlıq mərhələsidir. Təbliğ əhli hər an təbliğə hazır olmalıdır. Daha əvvəl ifadə etdiyimiz kimi təbliğçi mənəvi, elmi və fiziki yöndən tərbiyə edilməli, həmçinin lazımi maddi imkanlarla təchiz edilməlidir. Təbliğ fəaliyyəti çətinliklərə sinə gərmək, fədakarlıq, cəsarət və şücaət tələb edir. Təbliğ fəaliyyətinə ancaq səmimiyyətlə İslami dəvətə bağlanan insanlarla başlamaq lazımdır. Belə təbliğçilər yetişdirə bilmək üçün onlarla kiçik yaşdan etibarən məşğul olmaq lazımdır. Təəssüflər olsun ki, Hz. Peyğəmbərdən *(s.ə.s)* sonrakı təbliğ fəaliyyətlərində hazırlığa və təlim-tərbiyəyə lazım olan dəyər verilməmişdir.

Gənc yaşlardan etibarən aparılan təlim-tərbiyə nəticəsində yetişən kadrlar mümtaz sifətlərə malik olacaqdır. Dövrümüzdə İslam aləmindəki ən böyük boşluq cəmiyyətin hiss və duyğularına xitab edəcək səviyyədə kadr və liderlərin olmamasıdır. İslamın səsini dünyaya çatdıran neçə təbliğçimiz var? İslam ölkələrində İslamı təbliğ edən nə qədər təbliğçi görmək mümkündür? İslami hərəkatlar bu boşluğu doldurmağa diqqət göstərmək məcburiyyətindədirlər.

Qabiliyyətli bir liderlə təbliğ fəaliyyətinə başlayan kadrlar hər şeydən əvvəl məqsəd və hədəflərini müəyyən etməlidir. Təbliğ fəaliyyətlərindəki ən böyük xətalardan biri məsələlərə «səthi" yanaşmaqdır. Onlar İslama dəvət fəaliyyətinin əhəmiyyətini kiçildir və dövrün şərtləri ilə uzlaşdırmağa çalışırlar. Halbuki İslama dəvət qeyri-islami hər cür inanc və hərəkətlərdən uzaqlaşaraq İslami həyat yaşamaqdır.

İslam dəvətində tətbiq ediləcək metodlar müəyyən edilməli, həmçinin tətbiq ediləcək mərhələlər bilinməlidir. Zamana, məkan və şərtlərə uyğun hərəkər edə bilmək üçün Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ hərəkatı çox yaxşı bilinməli və ona görə hərəkət edilməlidir. Kütləyə əhəmiyyət vermədən və təbliği onlara çatdırmadan nəticə gözləmək xəyaldır.

Müəyyən hədəf, məqsəd və planı olan İslami hərəkat artıq təbliğ fəaliyyətinə başlaya bilər. İslam hədəfi olmayan heç bir şeyə xoş baxmır. Dünyada İslam dini qədər insanların həyatına yön verən və insan həyatını nizamlayan başqa heç bir sistem yoxdur. Bu baxımdan İslami fəaliyyətlərdə olan nizamsızlıq üzərində durulması lazım olan əskiklikdir.[845]

İslami dəvətin təməl prinsipi «əsasdan başlamaq və tədriciliyə riayət" etməkdir. Bu səbəblə də İslam təbliğçiləri ilk olaraq insanların şübhə içərisində olduqları tövhid əsasını təbliğ etmək məcburiyyətindədir.

İslami dəvət əməli nəzəri bilgilərdən üstün tutmalıdır. İslam sadəcə sözdən ibarət qalmamalıdır. Təbliğ əhlinin sözlərindən çox, birbaşa davranışları təsirə malikdir.

İslami məqsədlər şəxsi istəklərdən üstün tutulmalı, İslami cəmiyyət qurmaq üçün daha çox çalışılmalıdır. Bu xüsusda məqsəd Allahın razılığı olmalıdır. İnsanların alqışları üçün hərəkət edilməməlidir. Təbliğ əhli təvazökar və sadə olmalıdır.

Ən önəmli xüsuslardan biri də İslamdan xəbərləri olmayan bir mühitdə İslamın yayılmasının daha asan olmasıdır.

İslam adına fəaliyyət göstərən bəzi qruplar İslam dəvətinin nəticə əldə edə bilməməsinin səbəblərindəndir. Bir-birindən fərqli metodlarla hərəkət edən bu qruplar öz aralarında uzlaşa bilmədikləri üçün bir-birilərinə bu sahədə köməklik göstərmirlər. Birləşərək nəticə əldə etmək əvəzinə bir-birlərini qınayırlar. Birinin etdiyinə o biri qarşı gəlir. Bu cür mənzərə ilə qarşılaşan insanlar tərəddüd içərisində qalır və onlardan uzaqlaşırlar. Halbuki İslam birlik və bərabəlik dinidir. Şəxsən özləri də bu həqiqəti hər zaman söyləyirlər. Buna baxmayaraq tətbiqatda buna riayət etmirlər. Bu mövzuda ən gözəl davranış şəkli: «İttifaq etdiyimiz xüsuslardaköməkləşməyimiz, ixtilaf olan mövzularda bir-birimizi anlayışla qarşılamaq" prinsipidir.

Əgər qeyd etdiyimiz xüsuslara diqqət edilərsə Uca Allah möminlərə vəd etdiyini yerinə yetirəcək və İslamı müzəffər qılacaqdır. Çünki Uca Allah vədindən əsla dönməz və səmimi

845. F. Yekən, *Müşkilət*, s, 75.

möminlərə hər zaman dəstək olar. Bütün bunlardan əlavə dövrümüzdəki təbliğ əhlinin imkan və vasitələri keçmiş dövrlərə nisbətlə daha genişdir.

### B. Təbliğ fəaliyyətində vasitələr

Təbliğ hərəkatının müvəffəqiyyət qazanmasında təbliğ əhlinin qabiliyyəti ilə yanaşı təbliğdə istifadə etdiyi vasitlərin də rolu və funksiyası var. Buna görə təbliğçi özünü nəticəyə aparacaq və özünə rahatlıq təmin edəcək hər vasitəyə müraciət etməlidir. Bu bölümdə Hz. Peyğəmbərin *(s.ə.s)* istifadə etdiyi təbliğ vasitələrini müxtəsər olaraq qeyd edəcəyik.

### 1. Hz. Peyğəmbərin təbliğ vasitələri

Hz. Peyğəmbərin *(s.ə.s)* təbliğ hərəkatında istifadə etdiyi vasitələri aşağıdakı şəkildə sıralaya bilərik:

1. **Danışıq (ünsiyyət):** Təbliğdə əsas olan sözdür və sözün böyük əhəmiyyəti var. Bu Hz. Peyğəmbərin *(s.ə.s)* dəvətində ən bariz metoddur.[846]

2. **Yazı:** Hz. Peyğəmbər *(s.ə.s)* yazılı dəvət vasitələrindən də istifadə etmişdir. Onun dəvət fəaliyyətində İslama dəvət məktubları göndərdiyini bilirik. Hz. Peyğəmbərin *(s.ə.s)* dövründə Qurani-Kərimin və hədislərin yazılmasını da buna misal verə bilərik.[847]

3. **Maddi vasitələr**: Xeyriyyəçilik fəaliyyətləri də dəvətin bir metodudur. Təbliğ fəaliyyəti üçün infaq və yardım etmək, məscid və məktəblərin tikilməsi, pisliklərin qarşısını almaq üçün müəyyən tədbirlər almaq, şəriətin qoyduğu cəzaların tətbiq edilməsini buna misal verə bilərik.[848]

4. **Nümunəvi yaşayış:** Hz. Peyğəmbər *(s.ə.s)* gözəl əxlaqı ilə sözlərinə uyğun davranış və yaşayını dəvətinə vasitə etmişdir.

---

846. Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 452-463; Bəhi, *Təzkira*, s, 44-45; Qəzali, *Məallah*, s, 306-310; Saqa, *K. K-nin Dəvət Metodu*, s, 116-119.
847. Qəzali, *Məallah*, s, 339.
848. Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 464-467.

Səhabələrinin də buna riayət etməsinə böyük əhəmiyyət vermişdir.[849]

5. **Təbliğdə ixtisaslaşmış möminlər yetişdirmək:** Allah Quranda möminlərin görməsi vacib olan "iş bölmə"sindən belə söz edir:

**"**(Ehtiyac olmadıqda) **möminlərin hamısı birdən** (cihada, döyüşə) **çıxmamalıdır. Barı, hər tayfadan bir dəstə** (elm öyrənmək, sonra da onu dindaşlarına öyrətmək üçün) **qalsın ki, camaatı** (döyüşdən) **qayıtdığı zaman onları** (Allahın əzabı ilə) **qorxutsun. Bəlkə, onlar** (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) **çəkinsinlər!".** (Tövbə, 9/122)

Bütün möminlər təbliğat aparır, mömin camaatı onsuz da eyni zamanda bir təbliğatçı camaatdır. Ancaq Allahın dini üçün ediləcək bir çox iş var və möminlər də bunları bir iş rejimi olaraq daha yaxşı və xeyirli şəkildə yerinə yetirirlər. Təbliğat üçün də yetişmiş, Quranı yaxşı bilən, xitab gücü yüksək olan və yaxşı yazı yazan ixtisaslaşmış möminlərin olması və onların əsasən təbliğat işini aparması da səmərəni və təsiri artırar.

### 2. Dövrümüzdə təbliğ vasitələri

Hz. Peyğəmbərdən *(s.ə.s)* sonra dünya tarixi bir çox inkişafın şahidi olmuşdur. Təbliğ fəaliyyətində istifadə edilməsi gərəkli olan vasitələri belə sıralaya bilərik:

**1. İnformasiya vasitələri:** Sözlü vasitələrə misal olaraq böyük kütlələrə xitab etmək üçün mikrofonların, radio, televizor, telefon, internet, kompüter kimi qurğuları göstərə bilərik. Təbliğ əhli bunlardan təbliğ fəaliyyətində dəvət vasitəsi kimi istifadə edə bilərlər.

**2. Audio və video vasitələr:** Yuxarıda qeyd etdiyimiz qulağa xitab edən qurğulardan əlavə həm gözə, həm də qulağa xitab edən vasitələr var. Bunların insanlara təsiri daha çoxdur. Televizor, kompüter video, maqnitafon, kino, teatrlar bunlara misal verilə bilər. Bəzi İslam alimləri teatr və kinonun İslama

849. Qəzali, *Məallah*, s, 226-305; Ə. Zeydan, *Üsulud-Dəavə*, s, 467-469.

dəvətdə heç bir faydasının olmadığını desələr də[850] gənclər üzərində televizor, telefon, kompüter, internet, teatr və kinonun təsiri inkar edilə bilməz.

**3. Yazılı vasitələr:** Əvvəllər yazılar əl ilə daş, sümük və dəri üzərinə yazılardı. Dövrümüzdə yazı vasitələri çox inkişaf etmişdir. Bu baxımdan yazının dəvətdə rolu böyükdür.[851] Kitab, qəzet, jurnal, elmi məcmuə, məktub və s. yazılı dəvət vasitələrinin dövrümüzdəki növlərindən bəziləridir.

**4. Maddi vasitələr:** Hz. Peyğəmbərin *(s.ə.s)* dövründəki bəsit məscid və məktəblərin əvəzinə dövrümüzdə modern məktəblər, böyük məscidlər İslam dünyasının hər tərəfini doldurmuşdur. Müsəlmanlar bu kimi imkanlara rəğmən bunları dəyərləndirmə səadətindən məhrumdurlar.

**5. Elektron vasitələr:** Müasir günümüzdə daha aktual, daha geniş yayılmış və təsirli olan vasıtıdir. Daha əvvəl zikr etdiyimiz dört vasitəni də özündə cəmləşdirir. Xüsusən gənc nəsilin müraciət etdiyi əsas vasitələrdən olması da onun əhəmiyyətini artırır. Dünyanın istənilən nöqtəsindən heç bir sərhəd tanımadan, anında hər kəsə xitab edə bilmə gücünün olması onu daha da güclü edir. Çox təəssüf ki, bugün bu sahəyə nəzarətin olmaması onun İslam dininin leyhindən daha çox əleyhinə xidmət etdiyini düşünürəm. Bir müsəlman olaraq da burada üzərimizə düşən vəzifə onu doğru yönə dəyişdirməkdir.

**6. Nümunəvi yaşayış:** İslamdan uzaqlaşan toplum içində yetişən təbliğ əhli yuxarıda qeyd edilən vasitələrdən istifadə edərək təbliğ ilə məşğul olmaqla yanaşı nümunəvi yaşayış sahibi olsalar təbliğ fəaliyyətində müvəffəq ola bilərlər. Çox təəssüf ki, dövrümüzdəki təbliğ əhli nümunə ola bilmirlər.

Təbliğ əhlinin əsas vəzifəsi əvvəlcə İslamı öz həyatına tətbiq etmək, sonra başqalarına gözəl nümunə olmaq və hər vəziyyətdə insanlara İslamın gözəlliklərini çatdırmaq olmalıdır.

Səmimiyyətlə edilən hər əməl öz bəhrəsini verəcək və qələbə İslamın olacaqdır.

---

850. Qəzali, *Məallah*, s, 332.
851. Qəzali, *Məallah*, s, 338-339.

## NƏTİCƏ

Allah-Təala insanların dünya və axirət həyatını tənzimləmək üçün peyğəmbərlər göndərmiş, peyğəmbərlər də onlara həvalə edilən təbliğ vəzifəsini tam dolğunluğu ilə yerinə yetirmək üçün böyük səy göstərmiş və mübarizə aparmışlar. Bu çox məsuliyyətli vəzifənin yerinə yetirilməsində onlar məşəqqətlər çəkmiş, dözülməz işgəncə və təhqirlərə belə məruz qalmışlar. Hz. Peyğəmbər *(s.ə.s)* də təbliğ vəzifəsini icra edərkən həddindən artıq sıxıntı və işgəncələrə uğramış, ancaq bütün maneələrə qəhrəmancasına sinə gərərək, son nəfəsinə qədər Allahın dinini insanlara çatdırmaq üçün çalışmışdır. Onun İslam dinini yayması ilə bağlı göstərdiyi şücaət və dəyanəti dillərdə dastandır. Ona etibar edilən əmanəti bəşəriyyətə çatdırmağı qarşısına məqsəd qoyan Hz. Peyğəmbər *(s.ə.s)* təbliğə ən yaxın əhatəsindən başlamışdır. Dəvət etdiyi insanları axirətdə düçar olacaqları əzabdan çəkindirmiş, onları əbədi səadətə çağırmışdır. Asanlaşdırmaq, ümidsizliyə düşürməmək, tədricən və hissə-hissə çatdırmaq, bezdirməmək, hər anı dəyərləndirmək, xüsusən öz yaşayış tərzi ilə insanlara ən gözəl örnək olmaq kimi məsələlər onun təbliğ metodlarının əsasını təşkil edir.

Hz. Peyğəmbərin *(s.ə.s)* dəvət vasitəsi natiqlik məharətinin zirvəsindəki Allahın möcüzəli kəlamı Qurani-Kərimdir. Məhz hər peyğəmbərin özünəxas möcüzələri vardır. Hz. Peyğəmbərin *(s.ə.s)* ən böyük möcüzəsi Qurani-Kərimdir. O insanları bu müqəddəs kitabla xəbərdar edərək küfr qaranlığından iman aydınlığına çıxarmışdır. Belə ki, Allah Rəsulu *(s.ə.s)* təbliğ vasitəsi olaraq bir qrup hissi və xəbəri möcüzələr də göstərmişdir. Amma bu cür möcüzələr «Quran" kimi daimi, davamlı xüsusiyyətə malik deyildir.

Hz. Peyğəmbərin *(s.ə.s)* müxtəlif ölkələrə göndərdiyi məktublar, yetişdirdiyi əshabı və yanına gələn heyətlər də diqqəti çəkən təbliğ vasitələrindəndir. Bunların köməyi ilə Rəsulullah

*(s.ə.s)* bəşəriyyətə mərhəmət və lütf qanadlarını açmışdır. Mübarizəsinə mane olmaq və ya qələbə çalmaq istəyən şər qüvvələri isə təsirsiz hala gətirmiş, bəşəriyyəti onların pisliklərindən xilas etmişdir. Bu gün də müsəlmanların təbliğ vəzifələrinə mühüm əhəmiyyət verməklə Allahın ən son və ən kamil dini olan İslamı dünyamızdakı hər bir insana çatdırması onlar üçün böyük bir məsuliyyətdir.

Dinimiz gətirdiyi prinsiplərlə insanları tərbiyə edərək onları əsl ləyaqətinə, şərəfinə qovuşdurmaq istəmişdir. İnsan doğulduğu gündən tərbiyə edilməyə başlanır və bu, ömrünün sonuna qədər davam edir. Çünki mənəvi tərəqqinin sonu yoxdur. İnkişafı həyata keçirmək üçün daim öyrənmək və öyrəndiyini isə tətbiq edərək yeniləşdirmək lazımdır. Ümumiyyətlə, Hz. Peyğəmbər *(s.ə.s)* əshabını elmlə təlim-tərbiyə etmiş, onun yetişdirdiyi bəxtiyar insanlar da hamı üçün nümunəvi şəxsiyyətlər olmuşlar.

Hz. Peyğəmbər *(s.ə.s)* əhatəsindəki insanları yetişdirərkən gəlişi gözəl üslubdan yox, müəyyən metoddan istifadə etmişdir. Məsələn, o, əshabını incitmədən, təhqir etmədən, sevgi və şəfqətlə pisliklərdən çəkindirib həmişə xeyirə doğru istiqamətləndirmişdir. İnsanların səhvlərini mehribanlıqla, mülayimliklə və inandırmaqla düzəltməyə çalışmışdır. Bilərək və ya bilməyərək səhv edənləri vəziyyətlə bağlı bağışlamış, müdaxilə etmiş, bəzi zamanlarda *"Belə et"* deyərək onlara alternativ yollar göstərmişdir. Həm də belə insanların islah olmaları üçün Rəbbinə dua etmişdir.

İnsanların təlim-tərbiyəsində ailə mühüm yer tutur. Ailə mühitində böyüklərin sözləri ilə davranışlarının ahəngi, kiçiklərin təlim-tərbiyəsində son dərəcə önəmlidir. Yəni uşaqlarına bir sıra pis davranışlardan uzaq olmasını tövsiyə edənlərin özlərinin həmin davranışlardan uzaq olması zəruridir. Ümumiyyətlə, ailələrdə sevgi, hörmət, səmimiyyət, dürüstlük və şəffaflıq kimi hallar, gözəl xarakterli, əxlaqlı insan yetişdirmənin əsasını qoyur. Təlim və tərbiyədə ailə münasibətlərini dəyərləndirmək üçün Allah Rəsulunun nümunəvi həyatına müraciət etmək lazımdır. Hz. Peyğəmbər *(s.ə.s)* ailə münasibətləri ilə

bağlı bütün incəlikləri bilib ümmətinə nəql etmək üçün xanımlarına hər şeyi anlatmaq səlahiyyəti vermişdir.

Hz. Peyğəmbərin *(s.ə.s)* Sünnəsinə müraciət etdikdə onun xanımlarına lazımi sevgi göstərdiyini, onlara son dərəcə dəyər verdiyini və hər sahədə onlara yardım etdiyini görürük. Bunu xanımlara güzəştə getmək yox, bilavasitə ibadət kimi izah etmiş, belə ki, ərinin xanımının ağzına uzatdığı loğmanı belə sədəqə olaraq dəyərləndirmişdir.[852] Yenə gecə yarısı qılacağı nafilə ibadəti üçün xanımından icazə almaq nəzakətini göstərən Allah Rəsulu *(s.ə.s)* bir ata olaraq da övladlarını və nəvələrini məhəbbətlə qucaqlamış, onları həm əyləndirmiş, həm də tərbiyə etmişdir. Təbii ki, bütün bunları edərkən ailə üzvlərini daim əbədi həyata hazırlamaq əzmi və səyini göstərmişdir.

Hz. Peyğəmbəri *(s.ə.s)* ətrafındakı xidmətçilərinə qohum-əqrabalarına, qonşularına və heç vaxt əskik olmayan qonaqlarına ən gözəl münasibət bəsləyərək hamısının qəlbini fəth etmişdir.

Allah Rəsulunun *(s.ə.s)* dövlət və ordu başçısı kimi ağır işlərlə məşğul olması ilə yanaşı, cəmiyyətin kasıb təbəqəsini də heç unutmaması, həmişə qəlbi qırıq, hüznlü insanların yanında olması ibrət götürülməsi vacib olan xüsusiyyətlərindəndir. O, uşaqların, yaşlıların, qadınların, kasıbların, şəhid ailələrinin, üzrlülərin hətta heyvanların da sığınacağı və hamisi olmuşdur.

Qurani-Kərimdə şəxsi və ictimai həyatda təsirini göstərən şəxsi davranış olan, yaxşılıqdan bəhs edilirkən, imandan sonra cəmiyyətlə əlaqəli olaraq bilavasitə kasıb təbəqəyə yönəlmiş yardımlara belə təşviq edilməkdədir: **"Yaxşı əməl heç də** (ibadət vaxtı) **üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba** (Allahın nazil etdiyi bütün ilahi kitablara) **və peyğəmbərlərə inanan, Allaha məhəbbəti yolunda** (vəya mal-dövləti çox sevməsinə baxmayaraq) **malını** (kasıb) **qohum-əqrabaya, yetimlərə, yoxsullara,** (pulu qurtarıb yolda qalan) **müsafirlərə, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də <u>əhd edəndə</u> əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə** (eh-

852. Əhməd ibn Hənbəl, *Müsnəd*, IV, 131, 132

tiyac, yaxud xəstəlik üz verdikdə) **və cihad zamanı** (məşəqqətlərə) **səbr edənlərdir.** (İmanlarında, sözlərində və əməllərində) **doğru olanlar onlardır. Müttəqi olanlar da onlardır!”**. (Bəqərə, 2/177)

Qeyd edilən ayənin təfsirini Rəsulullahın *(s.ə.s)* həyat tərzində görür və başa düşürük. Çünki onun 23 illik peyğəmbərlik həyatı Quranın təfsiri mahiyyətindədir. Onun nümunəvi həyatı olmadan Quranı və İslamı anlayıb yaşamağımız mümkün deyil. Bu səbəblə də Allah-Təala, Hz. Peyğəmbəri *(s.ə.s)* bütün insanlara “Üsveyi-həsənə” olaraq təqdim etməklə yanaşı, ona itaəti özünə göstərilən məhəbbət və itaət olaraq qəbul etməkdədir.

Allahım! Bizə Rəsulunun həyatını ən gözəl şəkildə öyrənməyi və onu özümüzə nümunə götürməyi nəsib eylə! Acizanəliklə təqdim etdiyimiz kitabımızı da bu məqsədin həyata keçməsində bərəkətli və xeyirli bir vasitə kimi qəbul et! Sevimli Peyğəmbərinə misilsiz və şərəflə xidmət göstərməyi bizə lütf eylə! Amin!

## ƏDƏBİYYAT

Alusi, Şihabuddin əs-Seyid Mahmud, *Ruhul-Məanifi-Təfsiril-Quranil-Azim vəs-Səbil-Məsəni*, Cuz, I-XXX, Beyrut, hicri 1353.

Almalılı, Həmdi Yazır, *Haqq Dini Quran Dili*, I-IX, İstanbul, 1971.

Amiri, İmaduddin Yəhya ibn Əbu Bəkir, *Bəhcətul-Məhəfil və Buğyətul-Əməsil fil-Təlhisil-Mucizativəs-Siyərivəş-Şəməil*, I-II, Mədinə, hicri, 1330-1331.

Anar Qurbanov, Fuad Quliyev, *İslam hüquq metodologiyasi*, Bakı, 2007.

Arnold, *İntişari İslam Tarixi*, (Tərc: Xəlil Xalid), Ankara, 1971.

Atar, Fəxrəddin, *İslami Ədliyyə Təşkilatı*, Ankara, 1979.

Buti, Muhamməd Səid Ramazan, *Fiqhus-Sira*, Beyrut, 1978.

Bazarlı, Osman, *Din Tərbiyə və Təhsilində Ümumi Metodlar*, İstanbul, 1967.

Bəlazuri, Əhməd ibn Yəhya, *Ənsabul-Əşraf*, Misir, 1959.

Buxari, Əbu Abdullah Muhamməd ibn İsmail, *Səhihil-Buxari*, I-VIII, y.y, hicri,1315.

Bəhi əl-Huli, *Təzkiratud-Duat*, Dəməşq, 1977.

Beyhəqi, *Şuabul-İman*, I-IX, Beyrut, 1990.

Cubran, Məsud, *Raid*, Beyrut, 1967.

Cubran, Məsud, *əl-Mucəmul-Ərabiyyil-Əsəsi*, Darul-Məşriq, Beyrut, t.y.

Canan, İbrahim, *Hz. Peyğəmbərin Sünnəsində Tərbiyə,* (Dosentlik tezi), Atatürk Universiteti İslami Elmlər Fakultəsi, Ərzurum, 1977.

Canan, İbrahim, Les Methodes de Lenseignement du Prohete Muhammed, (Doktora tezi), Paris, 1972.

Çakan, İsmail Lütfi, *Haqqı Tövsiyə Metod və Vasitələri*, İstanbul, 1976.

Çələbi, *Təlim-Tərbiyə Tarixi*, (Tərc: Əli Yardım), İstanbul, 1976.

Dale Carnegie, *Söz Söyləmək və İş Bacarmaq Sənəti*, (Tərc: Ö. Rıza Doğrul), İstanbul, 1961.

Darimi, Əbu Muhamməd Abdullah ibn Əbdürrəhman, *Sünənud-Darimi*, I-II, Qahirə, 1966.

Domenach, Jean Marie, *Siyasət və Propoganda*, (Tərc: Təhsin Yucəl), İstanbul, 1969.

Diyarbəkri, Hüseyn ibn Muhamməd ibn əl-Həsən, *Tarix-ul-Xamis fil-Əhvəli Ənfəsi Nəfis*, I-II, Misir, hicri, 1283.

Dərvəzə, Muhamməd İzzət, *Siratur-Rəsul*, I-II, Misir, 1965.

D.İ.A, Diyanət İslam Ensiklopediyası, I-XXXXIV, İstanbul, 1988-2013.

Əbdürrəhman Çətin, *Xitabət və İrşad*, İstanbul, 2008.

Əbdül-Kərim Zeydan, *Üsulud-Dəavə*, Bağdad, 1976.

Əbdül-Bədi Saqr, *Keyfə Nədu ən-Nəs*, Qahirə, 1977.

Əbdül-Kərim əl-Xatib, *əl-Xilafətu vəl-İmamə*, Beyrut, 1975.

Əbu Mənsur, Muhamməd ibn Əhməd əl-Əzhəri, *Mucəmul Təhziybi əl-Luğat*, Darul-Mərifə, Beyrut, t.y.

Əbu Davud, *Süleyman ibn Əşas əs-Sicistani*, əs-Sünən, I-IV, y.y, t.y.

Əbu Zəhra, Muhamməd, *İslamda Bəşəri Münasibətlər*, (Tərc: Hüseyn Algül, Osman Şəkərci), İstanbul, 1971.

Əhməd ibn Hənbəl, *Müsnəd*, I-VI, Misir, hicri 1313.

Əhməd Faiz, *Tariqud-Dəavəfi-Ziləlil-Quran*, I-II, Beyrut, 1978.

Ədəvi, Muhamməd Əhməd, *Dəvətur-Rusul İləllahi-Təala*, Misir, 1935.

əl-Bənna, Həsən, *Risalətul-Cihad*, y.y, t.y.

əl-Bənna, Həsən, *Risalətut-Təalim*, y.y, t.y.

əl-Bənna, Həsən, *Allah fil-Əqidətil-İsləmiyyə*, Qahir, t.y.

Əli əl-Müttəqi, *Kənzul-Ummal*, I-XVI, Beyrut, 1985.

Fəthi Yekən, *Müşkilətud-Dəavə vəd-Dəiyə*, y.y, 1974.

Fəthi Yekən, *Keyfə Nədu iləl-İsləm*, Beyrut, 1970.

Firuzəbadi, Məcduddin Muhamməd ibn Yaqub, *əl-Qamusul-Muhit*, I-IV, Beyrut, t.y.

Gustave Le Bon, *Kütlələr Psixologiyası*, (Tərc: Səlahəddin Dəmirkan), İstanbul, 1969.

Hakim, Əbu Abdullah Muhamməd ibn Abdullah ən-Neysəburi, *Müstədrək aləs-Səhiheyn*, I-V, Beyrut, 1990.

Heysəmi, Hafiz Nurəddin Əli ibn Əbi Bəkir, *Məcməuz-Zəvaid və Mənbəul-Fəvaid*, I-X, Beyrut, 1988.

Hələbi, Əli Burhanəddin, *İnsanul-Uyun fi-Siratil-Əminil-Məmun*, I-III, Beyrut, hicri, 1320.

Həcci, Əbdürrəhman Əli, *Nəzəratfi-Dirasətit-Tarixil-İsləmi*, Dəməşq, 1975.

Həmidullah, Muhamməd əl-Heydərəbadi, *İslamda Dövlət İdarəsi*, (Tərc: Kamal Quşcu), İstanbul, 1963.

Həmidullah, Muhamməd əl-Heydərəbadi, *Məcmuatul-Vəsaiqus-Siyasiyyə lil-Əhdin-Nəbəvi vəl-Xiləfətir-Raşidə*, Qahirə, 1956.

Həmidullah, Muhamməd əl-Heydərəbadi, *İslam Peyğəmbəri*, I-II, (Tərc: M. Səid Mutlu, Saleh Tuğ), İstanbul, 1966-1969.

Həmidullah, Muhamməd əl-Heydərəbadi, *Müxtəsər Hədis Tarixi və Səhifəi Həmmam ibn Münəbbih*, (Tərc: Kamal Quşcu), İstanbul, 1967.

Həsən İbrahim Həsən, *Tarixul-İslam*, I-VII, Qahirə, 1964.

Xudari Bek, Muhamməd, *Nurul-Yəqin fi-Sirati Seyyidil-Mursəlin*, Qahirə, 1963.

Xəncərlioğlu, Orxan, *Fəlsəfə Ensiklopediyası*, I-VI, İstanbul, 1976-1979.

Xəncərlioğlu, Orxan, *Fəlsəfə Sözlüyü*, İstanbul, 1970.

İbn Mənzur, Əbul-Fadl Muhamməd ibn Cəlaləddin Əbil-Azm Mukərram ibn Nəcibiddin əl-Əfriqi, *Lisənul-Ərəb*, I-XX, Bulaq, hicri 1300-1307.

İlhan Apak, *Dini Sözlük*, İstanbul, 2001.

İbn Əsir, İzzuddin Əbul-Həsən Əli ibn Əbil-Kəram, *əl-Kəmil fit-Tarix*, I-XIII, Beyrut, 1965-1966.

İbn Sad, Muhamməd, *ət-Təbəqatul-Kubra*, I-IX, Beyrut, 1968.

İbn Macə, Əbu Abdullah Muhamməd ibn Yezid əl-Qəzvini, *Sünənu İbn Macə*, I-II, Beyrut, 1975.

İbn Seyyidin Nəs, *Uyunul-Əsər fi-Fununil-Məğazivəş-Şəməilivəs-Siyər*, I-II, Beyrut, t.y.

İbn Kəsir, Əbul-Fida İsmail, *əl-Bidayəvən-Nihayə*, I-XIV, Beyrut, 1977.

İbn Kəsir, Əbul-Fida İsmail, *Təfsirul-Quranil-Azim*, I-VII, Beyrut, 1966.

İbn Qayyim əl-Cövziyyə, Şəmsuddin Əbu Abdullah Muhamməd ibn Əbi Bəkr, *Zadul-Məad fi Hədyi Xayril-İbəd*, I-IV, Misir, 1970.

İbn Qayyim, əl-Cövziyyə, Şəmsuddin Əbu Abdullah Muhamməd ibn Əbi Bəkr, *ət-Turuqul-Hukmiyyəfi-Siyasətiş-Şəriyyə*, Mədinə, 1970.

İbnul-Cövzi, Əbul-Fərəc, Əbdürrəhman, *əl-Vəfa bi-Əhvəlil-Mustafa*, I-II, Misir, 1966

İbn Hazm, Əbu Muhamməd Əli ibn Əhməd ibn Səid, *Cəvəmius-Sira və Xams Rəsail Uxra,* Misir, t.y

İmaduddin Xəlil, *Dirasə fis-Sira*, Beyrut, 1977.

İbn Hişam, Əbu Muhamməd Əbdül-Məlik, *əs-Siratun-Nəbəviyyə*, I-IV, Misir, 1955.

İbn Xaldun, Əbdürrəhman ibn Muhamməd, *Müqəddimə*, Qahirə, t.y.

İbn Xaldun, Əbdürrəhman ibn Muhamməd, *Tarixu İbn Xaldun*, Beyrut, 1971.

İbn Əsir, Məcduddin Əbus-Səadət əl-Mübarək ibn Muhamməd əl-Cəzəri, *ən-Nihayə fi-Qəribil-Hədisi vəl-Əsər*, I-V, Qahirə, 1965.

İbn Teymiyyə, Şeyxul-islam Təqiyyuddin, *əl-Hisbə fil-İsləm və Vəzifətul-Hukumətil İsləmiyyə*, Dəməşq, 1967.

İbn Əbdil-Bərr, Əbu Ömər Yusuf əl-Qurtubi, *Cəmiu Bəyənil-Elm və Fadlih və məYənbəğifi-rivayətihi və Həmlih*, Qahirə, 1975.

İbn İshaq, Muhamməd ibn İshaq ibn Yəsar, *Sirətu İbn İshaq*, Konya, 1981.

İbn Həcər əl-Əsqalani, Şihabuddin Əhməd ibn Əli, *əl-İsabə fi təmyizis-Səhabə*, Misir, hicri, 1379.

İbn Əsir, Əbul-Həsən Əli ibn Muhamməd, *Üsdul-Ğabə*, I-VII, Qahirə, 1970.

İbn Əbi Şeybə, Əbu Bəkir Abdullah ibn Muhamməd, *Müsənnəf*, I-VII, Heydərəbad, 1976.

Kerch, David-Richard S. Crutchfield, *Sosial Psixologiya və Problemlər*, I, (Tərc: Erol Güngör), İstanbul, 1970.

Kəttani, Əbdül-Hayy, *ət-Təratibul-İdariyyə*, I-II, Beyrut, hicri, 1346.

Qandəhləvi, Muhamməd Yusuf, *Həyatus-Səhabə*, I-IV, Dəməşq, 1969.

Qaraman, Xeyrəddin, *Müqayisəli İslam Hüququ*, İstanbul, 1974.

Qasimi, Muhamməd Cəmaluddin, *Məhasinut-Təvil*, Misir, 1957.

Qəzali, Əbu Həmid Muhamməd ibn Muhamməd, *Fiqhus-Sira*, y.y, 1965.

Qəzali, Əbu Həmid Muhamməd ibn Muhamməd, *Məallah Dirasət fid-Dəvəti vəd-Duat*, Qahirə, 1976.

Qəzali, Əbu Həmid Muhamməd ibn Muhamməd, *İhyayi Ulumid-din*, II, Misir, t.y.

Qurtubi, Əbu Abdullah Muhamməd ibn Əhməd əl-Ənsari, *əl-Cami li-Əhkəmil-Quran*, I-XX, 1967.

Məmmədəliyev Vasif, Bünyadov Ziya, Qurani-Kərim, Bakı, 1997. Muəllim, son cixma tarixi de yazila biler...

Malik ibn Ənəs, *əl-Muvatta*, I-II, Qahirə, 1951.

Mərağİ, Əhməd Mustafa, *Təfsirul-Mərağİ*, I-XXX, Misir, 1962-1966.

Müslim, əl-Həccac, əbul-Hüseyn əl-Quşeyri ən-Neysaburi, *Səhihi-Müslim*, I-V, Misir, 1955.

Mustafa Məşhur, *Min-Fiqhud-DəavəTariqud-Dəavə*, I, Qahirə, 1979.

Muhamməd əs-Seyid əl-Vəkil, *Üsusud-Dəavə və Ədəbud-Duat*, Qahirə, 1976.

Muhamməd Əhməd ər-Rəşid, *Müntəlaq*, Beyrut, 1976.

Muhamməd əl-Xıdr Hüseyn, *əd-Dəvətuiləl-İslah*, Qahirə, Hicri, 1346.

Muhamməd Fuad Əbdül-Bəqi, *əl-Mucəmul-Mufəhrasli-Əlfəzil-Quranil-Kərim*, y.y, t.y.

Nəvəvi, Muhyiddin, *Şərhi Səhihi Müslim*, I-XXVIII, Beyrut, 1972.

Nəsai, Əbu Əbdürrəhman Əhməd ibn Şüeyb, *əs-Sünən*, I-VII, Misir, 1930

Nədvi, Əbul-Həsən əli əl-Həsəni, *ən-Nübuvvə vəl-Ənbiya fil-Dəvil-Quran*, Qahirə, 1965.

Rağib əl-İsfəhani, Əbul-Qasım əl-Hüseyn ibn Muhamməd, *əl-Müfrədat fi-Qaribil-Quran*, Misir, 1961.

Razi, Fəxrəddin, *ət-Təfsirul-Kəbir*, I-XXXII, Misir, t.y.

Rüfət Şirinov, *Hədis Elmi*, Bakı, 2011.

Sabuni, Muhamməd Əli, *ən-Nübuvvə vəl-Ənbiya*, Hələb, 1975.

Saqa Şevki, *Qurani-Kərimdə Dəvət Metodu* (Doktora tezi), Ankara Universiteti İlahiyyat fakultəsi, Ankara 1979.

Seyid Kutub, *ət-Təsvirul Fənni fil-Quran*, Beyrut, t.y

Seyid Sabiq, *Dəvətul-İslam*, Beyrut, 1973.

Seyid Sabiq, *Fiqhus-Sünnə*, II, Beyrut, 1977.

Seyid Şərif əl-Cürcani, *ət-Tarifat*, Qahirə, 1938.

Süyuti, Cəlaludin Əbdürrəhman ibn Əbi Bəkr, *Tarixul-Xuləfa*, Misir, 1969.

Sibai, Mustafa, *Hz. Muhamməd və Həyatı* (İbrətlər-Öyüdlər), (Tərc: Səid Şimşək, Nəzir Dəmircan), Ankara, 1976.

Süheyli, Əbul-Qasım Əbdürrəhman ibn Abdullah ibn Əhməd ibn Əbil-Həsən, *ər-Ravdul-Unuf*, I-IV, Misir, 1971-1973.

Süyuti, Cəlaludin Əbdürrəhman ibn Əbi Bəkr, *əl-Xasaisul-Kubra*, I-III, Misir, 1967.

Sindi, Əbul-Həsən Nuruddin ibn Əbdil-Hədi, *Haşiyətus-Sünənin-Nəsai*, I-IV, Misir, 1930.

Səid Havva, *ər-Rəsul*, I-II, Beyrut, 1973.

Səmhudi, Nuruddin Əli ibn Əhməd əl-Misri, *Vəfəul-Vəfa bi-Əxbəri Dəril-Mustafa*, I-IV, Beyrut, 1971.

Şanvər, Məhməd, *Quranda Təbliğ və Təlim-Tərbiyə Psixologiyası*, İstanbul, 2004.

Şibli Mövlana, *Əsri-Səadət* (*İslam Tarixi*), I-V, (Tərc: Ö. Rıza Doğrul), İstanbul, 1973-1975.

Şirvani Harun Xan, *İslamda Siyasi Düşüncə və İdarə*, (Tərc: Kamal Quşcu), İstanbul, 1965.

Təbəri, Əbu Cəfər Muhamməd ibn Cərir, *Tarixut-Təbəri*, (*Tarixur-Rusul vəl-Muluk*), I-X, Misir, 1968-1969.

Tirmizi, Əbu İsa Muhamməd ibn İsa ibn Sövr, *əs-Sünən*, I-X, y.y, t.y.

Təbəri, Əbu Cəfər Muhamməd ibn Cərir, *Cəmiul-Bəyən ən-Təvili ayil-Qu*ran, (Təfsirut-Təbəri), I-XXX, Misir, 1954.

Uludağ, Süleyman, *İslamda Mürşid və İrşad Fəali*yyəti, İstanbul, 1975.

Vahidi, Əbul-Həsən Əli ibn Əhməd ən-Nişaburi, *Əsbəbun-Nüzul*, Qahirə, 1968.

Vaqidi, Əbu Abdullah Muhamməd ibn Ömər, *Məğazi*, I-III, Beyrut, 1989.

Yaqubi, Əhməd ibn Əbi Yaqub, *Tarix*, I-II, Beyrut, 1960.

Yalçın, Miqdad, *Minhəcud-Dəavəiləl-İsləm fil-Əsril-Hədis*, y.y, 1969.

Zəhəbi, Muhamməd Hüseyn, *Müşkilətud-Dəavəti vəd-Duat*, Qahirə, 1977.

Zürqani, Muhamməd ibn Əbdil-Bəqi ibn Yusuf, *Şərhul-Məvəhibil-Ləduniyyə*, I-VIII, Beyrut, 1973.

# MÜNDƏRİCAT

**GİRİŞ** / 5

**I. TƏBLİĞİN ƏHƏMİYYƏTİ və MƏQSƏDİ**..........................7

**A. Quranda təbliğ və bu mənada işlədilən kəlmələr**.........8

1. Təbliğ ..........................................................................8

2. Dəvət.........................................................................10

3. İrşad .........................................................................13

4. Hidayət.....................................................................13

5. Tövsiyə .....................................................................14

6. Təlim.........................................................................15

7. İnzar .........................................................................15

8. Nəsihət .....................................................................16

**B. Hədisi-şəriflərdə təbliğ**.......................................20

**C. Təbliğə verilən təriflər**.......................................22

**II. TƏBLİĞİN ƏHATƏ DAİRƏSİ** ...............................24

**A. Təbliğin vacibliyi**..................................................25

**B. Təbliğdə metod** .....................................................32

**C. Peyğəmbərlərin nümunəvi xüsusiyyətləri** ...............34

**Ç. Peyğəmbərlərin ortaq təbliğ metodları**..........................36

**D. Peyğəmbərlərə qarşı yönəldilmiş ittihamlar**...............44

**E. Qövmlərin peyğəmbərlərin təbliğinə qarşı müqaviməti**.....................................................51

**Ə. Peyğəmbərlərin təbliğini qəbul etməyənlərin aqibəti** ...............................................60

**III. TƏBLİĞ MƏRHƏLƏLƏRİ** ........ 64
**A. Hz. Peyğəmbərin təbliği** ........ 64
**B. Hz. Peyğəmbərin təbliğə verdiyi əhəmiyyət** ........ 69
1. Hz. Peyğəmbərin İslama təbliğ metodunu nəyə görə öyrənməliyik? ........ 83

**BİRİNCİ BÖLÜM** / 87

**TƏBLİĞ METODUNUN YÖNLƏRİ** ........ 89
**I. TƏBLİĞ MƏRHƏLƏLƏRİ** ........ 90
**A. Təbliğə hazırlıq** ........ 90
1. Mənəvi hazırlıq ........ 95
2. Elmi hazırlıq ........ 98
3. Fiziki hazırlıq ........ 102
4. Maddi hazırlıq ........ 104
**B. Kadrlaşmaq** ........ 105
1. Öz-özünə təbliğ ........ 106
2. Ailə fərdlərinə təbliğ ........ 107
3. Qohum-əqrəbaya təbliğ ........ 109
4. Etibarlı şəxslərə təbliğ ........ 115
5. Darul-Ərkamda edilən təbliğ ........ 117
**C. Kütləviləşmə** ........ 120
1. Açıq təbliğ ........ 120
2. Qəbilələrə təbliğ ........ 122
3. Mədinəlilərin müsəlman olması və beyətlər ........ 124
4. Hicrətdən sonrakı kütləviləşmə fəaliyyətləri ........ 125
5. Dəvətdə Qurani-Kərimin təsiri ........ 126
**Ç. Müəssisələşmək** ........ 139
1. Əqəbə beyətləri və hicrət ........ 139

2. Məscid və azan....................141
3. Sərhəd təyini və əhalinin siyahıya alınması ....................142
4. Konstitusiya və müqavilələr ....................142
5. Cihad və qəzvələr ....................143
6. Hüdeybiyyə müqaviləsi və diplomatik təbliğ....................149
7. İslama dəvət məktubları və elçilər ....................151
8. Gələn heyətlər ....................159
9. Təbük qəzvəsi....................165
10. Vida həcci....................166

**II. RƏSULULLAHIN TƏBLİĞ METODUNUN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ**....................172
**A. Həmsöhbət nöqteyi-nəzərindən**....................172
1. Dəyər vermək....................173
2. Yaxınlaşma vəsiləsi....................176
3. Hisslərə xitab....................178
4. Müştərək nöqtələrdə birləşmək....................182
5. Bəxşiş, hədiyyə, ziyafət və yığıncaqlar....................183
6. Təkrar ....................187
7. İnciklik....................189
8. Təhdid ....................199
9. İfşa, həbs və sürgün etmək....................200
10. Cəzalandırmaq ....................201
11. Kəffarə ....................204
12. Bəddua....................205
13. Möcüzələr ....................207
**B. Təbliğçi nöqteyi-nəzərindən** ....................214
1. Səbir ....................215
2. Ümidvar olmaq ....................224

3.Şəfqət və mərhəmət ....... 227
4. Helm ....... 232
5. İnsan qazanmağa çalışmaq ....... 233
6. Təvazö ....... 235
7. Nümunə olmaq ....... 241
8. Xarici Görünüş ....... 246
11. İnsanın xarakterinə ən çox uyğun gələn və ən təsirli izah metodundan istifadə etmək ....... 249
10. İnsanı fikirləşməyə sövq etmək ....... 250
11. Danışıqlarda istiqamətverici olmaq ....... 251
12. Digər əhəmiyyətli cəhətlər ....... 253
13. Dua ....... 258

**III. HZ. PEYĞƏMBƏRİN TƏBLİĞ METODUNUN SOSİOLOJİ XÜSUSİYYƏTLƏRİ** ....... 263

**A. Təbliğin ictimai yönü** ....... 263

1. Qohum-əqrəba ilə münasibətlər ....... 263
2. Evlilik ....... 265
3. Liderə hörmət ....... 269
4. Yaxşı mühit ....... 272
5. Zaman və məkan ....... 274
6. Məşvərət yeri ....... 276
7. İnsanların çox olduğu yerlərə getmək ....... 277
8. Ziyarət etmək ....... 278
9. Məscid ....... 280
10. Suffə-Məktəb ....... 283
11. Xəbərləşmə və elçilər ....... 284
12. İqtisadi münasibətlər ....... 285

**İKİNCİ BÖLÜM** / 287

**RƏSULULLAHIN TƏLİM-TƏRBİYƏ METODLARI** ........289
**I. TƏBLİĞDƏ METOD VƏ ÜSLUB**........289
**A. Həmsöhbətin vəziyyətini nəzərə almaq**........293
**B. Hər fürsəti dəyərləndirmək**........298
**C. Tədriciliyə riayət etmək**........304
**Ç. Asanlaşdırıb çətinləşdirməmək**........311
**D. Müjdələyib nifrət etdirməmək**........315
**E. İlahi əzaba qarşı xəbərdarlıq etmək**........318
**Ə. Tətbiq edərək öyrətmək**........322
1. Asandan çətinə doğru getmək........325
2. Təmkinli olmaq və usandırmamaq........327
**F. Həmsöhbətə dəyər vermək**........328
1. Həmsöhbətə iltifat etmək........330
2. Həmsöhbətin səviyyəsinə nəzərə almaq........334
3. Həmsöhbətə yaxşılıq etmək........337
4. Sevgi və şəfqət........339
**G. Hadisələrə düzgün yanaşmaq**........342
**Ğ. Qabiliyyətlərin kəşfi**........345
**H. Sual-cavab metodundan istifadə etmək**........349
1. Suallara cavab vermək........349
2. İzah etmək üçün sual vermək........353
3. Sual verəni istiqamətləndirmək........356
4. Sual verənin sualına daha ətraflı cavab vermək........358
5. Hökmü tam ifadə etmək üçün sual soruşandan sualını təkrarlamasını istəmək........358
**X. Təşbeh, təmsil və müqayisə etmək**........359
**I. Danışarkən jest və mimikalardan istifadə etmək**........365

**İ. Mövzuları izah etmək üçün şəkil çəkmək** ..... 368
**K. Nəsihət vermək və hekayə danışmaq** ..... 376
1. Nəsihət vermək ..... 376
2. Qissələr və əvvəlki ümmətlərə aid xəbərlər ..... 378
**Q. Həvəsləndirmək və qorxutmaq (Tərğib və Tərhib)** ..... 385
**L. Xətaları düzəltmək üslubu** ..... 388
1. Mehribanlıq, nəvaziş və mülayimlilik ..... 390
2. Xətalara qarşı səbir və dözüm göstərmək ..... 395
3. Səhv edəni cəmiyyət içərisində utandırmamaq ..... 399
4. Alternativ göstərmək ..... 401
5. Məzəmmət və xəbərdarlıq ..... 404
6. Bağışlamaq ..... 407
7. Mühüm xətaları dərhal düzəltmək ..... 412
8. Həmsöhbəti əqli və məntiqli izahlarla inandırmaq ..... 415
**M. Hz. Peyğəmbərin yetişdirdiyi müəllim və təbliğçilər** ..... 417
**N. Digər medot və üslublar** ..... 423

**II. MƏKKƏ VƏ MƏDİNƏ DÖVRÜNDƏKİ TƏBLİĞ METODLARINA ÜMUMİ BAXIŞ** ..... 429
**A. Hz. Peyğəmbərdən sonra təbliğ fəaliyyəti** ..... 434
1. Hz. Peyğəmbərdən sonrakı təbliğ fəaliyyətlərindəki nöqsanlar ..... 434
**B. Təbliğ fəaliyyətində vasitələr** ..... 437
1. Hz. Peyğəmbərin təbliğ vasitələri ..... 437
2. Dövrümüzdə təbliğ vasitələri ..... 438

**NƏTİCƏ** ..... 440
**ƏDƏBİYYAT** ..... 445